# QƏDİM DÜNYA TARİXİ

## Müqəddimə

Bəşəriyyətin inkişafının ayrı-ayrı dövrlərini qələmə almaqla, tarix elmi ilə məşğul olmaq istəyən hər kəs "Zamanların şahidinə, həqiqətin işığına, keçmişin qasidinə" (Tsitseron) müraciət etmək qərarına gələndə, ilk növbədə öz oxucusuna mənəvi təsir göstərmək tələbatının yaratdığı duyğuya xidmət etmiş olur. Tarixi öyrəndikdə təkcə keçmiş qarşısında baş əymirik, bu həm də bizi gələcəyə istiqamətləndirir, onun tufanlarına, qasırğalarına hazır olmağa, bunları dəf etmək bacarığına yiyələnməyə öyrədir. Qədim insan, əqli inkişafında ciddi dəyişikliklər baş verdiyi andan, tarixi yaratmağa başlamış, onun gələcək nəsillərə bir irs kimi təhvil verilməsi qayğısına qalmışdır. Bu elm digər elmlərdən onunla fərqlənir ki, insan zəkasının və fəaliyyətinin bütün sahələrinə nüfuz edir, ayrı-ayrı dövrləri və mərhələləri müşahidə etdikdə cəmiyyətin mahiyyətinə aid olan hər bir məsələni ayıq təhlil süzgəcindən keçirir, hadisələr filizi içərisindən tarixilik qazana bilən nadir metal dənələrini seçib diqqətə çatdırır. Bu elm heç nəyə biganə qalmır, lakin seçmə qaydasında yanaşır, insan cəmiyyətinə və ideyalarına hadisələrin necə təsir göstərdiyini müşahidə edir, bəşəriyyəti irəli getməyə ilhamlandıran qüvvələri axtarır, onların uğurunun və ya məğlubiyyətinin səbəblərini açıb göstərir. Tarix insan cəmiyyətinin inkişafını izləyən elm olduğu kimi, həm də tarixi təkamülə təkan verən, onun gedişinə, tərəqqi və reqressdən asılı olmayaraq müdaxilə edən şəxsiyyətləri də diqqətdən yayındırmır, əksinə onların təbiətinin mahiyyətini dolğun yaxmalarla təsvir edən canlı portretlər yaratmağa çalışır. Tarix laboratoriyası təkcə siyasi inkişafı deyil, həmçinin sosial, iqtisadi və intellektual məsələləri öz təhlil obyektinə çevirir.

Bütün bunlar tarixin ümumi faydası haqqında müəyyən təsəvvür yaradır. Tarix nə öz qarşısında bizim ruhumuzun dərinliyində yatan həqiqətə aydınlıq gətirmək vəzifəsini qoyan təmiz nəzəri biliklər siyahısına daxil deyildir, nə də faydalılığı üçün isbat tələb edən tətbiqi elmlərə aid deyildir. Qədim insanlarda tarixin praktiki əhəmiyyəti onun dərslərinin həyatda bilavasitə tətbiq edilməsinə əsaslandığı kimi, yeni cəmiyyətlərin mürəkkəb orqanizmində də ondan istifadə zərurətinin əhəmiyyəti heç cür azala bilməz. Əlbəttə,

bu bir qədər bayağı görünərdi ki, guya xalqlar və onların başçıları öz əməllərini ümumi tarix dərsliyi ilə yoxlayırlar və onda öz fəaliyyətləri üçün hansısa göstəriş axtarırlar. Əksinə, çoxları tarixin dərslərinə ən azı biganəliklə yanaşır, anın faydası naminə çox vaxt zamana, əsrə ağır zərbə vurmaqdan, iri miqyaslı qurbanlara gətirib çıxaran cinayətlərdən və xətalardan belə çəkinmirlər. Qana susayanlar, şərə xidmət edənlər heç vaxt öz yanğısını tarix çeşməsinin suyu ilə söndürməyə ehtiyac duymur. Bütün bunlarla yanaşı, keçmiş barədə qalmış əhvalatlar kütləsində məlum tarixi məna yükünü inkar etmək mümkün deyildir. Bu məna keçmişlə yeni qaydalar arasındakı münasibətləri aydınlaşdırmağa kömək edir. Lakin ümumi tarixin necə çatdırılmasından da çox şey asılıdır və uğursuz təsvir və ya vurğu onun ictimai rəyə təsir qüvvəsini azaldır, sanballı nəsihət rolu oynamasına mane olur.

Tarixi qanunların aydınlaşdırılması ictimai həyatın düzgün gedişini pozan qeyri-real nəzəriyyə və cəhdlərə son qoyur, çünki onların əbədi məqsədlərlə ziddiyyət təşkil etdiyini açıb göstərir. Tarix qədim dövrlərdə olduğundan daha geniş və yüksək məna daşıyır, çünki sadəcə nəsihət rolu oynamır və keçmişdən kəsilmiş şəkildə bizə gəlib çatmır, əksinə qarşımızda özündə keçmişi, indini və gələcəyi daima qarşılıqlı əlaqədə görən bütöv həyat orqanizmi kimi meydana çıxır. Hətta ümumi tarix özünün mükəmməl olmayan şəklində belə, bizdə digər hər bir elmdən artıq dərəcədə gerçəklik hissini inkişaf etdirir, insanlara düzgün qiymət vermək məsələsində çox vacib olan ağıllı dözümlülük xüsusiyyətini təlqin edir. Bu elm əxlaqın əbədi, qeyd-şərtsiz başlanğıcı ilə, onun təsvir edilən dövrdəki məhdud başa düşülməsi arasındakı fərqi göstərir. Yalnız belə ölçü ilə ölüb sıradan çıxmış nəsillərin işlərini qiymətləndirmək mümkündür. Tarixçi öz münasibət şkalası hesabına yaxın adamlara canlı məhəbbət hissini keçmişə keçirə bilir, əsrlərlə uzaq keçmişdə yaşamış yad bir insanda öz qardaşını tanımağı bacarır, tarixçi öyrəndiyi hər bir sənəddə həqiqət hərflərini oxumağa müyəssər olur.

Tarix bütün elmlərdən heç də ən populyarı deyildir, bu bilikdə hər adam xüsusi həzz tapa bilmir. Axı həzz hissə aid olduğundan, zəkanın tələbatına az uyğun gəlir. Öz müstəsnalığı ilə seçilən və qürur duyan bu elm cəmiyyətin mərhəmətinə ümid bəsləməməkdə də düzgün hərəkət edir. Lakin bu ölməz elm onu qiymətləndirməyi bacaranlara çox şey verir, adamların intellektual səviyyəsini yüksəltməyə əvəzsiz köməklik göstərir. Burada insan ağlının əhatə etdiyi hər şeyi tapmaq, başlanğıcdan müasir dövrədək onun inkişaf yolunu izləmək mümkündür. Bu sözlər heç də moizə xarakterində qəbul edilməməlidir, biganə olmayan həmsöhbətlə sadəcə fikir mübadiləsidir.

Tarixi öyrənənlər öz oxucularına mənəvi təsir göstərmək kimi qanuni tələbatdan imtina etməməlidirlər. Bu təsirin necə olması isə tarixin ümumən faydası məsələsi ilə əlaqədardır. Tarix heç də nə sırf nəzəri biliklər sırasına daxil deyildir ki, bizim ruhumuzun dərinliyində olan həqiqətə aydınlıq gətirmək vəzifəsini həll etsin, nə də tətbiqi elmlərə aid deyildir ki, onun faydalı olması sübutlar tələb etsin. Tarixin qədim insanlar üçün praktiki əhəmiyyəti onun həyata aid olan dərslərindən birbaşa ibrət götürməyə əsaslanırdısa, yeni cəmiyyətlərin mürəkkəb orqanizmində bu o qədər də əl vermir. Ümumi tarix hadisələri nəql etməsi yolu ilə ictimai rəyə güclü təsir göstərmək iqtidarında da deyildir.

Tarix ali və geniş mənada xalqların və ayrı-ayrı fərdlərin hamısıdır və bizə kəsilib ayrılmış keçmiş kimi deyil, həyatın bütöv orqanizmi kimi gəlib çatır və onun səhifələrində keçmiş, indi və gələcək öz aralarındakı qarşılıqlı əlaqədə mövcud olur. Şiller ölümün böyük barışdırıcı olduğunu qeyd edirdi. Bu sözləri tarix elminə də aid etmək olar. Hər bir tarixi hadisədə bu elm bədbəxtliklərə səbəb olanları yada salır, özü də bu cinayətkarın bütöv xalq, yaxud ayrı-ayrı fərd olmasına fərq qoymur. Bəşəriyyətin həyatının ən biabırçı dövrlərində bizə əsrlərin məsafəsindən görünən və günahı yuyan cəhətlər vardır, müasirlərin məhkəməsi qarşısında onları göz önünə gətirmək mümkündür. Belə baxış hökmlərin ciddi ədalətliliyinə xələl gətirməməlidir, çünki bu münasibət haqq qazandırmağı deyil, başlıca olaraq izah etməyi tələb edir. Aydınlaşdırılan qanunauyğunluq və tarixi şərait müəyyən indulgensiya meylləri təlqin etməyə başlayır.

Girişilən bu işdə dünyanın tarixinə nisbətən qısa, icmal şəklində nəzər salmaq istəyi başlıca yer tutur. Lakin qoyulmuş bu gözə görünməz çərçivə bəzən pozula da bilər, çünki elə dövrlər olmuşdur ki, dünyanın sifətini dəyişən elə hadisələr baş vermişdir ki, onların üstündən səthi keçmək səriştəsizlik sayıla bilərdi. İnsanların öz fəaliyyətləri, yaradıcılıqları və institutları vasitəsilə nail olduqları bilik, insan olmayanların və ya təbii dünyanın müşahidəsi və tədqiqatı nəticəsində əldə edilən biliklərdən əsaslı surətdə fərqlənir. İnsan cəmiyyəti statikliyə yaddır, burada hər şey dəyişir, təkamülə uğrayır, xalqların dünyası tarixin işini insanların yaradıcılıqlarının və onların bilməyə ümid etdikləri şeylərin obyekti kimi formalaşdırır. Tarix insan həyatının və mövcudluğunun dəyərini müəyyən etmək sahəsinə də girişir. XVIII əsrin böyük alman filosofu İmmanuil Kant yazırdı: "...insan tarixinin bütün toru səfehlik və uşaqlığın əbəs inadından və dağıdıcılıq buzundan hörülmüşdür, beləliklə bir adam axırda çətinliklə başa düşür ki, bizim irqimizi hansı ideya

formalaşdırmışdır, bütünlükdə nəyə görə bu ideya öz preroqativası ilə belə öyünür". Ona görə də bəziləri tarixi xaotik elm adlandırır. Belə təsdiq ədalətli deyildir, çünki tarixi proses, qiymətverici nəzərlə baxdıqda həm rasional, həm də əxlaqi cəhətdən qəbul edilən ola bilir.

Tarixçilər insan fəaliyyətlərinin məlumatlarını diqqətlə yenidən qurmaq məqsədini güdür və bununla onların daha dərindən öyrənilməsinə nail olur. Tarixin öyrənilməsi insan həyatını bütövlükdə götürür, sivilizasiyaların siyasi, sosial və mədəni tərəflərini əhatə edir, bu vaxt oxşar və fərqli olan iki əkslik tarazlıqda saxlanır. Tarixi fraqmentlərin toplumundan bəşər sivilizasiyasının uzun və çoxrəngli salnaməsi yaranır.

Tarix öz baxışlarında həm də incəsənətə, rəsm əsərlərinə bənzəyir, biz incəsənət əsərlərindən həzz aldığımız kimi tarixi əhvalatlar da, dəqiqlik dərəcəsindən asılı olmayaraq insanın marağının oyanmasına səbəb olur, tarixdən bəzi insanlar böyük həzz alır. Lakin tarixçilərin keçmiş hadisələrə münasibətləri daim bir mənalı olmur, ümumbəşəri dəyərlərə xidmət edən əhvalatlardan başqa digərləri müasir siyasi gerçəkliyin təsiri altında müxtəlif qaydalarda izah olunur, bəzən onlar məhəbbət və nifrət qütblərində də yer tapırlar. Ona görə də Tatsitin *"sine ira et studio"* - "qəzəbsiz və qərəzsiz" prinsipinin rəhbər tutulmasına nə qədər diqqət yetirilsə də, oxucu hansı hadisənin şərhi ilə və ya hansısa şəxsiyyətə verilən qiymətlə razılaşmaya bilər. Bu oxucunun zövqündən və onun baxışlarının formalaşmasından çox asılıdır. Dünya hadisələrinə qiymət vermək üçün qatı milli düşüncə qalıqlarından azad olub, dünyada baş verən hadisələrə bir dünya vətəndaşı - qədim yunanların ilk dəfə bu məqsədlə ortaya atdıqları "kosmopolit"in sözün əsl mənasındakı nöqteyi-nəzərindən yanaşmaq lazımdır. Bu vaxt biz həqiqətən də okeanı üzməyə hazır olan dənizçi kimi tufanlarla üz-üzə gəlməkdən qorxmayacağıq, axı hansı səyahətə çıxdığımızı anlayırıq və başa düşürük ki, tanış dar cığırı tərk edib, uzun və geniş zaman yoluna çıxırıq. Səfər isə çox şeyi vəd edir.

# FƏSİL 1. BAŞLANĞIC
## Bəşərin yaranmasının alatoranlığı

Dünya tarixinin əhatə etdiyi panoramanı nəzərdən keçirmək üçün insanın yaranması, onun inkişaf etməsi, bəşər cəmiyyətinin, şəhərlərin, dövlətlərin yaranması və inkişafı prosesini hərtərəfli araşdırmaq ehtiyacı yaranır. Yer kürəsini məskunlaşdıran xalqlar ölkələrə, dövlətlərə bölündüyündən onların ilk hərəkatlarından müasir dövrə qədər olan hadisələrə ayrılıqda nüfuz etmək həm çətin, həm də yorucu olduğundan, ümumi inkişaf istiqamətlərinə və prinsiplərinə diqqət yetirmək, tarixin dönüş mərhələlərini nəzərdən keçirmək bəşəriyyətin qət etdiyi uzun yola qiymət verməkdə, onu dərk etməkdə müəyyən köməklik edə bilər.

Bəşər tarixinin erkən fazalarının öyrənilməsi paleontologiya tədqiqatlarına əsaslanır. Bu axtarışlar belə bir qənaətə gəlməyə əsas verir ki, insan icması ilk dəfə Cənubi-Şərqi Afrikada meydana gəlmişdir, başqa sözlə bəşər övladının ilk addım atdığı torpaq Afrika olmuşdur. İnsan əhvalatı bütünlükdə iki milyon illik uzun bir dövrü əhatə edir. Bundan xeyli əvvəl, 10 milyon il yaşı olan hominid ailəsinə mənsub olan meymun növünün Hindistanda miotsen pleystotsen dövründə yaşadığı elmə məlum olmuşdur. İnsana bənzər növ - *Homo erectus* iri beyinli primat olub, şaquli qaydada gəzməklə savannalarda ot yeməklə qidalanırdı. Homo erectus Şimali Afrikada, Çində, Yava adasında da tapılmışdır. Afrikadan bu növ sonrakı milyon il ərzində Şərq yarımkürəsinə yayıldı, oddan istifadə etməyi və nitq vasitəsilə bir-biri ilə əlaqə yaratmağı öyrəndi.

Müasir insanın bilavasitə əcdadları, başlanğıc dövrlərdə demək olar ki, faktiki olaraq heyvanlar kimi yaşayırdılar. Onların quruluşları fiziki cəhətdən gözə çarpan dəyişikliklərə məruz qaldı. Bunlardan ən əsası olan başın formasının və beynin ölçüsünün dəyişilməsi bioloji quruluşun nəcibləşməsi kimi artıq əvvəlki dövrlərdə mövcud idi. Mədəni cəhətdən insanlar inkişaf edərək işlədilən alətləri düzəltməyi öyrəndilər, onlar müxtəlif cür qida toplamaq texnikasından hali idilər, öz uşaqlarının böyütməsini təhlükəsiz etmək üçün sosial tələbatı ödəyən yaşayış yerinə malik oldular. Bütün bunlarla yanaşı, onlar uzun müddət təbiətin mərhəmətinə bel bağlayırdılar. Yalnız m.ə. 7000-ci illər ətrafında bir neçə ərazidə ilk dəfə olaraq kənd təsərrüfatı işləri ilə şüurlu məşğul olmaq təcrübəsi yarandı.

İnsanın təkamülə uğrayan mənşəyi onun fiziki strukturunda və fizioloji fəaliyyətində əks olunur. Bəşərin evolyusiya prosesinin nəticəsi olması onun heç də unikal və birdən yaradılan olmadığını göstərir. İngilis alimi, Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" əsərində tədqiq edilən təkamül prosesi insanın aşağı heyvanlarla əlaqəsi olduğunu göstərir.

İlk ayaq üstə gəzən məxluq növü beyninin iriliyinə və nəhəng çənəsinə görə həm də "Qoz sındıran insan" adlandırılmış və o, 1,8 milyon il əvvəl yaşamışdır. Sonra isə "bacarığa malik olan insan" və ya *Homo habilis* meydana gəlmişdir. Homo habilis indiki insanın birbaşa əcdadı olmaqla "meymunabənzər" növdən daha çox "insanabənzər" idi. 1,6 milyon il əvvəl isə insanın əcdadı olan Homo sapiens və ya "zəkası olan insan" özündən əvvəlki növün yerini tutmuşdur. Homo sapiens dünyada geniş yayılmışdı, Antarktida istisna olmaqla bütün qitələrdə məskunlaşmışdı. Afrika qitəsində çox sayda qazıntılar onların qalıqlarını üzə çıxarmışdır. Homo sapiens-in yaşadığı ən yaxın dövr tarixdən qabaqkı 25 min il əvvəl olmaqla, onların qalığı Avstraliyada tapılmışdır. Şimali Amerikada tapılan nümunənin isə müvafiq olaraq 30 min il yaşda olduğu müəyyən edilmişdir.

"Neondertal" insanlar isə təkamül zəncirini davam etdirərək 40 min il bundan əvvəl meydana gəlmişdir. Anatomik nöqteyi-nəzərdən bu adamlar tam qaydada müasir insana bənzəyirdi. Bu erkən insanlar Amerika və Avstraliyada da məskunlaşmışdılar. Neondertallar bir sıra Avropa ölkələrində, Şimali Afrikada, Orta Şərqdə tapılmışdır. Onlar artıq adam növü kimi qiymətləndirilir, iri heyvanları ovlamağa qadir idilər. Mağara sakinləri olmaqla onlar oddan və daş alətdən istifadə etməyi bacarırdılar. Özlərinə dəridən paltar və ov üçün silah düzəldirdilər.

Mizraq və oxla ov edən ovçular həmin vaxtlarda uçan quşları necə öldürməyi, qarpunla və balıq qarmağı ilə balıq tutmağı öyrəndilər, həm də ov heyvanlarının instinktiv hərəkətlərindən baş çıxarmaqla, onlar sürülərin izləri ilə onları necə tapmaq bacarığına yiyələndilər. O vaxtdan onlar qida kimi hər şeydən çox ova bel bağladıqlarından, heyvan sürüləri ilə birlikdə miqrasiya edirdilər, həm də ehtiyat saxlamaq üçün mümkün olan hər şeyi öldürmək praktikasından da əl çəkdilər. Böyük sayda heyvan öldürüləndə onları icma bayramlarında qızardırdılar, bununla onlar qidanın bölünməsi qaydasına da adət edirdilər.

Maqiya (cadugərlik) və mistitsizm də neondertal insanlardan başlayır. Onlar öz ölülərini səliqə ilə dəfn edirdilər və qəbirdəki cəsədin yanına müəyyən əşyalar qoyurdular. Mağara ayısı da, güman ki onların həyatında mü-

əyyən rol oynayırdı. Qərbi Avropa mağaralarının divarlarında gözəl divar rəsmləri - muralyalar qalmışdır.

Çox minilliklər ərzində neondertallar uğurlu həyat sürən qrup şəklində olmuşdular, lakin arxeoloji qazıntıların məlumatlarından onların izi itmişdir, öz yerlərini onlardan daha yüksəkdə duran, mədəni cəhətdən irəli getmiş və fərqli morfologiyaya malik olan ağıllı qruplara vermişlər. Neondertalların qəflətən yoxa çıxması xəstəliklə əlaqədar olan fəlakətli qırğınla və onların buzlamadan sonra gələn isti iqlimə uyğunlaşa bilmələri ilə, həmçinin daha irəli getmiş ağıllı insanların müdaxiləsi ilə məhv edilməsi və ya yeni qrup tərəfindən onların genetik cəhətdən absorbsiya edilməsi ilə izah olunur.

Bəşər övladının sivilizasiyaya doğru hərəkətinə təbiət də öz təshihlərini edirdi. Miladdan on min il əvvəl ov bayramları nadir hallarda keçirilirdi və ya heç keçirilmirdi. Bunun da sadə bir səbəbi var idi. Ondan əvvəlki 13 min il ərzində "Buz dövrü" mövcud olmuşdur, Avropanın Aralıq dənizi ətrafında və qərbi Asiyada havanın temperaturu xeyli aşağı düşmüşdü, müasir dövrlə müqayisədə yayda orta temperatur 1,5-2 dəfə, qışda isə 8-10 dəfə aşağı idi. Müvafiq qaydada soyuq hava sevən şimal maralı, sığır və vəhşi qabanlar, dağ keçilərinin bəzi növləri, heyvan sürüləri təpələr və vadilərdə dolaşırdılar. Son buzlaşma şimala tərəf uzaqlaşanda, həmin növlər də onlarla birlikdə yerlərini dəyişdilər. Bir sıra insan dəstələri də ov heyvanları ilə birlikdə şimala hərəkət etdi, lakin başqaları öz əvvəlki məskənlərində qaldılar.

Bu hadisə Buzluq dövrü insanlarında, həmin dövr başa çatdıqdan bir neçə min il sonra inqilabi dəyişiklik əmələ gətirdi. İnsanlar qida yığanlardan qida istehsal edənlərə çevrildilər. Təqribən iki milyon ilə yaxın insana bənzər növ və insanlar ot yeməklə öz qida məsələsini həll edirdi, yaxud da ot yeməyi ovçuluqla birləşdirirdi. Ona görə də bitki qidası ilə qidalananlar onun ehtiyatı tükəndiyindən uzun müddət bir yerdə qala bilmirdilər, ovçu olanlar isə sürülərin hərəkəti arxasınca yollanmalı idilər. Lakin "qəflətən" bir sıra insanlar heyvanları əhilləşdirməyə və taxıl yetişdirməyə başladılar, bu da özözlüyündə oturaq həyata keçməyi tələb etdi. Tezliklə icmaların yaşadığı kəndlər yarandı, ticarət inkişaf etdi və oturaq həyat keçirən ərazilərdə əhalinin sayı böyük sürətlə artmağa başladı. Sonra kəndlər şəhərlərə çevrildilər və sivilizasiya yarandı. İnsan tarixi isə əsl sivilizasiyanın meydana gəlməsi və yazılı məlumatlarla başladı.

Bu vaxtlar nitqin inkişafı elə bir görünən iz qoymamışdır, lakin insanlar dildən istifadə etməmişdən mədəni cəhətcə tərəqqi edə bilməzdi. Primitiv cəmiyyətlərdə analar aparıcı rol oynayırdılar. Qadınlar həqiqətən də kişilər

kimi iqtisadi cəhətdən mühüm əhəmiyyət kəsb edirdi, onlar yabanı bitkiləri toplayırdılar. Lakin monoqamiya, ailə nümunələri sonrakı cəmiyyətlərdə də çox ləng qaydada özünə yer tapırdı. İnsanın uşaqlıqdakı asılılığının uzun dövrü, həmçinin xəstəlik və yara almaq risqi bəşər məxluqunu sadə ailə özəyində yaşamaqdan daha çox, daim qrup şəklində, birlikdə yaşamağa məcbur edirdi. Hələ erkən dövrlərdən adamlar emosional və cinsi meyllərin təmiz zərurətlərinə öyrənməli oldu, axı onlar heyvan vəziyyətindən çıxıb, uğurlu sosial qruplar yaratmalı idilər. Lakin bu vaxt bütövlükdə əhali olduqca az idi, hətta ən yaxşı ərazilərdə orta hesabla bir kvadrat kilometrdə bir nəfərdən çox adam yaşamırdı. Məşhur ingilis filosofu Tomas Hobbsun erkən dövrlərdə yaşamış insanların həyatı barədə dediyi "guşənişin, pis, heyvana bənzər və qısa" sözlər bu ağır varlığın mövcudluğunu düzgün təsvir edirdi.

İnsanların qida istehsal edənlərə çevrilməsi kiminsə iradəsi və istəyi ilə deyil, yaranmış məhvedici çətinliklərdən yeganə çıxış yolu kimi seçilmişdi. Buz dövrü başa çatdıqdan sonra böyük ov sürüləri qərbi Asiyanı tərk etmişdi. Dünyanın digər regionlarında da o vaxtlar buna bənzər hadisə baş vermişdi. Yalnız sahil ərazilərində yaşayan xalqlar aclıq çəkmirdilər, çünki buzların əriməsi ilə su səviyyəsi qalxmış və çox miqdarda balıq və dəniz heyvanlarını, su quşlarını ovlamaq imkanı yaranmışdı. Dənizdən aralı olanların isə vəziyyəti acınacaqlı idi. Ümumiyyətlə, ağır həyat şəraiti ilə yanaşı köçəri xalqlarda uşaq doğumu da aşağı idi, uşağın döş südü ilə əmizdirilməsi müddətinin uzadılması da doğumun sayının azalmasına səbəb olurdu. Digər tərəfdən bəzi insan qrupları bitki qidasının və ov heyvanlarının nisbətən az olduğu ərazilərə miqrasiya etdikdən sonra, onlar ov ovlamaq - qida yığmaq kimi köçəri həyat tərzinə qayıtmağa məcbur olurdular. Ona görə də miladdan əvvəlki on minilliyin ilk iki minilliyində bir sıra insanlar İran ərazisində heyvanları əhilləşdirməklə - yəqin ki, bunlar qoyun və keçilər idi, qida istehsal etmək istiqamətində ilk addım atdılar. Bundan da məqsəd təkcə xüsusi qida mənbəyinin asılılığından və bu mənbə də əl verədikdə aclıqdan yaxa qurtarmaq idi. Onlar ov vaxtı ələ keçirdikləri heyvanları tədricən əhilləşdirir və öz ehtiyacları üçün onun ətindən və dırnaqlarından istifadə edirdilər.

Bundan sonra bitki qidasının istehsalı gəldi. Buzluqlar çəkildikdən sonra qərbi Asiyanın içəri ərazilərinə səpələnmiş təpəlik hissələrində yabanı buğda və yabanı arpa bitməyə başladı. Ovçular-yığanlar elə ilk dəfə heyvanları əhilləşdirdikləri dövrlərdə bütün növlərdən olan toxumları yığmağa adət etdilər. Məhsul yetişəndə onun toxumlarını yığıb qurtardıqdan sonra başqa sahəyə keçirdilər. Sonra toxumları una çevirib, quyu anbarlarda taxılı ya unu

saxlayırdılar.

İnsanlar taxıl və digər qida maddələrini yığmaq zəhməti ilə daimi olaraq razılaşmalı oldular. Lakin bəzi illərdə məhsul olduqca qıt olurdu, ona görə də bol məhsul olan illərdə izafi taxıl yığmaq lazım gəlirdi. Adamlar bir də ona diqqət yetirirdilər ki, taxıl ona rəqib olan digər bitkilərdən, yəni alaqlardan qorunanda daha yaxşı böyüyür, həm də torpaq yumşaldıqda, ora düşən toxumlar daha asanlıqla kök atır və nəticədə məhsul artıq olur.

Yaxın Şərqdə bitkiçiliyin on min il əvvəl meydana gəldiyi ehtimal olunur. Bu ərazi və ölkələr Bibliya tarixində əks olunduğuna görə bəzən "Bibliya torpaqları" adlanır. Bu ərazinin dünya tarixində erkən əhəmiyyət kəsb etməsi onunla əlaqədar idi ki, bitkiçiliyi tətbiq etmək üçün burada su təchizatı və iqlim ideal idi. Burada həm də taxılın bir neçə yabanı növü bitirdi.

İlk tam oturaq bitkiçilik barədəki sübutlar Şərqi Anatoliyada, Suriyada, İraq və İranda tapılmışdır və onların yaranma tarixi m.ə. 7500-7000-ci illər hesab olunur. M.ə. 6000-ci illərdən isə bütün Qərbi Asiya regionunda bitkiçilik insanın həyat sürməsi üçün mərkəzi fəaliyyət növü kimi qəbul edildi. Bu dövrün qalıqları Mesopotamiyada və İranda Zaqros dağının alçaq ətəklərindəki mağaralarda aşkara çıxmışdır. Yaz daşqınları Dəclə və Fərat çaylarından buraya çoxlu alluvial torpaq gətirirdi. M.ə. 6-cı minillikdə həmin çayların yuxarı ətraflarında və onların qollarında artıq irriqasiya şəbəkəsi mövcud idi. Kiçik ölçüdə isə irriqasiya m.ə. 7-ci minillikdə Palestinada tətbiq edilmişdi. Sakit çay daşqınlarının bir hissəsi kanallara döndərilir və çaylarla paralel olan bu kanallar geniş sahələri suvarmağa imkan verirdi. Yaxın Şərqin bu su mənbələrinin nə vaxt daşacağını əvvəlcədən müəyyən etmək Nil çayından fərqli olaraq çətin idi.

Bitkiçilik insan üçün təkcə onun yaşamasına xidmət etmirdi. Saxlanan mal-qara üçün bitki qalıqları yem kimi istifadə edilirdi və m.ə. 6-cı minillikdə artıq qaramal və donuz da, qoyun və keçilər kimi ev heyvanları tək saxlanırdı. Bununla yanaşı fermerliklə məşğul olan adamlar həm də ətrafda ov etməklə və qida bitkiləri yığmaqla məşğul olurdu.

Bu dövrdə bitkiçilik təkcə qərbi Asiyada aparıcı fəaliyyət formasına çevrilmədi, bütün dünyaya yayıldı. Kənd təsərrüfatı müstəqil qaydada Çinin üç ərazisində və m.ə. 5-ci minillikdə Amerikanın hər iki qitəsində meydana gəldi. M.ə. 5-ci minilliyin əvvəlində Qərbi Asiyadan bitkiçilik Avropanın cənub-şərq hissəsinə, Balkanlara gəlib çıxdı, bundan 1,5 min il sonra Avropa hüdudlarına və Skandinaviyaya çatdı. Avropada "taxılın kəhrəba dalğaları" mühüm rol oynadı.

## Kəndlərin, ticarətin və müharibənin meydana gəlməsi

Sivilizasiyaya doğru təkamüldə Qərbi Asiyadakı növbəti addım kəndlərin meydana gəlməsi oldu. Kəndlərin yaranması uzun məsafələrlə ticarət aparmaqla və müharibələrin başlanması ilə müşayiət olundu. İnsanın təşkilatlanması forması kimi Qərbi Asiyada kəndlər m.ə. 6500-cü ildən başlayaraq 3500-3000-ci ilə qədər davam etdi. Axırıncı tarixdən isə kəndlər tədricən şəhərlərə çevrildilər. Kəndlər uzaq məsafələrlə aparılan ticarətin meydana gəlməsinə şərait yaratdı, bu da zəruri olaraq müharibənin böyüməsinə səbəb olurdu. İnsan mövcudluğu üçün, bəşər üçün aclıq və xəstəliklə birlikdə müharibə, ən adi aqrar kəndləri yaranandan zəhər rolunu oynadı. Lakin qədim dövrlərdə müharibənin böyüməsi iqtisadiyyatın böyüməsini stimullaşdırdı və sosial mürəkkəblik yaratmasına baxmayaraq, sivilizasiyanın meydana gəlməsinə doğru olan bir addım atılması kimi qiymətləndirilə bilərdi.

Kəndlər bir qayda olaraq qida yığan dəstələrdən böyük, şəhərlərdən kiçik olmaqla, onlarda min nəfərə yaxın adam yaşayırdı. Bəzi kəndlərdə isə bu saydan beş dəfə az sakin var idi. Lakin bu dövrün ən yüksək çağlarında bir kəndin əhalisinin sayı 5 min nəfərdən də çox olurdu və bu sonrakı tipik şəhərdən böyük idi.

Lakin kəndin əhalisinin çoxu oturaq deyildi. Getdikcə sənətkarlıq kəndlərdəki fəaliyyətdə daha mühüm rol oynamağa başladı, bu kənd təsərrüfatından sonra ikinci yerdə olmaqla, əhaliyə böyük səmərəlilik və rahatlıq bəxş edirdi. Əvvəlcə kəndlər bir sıra yeni sənətlərə malik oldular, elə adamlar meydana gəldi ki, onlar tarlada işləmək əvəzinə bütün vaxtlarını sənətkarlığa həsr etdilər. Lakin belələrinin sayı çox deyildi və adamlar əslində sənətkarlıqla tarladakı işi birləşdirirdilər, növbələşdirirdilər.

Kənd sənətkarlığının ən vacib olan sahələri dulusçuluq, toxuculuq, alət və silah düzəltmək idi, bunlardan birinci ikisi oturaq həyatın bilavasitə nəticəsi idi. Lakin sonra adamlar oturaq mövcudluğa keçdikdən sonra onlar ehtiyat toplamaqda da maraqlı oldular. Onlar iri gil qablar düzəldirdilər, lakin bu qablar daşınmaq üçün kövrək idi. Ona görə də bu qablarda taxılı və digər qida maddələrini saxlayırdılar. Bu qablarda həm də su saxlamaq mümkün idi. Toxuculuq isə zənbil toxumaqdan başlayıb, paltar toxumağa keçmişdi. Qoşa zənbillər (xurcunlar) ticarət üçün malları daşımaqda gil qablardan daha səmərəli idi. Toxuculuq üçün isə xammalı ev heyvanına çevrilmiş qoyunlar verirdi. Yun emalatxanaları olan yerlərdə belə paltarlara heyvan dərisindən düzəldilənlərə nisbətən daha çox uyğunlaşıldı. Bəzi köçəri xalqlar isə hələ

min illər keçdikdən sonra heyvan dərilərindən paltar kimi istifadə etmək adətlərini tərgitməmişdilər. Şimalda yaşayan eskimoslar və çukçalar ekstremal hava şəraitinə, sərt şaxtalara görə bu günədək dəridən olan paltarı digər növlərdən üstün tuturlar. 1607-ci ildə Virciniyada ilk ingilis koloniyasına başçılıq etmiş Con Smit isə öz kitabında osmanlı türklərinə əsir düşdükdən sonra, satılaraq indiki Rusiyanın Noqay çöllərində qul kimi işlədiyi dövrü təsvir edərkən, burada yaşayan yerli adamların paltar üçün iki qoyun dərisindən istifadə etdiklərini göstərir, bu dərilərdən biri şalvar əvəzinə ayaqlarına və belinə, digərini isə yuxarıdan bədənlərinə geyinilirdi. Onun təsvir etdiyi dövr b.e. XVI əsrinin sonuna təsadüf edir.

Dulusçuluqdan və toxuculuqdan fərqli olaraq alət və silah düzəldilməsi kəndlər üçün yeni olmasa da, kənd sakinləri onların yeni növlərini qayırmağı öyrəndilər. Bitkiçiliyin inkişafı ilə əlaqədar olaraq iti və möhkəm alətlərə daha çox ehtiyac var idi. Məhsulu biçmək üçün daha iti oraqlar və yeri şumlamaq üçün möhkəm kotanlar lazım idi. Silah isə indi ovdan daha çox müharibə üçün istifadə olunurdu. Qərbi Avropada əridilən mis bütün növlərdən olan qutular, alətlər və silahlar düzəltməyə istifadə olunurdu. Bu kəndlər kiçik mis parçalarını mərkəzi Anatoliyadan 1400-1600 km məsafədən əldə edirdilər, əvvəllər isə iti kəsici alətlər düzəltmək üçün indiki Ermənistan ərazisindən obsidianı nisbətən iki dəfə yaxın olan məsafədən daşıyırdılar. Daşların, metalların, qida maddələrinin ticarəti daha cəld həyata keçirdi və kəndlər dövrünün sonunda bu mallar həm qayıqlarla, həm də quru yolla daşınırdı.

Malı əldə etmək vasitəsi və forması təkcə ticarət deyildi, uğurlu soyğunçuluq daha çox şey əldə etməyə imkan verə bilərdi. Bu isə hökmən qan tökülməsinə gətirib çıxarırdı. Bəşər müharibəsinin nə vaxt başlandığını heç kəs dəqiq bilməsə də, güman edilir ki, ilkin müharibələr kənd sakinlərinin oturaq həyatı ilə bir vaxtda başlamışdır. Məhz buna görədir ki, Qərbi Asiyada geniş tanış olan kəndlər istehkamlanmış kəndlər idi. Gələcəyində olduğu kimi, keçmişində də insanlar vuruşmağı və öldürməyi bacarırdılar. Kəndlərdə soyğunçuluq baş verdiyinə görə kənd sakinləri, qaçmaq əvəzinə öz mülkiyyətlərini qorumaq üçün vuruşmağa qalxırdılar. Onlara tarlalarını da qorumaq lazım gəlirdi, axı buranı onlar təmizləmiş və becərmişdilər. Bir çox kəndlərin sakinləri daha çox mülkiyyət və sərvət ələ keçirmək üçün başqası ilə vuruşmağa başlayırdı.

İstehzalı görünsə də, müharibənin başlanması texnologiyanın və ticarətin tərəqqisinə stimul yaradırdı. İlkin kəndlilər müdafiə ya hücum nöqteyi-nə-

zərindən silah istehsalı texnologiyasını irəli aparırdılar, emalatxanalarda xəncər, döyüş baltaları və nizələr istehsal edirdilər. Bu isə öz növbəsində metallurgiyanın inkişafına yol açırdı, axı daha yaxşı nizə ucları və xəncərlər daşdan və sümükdən deyil, misdən düzəldilirdi, misdən və qalaydan alınan bürünc istehsalı manufakturaları m.ə. 4-cü minilliyin ikinci yarısında yaradılmışdı və bürünc silahlar misdən qayrılanlardan daha yaxşı idi. Bu vaxtdan metal ticarəti də başlandı və yaxşı silah axtarışları, bu silah hətta ölümə və dağıntıya səbəb olsa da, iqtisadi həyatı xeyli inkişaf etdirirdi.

Qərbi Asiyadan fərqli olaraq Avropada vəziyyət bir qədər fərqli idi. Bitkiçilik və mal-qara saxlanması kəndli həyatının iqtisadi əsasları kimi Egey dənizi ətrafı ərazidə m.ə. 7-ci minilliyin sonunda meydana gəlmişdi. Lakin mülayim iqlim Avropanın uzaq hissələrinə 2-3 min il sonra da gəlib çatmamışdı. Asiyanın cənubi-qərbinə nisbətən təsərrüfat əsasında məskunlaşmış həyat Avropada olduqca passiv rol oynayırdı. Əlbəttə ki, atlar Rusiyanın cənubunda, itlər isə Şimali Avropada əhilləşdirilmişdi. Hətta qaramalın ilk dəfə Cənubi-Şərqi Avropada əhilləşdirilməsi güman edilir. Asiyada biçin alətlərindən istifadə edildiyi halda, onlar Avropa qitəsində demək olar ki, yayılmamışdı. Həyatın kəndli yolu ilə təşkili ilk dəfə qitədəki Yunanıstanda və Krit adasında meydana gəldi.

6-cı minilliyin ortasından başlayaraq cənubi Balkanlarda daimi məskunlaşmalar böyüməyə başladı. Burada dulusçuluq inkişaf edirdi, saxsı əşyaların üzü paralel xətlərdən istifadə olunmaqla bəzənirdi. Dunayətrafı kəndliləri həmin ərazilərdəki müasir kəndlərə çox bənzəyən icmalarda yaşayırdılar. Avropada kənd təsərrüfatı iqtisadiyyatının genişlənməsi üç başlıca ərazidə baş verdi. Şərqdə yeni kəndli mülkiyyəti indiki Rumıniyada inkişaf etdi.

4-cü minillik ərzində Dunay kəndlilərinin təsiri ilə Şimali Avropa düzənliyinin ovçu-balıqçı əhalisi bilavasitə cənuba getdi. Kənd təsərrüfatı iqtisadiyyatı Niderlanddan Polşa ətrafına və şimalda isə cənubi Norveçə və orta İsveçə genişləndi.

3-cü minilliyin son əsrlərində və 2-ci minilliyin başlanğıcında Şimali, Mərkəzi və Şərqi Avropada daşdan düzəldilmiş döyüş baltalarından istifadə olunurdu. Qütb zonası Avropasında icmalar ovla, balıq tutmaqla və qida bitkiləri yığmaqla yaşayırdı. Onların mədəniyyəti qalan kəndli xalqlarından tam fərqlənirdi. Onlar sümüklərdən əşyalar hazırlayırdılar. Su itiləri və balıq ovlamaq üçün dəri ilə örtülmüş qayıqlardan istifadə olunurdu. Dəfn qaydaları da fərqli idi, meyit paltar geyinmiş və uzanmış qaydada dəfn olunurdu.

Misirdəki sivilizasiya isə bu torpağın Nil çayı ilə qidalandırılmasının nə-

ticəsi idi. Ölkənin yalnız bir hissəsi çayın daşqınına məruz qaldığından, bura əhalinin yaşayışı üçün qida verirdi. Şərqdə isə geniş səhra ərazisi yerləşirdi. Bu səhralar möhkəm daşların, qiymətli metalların və bir sıra ov heyvanlarının məskəni idi. Düşüncələrdə Misir bir ada kimi idi, digər insan yaşayan torpaqlardan şimalda dəniz, qalan bütün üç tərəfdən isə səhralarla əhatə olunmuşdu. Bununla həm də ölkə müdaxilələrdən qorunurdu və xarici təsirlərdən də ayrı düşmüşdü.

Bu izolyasiya Misirdəki həyatın mühafizəkar, daxilə nüfuz etmək xarakterinə yiyələnməsində heç də az rol oynamamışdı. Misirlilərə görə bu ölkənin tam fərqli olmasına da heç bir şübhə ola bilməzdi. Burada qədim dünyada hər yerdə istifadə edilənlərdən tam fərqli materialların işlədilməsi texnologiyası mövcud idi. Hətta Misir yazısı heroqlif qaydasında olmaqla Misirdə danışılan dilin istifadəsi üçün xüsusi ünsiyyət vasitəsinə yüksəlmişdi və başqa dillərin tələblərinə yaramırdı. Misir xalqı öz ehtiyaclarını ödəmək üçün daxildə kifayət qədər bağlı mədəniyyət yaratmışdı. Başqa ölkələrlə əlaqələrdə nəzakət naminə mixi yazısından və Akkad dilindən istifadə olunurdu.

Misir də qədim Yaxın Şərqin Mesopotamiyası kimi prinsipial sivilizasiyalardan birinin vətəni idi, həm də ən erkən şəhər və ədəbi cəmiyyətlərdən biri idi. Onun qədim İsrailə və qədim Yunanıstana mühüm təsiri olmuşdu, bununla müasir Qərb sivilizasiyasının formalaşmasına köməklik göstərmişdi. Misir həm də Afrika ölkəsi olduğunu ən qədim sivilizasiyasından başlayaraq büruzə vermişdir və digər Afrika mədəniyyətlərinin inkişafına lazımi təsir də göstərmişdir.

Misir sivilizasiyası 3 minillik tarixi əhatə edir, bu dövrün əvvəlində ölkə ilk dəfə birləşməyə nail olmuşdu.

Nil vadisindəki həyat geniş ölçüdə çayın özünü necə aparması ilə müəyyən olunurdu. Suyun qalxması və enməsi ilə, yüksək Nillə aşağı Nil arasındakı dövr Misir ilini təşkil edirdi və Misir əkinçilərinin həyatına bu nəzarət edirdi. Nil gözlənilən kimi davrananda hadisə ümumi xarakter daşıyırdı və həyat normal gedirdi. Daşqın az və ya izafi olanda, özü ilə bədbəxtlik gətirirdi.

Hindistan-Pakistanda  insan fəaliyyətinin ən qədim izlərinə Daş dövründə rast gəlmək olur. Lakin erkən və orta Daş dövründən heç bir hominid qalıqları tapılmamışdır. Yalnız sonrakı Daş dövründə bu qrupların əlamətləri aydın görünür. Belucistanda tanınan ən qədim məskənlər m.ə. 3500-ci ildən keçmişə getmir. Ondan sonrakı nümunələr məskənlərin böyüdüyünü və evlərin daha iri olduğunu göstərir. Yəqin ki, əhali bu vaxtlar artıq xeyli sıxlaş-

mışdı.

İqlim və Belucistan vadilərinin coğrafiyası böyük ölçüdə əkinçiliklə məşğul olmağa imkan verirdi. Əkinçilik sonra qonşu regionlara da yayıldı. M.ə. 4-cü minilliyin sonunda İnd düzənliklərində şərqə doğru hərəkət başladı. İlk dövrlərdə yaşayış məskənləri ətrafında onları adamlardan və heyvanlardan qorumaq üçün divalar tikilirdi. Baş şəhər olan Harappadan əvvəlki Amrinin tutulması m.ə. 3000-2300 illərə təsadüf edir.

Amri İnd çayının daşdığı düzənliklərdə nəhəng bitkiçilik potensialına malik idi. Burada qida maddələri istehsalı onunla məşğul olanlardan minimum bacarıq, zəhmət və alətlər tələb edirdi. Amrinin şimalında m.ə. 2600-cı ilə yaxın bənzər məskənlər salınmışdı. Bu yəqin ki, çaydan 30 mil aralı olan digər baş şəhər Mohenco-daro idi və sonrakı Harappa şəhərindən 300 mil aralıda yerləşirdi. Harappadan əvvəlki başqa bir məskən indi qurumuş Sarasvati çayının sahilində, Racastanın şimalındakı Kalibanqanda salınmışdı. Burada çay kərpicdən olan evlər onları dövrəyə alan geniş kərpic divarların arasında qalırdı. Lakin bu evlər Hindistan sivilizasiyasına məxsus olan tarazlıq mərkəzinə malik deyildi, kərpiclər də fərqli ölçülərdə idi. Amridə başlanğıcdan mis əşyalardan istifadə olunurdu, lakin onlar az idi, iti daş alətlər sənətkarlığı müntəzəm xarakter daşıyırdı. Taxılı döymək üçün əl kirkirələrindən istifadə olunurdu. Şimali Belucistanda rənglənmiş dulusçuluq malları istehsal olunurdu. Amridə bəzi əşyalar həndəsi nümunələrə meyl edirdi.

İnd çayı sistemindən şərqdə əkinçilərin və çobanların məskənləri yaranmışdı. Sonrakı Daş dövrünün ovçu qrupları bütün Hindistan-Pakistana yayılmışdı. Bəzi mülahizələrə görə bu hərəkat birbaşa İrandan gəlirdi. Hindistanın fərqli xüsusiyyətlərindən biri qonşu ərazilərdə müxtəlif mədəni səviyyələrə malik olan qrupların dinc yanaşı yaşaması idi.

3-cü minilliyin başlanğıcında indiki İnd çayı deltası regionunda əkinçilik məskənlərinin dramatik genişlənməsi baş verdi. Bircə Kalibanqan məskəninin ölçüləri 240 metrdən 180 metr arasında idi. Bu onu göstərir ki, həmin dövrdə əhali sürətlə artmağa başlamışdı. Bu əsrlər urbanizasiyanın başlanğıc dövrü kimi qəbul edilə bilər. Mohenco-daro, Harappa və Çanhu-daro qazıntıları bu mülahizəni təsdiq edir. Bəziləri bunu, Mesopotamiya məlumatlarına əsaslanaraq kənardan daxil olan immiqrasiya ilə izah edirlər. Harappa mədəniyyəti heç də Mesopotamiya ilə ticarətin meydana gəlməsinə borclu deyildir. Əlbəttə Akkad çarı Sarqonun dövründə (m.ə. 2334-2279-cü illər) görünməmiş xarici əlaqələr qurulmuşdu. Lakin, İnd çayı vadisinin daxilindəki mədəniyyət artıq öz iqtisadi potensialına və artan əhalisinə əsaslanırdı.

İnd çayının daşmasından istifadə ənənəvi xarakter daşıyırdı. Burada hətta şumlamadan, peyin vermədən və başlıca olaraq, irriqasiyadan istifadə etmədən taxıl yetişdirilirdi. Daşqın çəkilən kimi su basmış torpağa dənli bitkilər səpilirdi və mart ya aprel ayında məhsul biçilirdi. Bəzi bitkilər isə daşqının başlanğıcında su basmayan və bəndlə qorunan tarlalarda səpilirdi ki, onlar böyümə dövründə su ilə təmin edilsinlər və payızda biçilsinlər. İnd çayı vadisində üç növ buğdanın becərildiyi, həmçinin üç növ arpadan istifadə edildiyi aşkar edilmişdir. Harappa dövründə isə Qucaratda düyü istehsal edilirdi. Bu dövrdə xurma, yemiş, çöl noxudu digər ərzaq növlərini təşkil edirdi.

Ev heyvanlarına isə küyənli qaramal, az yayılan camış, qoyun, keçi və hind donuzu aid idi. Bəzi cəngəllik quşları əhilləşdirilmişdi, həmçinin it və pişik saxlanırdı. Ata çox nadir hallarda rast gəlinirdi.

İnd sivilizasiyası tam fərqli idi. Onların divarları və tikililəri Mesopotamiyada olduğu kimi günəşin istisi ilə qurudulmuş kərpicdən deyil, bişirilmiş kərpicdən inşa edilirdi. Drenaj sistemləri o vaxtlar üçün haradasa tapılan bütün sistemlərdən üstün idi. Yazı üslubu o qədər çətin idi ki, onları indiyədək oxumaq mümkün olmamışdır. Mesopotamiya və Misir tərəqqilərindən fərqli olaraq İnd vadisində evolyusiya və dəyişiklik əlamətləri demək olar ki, yoxdur. Mohenco-daro və Harappa sakinləri elə bil ki, əsrlərlə monoton həyat sürmüşlər, öz əcdadlarının yolunu təkrar etmişlər. Onların həyatı yalnız çayların daşmaları ilə fasiləyə məruz qalırdı, daşqınlar onları müəyyən vaxt keçdikdən sonra evlərin standart nümunələrini yenidən tikməyə məcbur edirdi. M.ə. 2000-ci ildən sonra tikilən kasıb binalar tənəzzül əlamətlərini göstərir. Sonra məhv olma gəldi və İnd vadisinin özündə sivilizasiyaya son qoyuldu. Bu fəlakət m.ə. ikinci minilliyin ortasına yaxın baş verdi və bu ümumilikdə sonralar arilər və ya nəciblər adlanan xalqların müdaxilələri ilə bağlı idi. Onlar hind-avropa dili olan sanskritdə danışırdılar. Sonrakı Hindistanın sosial və dini nümunələri arilərin gətirdikləri ideyalara və İnd sivilizasiyasının süqutundan sonra salamat qalmış adətlərə əsaslanırdı.

İnd çayı sivilizasiyanın kulminasiya dövrü sürətli inkişafla əlamətdardır. Mesopotamiya sivilizasiyası ilə birbaşa əlaqə bu inkişafı sürətləndirirdi. Lakin prosesin özü yerli xarakter daşıyırdı. Hind sivilizasiyası insan həyatının spesifik mühitə ən dəqiq əlavəsi kimi görünür. Hindistana məxsus olmaqla öz formaları ilə onlar müasir hind mədəniyyətinin də əsasını təşkil edir. Erkən Mohenco-daro bütün sivilizasiyanın episentri kimi qiymətləndirilə bilər. Bundan sonra isə kamil Harappa mədəniyyəti və onu əvəz edən Çanhu-daro mədəniyyəti gəldi. Kamilləşmiş Harappa mədəniyyəti m.ə. 1750-ci ilə qə-

dər mövcud olmaqla beş əsr ömür sürdü.

Çində isə primitiv neolit mədəniyyətindən Yenq-ti regionundakı tədricən oturaq əkinçiliyə keçmək barədəki ilk xəbəri Lin-hsi və Ulan-hada kimi iki məlumatdan öyrənirik. Burada kirkirə daşından və həvəngdəstədən istifadə olunurdu, bunlar da əsasən qranitdən düzəldilirdi. Pleystotsen dövrünün sonunda bu ərazidə lyoss torpaq təbəqələri böyüyürdü. Burada soyuq və yarım dəmyə əkinçilik fazası mövcud idi. Buzlaşma dövründən sonra çay vadiləri və düzənliklər güman ki, bataqlıq torpaqlara çevrildilər.

Honan və Kansu əhalisi m.ə. 2500-ci illərdə kəndlərdə yaşamaqla ovla, qida ehtiyatı yaratmaqla və bitkiçiliklə məşğul olmaqla yanaşı, həm də bacarıqlı dülgərlər və toxucular idi. Onlar yüksək keyfiyyətli keramik əşyalar düzəldirdilər, ümumilikdə sivilizasiyanın yüksək inkişaf standartlarına gəlib çatmışdılar. Bu mədəniyyət qərbi Kansudan şimali Honana qədər geniş yayılmışdı və qədim sakinlər həm də Nei-ninq yaxınlığında və Han çayının sahilində, Huan Ho (Xyanxe) çayının isə şərqə tərəf axınında var idi. Çinin inkişafı Qərbi Asiya və Hindistanın davamı olan bir xəttə düşür.

Çində rənglənmiş məmulatlar meydana çıxır, bu məmulatların yerini tədricən cilalanmış qara məmulatlar tutdu. Rənglənmiş dulusçuluq malları da qara saxsı məmulatlarla əvəz olundu, sonralar isə boz saxsılar meydana gəldi.

Pan-şan fazası üçün daş alətlərin dörd növü xarakterikdir. Bunlar iki növ düzbucaqlı ağır baltalar, düzbucaqlı və trapesiya formalı bıçaqlar idi. Möhkəm daşların kəsilməsi və deşilməsi texnikası tanınmış vazaların rəsmlərindəki təsvir olunanlara bənzəyirdi.

Şansi və Honanda qara məmulatlar rənglənmiş keramika ilə birlikdə işlənirdi. Ancaq bəzi əyalətlərdə qara məmulatlar tapıldığı halda, rəngli keramikanın izi qalmamışdır.

Çin sivilizasiyasının birinci dövrü m.ə. ikinci minillikdə təəccüblü olan sürətli inkişaf ilə əlamətdar oldu. Bu era sonrakı ənənəyə görə Şanq sülaləsinə aid edilir. Bürüncdən, atdan, arabadan, buğdadan, yazıdan istifadə və digər yeniliklər bu dövrü xarakterizə edir. Güman ki, Çin də, Hindistan kimi Mesopotamiyaya nisbətən sivilizasiya səviyyəsinə gec gəlmişdi və bir çox cəhətlərə görə Yaxın Şərqin arxasınca gedirdi. Misal üçün, çinlilər heç vaxt yun istehsalı və süd emalı iqtisadiyyatına qalxa bilməmişdi və kotandan istifadənin ilk şəhadəti m.ə. birinci minilliyə təsadüf edir. Lyoss torpaqlardakı Çin əkinçiliyi daim kiçik sahələrin intensiv becərilməsi kimi qalırdı.

Bu erkən Çin sivilizasiyası Huan-Ho (Xyanxe) çayının (bu Sarı çay deməkdir) hövzəsində yerləşirdi. Çayın güclü axını tez-tez onun məhvərini də-

yişdirməklə, Çinin şimalındakı düzənliklərdən keçirdi. Onun hər iki tərəfindən Çenqçou və Anyan sivilizasiyasının izləri tapılmışdır. Çayın əyrisində yerləşən Anyan güman ki, sonuncu Şanqın paytaxtı idi. Əsas binalar və məbədlər ağac sütunlardan tikilmişdi. Bu üslub sonrakı Çində ənənəvi xarakter daşıyırdı, baxmayaraq ki, saray binasının ilk nümunəsi yalnız Han dövründə meydana çıxmışdı. Arxeoloji qazıntılarda tanınan Şanq orakul sümüklərində 2500-3000 heca hərfi nəqş edilmişdir, bunlar standart Çin yazılarının əcdadları hesab olunur. Bu öküz sümükləri və tısbağa çanaqlarında suallar yazılırdı, onlar sındırıldıqda, çatlamanın forması "hə" və ya "yox", "xoşbəxtlik" və ya "bədbəxtlik" cavabını verirdi. Bu sümüklərdə göstərilən ən başlıca allah "ən yuxarı hökmdar" Şanq Ti idi, lakin yerdəki və göydəki digər allahlara da çarın əcdadları kimi sitayiş edilirdi. Şəhadətlər barədə əsas mənbə hökmdarların və onun kübarlarının qəbri idi. Hökmdar tabutda çuxurun mərkəzindəki dəfn otağında basdırılırdı və bu otaq çox sayda naxışlarla, silahlarla, qablarla, itlərlə və qurban verilən qul və nökərlərlə əhatə olunurdu.

İrriqasiyadan o miqdarda istifadə edilirdi ki, bu, düzənliklərin siyasi cəhətdən birləşdirilməsinə şərait yaradırdı. Çin tarixinin bir sıra vaxtlarında cənub-qərbdəki yaylalardan buraya ilk olaraq az sivilizasiyalanmış, lakin qüvvətli adamlar Çou axışmışdılar. Ənənəvi olaraq, beləliklə, Şanq sülaləsi labüd olaraq Çou sülaləsi (m.ə. 1027-256-cı illər) tərəfindən devrildi. Yeni sülalə Egey dünyasındakına və Hindistandakına nisbətən daha böyük dərəcədə erkən həyat quruluşunu davam etdirirdi. Axırıncılar isə kənardan olan təsirə daha açıq idilər. Lakin yalnız Çou erasında Çin sivilizasiyasının tarixi xüsusiyyətləri toplanmağa yaxınlaşdı.

Yaponiya arxipelaqında ilk insanın nə vaxt məskunlaşdığı məlum deyildir. Belə görünür ki, insanlar və onların istehsal etdikləri alətlər Yaponiyaya Asiya qitəsindən gəlmişdi. İndi Koreya və Tsusima boğazları kimi tanınan su yolları ilə adamlar Koreya yarımadasından bura immiqrasiya etmişdilər, digər boğazlarla onlar Şimali Asiyadan da gələ bilərdilər. Burada da insanlar ov etməklə və bitki məhsulları yığmaqla öz həyatlarını təmin etmiş, oddan istifadə etmiş və çuxur tipli evlərdə və ya mağaralarda yaşamışdılar. Lakin paleolit dövrü ilə əlaqədar olan sümük və ya buynuzdan düzəldilmiş sənətkarlıq məmulatı burada tapılmamışdır, həmçinin dulusçuluq barədə də hansısa bilik yox idi.

Keramikdən əvvəlki dövrdə iki neolit mədəniyyəti Yomon və Yadon mədəniyyətləri gəlir. Yomon adı arxipelaqda düzəldilən dulusçuluq əşyalarının adından götürülmüşdür. Yomon keramikası on min il bundan əvvəldə istifa-

də edilirdi. Burada dulusçuluq emalatxanası yüksək inkişaf etmişdi və Yomon mədəniyyəti işləri mürəkkəb formaya malik olmaqla, əl bəzəyi ilə örtülürdü. Yomon mədəniyyəti bütün arxipelaqa yayılmışdı.

Yomon dövrünün adamları başlıca olaraq ovçuluqla və balıq tutmaqla məşğul olur, həmçinin yeməli qozalar və köklər yığırdılar, bu yolla qidalanırdılar. Bu dövrün ortasında böyük məskənlərin meydana gəlməsi ilə bəzi taxıl məhsulları becərilməyə başlandı. Daş baltalardan torpağı qazmaq üçün istifadə edirdilər. Toxuculuq hələ məlum deyildi və paltar heyvan dərisindən və ağac qabığından düzəldilirdi. Bəzək əşyalarına balıq qulağından düzəldilən qolbağılar, daşdan və gildən düzəldilən sırğalar, sümükdən və buynuzdan qayırılan boyunbağılar və saç əşyaları daxil idi. Bu dövrün son hissəsində müəyyən dişlərin çıxarılması və ya rənglənməsi bütün ölkəyə yayıldı, bu yəqin ki, həddi-buluğa çatmaq dərəcəsini nümayiş etdirirdi. Dəfnin ən mühüm cəhətlərindən biri bu idi ki, ölülər yaşadığı komanın yanında qazılmış kiçik çuxurda dəfn edilirdi. Qəbirlərdən çox sayda gil fiqurlar tapılmışdır, onlardan çoxu qadın formasında idi və güman ki, sehrli əşyalar olub primitiv kultla əlaqədar idi.

Yomon mədəniyyətini yaradan insanların yapon kökündən deyil, aynuların əcdadı olduğu güman edilir. Aynular aborigen Qafqaz adamları olmaqla indi Yaponiyanın şimalında, Hokkaydo adasında yaşayırlar. Yomon adamları protoyapon adlandırıla bilərdi və onlar bütün ölkəyə yayılmışdılar. İndiki yapon xalqı Asiya qitəsindən və Cənubi Sakit okean adalarından olan müəyyən qolların qarışığından əmələ gəlmişdi. Ətraf mühitin dəyişilməsi ilə onlar da buna uyğunlaşmışdılar. Dil şəhadətləri isə göstərir ki, xalqın danışdığı dil primitiv Ural-Altay ailəsinə daxildir, Sibirdən keçərək Saxalin və Hokkaydo yolu ilə Yaponiyaya daxil olmuşdu.

Amerika qitələrinə gəldikdə aborigen amerikan hindu mədəniyyəti Cənubi Amerikanın qərbində m.ə. bir neçə min il əvvəl başlayaraq, b.e. XVI əsrində bu ərazilərin ispan işğalçıları tərəfindən tabe edilməsinə qədər dövrdə inkişaf etmiş və çiçəklənmişdir. Böyük sayda hindu əhalisi bu gün Peruda, Boliviyada, Ekvadorda və Kolumbiyada yaşayır.

Andın hindu xalqları heç vaxt yazı dilinə qədər inkişaf etməmişdi. Arxeoloji qazıntılar And sivilizasiyasının proqressinin m.ə. 1-ci minillikdən başladığını sübut edir. Erkən, Orta və Sonrakı xətlər adlanan üç dövr ərzində bu geniş ərazi birləşmişdi və bu geniş yayılmış rəssamlıq üslublarının mövcudluğu ilə nümayiş olunur. Orta (Huari) və Sonrakı (İnka) xətlərində bu rəsmlər hərbi işğalların əlamətləridir.

Keramikdən əvvəlki dövrün sonunda, m.ə. 3500-ci illərdə Peruda sahilin işğalı baş verdi. Mərkəzdə və şimalda isə paxlalı bitkilər, balqabaq, pambıq və çili bibəri yetişdirən xalqlar yaşayırdı, onlar həmçinin dənizdən pambıq sapdan toxunan torlarla, düzəldilmiş qarmaqla balıq tutur, dəniz heyvanlarını toplayır və dəniz məməlilərini ovlayırdılar. Limadan cənubda, Çilkadakı bir qrup qamışdan kümbəzli komalar tikirdilər. Ölülər dəfn ediləndə ikiqat cil palaza və quanako dərisinə bürüdülürdü. M.ə. 3-cü minillikdə qarğıdalı və paxlalı bitkilər becərirdilər, bundan əvvəl isə artıq Auakuço hövzəsində müxtəlif növ balqabaqlar, pambıq, amaranta istehsal edirdilər.

M.ə. 2500-ci ildən sonra, xüsusən sahildə inkişafın sürəti böyüdü. Əhali artdı, çox yerdə daimi məskənlər salındı. M.ə. 2000-ci ildə burada sahildə əhalisi 50-dən 500-ə qədər olan 100 kənd var idi. Əhalinin ümumi sayı isə 50 min nəfərə çatırdı.

Sivilizasiyanın amerikan formaları bütün hallarda təkərdən istifadədə uğursuz olduqlarından ciddi surətdə məhdud idi. Onlar misdən də az istifadə edirdilər və burada yaxşı əhilləşmiş heyvanlar da yox idi. Peruda hətta yazı da yox idi. Bu sivilizasiyanın hansısa parlaq gələcək vəd etməsinə tarixçilər şübhə etməli idilər. Ona görə də Mərkəzi Amerika - Peruda mayyalar və peruvianların inkişaf etmiş sivilizasiyaları yalnız bizim eranın birinci minilliyində mümkün oldu.

## Şəhərlərin və sivilizasiyanın yaranması

Qərbi Asiyada tarixdən əvvəlki dövrün axırıncı başlıca inkişafı şəhərlərin meydana gəlməsi idi. Bu mühüm hadisə m.ə. 3500-3200-cü illərdən öz başlanğıcını götürür. Şəhərlər kəndlərlə müqayisə edildikdə, fərqləri ilə yanaşı, onların kəndlərin inkişafının sonunda meydana çıxdığı məlum olur. Kənddən fərqli olaraq şəhərdə məskunlaşan və ev əldə edən əhali çox geniş müxtəliflikdəki məşğuliyyət sahibi idi. Bütün erkən şəhərlər fermerlər tərəfindən məskunlaşırdı, çünki onların ətrafında olan tarlaları da becərmək lazım gəlirdi. Adətən şəhərlərdə həm də az sayda sənətkarlar və tacirlər yaşayırdılar və bu vaxt şəhərlər öz ölçülərini də dəyişirdi. Lakin onlarda məskunlaşan aparıcı şəxsiyyətlər şəhərlə kənd arasındakı fərqi real olaraq müəyyən edirdilər, onlar daimi fəaliyyət göstərən döyüşçülər, inzibatçılar və keşişlər idi.

Şəhərlər kəndləri istismar etmək üçün mövcud idilər. Şəhər əhalisi əvvəlcə həyatı həmin yoldan dəyişdirmək istədilər. Professional döyüşçülər, inzibatçılar və keşişlər olduğuna görə onlar o vaxtdan öz regionlarını hərbi

mənada himayə etməli idilər, regional əmtəə istehsalının çeşidini dəyişdirməli və dualar vasitəsilə allahlarla məsləhətləşməli idilər. Adamlar indi izafi məhsul etməli idilər ki, onlar bazarda satılsın, belə istehsal olmadan adamlar özlərinin digər tələbatlarını ödəyə bilməzdilər. Digər yolun seçilməsi ilə aparıcı şəhərlərin sakinlərini öz cəmiyyətlərini idarə edirdilər, burada yaşayanlar kəndləri özlərinə tabe etdilər, şəhərlərin digər sakinləri də idarə edilənlər idilər.

Qərbi Asiyanın ilk şəhərləri Mesopotamiyada meydana gəlmişdi, bu ərazi Dəclə və Fərat çaylarının aralığı idi və özünün əhali artıqlığı ilə fərqlənirdi. Oturaq həyata keçən insan, əraziləri dolaşan adamlara nisbətən məhsulun daha tez istehsalına meylli idi. Ona görə də kənd sakinləri kənd təsərrüfatında daha çox ərzaq məhsulu istehsal edirdi və bu, insanların doğub törəməsini də çoxaldırdı. Biz bunun başqa, əkinçiliklə məşğul olmayan bir oxşarını Mərkəzi Asiyada görürük. Bu regionda on illərlə dalbadal davam edən əlverişli iqlim görünməmiş otun əmələ gəlməsinə səbəb oldu. İçərisində atların, qaramalın da çətin göründüyü yüksək və sıx ot örtüyü mal-qaranın doğub-törəməsini artırdı, onların sayını görünməmiş qaydada çoxaltdı. Bu həmin ərazidəki insanlar üçün qida ehtiyatının bolluğu demək idi. Bunun nəticəsi kimi, qidadan korluq çəkməyən məhsuldar əhali daha çox uşaq doğmağa başladı və ya doğuşlar arasındakı müddət əvvəlkinə nisbətən xeyli kiçildi. Beləliklə, izafi mal-qara və at sürüsü və əhalinin çoxalmış sayı meydana gəldikdə, ərazi artıq bu artan insan və heyvan kütləsini, istehsalın çoxluğu və intensivliyi ucbatından azalan ərzaq və yemlə təmin edə bilmədiyindən, yeni otlaqlar ələ keçirmək məqsədilə Mərkəzi Asiyadakı insan kütləsinin qərbə doğru hərəkəti başladı, çünki şərqə hərəkət azacıq davam etdikdən sonra dənizlərin sərt üzü ilə qarşılaşmalı idi. Yeni ərazidə də intensiv otarılmanın hesabına otlaqların qida mənbəyi olması imkanı tükənirdi və yenilərini axtarıb tapmaq üçün qərbə doğru daha irəliyə getmək lazım gəlirdi. Buradan da erkən orta əsrlərdən başlayaraq təkrar olunan xalqların iri köçmələri baş verirdi. Otlaq tapılması onlar üçün başlıca məqsəd idi. Orda yürüşləri edildikdə qarşıya çıxan imkanlardan da imtina olunmurdu və onlar yürüşlərə əlavə impulslar verirdi. Belə deyirlər ki, Çingizxan İtil çayının (indiki Volqa çayı) ətrafında bol otlaqlar olduğunu eşitmişdi və onda həmin yerlərə gedib çatmaq arzusu baş qaldırmışdı.

Qərbi Asiyada da izafi əhali artıqlığı şəraitində sağ qalmaq, qida ilə təmin olunmaq üçün adamlar yeni yerlərə hərəkət etməyə möhtac idilər və bu kütlə ilkin əkinçilər idi. Onlar istifadə etdikləri torpaqların münbitliyini tədri-

cən azaldır, taqətdən salırdılar. Çünki onlar əkinçilikdəki dənli bitkiləri başqaları ilə növbələşdirmək kimi və ya digər tipli münbitliyi qoruyub saxlayan texnologiyalardan hali deyildirlər. M.ə. 4000-ci illərdə bu vəziyyət Qərbi Asiyada mövcud oldu, bu vaxtlar İranda və İraqdakı artıq adamlar Dəclə və Fərat çayları arasındakı əvvəllər məskunlaşmamış vadiyə hərəkət etdilər.

Bitkiçiliklə məşğul olan insan üçün iki vacib amil mövcud idi: torpağın münbitliyi və rütubət. Qərbi Asiyanın ilk əkinçiləri təpəlik regionda yerləşmişdilər, burada taxıl əvvəlcədən yabanı şəkildə bitirdi. Bu yerlər o qədər də münbit deyildi və bol rütubət isə yalnız yağan yağışdan alınırdı. Digər tərəfdən Mesopotamiya vadisində torpaqlar çox münbit idi, lakin burada ilin çox hissəsində rütubətlilik olmadığından süni irriqasiya sistemlərinin tətbiqi olmadan məhsul götürmək, əkinçiliklə məşğul olmaq mümkün deyildi. Burada irriqasiya 4-cü minillikdə başlandı, kanallar çəkildi, iki iri çaydan qollar çəkildi və onlar susuz torpaqları suvarmağa imkan verdi. Bu kanalların çəkilməsi və onları təmizləmək üçün çoxlu adam lazım gəlirdi. Bu işlərin görülməsi üçün həm də xeyli ərzaq ehtiyatı yaranmalı idi. Bunlar əvvəlcədən planlaşdırılırdı. İdarə edənlər qabaqcadan necə və harada işləməyi müəyyən etməli və işlərin özünə nəzarət etməli idilər. Bu şəraitə uyğun olaraq cəmiyyət idarə edənlərə və idarə edilənlərə bölünürdü.

Bu məsələlər həm də idarəetməyə və məcburiyyətə yönələn meyl yaratdı və onların həlli hərbi dəstələrin yaradılmasını və ya möhkəmləndirilməsini tələb edirdi. Bu vaxt zorakı gücə daha çox diqqət verildiyindən döyüşdə daha yaxşı qabiliyyət göstərən adam hərbi qüdrətə yiyələnməklə, həm də idarəetmə qüvvəsinə yiyələnirdi. Daimi döyüşçülər inzibatçılara adamları idarə etməkdə və yerli irriqasiya işlərinin aparılmasına nəzarət etməkdə köməklik edirdilər və bu iki sinif təklikdə şəhərləri yarada bilərdilər. Lakin həm də daim bu fəaliyyətlə məşğul olan keşişlər meydana gəldi və onlar şəhərlərin formalaşmasında digər iki qrupa qoşuldu. Əlbəttə, din Mesopotamiyada icad edilməmişdir. Bir neçə min illər əvvəl neondertallar arasında fövqəltəbii qüvvələrə inam yaranmışdı, onlar öz ölülərini ərzaqla birlikdə dəfn edirdilər və Buz dövrünün mağara adamları arasında elələri var idi ki, onların sənəti açıqca sehrli işlər görmək idi. Mesopotamiyada isə daim bu işlə məşğul olan keşişlər meydana gəlmişdi, onlar adamları ritual mərkəzlərinə, məbədlərə cəlb edirdilər.

Kəndlərdə əhalinin sayı yüzlərdən minlərə gəlib çatmışdı, adamlar hətta bir-birini çətinliklə tanıyırdılar. Kənardan olan hücumlar da kəndlilər arasında onların bir-biri ilə dava salması üçün, həm də irriqasiya işlərinin görülmə-

si üçün sosial məcburiyyətin həyata keçirilməsi naminə yaradılan bir əsasın zəruriliyini sübut etdi. Din də bu məsələdə adamları vəcdə gətirirdi.

Şəhərlərin yaranması ilə insanlar elə bir təşkil olunma səhnəsinə qədəm qoydular ki, bu vaxt idarəetmə, sosial və iqtisadi institutlar mürəkkəb cəmiyyətdə qayda yaratmaq, təhlükəsizlik və səmərəliliyi təmin etmək həddi səviyyəsində inkişaf etdilər. Bu da sivilizasiyanın yaranmasından xəbər verirdi. Mesopotamiya m.ə. 3200-ci illər ətrafında "sivilizasiyalaşdı". Burada həmin dövrdə ən azı beş şəhər mövcud idi, onların sakinləri içərisində döyüşçü-idarəedənlər, inzibatçılar və keşişlər var idi. Bu şəhərlərin hamısı monumental məbədlərlə əhatə olunmuşdu, bundan başqa diqqətlə tikilmiş özəl evlər, kommunal emalatxanalar, ictimai anbarlar və iri bazar meydanları var idi.

## İrqin mahiyyəti

Bütün müasir insanlar çarpazlama qaydasında nəsil verdiklərinə görə mahiyyətcə eyni tipə və ya bioloji növə məxsusdurlar. Lakin bu eyniliyə baxmayaraq bəşəriyyət irqlərə bölünür. İrqlər barədə dövriyyədə olan nəzəriyyə insan qruplarını fərqləndirmək üçün çox sayda amillərdən istifadə edir, bunlara başda və bədəndə olan tüklərin rəngi və ölçüsü, qan qrupu və digərləri daxildir. Bu meyarlardan çoxu lakin erkən dövrlərdə işlədilə bilməzdi, çünki həmin zamanlardan yalnız skelet hissələri salamat qalmışdır. Ən yayılmış nişanə olan dərinin rəngi bəşər tarixində çox sonralar qəbul edilmişdi. Bəşəriyyətin ağ dərili hissəsinin içərisində müxtəlif qruplar "irqlər" adlanmağa başlamışdı. Aralıq dənizi torpaqlarında "aralıqdənizlilər" və onlara birləşən tiplər bədəncə gödək olmağa, kiçik başa malik olmağa, saçda cinsi fərqin olmamasına və çox hallarda uzun başlı olmağa meyl edirdi. Bu növlər Afrikadan çıxıb hərəkət edə bilərdilər. Onlardan şimalda "alplı" qolu Mərkəzi Avropadakı dağ silsiləsi boyunda yaşamaqla, erkən vaxtlarda Asiyadan qərbə tərəf atılmışdı. Bu növ gödək, enli sifətli, qara gözlərə və saça malik olmalı idi, onlar həm də dəyirmi başlı idilər. "Aralıqdənizli" növü ilə onlar birləşdikləri yerdə insanlar Dinarik və Armenoid adlanan subnöv kimi meydana çıxdılar. Armenoid növü çox vaxt iri buruna malik olur. Avropanın şimal tərəfindəki adamların çoxu "nordik" xüsusiyyətlərinə malikdir. Onlar uzun, parlaq gözlü, saçlı və uzun başlı olurlar.

Heç yerdə belə növlər nə vaxtsa izolyasiyasız mövcud olmamışlar. Dərinin rənginə və ya başın formasına görə adamlar barədə əvvəlcədən ümumi fikir yürütmək, bioloji irsinin fərqli olmasının onların əqli və ya bədii baxış-

larına və bacarığına da keçməsini düşünmək heç bir fayda vermir. İrqlər arasındakı fərqi vurğulamaq əvəzinə Avropada, Asiyada və Afrikadakı əhalinin içərisində qalxan cəmiyyətlər arasındakı həqiqətən mühüm əhəmiyyət kəsb edən fərqli mədəni münasibətləri və linqvistik qrupları qeyd etmək daha vacibdir. Həyat tərzi və nitq möhkəmlənəndə və bunlar siyasi birləşmə ilə nəticələnəndə, həmin cəmiyyətlərin üzvləri çox vaxt özlərinin təbii olaraq üstün olduqları barədəki bir fikirə düşürdülər. Nilin qədim sakinləri "misirliyə" və "insana" bərabər sayılırdı, bu vaxt çinlilər isə Çinin hüdudlarından kənarda yaşayanların hamısını aşağı adam kimi qiymətləndirirdilər. Təəssüf ki, müasir xalqların çoxu arasında da bu meyl hələ də yoxa çıxmamışdır.

# FƏSİL 2
# MESOPOTAMİYA SİVİLİZASİYASI

M.ə. 3200-ci il ətrafında Şumer kimi tanınan Mesopotamiya regionunda ilk yazı forması icad edildi və o vaxtdan verilən məlumatlar əsasında tarix başlandı. Beləliklə, tam əsasla demək olar ki, tarix Şumerdən başlayır. Burada artıq beş şəhərin həmin vaxtlarda mövcudluğunu yaddan çıxarmamalıyıq. Yazının icad edilməsi ilə qədim mesopotamiyalılar başqa xalqlar arasında daha görkəmli yer tutmaqla, bəşəriyyətin irəliyə doğru hərəkatına xeyli köməklik göstərdilər. Bu xalqlar Mesopotamiya ərazisində təqribən 2700 il yaşamaqda davam etdilər. Məhz onlardan kimsə m.ə. 3000-ci il ətrafında təkəri ixtira etmişdi. Kimsə həmçinin burada təqvimi, başqa birisi vurma və bölmə kimi riyazi əməliyyatları icad etmişdi. Qədim Mesopotamiyanın bu sakinlərlə fəxr etməyə haqqı vardır. Onların bu kəşfləri nisbətən xırda bir ərazidə, bəlkə də o vaxtlar kiçik bir yenilik hesab olunurdusa, bütün dünya və bəşəriyyət üçün sivilizasiyalaşmaqda və onun nailiyyətlərini dərk etmək yolunda nəhəng bir təkan oldu. Qədim Mesopotamiyanın tozlu, isti bir yerdə atdığı kiçik bir addım, bütövlükdə bəşəriyyət üçün ölçüyəsığmaz əhəmiyyət kəsb edərək onun ilk ən böyük addımı hesab oluna bilərdi. Bu ərazidə yaşayanlar arasında həm də dərin mütəfəkkirlər var idi və onlar idrak sahəsində xeyli irəli gedərək ilahiyyatda, hüquqşünaslıqda, astronomiyada xeyli yeniliklər, kəşflər etdilər. Dastan ədəbiyyatı həmin ərazilərdə fikir və ifadənin çox inkişaf etdiyindən xəbər verir.

Mesopotamiya sivilizasiyası ərazisindəki cəmiyyət və mədəniyyət şəhərlərin mövcudluğuna əsaslanırdı. Ona görə də m.ə. 3200-ci illərlə m.ə. 2000-ci illər arasındakı dövr bu ərazinin ən irəli çıxmış hissəsinin adı ilə "Şumer erası" adlanır. Mesopotamiyanın cənub tərəfində yerləşən Şumerin ərazisi Azərbaycanın hazırkı dövlət ərazisindən dörd dəfə kiçik idi. Burada bir sıra müstəqil şəhər-dövlətlər var idi, onlardan daha əhəmiyyətli olanları Uruk, Ur və Laqaş idi. Sonra bütün Şumer m.ə. 2320-ci illərdə Akkaddan olan qüdrətli döyüşçü tərəfindən işğal edildi. Akkad Mesopotamiyanın şimal istiqamətində yerləşirdi. İşğalçının titulu "Sarqon" adlanırdı. Bu isə "həqiqi çar" demək idi, müasirləri isə onu "Böyük Sarqon" adlandırırdılar. Mesopotamiya xronikalarının verdiyi məlumata görə Sarqon otuz dörd döyüşdə qalib gəldikdən sonra Şumerə nəzarəti ələ keçirmişdi. Qələbələr onu "aşağı dəni-

zə" - İran körfəzinə gətirib çıxaranda, mübarizənin sona çatdığı əlaməti kimi o, öz silahlarını buxtanın sularında yudu. Demək olar ki, iki əsrə yaxın Böyük Sarqon sülaləsi Akkad və Şumerdən ibarət imperiyaya ağalıq etdi. Xalq rəvayətlərinə görə, m.ə. 2334-2279-cu illər çarlıq etmiş Sarqon itaətdə olan nəsil mənşəyinə malik olmaqla, öz irəliləməsinə yol açmışdı. Onun atası da məlum deyildi. Anasının orta Fəratdakı şəhərdə keşiş qadın olduğu güman edilir. Sarqon böyüyəndə Kiş şəhəri hökmdarının qədəh daşıyanı olmuşdu. Bu şəhər qədim Şumerin şimalında idi. Uruk hökmdarının məğlub olması hadisəsi onu ali vəzifəyə gətirdi. Həmin hökmdar Şumerin şəhər dövlətlərini artıq birləşdirmişdi, hətta Aralıq dənizi ətrafındakı uzaq qərbə də iddia edirdi. Sarqon bütün cənubi Mesopotamiyanın çarı oldu. Ona semit dili olan Akkad dili uşaqlıqdan məlum idi. Sarqon özünü bu dildə Şarru-kin - "ədalətli çar" adlandırdı.

O, orta Fərat boyundakı, şimali Suriyaya və gümüşlə zəngin olan cənubi Anatoliya dağlarına qədər olan şəhərləri işğal etdi. 65 şəhər ona məxsus idi. Qərbi İrandakı elamitlərin paytaxt şəhəri Suzada da o, ağalıq edirdi. Oman sahili və İran körfəzi adaları vasitəsilə Hindistanla, Bədəxşanla, sidr ağacları almaq üçün Livanla, həmçinin Kappadokiya və Krit ilə, güman ki, Yunanıstanla ticarət əlaqələri saxlayırdı. Onun dövründə yazıdan və şumer dilindən istifadə edilirdi. Şumer çarlarının siyahısına görə o, 56 il ərzində hökmdarlıq etmişdi. Onun hökmranlığının sonrakı dövrlərində qiyamlar fasilə vermirdi.

Sarqon ilahə İştarın himayəsində uğur qazanmışdı və onun şərəfinə Aqeyd şəhərini salmış və onu paytaxt etmişdi. Bu şəhər Sarqonun əsasını qoyduğu sülalənin sonunda dağıdıldı və həmin ad altında bir daha məskunlaşmadı. O, ilk böyük imperiya yaradan Akkad çarı oldu. O, çox qoca yaşında öldü. İki sonrakı Assuriya çarı özlərini onun şərəfinə bu adla adlandırmışdılar.

Akkad çarları hərbi kampaniyaları işğallara və imperiyanın təhlükəsizliyinə xidmət etmirdi, başlıca olaraq ticarət maraqları naminə həyata keçirilirdi. Akkad, düzgün deyilsə çar, müharibələri maliyyələşdirmək üçün mallara, pula və qızıla möhtac idi. Bundan başqa o, inşaat işləri apartdırırdı və özünün yaratdığı inzibati sisteminin xərclərini ödəməli idi. Kiş çarı Naram-sin özünü "yer üzünün dörd hissəsinin çarı" adlandırmışdı, bu əslində kainat demək idi. O, mixi yazısı ilə "allah" imzasını atırdı və özünə "Akkadın allahı" titulunu götürmüşdü. Bu yerli ilahi qüvvə özünü şəhərin himayəçisi və onun maddi rifahının qarantı kimi görürdü.

Akkadın hökmranlığında Akkad dili Şumer dilinə bərabər ədəbi hörmət qazandı. Suzadakı Akkad qarnizonunun təsiri ilə bu dil Mesopotamiyanın sərhədlərindən kənara çıxdı. Elam özü də Mesopotamiya yazısını məhz bu dövrdə qəbul etdi.

Akkadın beş çarının, onların birlikdə ümumi ağalığı 142 il davam etmişdi, hökmranlığı Mesopotamiya tarixinin ən məhsuldar dövrləri hesab olunur. Baxmayaraq ki, separatçı qüvvələr bütün birləşmə meyllərinə qarşı çıxırdı, Akkad özünün siyasi üfüqlərini və ölçülərini xeyli genişləndirmişdi. İki amil Akkadın süqutuna köməklik göstərdi, bunlardan biri şimali-qərbdən köçəri amoritlərin müdaxiləsi, digəri isə Dəclə çayı ilə Zaqros dağlarının şərq tərəfi arasından qutianların ölkənin ərazisinə keçməsi idi. Bu müdaxilənin özü də Akkadın zəifliyini meydana gətirmişdi.

Lakin m.ə. 2130-cü il ətrafında Şumer müstəqillik qazandı və iki mininci ilin başlanğıcına qədər öz "dirilməsi" ilə öyündü. Bu dövr ərzində regionun əksər hissəsi Urda oturan çarlar tərəfindən idarə olundu.

Şumerdə əkinçilik də yaxşı inkişaf edirdi. Hər il ilin səkkiz ayı ərzində demək olar ki, yağış yağmadığından irriqasiya burada vacib idi. Burada taxıl aprel ayında yığılırdı. Yay ayları isə çox isti olurdu. Cənubi Mesopotamiyada daş, minerallar və hətta ağac kimi təbii ehtiyatlar yox idi. Buranın sakinləri ağır qaydada ticarətə bel bağlayırdılar.

Şumerlilərin ən gözəl ixtiralarından biri təkər idi və m.ə. 3200-ci il ətrafında təkərli nəqliyyatdan istifadə edilməyə başlanmışdı. Təkərli nəqliyyat yarım min il sonra da hələ misirlilərə məlum deyildi. Qərb yarımkürəsində isə ispan işğalına qədər bu barədə təsəvvür də yox idi, ona görə də burada heç qoşqu heyvanları da mövcud deyildi. İranda isə hələ səkkiz yüz əvvəl təkərdən dulusçuluqda oxu fırlatmaq üçün istifadə etmişdilər, sonra bu ixtira Şumerə daxil olmuş və ondan daha sonra nəqliyyat üçün istifadə etməyə başlamışdılar. Şumerlilərin bu texnoloji dühasının məhsulu tarixin ən böyük kəşflərindən biri hesab oluna bilər. Həmin dövr üçün də onun praktiki əhəmiyyəti az deyildi və iki təkərli döyüş arabalarında və dörd təkərli arabalarda istifadə olunurdu. Bu arabalara qoşmaq üçün daha sürətli heyvan da var idi, çünki atları Qərbi Asiyaya şərqi müdaxiləçilər m.ə. 2000-ci illə m.ə. 1700-ci il arasında olan bir dövrdə gətirmişdilər.

Şumerlilərin bəşəriyyət üçün daha əhəmiyyətli ixtirası səma ayı təqvimi idi. Burada əkinçilik üçün vaxtları düzgün müəyyən etmək üçün göydəki ayın dövrlərindən istifadə olunurdu. Ayın ən nazik yarımaydan dövr edib, yenə nazik yarımaya (hilala) qayıtdığı müddət 29,5 günə bərabər idi və bir

dövrənin başa çatdığını bildirirdi. Ay on iki dəfə bu dövrəni edib keçdikdə il ötüb keçirdi. Səma ayının on iki dövrəsindən və ya təqvim ayından əmələ gələn il günəş ilindən 11 gün gödək idi, və ya bu günlər hər ildən düşürdü. Sonralar bu təqvimdən müasir yəhudi və islam təqvimləri üçün istifadə edildi və onlar ay dövrəsinə əsaslanan təqvimi qədim mesopotamiyalılardan əxz etmişdilər.

M.ə. 2500-ci illər ətrafında Şumer yazı sistemi tam inkişaf edib, mixi yazısı kimi tanınırdı. Sonra bu yazı sistemi öyrənmək üçün çətin olduğundan əlifbaya əsaslanmağa keçdi. Buna baxmayaraq mixi yazısı iki min illikdə Mesopotamiya yazı sistemi şəklində yeganə yazı kimi istifadə edildi və b.e. 500-cü ilinədək kommersiya əlaqələrində standart vasitə rolunu oynadı.

Mixi yazısında samitləri ifadə etmək üçün 30 işarədən istifadə edilirdi, bu əsl əlifba idi. Bu əlifbalardan biri axırda başqa yerlərdən, çox güman ki, Finikayadan aparılaraq, yunan və latın yazılarının əcdadına çevrildi.

Şumerdə keşişlər məbədlərdə deyil, məbədlərin həyətlərində onun inzibatçıları, sənətkarları və qulları ilə bir yerdə yaşayırdılar. O vaxtdan keşişlər və inzibatçılar mixi yazısını öyrənməyə ehtiyac duydular. Buna görə də məbədin hasar çəkilmiş həyətində həm də savad öyrənmək üçün olan məktəb var idi. Bu Şumer məktəbləri bəşər sivilizasiyası tarixində ən erkən yaranmış tədris ocağı hesab olunur.

Məbədlər həm də "dövlət içərisində dövlət" hesab olunurdu, çünki məbəd kompleksində həm də ticarət aparılırdı, satış üçün olan mallar ya hazırlanır, ya da anbarda saxlanırdı, bəzən də uzaq məsafələrdə satılmaq üçün buradan yola salınırdı. Sarqondan əvvəlki dövrdə Şumer şəhərlərinin keşişləri bir çox hallarda həm də onların hökmdarları olurdu. Bəzən azad fermerlər pis torpaqları tərk edib, çıxış yolu kimi keşişlərdən borc almaq məcburiyyətində qalırdılar. Qulların haqqında məlumatlar çox az olduğuna görə, bu zümrənin vəziyyətini təhlil etmək çətin olsa da, onların həyatının dilənçilikdən seçilməməsinə elə bir şübhə yeri qalmır.

## Köhnə Babilistan

Mesopotamiya tarixində Şumer erasından sonra Köhnə Babilistan erası gəlir, bu yeni era m.ə. 2000-ci illərdən 1600-cü illərə qədər davam etdi. Şumerdən Köhnə Babilistanın ağalığına keçid tədricən baş verdi və axırıncının çiçəklənmə dövrü m.ə. 1770-ci illərə təsadüf edir. Onların mədəniyyətləri arasında ciddi bir fərq yox idi, kəskin fərq yalnız coğrafiyalarında və dillə-

rində idi. Əgər Şumer erası ərzində daha çox inkişaf etmiş və mədəni cəhətdən irəli çıxmış şəhərlər Mesopotamiyada uzaq cənubda idisə, sonrakı 100 il ərzində sivilizasiyanın ağırlığı şimala, Akkada tərəf dəyişildi, və yeni salınmış Babil şəhərində mərkəzləşdi. Başqa dillərlə qohum olmayan Şumer dilindən fərqli olaraq, Köhnə Babilistan xalqı semit qrupuna daxil olan dildə danışırdı. Bu dildə danışan xalqlar Ərəbistan yarımadasında yaşayan əcdadların nəslindən idi və bu tayfaların Mesopotamiyaya nə vaxt gəlməsi məlum deyildir. Semit tayfaları Akkad və Şumer ərazilərinə keçdikdən sonra burada məskən saldılar. Amoritlər daha uğurlu oldular və Akkadın bir hissəsini məskunlaşdırdılar. İki əsr yarım sonra amoritlər bütün Şumeri işğal etdilər və semit dialekti yazıda və danışıqda şumer dilinin yerini tutdu. Elə həmin amoritlər Şumer mədəni irsinin digər bütün aspektlərini qəbul etdilər. Amoritlər Akkaddakı Babil şəhərini öz imperiyalarının paytaxtı etdiklərindən, onlar ümumən babilistanlılar adlandılar, çox hallarda isə min il sonra Mesopotamiyanı idarə edən xaldeylərdən fərqlənmək üçün onlar Köhnə Babilistanlılar adlanırlar.

Köhnə Babilistan imperiyasının banisi və heç şübhəsiz ən böyük amorit hökmdarı Hammurabi (m.ə. 1792-1750-ci illərdə çarlıq etmişdi) idi. Dövlətin bütün işlərinə mömin Hammurabi nəzarət edirdi. Hökmdar özü ölkənin torpaqlarını müdafiə etməsini və ədalətə himayədarlıq göstərməsini məğrurluqla bəyan edirdi:

Mən yuxarıda və aşağıda düşməni kökündən məhv etdim.
Mən müharibəyə son qoydum.
Mən ölkənin rifahına şərait yaratdım.
Mən dostcasına məskunlaşmada adamların dincliyə qovuşmasını tapdım.
Mən heç kəsin onları narahat etməsinə imkan vermədim.
Mən onları dinc şəraitdə idarə etdim.
Mən onları öz qüdrətimlə qorudum.

O, qədim Yaxın Şərqin 2-ci minilliyin ilk yarısındakı ən populyar şəxsiyyəti idi. Ölümündən sonrakı şöhrəti isə "Hammurabi kodeksi" ilə əlaqədar idi. Doğrudan da bu sənədə görə onun sülaləsi Babilistan adını bütün dövrlər üçün məşhur etdi.

Hammurabi kodeksi mixi yazısında yazılmış sənəd idi. Geniş baxışda kodeksin toxunduğu mövzulara böhtan, məhkəmə inzibatçılığının korrupsiyası, oğurluq, aldadaraq oğurlanan mallar, quldurluq, qarətçilik, ev oğurluğu, qətl, adam öldürmə, bədənə xəsarət yetirmə, adam qaçırma, vergi ödənilməsində məhkəmə hüququ, laqeydlikdən tarlada və malı otarmaq nəticəsində taxıla

vurulan ziyana görə məsuliyyət, palma (xurma) ağaclarının qanunsuz kəsilməsi, ticarət işlərinin qanuni problemləri, xüsusən tacirlə onun işçisi arasında səfər vaxtı münasibətlər, malların mənimsənilməsi, pul etibarı, borc götürülmüş pula görə mənafe nisbəti, qadının ictimai işlərdə qanuni mövqeyi, qullar və girov götürülənlər, borc üçün qul olmaq, qulların qaçması, qulların satılması və müdafiəsi, adam, mal-qara və qoyun rentası və onların tarifləri, şərik işçilərin incidilməsi, ailə qanunu, gəlinin cehizinin qiyməti, nikaha girmiş qadının mülkiyyəti, arvad və kəniz boşama, övladlığa götürmə, döş dayəsi ilə müqavilə və irsi qəbul etmə və s. daxil idi.

Hammurabi kodeksi 280 maddədən ibarətdir. Bu sənəd o dövrdə mövcud olan sosial differensiasiyanın və sosial fərqlərin yüksək inkişaf səviyyəsini nümayiş etdirir. Kodeks mülki və cinayət hüququ üzrə bölgü prinsipini nəzərə almasa da, mövzu və predmet cəhətdən elə qruplaşmışdır ki, burada hər bir mövzu cinayət hüququ nöqteyi-nəzərindən olduğu kimi, mülki hüquq baxımından da izah edilir. Kodeksdə hüququn subyekti kimi azad icma üzvü qəbul edilir və bu şəxs sosial-hüquqi vəziyyətinə görə *avilum* - "adam" adlanırdı. Digər hüquq subyekti tam hüquqa malik olmayan azad insan idi, çar xidmətində olan bu şəxs *muşkenum* - "dizçökən" adlanırdı. Azad qadınlar da boşanma və cehizi qaytarmaq kimi bəzi hüquqlardan istifadə edirdilər. Qullar və uşaqlar isə yalnız hüququn obyekti hesab olunurdu.

Hammurabi kodeksində qul sahiblərinin qullar üzərindəki ağalığının, ümumilikdə xüsusi mülkiyyətin möhkəmlənməsinə və çar xidmətində olan adamların mənafelərinin mühafizəsinə xüsusi diqqət verilir. Babilistanda əmtəə-pul münasibətləri olduqca inkişaf etmişdi. Bütün həyatı tənzim etmə niyyətləri ilə yanaşı Hammurabi kodeksinə "sosial ədalət" mənzərəsini əks etdirən hüquqi traktat və ya çar Hammurabinin öz fəaliyyəti barədə allahlar qarşısındakı hesabatı kimi də baxmaq olar.

Hammurabi kodeksində, ondan əvvəlki Talion qanununun ən vacib tələbi də təsbit olunmuşdu. Bu sənəddə "gözə görə göz" prinsipi öz əksini tapmışdı. Dəqiq qisas kimi kompensasiya təklif edən kodeks cinayətin baş vermə şəraitini, motivini nəzərə almırdı. Maddə belə səslənirdi: "Əgər adam digər adamın gözünü tökmüşdürsə, onun gözü tökülməlidir", "Əgər adam özünə bərabər adamın dişini vurub sındırıbsa, onun dişi vurulub sındırılmalıdır". Kodeks vurulan yaranın təsadüfi olduğunu, yaxud da vurulmuş zərbənin alçaldılmaya, təhqirə görə çılğınlıqla verilən cavab olduğunu nəzərə almırdı. Diqqətlə nəzər yetirdikdə Hammurabi kodeksinin bütünlüklə ədalət anlayışına biganə olmadığı görünür. Əlbəttə, dəqiq əvəz etmənin, kompensasiya-

nın təkid edilməsi qəddar cəza növü olsa da, heç də bütünlüklə ədalətin olmaması demək deyil, çünki "gözə görə göz", gözə görə başdan və ya barmağın dırnağına görə gözdən daha ədalətli idi. Kodeksdə nəzərdə tutulan cəza nə qədər sərt, hətta qəddar olsa belə, qanlı qisası məhdudlaşdırır, onun böyüməsinə, həddi aşmasına, cəzanın cinayətdən daha dəhşətli olmasına imkan vermirdi, daha doğrusu bunun qarşısını bütünlüklə alırdı.

Cinayətlərə görə cəzalar siniflərə görə fərqlənirdi. Bunu bir nümunə təsdiq edir:

Əgər kübar başqa kübarın sümüyünü sındırsa, onlar onun sümüyünü sındıracaqdı. Əgər o, icma üzvünün gözünü tökmüşsə və ya icma üzvünün sümüyünü sındırmışdırsa, o, bir mina gümüş ödəyəcəkdir. Əgər o, kübarın qulunun gözünü tökmüşdürsə və ya kübarın qulunun sümüyünü sındırmışdırsa, o, onun qiymətinin yarısını ödəyəcəkdir.

Mücərrəd əxlaq prinsipləri də müəyyən mənada kodeksdə təcəssüm olunmuşdu. Misal üçün, o vaxtlar Mesopotamiyada səmimi qaydada düşünürdülər ki, uşaqlar öz valideynlərinə hörmət etməlidir. Bu əxlaqi qaydanın nizamlanmasını kodeksin 195-ci maddəsi təsbit edirdi: "Əgər oğul atasını vursa, onun barmaqları kəsilməlidir". Dövlət sosial əmin-amanlığın təmin olunması üçün sadəcə mühakimə etmək və cəza metodlarını addımbaşı işə salmaqdansa, cəmiyyətdə zəruri olan daha yaxşı əxlaqi şərait yaradırdı. Kodeks cinayəti yaradan şəraitin aradan qaldırılmasına da qayğı göstərirdi. Maddi rifahı yaxşı vəziyyətdə olan dövlətin ölçüsünün daha yüksək cəhəti 23-cü maddədə öz əksini tapır. Həmin maddə elan edir ki, əgər kimsə qarət edilmişdirsə və quldur tapılmamışdırsa, ərazisində qarətçinin öz cinayətini işlətdiyi şəhər, quldurluq nəticəsində mülkiyyətini itirmiş onun qurbanına yaxşılıq etməlidir, yəqin ki, bu ona dəyən maddi ziyanın şəhər tərəfindən ödənilməsi tədbirindən xəbər verir.

Dəclə və Fərat çaylarının vadilərində yaşayan bu qədim xalqların hüquq qaydaları ilk dəfə nəzərdə tuturdu ki, cəza o vaxt cinayətin qarşısını alan, onu məhdudlaşdıran təsir göstərir ki, o tez və əfv edilməyə ümid yeri qalmadan icra edilsin. Bu nöqteyi-nəzərdən işə aid olmayan motivlər nəzərə alınmırdı. Güman edilirdi ki, təhqiqat və istintaq tərəfindən şəraitlərin və motivlərin öyrənilməsi xeyli vaxt aparacaq və bu, imkan yaradacaqdır ki, cinayətkar özünü necə müdafiə etmək yollarını öyrənsə, qəsdən törədilmiş real cinayətlər nəticədə cəzasız qalsın. Cinayətin cəzasız qalması və ya cəzanın cinayəti ləngimədən izləməməsi cinayətkarları yeni qanun pozuntularına həvəsləndirir, cəzadan yayınmaq ehtimalının daim mövcud olacağı təsəvvürünü yaradır.

Hammurabi öz işini *"dinat misarim"* - "ədalətli qaydanın verdiktləri" adlandırmışdı və kodeksin epiloqunda bəyan edirdi ki, adamlara məsləhət verməklə qanun kömək etmək niyyətini güdürdü və min illər keçdikdən sonra da olsa təskinlik vermək olar ki, çar buna uğurla nail olmuşdu. Hammurabi "Ədalət çarı" adlanmağı, bu adla məşhur olmağı arzu edirdi və öz vaxtında gördüyü tədbirlərlə o, bu istəyinə də çatmışdı. Dünyanın ədalət barədəki konsepsiyalarının bir çoxu Hammurabi kodeksinə əsaslanırdı və onun inkişaf etdirilməsinin bəhrəsi kimi meydana çıxırdı.

Köhnə Babilistanın mədəni irsindən Hammurabi kodeksinə bərabər olan digər bir abidə "Qilqameş dastanı" idi. Daha doğrusu bu rəvayətin köhnə Akkad versiyası idi. Onun qəhrəmanı olan Qilqameş tarixi şəxsiyyət idi, m.ə. 2600-ci illər ətrafında Şumer çarı olmuşdu. Onun əməlləri öz müasirlərinin təxəyyüllərini elə vəcdə gətirmişdi ki, onun barəsində maraqlı əhvalatlar söyləməyə başlamışdılar. Sonralar bu əhvalatlar elə şişirdilmişdir ki, demək olar ki, təmiz fantaziya xarakteri almışdı. Dastanda qeyd olunurdu ki, dünyadakı qəhrəman insanın macəraları və nəyəsə can atması labüd ölümlə idarə olunur. Ağır döyüşlərdə qalib gəldikdən və eşq hadisələrindən sonra Qilqameş, allahlar dünyanı məhv etmək üçün daşqın törədəndə, gəmidə sığınacaq tapıb, özünü xilas edən qoca Utnapiştimdən və onun arvadından ölməzliyin sirrini öyrənmək istəyir. Ahıl, yaşlı ər-arvad onu ölməzliyin əldə edilməsinin mümkün olmadığına inandırır, lakin ona yarpaqları, ən azı itirilmiş gəncliyi qaytaran ağacın yerini açıb deyirlər. Qəhrəmancasına cəhdlərdən sonra o, bu ağacı ələ keçirir, lakin bədbəxtlikdən Qilqameş yatanda ağacı mühafizəsiz qoyduğundan, ilan onun yarpaqlarını yeyir. Poemada o da qeyd edilir ki, ilan yeni həyat qazanmaq üçün hər il öz dərisini dəyişir. Ona görə də ölməzliyə can atma nəticə etibarilə bunu bilməyə gətirib çıxarır ki, hər bir gün gələndə sabah barədə qayğı göstərmədən ondan həzz alınmalıdır.

Köhnə Babilistan mədəniyyətinin ən gözəl cəhətlərindən biri tam başqa sahə olan riyaziyyatda özünü göstərir. Onlardakı bu bilik Şumer bünövrəsinə əsaslanırdı. Məbədlərdə vurma və bölmə cədvəllərindən istifadə olunurdu, həmçinin kvadrat köklər, kub köklər və digər riyazi əməliyyatlar həll edilirdi. Bu belə deməyə əsas verir ki, Köhnə Babilistanlılar qədim dövrlərdə ən güclü riyaziyyatçılar idilər, onlar riyazi bərabərliklərdən istifadə edirdilər. Günün hər birinin on iki saatdan ibarət olan iki hissəyə bölünməsini, saatın 60 dəqiqədən, dəqiqənin 60 saniyədən ibarət olmasını müasir insanlar Köhnə Babilistanlılardan əxz etmişlər. Köhnə Babilistanlılar öz arifmetikalarını

12-yə vurmaq əsasında qururdular, bəlkə də səma ayı dövrəsinin il ərzində 12 hissədən ibarət olması da bununla əlaqədar idi. Sonrakı sivilizasiyalar bu qədim əcdadlardan "onikilik" zaman ölçüsünü qəbul edərək, onda ciddi bir düzəlişə ehtiyac duymamışdılar.

## Kassit və Hett aralıq dövrü. Assuriyalıların qüdrəti

Hammurabinin ölümündən 150 il sonra onun sülaləsi yeni xalqların müdaxiləsi ilə dağıldı. Bir sıra yazılı məlumatlarda m.ə. 1600-cü illərlə 1450-ci illər arasındakı zaman kəsiyi qaranlıq dövr adlanır. Bu dövrün uzunluğu 150-200 ilə bərabər idi. Qalan semit dövlətləri, məsələn Aşur kimi, Kassit və Hurrian-Mitanni kimi dövlətlərin təsiri zonasına daxil olan kiçik dövlətlərə çevrildi. Mədəni ardıcıllıq isə, xüsusən Babilistanda kəsilmədi.

Kassitlər m.ə. 1800-ci illər ətrafında indiki qərbi İranda, Həmadan-Kirmanşah regionunda məskunlaşmışdılar. Artan sayda kassitlər tədricən Babilistana və cənubi Mesopotamiyaya gəlib çatdılar. Onların dilində olan heç bir yazı qalmamışdır, yalnız Babilistan sənədlərində 300-ə qədər kassit sözü tapılmışdır. Onlar yəqin ki, irsi qaydada ötürülən çarlığa malik idilər. Politeist olduqlarından, onların 30 allahlarının adı məlumdur. Marduk Allahın heykəlini uçurduqdan sonra, ona bərabər olan öz allahları Şakvamunanın heykəlini qaldırdılar. 1420-ci il ətrafında Urukda öz məbədlərini tikdilər. Kassit çarları Misir faraonları 3-cü və 4-cü Amenhoteplə əlaqə saxlayırdılar. Onlar ticarət etməkdə çox maraqlı idilər ki, qızıl ələ keçirsinlər, həm də siyasi nikahlara çox meyl edirdilər. Assuriyalılara qarşı vuruşduqda, məğlubiyyətə uğradılar. Onlar hettlərlə ittifaq girib Assuriyanın ekspansiyasını dayandırmaq istəyirdilər.

Bu vaxt Babilistan eyni vaxtda iki cəbhədə - Elama və Assuriyaya qarşı müharibəyə başladı. Bu Assuriya hökmdarı I Tukulti - Ninutranın Babilə fəlakətli müdaxiləsi və şəhəri dağıtması ilə başa çatdı. M.ə. 1155-ci ilə yaxın qəddar və hiyləgər elamitlər nəhayət Kassit sülaləsini sıx müharibələr nəticəsində məhv etdi. Bu fəlakət barədə hüznlü şikayətlər haqqında bir sıra poetik əsərlər qalmışdır.

Kassitlər hakimiyyətə gəldikdən sonra çox şey dəyişdi. Lakin onun yuxarı sinfi babilləşməyə məruz qaldı. Sosial strukturanın yeni feodal xarakteri isə kassitlərin təsirindən xəbər verir. Bitkiçilik və heyvandarlıq təsərrüfatı malikanələrdəki əsas məşğuliyyət növü idi, yüngül arabalar və süvarilər üçün at yetişdirilirdi. Xarici ticarət vasitəsilə xammal almaq üçün onlar at və

arabalar ixrac edirdilər.

M.ə. 1600-cü illərdən sonra hurrianlar Mesopotamiyanın zəifləmiş semit dövlətlərinin içərilərinə girdilər və orada bir neçə kiçik dövlət yaratdılar. Hurrianlar İranın şimal-qərbindən gəlmişdilər.

1500-cü ildən sonra bu ərazidə Mutanni səltənəti yarandı. Mutannilər misirlilərə tanış idi və III Tutmosun dövründə onlarla vuruşmuşdular. Şimal sərhədləri onları hettlərdən ayırırdı. Hurrian çarları Misir faraonlarının qızları ilə evlənəndə belə, başqa xalqla qarışmamışdılar. Daxili mübarizədən zəifləyən Mutanni çarlığı bu vaxt qalxan Hett və Assuriya çarlıqları arasında daimi qaydada şahmat piyadasına çevrilirdi.

Mutanni çarlığı feodal dövlət olub, Arian və ya Hurrian əsilli döyüşçü kübarlar tərəfindən idarə olunurdu. Onun iri torpaqlı malikanələrində çox sayda at yetişdirilirdi. Aristokratik ailələr adətən torpaq mülkiyyətini, onlardan geri alınması olmayan feodal malikanəsi kimi əldə edirdilər. Ona görə də onlar torpağı satmırdılar da. Varlılar öz sərvətlərini ticarətdən, kommersiyadan və kənd təsərrüfatından qazanırdılar.

Hettlərə gəldikdə əslən onlar mərkəzi Asiya düzənliklərindən çıxmışdılar və hind-avropa dilində danışırdılar. Hettlər m.ə. 1600-cü illərdən başlayaraq Anatoliyanın əksər ərazisini işğal etmişdilər və sonrakı iki əsrin içərisində öz imperiyalarını cənuba tərəf, Suriya və Livan daxil olmaqla Şərqi Aralıq dənizi sahili boyu genişləndirmişdilər. M.ə. 1595-ci ildə Babili dağıtdıqdan sonra, onlar bütün Mesopotamiyaya birbaşa ağalıq etmək istədilər. Hett imperiyası öz coğrafi və iqtisadi zirvəsinə m.ə. 1450-1300-cü illər arasında çatdı, lakin XIII əsrdən etibarən hettlər ayrı-ayrılıqda Misirdən və şimali Mesopotamiyadan qalxan müdaxilələrdən müdafiə olunmağa başladı. M.ə. 1286-cı ildə onlar qüdrətli misirlilərin Suriyaya hücumunun qarşısını aldılar və sonrakı əsrdə özlərini hələ assuriyalılardan qorumaq iqtidarında idilər. Lakin taqətdən düşmə, nəticədə onların dəf olunmasına gətirib çıxardı. M.ə. 1185-ci il ətrafında dəniz hücumlarının qərbdən gələn uğurlu dalğaları Hett hakimiyyətinin bütünlüklə yoxa çıxması ilə nəticələndi.

Bibliyada çar Davidin eşq macərasının tərəf-müqabili və bundan Solomonu doğmuş Virsaviya hett mənşəli zabitin arvadı idi. Digər bir mif də onunla əlaqədardır ki, hettlər öz uzun müddətli hərbi zəfərlərinə, gizli silahı öz inhisarlarında saxladıqlarına görə nail olmuşdular. Guya onlar bu silahla yanaşı, öz dəmir emalatxanalarını da qısqanclıqla əsrlər boyu əcnəbilərdən gizli saxlamışdılar. Düzdür, hettlər hələ m.ə. XIV əsrdən dəmirdən istifadə edirdilər, lakin burada elə bir sirr yox idi, çünki onların müasiri olan xalqlar da

həmin metaldan faydalanırdılar və hansısa dəmir silahın bir xalqa digəri üzərində üstün gəlməyə imkan yaratması məlum deyildir. Dəmir emalatxanası da hettlərə elə bir müstəsna hərbi fayda verməmişdi. Onlar yalnız dəmir ticarətindən xeyli varlanmışdılar. Onların elmə də elə bir töhfələri olmamışdı, mixi yazısını mesopotamiyalılardan götürmüşdülər, heç özlərinin ədəbiyyatları da yox idi. Lakin onlar Qərbi Asiyanın digər xalqlarından fərqli olaraq öz imperiyalarını daha uzun müddət saxlaya bilmişdilər. Məhz onların sənədlərindən, mənbələrindən Homerin qələmə aldığı məşhur Troya barədə bir sıra məlumatlar əldə etmək mümkün olmuşdur.

Kassit "qaranlıq dövründən" sonra m.ə. 1300-cü ildən 612-ci ilə qədər ömrü uzanan Assuriya imperiyası gəldi. Assuriyalılar semit dili qrupuna daxil olan xalq idi və m.ə. 3-cü minilliyin əvvəlində Mesopotamiyanın şimalında Dəclə çayının üstündə məskunlaşmışdı. M.ə. 13-cü əsrin başlanğıcında isə onlar döyüş arabalarından istifadədə böyük bacarıq nümayiş etdirib, qonşuluqda olan şəhərləri işğal etməyə başladılar. M.ə. 1225-ci ildə Assuriya çarı Tikultu-Ninutra Babili tutub, öz salnaməçilərinə göstəriş verdi ki, belə məlumat versinlər: "Mən Babilistan çarını əsir götürdüm və onun məğrur boynu ilə oturacaq yeri kimi davrandım... Beləliklə mən bütün Şumerin və Akkadın ağası oldum və öz səltənətimin sərhədini Aşağı dənizin üstündə qoydum".

Digər bir hökmdar, m.ə. 9-cu əsrin birinci yarısında 24 il ərzində Assuriyada hökmranlıq etmiş II Aşurnasirpal isə öz düşmənləri barədə belə lovğalanırdı: "Mən onları məhv etdim, şəhərin divarlarını dağıdıb, özünü oda verdim. Diri qalanları tutub, öz şəhərlərinin qarşısında payaya keçirdim". Bu zorakılığın və qəddarlığın açıq nümayişi saray relyeflərində təsvir olunurdu. Bu təsvirlərdə məğlub edilmiş çarların başlarının saray bağlarında ağaclardan asılması, döyüş meydanlarında və mühasirələrdə isə insan bədəninin qalıqları göstərilirdi. Qiyam qaldırmış ərazilərin yüzlərlə liderləri öldürülür və onların kəllələri, səfər edənləri düşünməyə məcbur etmək üçün yol kənarında topa yığılırdı.

Həmin çar minlərlə hetti Şərqi Anatoliyadan köçürtdü. Babilistanlılar qiyam qaldıranda o, Babilin məbədlərini qarət etdi, bu hətta Assuriyada da küfr kimi qiymətləndirilirdi. Çarla onun paytaxtı arasında möhkəm əlaqə olmalı idi, ona görə də o, öz yeni paytaxtını tikdirməyə başladı. Bu Kar-Tukulti-Ninutra şəhəri Dəclə çayının o biri tərəfində idi. Sonra oğlanları ona qarşı qiyam qaldırdılar və onu şəhərdə mühasirəyə aldılar. Axırda o, öldürüldü. Onun Babilistana qarşı qalibiyyətli müharibələri epik poemada vəsf edildi,

lakin onun imperiyası özünün ölümündən sonra dağıldı. Assuriya hakimiyyəti bir müddətə süquta uğradı, bu vaxt Babilistan qalxmağa başladı.

Bu dövlətin inkişafında kənd təsərrüfatı olduqca mühüm rol oynadı. Assuriya Babilistana nisbətən süni irriqasiyadan az asılı idi. At bəslənməsi intensiv şəkildə aparılırdı. Ticarət və kommersiya da həmçinin mühüm əhəmiyyət kəsb edirdi. Kiçik Asiyadan və Ermənistandan metallar idxal edilirdi, qalay şimali-qərbi İrandan, ağac materialı isə qərbdən gətirilirdi. Yeni ticarət yollarının açılması bəzən təsadüfi xarakter daşıyırdı və müharibə məqsədlərinə xidmət edirdi.

Assuriya memarlığı mutannilərin və babilistanlıların təsirinin qarışığından əmələ gəlmişdi və tam fərdi üslub xüsusiyyətini almışdı. Saraylar çox vaxt bəzədilmiş rəngli divarlara malik olurdu. Məktəblərdə özəl xidmətçilər yazı yazmağa öyrədilirdi.

Yeni Assuriya imperiyasının çarı II Sarqon - Şappu-kin keşiş və tacir zümrələrinin itirilmiş imtiyazlarını bərpa etdi. Elam m.ə. 721-ci ildə onu məğlubiyyətə uğradanda, onun Babilistanı bərpa etmək sahəsindəki ilk cəhdi baş tutmadı. Həmin il Samariyanın üçillik müharibəsi sona çatdı. Samariya yuxarı sinfi sürgün edildi və İsrail Assuriyanın əyalətinə çevrildi. İudeya bac vermək hesabına müstəqil qaldı. O, Kilikiyaya yollandı ki, orada çar Midasın başçılığı altında frigiyalıların sonrakı müdaxiləsinin qarşısını alsın. Öz müttəfiqi, Azərbaycandakı Manna dövlətini himayə etmək üçün Sarqon 719-cu ildə İranda kampaniya başladı və Midiyanın bir hissəsini öz imperiyasına əyalət kimi əlavə etdi. Assuriyalılar 714-cü ildə Urartu kampaniyasına başladılar. Urartu çarı Urmiya gölü yanında kiçik keçidi bağlayanda, Sarqon xırda süvari dəstəsi ilə gözlənilməz bir dəyişiklik əmələ gətirdi və bu assuriyalılar üçün böyük qələbəyə çevrildi. Assuriyalılar irəli atıldılar, Urartunun bütün şəhərlərini, istehkamlarını, hətta irriqasiya şəbəkələrini dağıtdılar. Onlar Mannanı işğal edə bilmədilər, lakin dağlıq şəhər Musasiri tutdular. Frigiya çarı Midas və Kiprin bir neçə şəhəri ona bac verməyə hazır idilər. 705-ci ildə şimal-qərbi İrandakı kampaniyada çar tələyə salındı və öldürüldü. Onun cəsədi dəfn edilmədi, yırtıcı quşlara yem oldu.

II Sarqonun oğlu Sennaherib on altı il müddətində hökmranlıq edən atası ilə sözləşmişdi, keşişlər onu inandırmışdılar ki, çarın ölümü allahların ona qarşı cəzasıdır. Sennaherib hökmdar kimi öz mövqeyinə yaxşı hazırlaşmışdı. O, m.ə. 704-cü ildən başlayaraq 23 il ərzində imperiyanı idarə etdi. Assuriya onun şəxsində bacarıqlı, istedadlı bir hökmdara malik oldu, baxmayaraq ki, o, bəzi hallarda qeyri-adi hərəkətlərdən də xali deyildi. O, öz atasını heç bir

məlumatında yada salmır. O, bir neçə illiyə Aşur şəhərində yaşadı. 701-ci ildən isə Nineviyanı öz paytaxtı etdi.

Onun Babilistan ilə gözlənilən çətinlikləri meydana gəldi, çünki bu dövlət Assuriyanın digər düşmənləri ilə müttəfiqliyə girişmişdi. 703-cü ildə Sennaherib Babilistan, Arameya və Elamın koalisiya ordusunu məğlub etdi. Bir il sonra o, qərbi İrana hücum etdi, sonra isə Suriya və Palestinaya hərəkət etdi ki, yenə digər koalisiya ordusunu əzsin. Sidon Assuriyaya düşmən olan öz hökmdarını ləngimədən qovdu. Digər müttəfiqlər ya təslim oldular, ya da məğlub oldular. Assuriyalılar Yerusəlim şəhərini mühasirəyə aldılar, bundan əvvəl şəhərin əhalisini öz çarlarına qarşı qaldırmaq cəhdi uğursuzluğa uğramışdı. Bibliyanın Köhnə Vəsiyyəti bu hadisələri kiçik detallarına qədər təsvir edir. Şəhərin mühasirəsi vaxtı epidemiya Assuriya qoşunlarına böyük ziyan vurdu və Sennaherib Assuriyaya dönməyi məqsədəuyğun saydı. Bu vaxt iudeyalıların şişirtməsinə görə, guya 185 min assuriyalı ölmüşdü. İudeya çarı İzekia, buna baxmayaraq Nineviyaya bac verirdi.

Sonra Sennaherib öz böyük oğlunu Babilistana çar təyin etdi. Sonrakı bir neçə il dinc şəraitdə keçdi. Qiyam qaldırmış babilistanlılara kömək göstərdiyinə görə Elama hücum etdi və bu vaxt gəmilərdən istifadə etdi. Gəmilər əvvəlcə Fəratdan Dəcləyə keçdi, sonra isə işə İran körfəzindəki laqunda və Elamın cənub sahilində kifayət qədər uğurlu qaydada yaradı. Elamitlər isə quru ilə hərəkət edib, Babilistanı işğal etdilər və öz seçdikləri adamı taxt-taca oturtdular. Nəhayət, 609-cu ildə Sennaherib öz qisasını aldı. Babil işğal edildi və bütünlüklə dağıdıldı, məbədlər qarət və yerlə yeksan edildi. Marduk allahı Aşur allahı ilə əvəz edildi.

Sennaheribin hüdudsuz enerjisi öz imperiyasına heç nə vermədi, bəlkə də onu zəif saldı. Onun inadkarlığı inşa etdirdiyi tikililərdə özünü göstərir. Nineviyaya irriqasiya üçün su lazım olanda, mühəndislər onun göstərişi ilə Böyük Zab çayının qolunu paytaxta tərəf döndərdilər. Akvedukun tikilməsinə 2 milyon ədəd əhəng daşı işləndi, keçdiyi vadidə beş nəhəng rənglənmiş tağ tikildi. Həmin akvedukun qalıqları indiyə qədər qalır. Çar bu və digər texnoloji nailiyyətləri barədə özü məlumat verir.

Sennaherib Nineviyada nəhəng saray tikdirdi, onu barelyeflərlə bəzədi, onlardan bəziləri öküz qoşulmuş quru və su yolu ilə hərəkət edən iri həcmli nəqliyyatı təsvir edirdi. Otaqların çoxu barelyeflərdə olan əhvalat rəsmləri ilə bəzədilmişdi, onlar müharibə və quruculuq fəaliyyətindən bəhs edirdi. Laqundakı döyüşlərin, hərbi düşərgələrdəki həyatın və sürgün edilmələrin təsviri daha təsirli idi.

M.ə. 681-ci ildə qiyam baş verdi və Sennaherib Ninutra allahının məbədində oğlanları tərəfindən öldürüldü. Bu allaha da Marduk kimi Sennaherib pis münasibət bəsləyirdi və həmin qətl hadisəsi ilahi mənşəli cəza kimi qiymətləndirildi.

Sennaheribin qətlindən sonra onu kiçik oğlu əvəz etdi. O, qətiyyətli atasına oxşamırdı və babilistanlılara dostcasına münasibət bəsləyirdi. M.ə. 668-ci ildə Sennaheribin nəvəsi Aşurbanipal atasının vətənindən kənardakı hərbi yürüşü vaxtı ölməsindən sonra, planlaşdırdığı kimi çarlığı öz üzərinə götürdü. Belə taleyə görə onun yüksək qabiliyyətini əvvəlcədən qiymətləndirən nənəsinə borclu idi. Uşaq ikən keşişlərdən geniş təhsil almışdı və silahla məşq edərək hərbi sənətə yiyələnmişdi. Tac printsi kimi o, həm də geniş imperiyanın inzibatçılığını da öyrənmişdi. Məlumatlar bildirir ki, allahlar onun hökmranlığının birinci ilini rekord məhsulla mükafatlandırmışdı. Sonrakı illərdə də yaxşı taxıl məhsulu götürüldü. Bu ilk illərdə o, həm də uğurlu xarici siyasət həyata keçirirdi. Onun dövründə Assuriya imperiyası öz apogeyinə çatdı, dünyada o vaxta qədər görünməmiş ən iri dövlət oldu.

668-ci ildə o, Misirdə qiyamı yatırtdı və Həbəşistan çarını taxt-tacdan qovdu. Qiyam qaldıran Həbəş printsinin arxasınca o, Misirə yollandı. Onun tarmarla nəticələnən qələbəsi Tirin və imperiyanın digər hissələrinin müntəzəm bac verməsi qaydasının qoyulmasına səbəb oldu. Kimmerianlar hücum edəndə Lidiya çarı Qiqə Assuriya kömək etmədi. Qiq həm öz taxt-tacını, həm də həyatını itirdi. Herodot Lidiya çarı Kandavlın silah daşıyanı olan Qiqin, çarın arvadının çılpaq bədənini gördükdən sonra, bu qadının təhriki ilə ağılsız çarı öldürərək, taxt-taca və üstəlik hökmdarın arvadına sahib çıxmasını özünün "Tarix" kitabında nəql edir.

653-cü ildə Aşurbanipal iri ordu göndərib, elamitləri məğlub etdi. Onların çarı öldürüldü,  Elam təslim oldu. Bu qələbə Babilistan üçün ciddi nəticələrə səbəb oldu. Şəməş-şam-akin ağalıq edən qardaşının himayəsində tənbəl böyüyürdü və o, 656-cı ildə öz qardaşına qarşı iranlılarla, elamitlərlə, arameylərlə, ərəblərlə və misirlilərlə gizli ittifaq bağlamışdı. Məğlub olan Elamın bu ittifaqdan geri çəkilməsi isə 652-ci ilin sonunda onun vaxtından əvvəl hücum etməsinə səbəb oldu. Bu vaxt o, Misirin vəd etdiyi köməyi də gözləmədi. Aşurbanipal, gözlənilmədən tezliklə bütün qoşunları bir yerdə irəli atdı. Babilistanlıların ordusu məğlub oldu, çarın qardaşı öz istehkamlanmış Babil şəhərində mühasirəyə alındı. Onun müttəfiqləri Aşurbanipala qarşı durmaq iqtidarında deyildilər. Köməyə gələn ərəb dəvə süvarisi qoşunları da məğlub edildi. Babil şəhəri üç il ərzində mühasirədə qaldı. 648-ci ildə

şəhər tutuldu və burada dəhşətli qırğın səhnələri baş verdi. Şəməş-şam-akin yanan sarayda öldü.

Assuriyalılar 648-ci ildən sonra ərəblərin üzərinə bir neçə cəzalandırmaq xarakterli yürüşlər etdilər, onların qabaqdakı qüvvələrini dağıdıb, içərilərə soxuldular. Lakin assuriyalıları düşündürən əsas məsələ Elamla nəhayət ki, öz problemlərini həll etmək idi. Elam 647-ci ildə Arameya printsini verməkdən imtina edəndə, bu bəhanədən yeni hücum və onları ölkənin ərazilərinin lap içərilərinə kimi qovmaq üçün istifadə edildi. Möhkəm istehkamlanmış paytaxt Suza şəhərinə bir il sonra olan hücum onun tutulması ilə nəticələndi. Assuriyalılar məbədlər və saraylar daxil olmaqla şəhəri dağıtdılar. Buranın yuxarı sinifləri adəti qaydada Assuriyaya və imperiyanın digər hissələrinə sürgün edildi, Elam Assuriyanın bir əyalətinə çevrildi. İmperiya öz torpaqlarını İranın şimali-qərbinə genişləndirdi. Persiya çarı I Kir Nineviyaya bac və girovlar göndərirdi, bununla yəqin ki, Midiya ilə öz sərhədlərinin himayə edilməsini qoruyub saxlamaq istəyirdi.

Aşurbanipalın kampaniyaları barədə heç də həmişə xronikal qaydada məlumat verilmir, lakin onların niyyətlərinə görə bu yürüşlər qruplaşdırılmışdır. Onun ən gözəl nailiyyətlərindən biri Nineviyada böyük kitabxananın yaradılması idi. Həmin eranı öyrənməkdə bu gün də kitabxana ən mühüm mənbələrdən biri hesab olunur. Kitabxana binasının tikintisinə çar özü nəzarət edirdi. Mühüm əsərlər bir neçə nüsxədə saxlanırdı, bəziləri çarın öz şəxsi istifadəsi üçün nəzərdə tutulurdu.

Aşurbanipalın yazılarında onun iri heyvanların qızğın ovçusuna çevrilməsindən, yırtıcı şirlərlə döyüş ərzində bu zövqə yiyələnməsindən bəhs edilir. Nineviyadakı sarayında ov səhnələrinin uzun sıraları, rəssamın bunu necə ustalıqla barelyeflərdə təsvir etdiyini göstərirdi. Bu barelyeflərdə Assuriya rəssamlığı öz zirvəsinə çatmışdı. Bir çox döyüş təsvirlərindəki, xüsusən Elamda aparılan müharibə vuruşlarındakı səhnələr insan fiqurları ilə doludur. Ərəblərin dəvə süvarisi qoşunları ilə vuruşları təsvir edən rəssamlar bu işdə gözəl bacarıq və qabiliyyətə malik olmalarını nümayiş etdirmişlər.

Assuriya imperiyasının möhkəmliyinin bir səbəbi də işğal edilmiş ərazilərdən böyük sayda adamların deportasiya edilməsi və onların yerinə başqalarının yenidən məskunlaşdırılması təcrübəsi idi. Bu işğal edilmiş xalqların çoxunu, öz hakimiyyətlərini əldə etməkdən kənarda saxlayırdı. Digər bir mühüm cəhət o idi ki, işğal edilmiş ərazilərdə təlim keçmiş qulluqçuların başçılığı altında yüksək dərəcədə inkişaf etmiş mülki xidmət qurulurdu. Generallar çox vaxt yüksək rəsmi mövqe tuturdular, özü də xüsusən əyalətlər-

də. Mülki xidmətdə 100 minə qədər adam çalışırdı, onlardan çoxu tabe edilmiş əyalətlərin keçmiş sakinləri idi. Əsirlər qullara çevrilirdilər, lakin sonralar çox vaxt azad edilirdilər.

Müqaviləni pozanlar sərt cəzalara məruz qalırdı, hətta xırda əhəmiyyətə malik olan işlərdə belə, bu cəzalara oğlunu qurban vermək və ya bir girvənkə yun yeyib və böyük miqdarda su içmək daxil idi, bu tədbir sonra əzablı ölümə aparırdı. Qadının vəziyyəti pis idi, çariça və bir sıra keşiş qadınlar istisna təşkil edirdi.

M.ə. 635-ci ildən sonra vətəndaş müharibəsi baş verdi və bu imperiyanı xeyli zəiflətdi, bundan sonra o, uzun müddət xarici düşmənlərə qarşı dayana bilməzdi. Aşurbanipal iki əkiz oğlundan birini özünə varis elan etdi, digəri bununla razılaşmadı. Onların arasında başlanan vuruş və həm də tərəfdarları qoca çarı Harana çəkilməyə məcbur etdi və 627-ci ildəki ölümünə qədər beş il ərzində oradan yalnız imperiyanın qərb hissəsini idarə etdi. Beləliklə, Aşurbanipal Assuriya imperiyasına 41 il ərzində başçılıq etdi.

Onun ölümündən sonra Assuriyanın çətin günləri başlandı. M.ə. 626-cı ildə skiflər Suriyanı və Palestinanı viranə qoydular. Midiyalılar bir il sonra imperiyanın İran əyalətlərini işğal etdilər. 616-cı ildə midiyalılar Nineviyaya zərbə endirdilər, yunan tarixçisi Herodotun məlumatına görə isə, midiyalılar skiflər tərəfindən geri oturtdurdular. İki il sonra midiyalılar köhnə paytaxt Aşuru işğal etdilər, şəhəri qarət edib, dağıtdılar. Daha iki il sonra isə müttəfiqlərin üstün qüvvəsi qarşısında Nineviya təslim oldu. Assuriyalılardan alınan intiqam dəhşətli idi. Ksenofont hətta iki yüz il keçəndən sonra da ölkənin əhalisinin olduqca seyrək olduğunu müşahidə etmişdi. 609-cu ildə isə qalan Assuriya qoşunları təslim olmağa məcbur oldular və Assuriya tarixdən silindi. Ondan sonra gələn böyük imperiyalar nifrət olunan assuriyalılardan iki şeyi - rəssamlığı və öz dövlətlərinin təşkilatlanmasını öyrəndilər.

Assuriya imperiyası tarixdə ilk imperiya idi və bu dövlət ilk imperiya inzibati quruluşuna malik idi. Bu dövlət şəhərlərin və kənd mahallarının mürəkkəb qarışığından ibarət idi. Kənd mahalları yerli torpaq sahibləri tərəfindən idarə olunurdu, onlar kəndliləri demək olar ki, təhkimçilər kimi idarə edirdilər. Ölkəni asılılıqda olan regionlar əhatə edirdi, onların hər birini assuriyalı canişinlər idarə edirdi. Canişinlər böyük səlahiyyətlərə malik olsalar da, mərkəzi sarayın qulluqçuları, agentləri və casusları vasitəsilə yaxından yoxlanırdılar. Əyalətlərdəki bəzi şəhərlər birbaşa Assuriya nümayəndələri tərəfindən idarə olunurdu. Assuriya qarnizonları bir neçə əsas fortlarda yerləşmişdi. Çarlar bahalı saraylar tikdirirdilər və mərkəzi bürokratiyanı yara-

dırdılar. Sarayda baş piyalə təqdim edənlər, otaq qulluqçuları, hərəmağaları - yevnuxlar olurdu. Assuriya monarxiyasında hər yerdə çar diqqət mərkəzində dayanırdı. Bəzən çar ağaclarla və meyvələrlə dolu olan gözəl bağlarda nahar edirdi. Hər yerdən bac gətirənlər ona öz ölkələrinin var-dövlətini daşıyıb verirdilər. Sonuncu əsas çar olan Aşurbanipal müstəsna dərəcədə savadlı adam idi, o, riyaziyyatı, astronomiyanı, ilahiyyatı da hərb elmi kimi yaxşı öyrənmişdi. O, qədim Şumer yazısında yazması ilə öyünürdü, və demək olar ki, vaxtının çoxunu imperator vəzifəsinə aid olan işlərə deyil, kitablara həsr edirdi. Onun Nineviyadakı sarayında olan 20 min lövhə, başqa sözlə onun kitabxanasının böyük hissəsi sonralar aşkar edilmişdi. Bu gil lövhələrdə "Qilqameş dastanı"nın Akkad versiyası və digər Mesopotamiya əhvalatları nəqş edilmişdi. Aşurbanipal incəsənətə himayəçilik edirdi, lakin onun dövrünün başa çatması təkcə bu sahənin tənəzzülünə deyil, həm də dövlətin süqutuna yol açdı və ölümündən bir qədər sonra Assuriyanın tarixdən silinməsi ilə nəticələnən ağır və sağalmaz günləri başlandı.

Cənubi Mesopotamiyada Assuriya ağalığına müqavimət göstərildiyi əsr ərzində, bu müqavimətdə daha görkəmli yeri tutan xalq semit dilində danışan xaldeylər idi, onlar midiyalılarla birlikdə Nineviyanı viranə qoymuşdular. Midiyalılar Anatoliyaya müdaxilə etdiklərindən, xaldeylər bütün Mesopotamiyanın ağası olaraq qaldılar. Onlar Babili öz paytaxtları etdilər və tarixçilər fərqləndirmək üçün onları Yeni babilistanlılar adlandırdılar. Yeni Babilistanın ən məşhur hökmdarı II Nebuhadonosor idi. O, m.ə. 604-cü ildə hökmranlığa başladıqdan sonra tez-tez birinci növbədə misirliləri oradan qovmaq üçün Suriya və Palestinaya yürüşlər edirdi. Bundan əvvəl, hələ ilk dəfə 605-ci ildə o, misirliləri qəddar, qanlı müharibədə tarmar edib, cənuba qədər onları təqib etdiyi vaxt, atasının ölüm xəbərini aldı. Bundan sonra o, tezliklə Babilə qayıtdı çar taxt-tacına oturduqdan sonra filistin şəhəri Aşkelonu tutdu. Üç il sonra o, Misirə daxil olmağa cəhd etdi, lakin qanlı, nəticəsiz müharibədən sonra geri oturduldu.

598-ci ildə İudeya çarı Misirin köməyinə bel bağlayaraq qiyam qaldırdı və 597-ci ilin 16 martında Yerusəlim Nebuhadonosor tərəfindən işğal edildi, çar İoakin ən azı 3 min nəfər yəhudi ilə birlikdə Babilistana sürgün edildi.

Sənədlərdən gələn məlumatlara görə, onlarla orada yaxşı davranıldı. Zedekia yeni çar təyin edildi. Bir il sonra şərqdən təhlükə meydana gələndə Nebuhadonosor Dəclə sahilinə gəlib, düşməni geri çəkilməyə məcbur etdi.

Bibliyaya görə İudeya bir daha 589-cu ildə qiyam qaldırdı. Yerusəlim mühasirəyə məruz qaldı və 18 ay davam edən bu məhvedici tədbirin nəticə-

sində şəhər təslim oldu və bütünlüklə dağıdıldı. Minlərlə yəhudi "Babilistan əsirliyinə" göndərildi, onların ölkəsi isə Babilistan imperiyasının əyaləti vəziyyətinə salındı. Misirlilərin müdaxiləsi ilə qiyam baş verdi və onlar Sidona qədər irəlilədilər. Nebuhadonosor Tiri 13 il mühasirədə saxlasa da, şəhəri tuta bilmədi, çünki bu vaxt onun sərəncamında donanma yox idi. 568-567-ci illərdə o, Misirə yenə də uğursuz hücum etdi, lakin bundan sonra misirlilər Palestinaya sonrakı hücum cəhdlərindən əl çəkdilər. O, Midiya ilə sülh şəraitində yaşayırdı və Midiya-Lidiya müharibəsindən sonra vasitəçi kimi fəaliyyət göstərirdi.

Nebuhadonosor m.ə. 604-562-ci illər ərzində 42 il hökmranlıq etdi. Onun oğlu Auil-Marduknun çarlığı (m.ə. 561-560-cı illər) uzun çəkmədi və tezliklə səhnədən çıxdı. Çünki o, Marduk keşişlərinin dəstəyini qazana bilməmişdi. Bu dəfə onun kürəkəni taxt-tacı ələ keçirdi. Sonrakı çar arameyli Nabonidas olmaqla 16 il ərzində hökmranlıq etdi. Harandan olan bu adam qədim dövrlərin ən maraqlı və müəmmalı şəxsiyyətlərindən biri idi. Çar taxt-tacına çıxanda o, Kilikiyaya hücum etdi və midiyalıların idarəçiliyində olan Haranı təslim etdi. O, persiyalılara qarşı Midiya çarı ilə müdafiə xarakterli müqavilə bağladı. Daxili çətinliklər və şərqdən gələn başlıca hücumlardan müdafiə oluna bilməmək, çarı üç il sonra Babilistanı tərk etməyə və şimali Ərəbistanda yerləşməyə məcbur etdi. Yəhudi muzdluların köməyi ilə burada ərəb əyaləti təşkil etdi. Babilistanda isə onu çarın, Bibliyanın "Deniel" kitabında Belşazzar adlanan oğlu - çarın müavini kimi əvəz edirdi. Persiya çarı Kir bu vəziyyətdən Midiyanı anneksiya etmək üçün istifadə etdi.

Nabonidas qayıdanda Kirlə vuruşmaq üçün Lidiya çarı Krezlə ittifaq bağladı. Lakin Kir Lidiyaya hücum edib, 546-cı ildə oranı anneksiya etdi. Bu vaxt Nabonidas heç ona kömək etmək iqtidarında da deyildi. Kir isə öz zamanının gəldiyini hiss edirdi. Çarın oğlu xarici məsələləri həll etməyi bacarsa da, atasına qarşı olan daxildəki müxalifətlə bacarmırdı. Nabonidas Babilistana qayıdanda artıq onun karyerası xeyli kövrək olmuşdu. O, Şumer - Köhnə Babilistan dini adətlərinə qayıtmaq üçün öz qızını Urdakı Sin allahının ali keşiş qadını etdi. Bu vaxt Marduk keşişləri daha yaxşı münasibətinə ümid bəslədikləri Kirə tərəf döndülər. Onlar Babili Persiya çarına döyüşsüz təslim edəcəklərini vəd etdilər, çar isə əvəzində onlara əvvəlki imtiyazlarını qaytaracaqdı. 539-cu ildə Kir böyük qüvvə ilə şimali Babilistana hücum etdi. Nabonidası məğlub edib, döyüşsüz Babil şəhərinə girdi. Digər şəhərlər də heç bir müqavimət göstərmədilər, Nabonidas təslim oldu. Ona İranın şərqində kiçik ərazi verdilər.

Babilistanın Kirə dinc qaydada təslim olması, Assuriyanın taleyini yaşamaqdan onu xilas etdi. Bu ölkə Persiya tacı altındakı əraziyə çevrildi, lakin öz mədəni muxtariyyətini saxladı.

M.ə. 620-ci ildən başlayaraq babilistanlılar Assuriya idarəçiliyindən cana gəlmişdilər. Onlar daxili çarpışmalardan da zəifləmişdilər. Assuriyanın süqutundan sonrakı 60 ildə heç bir xarici düşmən Babilistana təhlükə törətməmişdi. Bu dövrdə ölkə iqtisadi cəhətdən möhkəmlənmişdi. Heyvandarlıq, quşçuluq inkişaf edirdi, taxıl, xurma, tərəvəz istehsalı mühüm sahələri təşkil edirdi. İmperiyanın qərb əyalətlərini birləşdirən həm su, həm də quru yollar vasitəsilə əlaqələrin yaxşılaşdırılması üçün çox işlər görülmüşdü. Assuriya imperiyasının tənəzzülünün nəticəsi o oldu ki, bir çox ticarət arteriyaları Babilistandan keçməyə başladı. Başqa bir nəticə isə ondan ibarət idi ki, Babil dünya mərkəzinə çevrildi.

Babilistan imperiyası Nebuhadonosorun hökmranlığı dövründə Misir sərhədinə qədər genişləndi. O, yaxşı fəaliyyət göstərən inzibati sistem yaratmışdı. O, həddən çox vergi və bac yığırdı ki, öz ordusunda qaydanı qoruyub saxlaya bilsin, həm də bu pullardan quruculuq layihələrinin maliyyələşdirilməsində istifadə edirdi. Nebuhadonosor Babilistanı Qərbi Asiyada ən varlı ölkələrdən birinə çevirmişdi. Bu çox qəribə hal idi, çünki assuriyalılar tərəfindən idarə edilən vaxtı nisbətən xeyli kasıb idi. Babil "sivilizasiyalanmış dünyanın" ən iri şəhəri idi. Çar mövcud kanallar sisteminin yaxşı vəziyyətdə olmasına qayğı göstərirdi və çoxlu su ilə təmin edən kanallar tikdirmişdi. Bu tədbirlər torpağın münbitliyinin yüksəlməsinə gətirib çıxarmışdı. Ticarət və kommersiya inkişaf edirdi.

Nebuhadonosorun quruculuq fəaliyyəti Assuriya çarlarınkından xeyli üstün idi. O, Babilin köhnə ikiqat divarlarını istehkamlandırdı və köhnə divarın xaricində üçüncü divar tikdirdi. Üstəlik, o, Midiya divarı adlanan digər bir divarı da qaldırdı. Bu şəhərin şimalında, Fərat və Dəclə çaylarının arasında yerləşirdi. O, köhnə saraya çoxlu artırmalar əlavə etdi və yüzlərlə otaqdan və daxili saraydan ibarət kompleks imperiyanın mərkəzi idarəçiliyinin iqamətgahı oldu. Onun divarlarını rəngli kaşı relyeflər bəzəyirdi. Şəhərin yaşıllığına "Asılı bağlar" adlanan terras bağlar əlavə olundu. Bu dünyanın yeddi möcüzəsindən biri idi və səhvən Assuriya çariçası Semiramida tərəfindən bu bağın salındığı güman edilirdi. Bu layihələrin həyata keçməsi üçün yüz minlərlə ölçülən işçi qüvvəsi tələb olunurdu. O, Babil qülləsinin tikintisinə də böyük maraq göstərirdi. Qüllənin bünövrəsinin hər tərəfdən eni 91 metr, hündürlüyü də 91 metr idi, əslində öz ölçüləri ilə müəyyən qədər piramida-

larla müqayisə olunmaq istəyirdi. Özünə qədər olan digər məbədlərdən hündürlüyü iki dəfə artıq idi. Divarlardan keçib, daxili şəhərə girmək üçün nəhəng "İştar qapısı"ndan daxil olmaq lazım gəlirdi. Bu qapı kirəmitdən olan relyef bəzəkləri ilə dünya şöhrəti qazanmışdı. Çar paytaxtın abadlığı ilə kifayətlənməyib, ölkənin hər yerində kiçik məbədlər tikdirirdi.

Yeni Babilistanın mədəni nailiyyətləri içərisində ən mühümü səltənətdə astronomiyanın çox inkişaf etməsi idi. Hələ qədim şumerlər ayın dövr etməsini müşahidə edərək, mövsümlərin uzunluğunu bilməyə imkan verən təqvim yaratmışdılar. İki min il sonra da mesopotamiyalılar gecə səmasını öyrənməkdə davam edirdilər, lakin indi diqqətlərini planetlərin və ulduzların hərəkətlərində cəmləşdirmişdilər. Buradan belə bir qənaətə gəlmişdilər ki, allahlar göydə qərar tutmuşlar, planetlərin və ulduzların hərəkəti ilə onlar ilahi qüvvənin hakimiyyətə və insan işlərinə necə təsir göstərəcəklərini əvvəlcədən xəbər verirdilər. Yeni babilistanlılar beş "dolaşan ulduzu" fərqləndirirdilər. Bu ad altında onlar planetləri nəzərdə tuturdular, onlarla beş allahın qüdrətini əlaqələndirirdilər. Yəqin buna görədir ki, romalılar ildəki beş planetin adını öz allahlarının - Merkuri, Venera, Mars, Yupiter və Saturnun adı ilə adlandırmışdılar. Bunlardan da bəziləri sonralar ay və həftənin günlərinin adına keçmişdi (mart və iyun aylarının, həmçinin həftənin üçüncü və altıncı günlərinin adı kimi, birinci gün isə yerin peyki olan ayın adı ilə adlanmışdı). Yeni babilistanlılar bir az da irəli gedərək belə bir nəticəyə gəldilər ki, götürülən bir planet gecə səmasının hansısa xüsusi bir hissəsində görünsə və ya digər planetə çox yaxınlaşsa, onun hərəkəti müharibə və ya aclığın əlamətinin biridir və ya bir xalqın digər xalq üzərindəki qələbəsindən xəbər verir. Bu sistemlər astrologiya adlansa da, çox inkişaf etmişdi. Yeni babilistanlıların astrologiyası kosmik hadisələr, daşqınlar, aclıqlar və xalqların taleyi barədə müstəsna qaydada məlumat verməyə xidmət edirdi.

Bu gün astrologiya xurafat hesab olunsa da, Yeni babilistanlılar göy hadisələri ilə yer hadisələri arasında əlaqəni axtarmaqla, o dövrün şəraitində məhz elmlə məşğul olurdular. Digər sözlə deyilsə, insanlar inanırdılar ki, onlar öz kainatlarının ölçüsünü müəyyən edə və ona nüfuz edə bilərlər, buna görə də bundan daha çox elmi fayda götürmək istəyirdilər. Onların müşahidələri barədəki məlumatları sonradan digər xalqların astronomları istifadə edib, təkmilləşdirdilər.

Mesopotamiya sivilizasiyasının taleyinə gəldikdə, m.ə. 539-cu ildə region persiyalılar tərəfindən işğal edilməklə, bu era başa çatdı. Çünki bir daha bu ərazini yerli xalqlardan və sülalələrdən olan adamlar idarə etmədilər.

Tədricən, persiyalıları yunanlar, yunanları romalılar, romalıları ərəblər əvəz etdilər. Mixi yazısından istifadəyə son qoyuldu, buraya əcnəbi incəsənət və memarlıq üslubları gətirildi, köhnə şəhərlər xarabalıqlara çevrildi və yeniləri ilə əvəz olundu.

Bütün bunlarla yanaşı Mesopotamiya irsi bir neçə yolla yaşamaqda davam etdi. Onlardan biri qədim yəhudi Bibliyası idi. Erkən yəhudi xalqları Palestinaya köçməmişdən əvvəl Mesopotamiyada məskunlaşmışdılar. Onlar Köhnə babilistanlılara qohum olan bir dildə danışırdılar. "Başlanğıc" kitabına uyğun olaraq çar Nimrod "Babili, Erexi (Uruku) və Akkadı" idarə edirdi. Abraham isə Palestinaya "xaldeylərin Ur"undan gəlmişdi, "Babil qülləsi" isə daş əvəzinə kərpicdən, əhəng qarışığı əvəzinə palçıqdan tikilmişdi, bu yəqin ki, Köhnə Babilistan zikkuratına işarə idi. "Qilqameş dastanı"ndakı daşqın əhvalatı oxşar qaydada "Başlanğıc" kitabında təsvir olunur, qoca şumer kimi Nuh da gəmidə xilas olur. Nuh öz sələfindən fərqli olaraq suyun enməsini quşu uçurdub, dimdiyində zeytun yarpağı ilə geri qayıtması ilə müəyyən edir. Bibliyada Sennaherib və Nebuhadonosor dövrlərindən başlayaraq assuriyalılara və babilistanlılara qədim yəhudilərin nifrət etdikləri göstərilir. Çünki bu xalqlar ardıcıl olaraq onlara hücumlar edirdi.

Bibliyanın "İsayya", "Yeremiya" və "Şikayətlər" kitabları m.ə. 8-ci əsrin ikinci yarısından başlayaraq 586-cı ildə Yerusəlimin dağıdılmasına qədər olan dövrü, yəhudilərin və qonşu xalqların təsviri ilə nəql edir. "İzekiel" kitabı Yerusəlimin təslim olmasından əvvəlki və sonrakı dövrlərdən söhbət açır. "Deniel" kitabı isə Babilistan və Persiya imperiyalarının dövrünə nəzər salır və bu müdrik adamın simvollar vasitəsilə Babilistandan başlayaraq bir neçə imperiyanın uğurlu yüksəlməsini və süqutunu, zülmkarların yıxılacağını əvvəlcədən xəbər verməsini ifadə edir.

Hələ İsayya güclü qonşuları olan cənubdakı Assuriya çarlığının İudeyaya təhlükə törədəcəyini bildirirdi. Peyğəmbər, dəhşətli hadisələr baş verdikdən sonra da irəlini görərək deyir ki, Allah Babilistanda sürgündə olan İudeya xalqını azad edəcək və onları vətəni Yerusəlimə qaytaracaqdır. Peyğəmbər Yeremiya isə Yerusəlimin Yeni Babilistan çarı Nebuhadonosor tərəfindən məğlub edilməsi, şəhərin dağıdılması dövründə yaşamışdır, İudeya çarının və çoxlu adamların Babilistana sürgününün şahidi olmuşdur. O da həmçinin xalqının sürgündən qayıdacağını və millətinin gələcək dirçəlişini əvvəlcədən söyləyir. "Şikayətlər" kitabı isə m.ə. 586-cı ildə Yerusəlimin viran qoyulmasından irəli gələn cinayətlərə həsr olunmuş beş poemanın toplumudur. Bu poemalar müqəddəs şəhərin faciəsinə həsr olunmuş hüzn dolu ağılardır.

Bu kədər "Əvvəllər adamlarla dolu olan Yerusəlim necə də sakinsizsən! Dünya tərəfindən şöhrətləndirilən şəhər, indi dul qadına bənzəyirsən, şəhərlərin ən nəcibi indi qul olmuşdur" sözləri ilə verilir. Çıxılmazlıq, ümidsizlik şəraiti belə təsvir olunur: "O, (Allah) məni zəncirə sarımışdılar, mən qaçmaq ümidi olmayan dustağam. Mən kömək üçün ucadan qışqırıram, lakin Allah eşitməkdən imtina edir; mən yeriyəndə büdrəyirəm, hara dönürəmsə, orada daş divarlar vardır". Kitab dağıdılmış şəhərin acı dərdlərini tükürpərdici realistik formada təsvir edir: "Müharibədə həlak olmaq, sonra ölməkdən yaxşı idi - çünki adamlar aclıqla yavaş-yavaş ölürdü, onları da saxlamaq üçün heç bir qida yox idi. Xalqımın üstünə gələn bədbəxtlik dəhşət gətirir; sevən analar yemək üçün öz uşaqlarını qaynadıb bişirirlər".

Bu səhnələrlə Bibliyanın kitabları tarixin həmin dövrlərini xatırlatmaqla, hökmdarların zülm və dəhşət gətirən fəaliyyətini lənətləyir.

# FƏSİL 3
# MİSİR SİVİLİZASİYASI

Aşağı Mesopotamiya dünyanın sivilizasiyaya irəliləməsi üçün ilk zona olduğu halda, Misir meydana çıxmaqla eyni səviyyəyə yüksəldi, ancaq ondan azacıq sonra səhnəyə çıxsa da, onun kökləri müstəqil idi.

Qədim Misir tarixi adətən altı eraya bölünür: arxaik dövr (m.ə. 3100-2770-ci illər), Köhnə Çarlıq (m.ə. 2770-2200-ci illər), birinci aralıq dövrü (m.ə. 2200-2050-ci illər), Orta Çarlıq (m.ə. 2050-1786-cı illər), ikinci aralıq dövr (m.ə. 1786-1560-cı illər) və Yeni Çarlıq (m.ə. 1560-1087-ci illər). Arxaik dövrün başlanğıcından sivilizasiyanın yaradılması və irəliyə aparılması üçün misirlilər bir sıra fundamental addımlar atdılar. Hər şeydən əvvəl, onlar oturaq kənd təsərrüfatı işləri ilə məşğul olmağa başladılar. Onlar daş alətlərdən savayı mis alətlərdən istifadə etməyi öyrəndilər və m.ə. 3200-ci illərdən bir az əvvəl heroqlif kimi tanınan yazı sistemini tətbiq etdilər. Misirlilərin özünə yazı ideyasının gəlməsi və ya bu ideyanın Mesopotamiyadan əxz edilməsi barədə dəqiq fikir yoxdur. Bir məsələ də vardır ki, heroqlif sistemi mixi yazısından çox fərqlidir. Yazı, əlbəttə ki, idarəetmə işində böyük səmərə verirdi və ölkənin şimalı ilə cənubunun birləşməsinə şərait yaradan amillərdən biri olmuşdu.

Misirin birləşməsi arxaik dövrdə, m.ə. 3100-cü illər ətrafında baş vermişdi. Bu vaxta qədər Yuxarı və ya cənubi Misir və Aşağı və ya şimali Misir ayrıca hakimiyyətlər tərəfindən idarə olunurdu. Nil çayının bütün uzunluğu boyu onun sərbəst axınına əmin olmaq üçün vahid idarəetmə vacib idi və birlik Misirin gələcəyi üçün mühüm əhəmiyyət kəsb edirdi. Bu həm də irriqasiya layihələrinin birbaşa mərkəzləşməsini təmin edəcəkdi. Misirin birləşməsi adəti olaraq cənubdan olan Narmer adlı döyüşçünün fəaliyyəti ilə əlaqələndirilir. O, ilk faraon idi ki, nəzarəti altındakı bütün Misiri şimalda Aralıq dənizi deltasına gətirib çıxarmışdı. "Faraon" sözünü qədim misirlilərin özləri işlətmirdilər, bu söz Bibliya əhvalatlarından götürülmüşdür. Birləşmə, çox güman ki, tədricən gedən bir proses idi, ancaq öz səmərəliliyini beş min il ərzində sübut etdi. "Yuxarı və Aşağı Misirin çarı allah olub, həyat əslində onun əməlindən asılı idi, o bütün adamların atası və anası idi, ona bərabər olan heç kəs yox idi". Faraonun iradəsi dilə gətirilən kimi həyata keçirilməli idi. Müəyyən mənada məhz bu səbəbə görə Misir heç vaxt Mesopotamiyanın yazılı qanun kodeksinə yüksələ bilməmişdi. Faraon yer üzərindəki

allah idi. onun çar titulu "Hor" idi, o, isə Ranın oğlu kimi təsvir olunurdu.

M.ə. 2770-ci illər ətrafında ilk iki Misir sülaləsi qüdrətli Coser tərəfindən əvəz edildi və o, Üçüncü Sülalənin ilk çarı və Köhnə Çarlığın banisi oldu. O, Misirin cənub sərhədini Nil çayındakı Birinci Şəlalə yaxınlığında qoydu.

Coser ilk Misir çarı idi ki, ölkənin resurslarını və inzibatçılığını təşkil edib, inkişaf etdirdi. O, ilk faraon idi ki, nəhəng sərdabə abidəsi yaratmağı bacarmışdı. Öz hakimiyyətini nümayiş etdirərək, bu yolla o, öz yeni ənənəsini yaratdı, onun yüz illər boyu davam edən varislərindən biri bu şərəfə özü iddia edəcəkdi. Tikili hər şeydən əvvəl misirlilərin özlərinin ifadə vasitəsi idi. Bundan əvvəl kərpicdən dəfn otaqları tikilirdi, onlar mastaba adlanmaqla, ölü hökmdar üçün ehtiyatları himayə edir və onun kultu üçün məbəd rolunu oynayırdı.

Sadəcə olaraq, Step piramidası Coserin qəbri, sərdabəsi olmalı idi, əhəng daşından tikilmişdi. Bu piramida, ilk böyük daş tikili idi. Bu onu göstərir ki, yalnız bacarıqlı sənətkarlığın yaxşı təşkilatçılıqla birləşməsi nəticəsində buna nail olmaq mümkün idi. Bunlar Coserin böyüklüyünün daimi şəhadəti idi. Step piramidası çarın nə edə biləciyinin pozitiv sübutu idi və bu onun nəyi simvollaşdırdığını nümayiş etdirirdi. Altıncı Sülalənin yıxılması ilə Köhnə Çarlıq başa çatdı.

Bunun bir neçə səbəbi var idi. Nəhəng piramidalar tikintisi böyük xərclər tələb etdiyindən xəzinə tükənirdi. İqlim çətinlikləri də Misirin hər tərəfində inkişafa mənfi təsir göstərirdi və ərzaq məsələsində qıtlıq yaranırdı. Bu vaxtlarda əyalət kübarları getdikcə daha çox hakimiyyət qəsb edirdilər. Bundan sonra birinci aralıq dövrü gəlib çıxdı. Yenə anarxiya yayılmağa başlamışdı. Kübarlar özlərinin rəqib knyazlıqlarını yaradırdılar, daxili çəkişmələr və səhra tayfalarının müdaxilələri hesabına siyasi xaos artırdı. İlk aralıq dövrü 11-ci sülalə qalxmayana qədər başa çatmadı və həmin sülalə m.ə. 2050-ci il ətrafında Yuxarı Misirdəki Fivada yerləşən bazasından mərkəzi idarəetməni bərpa etdi. Misir tarixinin sonrakı böyük səhnəsi olan Orta Çarlıq gəldi.

Orta Çarlıq dövründə II Mentuhotep yenidən Misiri birləşdirdi. O, Nubiyaya, Liviyaya, Suriyaya və Sinaya yürüşlər etdi. Onun fəal xarici siyasəti varis tərəfindən davam etdirildi.

Orta Çarlığın idarəetməsi öz mövcudluğunun xeyli hissəsi dövründə Köhnə Çarlıqdan daha çox sosial məsuliyyət daşıyırdı. On birinci Sülalənin kübarların hakimiyyətinə qarşı dayana bilməməsinə baxmayaraq, On ikinci Sülalə m.ə. 1990-cı illər ətrafında taxt-taca gələndə orta siniflə ittifaqa girərək, möhkəm idarə etmə qaydasına üstünlük verdi. Həmin dövrdə orta sinfə

qulluqçular, tacirlər, sənətkarlar və fermerlər daxil idi. Bu alyans kübarlığı nəzarətdə saxlayırdı və görünməmiş inkişafın əsasını qoydu. Bütün əhali ictimai işlərə cəlb edilirdi, bu yolla drenaj və irriqasiya sistemləri çəkilirdi, belə işlər heç bir faydası olmayan piramida tikintisini əvəz edirdi. Din də öz köməyini göstərirdi, ümumən xalqda əvvəllər olmayan xilas ümidini genişləndirirdi. Bu dövrdə həmçinin sosial ədalətdə irəliləyiş olmuşdu və çoxlu intellektual nailiyyətlər qazanılmışdı. Bütün bunlara görə On ikinci Sülalənin hökmranlığı ümumən Misir üçün klassik qızıl dövr hesab olunur.

Bundan sonra, ancaq, Misir ikinci aralıq dövrə qədəm qoydu. Bu, digər daxili xaos erasının başlanmasından və iki əsrə qədər davam edən xarici müdaxilələrdən xəbər verirdi. Daxili qayda-qanunun pozulması kübarların əksqiyamının nəticəsi idi. Faraonlar yenə də fərasətsizlik göstərirdilər və On ikinci Sülalənin sosial proqressi bütünlüklə məhv oldu. M.ə. 1750-ci ilə yaxın ölkəyə hiksoslar hücum etdilər. Onlar Qərbi Asiya əslli qarışıq ordalar olub "Əcnəbi ölkələrin hökmdarları" adlanırdılar. Onların hərbi gücü atlara və döyüş arabalarına malik olmalarına əsaslanırdı. Lakin misirlilərin öz aralarındakı fikir ayrılığı, mübahisələri hesabına onlar belə asanlıqla qələbə qazanırdılar. Onların hökmranlığı misirlilərin tarixinə dərin təsir göstərdi. Təkcə ona görə yox ki, onlar misirlilərə yeni vuruş metodları gətirmişdilər, həm də ona görə ki, daha çox əcnəbi tiraniyasını tətbiq etməklə onların ümumi dərd-qəminə səbəb olmuşdular. Lakin onlar həmçinin misirlilərdə öz aralarındakı mövcud fərqləri unutmağa və ümumi məsələdə birləşmələrinə şərait yaratdılar.

M.ə. 17-ci əsrin sonuna yaxın Cənubi (Yuxarı) Misirin hökmdarları hiksoslara qarşı qiyam başladılar, bu hərəkət bütün Misir tərəfindən dəstəkləndi. M.ə. 1560-cı illərdə son işğalçılar qətlə yetiriləndə və ya qul kimi götürüləndə, hiksoslar ölkədən qovuldular. Bu qələbənin qəhrəmanı Ahmos idi. O, On səkkizinci Sülalənin banisi oldu və ölkədə elə rejim yaratdı ki, o dövrə qədər mövcud olanların hər birindən yüksəkdə dayandı. Böyük vətənpərvərlik hissi hiksoslara qarşı mübarizəyə yönəlmişdi, yerli knyazlara loyallıq azaldı, onlarla birlikdə kübarların hakimiyyəti də zəiflədi.

Ahmosun taxt-taca yüksəlməsindən başlanan dövr Yeni Çarlıq adlandı. Bu çarlıq demək olar ki, yarım min il, və ya m.ə. 1560-cı ildən 1087-ci ilə qədər davam etdi və bu dövrdə Misirdə varislik qaydasında faraonların üç sülaləsi hökmranlıq etdi. Bunlar 18-ci, 19-cu və 20-ci sülalələr idi. Dövlətin sülhsevər və təcrid olunma siyasətini uzun müddət aparmaq mümkün olmadı. Təcavüzkar İmperializm ruhu millətin şüuruna daxil olmuşdu, hiksoslara

qarşı uğurlu müharibə hərbi işlərə məftunluq yaratmışdı və bu sonrakı qələbələr üçün də iştah meydana gətirmişdi. Ancaq nəhəng hərbi qüvvə birinci növbədə müdaxiləçiləri ölkədən qovmaq üçün yaradılmışdı.

Ahmosun varislərinin yeni siyasətinin ilk addımları Palestinaya geniş reydlər keçirməkdən və Suriya üzərindəki hökmranlığa iddiadan ibarət oldu. Beləliklə, faraonların Afrikada qurduğu imperiya Palestina və Suriya sahillərində ağır döyüşlər aparıb, öz ilahi himayələrini yuxarı Fərata qədər çatdırdılar. Qədim dövrün ən heybətli ordularından biri ilə yeni faraonlar Suriyadakı bütün müxalifəti yoxa çıxardılar və Fəratdan Nilin cənub hissələrinə qədər geniş bir ərazinin ağasına çevrildilər. Bu mahalda ilk böyük işğalçı I Tutmos (1528-1510 illər) oldu. O, Misirin hər bir torpaqda ağa olması ilə öyünürdü. Lakin onlar heç vaxt məğlub edilmiş xalqları öz loyal təbəələrinə çevirmədilər və bu zəiflik Suriyada geniş yayılan qiyam üçün siqnal oldu. Onların varislərinin üsyanı yatırtmalarına və imperiyanı bir neçə müddətə bir yerdə saxlamalarına baxmayaraq, bütünlüklə bu fəsad aradan qaldırılmadı. Bir çox ərazilər yaxşı idarə edilmək əvəzinə ölkənin torpaqlarına qatıldı. Misirə sərvət axınının zəifləməsi milli xarakterin xüsusiyyətlərini sürətlə korladı və daimi qiyamlar dövləti gücdən salırdı, onun bərpasına ümid yeri də qoymurdu. 12-ci əsrdən başlayaraq isə işğal edilmiş əyalətlərin əksəriyyəti ardıcıl olaraq itirildi.

Çarlarının lovğalanmasına baxmayaraq, əslində Asiyanın içərilərinə Misirin bu və buna bənzər hücumları başlıca olaraq soyğunçuluq, cəzalandırma ekspedisiyaları olmalı idi. Misir cəmiyyətinin bütün elementləri heç də dənizin o tayındakı ekspansiyaya hüsn-rəğbət bəsləmirdi. Dinc ticarət və daxili dəbdəbəyə, diqqətin cəmlənməsinə xidmət edən fasilə I Tutmosun qızı, çariça Hatşepsutun (1490-1468-ci illərdə hökmranlıq etmişdir) hökmdarlığı dövrünə təsadüf etdi. Bu cəsarətli qadın qədim dövrlərin ən maraqlı şəxsiyyətlərindən biri olmaqla, II Tutmosun ögey bacısı və həm də arvadı idi. Qardaş-bacı nikahı Misir çar evində bəzi hallarda tətbiq edilirdi. Onun ölümündən sonra Hatşepsut hakimiyyəti ələ keçirdi və onun həqiqi şəriki və ögey oğlu olan III Tutmosu möhkəm nəzarət altında saxladı. 22 il ərzində Hatşepsut öz adından hökmranlıq etdi və qadın hökmdarın saray etiketinin törətdiyi çətinliklərə baxmayaraq ölkənin hüdudlarında sülhü qoruyub saxladı. Bu etiketin çətinliyinə isə onu misal göstərmək olar ki, abidələrdə qadın, çarlığın əcdad saqqalı ilə təsvir edilirdi. 1468-ci ildə onun ölümündən sonra, ağa olmağa cəhd etmiş III Tutmos öz ögey anasının adını böyük abidələrdən sildirdi. 1436-cı ildəki ölümünə qədər Palestina və Suriya ərazilərinə 16 ya 17

ekspedisiyaya başçılıq edərək, Misirə nə vaxtsa hökmdarlıq edənlərdən ən qüdrətlisi oldu. Palestina və Suriyadakı Misirin hökmranlığı sonrakı əsrdə davam etdi. Bu rəqabət aparan çox sayda dövlətlər arasında tarazlığın və Münbit Ayparaya təzyiqlərin güclənməsinin müvəqqəti erası idi. Bu dövrün gil lövhələrində yazılan məktublarda Kassit, Assuriya və Hett monarxları Misir faraonunu öz qardaşları adlandırırdılar, onun ailəsindən olan qadınlarla evlənməyə çalışdıqları kimi, hərəmxanasına öz qadınlarını göndərirdilər və israr edirdilər ki, o, "saymaq mümkün olmayan böyük miqdarda qızıl göndərmişdir, çünki mənim qardaşımın torpağında qızıl toz kimi çoxdur".

III Amenhotepin (1405-1367-ci illər) və onun oğlu IV Amenhotep və ya Axenatopun (1367-1350-ci illər) hökmranlıqları dövründə çar diqqətini zəiflətdi və həm də təbəələr Misirə münasibətdə onların hüsn-rəğbətini yox etməyə çalışan hettlərin yalan sözlərinə şirnikirdilər. Bəzi tabelikdə olan şəhərlər dəfələrlə kömək barədə müraciət etdiyindən, faraon bunu eşitmək də istəmirdi. Bəzi gil lövhələr, bunun əvəzində qiyamçılar tərəfindən onun əsir götürülməsi və öldürülməsi barədə qısaca məlumat verirlər. Yerusəlimdəki onu sədaqətli dəstəkləyənlərdən biri çar sarayında narazılıq yaratmaqla, dövləti dağıtmaq üçün, öz katibini məcbur etmişdi ki, "bütün torpaqların çarı, mənim ağam ölmüşdür" sözlərini desin. Beləliklə, Misirin Asiyadakı hökmranlığı parçalanırdı, buna heç hansısa bir döyüş də lazım gəlmirdi.

Yeni Çarlığın və ya imperiyanın idarə olunması Köhnə Çarlığınkına bənzəyirdi, lakin daha çox mütləq xarakter daşıyırdı. Faraon idarəçiliyinin əsasını bu vaxt hərbi qüvvə təşkil edirdi. Təbəələri qorxuzmağa professional ordu həmişə qadir idi. Keçmiş kübarların əksəriyyəti saray adamlarına və ya saray bürokratiyasının üzvlərinə çevrilmişdilər, onlara isə ümumi və tam ağalığı çar həyata keçirirdi.

18-ci Sülalənin son və qoca yaşında olan faraonu, özünün oğlu olmadığından generalları və vəzirləri içərisindən varisliyə I Ramzesi seçdi. Yeni çar, yeni 19-cu Sülalənin nəzərə çarpan siyasi dəyişiklikləri ilə yanaşı, şərqi deltadan şimala getdi. Sonra onu öz oğlu əvəz etdi, nəhayət m.ə. 1304-cü ildə isə taxt-taca nəvəsi II Ramzes çıxdı. "Böyük" titulu daşıyan bu faraon 67 il ərzində hökmdarlıq etdi. Bu Misir tarixində ikinci ən uzun hökmranlıq müddəti idi. Onun babası çar mənşəli deyildi, dini islahat aparan faraondan sonra hakimiyyətə gəlmişdi. II Ramzes Axenaton və onun varisi Tutanxamon dövründə tənəzzülə uğramış Asiyadakı Misir hakimiyyətini bərpa etdi. Atası I Seti hələ bu ərazilərdəki işğalları vaxtı prints Ramzesə tac düzəltmişdi. Oğul, gələcək II Ramzes bu yürüşlərdə atanı müşayiət etmişdi. Ona görə də

hakimiyyətə gələndə artıq çarlığa və müharibə aparmaq təcrübəsinə yiyələnmişdi. On yaşı olanda o, ordu kapitanı rütbəsində idi.

II Ramzes özünə bu tələblərə tam cavab verən iqamətgah-şəhər tikmişdi. Parklarla, meyvə bağları ilə bəzənmiş, dadlı suyu olan bu şəhərin dörd hissəsinin hər biri öz ilahi qüvvəsinə malik idi: qərbdə Amon, cənubda Set, şimalda çar kobra ilahəsi Buto və şərqdə ən mühüm sayılan Suriya ilahəsi Astarta.

Onun Suriyadakı Kadeşə hücumu atəşkəslə başa çatsa da, Ramzesin yürüşü barədəki rəsmi məlumatlarda və uzun-uzadı poemalarda qələbə çaldığı bildirilir və real mövcud olmayan zəfər şişirdilib, göylərə qaldırılırdı. Əslində isə o, heç Kadeşi tutmamışdı da. Düşmənçiliyə son qoymaq üçün o, hökmranlığının 35-ci ilində hett çarının əvvəlcə bir qızı, sonra isə başqa qızı ilə evləndi. O, ümumən uzun hökmranlığının son yarısında dinc siyasət aparırdı və ölkə inkişaf edirdi. Saysız-hesabsız arvadları ilə çar nəhəng ailəyə malik olmağına görə, onun öz baş çariçasına malik olmasına baxmayaraq onun 100-dən çox uşağı var idi. Xüsusi olaraq IV Amenhotepin arvadı olmuş Nefertitini şərəfləndirdi və ona Nubiyadakı Abu Simbeldə böyük məbəd həsr etdi, ona həm də çariçalar vadisində gözəl sərdabə tikdirdi.

II Ramzes quruculuq işlərinə xüsusi diqqət verirdi və onu tarixdə məşhur edən saxta hərbi qələbələri yox, tikdirdiyi və az qala əbədiyyətlə yarışa girən abidələr oldu. O, Misirdə, Karnakda (Fivada) böyük sarayların tikintisini başa çatdırdı, Abidosda atasının tikdirməyə başladığı məbədin inşası yekunlaşdı. Özünə isə Ramzeseum adlanan məbəd tikdirdi. Abu Simbeldə isə onun dörd böyük heykəli ilə bəzənmiş və qayadan yonulmuş iki məbəd meydana gəldi.

Onun hökmranlığı Misirin imperiya qüdrətinin son pik dövrü kimi əlamətdardır. Onun ölümündən sonra Misir Palestina üzərində suzerenliyini saxlamağa çalışdı. O, Kadeşdə fiaskoya uğrasa da, yaxşı sərkərdə hesab olunurdu, lakin Hett imperiyasının içərilərinə tərəf uzağa gedə bilmədi. İnzibatçılıq sahəsində isə xüsusi fərasət sahibi idi, ölkəsi onun dövründə xeyli inkişaf etdi. Həm də o, populyar çar idi. Onun döyüş səhnələri barədəki məlumatlar Misirdə və Nubiyada çox yerdə tapılmışdır. Çarın necə olması barədə II Ramzesə bir model kimi də baxılır.

Böyük faraonlardan axırıncısı olan III Ramzes Böyük Ramzesdən yarım əsr sonra hakimiyyətə gəldi, sələflərinin adını daşısa da, onların qabiliyyətinə malik deyildi. XII əsr başa çatdıqdan sonra, Misir yenidən üzə çıxmış barbar müdaxilələrinin qurbanına çevrildi. Elə həmin dövrlərdə misirlilər öz yaradıcı istedadlarının çoxunu itirməyə başladılar. Tənəzzül prosesi keşişlə-

rin artan qüdrətləri ilə sürətləndi, onlar çar səlahiyyətlərini ələ keçirdilər və faraonların dekretlərini diqtə edirdilər.

M.ə. X əsrin ortalarından m.ə. VIII əsrin sonunadək hakimiyyət Liviya barbarları sülaləsinin əlində oldu. Onlardan sonra Nubiya xətti gəldi, onlar Misirə Yuxarı Nilin şərqindəki səhralardan dolmuşdular. M.ə. 671-ci ildə Misiri assuriyalılar işğal etdi və onlar hakimiyyəti yalnız səkkiz il ərzində saxlaya bildilər. Assuriya idarəçiliyi süqut etdikdən sonra, misirlilər müstəqillik əldə etdilər və ənənəçilik baş qaldırmağa başladı. Bu tam sonluqla başa çatdı. M.ə. 525-ci ildə persiyalı müdaxiləçilər müdafiə olunan misirlilərin ordusunu həlledici döyüşdə məğlub etdilər. O vaxtdan Misir Persiya imperiyasının tərkibinə daxil oldu və sonralar isə onu yunanlar və romalılar idarə etdilər.

Qədim Misirin həyatında din çox təsirli rol oynayırdı. Din öz izini siyasətdə, ədəbiyyatda, arxitekturada, rəssamlıqda və gündəlik işlərlə əlaqədar olan çox şeydə qoymuşdu. Misir dininin təkamülü müxtəlif səhnələrdən keçmişdi: sadə politeizmdən erkən məlum olan monoteizm ifadələrinə qədər və yenidən politeizmə qayıtması ilə. Başlanğıcdan hər bir şəhər və ya mahal öz yerli ilahi qüvvəsi ilə meydana çıxırdı. Ölkənin birləşməsi, vahidləşməsi təkcə ərazinin konsolidasiyası ilə deyil, həm də ilahi qüvvələrin bir-birinə qarışması ilə nəticələndi. Bütün bu mühafizə ilahiləri bir günəş allahı Ra kimi meydana çıxdı. Orta Çarlığın Fiva hökmdarlarının dövründə allah Amon və ya Amon-Ra adlandırıldı, bu fivalıların baş allahının adı idi. Təbiətin bitki qüvvələrini fərdləşdirən allahlar bir ilahi qüvvədə qarışıb Osiris adlandılar. O, həm də Nilin allahı idi. Bunlardan sonra iki böyük qüvvə kainata hökmranlıq edirdi. Amon və Osiris alilik üstündə bir-birilə rəqabət aparırdı. Digər ilahilər də tanınırdı, lakin onlar tabe mövqeyi tuturdular.

Köhnə Çarlığın dövründə günəşə inam, Raya sitayişdə təcəssüm olunurdu, bu dinin ağalıq edən sistemi idi. O rəsmi din kimi fəaliyyət göstərirdi və onun başlıca funksiyası dövlətə və kollektiv şəkildə xalqa ölməzlik vermək idi. Faraon bu inamın yerdəki yaşayan təmsilçisi idi, onun hökmranlığı ilə allahın idarəçiliyi ilə dəstəklənirdi. Lakin Ra təkcə mühafizə allahı deyildi. O, üstəlik möminlik, ədalət və həqiqət allahı idi, kainatda əxlaqi qaydanı qoruyub saxlayırdı. O, fərdlər kimi adamlara heç bir ruhi xeyir-dua və hətta maddi mükafat təklif etmirdi. Günəşə inam kütlə üçün din deyildi, bu istisna nəzərə alınmalı idi ki, yalnız onların maddi rifahı dövlətin mənafeyi ilə üst-üstə düşdükdə, xalqın dininə çevrilirdi.

Osiris kultu öz mövcudluğunu təbiət dini kimi başlamışdı. Allah bitkinin

böyüməsini və Nilin həyatverici axınını nizamlayırdı. Osirisin karyerası qəribə əfsanə ilə nişanlanmışdı. Uzaq zamanlarda, inama görə, o, xoş xasiyyətli hökmdar olmuşdu, öz xalqını bitkiçiliyə və digər praktiki sənətlərə öyrətmiş və onlara qanunlar vermişdi. Bir müddət sonra o, öz bəd qardaşı Set tərəfindən xaincəsinə öldürülmüş və cəsədi tikə-tikə edilmişdi. Onun arvadı İsis, həm də onun bacısı olmaqla onun bədəninin tikələrini axtarmağa yollanmış, onları bir yerə yığmış və təəccüblü qaydada onun bədənini yaşamaq üçün diriltmişdi. Ayağa qalxan çar öz məmləkətini geri almış və öz xoşməramlı idarəçiliyini bir müddət davam etdirmişdir, lakin birdən yerin altına düşmüşdür ki, orada ölənlərin mühakiməsini icra etsin. Sonra onun oğlu Hor Seti öldürməklə öz atasının intiqamını aldı.

Başlanğıcdan bu əfsanə təbiət mifindən bir qədər çox görünür. Osirisin ölümü və sonradan dirilməsi payızda Nilin qurumasını, yazda isə daşmasını rəmzləndirir. Lakin bəzi vaxtlarda Osiris əfsanəsi daha dərin məna kəsb etməyə başladı. Allahların insan keyfiyyətləri - öz təbəələri üçün Osirisin atalıq qayğısına, onun arvadının və oğlunun sədaqətli etibarına aid edilməklə, orta misirlinin emosiyalarına müraciət etmək xarakteri daşıyır, onlar bu vaxt öz dərdlərini və zəfərlərini, allahların həyatındakı güzgü əksində görməyə qadir idilər. Daha vacib cəhət isə o idi ki, Osirisin ölümü və dirilməsi şəxsi ölməzlik vədini daşıyan bir rəmz kimi qiymətləndirilməli idi. Allah ölüm üzərində zəfər çalan kimi, onun tək fərdi insan da dua edirdi ki, uzanan həyatını ona miras qoysun. Nəticədə Horun Set üzərində qələbəsi xeyirin şər üzərindəki bütöv zəfərinin əvvəlcədən verilən xəbəri, bir əlaməti idi.

Orta Çarlıq dövrünün sonrakı hissələrində misirlilərin gələcək barədə ideyaları öz tam inkişaf etmiş formasını aldı. Bu məqsədlə ciddi hazırlıqlar görülürdü ki, insan cəsədindən nəyinsə itirilməsinin qarşısı alınsın. Özü də təkcə cəsədlər mumiyalanmırdı, varlı adamlar zəngin irs qoyub getdikdə, vəsiyyət edirdilər ki, onlar üçün ərzaq və digər lazım olan şeylər də mumiyalansın. Din kamilliyə doğru irəlilədikcə, həyatdakı sonrakı sadəlövh konsepsiyalar daha az qəbul olunmağa başladı. Adamlar bu vaxt inanırdılar ki, onlar öldükdən sonra yer üzərində gördükləri işlərə görə mühakimə olunmaq üçün Osirisin qarşısında dayanacaqlar. Ölənlərdən sınaqlarla qarşılaşanların hamısı fiziki həzz səltənətinə daxil olacaqlar. Lotos çiçəklərinin bataqlıqlarında onlar heç vaxt bitməyən uğurla qaz və bildirçin ovlayacaqlar. Və ya onlar dadlı meyvə məhsulu heç vaxt azalmayan bağların ortasında özlərinə ev tikə biləcəklər. Onlar zanbaqlı göllərdə üzəcək, köpüklənən su hovuzlarında çiməcək, şərqi deyən quşların məskən saldığı kiçik meşələrin

kölgəsində dincələcəklər. Lakin bədbəxt qurbanlar, o adamların ki, ürəkləri öz qüsurlu həyatlarını açıb göstərmişdir, bütünlüklə məhv ediləcəklər. Misirlilərin dini öz tam inkişafına Orta Çarlığın sonunda çatdı. Həmin vaxtdan günəş inamı və Osiris kultu elə qaydada özünü göstərirdi ki, hər ikisinin yaxşı keyfiyyətləri üzə çıxsın. Yaşayan allah Amonun əyaləti demək olar ki, ölülərin mühakiməsində və ölməzlik verməkdə Osirisin funksiyasına bərabər olan əhəmiyyətə müvafiq idi. Din bu vaxt tam aydın və etik inam idi.

Dini dəyişikliklər hərəkatına faraon IV Amenhotep başçılıq etmişdi. O, öz hökmranlığına m.ə. 1375-ci ildə başlamışdı və 15 il sonra ölmüşdü. O, ciddi sui-istifadə hallarını düzəltməyə uğursuz cəhdlər etdikdən sonra, bütün sistemi dəyişdirməyi qərara aldı. O, keşişləri məbədlərdən qovdu, ictimai abidələrdən onların ənənəvi adlarını pozdurdu və "Aton" adlandırdığı yeni allaha sitayiş edilməsini başlatdı. Bu fiziki günəşin qədim adı idi. Öz adını da dəyişib Axenaton qoydu, bu "Aton məmnundur" mənasını verirdi. Arvadı Nefertitinin də adı bu qaydada dəyişildi. Onun arzusuna müvafiq olaraq hər yerdə bu proses getdi. Axenaton öz yeni paytaxtı El-Amarnanı tikdirdi, bunu o, yeni ilahi qüvvəyə sitayişə həsr etmişdi.

Bu fiziki dəyişikliklərdən daha mühüm olanı islahatçı faraon tərəfindən elan edilmiş doktrinanın həyata keçməsi idi. Aton və Axenaton özü mövcud olan yeganə allahlar idi. Atonun heç bir insan və heyvan ölçüsü yox idi, həyatverici kimi, günəşin isidən şüaları kimi düşünülürdü. O, bütün hər şeyin yaradıcısı idi, bu allah sadəcə Misir üçün deyil, həm də bütün kainat üçün idi. Axenaton Atonun şəriki və həmregenti kimi idi. Faraon və onun arvadı Atona sitayiş edəndə, digər adamlar yaşayan allah kimi Axenatona sitayiş edirdilər. Bu mühüm kvalifikasiyalardan kənarda, Axenaton Misirin dininin etik keyfiyyətini bərpa etdi.

Aton dini az populyarlıq qazandı, çünki kütlələr öz köhnə allahlarına inam bəsləməkdə qalırdılar. Onlar üçün yeni din çox qəribə idi və köhnə dinə olan böyük məftunluqdan xali idi.

Misirlilər yazı sistemində və bir sıra praktiki elmlərdə böyük nailiyyətlər qazanmışdılar. Misir yazısı olan heroqliflər Mesopotamiyanın mixi yazısından sonra meydana gəlmişdi, hətta mesopotamiyalıların bu icadını bildikləri vaxtda işlədilməyə başlanmışdı. Köhnə Çarlıq dövrünün erkən çağlarında Misirin heroqlif yazısı üç xarakterik növlərə: piktoqrafiyaya, heca işarələrinə və əlifbaya əsaslanırdı. Onlardan iki əvvəlkilər artıq mixi yazısının tərkibinə daxildi, ancaq axırıncı mühüm yenilik idi. Misirlilər özlərinin əlifba xarakterli 24 simvolunu qeyri-əlifba növündən ayırdılar, bunların hər biri insan

səsini sadəcə təmsil edirdi, onların yazı əlaqələrində müstəsna olan həmin rəmzlərin istifadə edilməsi ilə bu tam müasir yazı sisteminə gətirib çıxardı. Həmin vaxtda mühafizəkarlıq onları bunu etməkdən saxlasa da, Aralıq dənizinin şərq sahilindəki semit dilli xalq olan finikiyalılar ilk dəfə olaraq əlifba sistemini m.ə. 1400-cü illər ətrafında icad etdilər. Finikiya əlifbası yəhudilərin, ərəblərin, yunan və romalıların əlifbaları üçün model rolunu oynadı. Buna baxmayaraq, finikiyalılar sadə səslərin sadə not simvollarından istifadə etmək ideyasını dəqiq olaraq misirlilərdən əxz etmişdilər. Nil deltası regionunda bol qaydada bitən papirus qamışı hesabına misirlilər yazı üçün ucuz materiala sahib oldular. Papirus qamışı biçildikdən sonra qurudulurdu, heroqlif yazısı onlara yazılmaq üçün istifadə edildikdən sonra, onlar boru kimi bükülürdü ki, bu qaydada saxlansın və ya nəql edilsin. Papirus üzərindəki yazının gil lövhələrdən üstünlüyü onda idi ki, onlar daha az yer tuturdu və xeyli yüngül idi. Onlar o vaxtdan təkcə Misirdə deyil, həm də qədim Yunanıstan və Roma sivilizasiyalarında standart yazı materialına çevrildi.

Tarixin öyrənilməsində də papirusda qalmış hadisələr, salnamə yazıları böyük xidmətlər göstərmişdir.

Misirlilər ədəbiyyatın müxtəlif formalarında çalışmışlar, Orta Çarlıq dövründən ədəbi tarixçilərin yazıları gəlib çıxmışdır, onlar qısa rəvayət yazılarının ataları hesab olunurlar. O dövrdə müxtəlif növdə qısa əhvalatlar yazılmışdır. Misirlilərin siyasi münasibətlərinə həsr olunmuş yazılardan bizim dövrə gəlib çıxanı "Şirindilli kəndlinin yalvarışı"dır. Bu əsər m.ə. 2050-ci illər ətrafında yazılmışdır. Burada müəllif öz təbəələrinin yaxşılığı üçün mərhəmətli və ədalətli hərəkət edən hökmdar idealını irəli atır.

Elm sahələrində isə misirlilər praktiki faydası olan sahələrlə - astronomiya, təbabət və matematika ilə məşğul olurdular. Astronomiya elmində misirlilərin ən böyük nailiyyəti səma ayı təqviminin qeyri-dəqiqliyindən qaçmaq yolunu kəşf etmələri idi. Qədim Mesopotamiya adamları mövsümlərin və illərin gəlib keçmə hədlərini səma ayının dövrləri ilə işləməklə qoyub getmişdilər. Misirlilər isə əskinə, m.ə. 2000-ci illər ətrafında müşahidə etdilər ki, göydə ən parlaq ulduz olan Sirius ildə bir dəfə sübh vaxtı günəşin işıq yaymağa başlaması ilə eyni vaxtda qalxır. Bu müşahidə əsasında onlar təqvim yaratdılar və bu təqvimdə "Yeni ilin ilk günü" Siriusun geniş işıqlanması ilə günəşin bir vaxtda çıxması vaxtı hesab olunurdu. Onlar bir yerdə Nilin daşqınından xəbər verirdilər. Beləliklə, bu qədim dövrdə Yuli Sezarın icad etdiyi təqvimdən əvvəl yaranmış ən kamil təqvim idi, əslində Sezar təqvimi də Misir icadına əsaslanırdı.

Deməli, 365 günlük il təqvimi üçün biz Misirə borcluyuq, bu təqvim Köhnə Çarlığın başlanğıc dövründə yaranmışdı. 30 gündən ibarət olan 12 aya hər ilin axırında 5 gün əlavə edilirdi və gün 24 saata bölünürdü, sonralar saat Yunanıstanda 60 dəqiqəyə bölündü, bu işdə onlar mesopotamiyalıların altı ədədli hesablarına əsaslanırdılar.

Qədim Misir təbabəti xəstəliklərin fövqəltəbii səbəblərdən daha çox təbii səbəblərdən irəli gəldiyi baxışı ilə fərqlənirdi. O vaxtdan həkimlər diaqnoz qoymağı və xəstəliklə necə davranmaq qaydalarını müəyyən etməyi bacardılar. Diaqnoz metodları arasında pulsu ölçmək və ürəyin döyünməsinə qulaq asmaq da var idi. Gigiyenanın sağlamlıq üçün böyük əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, onlar hətta tərləyən ayaq üçün dərmanı təklif edirdilər, mürəkkəb tərkibli dərmanı isə mədə xorasını sağaltmaq üçün məsləhət görürdülər. Bəzi Misir tibb həbləri yunanlar tərəfindən Avropaya gətirildi və bu günə qədər onlardan istifadə olunur.

Riyaziyyatda isə misirlilər ölçü metodlarında fərqlənirdilər. Belə ki, onlar ilk olaraq çevrənin 360 dərəcə olduğunu müəyyən etdilər və bu nəticəyə gəldilər ki, çevrənin uzunluğunun onun diametrinə bölünməsindən alınan nəticə bütün çevrələr üçün eynidir. Bu yolla onlar bu gün "pi" kimi tanınan ölçünü kəşf etdilər, bu ölçü 3,141...-ə bərabər olmaqla, onu sonralar Arximed hesablamışdı. Onlar həmçinin piramida üçbucağının, silindrin və yarımkürənin sahəsini və onun həcmini hesablamağı icad etdilər. Bu hesablamalardan misirlilər quruculuq layihələrində istifadə edirdilər.

Bütün Misir abidələrindən ən mühümü və görkəmlisi, heç şübhəsiz - piramidalardır. Bu sadə qülləli tikililər az qala tarixlə yaşıd olmaqla faraonların sərdabəsi məqsədilə inşa edilirdi. Onların möhtəşəmliyi və hündürlüyü daim təxəyyülləri də heyrətləndirmişdir. 1889-cu ildə Böyük Fransa inqilabının yüz illiyinin bayram edilməsi münasibətilə keçirilən Ümumdünya sərgisində ilk dəfə nümayiş etdirilən və o vaxtdan Parisin bəzəyi sayılan Eyfel qülləsi tikilənə qədər dünya, onlardan ən nəhəng olan Xeops və ya Xufu piramidası hündürlüyündə insan əli ilə yaradılmış digər bir nümunəyə malik deyildi. Ən ilk piramida faraon Coser tərəfindən tikdirilmişdi və bu m.ə. 2770-ci illər ətrafına təsadüf edirdi. Onların müasirləri olan şumerlər yalnız çiy kərpicdən məbədlər tikirdisə, misirlilər əhəng daşından sərdabə inşasına başladılar. Faraon İmhotep bir milyon ton əhəng daşından hündürlüyü 200 futa çatan piramida tikdirdi. Bu daş bloklar uzaq məsafədən nəqliyyat vasitəsi olmadan inşaat meydançasına daşınmışdı. Bunlar hələ başlanğıc idi. Bir az sonra, m.ə. 2700-2600-cü illər arasında qaya daşlarından ümumilikdə 25

milyon ton əhəng daşı kəsilib ən məşhur və gözəl piramidanın tikintisi üçün sərf olundu. Bu piramida Xufu və ya yunanların adlandırdığı kimi Xeops piramidası idi, onun hündürlüyü 482 futa bərabər olmaqla, 160 metrə yaxın idi. Qədim yunanlar yeddi möcüzəni müəyyən edərkən tərəddüd etmədən birinci yeri Xeops piramidasına verdilər. Bu siyahıya həm də Yeni Babilistanın "Asma bağları" daxil idi.

Piramidaların görünüşü bu gün də insanları valeh etsə də, onların necə tikilməsi barədəki suallar öz dəqiq cavabını tapmamışdır. Burada demək olar ki, mövsümi işçilər işləyirdi. Yay aylarında, Nil daşanda əkinçilər kənd təsərrüfatı iqtisadiyyatına ziyan vurmadan bu tikinti layihələrinin həyata keçirilməsi üstündə işləyirdilər. Lakin bu nəhənglikdə tikintini bir yaya qurtarmaq mümkün deyildi. Ona görə də piramida tikənlər bir-birinin ardınca bütün yayları işləyirdilər, biri başa çatdıqdan sonra, yenisinin tikintisinə başlayırdılar. Burada faraonun ölüb-ölməməsi də elə bir əhəmiyyət kəsb etmirdi. 25 milyon ton ağırlığında daşın daşınmasından bir neçə nəhəng piramidaların tikilməsinə bir əsrə qədər vaxt lazım gəlirdi. Bu zəhmət gələcəkdə özünün başa çatacağını da əvvəldən görə bilməzdi. Özü də onların tikintisində qullar deyil, azad kəndlilər işləyirdi, qul əməyindən olduqca az istifadə edilirdi. Çünki o vaxtlar Misirdə az sayda müharibə əsirlərindən başqa quldarlıq məlum deyildi. Kəndlilər olduqca pis qidalanırdılar, öz məhsulları olan sarımsaq və soğanla çörək yeyirdilər. Piramidaları tikən Misir zəhmətkeşləri möhkəm inanırdılar ki, onların faraonları həyat sürən allahlardır və bu dəfn yerlərindən - sərdabələrdən əbədi həyata qalxa bilərdilər. Elə Coserin ilk piramidası da düşüncələrdə "Göylərə ucalan nərdivanı" andırırdı. Əgər faraonlar əbədi şərəfdə səyahət etsəydilər, yer üzərindəki həyat çiçəklənəcəkdi.

Fərdi xilas olma başlıca dini meylə çevrildiyi vaxtdan Orta Çarlıq dövrü ərzində və sonralar məbədlərin yerini Misirin aparıcı memarlıq forması olan piramidalar tutdu. Ən görkəmli Misir abidələri olan Karnak və Luksor abidələri Yeni Çarlıq dövrü ərzində tikilmişdi. Onların nəhəng, zəngin nəqşlərlə bəzədilmiş çoxlu sütunları yüksək arxitektor istedadının sakit şahidləri kimi elə bil ki, indiyədək öz monumentallığını nümayiş etdirməkdən həzz alır. Misir məbədləri elə piramidaların özü kimi iri ölçülü idi. Karnak məbədinin uzunluğu 1300 futa yaxındır, böyük bir ərazini tutur. Məbədlərdə sütunlar heyrətləndirici proporsiyalarda istifadə edilmişdir. Onlardan ən böyüyünün hündürlüyü 70 fut, diametri isə iyirmi futdan çoxdur. Bu belə qiymətlənir ki, onların saxladığı kapitel yüz nəfər üçün olan otağın yükünü saxlaya bilərdi.

Misir heykəltəraşlığı və rəssamlığı ilk növbədə arxitekturaya bir əlavə kimi xidmət edirdi. Faraonların heykəlləri nəhəng ölçülərdə olurdu. Yeni Çarlıq dövrü ərzində qoyulan heykəllərin hündürlüyü 75 metrdən doxsan metrə qədər idi. Onların bəziləri portreti böyütmək üçün rəngli olurdu, gözləri isə daş büllurdan düzəldilirdi. Anatomik ölçülərin təhrifi qaydası tez-tez tətbiq edilirdi, təbii yançaqların uzunluğu xeyli artırılırdı, diqqət çiyinin düzbucaqlı olmasına yönəldilirdi, bütün barmaqlar bərabər uzunluqda düzəldilirdi. Belə qeyri-təbii heykəl kimi Sfinksi göstərmək olar, minlərlə belə heykəl Misirdə qoyulmuşdu. Ən yaxşı tanınan nümunə isə Gizadakı Böyük Sfinksdir. Bu şir bədəni üzərində olan faraon başını təmsil edir. Yəqin ki, bundan məqsəd, faraonun güc və cəsarətdə şir keyfiyyətlərinə malik olması fikrini rəmzləndirmək idi. İmperiya genişləndikcə və idarəetmə daha mütləqliyə çevrildikcə heykəllərin də ölçüləri böyüyürdü.

Misir tarixinin ən böyük hissəsi ərzində əhali beş sinfə bölünürdü: çar ailəsi; keşişlər; kübarlar; xəttat orta sinfi, tacirlər, sənətkarlar; varlı fermerlər və varlı kəndlilər. Bu beş zümrə əhalinin ümumi kütləsində bir-birindən fərqlənirdi. Yeni Çarlıq dövründə onlara professional əsgərlər olan altıncı sinif əlavə olundu, axırıncılar zümrə kimi kübarlardan aşağıda dururdu. Bu vaxt əsir götürülmüş və qula çevrilmiş minlərlə insan yeddinci sinfi təşkil edirdi. Cəmiyyətin müxtəlif zümrələri vaxt keçdikcə öz mövqelərini dəyişirdi. Köhnə Çarlıqda kübarlar və keşişlər faraonun bütün təbəqələri arasında ali zümrələr idi. Kiçik Çarlıq dövründə kommonerlər - sadə insanlar sinfi tanınmağa başladı. Tacirlər, sənətkarlar və fermerlər hökumətdən güzəştlər əldə etdilər. Bu dövrdə tacirlərin və sənətkarların aparıcı rol oynaması xüsusi təəssürat yaradırdı. İmperiyanın qurulması ilə hökumətin funksiyaları genişlənmişdi və bu yeni kübarlığın qalxması ilə nəticələndi. Bunlar əsasən qulluqçulardan düzəlmişdi. Magiya və ritual ənənəsi böyüdükcə keşişlər də daha çox gücə yiyələndilər.

Misirdə yuxarı siniflə aşağı sinifin arasındakı yaşayış standartlarındakı uçurum çox dərin idi. Varlı kübarlar yaraşıqlı villalarda yaşayırdılar, bu evləri ətirli bağlar və kölgəli meşəçiklər əhatə edirdi. Onların qidası çox varlı idi və onlar ətin, quş ətinin, tortların, meyvələrin, şərabların, şirniyyatın çox sayda növündən istifadə edirdilər. Onların süfrələrini qızıl və gümüş qablar bəzəyirdi. Özlərini isə qiymətli daş-qaşla bəzəyirdilər. Kasıblar isə əksinə tam bədbəxt gündə idilər. Zəhmətkeşlər yaşayan şəhər məhlələri çiy kərpicdən tikilmiş daxmalardan ibarət idi.

Poliqamiyaya - çoxarvadlılığa icazə verilsə də sosial birliyin normal əsa-

sını monoqam - təkarvadlı ailələr təşkil edirdi. Hətta faraon ikinci dərəcəli arvadlarından və kənizlərindən ibarət hərəmxanaya malik olsa da, onun baş arvadı olurdu. Kənizlik sosial nüfuza malik olan institut idi. Digər qədim cəmiyyətlərlə müqayisə edildikdə Misir qadınları heç də bütünlüklə kişilərə tabe deyildi. Arvadlar cəmiyyətdən təcrid olunmurdu. Qadınlar mülkiyyətə malik ola və onu miras kimi öz varislərinə ötürə bilərdilər, bu mülkiyyət həm də biznesdə istifadə oluna bilərdi. Misirlilər taxt-tacın qadına keçməsinə icazə verirdilər: Çariça Sobeknofu 12-ci Sülalə dövründə, çariça Hatşepsut 18-ci Sülalə dövründə imperiyada hökmranlıq etmişdilər. I Tutmosun qızı, çariça Hatşepsut 1490-1468-ci illərdəki hakimiyyəti dövründə ticarət inkişaf etdi. Bu qadın qədim dövrün ən maraqlı simalarından biri idi. O, II Tutmosun ögey bacısı və həm də arvadı idi. Misirin çar sarayında qardaş-bacı nikahları təcrübəsi var idi. Onun ölümündən sonra taxt-tacı arvadı ələ keçirmişdi və 22 il hökmranlıq edərək ölkədə dinclik yaratdı. Bu qadın öz heykəlində çarlığın əcdad saqqalı ilə təsvir olunur. Qədim Misirin son taxt-tacı da m.ə. 30-cü ildə həyatını intiharla başa çatdıran çariça VII Kleopatraya mənsub olmuşdu.

Misir iqtisadi sistemi birinci növbədə aqrar əsasa söykənirdi. Kənd təsərrüfatı geniş sahəli olmaqla yüksək inkişaf etmişdi və torpaq bol buğda, arpa, darı növlərindən olan taxıl verirdi, iri həcmdə tərəvəz, meyvə, kətan və pambıq istehsal olunurdu. Nəzəri cəhətdən torpaq faraonun mülkiyyəti idi, lakin əvvəlki dövrlərdə o, torpaqlarının çoxunu öz təbəələrinə vermişdi və həqiqi həyatda torpaq böyük mənada ayrı-ayrı fərdlərin mülkiyyətində idi. M.ə. ikinci minilliyin başlanğıcından kommersiya birinci əhəmiyyəti olan mövqeyə çıxdı. İnkişaf edən ticarət Krit adası ilə və Şərqi Aralıq dənizi sahillərindəki ərazilərlə aparılırdı. Sərvətin ən mühüm mənbəyi kimi Liviyadakı qızıl mədənlərinə Misir nəzarət edirdi. İxracın başlıca mallarını qızıl, buğda və kətan parçalar təşkil edirdi, idxal isə əsasən gümüş, fil sümüyü və ağac materialından ibarət idi. Kommersiyadan az əhəmiyyət kəsb etməyən sahə manufaktura istehsalı idi. M.ə. 3000-ci illərdə böyük miqdarda adam sənətkarlıqla məşğul olurdu. Sonrakı vaxtlarda fabriklər meydana gəldi, onlarda 20 və daha çox adam işləyirdi, onlar adətən bir tavan altında işləyir və müəyyən əmək bölgüsünə uyğun qaydada çalışırdılar. Aparıcı istehsallar gəmiqayırma və dulusçuluq, şüşə və toxuculuq manufakturaları idi.

Misir iqtisadi sistemi əvvəldən kollektiv sistem idi. Fərdin və cəmiyyətin maraqlarının eyni olduğu düşünülürdü. Bütöv millətin məhsuldar fəaliyyəti iri dövlət işlərinin ətrafında dövr edirdi, dövlət əmək üçün ən iri işverən ola-

raq qalırdı. Bir sıra sahələrdə özəl təşəbbüs üçün imkanlar qalırdı. Tacirlər öz biznesləri ilə bir-birilə əlaqə yaradırdılar. Sənətkarların çoxu öz dükanlarına malik idi və zaman keçdikcə daha çox sayda kəndlilər müstəqil fermer statusu qazanırdılar. Hökumət karxanalarda və mədənlərdə işləri öz əlində saxlayır, piramidalar və məbədlər tikdirir və saray malikanələrində əkinçiliyə nəzarət edirdilər.

Misirlilər həqiqətən də çox irəli getmişdilər. Yunanlar hələ öz fikirlərinin təşkilinin başlanğıcında olanda Misir 26-cı Sülaləyə qədəm qoymuşdur. Misir sivilizasiyasının iki min beş yüz yaşı olanda yunanlar sadəcə yenicə öz sivilizasiyalarını yaradırdılar. Ona görə də bir qrup yunanlar Nil vadisinə m.ə. 500-cü illər ətrafında səfər edəndə, bir hörmətli keşişin dediyi güman edilən: "Siz yunanlar həmişə uşaqsınız; sizin aranızda yaşlı adam yoxdur" sözlərində böyük məna var idi. Qədim misirlilər açıqca təbiətlə birləşməyin yolunu tapmışdılar və bir-biri ilə əsrlər boyu sülh şəraitində və özünü təmin edən qaydada yaşadılar. Yunanlar m.ə. 332-ci ildə misirlilərə qalib gələndə artıq yaradıcı xalq idi və Misir dünyasında davam edən dəyişiklik tətbiq etdilər.

Qədim Misirin müvəffəqiyyət formulu Nilin hər il baş verən daşqını ilə sıx bağlı idi və bunu harasa aparmaq mümkün deyildir. Günəş təqvimi və ya kub həcmini hesablamaq kimi bir neçə spesifik kəşflərlə yanaşı misirlilərin nailiyyəti sonrakı fikirə və ya hadisələrə təsiri nöqteyi-nəzərindən lazımınca qiymətləndirilməmişdir. Misir həyat, düşüncə, heykəltəraşlıq, rəssamlıq və quruculuq tərzləri öz-özlüyündə heyranedicidir. Təkcə Sirius deyil, Günəş də Misirə, burada yaşayan adamların fəaliyyətinə yeni başlanğıc və böyük həyatı dərk etmək qabiliyyəti vermiş, misirlilər dünya tarixinin ilk səhifələrinə elə pozulmaz nəqşlər etmişlər ki, bəşəriyyət öz körpəliyini və beşiyini yada salanda yəqin ki, bu qədim xalqa və onu yetirən torpağa heç olmazsa öz xatirə ehtiramını əsirgəməyəcəkdir.

# FƏSİL 4
# YƏHUDİ SİVİLİZASİYASI

M.ə. 3000-ci ildən başlayaraq Misirdə və Mesopotamiyada (yunanca "iki çay arası" deməkdir) sivilizasiyanın kiçik nüvəsi meydana çıxanda qonşuluqdakı xalqlar təşkilatlanmanın aşağı pilləsində idilər. Semit dilində danışan xalqlar Yaxın Şərqə cənubu əhatə edən səhradan sızırdı. Onların başlıca nümayəndələri assuriyalılar daxil olmaqla akkadlar, xanaanlılar, sonrakı ərəblər və həbəşlərlə birlikdə aramaiklər idi. Xanaanlılar yəhudilərin mənşəyi idi. Yəhudilər siyasi əhəmiyyət cəhətincə böyük rol oynamasalar da, qədim Qərbi Asiya xalqlarının fikrinə və həyatına çox böyük təsir göstərmişlər. Onlar semit dili ailəsinin üzvü olmaqla Mesopotamiyada, Bibliyanın irəli sürdüyünə müvafiq olaraq patriarx Abrahamın ailəsindən yaranmaqla, Şumerlə qohum idilər. O vaxtlar yəhudilər başlanğıcdan çöllərdə dolaşan çoban xalqı olduqlarından, onların dəqiq mənşə yerini müəyyən etmək çətindir. Təqribən götürüldükdə onlar m.ə. 1900-cü illərlə 1500-cü illər arasında tədricən Mesopotamiyadan Cənubi Suriyaya miqrasiya etdilər. O vaxtlar həmin yer Xanaan kimi tanınırdı. Sonralar isə Misirə getdilər. Özlərini Abrahamın nəvəsi İakovun törəmələri hesab edən yəhudi tayfaları, İakovun digər adı olan İsraildən götürülən "israillilər" kimi adlanmağa başladılar. İsrail "Allahın əsgəri" mənasını verirdi. Üç əsrə yaxın bir müddətdə Misirdə müvəqqəti olaraq yaşadıqdan sonra yəhudilər, Yeni Çarlıq faraonları Misir imperiyası yaratmağa cəhd edəndə və ölkələrində iqtisadiyyatın tələbatı üçün daha çox qul tapmağa çalışanda, burada qula çevrildilər. Sonralar, m.ə. 1250-ci illər ətrafında onlar Moisey kimi bir liderə malik oldular və o, həmvətənlilərini Misir sərhədlərindən Sinay yarımadasına çıxardı. O, öz adamlarını Yahveyə sitayiş etməyə sövq edirdi, bu yəhudilərin əcdadlarının allahı idi. Moisey təkcə onları Misirdən çıxarmadı, həm də uzun illər davam edən köləlikdən azad etdi. Ona görə də bu yad ölkədən çıxış həm də qul olmaqdan xilas olmaq idi.

Misirdən çıxıb öz torpaqları olan və Xanaan adlandırdıqları yerə (yunanlar buranı Finikiya adlandırırdılar) çatmaq üçün səfər 40 il davam etdi, saysız-hesabsız əzab və əziyyətlərlə müşayiət olundu. Səhra ilə qızmar günəşin altında irəliləyən adamlar çox vaxt aclıq çəkirdilər, ümidsizliyə qapılıb hər şeydən, hətta öz allahlarından da üz döndərməyə hazır idilər. Bu vaxt yenə Moiseyin müdrikliyi köməyə gəlirdi və o, öz xalqını intizam hüdudlarına

qaytarmağı bacarırdı. Bu səfər fiziki uzunluğuna görə bir nəslin ömrünə bərabər olsa da, xalqın xilasına və doğma vətəninə qayıtması kimi nəcib bir amala xidmət etdiyindən, yəhudilər üçün təkcə çıxış arzusunun həyata keçməsi olmayıb, millətin ikinci dəfə doğulması əlaməti kimi bu xalqın tarixində öz şərəfi ilə bəlkə də yüz illəri, min illəri kölgədə qoyan bir hadisəyə, bu xalqın azadlığa can atmasının, eyni zamanda ödənilən haqqın nə qədər ağır olmasına baxmayaraq buna nail olmağın heç vaxt qiymətini itirməyən simvoluna çevrildi. Bu ağır yola düşməmişdən əvvəl onların xilasının bayramı kimi Pasxa qurbanı yarandı.

Moisey bütün həyatını həsr etdiyi bu iş başa çatanda, Xanaana qədəm basmadan öldü. Ona, əcdadlarının çox sevdiyi, özünün isə bir dəfə də görmədiyi vətənə dönmək qismət olmadı. Lakin o, kəşfiyyatçılar göndərib, Eşkol vadisi barədə məlumatlar ala bildi. Onların gətirdiyi dadlı nar, əncir və çox iri üzüm salxımları bu torpaqların "süd və bal axan" bir ərazi olduğundan xəbər verirdi.

Lakin Xanaana sadəcə girmək və orada məskunlaşmaq mümkün deyildi, çünki burada digər semit xalqı yaşayırdı və onlar öz torpaqlarını yəhudilərlə bölüşmək barədə düşünmək də istəmirdilər. Bu vaxt onlar Xanaana daxil olmaq üçün öz qaydaları ilə vuruşmağa başladılar və bu çətin prosesi başa çatdırdılar. Moiseyin ölümündən sonra bu işlərin görülməsinə başçılıq etmək onun köməkçisi İosif Navinin (Coşuanın) üzərinə düşdü. Heç kəs İosif Navini məğlub etməyə qadir deyildi. Onlar daşan İordan çayını keçdilər. Bibliyanın nəql etdiyinə görə, İerixon şəhərinin qapıları bağlı olsa da, şəhər israillilərdən qorunsa da, yəhudi keşişləri yeddinci günü bir daha, artıq həmin gün yeddinci dəfə şəhərin ətrafını dövr etdikdən sonra trubalarını çalmağa başladılar, başçılarının köməyi ilə adamlar qışqırdılar. Şəhərin divarları bütünlüklə yıxıldı. Sonra bütün ordu şəhərin içərisindəki təpəyə cumdu və onu işğal etdi. Şəhərdəki bütün adamları onlar qılıncından keçirdilər.

Xanaanlıların yaxşı istehkamlanmış şəhərlərini mühasirə müharibəsi ilə götürmək mümkün deyildi, çoban israillilər bunun üçün yaxşı silahlara və vasitələrə malik deyildilər. Bu qələbədən sonra İosif Navin (Coşua) həqiqətən də Xanaanda xeyli torpaq ələ keçirdi, lakin bu o qədər də böyük ərazi deyildi. İosifin ölümündən sonra tayfa daxili rəqabət nəticəsində özlərinin əlaqələndirilmiş, birgə hərbi hərəkətləri həyata keçirmək qabiliyyətlərini itirdilər. Bir əsr vuruşduqdan sonra Xanaan təpəsindən və bir az münbit vadidən artıq heç nə ala bilmədilər. Elə bu vaxtlar onlar özlərini təkcə xanaanlılardan deyil, həm də qüdrətli əcnəbi müdaxilələrdən müdafiə etməyə məc-

bur oldular. Xanaanlılar isə öz itirdiklərini bərpa etməyə ümid bəsləyirdilər.

Kiçik Asiyadan qeyri-semit xalqı olan filistinlər həmin müdaxiləçilər olmaqla, m.ə. 1050-ci illər ətrafında Xanaanın elə böyük hissəsini sürətlə işğal etdilər ki, bu region alternativ ad altında Palestina kimi tanınmağa başladı. Bu "Filistin ölkəsi" mənasını verirdi. Məhv olmaq təhlükəsi ilə üz-üzə gələn yəhudilər öz mübarizələrini gücləndirdilər. Yerli keşişlərin və "hakimlərin" hakimiyyəti altında sərbəst qrupların mövcudluğu israilliləri ciddi surətdə zəiflədirdi. "Hakimlər" kitabına görə "Həmin günlərdə İsraildə heç bir çar yox idi, hər kəs öz gözündə düzgün hesab etdiyini edirdi" (Bibliya, "Hakimlər", 21:25). Onlar bu vaxtadək təşkilatlanmanın tayfa formasını saxladıqlarından, qarşıya çıxan konfliktləri həll etmək üçün hər tayfadan bir müdrik adam - "hakim" seçilirdi və artıq təhlükə anında daha sıx "milli" formada olan hökumət seçmək zərurəti yarandı ki, Filistin hədə-qorxusu ilə qarşılaşmağa qadir olsun. Buna uyğun olaraq, m.ə. 1025-ci il ətrafında tayfa hakimi olan Samuel bütün İsrail tayfalarından olan öz tərəfdaşlarının köməyi ilə şəxsi hakimiyyətə sahib oldu. Onların hamısı üçün seçilmiş çar Saul isə bu tayfaları birləşmiş xalqa çevirdi.

Çar Saulun hökmranlığı yəhudi milli birliyinin başlanğıcı ilə əlamətdar olsa da, bu dövr nə yəhudilər üçün, nə də hökmdarın özü üçün xoşbəxtlik dövrü hesab oluna bilməzdi. Bibliyada buna işarə edən bir sıra eyhamlar var idi. Çar kimi fəaliyyət göstərməyə başlayan Saul, taxt-tacın arxasında öz hakimiyyətini saxlamağa ümid edən Samuelə kin bəsləyirdi. Beləliklə, Samuel fərasətli gənc döyüşçü olan Davidəköməklik göstərməyə başladı. David yeniyetmə çoban olanda, filistinlilərin nəhəng döyüşçüsü sayılan Qoliafın qarşısına qorxudan heç bir yəhudi çıxmayanda, onun çağırışına müvafiq olaraq irəli çıxmış və sapandından atdığı daşla onu başından ağır yaralayıb yerə yıxdıqdan sonra, Qoliafın başını öz qılıncı ilə kəsmişdi, bununla da yəhudilərə gözlənilməyən qələbə, filistinlilərə isə ağıllarına gətirmədikləri məğlubiyyəti bəxş etmişdi. David öz növbəsində Sauldan xalq dəstəyini uzaqlaşdırmaq üçün məharətli manevrlər etmişdi. Davidin belə məşhur zəfərinin əksinə, Saulun orduları dəfələrlə uğursuzluğa düçar olmuşdu. Nəticədə çar ağır yara aldıqda, özünü öldürməklə rəqabətə son qoymuşdu. Bu tarix təqribən m.ə. 1005-ci il hesab olunur.

Saul öz qəbrində uyuyanda, David çar oldu və yəhudi siyasi tarixində ən şərəfli dövrü başlatdı. Filistinlilərə qarşı barışmazlığı ilə irəli çıxan David onların ərazisini cənubdakı dar bir zolağadək kiçiltdi. O, xanaanlıları öz hökmranlığını tanımağa məcbur etdi. Sonrakı bir neçə nəsil ərzində onlar öz

ayrıca adlarını itirdilər və bütünlüklə yəhudi xalqı kimi meydana çıxdılar. Birləşmə prosesi irəlilədikcə yəhudilər böyük miqyasda çobanlıqdan çəkildilər və bitkiçilik və ya şəhərli əməyi növləri ilə məşğul olmağa keçdilər. Nəhayət, David özünü tam mütləq monarxa çevirdikdən sonra, bir sıra öz təbəələrindən dəqiq qaydada zəhmətə qatlaşmağı tələb etdi, vergi yığılmasının əsasını qurmaqdan ötəri əhalinin siyahıya alınmasını keçirdi və sonra real olaraq vergi yığmağa başladı. Onun son məqsədi möhtəşəm paytaxt və dini mərkəz kimi Yerusəlimi tikmək idi. O, bu işdə bir sıra tərəqqiyə nail olsa da, tikinti işləri başa çatmamışdan əvvəl öldü.

Davidi taxt-tacda onun oğlu Solomon əvəz etdi. Onun anası Virsaviya, mənşəcə hett olan, ordu zabiti Uriyanın arvadı idi. Lakin David bu gözəl qadına vurulduğundan, onun ərinin ölümünə bais olmuş və sonra ona evlənmişdi. Sevimli arvadının təkidi ilə David ondan olan oğlunu ölümündən əvvəl özünə varis elan etmişdi. Solomon m.ə. 973-cü ildən 933-cü ilədək, 40 il ərzində hökmranlıq etdi. O, birləşmiş yəhudi monarxiyasının üç çarından axırıncısı idi. Solomon Yerusəlimi tikmək sahəsindəki atasının işini başa çatdırdı. Atasından qəbul etdiyi niyyəti ikiqat artıqlaması ilə həyata keçirdi. Birincisi, əgər israillilər qərbi Asiyanın böyük xalqları içərisində öz yerlərini tutmaq istəyirdilərsə, onlar bu böyüklüyün gözə çarpan nümayişi kimi cazibədar paytaxta malik olmalı idilər. İkincisi isə, onlar həmçinin öz milli dini vədlərini yenidən yerinə yetirmək üçün möhtəşəm məbədə möhtac idilər. O vaxta qədər Yahve tərəfindən Moiseyə Sinay dağında məqsədli şəkildə verilmiş daş lövhələr saxlanan və Bibliyadakı adı "Razılıq gəmisi" olan sandıq israillilər tərəfindən onların dolaşdıqları vaxt "alaçıqda" saxlanmışdı, real olaraq, daşınan çadırdan başqa bir saxlanma yeri olmamışdı. Şadlanma sərdabəsi üçün evin çadırda olması köçəri xalqı razı sala bilərdi, lakin böyük xalqın məskunlaşmış əkinçiləri üçün bu yaramırdı. Üstəlik, gəmi İsrailin Yahve ilə xüsusi əlaqəsinin fiziki əlaməti idi, qüdrətli paytaxtda qərar tutmaqla möhtəşəm məbədin içərisində yerləşdirilməli idi. Bu səbəbdən də Solomon öz paytaxtını və xüsusən məbədi tikmək üçün çox böyük xərclərdən belə çəkinmədi. Bu məbəd yəhudi milli və dini həyatının mərkəzi abidəsi olacaqdı.

Bu siyasətin uzun müddət davam etməsi yəhudilərin intibahına əsaslı surətdə köməklik göstərdi. Solomon həqiqətən də möhtəşəm məbəd yaratmağa nail oldu və bu məbəd onun adını daşımaqla, o zamandan etibarən nə vaxtsa İsrail milli və mədəni silinmə, məhv olma kimi bədbəxtliklərlə qarşılaşdıqda, ilhamverici simvol kimi xidmət göstərdi. Lakin qısa müddətdə ça-

rın bədxərcliklə müşayiət olunan tikinti layihələri narazılığa səbəb oldu, çünki Palestina əsas tikinti materialları ehtiyacları üçün təbii sərvətlər barədə kasıb idi. Bu tikililəri bəzəmək üçün qızıl və daş-qaşlar yox idi. Bibliyada məbədin tikintisi üçün materialların başqa ölkələrdən alınması və uzaq məsafələrdən daşınması qeyd olunur. Tir çarı Hiram məbədin tikilməsinə lazım olan miqdarda sidr və şam ağacları materialını göndərdi. Bunlar Livandan dənizlə daşınırdı. Bunun əvəzində Solomon ona böyük miqdarda buğda və zeytun yağı göndərdi. Həm də Hiramla Solomon arasında sülh müqaviləsi bağlandı və onlar bir-birinə yaxşı münasibət bəsləyirdilər. Hər ay on min adam Livana ağac qırmağa göndərilirdi. O, həmçinin 80 min adamı daş karxanalarında işləmək üçün dağlıq yerlərə göndərirdi. Əlavə 70 min adam bu daşları daşımaqla məşğul olurdu. Yəhudilərdən və Hiramın adamlarından olan ustalar daşı və ağac materialını yonub, məbədin tikintisi üçün hazırlayırdılar.

Ağır vergilərə baxmayaraq, Solomonun tikinti borclarını ödəmək imkanı olmadığı aşkara çıxdı. Ona görə də əvvəlcə o, ərazini borclu olduğu Finikiyanın həmsərhəd ölkəsinə verdi, sonra isə yəhudiləri Finikiya meşələrində və mədənlərində işləmək üçün sürgünə göndərdi.

Belə tiran xarakterli davranışın Solomonun təbəələrinin çoxunun, xüsusən şimalda yaşayanlar arasında acı antoqonizmin yaranmasına gətirib çıxarması təəccüblü deyildi. Şimaldan olanlar öz oğlanlarını zorla Finikiyada işləməyə göndərildiyini görən ilk adamlar idilər və onlar Yerusəlimdə tikinti layihələrinə az hüsn-rəğbət göstərirdilər, çünki şəhər yəhudi çarlığının daha cənubu olan tərəfdə yerləşirdi. Solomon sağ olanda şimal təbəələri ona tabe olmalarını saxlayırdı, lakin onun ölümü açıq qiyam üçün siqnal oldu. Solomonun oğluna vergi verməkdən imtina etməklə, şimallılar tezliklə birləşmiş yəhudi dövlətindən ayrıldılar və öz çarlıqlarını təsis etdilər.

Şimal çarlığı İsrail çarlığı kimi tanındı və onun paytaxtı Samariya oldu, cənubda qalan isə İudeya çarlığı idi, onun paytaxtı kimi isə Yerusəlim qaldı. Yəhudi səltənətinin birləşmiş dövləti o qədər möhkəm görünmədiyi halda, iki hissəyə parçalandıqda səltənət yazıq gəlinən qədər zəif oldu. Öz instinktlərindən daha çox öz qonşularına qarşı səbirli olması ilə İsrail çarlığı m.ə. 722-ci ilədək, başqa sözlə daha iki əsr mövcud oldu. Həmin tarixdə isə bu dövlət assuriyalılar tərəfindən yoxa çıxarıldı. O vaxtdan assuriyalılar məğlub edilmiş xalqların bütün vacib tikintilərini yerlə yeksan edirdilər, onların əhalisini isə başqa yerlərə səpələyirdilər. Ona görə də İsrail çarlığı barədə bir daha heç nə eşidilmədi. İudeya çarlığı isə əsasən elə bir əhəmiyyət kəsb

etmədiyinə görə yenicə assuriyalıların təhlükəsindən azad olmuşdu ki, m.ə. 586-cı ildə bu ölkə Nebuhadonosorun başçılığı altında babilistanlılar tərəfindən işğal olundu. Nebuhadonosor Yerusəlimi və onun məbədini qarət etdi və yandırdı, İudeyanın aparıcı vətəndaşlarını Babilə sürgün etdi. Bundan yarım əsr sonra iudeyalılar və ya qədim yəhudilərdən fərqli olan yeni yəhudi adlananlar öz "Babil əsirliyindən" əzab çəkdilər. Onlar daim qorxurdular ki, bir daha öz vətənlərini görməyəcəklər.

Hadisələrin gedişi göstərdi ki, onlar səhv edirlər. Çünki Persiya çarı Kir m.ə. 539-cu ildə Babili işğal etdikdən sonra, yəhudilərə Palestinaya dönməyə və Persiyanın ağalığı altında özlərinin yarım müstəqil dövlətini yaratmağa mərhəmətliliklə icazə verdi. Qayıdanlara Yerusəlim məbədinin bərpa edilməsi üçün o qədər böyük vaxt sərf etmək lazım gəlmədi, bu m.ə. 520-ci ildən başlamaqla dörd il ərzində başa çatdı.

M.ə. 332-ci ildə Palestina yunanlar, daha doğrusu makedoniyalı Aleksandr tərəfindən işğal olunana qədər onların varisləri Persiyanın təsir zonasında qalmaqla, az ya çox dərəcədə sülh şəraitində yaşadılar. Aleksandr öldükdən sonra tezliklə yəhudilər yunan dilində danışan ağalarının himayəsi altına keçdilər. M.ə. 168-ci ildə onlardan biri Antiox Epifan məbədi təhqir etməklə yəhudi inamını məhv etməyə cəhd göstərdi, məbədə bütün sitayişləri qadağan etdi, lakin bu kobudluqlar vəcdə gələn mübariz İuda Makkoveyin başçılığı altında yəhudi qiyamının qalxmasına səbəb oldu. Palestina yəhudilərinin iyirmi il çəkən mübarizəsindən sonra qiyam uğurla başa çatdı və yerli Makkovey sülaləsinin hökmranlığı altında yəhudilər siyasi müstəqilliklərini qazandılar, lakin bu şərait yalnız m.ə. 63-cü ilə qədər davam etdi. Bu vaxt Roma sərkərdəsi Pompey sülalənin daxili düşmənçiliyindən fayda götürərək, Palestinanı Roma protektoratına götürdü. Roma hökmranlığı ilə razılaşmayan yəhudilər b.e. 66-cı ilində qiyam qaldırıb, Antiox üzərindəki qələbəni təkrar etməyə ümidsiz cəhd etdilər. Lakin bu vaxt onlar bütün qədim imperiyalardan ən qüdrətlisi ilə üzləşməli oldular və nəyə malik idilərsə, onların da hamısını itirdilər. B.e. 70-ci ilində Roma imperatoru Vespasianın oğlu, gələcək imperator Tit yəhudi üsyanını rəhmsizcəsinə yatırtdı və məbədi dağıtdı. O vaxtdan məbəd bir daha bərpa olunmadı. Palestina romalılar tərəfindən anneksiya edildi və yəhudilər tədricən geniş Roma imperiyasının digər hissələrində yayıldılar - əsrlər ərzində yəhudilərin bir ölkədən başqasına keçməsi və ya diaspora o vaxtdan b.e. XII əsrinə qədər bu əzabkeş xalqın mövcudluğunun mərkəzi faktına çevrildi.

Yəhudilərin romalılara qarşı 66-cı ildə başlanan üsyanının kütləvi qəhrə-

manlıqlar və üsyançıların ağla sığmayan faciələri ilə dolu olan xatirəsi əsrlər boyu yaşamaqda davam etdi. Böyük tarixçi İosif Flavi bu dəhşətlərin bilavasitə şahidi olmuş, qiyam başlananda Qalileya qüvvələrinə komandirlik etmiş, romalılara təslim olduqdan sonra Romaya getmiş və orada "Yəhudi müharibəsinin tarixi" kitabı da daxil olmaqla öz xalqının və dininin tarixi barədə əsərlər yazmışdır. Yəhudilər mühasirədə ac və susuz qalanda da düşmənə öz sarsılmazlığını və böyük həyati resurslara malik olduqlarını göstərmək üçün hətta suyu əbəs yerə işlətməkdən belə çəkinmirdilər.

Lakin bu qiyamın ən şərəfli səhifələrini Masada qalasının müdafiəçiləri yazmışlar. Onların mətanəti və igidliyi heç də Leonidin başçılığı ilə Fermopildə qəhrəmancasına həlak olub, Persiya ordularının Yunanıstana buraxmayan spartalıların tarixi şücaətindən geri qalmır. Onlar da spartalılar kimi mübarizələrinin uğurlu nəticəsinə bel bağlamırdılar, lakin məğlub olmaq fikrini heç ağıllarına da gətirmirdilər. Ölü dənizin cənub sahilində olan qayıq formalı dağın başında yerləşən bu istehkam qalasını romalıların hakimiyyəti altında olan İudeya çarı Böyük Herod İisusun anadan olmasından bir az əvvəl tikdirmişdi. Çarın ölümündən sonra buranı romalılar tutmuş, 66-cı ildə qiyam başlayanda isə Roma ağalığına qarşı çıxan yəhudi Zealot sektası qalanı ələ keçirmişdi. Yerusəlim alındıqdan və məbəd dağıdıldıqdan sonra yəhudi qarnizonu təslim olmaqdan imtina etdi və buna görə də Roma legionerləri tərəfindən mühasirəyə alındı. Vuruşan işğalçı orduda 15 min adam var idisə, müdafiə olunan qüvvələrin sayı qadın və uşaqlar da daxil olmaqla 1 min nəfərdən az idi. Romalılar demək olar ki, iki il ərzində istehkamı özlərinə tabe etməyə çalışdılar. Mühasirə edənlər 434 metr hündürlüyündə olan dağın ətəyindən maili yol tikdilər ki, bastiona hücum etsinlər. Romalılar müdafiə olunanların ağacdan olan divarlarını yandırdıqda, bu yol uçdu.

Qalanı romalılara təslim etmək tələbini hələ rədd edən vaxt, zealotlara başçılıq edən Eleazar ben Cair, bu düşmən qüvvəsi ilə müqayisədə bir ovuc kimi görünən buradakı müdafiəçilərə müraciət etdi: "Biz və bizim uşaqlarımız ölmək üçün doğulmuşuq. Bizdən heç bir kəs qul olmaq üçün doğulmamışdır". Bu sözlərdən sonra müdafiəçilərin hamısı qul olmaqdansa, düşmənə təslim olmaqdansa, məhv olmağa razı olduqlarını bildirdirdi. Bu məqam gəlib çatanda, 73-cü ilin 15 aprelində onlar kütləvi şəkildə özlərini öldürdülər ki, düşmənin əsirliyinə düşməsinlər. İşğalçılar müdafiəçilərin hamısını ölü kimi tapdı, yalnız su kəmərinin içində gizlənən yeddi nəfər qadın və uşaq diri qalmışdılar ki, əhvalatı danışa bilsinlər. Kütləvi intihar vaxtı bəzi məlumatlara görə 400 müdafiəçi ölmüşdü. Spartalılar bir qədər az olsa da,

onlar döyüşçülər idi və vətəni müdafiə etməyə yollanmışdılar. Burada isə mülki şəxslərdən ibarət olan dini bir icma vətən naminə öz ölümlərinə qərar verdilər və yəhudi milli qəhrəmanlığının ölməz simvoluna çevrildilər.

Yerusəlimi dağıdan Tit atasının ölümündən sonra 79-cu ildə imperator taxt-tacına yiyələndi. O, İudeyanı tərk edərkən, böyük qarəti saydığı çariça Bereneikanı da öz məşuqəsi kimi Romaya gətirmişdi. Lakin onun ömrü bədbəxtliklərlə müşayiət olundu, taxt-taca çıxdığı il Vezuvi vulkanının püskürməsindən Pompeya və Herkulanum şəhərləri və çoxlu əhali məhv oldu. Romada yanğın baş verdi və şəhərə taun xəstəliyi yayıldı. O, özü xəstələndikdən əziyyət çəkirdi və iki il hökmranlıq etdikdən sonra öldü.

Heç əvvəllər də yəhudilər böyük siyasi qüdrətə malik olmasalar da, Solomonun ölümündən sonra bütün siyasi nüfuz itirilmişdi. Onların ən böyük nailiyyəti yaratdıqları din oldu. Yəhudilərin dini olan iudaizm əslində inamın, adətlərin və ibadət praktikasının birliyini təcəssüm etdirən bir ictimai şüur növü idi. Bütün bunların hamısını biz Bibliyada görürük. Xristianların "Köhnə Vəsiyyət" adlandırdıqları bu kitabda iudaizm dininin yaranmasından Makkovey dövrünə qədər olan uzun bir tarixi yolu izləmək mümkündür. Kitabdakı hadisələr göstərir ki, heç də bu din birdən-birə yaranmamışdır, uzun və çətin bir yol keçmişdir. Yalnız Moiseyin səyi nəticəsində yəhudilər öz şübhələrinə və büdrəmələrinə son qoya bilmiş, bütpərəstlikdən təkallahlığa keçə bilmişdilər.

Yəhudi dini öz inkişafında dörd mərhələni keçməli olmuşdur. Lap əvvəldən başqa xalqlar kimi yəhudilər də politeist olmaqla digər bütpərəstlər tək çox sayda allahlara sitayiş edirdilər. Bu məsələdə onlar öz qonşuları olan Qərbi Asiya xalqlarından heç də fərqlənmirdilər. Moiseyin xidməti təkcə yəhudiləri Misir köləliyindən azad etmək olmadı, o, həm də öz xalqının milli birliyini yaratdı və onları monoteist din bayrağı altında birləşdirdi. Bu hadisə m.ə. 1250-ci il ətrafında baş verdi və m.ə. 750-ci ilə qədər onun qüvvəsi şübhə edilməyən oldu. Moiseyin təkidi ilə müstəsna olaraq bir allaha sitayişə keçildi və digər allahların mövcudluğu bütünlüklə inkar edildi. Beləliklə, israillilər milli ilahiyyatlarına malik oldular və bu allahı onlar "Yahve" adlandırdılar. Moisey allahdan aldığı On Ehkamı öz xalqına çatdırdı və onları allahının qanunlarına və göstərişlərinə öyrətdi. Bu qanunlardan hansınasa itaət etməməyə onların ixtiyarı yox idi. Moisey bu tapşırığa əməl etdikdən sonra xalqına müraciət edib, dedi: "İsrail, bunu yadında saxla! Sahib və təkcə sahib sizin Allahınızdır. Sahib olan Allahı bütün ürəyinizlə, bütün könlünüzlə və bütün gücünüzlə sevin. Heç vaxt bu gün sizə verdiyim ehkamları

unutmayın. Onları öz uşaqlarınıza öyrədin" (Bibliya, Deyteronomiya, 6:4-6).

Yəhudilər Yahveyə xidmət edir və onu şərəfləndirirdilər. Bu, sistem şəklini alan əxlaqi qaydalar, rituallar və qadağalarla həyata keçirilirdi. İudaizm dininin, bütün təqiblərə və digər bədbəxtliklərinə baxmayaraq min illər boyu özünü qoruyub saxlamasında bu prinsiplərin, xüsusən qadağaların böyük rolu olmuşdur. Təkcə yəhudilərin "Deyteronomiya"sında - "İkinci qanunu"nda deyil, həm də bəzi ehkamlardan və həyat təcrübələrindən götürülmüş 613 qadağa vardır ki, yəhudilər onlara danışıqsız əməl etməlidirlər. Bu qadağalar-tabular həyatın, qidalanmanın, ailə qurmağın bir çox məsələlərini əhatə etməklə yanaşı, hətta xırda məişət məsələlərini, məsələn, ət yeməyi və süd yeməyi qablarının ayrı olması, hətta ayrıca yuyulması qaydalarını da tənzim edir.

On Ehkam isə m.ə. VII əsrdən başlayaraq məlum olmaqla Babilistan əsirliyindən əvvəl mövcud idi. Bu ehkamlar yığcam olmaqla yanaşı bir sıra etik prinsipləri əhatə edir. Burada tək allaha sitayiş və bütlərə qarşı dözümsüzlük təlqin edilməklə, inamın sarsılmazlığına nail olmaq məqsədi güdülür. Qısaca desək, On Ehkam allahın göndərdiyi aşağıdakı tələbləri və prinsipləri əhatə edirdi: "1. Məndən başqa heç bir allaha sitayiş etmə; 2. Göydə, yerdə, yer altındakı suda özün üçün heç bir obraz düzəltmə. Heç bir bütə təzim etmə və ya ona sitayiş etmə; 3. Mənim adımdan onu şər niyyət üçün istifadə etmə; 4. Şabata əməl et və müqəddəs kimi qəbul et; 5. Atana və anana hörmət et; 6. Öldürmə; 7. Zinakarlıq etmə; 8. Oğurluq etmə; 9. Heç kəsə saxta şahidlik etmə; 10. Başqa adamların arvadını arzulama, onun evinə, torpağına, qullarına, mal-qarasına, eşşəklərinə və digər sahib olduqları şeylərə göz dikmə". Bu tələblər min illiklər boyu yəhudilərin pozulmaz əxlaq kodeksinə çevrildi. XX əsrin 60-cı illərində (1961-ci ildə) Sovet İttifaqı Kommunist Partiyasının qəbul edilən Proqramında Bibliyanın bu ehkamları təqlid edilməklə, kommunistlərin eyni sayda prinsiplərdən düzəldilən əxlaq kodeksi ifadə olundu. Bu həmin proqram idi ki, iyirmi ildən sonra ölkədə kommunizmin təntənəsini vəd edirdi, bu peyğəmbərlik yalnız müddət baxımından on il gecikməklə tam əks şəkildə həyata keçdi, SSRİ dağıldı, onun xarabalıqları üzərində müstəqillik qazanmış çox sayda dövlətlər yarandı. Bu hadisə praktiki sosializmin böyük bir ərazidə süqutu ilə nəticələndi, dünya sosializm sistemi bütünlüklə yoxa çıxdı. Kommunistlərin əxlaq kodeksi tez unudulması ilə yanaşı əslində əvvəllər də ona ciddi riayət olunması ilə öyünə bilməzdi. Çünki mənəvi qüsurlar daha böyük təsir gücünə malik olduğundan, onun tələbləri həyatda təcəssümünü tapmaq taleyini yaşamadığından kağız üzə-

rindəki yazıdan, ximera olmaqdan heç də uzağa gedə bilmədi.

Yəhudilər arasında isə əxlaqi standartlara riayət olunmasına icma içərisində ciddi müşahidə qoyulurdu, icmadan kənara çıxdıqda, onlar bunu elə dəqiqliklə icra etmirdilər. İcma öz üzvlərini əxlaqi davranışına nəzarət etməklə, onu müəyyən standartlara uyğun saxlaya bilirdi, bu isə öz növbəsində həmrəylik və birlik meyllərini gücləndirirdi, dini ehkamlardan yayınmanı zəiflətməyə və aradan qaldırmağa gətirib çıxarırdı.

Belə bezikdirici əxlaq qaydaları və ilahi ədalət düşüncələri ilə müqayisədə yəhudi dininin üçüncü mərhələdəki inkişafı inqilabi xarakter daşıyırdı, bu dövrü adətən "peyğəmbər inqilabı" adlandırırlar. Dini fikirdə inqilabın səmərəliliyinə nail olan bu "peyğəmbərlər" yəhudi millətinə Assuriyadan və Babilistandan təhlükə gəldiyi və Babil əsirliyi dövrlərində, təqribən m.ə. 750-550-ci illər arasında yaşamışdılar. Sözün əsl mənasında bu müdrik adamlar gələcəyi əvvəlcədən xəbər verməyi bacaranlar idi, həm də onlar öz moizələri ilə ilahi vəcdə gəlmədən irəli çıxan xəbərləri elan edirdilər. Görkəmli yəhudi peyğəmbərlərindən Amos və Hossa İsrail çarlığının m.ə. 722-ci ildə yıxılmasından bir az əvvəl, həmçinin İsayya və Yeremiya İudeyanın m.ə. 586-cı ildə yıxılmasını əvvəlcədən, Ezekiel və ikinci İsayya həmçinin "Babil sularının" bədbəxtlikləri barədə qabaqcadan məlumat vermişdilər. Bu şəhadətlərin hər biri israilliləri nəhəng bədbəxtliklər barədə xəbərdar etməklə yanaşı, dini düşüncənin birləşmiş toplumunu formalaşdırmaq sahəsində onların fəaliyyəti barədə təsəvvür yaradır. Bu peyğəmbərlərin öyrətdiklərinin özəyi üç təməl doktrinadan ibarət idi: a) radikal monoteizm; b) Yahve müstəsna dərəcədə ədalətli allahdır. O, yalnız xeyir vəsiyyət etmişdir, şər isə Ondan deyil, sözdə insandan gəlir; c) Yahve belə ədalətli olduğundan o, öz israilli övladlarından başqalarına nisbətən daha çox etik davranış tələb edir.

Sonuncu dövr isə yəhudilərin Babildən qayıtmasından sonrakı dörd əsrdə iudaizmin fəaliyyətinin ölçülərini əhatə edir. Bununla da həmin dövr sürgündən sonrakı səhnə adlanır. Bu dövrün dini mütəfəkkirləri esxatologiya doktrinasını irəli sürdülər. Bu dünyanın və insanın son taleyi barədə əmin olub, "son şeylər" və ya zamanın sonunda nə baş verəcəyi barədəki yazılar idi. Persiyalıların və romalıların hakimiyyəti altında olanda və Makkovey qiyamı illəri ərzində Palestinadakı yəhudi mütəfəkkirləri öz kiçik və siyasi cəhətdən zəif olan millətlərinin rolu barədə fikirləşirdilər və güman edirdilər ki, dünya üçün ilahi planda onlar öz üzərlərinə düşən rolu oynayacaqlar və o vaxtdan etibarən diqqət Messiyanın - Xilaskarın gəlməsi üzərində cəmlən-

məyə başladı və min illər davam edən intizarlı gözləmə baş verdi. Başqa sözlə onlar belə bir inama gəldilər ki, Allah tezliklə onlara milli xilaskar və ya "messiya" göndərəcəkdir. Həmin "messiya" yəhudiləri təkcə böyüklüyə qaldırmayacaqdır, həm də zamanın sonundan əvvəlki sülh və ədalət minilliyi ərzində Yahveyə sitayişi bütün dünyaya yayacaqdır. Güman ki, Makkovey qiyamı dövründə yazılmış, lakin müəllifliyi dörd əsr əvvəl yaşamış Danielə aid edilən kitabda messiyadan bəhs edilərkən, onun "İnsan Oğlu" olmaqla, "göyün buludları ilə birlikdə" gəlməsi və "heç vaxt ötüb keçməyən əbədi ağalığa" malik olması bildirilirdi. ("Deniel", 7:13-14). Həm də qeyd edilirdi ki, messiya "Qiyamət gününə" başçılıq edəcəkdir, başqa sözlə, bu qeyri-təbii hal o deməkdir ki, bütün ölülər diriləcək, öz həyatlarının keyfiyyəti barədə messiya qarşısında mühakimə olunacaq, pis adamlar əbədi əzablara məhkum ediləcək, "müqəddəslər" bütöv göy altındakı səltənətin böyüklüyünə xidmət etmək üçün qalacaqdır.

Qədim yəhudilər böyük alimlər, inşaatçılar və ya rəssamlar deyildilər. Hətta Solomonun məbədini də əslində yəhudilər deyil, əsasən Finikiya bənnaları və sənətkarları tikmişdilər. Burada elə bir heykəl və rəssamlıq əsəri yox idi. Bunların əvəzinə qədim yəhudi mədəniyyəti özünün qiymətli ifadəsini daha çox qanunda və ədəbiyyatda tapmışdı.

Yəhudi qanununun başlıca daşıyıcısı Deyteronomiya Kodeksi idi, bu məcəllə Bibliyanın "Deyteronomiya" kitabının özəyini təşkil edir. Köhnə babilistanlıların Hammurabi qanununa görə, bu kodeks daha mərhəmətli, ədalətli və nisbətən altruist xarakterli idi. Altruizm onda ifadə olunurdu ki, nəinki kasıblara və qərib adamlara alicənablıq göstərilirdi, hətta yəhudi qulları altı ay işlədikdən sonra azad olunurdu və onlara öz həyatlarını başlamaq üçün bir qədər ərzaq və əşyalar verilirdi, qanunun tələb etdiyi kimi bütün borclular hər yeddi ildən bir öz borclarından azad edilirdi.

Hər bir adam digər israilliyə pul borc verirdisə, bu borc məbləği hər yeddi il başa çatanda silinirdi. Borc verən pulu tələb etməməli idi, yalnız əcnəbi borclulardan pulu tələb etmək olardı. Bu xalqın heç bir üzvü kasıb olmamalı idi. İsraillilər başqa xalqlara borc verə bilərdilər, lakin heç bir başqa xalqdan borc ala bilməzdi. Heç kəs pul borc verməkdən imtina etməməli idi, alicənablıq etməli və öz həmvətənlisinin ehtiyacı qədər ona pul verməli idi. Borc silinən ilin yaxın olduğuna görə də borc verməkdən imtina etmək olmazdı. Daim bir sıra israillinin yoxsul və ehtiyac içərisində olmasına görə, onlara qarşı alicənablıq göstərmək lazımdır.

Əgər israilli kişi və ya qadın özünü qul kimi satmışdırsa, altı il xidmət

göstərdikdən sonra, o, azad olunmalıdır. Yeddinci il gəlib çatanda qul azad buraxılmalıdır, bu vaxt o, əli boş getməməlidir. Ona qoyun, taxıl və şərab verilməlidir. Axı yəhudilər Misirdə qul olanda, allah onları azad etmişdi. Lakin qul xidmət etdiyi evi tərk etmək istəməsə, o, ev sahibini və onun ailəsini sevirsə, onun qalmasına razılıq verilirdi və bundan sonra ömürlük qul olurdu. Qadın qullarla da bu qaydada davranılırdı. Qulu azad edəndə ona kin bəsləmək olmazdı, axı altı il ərzində o, xidmət göstərmişdi.

Ədliyyə inzibatçılığına gələndə, hakimlər öz hökmünü verdikdə, hər kəs onun dediyi kimi hər şeyi etməlidir. Onun hökmünə və təlimatlarına bütün detallarında əməl edilməlidir. Kim vəzifə başında olan hakimə və ya keşişə tabe olmamağa cəsarət etsə, o, öldürülməlidir. Belə bir prinsip irəli sürülürdü ki, övladlar öz atalarının təqsirləri üçün cavabdeh deyildir və bu heç bir şəraitdə günah kimi qəbul edilə bilməzdi.

Qanunda hətta hansı heyvanların ətindən istifadə edib, etməmək öz əksini tapırdı. Adamlara icazə verilirdi ki, iki dırnaqlı və qidasını göyşəyən heyvanların ətini yesinlər. Başqa heyvanların ətini isə yemək qadağan olunurdu, onlar qeyri-təmiz hesab olunurdu, bunların siyahısına həmçinin dəvələr, dovşanlar, qaya porsuqları, donuzlar daxil idi. Dənizdə yaşayan, üzgəci və pulcuğu olmayan heyvan yeyilməməli idi. Quşların bir hissəsi qida üçün yararlı sayılmırdı. Bütün qanadlı həşəratlar da yeyilmirdi. Təbii ölümü ilə ölən heyvanlar da yeyilməməli idi.

Ümumilikdə yəhudi ədəbiyyatı kimi götürülənlər, Qərbi Asiyada qədim sivilizasiyanın yaratdığı ən yaxşı ədəbiyyat idi. İndiyə kimi gəlib çıxanların hamısı "Köhnə Vəsiyyət" və Apokrif kitablarında olanlardır. "Köhnə Vəsiyyət" bütünlüklə düşünüldüyü qədər də elə qədim deyildir, öz səhifələrində həmçinin rəsmi tarixi təsvir edir. Ən köhnə olan mətnlərin isə m.ə. 850-ci ildən qabaq yazılması güman edilmir. Bir neçə xronikalardan başqa "Köhnə Vəsiyyət"in əksəriyyət kitabları sonrakı dövrlərə məxsusdur. Baxmayaraq ki, Zəburlar bloku çar David tərəfindən yazılmışdı, onlardan çox sayda daha yaxşı olanları Babilistan əsirliyi ilə bağlı olan hadisələrə həsr olunmuşdur. Buradan belə görünür ki, Zəburlar toplusu bütünlüklə bir neçə əsrin işidir.

Bibliyanın "Genesiz" kitabının adı "başlanğıc" mənasını verməklə kainatın yaranmasından, bəşəriyyətin başlanğıcından, dünyada günahın və əzab çəkmənin meydana gəlməsindən və Allahın bəşəriyyətlə əlaqədar gördüyü işlərdən bəhs edir. Dünyanın və insan irqinin erkən tarixinin yaranması nəql edilərkən Adəm və Həvva bəşərin ilk əcdadları kimi göstərilir, həmçinin

Qabil və Habil, Nuh və daşqından, Babil qülləsi barədə əhvalatlar canlı obrazlarla verilir. Sonra isə israillilərin ən erkən əcdadlarının tarixi gəlir. Allaha inamına və itaətinə görə ilk nəzərə çarpan şəxsiyyətin Abraham olduğu göstərilir. Sonra onun oğlu İsaakın, nəvəsi İakovun, axırıncının on iki oğlunun əhvalatları verilir. Bu on iki adam İsrailin on iki tayfasının əsasını qoyanlar idi. Allah yəhudiləri tarix boyu xəbərdar edir və onları özünün seçilmiş xalqı kimi formalaşdırır.

"Çıxış " kitabında isə İsrail tarixinin ən mühüm hadisələri, İsrail xalqının qul olduqları Misirdən çıxması öz əksini tapmışdır. Burada mərkəzi fiqura Allahın öz xalqını Misirdən çıxarmaq üçün başçı seçdiyi Moiseydir. "Levitlər" kitabında qədim İsrailin sitayiş və dini mərasimlərini nizamlayan prinsiplər ifadə olunur. "Saylar" kitabında isə israillilərin Sinay dağını tərk etdikdən sonrakı 40 ilə yaxın vaxt ərzində baş verən əhvalatlardan və vəd edilən torpaqlara onların çatmasından bəhs edilir.

"Coşua" ("İosif Navin") kitabında israillilərin Xanaana müdaxiləsindən, bu işə Moiseyin varisi Coşuanın başçılıq etməsi əhvalatından danışılır. "Hakimlər" kitabında isə İsrail tarixinin qanunsuzluq dövrünün əhvalatları yazılmışdır. Bu, Xanaana müdaxilə ilə monarxiya qurulması vaxtı arasındakı dövrü əhatə edir. Bu vaxt fəaliyyət göstərən qəhrəmanlar "hakimlər" adlanır. Onlardan daha məşhuru Samson idi. "Ruf" ("Rut") kitabı moabit qadın kimi onun israilliyə ərə getməsindən, əri öldükdən sonra israilli qayınanasına yaxşı xidmətindən və İsrail allahına səmim qəlbdən özünü həsr etməsi əhvalatlarını nəql edir. "I Samuel" və "II Samuel" kitablarında İsrailin hakimlərdən monarxiyaya keçməsindən bəhs edilir. Burada ilk çar Saul və David göstərilir, Davidin hökmranlığı tarixi isə daha geniş verilir. "I Çarlar" və "II Çarlar" kitablarında Samueldən başlanan İsrail tarixindən, Solomonun hökmranlığından və nailiyyətlərindən bəhs edilir. İki çarlıq, Samariyanın yıxılması və şimal çarlığının mövcudluğunun başa çatması təsvir olunur. Sonra İsrail çarlığının yıxılmasından və İsrailin dağılmasından bəhs edilir.

"I Xronikalar" və "II Xronikalar" kitablarında "Samuel" və "Çarlar" kitablarındakı hadisələr bir daha təkrar edilir. Çar Solomonun ölümünə qədər olan hökmranlığın dövründən bəhs edilir. "Ezra" kitabında isə bir sıra yəhudilərin Babil sürgünündən dönüb, Yerusəlimdə öz həyatlarını bərpa etməsi təsvir edilir. Sonrakı illərdə yəhudilərin digər qrupları Ezranın başçılığı altında Yerusəlimə dönür. "Nehemiya" kitabında Persiya imperatorunun İudeyanı idarə etməsindən danışılır, "Ester" kitabında Persiya çarının sarayında yəhudi qadını Esterin böyük cəsarət göstərib, öz xalqını məhvedici təhlükədən xilas etməsi təsvir edilir. "Cob" ("İov") kitabında ümumi bədbəxtlikdən

əzab çəkən yaxşı adamın əhvalatı qələmə alınır. Cob asi düşməsindən peşiman olur və itaətlə Allahı tanıyır. Sonra isə "Zəburlar", "Zərb-məsəllər" və "Ekklesiast" kitabları gəlir.

Bütün dünyanın ən gözəl məhəbbət lirikaları arasında Bibliyanın "Şərqilər şərqisi" kitabı xüsusi yer tutur. Bu yəqin ki, bəşəriyyətə məlum olan ilk erotik poemadır. Şərqilər güman ki, m.ə. 5-ci əsr ətrafında toplanmağa başlanmışdır və təmiz dünyəvi toy poemalarıdır. Bu sətirlərdə əsl məhəbbət dil açır, sevənlər bir-birini göylərə qaldırır, qızın gözəlliyini, bəyin isə ləyaqətlərini tərifləmək üçün çox incə və ustalıqla seçilmiş təşbihlərdən istifadə edilir. Qız sevdiyi kişiyə deyir: "Dodaqların qərq etdi məni öpüşlərə, şərabdan yaxşıdır sənin məhəbbətin". Kişi isə buna belə cavab verir: "Saçların üzünə töküləndə gözəldir və boynuna sarılıb bir daş-qaş kimi". Yaxud, ikinci şərqidə qız deyir: "Mənim sevgilim cüyür kimidir, cavan erkək marala bənzəyir". Kişi isə cavabında deyir: "Sən qaya yarığında gizlənən göyərçin kimisən, qoy sənin gözəl sifətini görüm və sənin heyran edici səsini eşidim". Qız deyir: "Mənim sevgilim qəşəng və güclüdür; o, on min adamdan biridir". Kişi deyir: "Bütün qadınlar ona baxıb, onu tərifləyirlər, çariçalar və kənizlər ona tərif oxuyurlar". Kişi deyir: "Sən necə palma ağacı kimi zərifsən, sənin dişlərin xurma salxımıdır". Qız cavab verir: "Qoy şərab mənim sevgilimin üstünə axsın, onun dodaqlarına və dişlərinə axsın". Qız sonda deyir: "Mən divaram, döşlərim isə onun qüllələridir". Kişi belə cavab verir: "Məhəbbətim mənim, qoy bağdan eşidim səsini, dostlarım sənin danışığını eşitmək istəyirlər".

"Ekklesiast" kitabı "filosofun" düşüncələrindən ibarət olmaqla, insan həyatının necə qısa və ziddiyyətli olmasını təsvir edir. Bu həyatda hər cür qəribə ədalətsizliklərə və pozuntulara rast gəlindiyindən, müəllif tam skeptik şəkildə "həyatın faydasız", fani olduğu qənaətinə gəlir. Yalnız Allah insan taleyinə nəzarət edir. Allahın yollarını, vasitələrini başa düşməsə də, bunun acığına, o, adamlara daha gərgin işləməyi və allahın hədiyyələrindən mümkün olduğu qədər həzz almağı məsləhət görür.

Filosofun fikirlərinin çoxu neqativ və hətta ruhu əzən kimi meydana çıxır. Lakin kitab göstərir ki, Bibliya inamı kifayət qədər genişdir və bu pessimizmi və şübhələri də nəzərə alır. Bununla da, əslində həyatın ən böyük ölçüdə mənası, mahiyyəti verilir. Kitabda deyilir: "Nəsillər gəlir, nəsillər gedir, ancaq dünya elə həmin cür olaraq qalır. Günəş hələ də çıxır və hələ də batır, yorğun şəkildə həmişə start götürdüyü yerə qayıdır. Külək cənuba əsir, külək şimala əsir - dövr edir, dövr edir və yenə geriyə dönür. Hər bir çay dənizə tökülür, ancaq dəniz hələ də dolmamışdır, su çayların başladığı yerə qayıdır və hər şey yenidən başlayır... Bizim gözlərimiz heç vaxt məm-

nun olmaq üçün kifayət qədər görmür, qulaqlarımız kifayət qədər eşidə bilmir. Əvvəl nə olmuşdusa, yenə o baş verəcəkdir. Bütün dünyada yeni olan heç nə yoxdur". Sonra o, daha pessimist fikirlərə keçir: "Nədən ötrü ki, işlədiyim və qazandığım mənim üçün heç nə mənasını verir, çünki bilirəm ki, onu mən varisimə qoyub gedəcəyəm və o, aqil olacaqmı, ya səfeh olacaqmı, bunu kim bilir? Mən nədənki ötrü işləmişdim, onların hamısına, mənim müdrikliyimin bu dünyada qazandığı hər şeyə o, sahib olacaqdır. Bunların hamısı faydasızdır. Beləliklə, mən peşiman oluram ki, belə gərgin işləmişəm". Sonra kitabda hər şeyin vaxtı gəlməsi siyahısı başlayır və bu Allahın seçimi kimi qiymətləndirilir: "O, doğum vaxtı və ölüm vaxtını qoymuşdur, ağacı əkmək vaxtı, dartıb çıxarmaq vaxtı, öldürmə vaxtı və sağaltmaq vaxtı, dağıtmaq vaxtı və tikmək vaxtı. O, kədər vaxtı və şadlanmaq vaxtı qoymuşdur. Matəm vaxtı və rəqs etmə vaxtı, məhəbbətlə məşğul olmaq vaxtı və məhəbbətlə məşğul olmamaq vaxtı, öpüşmək vaxtı və öpüşməmək vaxtı. O, tapma vaxtı və itirmə vaxtı qoymuşdur.

Xilas üçün vaxt və kənara atmaq vaxtı, cırmaq vaxtı və yamamaq vaxtı, sakitlik vaxtı və söhbət etmək vaxtı. O, sevmək üçün və nifrət etmək üçün, müharibə üçün vaxt və sülh üçün vaxt qoymuşdur".

Filosof cavanlara məsləhət görür ki, öz gəncliyinizdən həzz alın, nə qədər ki, cavansınız xoşbəxt olun. Nə istəyirsinizsə onu edin və öz ürəyinizin arzusuna qulaq asın. Lakin yadda saxlayın ki, siz nə etmisinizsə Allah sizi mühakimə edəcəkdir. Qoymayın ki, kimsə sizi narahat etsin və ya sizə ağrı gətirsin. Siz uzun müddət cavan olmayacaqsınız.

Yəhudi irsi iki min il ərzində dünyanın tarixinə öz dərin təsirini göstərmişdir. Bu həm yəhudilərin fəaliyyəti, həm də xristianlığın iudaizm köynəyindən çıxması idi. Üstəlik yəhudilərin "transtsendent ilahiyyatı" dünyanın başqa xalqlarına müxtəlif şəxsi dəyişmələrdə ötürülmüşdür və belə bir əminlik yaratmışdı ki, onlar təbiətin ağalarıdır və ağacı kəsəndə əli qaldırıb yendirməyə ehtiyac duymurlar və ya çayların axınını dəyişəndə meşə və ya su allahının acıqlanacağından qorxmurlar. Dini versiya və ya onun dünyəvi qaydada qəbul edilməsi nöqteyi-nəzəri də texnoloji təşəbbüsə köməklik göstərdi. Bibliya özünün bütün dini qaydaları və prinsipləri ilə yanaşı, sivilizasiyanı dünya üçün bir müdriklik örnəyi, həyat hadisələrinə qiymət verilməsinin lakonik ifadəsi və böyük əhəmiyyətə malik olan iri ölçüdəki zərb-məsəllər və nümunələr mənbəyi olaraq qaldı. İsraillilərin səhra qumluğundakı daşdan çıxartdıqları bu bulağın suyu, sonrakı min illər boyu öz qiymətini artıraraq, insan zəkası adlanan okeana tökülən iri nəhəng çay ölçüsünü almağa başladı.

# FƏSİL 5
# HİND VƏ ÇİN SİVİLİZASİYALARININ İNKİŞAFI

Dünyanın heç yerində Hindistan və Çin kimi sivilizasiyanın inkişafının həqiqi fasiləsizliyi olmamışdı. Bu gün də qədim hind sivilizasiyası hind həyatının əsasını təşkil edir. M.ə. 1750-ci illər ətrafında hind sivilizasiyasının yekrəngliyi bu böyük ərazidə dağıldı və müxtəlif əyalətlərdə bu fərqli qaydalarda baş verdi. Mohenco-daroda son təbəqələr mülki standartlarda tənəzzül əlamətlərini göstərir, bu dövrdəki qırğından və ya müdaxilədən xəbər verir. Çanhu-daroda və Amridə məşğuliyyətdə ciddi dəyişiklik əmələ gəlməsi şəhadətləri yoxdur. Bunun davamını kəsən şəhadətlərdən hansı əsas sayılmalıdır, burada hind-avropa dilində danışan, tayfaların və ya arilərin erkən qruplarının gəlib çıxması izləri qalmışdırmı? Mohenco-daronun sonunun tektonik dəyişiklikləri İnd çayının aşağılarında geniş və fəlakətli daşqın əmələ gətirməsi ilə əlaqələndirilir. Başqa səbəblər də irəli sürülür. İnd çayı periodik başlıca dəyişikliklərə məruz qalanda, bunu Mohenco-daro ətrafındakı iqtisadi cəhətdən həyati əhəmiyyət kəsb edən kənd təsərrüfatı torpaqlarından daşqın suyunun kəsilməsi və quraqlığın nəticəsi kimi və ya şəhərə haradansa qaçqınların axışması nəticəsi ilə izah edirlər. Bu qaçqınlar sistemin içərisində gərginliyi artırdı və şəhər müdaxiləçilər üçün yüngül qurbana çevrildi. Bundan sonra gələn dövr qaranlıq dövr adlanır.

## Hindistan sivilizasiyası

Arilər Hindistana gəlib çıxanda bu ölkə artıq sivilizasiyalanmışdı. Mohenco-daro qalıqları arilər gəlməmişdən əvvəl burada böyük sivilizasiyanın olduğunu göstərir. Həmin vaxt dravidlər Hindistanın cənubunda zəngin sivilizasiyaya malik idi. Onların dini də başqa idi.

Hind-avropa dillərində danışan qrupun bəzi elementləri erkən dövrlərdə hərəkət edərək bütün Yaxın Şərq yollarından keçib Hindistana gəlmişdilər. Bu xalqlar özlərini arilər və ya "nəciblər" adlandırırdılar və onların danışdıqları dil tarixi sanskritin kökü idi. Arilərin m.ə. 1500-1000-ci illərdə subkontinentə gəlməsi güman edilir. 2-ci minillikdəki böyük miqrasiyanın bir hissəsi olmaqla, onlar Hindistana şimali-qərbdən gəlmişdilər. Britaniya qul-

luqçuları və tacirləri 18-ci əsrdə Hindistanda sanskritlə tanış olduqda, bu geniş yarımadanın erkən müqəddəs dilinin qərbi Avropa dilləri ilə yaxından bağlı olduğunu müəyyən etdilər. Filoloji tədqiqatlar hind-avropa xalqlarının tarixdən əvvəlki hərəkətləri barədə təsiredici panorama yaratdı. Bu xalqlar Avroasiyanın şimal və mərkəzi ərazilərini dolaşmışdılar. Lakin tarixçilərin bu qiymətli şəhadətinin səmərəsi hərtərəfli qaydada bərabər fayda gətirmədi. Bir sıra alimlərin irqçi nəzəriyyələri və XX əsrin birinci yarısında Avropada mövcud olan nəsillərin qatı millətçi iftixarı bir çox xalqları səhv yola döndərdi. Onlar güman etməyə başladılar ki, bu dil qrupu həqiqi irqdir və beləliklə "ari" qanı deməklə, onlar oxşar olurdular. Hind-avropa dilində danışan hansısa bir adam hər şeydən əvvəl onun bədəninin tipinə və dərisinin rənginə əhəmiyyət vermədən hind-avropalıdır, bircə müstəsna qola məxsusdur. Həqiqətdə isə, tarixdə haradasa ilk dəfə görünən hind-avropa xalqları barbar tayfalar olmuşdular və onların müdaxilələri çox vaxt, onların toqquşduqları sivilizasiyaların ciddi tənəzzülünə səbəb olurdu. Ehtimal ki, onlar haradasa mərkəzi Avropadan keçməklə şərqə tərəf Sibirə uzanan böyük düzənliklərdən gəlmişdilər, bu adamlar daxili regionların sakinləri olmaqla ümumi "dəniz" sözünə də malik deyildilər. Müxtəlif dialektlərdə isə qaramal, at, təkərli araba və digər oxşar sözlər var idi. Filoloqlar belə qənaətə gəlir ki, erkən hind-avropalılar mahiyyətcə köçəri və patriarxal olan tayfalarla qohum olan qrup idi, lakin onlar həm də dənli bitkilər yetişdirməklə də tanış idilər.

Arilər haqqında şəhadət başlıca olaraq onların himnlərindən, şərqilərindən və mərasim formulalarından ibarət olan dörd "Veda" toplumundan gəlir. Onlardan ən məşhuru "Riq-Veda" və ya "Çar Veda"sıdır, buna 1025 himn daxildir. Bu himnlər müxtəlif allahlara, Varuna kimi göy allahına, qüdrətli yağış allahı və müharibənin himayəçisi İndraya və hər şeyi məhv edən od allahı Aqniyə qurban verilən vaxt oxunurdu. Bu poemalar allahların şeytanlarla vuruşunu, ağdərili arilərin kəndlərdə yaşayan qaradərili ari olmayan yerlilərlə müharibəsini göstərirdi. Veda mənbələri qeyd edir ki, arilər siniflərə, tarixi hind kastalarının nüvəsinə bölünmüşdü. Sonrakı mənbələrdə qeyd edildiyi kimi "brəhmənlər, kşatriyalar, vayşyalar və şudralar dörd kasta idi. Onların ilk üçü iki dəfə doğulanlar adlanırdı. Onların vəzifələri - brəhmənlər üçün Vedanı öyrənmək, kşatriyalar üçün orduda daim qulluq etmək, vayşya üçün mal-qara becərmək, şudra üçün iki dəfə doğulmuşlara xidmət etməkdir". Onlardan axırıncısı olan şudra, əvvəlki əhalini təmsil edirdi, ilk üç kasta isə keşişlər, döyüşçülər və çobanlar olmaqla, ari ağalar idilər.

Sonrakı m.ə. birinci minillikdə və ondan bir neçə əsr sonra da Hindistan əhalisi özünü ciddi qaydada 3000 kastaya bölürdü. Bu müəyyən dərəcədə əvvəllərdə buddizm və çaynizmdən, sonralar isə islamdan olan təhlükəyə cavab idi. Nəticə etibarilə, hər kasta pəhriz və nikah sahəsində öz xüsusi rituallarına yiyələndi və Hindistan həyatının möhkəmlənmiş tərkib hissəsinə çevrildi.

Tayfa cəmiyyətləri öz məclislərinə malik idi, tayfaların dövlətə keçməsi ilə onların siyasi rolu da dəyişirdi. Maurian dövründə meydana gələn mərkəzləşmiş İmperializm tədricən desentralizasiya olunmuş inzibatçılığa yol açdı və Qupta dövründə bu feodalizm tipi adlandı.

İnd vadisi sivilizasiyasının (m.ə. 2500-1700-cü illər) qalxmasında şəhər iqtisadiyyatı həlledici rol oynadı. Sonralar, m.ə. 1-ci minillik Qanq vadisində və Cənubi Hindistanın sahil ərazisində də şəhər sivilizasiyasını gördü. Şəhərlərin meydana gəlməsi ticarətin tələbatından yaranır və onun ehtiyaclarına əsaslanırdı. B.e. 1-ci minilliyində kommersiya genişlənərək Qərbi Asiya ilə, Şərqi Aralıq dənizi ilə Mərkəzi və Cənub-Şərqi Asiya ilə ticarəti əhatə etdi. Ticarətdən gələn gəlir bunda iştirak edən çarlıqların iqtisadiyyatları arasında bölünürdü, necə ki, həqiqətən də hind dini və mədəniyyəti Mərkəzi və Cənub-Şərqi Asiyanın mədəni təkamülündə mühüm rol oynamışdı. Qızıl sikkələr ilk dəfə Kuşanda və böyük miqdarda Quptada buraxıldı, bu çarlıqların hər ikisi xarici ticarətdə fəal idi. Qızıl Mərkəzi Asiyadan və Romadan idxal edilirdi. Genişlənən ticarət, adamları yeni marşrutların açılmasına həvəsləndirirdi və bu coğrafiya barədə biliklərin artmasına gətirib çıxarırdı. Ticarətin böyüməsi ilə tacirlər gildiyaları şəhərlərdə daha da güclənirdi. Gildiyaların üzvləri inzibatçılıqda iştirak edir, siyasətçilərlə birləşir və Roma və Çin kimi uzaq yerlərə göndərilən tacir səfirlikləri vasitəsilə ticarətin inkişafına nəzarət edirdilər. Gildiyalar və tacir assosiasiyaları dini institutlar kimi qısqanclığa səbəb olur və nüfuzlu mövqe tuturdular.

Hind cəmiyyətinin strukturu kastalarla xarakterizə olunduğundan heç də bir rəngli deyildi, bu quruluş XX əsrin ortalarında ləğv olunsa da bizim dövrümüzə qədər gəlib çıxır. Bu dövrdəki hind-arilər arasında böyük fərqlər var idi, lakin onlarda ümumi cəhətlər də az deyildi. Hind ari cəmiyyəti dörd hissəyə və ya kastaya bölünürdü: brəhmənlər və ya alimlər, kahinlər, müdriklər; kşatriyalar və ya hökmdarlar; vayşilər və ya tacirlər və ticarətlə məşğul olan adamlar; şudralar və ya işçilər. Şudra ari sözü deyildi və onların işi üç yüksək kastaya xidmət etmək idi. Bəlkə də kastalar sisteminin mənşəyi müəyyən qədər arilərin tabeliyə götürülmüş irqlə qarışmamaq arzusundan irəli gəlirdi.

Arilər məğrur və şöhrətpərəst insanlar idi və onlar digər irqlərə yuxarıdan aşağı baxaraq, onlarla qarışmaq istəmirdilər. Sanskrit dilində "kasta" sözü - "varna" - rəngi bildirirdi. Bu bir daha sübut edir ki, gələn arilər Hindistanın ilk sakinləri arasında ağ bənizli adamlar idi. Arilər öz aralarında böyük dərəcədə azadlığı saxlayırdılar və hansısa hökmdar özünü pis aparsa, onu hakimiyyətdən uzaqlaşdırırdılar. Çarlar bir qayda olaraq kşatriyalardan olurdu. Qədim zamanlarda deyilirdi ki, arini heç vaxt qula çevirmək mümkün deyildir, çünki ari adını biabır etməkdənsə, o, ölməyə hazır idi.

Erkən hind tarixində din monolit qüvvə kimi fəaliyyət göstərmirdi. Burada dini ifadənin üç səviyyəsi mövcud idi. Ən geniş yayılmışı, yerli allahların kultlarına sitayiş idi və onlar başlıca allahla birləşirdilər. Daha az yayılan, lakin xüsusən şəhər ərazilərində populyar olan, daha puritan sektalar sayılan buddizm, çaynizm və ənənəvi hinduizmin bir növü idi. Üçüncü səviyyə isə klassik hinduizm idi və bu din buddizm və çaynizmə nisbətən daha mücərrəd səviyyə idi. Lakin bu üç səviyyə bir-birindən təcrid olunmamışdı, üçüncünün kölgəsi ilk iki səviyyənin üzərinə düşürdü və onların da daha artıq vətənə məxsus hesab edilən ritualları və inamları bir sıra hallarda üçüncüyə nüfuz edirdi. Hinduizmin çevikliyi onun qorunub saxlanmasında mühüm rol oynadı. Buddizm formaları bu dövrün sonuna yaxın solmağa başladı.

Sanskrit ədəbiyyatı, hindu, buddist məbədləri və heykəltəraşlığı öz zirvəsinə bu dövrdə çatdı. Sonrakı dövrlərdə də sanskrit dilində ədəbi əsərlərin yazılmasının və məbədlər tikintisinin davam etdirilməsinə baxmayaraq, bu nailiyyət heç vaxt bir daha ilhamlandırıcı olmadı.

M.ə. 1500-cü illərdən Hindistan subkontinentinin şimal hissəsində mühüm dəyişikliklər baş verməyə başladı. 250 il əvvəl İnd vadisində Harappa mədəniyyətinin tənəzzülündən sonra Qanq vadisində urbanizasiyanın ikinci və daha çox davam edən dövrü başlandı. Harappanın süqutu həm də onun İnd regionu sivilizasiyasının mərkəzi olmasının sonu idi. Harappa ərazisinə çox da oxşar olmayan digər yeni ərazilər tutulmağa başlandı. Bu Pencabın və Qucaratın bir-birinin ardınca tutulması idi. Coğrafi və ekoloji amillər - çayların axan istiqamətinin dəyişilməsi, həmçinin səhradan olan adamların buraya axışması və təkrar olunan daşqınlar bu ərazini fiziki cəhətdən qonaqpərvər olmayan etdi, bütünlüklə şəhərlərin tənəzzülü ilə nəticələndi. Adamların Pencabdan Qanq vadisinə miqrasiyası ilə urbanizasiyanın yeni əraziləri meydana gəldi.

Bura dəmir məmulatların yeni metal texnologiyası gəlib çıxdı, bu da Qanq vadisində urbanizasiyaya keçilməsini sürətləndirdi. Həmçinin, atdan istifadə

olunmağa başlandı. Şərqdə sakinlərin qidasında buğda və arpadan düyüyə keçməsi, dulus məmulatlarının formalarının da dəyişilməsinə səbəb oldu.

Hindistanda erkən ədəbiyyat nümunəsi Veda ədəbiyyatı idi. İlk dövrlərdə Vedalar adətən şifahi şəkildə bir ərazidən başqasına keçirdi. Mətnlərin dili də sanskrit olmaqla, himnlərdəki cadulardan, moizələrdən və Hindistandakı ari dilində danışan xalqların rituallarının icra edilməsindən ibarət idi.

Hindistanda arilərin kökü barədə nəzəriyyələr onların hind-avropa vətənli adlanmaları sualı ilə əlaqədardır. Arilərin dili olan sanskrit hind-avropa dillər qrupunun əcdadı hesab olunur. Buradan belə nəticə çıxırdı ki, hind-avropa dillərində danışan xalqlar bir ümumi vətənə malikdir və oradan onlar Asiya və Avropanın müxtəlif hissələrinə miqrasiya etmişlər. Bu miqrasiya güman ki, dalğavari olmuşdu və onun ilk dalğasını m.ə. 2-ci minilliklə tarixləndirmək olar. Bu qərbi Asiyadakı arxeoloji və epiqrafik şəhadətlərdən də aydındır. Mesopotamiyada belə şəhadətlər vardır ki, m.ə. 1760-cı illər ətrafında Kassitlər buraya gəlib çıxanda özləri ilə at, araba gətirmişdilər və onlar Surilər, İndlər və Maruttlar (Suriya, İndra və sanskritdəki Maruta) kimi hind-avropa adlarına malik idilər. M.ə. 1400-cü illərdə hettlərlə müqavilə bağlayanda, onlar bir az əvvəl Anatoliyaya gəlmişdilər və mutaniilər bu vaxt dörd allaha - İndaraya, Uruvnaya, Mitiraya və Naşatiyaya and içirdilər. Bu allahlar Prvedada çəkilən allahların bir qədər təhrif edilmiş adlarıdır. M.ə. 1400-cü illər ətrafında Babilistan - mixi yazısı ilə gil lövhələrdəki xatırlanan hökmdar adları da hind-avropalılara məxsusdur. Atla əlaqələndirilməklə bu xalqların ilk yaşadığı yerin Mərkəzi Asiya və ya Cənubi Rusiya çölləri olduğu güman edilir.

Hindistanın yaxınlığındakı İran yaylası belə miqrasiya yeri idi. İran arilərinin ədəbiyyatı olan Avesta Veda ədəbiyyatı ilə müqayisə edildikdə onların arasında yaxın əlaqə olduğu aşkara çıxmışdır. Buradan belə çıxır ki, İran ariləri Hindistanın şimalına miqrasiya edərək Sapta Sindhu regionunda məskunlaşmışdılar. Bu ərazi şimalda Kabul çayından başlayaraq cənubda Sarasvatiyə qədər uzanırdı. Həmin dövrdə müqəddəs çay sayılan Sarasvati şimali Racastandan axıb keçərdi, lakin tezliklə səhrada yoxa çıxırdı.

Sonrakı Veda dövrü (m.ə. 1000-500-cü illər) barədə "Mahabharata" və "Ramayana" kimi iki epik poema məlumat verir. "Mahabharata" iki əmioğlu qrupu arasında baş verən müharibədən bəhs edir. "Ramayana"dakı hadisələr isə orta Qanq vadisi və Mərkəzi Hindistanla əlaqədardır, sonrakı interpolyasiyalarda bu cənubda Seylona qədər gedib çıxır. Coğrafi fokus da Sapta Sindhu regionundan Qanq vadisinə və ona qonşu olan ərazilərə keçir. O

vaxtlar Qanq müqəddəs çay hesab olunurdu. Bu ərazilərdən uzaqda olan xalq natəmiz barbarlar adlanırdı, onların danışığı və adətləri nəcib xalq sayılan arilərinkinə bənzəmirdi. Bu ərazilər də arilərin təmiz torpağı kimi Ariyavarta adlanırdı. Dövrün sonunda tayfa adları tədricən ərazi adlarını da dəyişdi və məskunlaşma ərazisi bu vaxt dövlət hesab olunurdu, onların hər biri siyasi sistem kimi tanınırdı.

Məclislərdən siyasi institut kimi sonrakı dövrlərdə də ümumən istifadə olunurdu. Böyük məclislər isə tənəzzülə uğrayırdı. Çarlıqda mühüm dəyişikliklər baş verdi, onlar sadəcə müharibə liderinin idarəsi olmaqlarını dayandırdılar. Ərazinin adı onun qüdrəti və statusu ilə müəyyən edilirdi, uzun mərasimlərlə rəmzlənirdi. Bir mərasim at qurbanına görə məşhur idi, xüsusi seçilmiş ata sərbəst dolaşmağa icazə verilirdi, onun dolaşdığı ərazi heç kəsə aid hesab edilmədikdə çara məxsus olurdu. Beləliklə, ən azı nəzəri cəhətdən yalnız çara məxsus olan hakimiyyət bu qurbanı həyata keçirə bilərdi. Bu iri miqyasda köçəriliyin sona yetməsinin əlaməti idi. Digər tərəfdən, bu ideya çarın torpağa sahib olmasına gətirib çıxarırdı. Çar qurbanları vasitəsilə keşişlərin rolu yüksəlirdi. Bu dövrdə həmçinin çarlıq varislik xarakteri daşımağa başladı.

Bu sakinlərdən bir çoxu, xüsusən də sənətkarlıq və kommersiya mərkəzlərində şəhərlilərə çevrildilər. M.ə. 1-ci minilliyin ortalarından Qanq vadisindəki ikinci urbanizasiya dövrü başlandı.

Subkontinentin digər hissələri neolit mədəniyyətlərinə cəlb olunmuşdu, onlar başlıca olaraq şərqdə və cənubda yuva salmışdı. Bu dövrdə dəmir məmulatları istehsalı və dulusçuluq fəaliyyəti artırdı. M.ə. 4-cü əsrdə siyasi iqtisadiyyat və xarici səyyahların hesabları barədə dünyəvi yazıların olması aşkar edilmişdir. Bu yazılarda subkontinentin şimali hissəsinə ağalıq edən 16 əsas dövlətin siyasətlərindən bəhs edilir. Bu dövlətlərin siyasi sistemi monarxiya və oliqarxiyanın təmsil etdiyi hökumət tipi idi. Başlıca dövlətlərdən başqa çoxlu kiçik respublikalar da var idi. Respublikalar sadə bir tayfadan və ya tayfalar birliyindən yaranırdı. Seçilən başçı və ya prezident Kşatriya ailəsindən seçilən ağsaqqallar şurasının köməkliyi ilə fəaliyyət göstərirdi. Daha vacib institut isə ümumi məclis idi, onun üzvləri öz yığıncaqlarına litavra çalınması ilə yığılırdı. Bu respublikaların siyasi sistemi stabilləşmiş aqrar iqtisadiyyatdan xəbər verirdi. Varlı kşatriyalar öz torpaqlarını becərmək üçün qullardan və muzdla tutulmuş işçilərdən istifadə edirdi. Şəhər sivilizasiyasının iki xarakterik cəhəti - yazı və sikkə buraxılması burada tətbiq edilirdi. Daha çox işlənən dil prakrit və maqadhi idi, axırıncıda Budda öz moizələri-

ni oxuyurdu. Daha mədəni dil olan sanskrit az təhsil görmüşlərin və Veda dininin dili olan prakritlə müqayisə olunurdu.

M.ə. 6-cı əsrdə subkontinentdə sivilizasiya yenidən meydana gəldi. 500-cü ilə yaxın əvvəllər məlum olan dəmirdən istifadə geniş yayıldı və nizami piyada və süvari qüvvələrinin sanskrit epik ənənəsində təriflənən fərdi kübar arabalarında üstələməsinə bu, köməklik göstərdi. Persiya standartında sikkə buraxılmağa başlandı. Aramaik əlifbası qəbul edildi və Xaroşti yazısı formasında tətbiq edildi. Babilistanla kommersiya artdı, Hindistanda həqiqi şəhərlər meydana gəldi, Qanq çayı boyunca irriqasiya genişləndi, Qanq hövzəsindəki çarlıqların konsolidasiyası ilə bu ərazi hind mədəniyyətinin mərkəzinə çevrildi.

Assuriya dövründən Yaxın Şərqin böyük səviyyədə birləşməsi, inkişafın spesifik xəttinə xidmət etməsinə baxmayaraq, daha yaxşı birləşmənin bünövrəsi Hindistanda idi. Adamlar yarımadanın əksər hissəsini, cənubi Hindistandan uzanan çay düzənliklərindəki nəzərə çarpan tərəqqi naminə, dəyişməyə hazır idilər. Bu ərazinin dravid dialektləri birdəfəlik tamil dilini və digər müasir dilləri yaratdı, lakin cənubun bəzi mahalları danışıqda ari dilini işlətməyə başladı. Siyasi və iqtisadi sahələrə nisbətən dəyişiklik külələri daha bərk əsməyə başladı. Veda kultunun ritualları və qədim qurban verməleri bütün mütəfəkkirləri uzun müddətə qane edə bilmədi. Şəhərlərin və çarlıqların varlı və özünə güvənən qüvvələri brəhmənlərin ağalığa yüksəlməsinə dözə bilmirdilər. Bunun nəticəsi dini islahatın partlayışı oldu, faktiki olaraq yeni dinlərin yaranmasına gətirib çıxardı. Bunlardan ən böyüyü buddizm idi. Bu din Asiyanın qalan hissəsinə Hindistanın başlıca töhfəsi idi. Hindistanın özündə isə onun maraqlı sirdaşı çaynizm idi.

Qautama Siddharta (təqribən 485-ci ildə ölmüşdür) öz ardıcılları tərəfindən "Budda" və ya Nur saçan insan adlanırdı. O, indi Nepalın bir hissəsi olan Maqadha çarlığında anadan olmuşdu. Çaynizmin banisi və onun müasiri olan Mahavira və ya Vardhamana həmçinin Hindistanın şimalından gəlmişdi. Bura sürətlə genişlənən ari zonasının hüdudu idi, brəhmən iddialarını qəbul etməyə daha az meylli idi. Hər iki islahatçı, maraqlı burasındadır ki, kşatriya sinfinin gövdəsindən idi və öz dualarında müqəddəs sanskritdən daha çox yerli dillərdən istifadə edirdilər.

Qautamanın anadan olması və onun uşaqlıq illəri, Mahaviranınkı kimi sonrakı mömin rəvayətlərdə əksini tapan möcüzələrlə dolu idi. Çin buddist kanonu 500 cilddə toplanmış 1600-dən çox əsərdən ibarət idi.

Ənənəyə görə, Qautama 29 yaşına çatana qədər varlı kübar ailəsində ya-

şamışdı. Bu yaşa çatanda o, özünün həzzlərdən xəbər verən həyatı ilə razılaşmamağa başladı. Onun narazılığının bir səbəbi, ölən və qoca yaşında olan adamları görməsi oldu. Digər səbəb isə onun oğlunun anadan olması idi. Qautama demişdi: "Rahula doğuldu, zəncir doğuldu". Və həmin gecə o, öz arvadını və körpə uşağını tərk edib, asketik həyat sürməyə başladı. Hindistandakı ümumi rəyə görə bu işıqlılığı qoruyub saxlamaq yolu idi. Altı il ərzində o, yoqa təlimi əsasında bədənini öldürməklə məşğul oldu. Brahma ilə birləşmədə o, hansısa vəhy qəbul etməkdə uğursuzluğa düçar olanda, öz yarımac pəhrizinə və təbiət qoynunda həyat keçirməsinə son qoyub, yaxındakı kəndə gəldi və yeməyə başladı. Pipal (müqəddəs əncir) ağacının altında oturan vaxt qəflətən uzun müddət gözlədiyi həqiqi yolun vəhyini aldı. Bundan sonra o, 45 il ərzində moizə etməyə başladı. Onun ilk moizəsi müqəddəs şəhər Benaresdə edilməklə, düşüncələrin ən yaxşı məcmuu idi. Bu moizəsində iki bir-birinə zidd olan əkslikləri göstərir - bir tərəfdən adamlar ehtirasdan, xüsusən hissiyatdan asılılığa məftun olur, digər tərəfdən ağrılı asketizm şəraitində yaşayırlar. Orta cığır vardır. O, şagirdlərinə məsləhət görür ki, bu iki əkslikdən qaçsınlar, açıq gözlə və anlamı hədiyyə etməklə bu cığır zəkanın dincliyinə, yüksək müdrikliyə, tam işıqlanmaya, nirvanaya aparıb çıxaracaqdır.

Bu əsl yol düzgün baxışdan, düzgün vəcdlənmədən, düzgün nitqdən, düzgün davranışdan, düzgün yaşayışdan, düzgün səy göstərmədən, düzgün qayğıkeşlikdən, düzgün seyr etmədən ibarət olan "nəcib səkkiz qatlı cığır"dır. Buddistlər buna bənzər həyat sürməklə, onlar canlı məxluqlara *(ahimsa)* heç bir xətər toxundurmamalıdırlar. Bu təlim hətta daha çox çaynizm tərəfindən vurğulanır.

Buddist cığırı axırda ehtirassız nirvanaya aparıb çıxarır, orada adamlar daimi yenidən təcəssüm olunmaq əzablarından azad olacaqlar. Bütövlükdə Budda həyatdan sonrakı dövrün təbiəti ilə azacıq razılaşırdı və ümumən heç vaxt allaha açıq inam göstərməmişdi. Onun dünyadakı həyat üçün praktiki göstərişi çox məhdud idi, bunlar sadə, mülayim və düzünə yaşamaq idi və Budda özü də bu qaydada yaşayırdı və öz ardıcıllarını nəsilbənəsil buna ilhamlandırırdı. Yavaş-yavaş buddizm hinduizmin yerli xüsusiyyətlərindən daha çox aralanmağa başladı və m.ə. 3-cü əsrdən başlayaraq buddizm artıq öz hüququ ilə missioner dini olmağa hazır idi.

Digər tərəfdən, çaynizm daha təmiz hind dini olaraq qalırdı. Mahaviranın öyrətdiyi kimi, kainat sikllərin sonsuz seriyası idi. Bu siklin hər biri ərzində müxtəlif nöqtələrdə 24 xilaskar meydana çıxır ki, əziyyət çəkən bəşəriyyə-

tə köməklik göstərsin. Mahavira bu xilaskarlardan biri olmaqla, asketizmdən keçməklə öz axtarışında, on üç yaşı olanda bu hər şeyi bilməyini əldə etmişdi. Çaynizmin ardıcılları buddistlərə nisbətən daha çox asketik həyatı və *ahimsa* təlimini təbliğ edirdilər.

M.ə. 5-ci əsrdən başlayaraq gümüş sikkələr tədavülə buraxıldı. Başlıca ticarət yolları Qanq çayı boyunca idi. Qanq deltasına yol daha populyar idi və bu Hindistanın şərq sahillərindəki limanlarla dəniz əlaqəsi saxlamağa imkan verirdi. Ticarətin genişlənməsi şəhərlərdə çox sayda sənətkarların və tacirlərin meydana gəlməsi ilə nəticələndi. Gildiya sistemi əməyin ixtisaslaşmasını sürətləndirirdi və sənətkarlıqdakı varislik prinsipi kasta fəaliyyəti üçün xarakterik hala çevrilirdi. Tədricən bəzi gildiyalar kasta statusunu alırdı.

Sosial və iqtisadi həyatın bu dəyişiklikləri dini və intellektual dəyişikliklərlə də bağlı idi. Veda ədəbiyyatının bir sıra müəllimlərin sualları "Upanişadlar"da və "Aranyakaslar"da əsaslanmaqla, ortodoks ənənələri dəstəkləmək məqsədini güdürdü. Bütün bu bölmələrdən yalnız ikisi əsas dini status almaqla çaynizm və buddizm kimi adlanmışdılar. Birinci, Hind subkontinentinin daxilində qalmışdı, axırıncı isə Mərkəzi Asiyaya, Çinə, Yaponiyaya və Cənubi-Şərqi Asiyaya yayılmışdı və əsaslı dövr üçün Asiyada aparıcı din olmuşdu. Hər iki din m.ə. 6-cı əsrdə yaranmışdı. Bu iki sektaya bənzəyən çoxlu dini cərəyanlar da var idi. Dini rituallar az olsa da, dini qardaşlığa əsaslanırdı. Bəzi monastırlar mühüm təhsil mərkəzlərinə çevrilirdi. Cəmiyyətdə rahiblərin fəaliyyəti ancaq Buddist ordeni arasında böyük idi. Sərgərdan dolaşan rahiblər, moizə edib ianə yığıb dinə missioner xidməti göstərirdilər. Rahibliyə qəbul qadınların xüsusi statusu ilə əlaqədar idi. Hər iki din heyvan qurbanı verilməsinə əks çıxırdı və hər ikisi zorakılıqdan qaçmağı moizə edirdi. Bu dinlərin hər ikisi başlıca olaraq varlı kşatriya torpaq sahiblərinin və tacirlər icmasının dəstəyi ilə meydana gəlmişdi. Ona görə də ticarət və kommersiya adam öldürməyi öz əməllərinə aid etmirdi, zorakılıqdan qaçmaq prinsipi onların fəaliyyətində seyr edilə bilərdi. Çaynizm dininə sitayiş edənlər maliyyə sövdələşmələrində vasitəçilik edirdi və sonrakı əsrlərdə bu dinin tərəfdarları qərbi Hindistanın böyük maliyyəçiləri oldular. Hər iki din kastaların qeyri-bərabərliyini bəyənmirdi, birbaşa kasta cəmiyyətinə hücumlar etməsələr də, özlərini qeyri-kasta hərəkatı kimi göstərirdilər, aşağı kastadan olan qruplara kömək göstərilməsini qoruyub saxlayırdılar. Çünki buddizm öz rituallarını və təcrübəsini, populyar olan yerli kultlardan əxz etmişdilər, çar ailəsindən olan qadınlar onların müdafiəçiləri idilər.

M.ə. 6-cı əsrdə Qanq vadisinə nəzarət üstündə dövlətlərin döyüşündən

Maqadha qalib çıxdı. Maqadhanın uğuru müəyyən dərəcədə onun çarının siyasi ambitsiyasına borclu idi. Həmin çar Bimbisara m.ə. 543-cü ildə taxt-taca çıxmışdı. Onun oğlu öz atasının niyyətlərini, taxt-taca çıxdıqdan sonrakı 30 il ərzində həyata keçirdi. O, öz paytaxtının müdafiəsini möhkəmləndirdi, Qanq üzərində kiçik fort tikdirdi və bu onun məşhur paytaxtı Patna oldu. O, sonra hücum edib iki dövləti də özünə birləşdirdi. Maqadhanın uğurları təkcə öz çarlarının ambitsiyaları ilə bağlı deyildi, bu dövlət aşağı Qanqa nəzarət edən yüksək coğrafi mövqeyə malik idi, həm münbit düzənlikdən, həm də çay ticarətindən gəlir götürürdü. Deltaya çıxmaqla şərq sahil ticarətindən də böyük fayda götürürdü. Hər şeydən əvvəl buradakı zəngin dəmir filizi yataqları Maqadhanı texnologiyada aparıcı rolla mükafatlandırmışdı.

Bimbisara erkən dövrlərdəki çarlardan biri idi ki, məhz səmərəli inzibatçılıq qurmuşdu və bu vaxt inzibati sistemin başlanğıcı kök atdı. Hər bir kənd vergilərin yığılmasına məsul olan başçıya malik idi və qulluqçular dəstəsi vergilərin yığılmasına nəzarət edir və paytaxtdakı saray xəzinəsinə gəlirləri çatdırırdılar. Dövlətin gəlirinin əsas mənbəyini torpaqdan istifadə təşkil edirdi. Maqadha xeyli sülalə dəyişikliklərinə baxmayaraq öz güclü mövqeyini saxlayırdı və ekspansiya siyasəti aparırdı.

## Çin sivilizasiyasının başlanğıcı

Çin xalqının və sivilizasiyasının kökü müəyyən olunmamışdır. Müxtəlif etnik qruplar və çoxlu ayrı-ayrı primitiv mədəniyyət mərkəzləri tədricən meydana çıxıb və qarışıb, bu sivilizasiyanı əmələ gətirmişdilər. Çindəki neolit mədəniyyəti Avroasiyanın çox hissələrindəki həmin dövrə məxsus olan mədəniyyətə oxşar idi. Çinin müxtəlif hissələrində erkən dövrlərdən fərqlilik var idi.

Ən köhnə Çin tarixi ədəbiyyatı olan "Şu Çinq"də - "Klassik tarix" və ya "Sənədlər kitabı"nda və qədim mahnıların və poemaların geniş toplusu olan "Şih Çinq"də - "Klassik odalar" və "Şərqilər kitabı"nda da m.ə. 1-ci minillikdən əvvəlki dövrlərə aid olan məlumatlara əsaslanılmır. Bu kitablar da göstərir ki, sivilizasiya artıq primitiv şəraitdən çox uzaqlaşmışdı. Mərkəzi Asiyada aparılan arxeoloji tədqiqatlar bu mədəniyyətin qədim yerlərinin Xəzər dənizinin şərqi olduğunu müəyyən etmişdir və onlar Monqolustandan və güman ki, daha uzaq qərbdən, qərbi Asiyadan və cənubi-şərqi Avropadan miqrasiya etmişlər. Bu xalq Asiyanın müxtəlif hissələrindən olan bir sıra nəsillərin nəticəsi olmaqla, onların inkişafına malik idi. Bəlkə də Çin mədəniy-

yəti, elə Çinin özündə inkişaf etmişdir. Erkən dövrlər barədə Çin əfsanələri də tarixdən çox istifadə etməmişdir, çünki onlar ədəbiyyatdan gəlmişdi və müəyyən siyasi və sosial niyyətlər güdmüşdür. Ən qədim dövrlərin on şəxsiyyətindən, 1-ci minilliyin məlumatlarına görə yalnız üçünün real insanlar olduğu məlum olur. Bunlar Fu Hsi, Şen Nunq və Huanq Ti-dir. Onların üçü də həm aqil, həm də hökmdar olmuşlar. Bunların arasında Huanq Ti daha görkəmli yer tutur, çünki Çou dövrü ərzində çar sarayındakı adamlar və feodal dövlətlərin qulluqçuları ona birinci əcdad kimi baxırdılar. Onun ixtiralarına qayıqlar və avarlar, həmçinin odla deşmə daxildir. Odla o, təpələri və düzənlikləri ağaclardan və kollardan təmizləyirdi, ölkəsini vəhşi heyvanlardan qoruyurdu, qaramalın saxlanıb yetişdirilməsini tətbiq etmişdi. O, hətta öz qulluqçuları arasında musiqinin öyrənilməsini təşkil etmişdi. Fu Hsi adamları ov etməyə öyrətmişdi, Şen Nunq isə beş taxıl növü becərmiş, kotanı icad etmişdi və bazar yaratmışdı.

M.ə. 18-ci əsrdə qərbdə Siandan şərqdə Tsinana qədər olan Şanqda məskunlaşma genişlənmişdi. Burada divarlarla hasara alınmış şəhərlər var idi. Sərdabələrlə yanaşı, bu ərazini həm də müxtəlif növ emalatxanalar fərqləndirir. Bunların arasında diqqəti cəlb edən dulusçuluq sobalarıdır. Bəzi saxsı qırıntıları dulusçuluq təkərindən istifadə edildiyini göstərir. Kəsilmiş bürünc parçaları dükanları da mövcud idi. Burada nizə ucluqları, bıçaqlar, balıq qarmaqları, balta başları, ritual qablar istehsal olunurdu. Sümükdən, daşdan, balıq qulağından, fil sümüyündən, nefritdən və qızıldan müxtəlif məmulatlar və bəzək şeyləri düzəldən sənətkarlar var idi. Nəqş xarakterli bəzi sümük işlərini, Çindəki yazının ilk meydana çıxması nümunəsi hesab etmək olar. Görünür, bu mühüm şəhər idi. Çində ilk dəfə olaraq burada bürüncdən istifadə edilmişdisə də, onun mədəni səviyyəsi sonra gələn şəhərlərdən aşağı idi.

Yinin hökmranlığından başlanan çarlıq öz yüksək zirvəsində şərqdə dənizlə, cənubda Yantszı çayı ilə, qərbdə Şensi ilə və şimalda Honehlə sərhədlənirdi. Çara kübar ierarxiyasından olanlar kömək edirdilər. Dövlət iri bac yığan mexanizm növünə malik idi. O vaxtdan sərhəddə yaşayan xalqlarla çox sayda müharibələr olmuşdu. Varislik ardıcıl xarakter daşımırdı, 38 varislikdən 19-u atadan oğula, 14-ü böyük qardaşdan kiçiyə, beşində hər iki təcrübədən imtina edilməklə ötürülmüşdü. Çariçalar da belə əhəmiyyət kəsb edirdi. Bir çariça açıq varisi doğduqdan sonra ölsə, onun sərdabəsi ailə məbədinə çevrilirdi və ona, əcdadına olduğu kimi sitayiş edilirdi.

Şanq üçün  təqvim çox vacib idi. Başlıca təsərrüfat sahəsi bitkiçilik olduğundan, çar öz xalqına səpin və biçinin düzgün vaxtını xəbər verməli idi.

Təqvim ayı üçün xarakterik olan səma ayı idi. Ayın uzunluğu 30 gün idi, iki ay 60 günlük dövrəni təşkil edirdi, ildə isə 360 gün var idi. Təqvimin günəş ilinə çevrilməsi təcrübəsi həyata keçirilirdi. M.ə. 14-cü və 13-cü əsrlərdə ilin sonunda lazım gələndə əlavə ay artırılırdı və bu 13-cü ay adlanırdı. Bir az sonra əlavə ay tələb olunanda istənilən aydan sonra gəlirdi və ötüb keçmiş ayın adı ilə adlanırdı. Bu istifadə üçün çətin olsa da, stabil təqvim idi. Bir Çin alimi m.ə. 14-cü əsrlə 12-ci əsr arasındakı 152 illik dövrü öyrəndikdə, öz hesablamasına görə müəyyən etmişdi ki, günəş ilinin uzunluğu 365gündən ibarətdir. Bu vaxtlar günlər yeddi yerə bölünürdü, bir az sonra isə on yerə bölündü. Bu çinlilərin çox qədimdən onluq sistemə meyl etdiyinin bir sıra sübutlarından biridir və bütün növ ölçülər üçün mühüm əhəmiyyət daşıyırdı. Təqvim hesablanması işlərindən sonra baş astroloqların və hadisələri əvvəlcədən xəbər verənlərin nüfuzu çox artdı. Ayın batması hadisəsi hətta uzaq məsafədəki dövlətlərin paytaxtlarına xəbər verilirdi; bəzi ulduzların və planetlərin batması isə yazılarda, nəqş edilmələrdə xatırlanırdı.

Bu vaxt müharibələrdə vuruşmağa kübarların başçılığı altında 3 mindən 5 minə qədər adam aparılırdı. Kübarlar özləri bürünc nizə ucları ilə silahlanır, qalxanlarla və dəbilqələrlə müdafiə olunur və iki at qoşulmuş araba sürürdülər.

Fermerlik edən kəndlilər bellərdən və adam qoşulmuş kotandan istifadə edirdilər. Çində ən çox becərilən dənli bitki darı idi. Bu dövrdə bir qədər buğda və arpa tətbiq olunmağa başlandı. Ev heyvanlarından çoxdan istifadə edilirdi, bura keçi və ev quşları da əlavə olunmuşdu. İri tikinti meydançalarında ağır işləri görmək üçün fildən istifadə olunurdu. Bir sıra irriqasiya işləri tətbiq edilirdi. "Şanq adamı" adi tacir üçün standart əlamətə çevrilmişdi. Toxuculuqda ipəkdən istifadə edilirdi. Bu vaxt bir çox musiqi alətləri məlum idi.

M.ə. 12-ci əsrdə Çou sülaləsi hakimiyyətə gəldi, onun kökləri dövrün dumanlarında itib batmışdır. Baxmayaraq ki, Çin tarixi sistemi Çou şəcərəsini daşıyır, lakin əcdadlarının tarixini müəyyən etmək çətindir. İlk əcdad Hou Çi idi və hərfən tərcümə edildikdə "darı ağası" demək idi. O, tayfa başçısından daha çox mədəni qəhrəman və bitkiçilik allahı idi.

Çou adına böyük Şanq çarlığının sümükdə nəqş edilmiş məlumatlarında tez-tez rast gəlinir. Şanq çarlığı bac yığdığı qonşuları ilə dost, digərləri ilə düşmən idi. Bəzi hallarda iki hökmdar ailəsi arasında nikah ittifaqları baş verirdi. Çou həmçinin daha mədəni qonşularından bəzi sənətləri, məsələn, bürünc istehsalını götürmüşdü. Çou çar evini Çinin ağası kimi Şanqın yerini tut-

maq ideyası düşündürürdü - bu işğal üç nəslin dövrünü əhatə etdi və onun son akkordunu Uen Uanq vurdu. Məhz o, öz müasirləri arasında populyarlıq qazanmış və Çou səltənətini genişləndirmişdi. Ədəbi məlumatlar vurğulayır ki, Çou real olaraq həmin dövrdə bütün Çinin üçdə ikisinə nəzarət edirdi, bununla yanaşı Şanqın mədəni və siyasi üstünlüyünü qəbul edirdi. Köçərilərlə iri miqyaslı müharibələrdən taqətdən düşən Şanq Çou ordusu qarşısında dayana bilmədi və çar Uenin oğlu və onu taxt-tacda əvəz edən U Uanq müqavimət görmədən paytaxta daxil oldu.

Çou başçıları işğal edilmiş ərazilərə zəif nəzarət edirdilər. Şanq hökmdarının oğluna itaətdə olan dövlət yaratmağa icazə verildi, onun idarəçiliyini Çou çarının iki qardaşı yaxından müşahidə edirdi. Çounun digər başçıları və onun müttəfiqləri köhnə Şanq ərazisini əhatə edən torpaqları özlərinə götürdülər. Lakin baş verən qiyamı yatırmağa və Çou sarayının suverenliyini bərpa etməyə üç il vaxt lazım gəldi. Bu üç ildəki ekstensiv kampaniyalar bütün Çin üzərində Çou hökmranlığını möhkəmləndirdi. Çounun yaxın və uzaq qohumlarının qurduğu bir sıra dövlətlər şərqə və şimali-şərqə tərəf irəlilədilər və bura genişlənmənin ön tərəfində Çou Kunqun oğlunun qurduğu dövlət də daxil idi. Tarixi məlumatlarda belə feodal dövlətlərin sayının 20-dən 70-ə qədər olduğu göstərilir. Bu dövlətlərin hər biri istehkamlanmış şəhərlərə malik idi. Onlar Huan Ho (Xuanxe) vadisi boyu düzülmüşdü, cənubda Huan və Han çaylarının vadisinə çatmışdı.

İstehkamlanmış şəhər çox vaxt feodal ağanın birbaşa nəzarət etdiyi yeganə ərazi olurdu. Dövlət və şəhər buna görə də eyni qaydada adlanırdı. Ətrafa dağılmış feodal dövlətlər tədricən ərazi vahidliyinə bənzər bir şeyi əldə etdilər. İki əsr ərzində Çou Çini stabillikdə və sual altında olan bir şəraitdə yaşadı. Lakin Çin dövlətlərinin özlərinin arasında da mübahisələr var idi. Cənub ekspansiyası uğurlu idi, şimal ekspansiyası isə köçəriləri Çin ərazilərindən aralı saxlamaq məqsədini güdürdü. Lakin sülalənin varislik ardıcıllığının pozulması halları da baş verirdi. M.ə. 841-ci ildə kübarlar birləşərək tiran Li Uanqı qovmuşdular və onun yerinə iki ən ziyalı kübarın başçılıq etdiyi kollektiv rəhbərlik üsulu təsis etmişdilər. Yaxud, m.ə. 771-ci ildə Çou çar xəttindən olan hökmdar, buraya müdaxilə edən barbarlar tərəfindən öldürülmüşdü. Bundan bir qədər sonra ənənəvi olaraq Tsun Tsiu ("Yaz və payız") dövrü kimi tanınan yeni fazaya daxil olundu və bu dövr m.ə. 722-481-ci illərdə davam etməklə, 2,5 əsrə yaxın ömür sürdü. Tsun Tsiu dövründə kübarlar arasında ailə qohumluğunun tədricən zəifləməsi baş verdi. Ağalıq xətti böyük qardaşa verilirdi, lakin o, ancaq siyasi üstünlüyə, bir də ailə xəttində-

ki böyüklüyə malik olurdu. Çou çarının feodal quruluşda mövqeyi zəiflədikdən sonra ailənin başçısı öz mövqeyini saxlaya bilmirdi, feodal quruluşu və ailəni birləşdirən bağlar bir birindən ayrı düşürdü. Sonrakı iki əsr ərzində feodal-ailə sistemi tədricən tənəzzülə uğradı və yoxa çıxdı.

M.ə. 5-ci əsrdə sonrakı dəyişikliklər başlandı, qüdrətli maqnatların mübarizəsi nəticəsində Tsin dövləti rəqabət aparan üç dövlətə bölündü. Yarım əsr ərzində qarışıqlıqlar baş verdi, kiçik dövlətlər böyüklərin qurbanına çevrildi, həmin böyük dövlətlərin uzurpatorları köhnə hökmdarları əvəz etdi. Xaos dövrü başa çatanda burada yeddi əsas və bir neçə kiçik dövlət var idi. Yeganə "köhnə" dövlət Tsu idi. Qeyri-çin tayfalarından olan bir neçə yeni dövlət də meydana çıxdı. Hakimiyyət davasının uzun dövrü Çan Kuo ("Döyüşən dövlətlər") dövrü (m.ə. 481-221-ci illər) kimi tanınır.

M.ə. 8-ci əsrdən 221-ci ilədək birləşmiş Çinin əzablı doğulması baş verdi. Bu qanlı müharibələr, həm də siyasətdə, cəmiyyətdə və intellektual baxışda uzağa gedən dəyişikliklər dövrü idi. Siyasi institutlarda ən mühüm dəyişiklik köhnə feodalizm quruluşunun yerini monarxiyanın rəhbərliyi altında meydana gələn bürokratiyanın tutması idi. Çou feodalizmi hakimiyyətin davam edən zəifləməsindən əziyyət çəkirdi. Dövlət genişləndikcə kübarlar vassalları ələ keçirirdilər, onlar da öz növbəsində öz vassallarına malik olurdular. Ailəni bağlayan əlaqələr zəifləyirdi və hökmdar vassalların birləşmiş gücündən daha çox asılı olurdu. Bu nöqteyi-nəzərdən vassallar irəli çıxan mövqelər əldə edirdilər və onların arasındakı daha aparıcı şəxsiyyətlər çarın özünü kölgədə qoyurdular. Çou sarayı şərqə hərəkət etdikdən sonrakı bir əsrin içərisində feodal dövlətlərin əksəriyyətində hökmranlıq edən saraylar dəyişdi. Qanlı saray intriqaları və hakimiyyət uğrundakı mübarizələr artıq qurulmuş bir çox hakimiyyətləri məhv etdi. Beləliklə, feodal sistem korlandı və nəticədə süqut etdi.

Bu dövrdə urbanizasiya prosesi gedirdi. İri və xırda şəhərlərdən göstərişlər çıxırdı və onlara kəndlər resurslar göndərirdi. Huan Ho (Xuanxe) vadisindəki mərkəzi düzənlikdə ilk şəhərlər qrupu meydana gəlmişdi. Urbanizasiya həm də xalqların assimilyasiyası ilə müşayiət olunurdu. Qeyri-çou əhalisi gəlib feodal şəhərlərə çatanda Çou xalqının və feodalizminin maqnetik cazibəsini hiss etməyə bilmirdilər. Onlar açıq məkanlara səpələnmişdilər. Daxili Çində barbarlar dövlətlərarası münaqişədə rəqabət aparanlardan bu və ya digərinə inteqrasiya olunurdular. Torpaqlar həmin dövlətə anneksiya edilirdi, onların əhalisi qovulur və ya absorbsiya edilirdi. İri dövlətlərin gücü bir çox uğurlarına görə, daha çox onlara qoşulmuş çinli olmayan qruplara

borclu idi. M.ə. 3-cü əsrdə Çinin birləşməsi dövründən faktiki olaraq Yantszı vadisinin şimalında və çöllərdən cənubda çinli olmayan qrupların elə bir əhəmiyyətli təmərküzləşməsi baş vermədi.

Tsu sivilizasiyasının cənubdakı assimilyasiyası isə başqa qaydada getdi. Bir neçə əsr boyu Tsu Çin dövlətlərinin baş düşməni idi. Tsu kübarları şimal mədəniyyətindən çox şey götürmüşdülər. Şimal tərəfi isə çöllərin köçəri xalqları məskunlaşdırmışdılar. Onlar parçalanmış şəkildə olduqlarından uzun müddət ərzində elə bir təhlükə hesab olunmurdular. Lakin güclü liderlərin başçılığı altında özlərini köçəri imperiya içərisində əritdilər və çinlilərin ağalığı hədə-qorxu gələn vaxt qarşıdurma meydana gəldi. Çinlilərin şimaldakı "cəzalandırma" hərəkətləri isə elə bir fayda vermədi.

Dövlətlər həm əhali, həm də ərazi cəhətincə böyüdükcə daxili siyasi dəyişikliklər əmələ gəldi. Ən əsas dəyişiklik hakimiyyətin təmsilçiliyi nümunəsində baş verdi. Feodalizm quruluşunda hakimiyyət ağalardan vassallara ötürülürdü. Yeni dövlət hökmdarları zəruri olaraq öz hakimiyyətlərini dəstəkləmək və təşkil etmək yollarını axtarırdılar. Praktiki olaraq bütün böyük dövlətlər kanslerlərə malik idilər. Kansler çox sayda qulluqçulardan ibarət olan sarayın başçısı kimi hərəkət edirdi. Feodal dövlətdə qulluqçular hərbi zabitlər idisə, sonrakı dövrdə mülki xidmət personalları korpusu meydana gəldi. Yerli inzibatçılıq məhdud şəraitlərdə xidmət edən prefektlərə etibar edilirdi. Prefektlərdən saraya illik məruzələr tələb edilirdi ki, hökmdar onların fəaliyyəti barədə mühakimə yürüdə bilsin. Regional nəzarətçilər bəzi hallarda prefektlərin işini yoxlamağa yollanırdılar, bu sistem sonrakı Çin imperiya hökumətində inkişaf edib "senzor" sisteminə çevrildi. İri feodal malikanələri adətən hökmdarın yaxın qohumlarına verilirdi. Hökumət işçilərinin çoxu hökmdarın qohumu olmurdu, onlardan bəziləri hətta həmin dövlətin vətəndaşları olmaya bilərdi. Qulluqçulara əmək haqqı kimi taxıl və ya nəqd pulla taxıl qarışıq şəkildə verilirdi. Arxivlər ağac və ya bambuk üzərində nəqş edilmiş yazılar kimi saxlanırdı. Bu xüsusiyyətlər bürokratiyanın bəzi formalarını meydana gətirdi.

Yeni nümunə müxtəlif dövlətlərdəki çox sayda islahatların cəhdlərinin nəticəsi idi. Həm praktiki adamlar, həm də nəzəriyyəçilər yeni quruluşun formalaşmasına kömək edirdilər. Hərbi sistem də böyük dəyişikliyə məruz qaldı. Feodalizm erasında müharibə kübarların sənəti idi. Döyüşdə davranış kodeksi də mövcud idi. Müharibənin təbiəti Tsun Tsiu dövründən dəyişdi. Zadəganlar professional döyüşçülərə və muzdlulara yol verməli oldular. Döyüş meydanlarında başlıca qüvvə olan piyadalar döyüş arabaları ilə əvəz

olundu. Başlıca dövlətlərin dağlıq ərazilərə genişlənməsi və bataqlıq, çöllər və çaylar olan ərazilərdə cənub dövlətlərinin yaranması piyadaların əhəmiyyətini artırdı. Süvari müharibələri isə şimal dövlətləri arasında inkişaf etdi. Hətta Çao hökmdarlarından biri öz əsgərlərinə göstəriş vermişdi ki, onlar köçəri paltarlarını geyinsinlər, bu paltarlar qısa qollu köynəkdən və şalvardan ibarət idi.

Kənd təsərrüfatında mühüm dəyişikliklər baş verdi. Darı şimalda əsas taxıl qidası olsa da, tədricən, bir neçə əsr ərzində, buğda mühüm əhəmiyyət kəsb etdi. Cənubda çox yayılmış düyü şimalın quraq torpaqlarına doğru genişləndi. Bir çox növ soya paxlası ən vacib ərzaqdan birinə çevrildi. Çin fermerləri tədricən intensiv əkinçiliyə keçdilər, torpaq üzvü gübrə ilə münbitləşdirilirdi. Herik sisteminin yerini bitkilərin qayğıkeşliklə növbələşməsi tutdu. Düzgün vaxtında torpaqların şumlanmasının və səpin keçirməyin vacibliyinə xüsusi diqqət verilirdi. Fermerlər torpağın münbitliyini saxlamaq üçün dənli bitkilərin rotasiyasının qiymətini yaxşı bilirdilər, soya paxlası çox vaxt rotasiyanın bir hissəsi olurdu. Kotanı çox vaxt heyvan yox, insan dartırdı. Bu vaxt irriqasiyanın vacibliyi meydana çıxdı. Bir çox dövlətlərdə böyük ölçülərdə irriqasiya işləri aparılırdı. Bataqlıq sahələri qurutmaq üçün drenaj şəbəkəsi tikilirdi.

İqtisadiyyat sahəsində digər mühüm dəyişikliklərdən biri regionlar arasında ticarətin böyüməsi idi. Çou Çininin bütün hissələrində aktiv ticarət genişlənmişdi, bunu böyük müxtəliflikdə olan sikkə tapıntıları sübut edir. Yeni şəhərlər zənginlik üçün tələbat yaradırdı. Min ildən çox müddətdə bürünc istehsalı ilə məşğul olan çinlilər dəmir emalına keçdilər və onlar mahir silah və alət qayıranlara çevrildilər.

Əhalinin əksəriyyəti fermerlər idi, onların da statusu dəyişikliyə uğradı. Feodal zamanlarında kəndlilər öz ağalarının təbəələri idilər. Onlar heç bir mülkiyyətə sahib deyildilər, ən çoxu onlara öz ehtiyaclarını ödəmək üçün bir parça ağa torpağını becərməyə imkan verirdilər. Qədim mətn xəbər verir ki, "yaxşı tarla" sistemində səkkiz ailə yaşamaq üçün 6 hektarı becərdiyi halda, kollektiv şəkildə digər 6 hektarı isə ağa üçün becərirdilər. Lakin feodal sistem tənəzzül etdikcə, fermerlər ağanın təbəəsi olmasına son qoyub, dövlətin təbəəsinə çevrilirdilər. Buna bənzər dəyişiklik tacirlər və sənətkarlar arasında da baş vermişdi, onlar tədricən ağanın xeyrinə işləməkdən müstəqil təbəə statusuna yiyələnirdilər.

Bu böyük siyasi və sosial-iqtisadi dəyişikliklər intellektual qıcqırma ilə müşayiət olundu, adamlar özlərini sürətlə dəyişən dünyaya uyğunlaşdırmaq

istəyirdilər. Bu dövrdə böyük müəllim Konfutsi sosial konsepsiya irəli sürdü və bu sonrakı Çin sivilizasiyası üçün normaya, normativ qaydalara çevrildi. Feodal mükəlləfiyyətlərin yerinə o, daha universal insan münasibətlərinə əsaslanan qaydanı qoydu. Bu münasibətlər ata ilə oğul arasındakı münasibətlər kimi idi. Konfutsi öyrədirdi ki, liderlik üçün insanın qabiliyyəti və mənəvi yüksəkliyi onun hansı ailədə doğulmasından daha çox köməyə gəlir.

Çinə nə vaxtsa böyük təsir göstərən filosoflar içərisində ən məşhuru Kunq Fu-tsze, Müəllim Kunq və ya latınlaşmış formada tanınan Konfutsi idi. O, miladdan əvvəl 551-479-cu illərdə yaşamışdı. Konfutsinin həyatının çoxu ənənəvi əfsanədir. O, qoca yaşlı atanın oğlu olmuşdu, bundan əvvəl isə onun doqquz qızı var idi. Təzə aldığı arvadı Konfutsini doğduqdan sonra, ata ölmüşdü. Onun zahiri görünüşü o qədər də tərifli sözlərdə təsvir olunmur, boyu altı futdan hündür idi, iri qulaqları, yastı burnu var idi. O, uşaq yaşlarından köhnə mərasimləri mənimsəməkdə gözəl qabiliyyət nümayiş etdirmiş və beləliklə, alimlər sinfinin üzvlüyünə qəbul olunmuşdu. Konfutsi öz ətrafına şagirdlər qəbul toplamışdı, onlar müəllimin etika, musiqi, poeziya və ənənəvi ritual bilikləri barədə də söhbətlərini dinləyirdilər. Onun tələbələri o vaxtlar kənara yollanmağı və şimali Çinin hökmdarlarına xidmət etməyi gözləyirdilər. İctimai xidmət onun ideyalarının həyata keçirilməsinin yeganə yolu kimi görünürdü. Konfutsi hətta ümid edirdi ki, onun özünü yüksək vəzifədə olan hansısa ağa çağıracaqdır, lakin bu ümid əbəs idi. Bir dəfə o, öz vətəni Luda qısa müddətli, uğursuz şansa malik oldu, 50 yaşı olanda isə vəzifə axtarmaq üçün bir dövlətdən digərinə ziyarət etdi.

Konfutsi nisbətən az yazmışdı, "Poeziya kitabı"nın da nəşrindən, güman ki, aralı idi. Lakin onun dostları ölümündən sonra onun söhbətlərini və ya "Ədəbi külliyatını" yazmışdılar. "Ədəbi külliyatından" ilk növbədə Konfutsinin öz xarakteri işıq saçır, bu xarakter şəffaf qaydada səmimidir, fundamental prinsiplər üzərində təmərküzləşmişdir. Onun yüksək zəkası, vicdanlılığı, nəcib nümunəsi özünün sədaqətli ardıcıllarını vəcdə gətirirdi. Onun təlimindəki ən gözəl cəhət yumoristik baxışı və doqmatizmdən uzaq olması idi: "Dörd şey var idi ki, Müəllim bütünlüklə onlardan qaçırdı; o, bağışlanan heç nəyi götürmürdü, o, heç vaxt çox pozitiv, heç vaxt inadkar, heç vaxt eqoistik olmurdu".

"Ədəbi külliyatın" digər keyfiyyəti Konfutsinin insan və cəmiyyət haqqında konsepsiyası idi. Bu konsepsiya Çin sivilizasiyasının ən böyük xarakterik xüsusiyyətlərindən birinə çevrildi, baxmayaraq ki, sonrakı dövrlərdə

bir qədər pozulma prosesinə məruz qaldı. Özlüyündə Konfutsi fikri həm orijinallığına, həm də əsl əqli gücünə görə çox da böyük hesab oluna bilməzdi. O, özü də bu barədə demişdi: "Özümə gəldikdə mən elmdə məskun olanlardan biri deyiləm. Mən sadəcə keçmişi sevənlərdən və onu ciddi-cəhdlə tədqiq edənlərdən biriyəm". Baxmayaraq ki, bununla onun diqqəti keçmişin rəsmi rituallarını təmizləməkdə və yüksəltməkdə cəmlənmişdi, o, dini və həyatdan sonrakı problemlərə az diqqət verirdi. İnsan dövlətin və ailənin təməl birliklərinin içərisində etik həyatı yaşamalıdır. Konfutsinin etməli olduğu vacib məsələ o idi ki, siyasi liderləri idarə edilmək üçün möminlik nümunəsində tərbiyə etməyə çalışsın, onlar bu vaxt ot küləyin qarşısında əyilən kimi yaxşıya tərəf əyiləcəklər.

Məcmuu qaydada bu, Çin fikrində çevikliyə, ayağı yerdə hiss etməyə və rasional analizə doğru təcəssümlənirdi. Yunan fəlsəfəsinə nisbətən konfutsianizmdə dünyəvi zövq daha çox nəzərə çarpırdı. Müəllim Kunqun dözümlülük barədəki təməl baxışı daim səthdən aşağıda dayanırdı. Məşhur Çin tarixçisinin dörd əsr sonra dediyi kimi: "Çoxlu çarlar, imperatorlar və tarixdəki böyük insanlar olmuşdur ki, onlar sağ olan vaxt şöhrət və şərəf qazanmış, öz ölümlərindən sonra isə heç nəyə çevrilmişlər. Konfutsi isə, pambıq xalatda gəzən adi alim olsa da, sayı ondan çox olan nəsil üçün alimlərin Müəllimi kimi tanındı".

Konfutsidən sonra gələn böyük mütəfəkkirlər bu nöqteyi-nəzərlə razılaşıb, razılaşmamalarından asılı olmayaraq, onun təməl mülahizələri ilə bütünlüklə sıx bağlandılar. Konfutsiçi kimi başlayan Mo-tszu öz sistemini universal məhəbbət konsepsiyası üzərində qurmuşdu, bu Konfutsinin insanlıq barədəki ideyasının böyük mənada genişlənməsi idi. "Ləyaqətli adam"ı o, ideal lider kimi irəli sürürdü, bu Konfutsinin yüksəklik barədə fikrinin inkişafı idi, ləyaqəti və qabiliyyəti birləşdirirdi. Hətta fərdiyyətçi mütəfəkkirlər Konfutsinin ardıcılı olmamaqla, bu sistemin təkzibi üçün öz mexanizmlərini formalaşdırdılar.

Konfutsi və digər əvvəlki Tsin mütəfəkkirləri Çinin ənənəvi institutlarına iflasa uğramış sistem kimi baxırdılar və onu əvəz etmək üçün hansısa rasional sistem icad etmək istəyirdilər. Bəziləri Konfutsi kimi, öz başlıca diqqətlərini idarə edən elit qrupun keyfiyyəti üzərində cəmləyirdi. Digərləri isə yaxşı təşkil edilmiş idarə etmə mexanizmini cəmiyyətdə qayda yaratmağın yeganə yolu hesab edirdi. Yeni mərkəzləşmiş monarxiya dövlətinin inkişafı təkcə bu müxtəlif mütəfəkkirlərin ideyalarının təcəssümü olmayıb, həmçi-

nin onların nəzəriyyələrində hazırladıqları fikrin kontekstində fəaliyyət göstərən şərt idi. Sosial və siyasi şüurluluğun yüksək dərəcəsi sonrakı hökumətlərin və cəmiyyətlərin xüsusiyyətlərini xarakterizə edirdi.

Çiin sülaləsinin tarixi geriyə, m.ə. 8-ci əsrə qədər öz izini tapa bilərdi. Çiin köhnə millətlərin yeganə hökmdar sülaləsi ola bilərdi ki, o, Çounun suverenliyini tanımış və Çou sarayına xidmət etmişdi. Çiin Çinin qərbində başlıca hakimiyyətə çevrilmişdi. Onlar Huanq Ho (Xyanxe) boyunca mərkəzi hissədə yer almağa cəhd etmişdi, lakin bura Çin ərazisi olaraq bağlanmışdı. Sonra Çiin işğal etmək, Huanq Ho çayının böyük ilmək vurduğu yerdən qərbdə və onun içərilərində olan çinli olmayan tayfa və dövlətləri absorbsiya etmək və onlarla birləşmək fəaliyyətində müəyyən həddə malik idi. Qərb dövlətləri Çiini barbar dövləti hesab edirdi, çünki o özündə çinli olmayan elementləri təmsil edirdi. Ancaq Çiin az sayda hökmranlıq edən saraylar içərisində axırıncı Çuun Çiiu dövründəki böyük qarışıqlıqdan salamat çıxanlarından biri idi.

M.ə. 5-ci əsrə qədər Çində mərkəzi düzənlik dövləti olan Uey və şərqdə isə varlı dövlət olan Tsi ağalıq edirdi. Uey sarayındakı ümidləri puça çıxmış bürokrat Şanq Yanq qərb tərəfə yollandı ki, öz ideyalarını həyata keçirmək üçün imkanlar axtarsın. Tsin sarayında o, çar Hsiao Kunqla o dövrün ən yaxşı təşkil edilmiş dövlətini yaratmaq üçün sıx əlaqə yaratmışdı. Şanq Yanq ilk dəfə olaraq qanunun və çar dekretlərinin hakimiyyətini yaratmaq üçün güclü tədbirlər həyata keçirmişdi. O, hökmdarları inandırırdı ki, kübarların rütbələrini və imtiyazlarını cazibədar etmək üçün, onlar yalnız dövlətə yaxşı xidmət göstərən, xüsusən də döyüşdə fərqlənən adamlara verilməlidir. Bu mövcud kübarlığı titullarından və imtiyazlarından məhrum edirdi, sarayda böyük antoqonizm yaradırdı. Onun ən çox təsir göstərən islahatlarından biri yerli inzibatçılığın standartlaşdırılması idi. Vahid dövləti yaratmaq yolunda atılan addım olmaqla, bu, müxtəlif yerli hakimiyyətləri bir ölkədə birləşdirirdi. Bu vaxt sarayın birbaşa nəzarəti altında prefektlər təşkil edildi. Bu sistem m.ə. 221-ci ildəki birləşmədən sonra bütün Çinə yayıldı.

Şanq Yanqın həyata keçirdiyi digər tədbir istehsalın, xüsusən də kənd təsərrüfatı istehsalının dəstəklənməsi, həvəsləndirilməsi idi. İstifadəsiz torpaqlara sahib olmaq üçün fermerlərdə həvəs yaradılırdı, ov və balıq tutmaq üçün olan ərazilərdəki torpaqlar da becərilməyə verilirdi. İşçi qüvvəsi qıtlığını aradan qaldırmaq üçün qonşu dövlətlərdən, xüsusən də Han, Çao və Ueydən işləməyə qadir olan adamlar gətirilirdi. Çiinin bu işçiləri dartıb gə-

tirmək siyasəti iki məqsəd güdürdü: Çiində istehsalı artırmaq və qonşu dövlətlərdə olan "top əti"nin azalmasına nail olmaq. Həvəsi artırmaq məqsədilə Tsin hökuməti ev təsərrüfatının sahibi olmayan kişi cinsindən olanlara ikiqat vergi qoyurdu. Bunun nəticəsi geniş ailə sisteminin yaranması oldu, cavan uşaqlar evdən çıxıb getməyə məcbur edilirdi ki, özlərinin ev təsərrüfatını qursunlar. Özək ailə o vaxtdan üstün formaya çevrildi. Şanq Yanq həmçinin çəki və ölçü sistemini standartlaşdırdı. Bu islahat ticarətin və kommersiyanın inkişafı üçün heç də az əhəmiyyət kəsb etmirdi.

Hsiao Kunqun və Şanq Yanqın birgə əməyi nəticəsində Tsin varlı və qüdrətli dövlətə çevrildi. Hsiao Kunqun ölümündən sonra (m.ə. 338-ci il) Şanq Yanq siyasi düşmənlərinin qurbanı oldu, ona nifrət edən kübarlıq onu ölümə məhkum etdi. Tarixin istehzasına uyğun olaraq, onun ölümündən sonra da Tsinin həmin siyasəti ümumən saxlandı.

Tsin m.ə. 221-ci ildə Çinin birləşməsinə müvəffəq olanda onun çarı Şi Huan-di ilk suveren imperator tituluna yiyələndi. O, güclü və fərasətli hökmdar idi. Baxmayaraq ki, özünə bir neçə bacarıqlı köməkçilər təyin etmişdi, imperatorun özü axırıncı yüksək hakimiyyət və qüdrətin yeganə mənbəyi olaraq qalırdı.

Şi Huan-di bir sıra mühüm islahatlar həyata keçirdi. O, bütünlüklə feodal sistemi ləğv etdi və inzibati sistemi prefektlərə və dairələrə qədər genişləndirdi, mərkəzi hökumət tərəfindən təyin edilən qulluqçular bu məqsədlə Çinin bütün yerlərinə göndərilirdi. Onlara baş çəkən müfəttişlər yerli magistratlara nəzarət etməyə yollanırdılar. Çin 40 prefektə bölünmüşdü. Şi Huandinin imperiyası Çinin ənənəvi ərazisinə çevrildi. Sonrakı eralarda Çin bəzi başqa əraziləri də tutdu, lakin Tsin sərhədləri daim bilavasitə Çinə aid olan bölünməz ərazini əhatə edən hədlər hesab olunurdu. Bu nəhəng əraziyə nəzarət etmək məqsədi ilə Şi Huan-du öz qoşunlarının hərəkəti üçün böyük yollar şəbəkəsi tikdirdi. Bir neçə yüz min işçi şimal sərhədi boyu mövcud olan divarların birləşdirilməsi və möhkəmləndirilməsi işinə cəlb olunmuşdu. Bu işlərin nəticəsi Çihli buxtasından qərbə tərəf bu gün Daxili Monqolustan adlanan otlaqlıqlardan keçməklə və Huanq Ho çayının münbit ilməyindən Tibetin kənarına tərəf uzanan istehkamlanmış divarlardan, qarnizon stansiyalarından və siqnal qüllələrindən ibarət kompleks idi. Böyük Çin Səddi kimi tanınan bu müdafiə xətti böyük çöl köçərilərinin və lyoss torpaqları becərən çin fermerlərinin bir-birilə üz-üzə dayandığı sərhədi nişanlayırdı. Ancaq imperator digər böyük bir layihənin həyata keçirilməsində uğur-

suzluğa uğradı. Bu cənubda dağlardan keçərək şimalın sahil ərazilərini birləşdirən və əslində Çinin bütün ərazisindən keçən kanalın qazılması idi. Hətta bu uğursuzluq da, titanların fəaliyyəti ilə müqayisə edilən onun qeyri-adi işinə - Böyük Çin Səddinin yaradılmasına kölgə sala bilməz. Təsadüfi deyildir ki, Aya ilk dəfə 1969-cu ilin iyulunda səyahət edən Neyl Armstronq və Edvin Oldrin oradan Yeri müşahidə edərkən, yalnız Böyük Səddi gördüklərini demişdilər, başqa sözlə Aydan baxdıqda Yer üzərində insan əlilə yaradılan yeganə nümunə kimi yalnız bu tikinti nəzərə çarpır.

Bütün Çin onun hökmranlığının 11 ili ərzində böyük dəyişikliklər hiss etdi. Milyonlarla insan təqiblər vasitəsilə nəhəng tikinti işlərinə cəlb edilirdi, çoxları tikinti yerinə gəlmək üçün bu uzun səfərdə ölürdü, digərləri qaçmaqla canını qurtarmaq istəyirdi. Əyalətlərdəki varlı və nüfuzlu adamlar paytaxta gəlməyə məcbur edilirdi, silahlar müsadirə edilirdi. İmperatorun siyasətini tənqid etdiyinə görə yüzlərlə ziyalı öldürülürdü. Hüquqdan başqa mövzularda olan kitablar, bağçılıq və bitki ilə müalicə dərmanları ictimai dövriyyədən təcrid edilirdi, yalnız ona görə ki, imperator bu bilikləri təhlükəli və qaydanı pozan hesab edirdi. Bu əməllərinə görə Şi Huan-di Çin taxirindəki ən böyük tiran kimi görünür. Bəlkə də bəzi tarixçilər onun kitabları yandırmasını araşdırmadan, ziyalı insanların qırğınına yol verməsi kimi hadisələri şişirtmişlər. Şi Huan-di dövrünün daş üzərindəki yazılarında məlumat verilir ki, o pozğun dövrün bəd işlərini yoluna qoyurdu və xalqa dinclik, qayda-qanun vermişdi. Doğrudan da, onun siyasi fəlsəfəsi artıq Çan Kuo dövrünün böyük mütəfəkkirləri tərəfindən inkişaf etdirildiyindən o qədər də yaddan çıxarılmamışdı və sonralar ümumən nəcib hökmdarlar kimi qiymətləndirilən Han imperiyası tərəfindən qəbul edilmişdi.

Şi Huan-di ölümdən qorxurdu. O, ölməzlik əldə etmək üçün mümkün olan hər şeyi etməyə hazır idi. Həyat eliksiri axtarmaq üçün başqa yerlərə adamlar göndərilir, allahlara dualar oxunurdu. M.ə. 210-cu ildə imperiyaya səfərlərinin birində ölüm onun üstünü kəsdi və bu hadisə onun imperator tituluna sahib olduğu vaxtdan 11 il sonra baş verdi. Qədim paytaxt Syan şəhərində onun qəbri açıldıqda, 8 min əsgərin terrakota fiqurları tapıldı, onların hamısı natural ölçüdə idi.

Onun ölümü sülalənin yıxılması ilə nəticələndi. Qanuni varis özünü intihar etməyə məcbur edildi və bu vaxt onun kiçik qardaşı taxt-tacı qəsb etdi. Bacarıqlı və sədaqətli qulluqçular öldürüldü. Onların içərisində imperatorun kansleri olmuş Li Ssu da var idi. O, yazı sistemini unifikasiya etmiş və sadə-

ləşdirmişdi, onun digər böyük bir işi qanunların kodifikasiya edilməsi olmuşdu. İkinci imperator öz taxt-tacını yalnız dörd il saxlaya bildi. Yantszı çayı ərazisində qiyam qalxdı. Bu hərbi mükəlləfiyyətə çağırılan kiçik qrup bir kəndlinin başçılığı altında onları müşayiət edən zabitləri öldürdülər və keçmiş Tsu dövləti üçün müstəqillik elan etdilər. Üsyan sürətlə yayıldı, altı dövlətin köhnə hökmranlıq edən elementləri öz keçmiş titullarını tələb etməyə qalxdılar. Əsgərliyə çağırılmaqdan qaçanlar və əsgərlər əvvəlcə gizlənmişdilər, sonra hər yerdən daha böyük miqdarda meydana çıxıb imperiya ordusuna hücumlar edirdilər. İkinci imperator öz qüdrətli xədim-yevnux olan naziri tərəfindən öldürüldü və m.ə. 206-cı ildə qiyamın lideri sonuncu Tsin hökmdarının təslim olmasını qəbul etdi.

# II HİSSƏ
# YUNAN SİVİLİZASİYASI

## FƏSİL 1
## YUNAN SİVİLİZASİYASININ BAŞLANĞICI

### Minoy və Mikena sivilizasiyaları

Avropada sivilizasiyanın ən qədim ocağı Krit adasıdır. Uzunsovvari bu dağlıq ada bir neçə dənizin əhatəsində olmaqla Avropanın təbii forpostu rolunu oynayırdı, çünki Aralıq dənizində Afrika və Asiya sahillərinə başqalarına nisbətən yaxın məsafədə idi. Hələ qədim zamanlarda burada Balkan yarımadasının Kiçik Asiya ilə, oradan isə Mesopotamiya ilə, Suriya və Şimali Afrika ilə dəniz yolları kəsişirdi. Burada təkcə yollar yox, həm də bir-birindən fərqlənən mədəniyyətlər mərkəzləşirdi. Qədim mesopotamiyalılar və misirlilər, ticarət məqsədilə Şərqə olduğu kimi nisbətən uzaq Qərbə tərəf yönələn nəzərlərini məhz bu adaya dikirdi. Krit sivilizasiyasının formalaşmasında qonşudakı Kiklad arxipelaqı da özünə məxsus rol oynamışdı.

Minoy sivilizasiyası m.ə. 3-cü və 2-ci minilliklərin sərhədində və ya erkən bürünc epoxasının sonunda meydana gəlmişdir. M.ə. 3-cü minilliyin başlanğıcında Kritdə mis istehsalına, sonra isə bürünc istehsalına başlandı. Bürünc əmək alətləri və silahlar daşdan olanları sıxışdırıb çıxardı. Bu adada üç əsas kənd təsərrüfatı bitkisi - taxıl, başlıca olaraq arpa, üzüm və zeytun becərilirdi, onlar "Aralıq dənizi üçlüyü" adlanırdı. Bu vaxtlar kənd təsərrüfatı məhsullarından ehtiyat fondu yaradılırdı, bunlar təkcə məhsulun qıt illərini deyil, həm də bu sahədə məşğul olmayanların - sənətkarların ehtiyaclarını ödəmək məqsədini güdürdü. M.ə. 3-cü minilliyin ortalarında bu sənətkarlar zərgərlik məmulatları, daşdan yonulmuş qablar düzəldirdilər. Burada da dulusçu dövrəsi tətbiq olunurdu.

İqtisadiyyatın inkişafı əhalinin sürətlə artmasına səbəb oldu, adanın məhsuldar hissələrində çoxlu yeni məskənlər yarandı. Ayrı-ayrı icmaların daxilində kübarlar təbəqəsi əmələ gəldi. Sosial sistemin digər qütbündə isə əsasən tutulmuş əsir əcnəbilərdən olan qullar meydana çıxdı.

Artıq m.ə. 2-ci minilliyin əvvəlində adada bir neçə müstəqil dövlət yarandı. Onların hər birinin tərkibinə onlarla icma məskənləri daxil idi. Onlar indi

məlum olan dörd böyük saraydan birinin ətrafında qruplaşmışdı. Bu saraylara isə Knoss, Fest, Malliya və Koto Zakro daxil idi. Bu dövrdə burada piktoqrafik yazı meydana gəldi, sonra bu öz yerini daha kamil forma olan heca yazısına - A xətti yazısına verdi.

M.ə. 1700-cü il ətrafında həmin saraylar yəqin ki, güclü zəlzələ nəticəsində dağıldı. Tezliklə dağılmış sarayların yerində yeni binalar tikildi. Minoy Kriti tarixində "yeni saraylar dövrü" başlandı.

Bu dövrün ən gözəl arxitektura tikintisi ingilis arxeoloqu Artur Con Evans tərəfindən aparılan arxeoloji qazıntılar nəticəsində tapılan Knossdakı Minos sarayıdır. Bu saray Minoy sivilizasiyasının ən yüksək inkişaf dövrü haqqında təsəvvür yarada bilir. Yunanlar Minos sarayını "labirint" adlandırırlar. Hətta əfsanələrdə bu labirintin İkarın atası Devalın tikdiyi, Minosun arvadı Pasifiyanın öküzlə intim yaxınlıqdan doğduğu Minotavrın burada gizləndiyi və onun hər il Afinadan gətirilən oğlanı yediyi qeyd olunur. Tesey labirintə girəndə Minotavrı öldürdü və çarın qızı Ariadnanın sapının köməyi ilə yolu tapıb, oradan xilas ola bildi. Doğrudan da, arxeoloji qazıntıların açdığı bu çar sarayı üç mərtəbəli və çox otaqlardan ibarət olduğuna görə əslində belə adlanmağa layiq idi. Saray 10 min kv.m. sahəni tutmaqla, 300-ə qədər müxtəlif təyinatlı otaqlara malik idi.

Krit saraylarının arxitekturası monumentallığına və möhtəşəmliyinə görə, Misirdəki və Assuriya-Babilistanda olan ağırçəkili tikintilərdən öz qeyri-adiliyinə və özünəməxsusluğuna görə seçilirdi. Bu sarayların daxili planlaşdırılması çox mürəkkəb olması, hətta dolaşıqlığı ilə fərqlənirdi. Yaşayış otaqları, təsərrüfat üçün olan otaqlar, onları birləşdirən dəhlizlər, daxili həyətlər və işıq quyuları qarışqa yuvasını və ya mərcan koloniyasını andırırdı. Saray tikintisinin ümumi xaotikliyində - bu tikinti vahid arxitektura ansamblı kimi qəbul olunur. Sarayın mərkəzi hissəsini böyük düzbucaqlı həyət tutur, bu həyətlə nəhəng kompleksə daxil olan bütün əsas otaqlar əlaqədədir. Həyət iri gips lövhələrlə döşənmişdi, güman ki, təsərrüfat ehtiyacları və kult məqsədləri üçün istifadə edilirdi.

Bu saraylara təqribən əlli ildən bir təkrar olunan zəlzələlər böyük ziyan vururdu, lakin onlar yenidən tikilir və daha gözəl olurdu. Sarayda yaşayanların və işləyənlərin sakitliyi və rahatlığı üçün lazım olan hər şey edilirdi. Sarayın inşaatçıları mühüm rahatlıq elementləri sayılan su kəməri və kanalizasiya tikintisini də yaddan çıxarmamışdılar. Qazıntı vaxtı daş su novdanları tapılmışdır, onlarla natəmiz tullantılar sarayın hüdudlarından kənara çıxarılırdı. Su təchizatı sistemi də aşkara çıxarılmışdır, ona görə də saray sakinləri

heç vaxt içməli sudan əziyyət çəkmirdi. Knoss sarayında yaxşı düşünülmüş ventilyasiya və işıqlanma sistemi var idi. Binanın bütün qalınlığını yuxarıdan aşağı xüsusi işıq quyuları yarıb keçirdi, bu quyular vasitəsilə işıq və hava sarayın aşağı mərtəbələrinə çatırdı. İri pəncərələr və açıq verandalar da bu məqsədlərə xidmət edirdi.

Aşağı, kürsülük mərtəbəsinin xeyli hissəsi ərzaq ehtiyatının - şərab, zeytun yağı və digər qida maddələrinin saxlanması üçün istifadə olunurdu. Daha qiymətli olanı isə o idi ki, qazıntılar vaxtı çox sayda müxtəlif incəsənət və bədii sənət əsərləri tapılmışdır. Onların arasında gözəl rəsm çəkilmiş, üzərində səkkiz ayaqlı ilbiz və digər dəniz heyvanlarının təsviri olan vazalar, öküz başı şəklində daşdan olan müqəddəs qablar, o vaxtlar üçün qeyri-adi dərəcədə realist olan və ifadəli şəkildə insanları və heyvanları təsvir edən çox zərif kaşı heykəlciklər, incə işlənmiş zərgərlik məmulatları, o cümlədən qızıl üzüklər və qiymətli daşlardan olan oyma möhürlər var idi. Saraydakı divar rəngkarlığı xüsusilə böyük maraq doğurur. Onlar daxili otaqları, dəhlizləri və sarayın artırmalarını bəzəyirdi. Bu freskalardan bəziləri təbiət səhnələrini: bitkiləri, quşları, dəniz heyvanlarını təsvir edirdi. Digərlərində sarayın öz sakinləri: günəşdən qaralmış və uzun qara saçları olan ucaboylu kişilər, qıvrım saçları, nazik, "arı" belləri və enli çiyinləri olan xanımlar isə iri zınqırov formalı yubkalarda təsvir olunurdu. Bu rəsmlər onu yaradan ustaların yüksək koloritli məharətindən xəbər verirdi. Onlar rənglərdən istifadə etməyi mükəmməl bilirdilər və adamların və heyvanların hərəkətini, ekspressiyasını təsvir etməkdə onların xüsusi qabiliyyəti müasir insanları da heyrətləndirməyə bilmir. Bu yüksək sənətkarlıqdan xəbər verən freskalarda Minoy Tavromaxiyası sayılan "öküzlərlə oyun" əks etdirilmişdir. Sürətlə qaçan öküzün buynuzlarının üstündə öz ağlasığmaz sıçrayışlarını göstərən akrobat, öküzdən qabaqda və arxada dayanan iki qız freskanı bəzəyir. Bu bəlkə də baş Minoy kultu olan öküz-allaha həsr olunmuş mühüm ritualın təsviridir. Assuriyalılardan fərqli olaraq burada müharibənin və heyvan ovunun qəddar qanlı səhnələrinə rast gəlmək mümkün deyildir, çünki belə mənzərələr kritlilər üçün yad idi. Axı onu dənizin suları qoruyurdu, qədim dünyada dənizdən hücum bu vaxta qədər qeydə alınmamışdı. Bir qədər sonra Troyaya müharibəyə yollanan yunanlar dəniz yolunu qət etdikdən sonra Kiçik Asiyaya qədəm basaraq, qapısını "Troya atı"ndan daha çox, bədbəxtlik döyən İlion şəhərini qurudan mühasirəyə almışdılar. Ona görə də Kritdə tikilən saraylara istehkam düzəltməyə də ehtiyac yox idi, onlar bütün tarixi boyu müdafiə qurğuları ilə əhatə olunmamış-

dı. Əgər Nebuhadonosor Babilin köhnə ikiqat divarını möhkəmləndirib, xaricdən üçüncü divar tikdirmişdisə, burada uca və möhkəm qala divarları tikintisi əbəs və lazımsız bir iş sayılırdı.

Sarayları, arxitekturası, incəsənəti yüksək sivilizasiyadan xəbər verən adanın həyatı zahiri cazibədar əlamətlərinə baxmayaraq, o qədər də asan və idilliya xarakterli deyildi. Təbiət onun sakinlərinə o qədər də mərhəmət göstərmirdi və vaxtaşırı onların əhval-ruhiyyəsini korlayırdı. Kritdə daim, başqa sözlə müəyyən fəlakət ardıcıllığı ilə zəlzələlər baş verirdi. Quraqlıq illərində isə, buranı da Yunanıstanın digər hissələri kimi aclıq və epidemiyalar bürüyürdü. Ada sakinləri bu qorxulu təbii fəlakətlərdən müdafiəni fövqəltəbii qüvvələrdə görür və tez-tez özlərinin çox sayda olan allahlarına və ilahələrinə müraciət edirdilər. Minoy panteonunda (bütün allahların məbədində) mərkəzi fiqura, böyük ilahə - "Hökmran qadın" idi. Knoss sarayındakı kaşı heykəlcikdə o, əlində qıvrılan ilanları tutmuş şəkildə təsvir olunur və bu əsərdəki qadın "İlanlarla ilahə" adlanır. Onun çox saylı obrazları, bunun qədim məhsuldarlıq ilahəsi olduğunu göstərir. Sonralar yunanlar onu Demetra, romalılar isə Tserera adlandıracaqlar.

Həmin panteonda təbiətin dağıdıcı, kor gücünü isə qüvvətli və qızmış öküz-allah təmsil edirdi. Bəzi möhürlərdə ilahi öküz fantastik məxluq tək - öküz başı olan insan kimi təsvir olunur. Sonralar bu yunan mifində Minotavr şəklində meydana çıxdı. Minotavrın atası sayılan öküzü Krit çarına dəniz allahı olan Poseydon bağışlamışdı və bu allah isə öz üçdişli silahının zərbəsi ilə dənizi və qurunu hərəkətə gətirdiyindən, qədim dövrlərdə zəlzələlərin baiskarı hesab olunurdu. Ona görə də bu heybətli stixiyanı sakitləşdirmək üçün ona çoxlu qurbanlar verilirdi, bəlkə də onların sırasına insan qurbanı da daxil idi və bunun işartılarını Minotavr barədəki mifdə görürük. Ona görə də Kritin müqəddəs yerləri öküz buynuzlarının təsviri ilə doludur, elə Knoss sarayını da bu təsvirlər bəzəyir.

Sarayın özü çar üçün böyük rahatlığa malik olması ilə yanaşı, hətta Knoss sarayının tarixinə vurğun bələdçilər onu da qeyd etməyi yaddan çıxarmırlar ki, m.ə. 17-ci əsrdə inşa edilən bu sarayda isti sudan və təbii ehtiyacları ödəmək üçün elə buradakı ədəb yolundan istifadə edildiyi halda, hətta b.e. 17-ci əsrində fransız və ingilis krallarının sarayında hələ də bunlar yox idi, sarayın arxitekturası, onun divarlarını bəzəyən rəngkarlıq, digər incəsənət əsərləri isə mürəkkəb dini simvolika ilə bağlı idi. Bu saray daha çox məbədi andırırdı, çünki çarın özü və digər sakinlər müxtəlif kahin vəzifələrini yerinə yetirirdilər. Buradakı hökmranlıq daha çox teokratiya hesab oluna bilərdi, çünki

dünyəvi və dini hakimiyyət bir əldə cəmlənmişdi. Onun həyatı da dini ritual səviyyəsinə qaldırılmışdı. Onun taxt zalına girmək üçün əvvəlcə adamlar vestibüldə porfirdən olan qabda ritual yuyunmasını icra edir, bütün bəd şeyləri yuyub özündən təmizlədikdən sonra çar-kahinin yanına girirdi. Divar boyu düzülmüş skamyalarda saray əyanları əyləşirdilər. Baş tərəfdə isə çarın taxtı qoyulmuşdu. Zalın divarları rəngli freskalarla bəzədilmişdi, burada şir bədənində quş başı olan əcayib məxluqlar - qrifonlar təsvir olunmuşdur. Onlar hər tərəfdən taxtı əhatə etməklə, elə bil ki, Krit hökmdarını hər cür dərdlərdən və bədbəxtliklərdən qoruyurdu.

Əhali sarayların ətrafındakı düzənliklərdə və təpələrdə yaşayırdı. Bu qəsəbələrdəki daxmalar kiçik və darısqal idi. Bəzi evlərdə təsərrüfat otaqları var idi, onlara ərzaq ehtiyatlarını saxlamaq üçün iri saxsı pifoslar qoyulurdu. Saraylarda isə illərlə yığılan ərzaq ehtiyatı, aclıq dövrü üçün ehtiyat fondu kimi xidmət göstərirdi. İzafi ərzaq isə satılmaq üçün Misirə, Suriyaya, Kiprə göndərilirdi və oradan tapılmayan xammal növləri alınırdı. Dəniz ticarəti böyük xərc və risq tələb etdiyindən, yalnız zəruri resurslara sahib olan dövlət bu işi təşkil edə bilərdi.

Minoy sivilizasiyasının ən yüksək çiçəklənmə dövrü m.ə. 16-cı əsrə və 15-ci əsrin birinci yarısına təsadüf edir. Bu dövrdə Krit sarayları yenidən tikilir, Minoy incəsənətinin və bədii sənətkarlığın inciləri yaradılır. Elə bu vaxt bütün ada Knoss çarlarının hakimiyyəti altında birləşir. Yəqin ki, bunu məşhur Minos etmişdi. Yunan tarixçiləri onu dənizin hökmranı sayırdılar, belə deyirdilər ki, o, iri hərbi donanma yaratmış, dəniz quldurluğunun kökünü kəsmiş və Egey dənizi, onun adaları üzərində öz ağalığını qurmuşdu. Dorğudan da, Kiklad arxipelaqı adalarında, Rodosda Minoy koloniyaları və ticarət faktoriyaları yaranmışdı.

M.ə. 15-ci əsrdə vəziyyət dəyişdi, Kritdə onun tarixi boyu görmədiyi ağır fəlakət baş verdi. Knoss sarayı istisna olmaqla, bütün saraylar və məskənlər dağıldı. Elə bu dövrdən də Kritin tənəzzülü başladı, ada Egey hövzəsinin aparıcı mədəni mərkəzi olmağını itirdi. Bu fəlakətin səbəbi kimi Santorin adasında baş vermiş nəhəng vulkan püskürməsi və ya axeyalı yunanların qitə Yunanıstanından adaya hücumu və buranı viranə qoyması göstərilir. Facıə, səbəbindən asılı olmayaraq artıq baş vermişdi və Krit bir daha özünü dirçəldə bilmədi.

M.ə. 15-ci əsrin sonu və ya 14-cü əsrin əvvəllərində Knoss sarayı da dağıldı və Evansın tapıntısındakı bərpası istisna olmaqla, bir daha tikilib dirçəldilmədi. Yanğın nəticəsində isə Minoy incəsənətinin bir çox gözəl əsərləri

məhv oldu. Krit geridə qalmış əyalətə çevrildi, mədəni tərəqqinin və sivilizasiyanın baş mərkəzi isə qitə Yunanıstanının ərazisinə keçdi və burada Mikena mədəniyyəti öz yüksək inkişaf səviyyəsinə çatdı.

Mikena mədəniyyətini yaradanlar m.ə. 3-cü və 2-ci minilliklərin sərhədində Balkan yarımadasına güman ki, şimaldan, Dunayətrafı düzənliklərdən soxulan yunanlar-axeyalılar idi. Cənuba tərəf irəliləyən axeyalılar bu ərazidə yaşayan yerli əhalinin (onlar yunanlar deyildilər) bir hissəsini məhv edib, digər hissəsini assimilyasiya etdilər. Onlar pelasq adlandırdılan bu əhalini barbarlar hesab edirdilər, baxmayaraq ki, mədəniyyət səviyyələri onlarınkından aşağı idi. Bu geniş region üçün ümumi olan motivlər saxsı qabların bəzədilməsində istifadə olunurdu, bu naxışlara sonsuzluğu əks etdirən "meandr" və spiral motivlər daxil idi. Balkan Yunanıstanından bu ornamentlər Egey dənizi adalarına da yayılıb, oralarda işlənməyə başladı. Bu dövrdə iri müdafiə divarları ilə əhatə edilmiş qalalar tikilirdi. Elə bu vaxt Yunanıstanda ixtisaslaşmış sənətkarlıq yarandı. Buna əsasən dulusçuluq məmulatları istehsalı və metal emalı daxil idi. M.ə. 3-cü minilliyin ikinci yarısında dövlət formalaşmağa başladı. Lakin bu hələ əsl sivilizasiya deyildi, onun inkişafı, növbəti əhali miqrasiyası ilə zorakı qaydada kəsildi.

M.ə. 3-cü minilliyin sonuna yaxın dulusçu dövrəsindən istifadə edilməklə hazırlanan keramika meydana çıxdı. Bu ərazilərə at gətirildi. M.ə. 3-cü və 2-ci minilliyin sərhədi yunan xalqının formalaşması dövrü hesab olunur. Bu vaxt iki mədəniyyətin - bura gəlmə olan axeyalı tayfaların və yerli yunanlara qədər olan əhalinin mədəniyyətlərinin qovuşması baş verdi. Yunanlar öz sələfləri olan pelasqlardan xeyli söz, o cümlədən bir sıra bitki adlarını götürdülər. Lakin məhsuldar qüvvələr o qədər də sürətlə inkişaf etmirdi. Hətta yenidən istifadəyə daşdan və sümükdən qayrılmış alətlər gətirilir; monumental arxitektura unudulur, məskənlər öz təhlükəsizlikləri naminə bir qayda olaraq təpələrdə salınır.

Ancaq orta ellad dövrünün sonunda Balkan Yunanıstanında vəziyyət tədricən dəyişməyə başlayır, yeni iqtisadi və mədəni yüksəliş əlamətləri görünür. Peloponnesin, orta və şimali Yunanıstanın müxtəlif rayonlarında ilk primitiv dövlət nümunələri meydana gəldi. Yunanıstan öz tarixinin Mikena dövrünə qədəm qoydu.

Öz inkişafının ilk dövrlərində Mikena mədəniyyəti daha qabaqcıl Minoy mədəniyyətinin güclü təsirinə məruz qaldı. Axeyalılar öz mədəniyyətlərinin bir çox mühüm elementlərini Kritdən əxs etdilər. Lakin bu heç də Mikena mədəniyyətinin ikinci dərəcəli olması barədə fikir yürütməyə əsas vermir.

Bu mədəniyyət yunan əsası üzərində quruldu və bu ərazidəki qədim mədəniyyətlərdən varisliklə çox şey qəbul etdi. Mikena mədəniyyətinin ən erkən abidəsi, m.ə. 16-cı əsrə aid olan Mikena şaxta qəbirləridir. İlk altı qəbir Troyanı kəşf edən kimi məşhurlaşan alman arxeoloqu Henri Şliman tərəfindən açılmışdı. Üç min ildən artıq yaşı olan bu qəbirlər əfsanəvi sərvətləri qoruyub saxlamışdır. Buradan arxeoloqlar qızıldan, gümüşdən, fil sümüyündən və digər materiallardan hazırlanmış çoxlu qiymətli şeylər çıxartmışdılar. Burada qalan qızıl üzüklər, nəqşlərlə işlənmiş tac-diademalar, sırğalar, qolbağılar, qızıl və gümüş qab-qacaq, yaxşı bəzədilmiş silah, o cümlədən qılınclar, xəncərlər, qızıl lövhələrdən düzəldilmiş bədən çanaqları, nəhayət, tam unikal sayılan və ölülərin üzünü örtən qızıl maskalar tapılmışdı. Təsadüfi deyildir ki, Homer öz "İliada"sında Mikenanı "qızılın bol olduğu" diyar, Mikena çarı Aqamemnonu isə Troya müharibəsində iştirak edən axeyalıların bütün başçıları arasında ən qüdrətlisi adlandırmışdı. Məhz Aqamemnon Troyaya hücumun ilhamvericisi və təşkilatçısı olmuşdu. Mikena böyük dövlətin mərkəzi olmuşdu, onun çarları döyüşkən və cəsarətli adamlar olub, özgə var-dövlətinə göz dikmələri ilə də fərqlənirdi. Qarət naminə onlar uzaq məsafələrə yürüşlər edirdilər və iri qənimətlərlə qayıdırdılar. Elə onların qəbirlərindən tapılan qızıl və gümüş də həmin qənimətlərin kiçik bir hissəsi idi. Kritdən fərqli olaraq burada silah bol idi və əşyalar müharibə və ov səhnələrinin təsviri ilə bəzədilmişdi.

Mikena sivilizasiyasının çiçəklənməsi dövrü m.ə. 15-ci - 13-cü əsrlərə düşür. Bu dövrdə onun yayılma zonası Arqolidadan kənara çıxdı, bütün Peloponnesi, Orta Yunanıstanı, Şimali Yunanıstanın xeyli hissəsini, Egey dənizinin bir çox adalarını tutdu. Bu böyük ərazidə vahid mədəniyyət mövcud idi. Buna baxmayaraq Minoy Kritində olduğu kimi, özündə iqtisadi və siyasi mərkəzi əks etdirən şəhərlər yox idi. Kritdə olduğu kimi burada da mədəniyyətin əsas mərkəzləri saraylar idi. Mikena sarayları bir sıra fərqli xüsusiyyətlərə malik idi. Bu saraylar istehkamla möhkəmləndirilir və həqiqi qalaları andırırdı. Qalaların divarları iri, üzərində iş aparılmamış daş parçalarından tikilirdi və bu axeyalı memarların yüksək mühəndislik qabiliyyətindən xəbər verirdi. Bayır divarların qalınlığı 4,5 metrdən yuxarı olmaqla, hündürlüyü 7,5 metrə çatırdı. Divara hörülən bəzi əhəng daşlarının ağırlığı 12 tona çatırdı. Qülləli qalereyalarda silah və ərzaq ehtiyatı saxlanırdı, burada divarların qalınlığı 17 metrə çatırdı. Məsələn, Tirinf qalasının mühafizə tikililəri sistemi diqqətlə düşünülüb tapılmışdı və bastionun müdafiəçilərini hər cür təsadüflərdən qorumağa təminat verirdi.

Mikena epoxasının saray dövlətlərinin iqtisadiyyatı, onların sosial və siyasi quruluşu barədə tapılan lövhələr məlumat verir və onlardan məlum olur ki, həmin dövrdə artıq Yunanıstanda quldarlıq mövcud idi və qul əməyi təsərrüfatın müxtəlif sahələrində geniş tətbiq olunurdu. Bir lövhədə belə qadın qulların və onların uşaqlarının 1500 nəfərə qədər olduğu göstərilir. Görünür, o vaxtlar qadın qullar sayca çox imiş. Əsas kütləni isə azad kəndlilər və sənətkarlar təşkil edirdi. Sənətkarlar sırasına bənnalar, dərzilər, dulusçular, silah qayıranlar, qızıl iş ustaları, həmçinin ətriyyat düzəldənlər və həkimlər daxil idi. Onlar saray xəzinəsindən öz işlərinə görə, dövlət qulluğunda olan adamlar kimi natural qaydada haqq alırdılar. Sarayda işləyən sənətkarlar arasında dəmirçilər xüsusi yer tuturdu. Onlara tərəzidə çəkilmiş tunc verilirdi və işi qurtardıqdan sonra məmulat qəbul edilirdi. Sarayda işə cəlb edilən sənətkarlar torpağa, hətta qullara sahib ola bilərdi.

Ərazi icması və ya *damos* ("xalq" mənasını verən bu söz Attika dialektində *demos* kimi səslənirdi, bu həmçinin "demokratiya" ifadəsinin köküdür) icma torpaqlarının əsas hissəsini bölürdü, bu vaxt həmin torpaq parçalarının bərabər gəlir gətirməsi nəzərə alınırdı. Bu bölgüdən sonra artıq qalan torpaq yenə icarəyə verilirdi. İcma torpaqları və bilavasitə saraya məxsus olan torpaqlar saray inzibatçılığının nəzarətində olurdu və onlardan mərkəzi dövlət təsərrüfatı mənafeyinə istifadə edilirdi. Özəl təsərrüfat "dövlət bölməsinin" fiskal (vergi) asılılığında idi və ikinci dərəcəli rol oynayırdı. Dövlət sənətkarlıq istehsalının mühüm sahələrini, xüsusən dəmirçi sənətini inhisara götürmüşdü, xammalın defisit olan növlərinin, xüsusən metanın bölgüsünə və istehlakına nəzarət edirdi. Bütün bunlar göstərir ki, Axeya Yunanıstanının dövlətlərində Şərqin iqtisadi sisteminə müəyyən dərəcədə yaxın olan iqtisadiyyat tipi meydana gəlmişdi.

Saray təsərrüfatı normal fəaliyyət göstərmək üçün özünə bürokratik aparat yaradırdı. Bəzi çarlıqlarda ərazi vergi dairələrinə bölünürdü və onların başında valilər dururdu. Onun tabeliyində isə aşağı rütbəli məmurlar sayılan basileylər olurdu, onlar istehsalata nəzarəti həyata keçirirdilər. Xeyli sonralar "basiley" sözü adi çarı bildirirdi.

Güman edilir ki, saray dövlətləri o vaxt ki Yunanıstanın ən qüdrətli hökmdarı sayılan Mikena çarının başçılığı altında vahid Axeya dövlətini əmələ gətirmişdilər. Yunan mifləri axeyalı hökmranlar arasındakı qanlı müharibələr barədə söhbət açır, bu müharibələri Orta Yunanıstanın və Peloponnesin rəqabət aparan sülalələri öz aralarında aparırdılar. Bütün onların tarixi boyu bu gərgin münasibətlər davam edirdi. Bəzi hallarda onlar birləşib, hər hansı

bir yürüşü həyata keçirirdilər. Belə yürüşlərdən biri məşhur Troya müharibəsi idi və onu Homer qələmə almışdır. "İliada"nın təsvir etdikləri əsas götürülsə Troyaya yürüşdə Axeya Yunanıstanının demək olar ki, bütün əsas vilayətləri iştirak edirdilər. Hamının razılığı ilə orduya başçılığa Mikena çarı Aqamemnon seçilmişdi. Bəlkə də Homer yürüşün həqiqi miqyasını xeyli şişirtmişdi, lakin hadisənin tarixi reallığı heç kəsdə şübhə doğurmur.

Troya müharibəsi axeyalıların Kiçik Asiyada və Şərqi Aralıq dənizi sahilində həyata keçirdiyi ən böyük hərbi və müstəmləkəçilik ekspansiyası idi. M.ə. 14-cü - 13-cü əsrlərdə çox saylı axeyalı yaşayış məntəqələri Kiçik Asiyanın qərbi və cənub sahillərində meydana çıxmağa başladı. Burada onlar ticarət təşəbbüsünü ələ keçirirdilər. Qitədəki Fiva hökmdarı m.ə. 14-cü əsrdə Babilistanda hökmranlıq edən "Kassit sülaləsi" ilə təkcə ticarət əlaqələri deyil, həm də diplomatik əlaqələr qurmuşdu. Bundan əlavə digər bənzər əlaqələr barədə məlumatlar aşkara çıxarılmışdır. Hətta İtaliyanın cənubunda sonralar meydana gəlmiş yunan şəhəri olan Tarentin yerində çox-çox əvvəllər mikenalılar məskən salmışdılar. Siciliyada və Maltada da belə izlərə rast gəlinir.

M.ə. 13-cü əsrin sonunda Şimali Balkan regionunun tayfalar dünyası, məlum olmayan səbəblər ucbatından hərəkətə gəldi. Barbar tayfalarının nəhəng kütləsi öz məskən saldıqları yerlərdən çıxıb, cənuba, Orta Yunanıstanın və Peloponnesin varlı və inkişaf edən vilayətlərinə yayıldılar. Öz yollarında onlar çoxlu Mikena yaşayış məntəqələrini tutdular və dağıtdılar. Mikena dövlətlərinin təsərrüfatına sağalmayan ziyan vuruldu. Bu, m.ə. 1000-ci illər ətrafında qatı cəhalət qitəsi olan Avropada böyük dəyişikliklərin əmələ gəlməsinin başlanğıcı idi. Həmin yeni elementlər Asiyada və ya Gibraltar yolu ilə Afrikadan gəlmişdi. Bürünc erası m.ə. 2000-ci illərdə, Dəmir erası isə m.ə. 1000-ci illərdə mövcud olduğu halda, avropalılar metaldan baş çıxarmağı və onun sobada əridilməsini xeyli gec öyrəndilər. Bu yeni bilik tayfadan tayfaya keçərək, şərqdən qərbə gəlmişdi. Misal üçün, Kiçik Asiyada Dəmir erası m.ə. 1400-cü illərdə başladığı halda, indiki Avstriya ərazisində bu m.ə. 1000-ci illərdə, İngiltərədə isə m.ə. 400-cü illərdə öz tarixini başladı. Elə bu vaxt Avropaya yeni xalqların dayanıqlı nüfuzu baş verdi. Onlar güman ki, Asiyadan gəlmişdilər, çünki onlar indi Hindistanda və İranda danışılan dillərlə qohum olan dillərdə danışırdılar. Bu dillər hind-avropa dilləri kimi tanınır və bu dillərdə danışan xalq burada üzə çıxıb, öz nitqlərini köhnə Avropa gövdəsi üzərinə qoydular, klassik yunanların və romalıların, həm də müasir dövrdəki digər avropalıların əcdadlarına çevrildilər. Hind-avropalıla-

rın müdaxiləsindən əvvəlki dövrdən qalmış kimi qəbul edilən bask dili, həmçinin bir neçə əsr sonra Asiyadan Avropaya gətirilmiş fin və macar dilləri istisna olmaqla bu günkü bütün avropalıların dilləri hind-avropa dilləridir. Avropaya müdaxilə edən və bütün qitəyə yayılanlar kimi tanınanların hamısının danışıq növündən sonralar latın, yunan, alman, slavyan, kelt və Baltik dilləri meydana çıxdı. Onların hansı irqi və ya mədəni köməklik göstərə bilməsi isə daha çox dərəcədə aydınlaşmamış qalır. Lakin indiki Avropada tarixin açıq işığına çıxan ilk hind-avropalılar yunanlar idi. Onlar Balkan yarımadasından Egey dənizinin sahillərinə sızdılar, burada onlar ən qədim Krit sivilizasiyasının dayaqlarını dağıtmaqla, onu xaraba qoydular. Yeni gələnlər çox sayda ayrı-ayrı tayfalardan təşkil olunmuşdu və o vaxtdan Yunanıstan adlanan ərazinin işğalını m.ə. 1000-ci illər ətrafında başa çatdırdılar. M.ə. 800-cü illər ətrafında yazılmış "İliada" və "Odisseya"dakı hadisələr güman ki, xeyli əvvəl baş verməklə, yunan müdaxiləçiləri ilə yüksək şəhər sivilizasiyasına malik olan daha əvvəlki sakinlər arasında gedən müharibələri təsvir edir. Onların mərkəzlərindən biri Kiçik Asiyadakı Troya idi. "İliada"da nəql edilən Troyanın yunanlar tərəfindən mühasirəsi, güman ki, m.ə. 1200-ci illər ətrafında baş vermişdi.

Yunanlar tezliklə, bəşəriyyətin nə vaxtsa üzə çıxardığı istedadlı bir xalq olduğunu sübuta yetirdi. Dörd əsr ərzində, m.ə. 900-cü illərdən 500-cü illərədək onlar barbarlıqdan sivilizasiyanın zirvəsinə qalxdılar, savadsızlıqdan fikrin və ədəbiyyatın ali yüksəkliyinə gəlib çıxdılar. Onlar sehrli Şərqin biliklərini, qədim xaldeylərin riyaziyyat biliklərini, Kiçik Asiyaya və Misirə səfər edərkən oralarda tapdıqları incəsənət növlərini və sənətləri mənimsədilər. Onlar öyrəndikləri hər şeyin üzərinə bilavasitə nəyisə əlavə edirdilər. Bu o yunanlar idi ki, ilk dəfə insan zəkasının qüdrətinə tam inandılar, onlar gözəllik haqqında Qərb dünyasına məxsus olan anlayışı kəşf etdilər və ilk dəfə siyasi azadlıq məsələsini irəli sürdülər. Onlar məskunlaşdıqları kiçik şəhər-dövlətləri yaratdılar, onların hamısı müstəqil olmaqla çox vaxt biri digəri ilə müharibə aparırdı, hər biri müvafiq olaraq bir neçə yüz kvadrat mil əraziyə malik idi və bu ərazilərə adətən sahildə salınmış şəhər və onlara birləşən əkinçilik torpaqları daxil idi. Afina, Korinf, Sparta belə şəhər-dövlətlər idi. Onlardan çoxu demokratik cəmiyyət idi, bütün vətəndaşlar, qullar və meteksılər və ya yad adamlar istisna olmaqla, bazar meydanlarında toplaşıb, öz qulluqçularını seçir və ictimai məsələləri müzakirə edirdilər.

Yunanlar "klassik" ləyaqətləri qiymətləndirməyə başladılar, əvvəllər isə buna məhəl qoymurdular. Onlar üçün ideal mülayimlik və ya qızıl aralıq

üzərində olan idi. Onlar qaydanı, tarazlığı, simmetriyanı, mərhəmətliliyi və nəzarəti qiymətləndirirdilər. Onların statusu insanın nə etməli olduğu konsepsiyasında açılırdı.

İnsan nəcib məxluq, ləyaqətli, özünü aparmağı bacaran, həyatdan və ya ölümdən dəhşətə gəlməyən, qorxmayan, özünün və öz hissiyatının ağası olmalı idi. Onların arxitekturası, Parfenonda olduğu kimi, dəqiq ölçülmüş bucaqlardan və sütunlar sırasından istifadə etməyə əsaslanırdı. Klassik "order" və ya diqqətlə işlənmiş sütunların spesifik fasilələrlə düzgün xətt üzrə yerləşdirilməsi təbiətin kobud materialları üzərində insan zəkasının möhkəm təəssürat yaratmasını nümayiş etdirirdi. Formanın eyni düşüncəsi insan sözlərinin axını üzərinə də tökülürdü. Yazı dili uydurulmuş növə çevrildi, diqqətlə planlaşdırılırdı, effekt təsiri üzrə qurulurdu. Qərb sivilizasiyasında adamlar uzun müddət onların düşüncələrini ifadə etməkdə davam edirdilər. Yunanların özünü realizə etmələri miflərin yaranmasına gətirib çıxardı. Bu əsatirlərdə gözə görünməyən, lakin qüdrətli məxluqlar olan allahlar dağların başında, uzaq yerlərdə yaşayırdılar, aşağıda isə yer və ya ölümlə nəticələnən dünya var idi. Yunan filosofları mif toruna tənqidi yanaşırdılar. Onlar müxtəliflik və qarışıqlığın arxasında rasional və ya təbii izahı axtarırdılar.

Axey dövlətlərinin daxili resurslarının tükənməsi, uzun illər davam edən Troya müharibəsində nəhəng maddi və insan ehtiyatının israf edilməsi, öz aralarındakı müharibələr onların süqutunu meydana gətirən şərtlər idi. Axeya sivilizasiyası daxildən möhkəm deyildi, öz resurslarını artırmaq əvəzinə, bədxərcliklə sərf edirdi. Bu daxili strukturanın möhkəm olmaması şimal barbarlarının müdaxiləsi ilə bir daha özünü büruzə verdi və döyüşkən tayfaların həmləsinə davam gətirə bilmədilər. Mikena dünyası m.ə. 13-cü əsrdə tənəzzülə uğradı, lakin dorilərin gəlməsi kimi xatırlanan zorakı müdaxilə m.ə. 1200-cü ildən sonra bunlara son qoydu. Yaxın Şərqdə oxşar müdaxilə dalğaları 1200-cü ildə müəyyən ciddi nəticələrə səbəb olduğu halda, Yunanıstanda isə onun effekti fəlakətli oldu.

Elə həmin dövrdə Balkan Yunanıstanından şərqə - Kiçik Asiyaya kütləvi emiqrasiya başladı. Onlar həm Axeya əhalisinin qalıqları, həm də dorilərdən ibarət yeni məskunlar idi. Bunun nəticəsində Kiçik Asiyanın qərb sahillərində və adalarda çoxlu yeni məskun yerləri meydana gəldi, onların arasında ən iriləri İon şəhərləri olan Milet, Efes, Kolofon, Eoliya şəhəri olan Smirna və dorilərin şəhəri Halikarnas var idi. Bu şəhərlərdə bir neçə yüzilliklər ərzində yunan mədəniyyətinin yeni variantı yarandı. Bütün qədim xalqların tarixi taleyində olduğu kimi, bu vaxt da yaşayışın təbii mühiti mühüm əhəmiyyət

kəsb etmişdi. Dənizin fəth edilməsi digər xalqlarla dəniz yolları ilə əlaqəni mümkün etmişdi. Dəniz, ellin sivilizasiyasının yaranmasında özünə məxsus rol oynamışdı. Dağlıq Balkan ərazisindən Kiçik Asiyaya gələnlər buradakı əkin torpaqlarının, düzənliklərin genişliyinə heyran qalmışdılar. Bu ərazilər daha geniş istehsal və daha böyük inkişaf üçün yeni imkanlar açırdı. Dori tayfalarının Yunanıstana daxil olmasından sonra yunan elementinin Balkandan kənara çıxmasına, iri ərazilərdə məskunlaşmasına şərait yaratdı.

## Yunan sivilizasiyası. Yunan qaranlıq dövrü

Mikena sivilizasiyasının yıxılması yunan dünyası üçün başlıca fəlakət idi. M.ə. 1150-ci illərdən 800-cü illərə qədər davam edən bu dövr Qaranlıq Epoxa adlanır.

Krit-Mikena epoxasından sonra gələn yunan tarixi dövrü həm də "Homer" dövrü adlandırılır. Böyük şairin eposunun şəhadətlərini nekropol qazıntıları tamamlayır. Dori işğalı Yunanıstanı bir neçə əsr geri atdı, Mikena epoxasının nailiyyətlərindən yalnız bəzi istehsalat vərdişləri və texniki alətlər qaldı. Metal emalı, dulusçu dövrəsi ilə yanaşı yelkənli gəmilər, zeytun və üzüm becərilməsi saxlanmışdı. Mikena sarayları və qalaları xarabalıqlara çevrilmişdi, yazıdan istifadə yoxa çıxmışdı. Elə təsəvvür yaranırdı ki, Homer dövründə yunanlar ev və qalalar tikməyi yadırğamışdılar. Homer dövrü qəbirləri də çox kasıbdır, onlarda demək olar ki, gözəl qiymətli şeylərə rast gəlinmir. Görünür, sənətkarlar da müharibələrdən və yürüşlərdən cana doyub, yad diyarlara qaçmışdılar. M.ə. 1000-ci ildən başlayaraq Yunanıstan cılız mövcudluq səviyyəsinə enmişdi, əkinçilik və köçəriliklə məşğul olmaqla iki əsr belə səviyyədə qaldı. Bu vaxtların keramikasında da həndəsi üslub hakim kəsilir. Adamların və heyvanların təsvirləri bir daha yalnız m.ə. 9-cu əsrdə meydana gəlir. Bəşəriyyət tarixi mütləq reqresslə üzləşməsə də, Homer dövrünün maddi mədəniyyətindəki reqress nişanələri bir sıra mühüm yeniliklərlə qəribə şəkildə çulğaşır. Dənizin o tayı ilə aparılan ticarətə də faktiki olaraq son qoyuldu.

Metalın istehsalata geniş tətbiq edilməsi, həmin vaxtlar üçün əsl texniki dönüş mənasını verirdi. İlk dəfə olaraq metal ucuz və asan əldə edilən oldu. Filiz çıxarılan yerlərə edilən təhlükəli və baha başa gələn ekspedisiyalara ehtiyac qalmadı. Bəzi icmaların istehsal imkanları xeyli artdı. Bu özlüyündə şübhəsiz texniki proqress idi.

Homerin "İliada" və "Odisseya" poemalarında təsvir olunan cəmiyyət

barbarlığa daha yaxın məsafədə dayanırdı, mədəniyyət isə daha geridə qalmış və primitiv idi. Homer dövrünün iqtisadiyyatında natural kənd təsərrüfatı ağalıq edirdi. Yunanlar əkinçiliklə və heyvandarlıqla məşğul olurdu. Hətta İtaka çarı Odisseyin həyatı təsvir olunarkən, burada peyin tənəsinin olduğu nəzərə çarpır, deməli çar özü də təsərrüfatında mal-qara saxlayırdı. Ümumiyyətlə, Homer ayrı səhnələri də nümayiş etdirəndə, kəndli məşğuliyyətinə müraciət edir. Məsələn, "İliada"da döyüşə gedən poemanın qəhrəmanı Ayaksı şair, şum edən iki öküzlə müqayisə edir. Yaxınlaşan düşmən qoşunları bir-birinə qarşı irəliləyən biçinçilərə oxşadılır. Eposda şum aparma və biçin səhnələri də böyük məharətlə təsvir edilir. Onun təsvir etdiyi yunanlar taxıl becərməklə yanaşı, bağçılıq və üzümçülüklə də məşğul olur. "Odisseya"da gözəl bağ, təfsilatı ilə qələmə alınır.

Həmin dövrdə heyvandarlıq iqtisadiyyatda müstəsna rol oynayırdı. Adamların cəmiyyətdəki mövqeyi çox vaxt mal-qaranın sayı ilə müəyyən edilirdi, bu saydan onun hörməti və nüfuzu asılı idi. Odissey ona görə "İtakanın və yaxındakı materikin qəhrəmanları arasında birinci" hesab olunurdu ki, onun 12 sürü qaramalı, ona uyğun miqdarda da keçisi, qoyunu və donuzu var idi. Mal-qara həm də mübadilə vasitəsi, tədavül vahidi kimi istifadə olunurdu, Homer dövrünün cəmiyyəti o vaxtlar hələ həqiqi pulu tanımırdı, onun funksiyasını mal-qara həyata keçirirdi. İcma növləri arasında da elə bir ticarətə ehtiyac yox idi, onların təsərrüfatı natural xarakter daşıyırdı. Hər ailə öz həyatı üçün lazım olan şeylərin demək olar ki, hamısını özləri istehsal edirdilər. Əkinçilik və heyvandarlıq məhsulları ilə yanaşı buraya paltar, əmək alətləri, hətta silah daxil idi. Poemalarda mütəxəssis-sənətkarlara çox az rast gəlinir. Homer onları "demiurqlar" adlandırır, bu "xalq üçün işləyən" mənasını verirdi. Onlar bir yerdə yaşamırdılar. İş tapmaq üçün kəndləri dolaşırdılar. Homer epoxasının yunanları demək olar ki, ticarətlə tamamilə məşğul olmurdular. Bunun əvəzində lazım olan şeylər güc tətbiq edilməsi ilə ələ keçirilirdi. Yunanıstanın sahillərini yuyan dənizlər dəniz quldurları ilə dolu idi. Dəniz quldurluğu heç də pis məşğuliyyət hesab olunmurdu. Homer dövrünün yeganə həqiqi tacirləri, şairin "dənizlərin hiyləgər qonaqları" adlandırdığı finikiyalılar idi. Onlar ticarət vasitəçiliyi edirdilər, başqa ölkələrdə istehsal olunan qızıldan, kəhrəbadan, fil sümüyündən olan məmulatları, həmçinin ətriyyatları, şüşə muncuqları üçqat qiymətə satırdılar. Şair onlara hüsnrəğbət bəsləmir, onları məkrli yalançılar, sadəlövh yunanı addımbaşı aldadan fırıldaqçılar hesab edir.

Homer qəhrəmanlarını, adlı-sanlı yunanları təsvir edir, lakin ən yüksək

təbəqənin həyatı da öz sadəliyi və patriarxallığı ilə seçilir. Onlar kobud qaydada düzəldilmiş taxta evlərdə yaşayırdılar. Burada döşəmə rolunu tapdanmış torpaq oynayır. Evlərin içi də çox çirklidir. Divarlar və tavan hislə örtülmüşdür, çünki evlər buxarısız, ortada yanan ocaqla isidilirdi. Ona görə də həmin dövrün zadəganı həyat tərzinə görə varlı kəndlidən fərqlənmirdi. Hətta çarlar kobud fiziki işdən qaçmırdılar. Odissey təkcə hiyləgərliyi ilə deyil, həm də məharətli biçin və əkin bacarığına malik olması ilə öyünə bilərdi. Çarın qızı atasının paltarlarını yuyurdu.

Homerin poemalarında yazı barədə biz heç bir işarəyə rast gəlmirik. Poemaların qəhrəmanlarının hamısı savadsızdır. Yazını heç müğənni-şairlər də bilmirlər. Mərkəzi monarxiya dövlətlərinin yoxa çıxması ilə A və B xəttləri yazısı da yoxa çıxmışdı. Ona ehtiyacı olan sistem iflasa uğramışdısa, bürokratik idarəetmə sıradan çıxmışdısa, onlara xidmət edən yazı öz əhəmiyyətini itirmişdi. Ona görə də yazı uzun müddət ərzində unudulmuşdu.

Homerin şəhadətinə əsaslanaraq, demək olar ki, bu dövrün cəmiyyəti kifayət qədər primitiv kənd icması - demos idi, bir qayda olaraq xırda ərazini tuturdu və onunla qonşu olan icmalardan tam təcrid olunmuş qaydada yaşayırdı. İcmanın siyasi və iqtisadi mərkəzi məskun yeri idi və bu "polis" adlanırdı. Klassik epoxanın yunan dilində bu söz eyni zamanda iki bir-biri ilə əlaqəli olan "şəhər" və "dövlət" anlayışlarını ifadə edirdi. Lakin Homerin çox tələffüz etdiyi "polis" sözü şəhəri bildirirdisə, poemalarda "kənd" kimi tərcümə olunan söz yox idi. Deməli, həmin dövrdə Yunanıstanda şəhər və kənd arasında real əkslik hələ mövcud deyildi. Homer polisinin özü eyni zamanda həm şəhər, həm də kənd idi. Lakin Homer epoxasının polisini həqiqi şəhər adlandırmaq da çətin idi, çünki onun əhalisinin əsas kütləsini əkinçi-kəndlilər və heyvandarlar təşkil edirdi, ticarətçilər və sənətkarlar isə olduqca az sayda idilər. Ayrı-ayrı icmalar arasında çox gərgin münasibətlər mövcud idi. Yaxın qonşu polisin sakinlərinə, həmin vaxtlarda düşmənə baxan kimi baxırdılar. Onları cəzasız olaraq qarət etmək, öldürmək, qula çevirmək olardı.

Homer polisinin ictimai həyatında aparıcı rolu qəbilə quruluşunun ənənələri oynayırdı. Qəbilə birlikləri icmanın bütün siyasi və hərbi təşkilatının əsasını təşkil edirdi. Bəzi qəbilələr daim öz aralarında düşmənçilik edirdilər. Qan intiqamı kimi barbar adəti geniş tətbiq olunurdu. Özünü qəttlə ləkələmiş adam yad yerə qaçmalı idi ki, öldürülənin qohumlarının təqiblərindən xilas ola bilsin. Qatil varlı olduqda cinayətini qaramal və ya metal parçası rüsumu ilə yuya bilirdi.

Patriarxal monoqamiya ailəsi olan oykos Homer cəmiyyətinin əsas iqtisadi özəyi idi. Torpaq bütün icmanın mülkiyyəti hesab olunurdu. Hər bir icma üzvü torpaq payı ala bilərdi. Lakin bu torpaqdan istifadə sistemi həyatda icmanın bəzi üzvlərinin varlanmasına, digərlərinin yoxsullaşmasına mane ola bilmirdi. Varlı, çox torpağı olanların yanında elələri də var idi ki, onların ümumiyyətlə torpağı yox idi.

Homer qəbilə kübarları təbəqəsini daim "yaxşılar" və ya "xeyirxahlar", "nəciblər" adlandırır. Yunan dilində "yaxşı", "aristoy" kimi tələffüz olunurdu, buradan da "aristokratiya" ifadəsi yaranmışdır. Şairin anlamında təbii aristokrat istənilən sadə adamdan həm əqli, həm də fiziki xüsusiyyətlərinə görə bir baş yuxarıda dururdu. Aristokratlar cəmiyyətdəki imtiyazlı vəziyyətlərini özlərinin guya ilahi mənşələri ilə əsaslandırırdılar. Ona görə də Homer onları bəzən "ilahiləşmiş" və ya "allahabənzəyənlər" adlandırır. Şairə görə əsil-nəsillilik və var-dövlət demək olar ki, bir-birindən ayrılmayan anlayışlardır. İqtisadi imkanları, icmanın bütün işlərində onlara komanda yüksəklikləri verirdi. Yalnız icmanın ən varlı adamları döyüş atını saxlamaq imkanına malik olurdu. Yunanıstanın təbii şəraitində, bol otlaqların olmadığı bir yerdə bu elə də asan bir iş deyildi. Silahla davranmağı da yaxşı hazırlıq görmüş adamlar bacarırdılar. Belə adamları isə yalnız kübarların arasında tapmaq olardı. Ona görə də uzun müddət Yunanıstanda atletika aristokratiyanın imtiyazı olaraq qalırdı.

## Polislər və ya şəhər-dövlətlər

M.ə. 9-cu - 8-ci əsrlərin sərhədində qədim Yunanıstanın tarixi inkişafında dərin dəyişikliklər baş verdi - qəbilə sistemi daha yüksək fazaya, quldarlıq quruluşuna keçdi. Xırda, bir-birindən təcrid olunmuş qəbilə və kənd icmaları yeni sosial-siyasi orqanizmə çevrilirlər, onun çərçivəsində intensiv iqtisadi inkişaf başlayır. Polis adını alan bu sosial-siyasi orqanizmlər qədim yunan cəmiyyətinin, dövlətinin və mədəniyyətinin tarixi inkişafının əsas özəklərinə çevrilir. Polislər təkcə keçmiş dövrün qəbilə icmalarından deyil, həm də yeni məskun yerlərinin - koloniyaların meydana gəlməsi ilə yaranırdı. Polislər bir neçə əsr ərzində öz daxili strukturlarını formalaşdırdılar və bu proses Yunanıstanın əksər şəhərlərində yalnız m.ə. 6-cı əsrin sonunda başa çatdı.

M.ə. 8-6-cı əsrlərdə gəmiqayırma mühüm həyati əhəmiyyət kəsb edən istehsalat sahəsinə çevrilir. Yunanlar dəniz müharibələri aparmadıqlarından,

iri hərbi donanmaya malik deyildilər. Lakin onlara başqa torpaqlara iri koloniyalar çıxarmaq üçün xeyli sərnişin və yük gəmiləri lazım idi. Yunanlar müxtəlif tipli gəmilər qayırırdılar. Lakin bu sahə mürəkkəb istehsal olduğundan, çox müxtəlif ixtisaslardan olan işçilər: dülgərlər, xarratlar, metal işi üzrə ustalar, takelajçılar, yelkən quranlar və s. tələb olunurdu. Yunan gəmiqayırmasının müvəffəqiyyətləri - yunan sənətkarlığının ümumi yüksək səviyyəsindən xəbər verirdi. Ticarətin inkişaf etməsi ilə m.ə. 7-ci əsrdə Lidiyada və Eqina adasında ilk sikkələr meydana gəldi, onlardan istifadə əmtəə mübadiləsində hesablaşmanı xeyli asanlaşdırırdı.

M.ə. 8-7-ci əsrlərdə Yunanıstanda tam şəhər inqilabı baş verdi, inzibati-dini və ticarət-sənətkarlıq mərkəzləri kimi çoxlu şəhərlər salındı və möhkəmləndi. Şəhər əhalisi arasında sənətkarların, ticarətçilərin, dənizçilərin, avarçəkənlərin, emalatxana və gəmi sahiblərinin sayı artdı. Onlarla yanaşı şəhərdə torpaq sahibləri, sadə əkinçilər yaşayırdılar. Şəhər bütün polisin sosial, iqtisadi, siyasi və mədəni inkişafının başlıca amilinə çevrildi. Yunan polislərinin ticarət-sənətkarlıq təbəqələri bu sahələrin əhəmiyyətini başa düşən aristokratiya nümayəndələrindən, həm də yaxşı torpaq sahələrinə malik olan, ancaq öz əsas mənafelərini, sənətkarlıq emalatxanaları, ticarət gəmiləri və iri qul partiyaları saxlamaqda görən şəhərlilərdən ibarət idi. Onlara sadə sənətkarlar, kiçik ticarətçilər, dənizçilər və avar çəkənlər, yükçülər və inşaatçılar əlavə olunurdu. Lakin Yunanıstanın sürətli iqtisadi və mədəni inkişafına qəbilə münasibətlərinin qalıqları mane olurdu.

Qəbilə kübarlarının gücü, həmin dövrdəki hərbi işdə aristokratiyanın həlledici roluna əsaslanırdı. Aristokratik süvarilər və döyüş arabaları yunan qoşunlarının zərbə gücünü təşkil edirdi. Lakin m.ə. 7-ci əsrin ortalarında süvarilərin və döyüş arabalarının rolu düşməyə başladı, ağır silahlanmış piyadalar isə daha böyük əhəmiyyət kəsb etməyə başladı. Onlar əsasən orta gəlirləri olan əkinçilərdən təşkil olunurdu, at saxlaya və arabaya malik ola bilməzdilər. Əkinçilərdən təşkil edilən hoplitlərin yunan polislərinin başlıca hərbi qüvvəsinə çevrilməsi onların ictimai əhəmiyyətinin möhkəmlənməsinə, siyasi vəzifələrinin artmasına kömək edirdi.

Bir sıra dövlətlərdə adi hüququn kodifikasiya edilməsi, Afinada Drakont qanunları hüquqi qaydaların təfsirində özbaşınalığın məhdudlaşdırılmasına şərait yaratdı. Ağsaqqallar şurasının fəaliyyətinin məhdudlaşdırılması qəbilə aristokratiyasının mövqelərinin zəifləməsinə səbəb oldu. Borca görə vətəndaşların qul olmağa keçirilməsinin qanunvericiliklə qadağan edilməsi, başqa sözlə, borc quldarlığının məhv edilməsi prinsipial əhəmiyyətə malik idi.

Borca düşmüş kasıb, onu ödəmədikdə artıq qul olmağa keçirilə bilməzdi və ya polisdən kənara satıla bilməzdi - qanun onun şəxsi azadlığına təminat verirdi. Tədricən belə bir inam yarandı ki, yunanlar qul ola bilməzlər, yunan olmayan əhalinin nümayəndələri qul ola bilərdilər, onları yunanlar bir qədər sonra barbarlar adlandırdılar.

M.ə. 7-6-cı əsrlərdə yunan polislərinin bir çoxunda qəbilə kübarları hakimiyyətdən sıxışdırıldı və tiranlar adlananların hesabına ticarət-sənətkarlıqda yuxarı mövqe tutanların vəziyyəti möhkəmləndi. Tiranlar, bir qayda olaraq kübar mənşəyi olan adamlar adlanırdı, onlar bu və ya digər polisdə hakimiyyəti zorla ələ keçirirdi, idarəetmənin fəaliyyət göstərən orqanlarını öz təsirlərinə tabe edirdilər. Belə tiraniyalar bir neçə şəhərdə quruldu.

Lakin, tiraniya Yunanıstanda qısa müddətli bir hadisə oldu. Tiranların idarəçiliyi tezliklə despotiya xarakteri aldı, tiranların özləri ilə yanaşı, onların yaxınlarının zorakılığını və sui-istifadələrini meydana gətirdi. Onların rejimi əhalinin dəstəyini itirdi, tiranlar ya qovuldular, ya da mübarizədə həlak oldular. M.ə. 6-cı əsrin sonunda tiraniya dövləti idarəetmə forması kimi özünü iflasa uğratdı və demək olar ki, bütün yunan şəhərlərində məhv edildi.

## Böyük yunan məskunlaşması və yeni yunan mədəniyyətinin yaranması

M.ə. 8-6-cı əsrlərdə qədim yunan tarixində Böyük kolonizasiya adını almış maraqlı hadisə baş verdi, Egey dənizi hövzəsindəki şəhərlərdən yunanlar Aralıq və Qara dənizlərin sahillərində yerləşən çox sayda koloniyalara köçürüldülər. Beləliklə, böyük təbii ehtiyatları olan bu ərazilər yunanlar tərəfindən istifadə olunmağa başlandı. Bunun başlıca səbəbi həmin şəhərlərdə nisbi əhali sıxlığının meydana gəlməsi idi, bu isə həmin cəmiyyətlərin mövcudluğu şəraitini təhlükə altında qoyurdu. Belə bir vəziyyətdə yeganə çıxış yolu məcburi emiqrasiya hesab olunurdu. Yunan iqtisadiyyatının intensivləşdirilməsi sənətkarlıq sahəsinin genişlənməsini tələb edirdi. Yeni torpaqları, xammal mənbələrini, həmçinin hazır məhsulun bazarını bu koloniyalarda tapmaq mümkün idi. Bu köçürmənin baş tutması üçün ən birinci amil əhalinin sayının artması idi. Yunanıstanda isə m.ə. 8-6-cı əsrlər ərzində özünə məxsus demoqrafik partlayış baş vermişdi.

Böyük yunan kolonizasiyası üç istiqamətdə getdi: qərb istiqamətində - Cənubi İtaliya və Siciliyaya tərəf, Sardiniya və Korsika adalarında, müasir Fransanın cənubunda və İspaniyanın şərq sahillərində; şimali-şərq istiqamə-

tində - Egey dənizinin Frakiya sahillərinin cənub hissəsində, Qara dənizin sahillərində və boğazlarının ətrafında; nisbətən zəif olan cənub və cənubi-şərq istiqamətlərində - Finikiya sahilində, Misir və Liviyanın dənizətrafı zolağında. Bu dövrdə Siciliyada Sirakuza, İtaliyada Tarent şəhərləri salındı, Fransanın cənubunda Massaliya meydana gəldi. İndiki İstanbulun yerində elə bu dövrdə Vizantiya şəhərinin əsası qoyuldu. İndiki Krımda Feodosiya və Xersones şəhərləri yarandı, Qafqaz sahilində isə müasir Pitsunda, Suxumi və Poti şəhərlərinin yunan əcdadları meydana gəldi. Cənubda isə Kirena kimi inkişaf edən yunan polisi Balkan Yunanıstanı ilə yaxşı əlaqələr qurdu. Çox vaxt bu şəhərlər qədim gəmi dayanacaqları olan yerlərdə salınırdı. Gələcək koloniyaların yeri müəyyən edilən kimi metropoliya şəhərləri orada yaşamağı arzu edənlərin siyahısını tuturdu. Sonra ilk kolonistlər partiyası şəhər salmağa başlayırdı. Bu kolonizasiya prosesi bütün yunan dünyasının sosial-iqtisadi və mədəni inkişafı üçün mühüm amilə çevrildi.

Bu dövrdə şəhər salma və arxitekturanın, təsviri incəsənətin inkişafına böyük təkan verildi. Yunanlar qədim şərq mədəniyyəti ilə daha yaxından tanış olmaq imkanı qazandılar və yunan mədəniyyəti yeni ideyalarla, biliklərlə zənginləşdi, bu həm də yunan fəlsəfəsi və ədəbiyyatının inkişafı üçün yeni stimullar verdi.

Yunan polislərinin meydana gəlməsi yeni mədəniyyətin, yeni mənəvi dəyərlərin formalaşması ilə müşayiət olunurdu, bunlar isə yunan sivilizasiyasının üzvi hissələrinə çevrilirdi. Yeni mənəvi dəyərlər sisteminin əsas parametrləri yunan idrakının rasionalizmindən, insan şəxsiyyətinin qiymətini dərk etməkdən, təbiətlə mübarizədə insanın fəallığını, cəsarətini və bacarığını şöhrətləndirməkdən, vətəndaşla polisin qırılmaz əlaqəsi hissindən, azadlığı ən yüksək əxlaqi kateqoriya kimi anlamaqdan ibarət idi. Bu mədəniyyət heç də boş yerdə yaranmırdı, Krit və Axeya cəmiyyətlərinin ənənələri onun üçün əsas rolunu oynayırdı. Yunanlar isə bu irsdən istifadə etməyi bacardılar. Lakin bu dövrdə meydana gələn qədim yunan mədəniyyəti dərin orijinallığı ilə seçilməklə yanaşı, həm də yeni tarixi hadisə idi.

Yunanlar yazıda və ədəbiyyatda, təsviri sənətdə və arxitekturada, dini sistemin yaradılmasında, fəlsəfə və elmdə, bir sözlə mədəniyyət adlanan nəhəng sferanın bütün sahələrində böyük nailiyyətlər qazandılar. Onların orijinal dini sistemləri meydana gəldi və bu onların şərq qonşularının inamlarından fərqlənirdi. Yunanların düşüncəsinə görə allah qüdrətli olsa da, daha böyük qüvvə olan taleyə tabe idi. Yunanların allahları insana yaxın idi, onlar insana onun çətin həyatında kömək etməli idilər, başqa dinlərdə isə insanlar

allaha xidmət etməli idilər. Hətta allahlar insanlarla nikah münasibətlərinə daxil olurdular və bu nikahlardan qəhrəmanlar - yarımallah insanlar doğulurdu, onlar insanlara düşmən olan məxluqları məhv edir, parlaq igidliklər göstərirdilər. Təkcə Herakl insanlara necə böyük xidmətlər göstərmişdi. Persey Meduza Qorqonanı məhv etməklə, insanları böyük təhlükədən xilas etmişdi. Onların hər ikisinin atası allah Zevs olsa da, Heraklın anası öləri Alkmena, Perseyinki isə Danaya idi. Öləri qadınlardan doğulduqlarına görə qəhrəmanlar da öləri idi və onlar da başqa insanlar kimi öz talelərində ölüm əzabı ilə qarşılaşmağa məhkum idilər. Yunanlar öz allahları, onların dünyəvi işlərə qarışmağı barədə danışmağı sevirdilər. Yunanların zəngin mifologiyası da bu əsas üzərində qurulmuşdu. Bu mifologiyadan qədim zamanlardan tutmuş bizim günlərimizə qədər şairlər, rəssamlar, heykəltəraşlar, filosoflar öz əsərlərinin süjetlərini götürmək imkanı qazanmışlar. Bu dəniz o qədər bol suludur ki, onlardan saysız-hesabsız istifadə belə, bu mənbəyin səviyyəsini və zənginliyini azalda bilmir.

Yunanlar öz allahlarını yaxşı şəraiti olan məbədlərdə yaşayan gözəl adamlar timsalında görürdülər, ona görə də allahları olan Zevsə və Appolona möhtəşəm məbədlər tikirdilər. Heykəltəraşlar isə kişi və qadın obrazlarının yaradılmasına öz ilhamlarını həsr edirdilər. İnsan sifətindəki füsunkar allah obrazı və onların məbədinin isə ən mükəmməl tikimi olması yunan heykəltəraşlığının və arxitekturasının başlanğıc nöqtəsi idi.

M.ə. 2-ci minillikdə qədim axeyalılar heca işarələri olan yazıdan istifadə edirdilər. Qaranlıq erada bu iri həcmli yazı sistemi yaddan çıxdı. M.ə. 9-cu - 8-ci əsrlərin sərhədində Yunanıstanda daha rahat istifadəyə yarayan yazı sistemi yaradıldı, buradakı 24 hərf təkcə samit səsləri deyil, həm də sait səsləri ifadə edirdi. Yunan yazı sisteminin meydana gəlməsinə daha qədim olan Finikiya əlifba yazısı təsir göstərmişdi. Bu yazı yunanlara yaxşı tanış olsa da, yunan əlifbası orijinal sistem olmaqla, insan fikrinin və nitqin müxtəlif qaydada ifadə edilməsi cəhətlərinə daha çox yarayan şəkildə düzəldilmişdi.

M.ə. 8-ci - 6-cı əsrlərdə yunan ədəbiyyatı yarandı. Digər xalqlarda olduğu kimi yunanlarda da əvvəllərdə epik poeziya inkişaf etməyə başladı. Epik poeziyanın ən yaxşı nümunələri "İliada" və "Odisseya" poemaları oldu. Bu poemalar əsasən m.ə. 8-ci əsrdə tərtib edilmişdi. İlk müəllif əsərlərini 8-ci əsrin sonunda, 7-ci əsrin əvvəlində yaşamış Hesiod yazmışdı. Onun "Zəhmətlər və günlər" poemasında orta kəndlinin məişətindən və kənd təsərrüfatı məşğuliyyətindən söhbət gedirsə, "Teoqoniya" poemasında qəbilə allahlarının əsatirlərindən bəhs edilir, dünyanın yaranmasının izahı verilir. Les-

bos adasından olan Alkeyin və Safonun, Teos şəhərindən olan Anakreontun əsərlərində məhəbbətin, təbiətin, həyat sevinclərinin vəsfi yüksək ifadə səviyyəsinə qalxır. Onlardan əvvəl Paros adasından olan Arxilox isə lirik poeziyası ilə fərqlənmişdi.

Siyasi lirikaya Solonun və Feoqnidin əsərlərində rast gəlinir. Spartadan olan Tirtey vətənpərvərliyi, igidlik və dözümlülüyü tərənnüm edirdi. Pindar Olimpiya oyunlarının qaliblərini tərifləyən oda janrının, Ezop isə əxlaqi nəsihət söhbətləri olan təmsilin banisi oldular. Gənc yunan ədəbiyyatı öz zəngin məzmununa və gözəl dilinə görə mühüm mədəni hadisəyə çevrildi.

Bu dövrdə şəhərsalma sənəti və arxitektura geniş inkişaf etdi, axı mədəniyyət növlərinə şəhərlərin gur inkişafı və çox sayda koloniyaların salınması ilə böyük tələbat var idi. Yunan koloniyalarında şəhərlər müəyyən plan əsasında salınırdı, bu vaxt yaşayış məhəllələri, ictimai mərkəzlər, baş meydan, sənətkarlıq tikililərinin harada və necə yerləşdirilməsi əvvəlcədən müəyyən olunurdu. Şəhər salınanda onun su ilə təchizatına xüsusi diqqət göstərilirdi. M.ə. 7-ci əsrin ortalarında Meqarada ilk su kəməri tikildi, onun su paylayan portikləri var idi. Belə su kəmərləri Afinada və Korinfdə də meydana gəldi.

Yunan arxitekturasında isə diqqət ictimai təyinatlı binaların, xüsusən məbədlərin bədii cəhətdən həll olunmasına yönəldilir. Himayə edən allahın məbədinə şəhərin, onun qüdrətinin və gözəlliyinin təcəssümü kimi baxılırdı. Ona görə də məbədlər çox zövqlə bəzədilirdi, bu məsələdə xərclərin heç bir qənaətinə yol vermirdilər. Yüksək yerdə, akropolda ucalmaqla məbəd binası relyeflərlə və heykəllərlə bəzədilirdi, gözəl görünüşə malik olmaqla şəhərin əsl yaraşığı hesab olunurdu. Məhz məbəd tikintisində arxitekturanın məşhur order sistemi tapılmışdı. Bu sistem sütunlarla bəzədilən binalar üçün bütün dünya arxitekturasında işlənməyə başladı, gözəlliyinə və tətbiqi unikallığına görə bizim dövrümüzə gəlib çıxdı. Order sistemi m.ə. 7-ci əsrdə Peloponnesin inkişaf etmiş polislərində meydana gəldi. Bu sistem binanın hissələrinin ciddi mütənasib ölçülüyünü, sütunlardan geniş istifadəni, daşıyan və daşınan hissələrin dəqiq bölünməsini, məbədin heykəl və rəngkarlıqla bəzənməsini, binanın ətraf landşafta üzvi qaydada daxil olmasını nəzərdə tuturdu. Ən ilkin yunan orderi dori orderi idi, bir qədər alçaq olması və ağır çəkili iri formaları ilə fərqlənirdi. Sonra daha qəşəng biçimli və yüngül formalı olan ionik orderin ilkin variantları meydana gəldi. Ən yaraşıqlı və incəlik təcəssümü olan korinf orderi yarandı. Bu orderlər sütunlardan daha çox onun kapitelinin forması və bəzəyi ilə bir-birindən fərqlənirdi. Dori orderin-

də kapitel, sütunun başını hüdudlaşdıran dördkünc lövhələrdən ibarət olurdu, yalnız aşağı hissəsi azacıq həndəsi qaydada bəzənirdi. İonik orderdə kapitel bir-birinə tərəf burulmuş qoç buynuzlarını andırırdı və sütunun yaraşıqlığını artırırdı. Korinf orderində isə akanfa yarpaqlarından düzəldilmiş vaza görünüşü yaranırdı. Bu olduqca dəbdəbəlilik təsəvvürü yaradırdı və sütuna xüsusi gözəllik verirdi. Əslində kapitellər, xüsusən, ionik və korinf orderlərində düzəldilənlər sütunlara təkcə yaraşıqlıq deyil, həm də yüngüllük, zəriflik gətirirdi, binalara və iri zallara estetik gözəllik verirdi.

Yunan arxitekturasında məbəd binalarını bəzəmək üçün daim heykəllərdən istifadə olunurdu. Məbəd allahın yaşadığı yer hesab olunduğundan, onların hər birində kult heykəlləri olurdu. Bundan başqa yunan memarları məbədin müxtəlif hissələrini və onun damını relyeflərlə və heykəllərlə bəzəyirdilər. Bəlkə də Renessansın görkəmli nümayəndələrindən olan böyük heykəltəraş Bernini Romada Müqəddəs Pyotr bazilikasının (San-Petro kilsəsinin) qarşısındakı meydanı hər iki tərəfdən qovsvari sütunlar cərgəsi ilə bəzəyəndə, qədim yunanların digər ənənələrinə də sadiq qalaraq, bu sütunları örtən damı çox saylı heykəllərlə bəzəmişdi. Burada o, qədim yunanların sütun və heykəl irsinin sintezindən istifadə edərək katoliklərin bu baş meydanına gözləri oxşayan əlavə möhtəşəmlik vermişdi.

Qədim yunan heykəltəraşları həm də çox sayda qəhrəmanların heykəllərini yaradırdılar. Çılpaq, fiziki cəhətdən sağlam, həyatı sevən atlet-döyüşçü obrazı daha geniş yayılırdı. Sonralar saysız-hesabsız nüsxələri meydana gəlmiş "Disk atan" heykəli buna misal ola bilərdi. Qadın fiqurasının bədii obrazı da heykəltəraşlıqda geniş yer tutdu. Bu qadın heykəllərində gözəllik insan ruhu ilə harmoniyada ifadə olunurdu, bəlkə buna görədir ki, "Miloslu Venera" indiyədək zövqlərin çox nadir hallarda ümumiləşdiyi sənət əsəri kimi hamını heyran edir.

Qədim yunanların ən böyük nailiyyətlərindən biri onların fəlsəfə sistemləri sayıla bilər. Fəlsəfi konsepsiyaların yaranması qədim yunan mədəniyyətinin kamillik göstəricisi idi. Erkən yunan fəlsəfəsini naturfilosofiya - təbiət fəlsəfəsi adlandırırlar, çünki həmin dövrlərdə fəlsəfi və həm də elmi biliklər bütöv, vahid şəkildə idi. Filosoflar daha çox təbiətin izah edilməsi ilə məşğul olurdular. Mesopotamiyada olduğu kimi onların da riyazi hesablamaları və astronomik müşahidələri mücərrəd məqsədlərdən daha çox, praktiki əhəmiyyətə malik idi, tətbiqi xarakter daşıyırdı. Balkan Yunanıstanına nisbətən sonra ətraf ərazilərdə yerləşən koloniyalarda nüfuzlu fəlsəfi məktəblər meydana çıxırdı. İoniya dənizi hövzəsində filosoflar Fales, Anaksimandr və

Anaksimen dünyanın əmələ gəlməsinə materialistcəsinə izah verməyə çalışırdılar, görünən şeylərin maddi əsasını tapmaq istəyirdilər. Fales ilk maddəni su, Anaksimen isə hava hesab edirdi. Anaksimandrın hipotezasına görə ilk materiya nəhayətsiz kiçik hissəciklər idi və onu aneyron adlandırırdı, deməli öz baxışları ilə atomist nəzəriyyəyə yaxınlaşırdı. Efesdən olan filosof Heraklit isə odu ilk materiya hesab edirdi. Bu dörd ilk materiya qatılaşmaqla və ya seyrəlməklə dünyanın bütün görünən müxtəlifliyini əmələ gətirir. Yunan fəlsəfəsinin mühüm nailiyyətlərindən biri, Heraklit tərəfindən işlənən dialektika elementləri barədə təlim idi. "Eyni çaya iki dəfə girmək olmur", "Hər şey axır", başqa sözlə hər şeyin dəyişilməsi barədəki mühüm fəlsəfi müddəa ona məxsus idi. Bu müddəaya görə yalnız fasiləsiz inkişaf mövcuddur. Hər bir şey, hər bir hadisə ümumi inkişafın yalnız sadəcə anıdır.

Tarixçilər çox hallarda buna təəccüblənirlər ki, Budda, Konfutsi, əsas yəhudi peyğəmbərlərindən bir neçəsi və ilk yunan filosoflarının hamısı bir əsrdə yaşamışdır.

Başqa fəlsəfi sistemi isə Samos adasından cənubi İtaliyaya köçmüş Pifaqor inkişaf etdirdi. Pifaqor əsasən riyazi əməliyyatlarla məşğul olurdu, düzbucaqlı üçbucağın hipotenuzasının kvadratının katetlərin kvadratına bərabər olduğu məşhur teoremi də o, kəşf etmişdi və bu teorem onun adını daşıyır. Onun fəlsəfi görüşlərinin mənası isə ondan ibarət idi ki, bütün dünyanın qaydasını və əsasını maddə deyil, saylar, başqa sözlə mücərrəd, materiya ilə əlaqəsi olmayan kəmiyyət münasibəti müəyyən edir. Pifaqor təlimi riyazi tədqiqatların inkişafı üçün tətbiqi nöqteyi-nəzərdən çox faydalı idi. Məhz bu tədqiqatlara o, və onun ardıcılları böyük töhfə verdilər.

Erkən yunan filosoflarının fəlsəfi konsepsiyaları dünyanı rasional qaydada izah etməyə cəhd edirdi, bu həm də qədim yunanların idrakının rasionalizmini əks etdirirdi. Onlar öz dini mistitsizmindən azad olub, dünyaya, insan şəxsiyyətinin qüvvəsinə və bacarığına nikbin yanaşmağı təlqin edirdilər.

## Erkən Sparta

M.ə. 7-ci əsrin ikinci yarısından Peloponnes dövlətləri arasında Sparta birinci yerə çıxır. Dövlətə öz adını verən şəhər üç-dörd əsr əvvəl əmələ gəlmişdi. Dorilər Lakoniyaya soxulub, münbit torpaqlarda məskunlaşdılar. Bura Lakedemon və ya Lakoniya da deyirdilər və suallara çox qısa cavab verdiklərinə görə, burada yaşayanların adından "lakonik" anlayışı meydana gəlmişdi. Spartalılar Lakoniyaya ağalıq etmək üçün qonşu tayfalarla gərgin mü-

barizə aparıb, bu vilayəti özlərinə tabe etdilər. Yerli əhalinin çoxu, yəqin ki, onlar əsasən axeyalılar idi, spartalılar tərəfindən qul halına salındılar və hilotlara çevrildilər.

Bu dövrdə Spartanın dövlət quruluşunun əsasları qoyuldu. Onun fərqləndirici xüsusiyyəti stabillik idi və yüzilliklər ərzində burada çox az şey dəyişirdi. Burada ikili çar hakimiyyəti, ağsaqqallar şurası və ya gerusiya, xalq yığıncağı və ya apella mövcud idi. Lap qədim dövrlərdən Spartada eyni vaxtda iki çar sülaləsi hökmranlıq edirdi, bəzi hallarda onlar rəqabət aparır və birbirilə düşmənçilik edirdilər. Çarlar ümumi hörmət və ehtiramla əhatə olunsalar da, onların hakimiyyəti qanunla ciddi surətdə məhdudlaşdırılmışdı. Müharibə dövründə hərbi rəis funksiyasını yerinə yetirir, Sparta ordusuna komandanlıq edir, sülh dövründə isə məhkəmə və dini işlərlə məşğul olurdular. Hər iki çar ağsaqqallar şurasının tərkibinə daxil olurdu, onlarla birlikdə bu şura otuz nəfərdən ibarət idi. Dövlət idarəçiliyinin əsas məsələləri praktiki olaraq şuranın iclaslarında həll olunurdu. Tam hüquqlu vətəndaşları əhatə edən Xalq yığıncaqları dövlət orqanları sistemində ikinci dərəcəli rol oynayırdı. Əslində, onlar yalnız çarlar və ağsaqqalların birgə iclaslarında qəbul edilən qərarları təsdiq edirdilər.

Spartanın üstünü aqrar böhran alanda Messeniyadan alınmış münbit torpaqlar onun köməyinə gəldi və torpaqların yenidən bölünməsi başa çatdı. Daha məhsuldar torpaqlar 9 min Sparta vətəndaşı arasında bərabər bölündü. Bu torpaq parçalarının sahəsi daim eyni qalırdı, hətta vərəsə kimi veriləndə bölünə bilməzdi, hədiyyə və satmaq yolu ilə əldən ələ keçə bilməzdi. Torpaqla birlikdə onlara təhkim edilmiş hilotlar da bölünürdü. Bir neçə hilot ailəsi öz zəhməti ilə torpaq sahibinin ailəsini lazım olan hər şeylə təmin etməli idi. Hilotlar hər il öz ağasına natural qaydada töycu verirdi, bu töycu əsasən arpa dənindən və ya unundan, şərabdan, zeytun yağından və digər ərzaqlardan ibarət olurdu. İzafi məhsulu hilot bazarda sata və ya özünə ehtiyat kimi saxlaya bilərdi. Digər qullardan fərqli olaraq hilotlar xeyli dərəcədə təsərrüfat müstəqilliyinə malik idilər. Spartalı hilotu öldürə və ya sata bilməzdi, çünki o da, torpaq kimi dövlətin mülkiyyəti hesab olunurdu.

Torpaqların bölünməsi ilə yanaşı Sparta qanunvericisi Likurq tərəfindən mühüm sosial islahatlar həyata keçirildi, bunlar tarixə Likurq qanunları adı altında daxil oldu. Bu islahatlar qısa müddətdə Sparta dövlətinin sifətini dəyişdi, onu vahid hərbi düşərgəyə çevirdi, bütün sakinlər ciddi intizama tabe edildi. Likurq qanunlarına danışıqsız əməl edənlər Spartada tam hüquqlu və-

təndaş hesab olunurdu. Bu qanunlarda həyatın bütün sahələri xırda detallarına qədər reqlamentləşdirilmişdi, bura paltarın biçimi, saqqalın və bığın forması da daxil idi.

Likurq gənclərin böyüməsinə, təhsilinə qanunçuluğun ən böyük qayğısı kimi baxırdı. Onun baş prinsipi bu idi ki, uşaqlar öz valideynlərindən daha çox dövlətə məxsusdur. Uşaq doğulanda onun yaşamağa yararlı olduğu qənaətinə gəlindikdə, torpaqların doqquz mində biri vərəsə kimi onun adına yazılırdı. Uşaq zəif olduqda, gələcəkdə onun güclü və sağlam bədənə malik olmayacağı qət edildikdə, körpə ölümə məhkum edilirdi.

Erkən yaşlarından uşaqlar ləzzətli olmayan yeməklərə və çətinliklərə adət edirdilər. Onlar yalın ayaqla gəzir, qışda və yayda eyni paltarı geyinirdilər ki, istiyə və soyuğa davamlı olsunlar. Yeddi yaşında oğlan uşaqları xüsusi düşərgələrə verilirdi. Agela adlanan (hərfi mənada "sürü" deməkdir) bu düşərgələrdə onlar vəhşicilik üslubunda təlimlər keçirdilər, onlara həm də hiyləgərlik öyrədilirdi. Hətta bayramlar vaxtı uşaqlar ağır işgəncələrə məruz qalanda belə, səslərini çıxarmırdılar. Bəziləri hətta bu zərbələrdən öz valideynlərinin gözləri qarşısında ölürdü. Valideynləri də onlara rəhm etmirdilər, əksinə dözməyə ruhlandırırdılar.

Spartalılar heç vaxt təklikdə olmurdular, arılar kimi daim bir yerdə yaşayır, həmişə öz başçılarının və liderlərinin yanında olurdular. Likurq öz vətəndaşlarını böyük əyləncələrdə əyləndirirdi. Spartada hər kəs ləyaqətə məhəbbət göstərirdi, qüsurlara isə nifrət edirdi. Likurq heç kəsə səyahət etməyə icazə vermirdi ki, onlar əcnəbi qaydaları buraya gətirəcəklər, yad ölkələrin pozğun adətlərinə özləri sirayətlənməklə, sonra Lakedemonun həyatını və etik normalarını dəyişəcəklər. Şəhərin qapıları bağlanırdı ki, əhali pozğun qaydaların müdaxiləsindən qorunsun. Spartalıların əsl məşğuliyyəti, biznesi müharibə idi. Silah onların yeganə məşq vasitəsi və aləti idi. Düşərgədəki həyat şəhərdəkindən az çətin idi. Spartadan qaçdıqdan sonra Persiya sarayında sığınacaq tapmış Demaratın çar Kserksə dediyi kimi, müharibənin ən sarsılmaz qanunu heç vaxt düşmən qarşısından qaçmamaqdır, arxasını düşmənə çevirməməkdir, hətta rəqib qüvvələri sayca üstün olsa da, döyüşçü heç vaxt öz postunu tərk etməməli, heç vaxt silahını kənara qoymamalı idi. Bir sözlə o, həmin yerdə ya qalib gəlməli, ya da ölməli idi. Şair Arxilox Spartaya gələndə ona demişdilər: "Özünü öldürməyə təslim etmək, silahını atan adamdan daha yaxşıdır".

"Likurq quruluşunun" ən mühüm prinsiplərindən biri bərabərlik idi. O,

torpaqların bölünməsindən başladı, bu, dövlətdə dinclik və yaxşı qayda yaratmaq üçün çox vacib idi. Az sayda adam ölkənin bütün torpaq sərvətinə malik idi, əhalinin əksər hissəsinin isə bir qarış da torpağı yox idi. Dövlətin naminə o, bütün vətəndaşları torpaqdan imtina etməyə sövq etdi ki, bundan sonra torpaqlar yenidən bölünsün, adamlar həqiqi bərabərlik birliyində yaşasınlar. Sonra bütün daşınar əmlakı bərabər böldü, beləliklə bərabərsizliyin kökünü bütünlüklə kəsdi. O, xəsisliyin bünövrəsini yaratdı, bütün qızıl və gümüş pulları yığışdırdı, tədavülə yalnız dəmir pul buraxdı və bu pulu çox ağır çəkili etdi. Pula elə aşağı məzənnə qoydu ki, on mina pulu evə daşımaq üçün iki öküz qoşulmuş araba, bu məbləği saxlamaq üçün isə bir otaq lazım idi.

Sparta cəmiyyətində ictimai naharlar adamların ictimai davranış qaydasına çevrildi. Likurqun dəbdəbəyə qarşı apardığı mübarizənin tərkib hissəsi, varlanmaya məhəbbəti söndürmək vasitəsi kimi, ictimai naharları tətbiq etmək oldu. Bununla o, həm də bahalı süfrələrin əhəmiyyətini azaltdı, onları əslində bütünlüklə yoxa çıxardı. Belə qayda qoydu ki, bütün vətəndaşlar birlikdə nahar etsinlər. Bu qanunla təsbit olunmuşdu və bütün özəl evlərdə yemək yeyilməsi qadağan olundu. Beləliklə, ictimai və birgə nahar qaydası ilə, həmçinin yeməyin çox sadə olması ilə varlılar təbiətlərini dəyişdilər, çünki var-dövlət arzulamaq və ya oğurlamaq, ümumiyyətlə mülkiyyətçilərin varlanması şəraiti aradan qalxmışdı. Sərvətə nail olunsa belə, adam ondan nə istifadə edə bilərdi, nə də ondan həzz ala bilərdi. Onu nümayiş etdirmək imkanı da yox idi, çünki artıq kasıb və varlı adamlar birlikdə, eyni yerdə nahar edirdilər və heç kim bu ictimai nahar yerinə başqa pəhriz xörəyi ilə və ya dadlı xörəklərlə gələ bilməzdi. Belə olsaydı, həmin adamı bütün məclis ləzzətli xörəyə görə məzəmmət edərdi ki, deməli onun ictimai süfrədən və ümumi qaydadan zəhləsi gedir.

Bu nizamlama ilə varlılar müstəsna qaydada düzlənirdi, kasıblara bərabərləşirdi. Ciddi narazılıqlara baxmayaraq Likurq öz qanunverici islahatlarını həyata keçirməkdən qalmırdı, bir an da olsun geri çəkilmirdi. Bir çaxnaşma vaxtı dəlisov gənc vurub Likurqun bir gözünü tökmüşdü. Bu qaydanı pozanlara isə heç bir güzəşt edilmirdi. Zəfərli hərbi yürüşdən qayıtdıqdan sonra çar Agid öz çariça arvadı ilə ayrıca nahar etdiyinə görə məzəmmət olunmuş və cəzalandırılmışdı.

Uşaqlar da ümumi süfrədə nahar edirdilər, burada əsl ağıllı böyümə və mülayimlik məktəbi keçirdilər. Çünki buradakı söhbətlər heç vaxt vulqar

mövzuda və qıcıqlandırıcı şəkildə olmurdu. Uşaqlar həm də böyük məxfiliyə öyrədilir və ona adət etməyə başlayırdılar. Yaşlılar onlara deyirdi ki, "Danışılanların heç biri buradan kənara çıxmamalıdır" və bu vaxt əlləri ilə qapını göstərirdilər. Spartalıların ən ləzzətli xörəyi "qara şorba" adlanırdı və yaşlı adamlar süfrə üstündəki yeməklərdən ona üstünlük verirdilər. Sirakuza tiranı Böyük Dionisi onların belə bir naharında olanda süfrəyə verilən ət xörəyi hökmdara çox dadsız göründü və xörəyə niyə az ədviyyat vurulması ilə maraqlandı. Bu aşpazın təəccübünə səbəb oldu və onun hansı ədviyyatı nəzərdə tutduğunu soruşduqda, tiran heyrətlə "Hansı ədviyyatı?" sözlərini təkrar etdi. Aşpaz bu suala belə cavab verdi: "Qaçmaq, tərləmək, yorğunluq, aclıq və susuzluq. Bunlardır bizim xörəyimizə əlavə olunan, ona dad verən şeylər". Bir neçə il sonra məşhur Fiva sərkərdəsi Epaminond belə bir süfrə arxasında oturanda demişdi: "Belə nahardan sonra adamın başına satqınlıq barədə fikir gələ bilməz".

Likurq qanunlarının maneəsiz olaraq həyata keçməsi, öz dövlətində qoyduğu qaydaların saflığını qoruyub saxlamaq üçün hər cür yad təsirlərin burada daxil olmasının qarşısını bütün vasitələrlə kəsirdi. Bu məqsədlə o, hətta əcnəbiləri Spartadan qovurdu. O, qorxurdu ki, özlərindən asılı olmayaraq əcnəbilər bu yad ölkədə qüsurları öyrədən müəllimlərə çevrilə bilərlər. O, güman edirdi ki, yeni adamlarla birlikdə təbii olaraq ölkəyə yeni nitqlər daxil olur, yeni nitqlər isə yeni anlayışlar demək idi, bunların nəticəsində isə səhnəyə heç də mövcud qaydalarla uzlaşmayan çoxlu arzular və meyllər çıxır. O, tövsiyə edirdi ki, onun doğma şəhəri yoluxucu xəstəliklərə nisbətən, daha çox pis xəstəliklərdən qorunmalıdır.

Likurqun qanunları yazılmış deyildi, o, çalışırdı ki, bu əxlaqi normalar vətəndaşların xasiyyətlərinə və həyat tərzinə daxil olsun. Platonun sözlərinə görə, Allah yaratdığı dünyanın ilk hərəkətini gördükdə fərəhləndiyi kimi, Likurq da öz qanunlarının gözəlliyinə və böyüklüyünə valeh olmuşdu. O, çox istəyirdi ki, bu qanunlar əbədi olsun, gələcəkdə də onlar heç bir dəyişikliyə məruz qalmasın, heç vaxt dəyişdirilməsin.

Likurqu başqalarından fərqləndirən bir də onun taxt-tacdan imtina etməsi idi. Sparta dövlətində aristokrat cəmiyyət yaratmışdı, hətta sənətkarlıqla da yalnız qullar və bu ölkəyə gəlmə adamlar, yerli olmayanlar məşğul olurdu. Ailə münasibətlərinə də o, tam başqa nöqteyi-nəzərdən baxırdı, nikahın yeganə məqsədini övlad doğub törəməkdə görürdü. Onun Sparta üçün necə böyük əhəmiyyət daşıdığına, təkcə bir arqumenti gətirmək olar ki, həmvə-

tənləri onun qanunlarını pozduqda Yunanıstanda böyük ərazilər üzərindəki ağalıqdan məhrum oldular və az qala dövləti məhvə gətirib çıxardılar. Burada digər əks-arqument də vardır. Spartanın böyük dövlət iddiaları yalnız hərbi qüdrətə əsaslanırdı, iqtisadi və mədəni cəhətcə o digər yunan dövlətlərindən çox geri qalırdı. "Likurq quruluşu" iqtisadiyyatın inkişafını kəskin surətdə zəiflədir, dayandırırdı. Özünə qapılan Sparta düşmənçilik və etibarsazlıq obyektinə çevrildi.

## Afinada polis quruluşu

M.ə. 8-ci - 7-ci əsrlərdə Afina tədricən iri və qüdrətli dövlətə çevrilərək, polis Yunanıstanının rəmzi, Elladanın mərkəzi oldu. Dori müdaxiləsi Attika vilayətinə az toxundu, burada əsasən əvvəlki əhali yaşayırdı, digər ərazilərdən də dorilər tərəfindən sıxışdırılmış axeyalılar burada qərar tutmuşdu. Əhali qan qohumluğuna görə dörd filaya (tayfaya) bölünmüşdü, onların da hər biri üç fratriyadan ibarət idi.

Dəniz yaxınlığında yerləşən Afina dəniz quldurlarının hücumlarından qayalıq akropoldakı möhkəm istehkamlarla qorunurdu. Şəhərin siyasi sferasında tayfa başçısı olan basiley, vəzifəli şəxslərin kollegiyası olan arxontlarla əvəz edilir. Ağsaqqallar şurası isə areopaqa çevrilir, onların tərkibi vəzifəsinin icrasını başa çatdırmış arxontlarla tamamlanırdı.

M.ə. 621-ci ildə arxont Drakontun həyata keçirdiyi hüquqi normalar tayfa quruluşunun qalıqlarını məhv etmək məqsədini güdürdü. Drakont qanununa görə qədim qan qisası hüququ məhv edilirdi, yeni məhkəmə qaydaları yaradılırdı, qəsdən və qəsdən olmadan adam öldürülməsinin fərqləndirilməsi qaydası qoyulurdu. Xüsusi mülkiyyət hüququnu qanun təsbit edirdi, xüsusi mülkiyyətə qəsd etməyə görə ən yüksək cəza - ölüm cəzası tətbiq edilməyə başlandı. Özü də burada fərqi yox idi, ya bostandan tərəvəz oğurluğu olsun, ya da torpaq sahəsi qəsb edilsin. Bu, yeni yaranan xüsusi mülkiyyət formasını qorumaq üçün mühüm əhəmiyyətə malik idi. Drakont qanunvericiliyi ilə qədim adətlərə və qəbilə münasibətlərinin qalıqlarına son qoyulurdu.

Bu münasibətləri sonralar araşdıran Aristotel yazırdı ki, dövlət quruluşu oliqarxiya tipində idi, ən başlıcası isə o idi ki, kasıblar, onların uşaqları və arvadları kölələikdə idilər. Kasıblar icarə haqqını ödəməsə, onları, uşaqlarını kabalaya (şəxsi asılılığa) salmaq olardı. Solon dövrünə qədər borc pul almağın da təminatı şəxsi kabala idi.

Belə bir vaxtda, m.ə. 594-cü ildə arxont seçilən Solon şəraiti normallaşdırmaq üçün islahatlar keçirməyə məcbur oldu. Bu islahat Afina ictimai və dövlət quruluşunun yenidən dirilməsi məqsədini güdürdü, ona görə də cəmiyyətin bütün tərəflərini: iqtisadi münasibətləri, sosial strukturanı, hərbi işi və dövlət idarəçiliyini əhatə etdi. Bunun öhdəsindən yalnız Solon kimi görkəmli siyasi xadim, mütəfəkkir və şair gələ bilərdi. Çünki o, şəraitin mürəkkəbliyini yaxşı anlamaqla yanaşı, onu dəyişdirmək üçün lazım olan siyasi dühaya və iradəyə malik idi.

Solon var-dövlət toplamağa öz mənfi baxışlarını, insanın xoşbəxtliyi üçün sərvətin heç bir əhəmiyyət kəsb etmədiyi fikrini, hətta o dövrün ən varlı hökmdarı lidiyalı Krezlə söhbətində açıqca bildirməkdən çəkinməmişdi. Yunan müdriki Solonla Lidiya monarxı Krez arasındakı məşhur söhbət, uydurulmuş əhvalat olsa da, əxlaq nöqteyi-nəzərindən çox qiymətlidir. İslahatlarını Afinada təqdim etdikdən sonra, qanunların dəyişilməzliyinə təminat yaratmaq üçün o, öz ölkəsini tərk edib, Sardıya gəlmişdi. Böyük tarixçi Herodotun yazdığına görə, Krez Solona öz xəzinələrini, bütün sərvətlərini göstərdikdən sonra, zəfər çalmış kimi razılıqla ondan soruşur ki, dünyada ən xoşbəxt adam kimdir və o, gözləyirdi ki, Solon onun adını çəkəcəkdir. Müdrik isə ciddi qaydada cavab verdi: "Afinalı Tell". Qəzəblənmiş hökmdar bu səbəbə görə ona təzyiq göstərdikdə, Solon dedi: "O, namuslu adam idi. Yaxşı övladları, sərfəli malikanəsi var idi və öz ölkəsi uğrundakı döyüşdə igidliklə vuruşub həlak oldu". Solonun bu rəyini, Kirin Lidiyanın işğalı vaxtı Krezin əsir götürülməsi vaxtı baş verən taleyinin dəyişməsi bir daha təsdiq etdi.

O, təsərrüfat həyatını canlandırmağa başladı. Quraqlıqdan əzab çəkən Attikanın kənd ərazilərinin su təchizatını qaydaya qoymaq üçün tədbirlər gördü. Zeytun bağlarının salınmasına diqqət artırıldı və əvvəllər qadağan olunan zeytun yağı ixracına başlandı. O dövrdə Afina yunan dünyasında az qala yağ inhisarına malik oldu. Solon sənətkarlıq məşğuliyyətini həvəsləndirən qanunverici aktlar tətbiq etdi. Oğlunu hansısa bir sənətə öyrətməmiş ahıl atanı saxlamaq borcundan həmin oğul azad olunurdu. O, yeni çəki və pul sistemi yaratdı. Hər cür dəbdəbəyə və qeyri-məhsuldar xərclərə qarşı mübarizəni gücləndirmək məqsədilə bahalı dəfn mərasimləri, məqsədsiz böyük miqdarda mal-qara qurbanı, dəbdəbəli sərdabələr tikmək qadağan olunurdu.

Sosial dəyişikliklərə gəldikdə, Solon Afinanın azad yerli əhalisini, torpaq gəlirlərinin böyüklüyünə görə dörd dərəcəyə böldü. Ərzaqdan 500 medimn

gəliri olan ən yüksək birinci dərəcəyə aid edilirdi. İkinci dərəcəyə 300 ölçüdə gəliri olanlar - atlılar aid edilirdi. Üçüncü dərəcəliyə 200 ölçüdə gəliri olanlar daxil idi. Ən aşağı dərəcə fetlər adlanırdı, onların gəliri 200 ölçüdən aşağı olurdu. Birinci və ikinci dərəcənin adamları süvari qoşununda xidmət edirdi, yüksək vəzifələrə seçilirdi, zevgitlər - üçüncü dərəcədən olanlar ağır silahlı piyada xidmətinə çağırılırdı, fetlər isə yalnız xalq yığıncağında səs verirdilər. Lakin o, tayfa filalarını, fratriyaları da ləğv etmədi.

Ən radikal islahat isə borc münasibətlərində baş verdi. Qanunvericilik borca görə adamları qul etməyi, başqa sözlə borc kabalasını qadağan etdi. Orta əkinçilərin iqtisadi vəziyyətini möhkəmləndirmək üçün onlardan ötəri bir sıra qarantiyalar yaradıldı. Torpaq maksimumu qoyuldu, qanunla müəyyən edilmiş ölçüdən artıq torpağa sahib olmaq qadağan edilirdi, bununla da torpaq mülkiyyətinin təmərküzləşdirilməsi məhdudlaşdırılırdı.

Xalq yığıncaqlarının da fəaliyyəti xeyli canlandı. Bu yığıncaqlarda mühüm dövlət işləri müzakirə olunmağa, qanunlar qəbul edilməyə başlandı. Bu qanunlar əsasən kübarlara qarşı olurdu. Solon hər filadan 100 adam olmaqla, yeni 400 nəfərdən ibarət Şura yaratdı, bu Xalq yığıncaqlarının köməkçi orqanı idi. Şuranın təsis edilməsi areopaqın funksiyalarını məhdudlaşdırdı. Bütün vətəndaşlardan seçilən çoxsaylı hakimlər kollegiyası kimi Helieya adlanan yeni dövlət orqanı meydana gəldi. Helieya vəzifəli adamların hesabatlarını yoxlamalı, vətəndaşlar arasında baş verən münaqişələri araşdırmalı idi.

Solonun tətbiq etdiyi yeni siyasi tədbirlərin mahiyyəti elə dövlət idarəçiliyini yaratmaq idi ki, bu idarəetmədə Afina xalqının, demosun geniş təbəqələri iştirak etsin. Demosun ən geniş təbəqələrinin idarəetmədə iştirak etdiyi dövlət quruluşu demokratiya adını aldı. Onun islahatı polis demokratiyasının əsaslarını qoydu.

Lakin bu islahatlar qısa müddətdə tayfa quruluşunun bütün qalıqlarını kökündən çıxara, zadəganların ağa vəziyyətini bütünlüklə qırıb dağıda bilməzdi. Zadəganlarla demos arasında mübarizə Solondan sonra da davam etdi. M.ə. 560-cı ildə Pisistrat özünü tiran - polisin ali hökmdarı elan etdi və öz hakimiyyətini möhkəmləndirmək üçün tədbirlər gördü. Şəhərə və öz idarəçiliyinə parıltı vermək məqsədilə o, öz sarayına yunan ədəbiyyatı və incəsənətinin görkəmli xadimlərini cəlb etdi. Bayramlar böyük dəbdəbə ilə keçirilirdi, onlarda tiran və onun ailəsi iştirak edirdi. Pisistrat adaların tiranları ilə yaxşı əlaqə yaratdı. Onun rəqibi Miltiad isə Afinanı tərk etməyə məcbur oldu. Lakin oğlanları vərəsəliklə hakimiyyətə yiyələndikdən sonra onun siya-

sətini davam etdirdikdə biri öldürüldü, digəri isə rejimin qəddarlığını artırıb, ümumi narazılığa səbəb oldu. Bu dövrdə nəhəng Persiya monarxiyası Kiçik Asiyadakı bütün yunan şəhərlərini və Egey dənizindəki adaların çoxunu tutdu. Spartalılar Attika ərazilərinə soxulanda, Pisistratın ikinci oğlu da qaliblərin mərhəmətinə sığındı və Persiyaya sürgünə yollandı. M.ə. 510-cu ildə Afinada tiraniya yıxıldı. Lakin tiranlar Solonun qanunvericiliyini ləğv edə bilmədilər.

M.ə. 6-cı əsrin sonunda Afina iri və çox əhalisi olan şəhərə çevrildi. Burada başqa yunan şəhərlərindən çıxanlar da yaşayırdılar. Bu yad adamlar burada daimi yaşasalar da, meteklər təbəqəsini təşkil edirdilər, onlar yerli afinalılardan onunla fərqlənirdilər ki, vətəndaş hüquqlarına malik deyildilər, torpaq sahəsinə sahib ola bilməzdilər, onların emalatxanası və gəmisi ola bilməzdi. Klisfen 400-lər şurasını ləğv edib, yeni 500-lər şurası yaratdı, onun tərkibinə iki yeni filanın hər birindən 50 adam əlavə edildi.

Qoyulmuş qaydanı qorumaq, hansısa qüdrətli şəxs tərəfindən hakimiyyətin qəsb edilməsi imkanının qarşısını almaq üçün ostrakizm qaydası təsis edildi. Ostrakizm (mənası saxsı qırıqlarında səs vermək idi) Xalq yığıncaqlarında dövlətdə mövcud qaydaya təhlükə törədən olanı müəyyən etmək üçün xüsusi səsvermə keçirilməsindən ibarət idi. Əgər 6 min saxsı qırıntısında eyni adamın adı yazılsaydı, həmin adam on il müddətinə Afinadan qovulurdu.

Yunan polisinin mənəvi dəyərlər sistemində vətəndaş məfhumu meydana gəldi, bu şəxs ondan ayrılmayan siyasi hüquqlar məcmuuna malik idi. Vətəndaşın əxlaqi dəyərləri sırasında isə öz polisinə qarşı dərin vətənpərvərlik hissi xüsusi yer tuturdu. Ancaq bir polisin vətəndaşı olan yunan digər şəhər-dövlətə keçdikdə hüquqsuz metekə çevrilirdi. Yalnız öz dövlətində o, öz azadlığını, maddi rifahını, öz şəxsiyyətini tam ölçüdə hiss edirdi. Sonralar Aristotel təsdiq edirdi ki, "biz vətəndaşı yalnız özünə məxsus olan kimi qiymətləndirməməliyik, biz hər bir vətəndaşı dövlətə məxsus olan kimi daha çox qiymətləndirməliyik". Həm də polislər ərazi ölçüsünə və əhalinin sayına görə bir-birindən fərqlənirdi. İri polislərdə 200-300 min adam yaşayırdı, bəzi xırda polislərdə isə sayı yüzlərlə ölçülən əhali olurdu. Polis iqtisadiyyatının əsasını isə əkinçilik təşkil edirdi, bəzilərində isə, məsələn Afina kimi, sənətkarlıq istehsalının xüsusi çəkisi yüksək olurdu və belə polislərdə demokratik quruluş formalaşırdı.

# Yunan-Persiya müharibələri

M.ə. 6-cı əsrin sonundan başlayaraq qonşu qüdrətli Əhəmənid dövləti tərəfindən yunan polislərinə məhvedici təhlükə yarandı. Persiya çarı I Dara Kiçik Asiyanın yunan şəhərlərini və Egey dənizinin şərq hissəsindəki adaları tutub, Balkan Yunanıstanını işğal etmək fikrinə düşdü. Bir-birinə düşmənçilik edən yunan dövlətlərini məğlub etmək güclü ordusu olan bir dünya dövləti üçün çətin deyildi, həm də bütün Şərqi Aralıq dənizi Persiya çarının əlinə keçirdi.

Persiya ilə yunanların müharibəsi m.ə. 500-449-cu illər arasında getmişdir. Bu o vaxta qədərki dünya tarixində ən uzun çəkən hərbi toqquşma idi. Kiçik Asiyanın yunan şəhərləri Persiya çarı Kir tərəfindən hələ 60-70 il əvvəl tutulmuşdu. Dara isə onlara qarşı daha sərt siyasət apardığından, narazılıq daha kütləvi şəkil aldı. İlk dəfə perslərə qarşı Kiçik Asiyanın ən böyük şəhəri olan Milet üsyan qaldırdı. Digər İoniya şəhərləri də ona qoşuldu. Onlar vahid komandanlıq yaratdılar. Dara vəziyyətin təhlükəli olduğunu görüb qətiyyətli tədbirlərə əl atdı. Üsyanın mərkəzi Milet perslər tərəfindən mühasirəyə alındı və bir il çəkən mühasirədən sonra m.ə. 494-cu ildə tutuldu. Şəhər qəddarcasına dağıdıldı, adamlar öldürüldü və ya qul olmağa satıldı.

Bundan sonra I Dara Balkan Yunanıstanı polislərini tutmaq barədəki köhnə planlarını reallaşdırmaq qərarına gəldi; bu vaxt strateji təşəbbüs də onun əlində idi, üsyançılara kömək edənləri cəzalandırmaq isə yaxşı bəhanə sayıla bilərdi. Yürüşdə 30 min adam və 600 gəmi iştirak edəcəkdi. M.ə. 492-ci ildə çarın yeznəsi, istedadlı hərbi xadim və diplomat olan Mardoni bu qüvvələri Hellespont (indiki Dardanel) boğazından keçirdi və Egeyin şimal sahillərini tutmağa başladı. Cənubi Frakiya tayfaları və Makedoniya çarı Aleksandr öz tabeliklərini bəyan etdilər. Lakin Afon burnu yanında pers donanması fırtınaya düşdü və sahil qayalıqlarında məhv oldu. Herodotun yazdığına görə 300 gəmi və 20 min adam məhv olmuşdu, bu bütün gəmilərin yarısına, canlı qüvvənin isə -nə bərabər idi. Belə fəlakətdən sonra Mardoni öz ordusu ilə Kiçik Asiyaya geri çəkilməyə məcbur oldu.

Dara bu uğursuzluğa baxmayaraq ikinci ekspedisiyanı təşkil etdi. M.ə. 491-ci ildə Balkan Yunanıstanının bütün polislərinə tam itaət göstərmək tələbi ilə pers səfirləri göndərildi. Çoxları buna razılaşsa da, Sparta və Afina düşmən tələblərini qətiyyətlə rədd etdilər. Spartalılar elçiləri quyulara atdılar ki, oradan "torpaq və su" götürsünlər, afinalılar isə səfirləri qayadan atdılar.

Persiyalılar Evbey adasını tutduqdan sonra Attikanın şimali-şərqindəki Marafon deyilən yerə çıxdılar, bu Afinadan 42 km aralı idi. Vaxtilə, tiran olmuş Hippi (Pisistratın ikinci oğlu) onlara bələdçilik edirdi, onun Afinadakı tərəfdarları da perslərin xeyrinə təbliğat aparırdılar. Bu vaxt vaxtilə Afinanı tərk etmiş Miltiad istedadlı sərkərdə kimi yunanların müdafiəsinə başçılıq etdi. Onun hazırladığı plan afinalılara qələbə bəxş etdi. O, hücum taktikasını seçdi. O, öz kolleqaları olan strateqləri pis möhkəmləndirilmiş Afinada oturmağın səmərəsizliyinə inandıra bildi. Qonşuları Marafona apardı və burada persləri həlledici vuruşa sövq etdi. M.ə. 490-cı ilin 12 sentyabrında qədim hərb sənəti tarixinə düşmüş məşhur Marafon döyüşü baş verdi.

Miltiad sərəncamında olan 11 min vuruşacaq adamı falanqa şəklində düzdü, bu vaxt flanqlar (sıranın ucu) təpələrə gəlib çatırdı. Bu yunanları mühasirədən və pers süvarilərinin hücumundan qoruyurdu. Falanqa üç yerə bölünmüşdü: sol, mərkəz və sağ flanqlara, bu manevr etməklə yanaşı, onların müstəqil hərəkətinə də imkan yaradırdı. Pers süvari qoşunu yunan flanqlarından keçə bilmədi və döyüşdə çox az iştirak etdi. Flanqdan persləri geri oturdan yunanlar, sonra mərkəzdə zərbə endirdilər. Tam qələbə qazanıldı, 6 min pers həlak olmuşdu, afinalılar isə 192 hoplit itirmişdilər. Şad xəbəri Afinaya xəbər verməyə gələn qasid "Qələbə" qışqırıb, ölü kimi yerə sərildi. Bu hadisənin xatirəsinə Olimpiya oyunlarında, marafon qaçışının uzunluğu döyüş yerindən Afina aqorasına qədər olan məsafə qədər - 42 km 192 m müəyyən edildi. Bu qələbənin böyük mənəvi-siyasi əhəmiyyəti var idi. Bu yunan hərbi təşkilatlanmasının üstünlüyünü göstərdi. Şöhrətli Persiya ordusu artıq qüvvəyə malik olmasına baxmayaraq iki dəfə mülki könüllülər tərəfindən darmadağın edilmişdi.

Çar I Dara öldükdən sonra onun oğlu, çar Kserks Yunanıstana müdaxilə etmək üçün yeni həlledici müdaxiləyə hazırlıq gördü. O, yenə Mardoninin marşrutunu seçdi və m.ə. 481-ci ildə artıq 150-200 min nəfərlik ordu və müxtəlif tutumlu 1200 gəmi yürüşə hazır idi. Kampaniyaya Kserks özü başçılıq edirdi. Elladanın başı üstünü ölümcül təhlükə kəsmişdi. Ona görə də Balkan Yunanıstanında dövlətlərin bir-birilə müharibəsi kəsdi və Korinfdə keçirilən konqressdə elə həmin il Yunanıstanın 31 polisinin hərbi ittifaqı yarandı. Ordunun və donanmanın komandanlığına ən təcrübəli hərbi rəislər kimi Sparta çarları təyin edildi. Bundan başqa afinalı Femistoklun hərbi qüdrəti gücləndirmək barədəki təklifi qəbul edildi. Böyük Afina donanması o dövrün ən yaxşı gəmilərindən ibarət olmaqla, əla Sparta ağır silahlı piyada qoşunlarını tamamlayırdı.

M.ə. 480-ci ilin erkən yazında Kserksin Elladaya böyük yürüşü başladı. Perslər Hellespont boğazından iki ponton körpü ilə keçirdilər. Lakin boğazı keçmək bədbəxtliklə müşayiət olundu. Güclü axın və dalğa bir ponton körpünü dağıtdı. Hiddətlənmiş Kserks əsl Şərq despotu kimi özünü təkcə insanların deyil, həm də stixiyanın ağası hesab etdiyindən Hellespontun sularını qamçılarla cəzalandırmağı əmr etdi, suyu itaətə gətirmək üçün boğazın dalğalarına qandallar atıldı. Körpünü tikənlərin boynu vuruldu və yeni körpü tikildi.

Yunanlar yeni müdafiə yeri kimi dar Fermopil keçidini seçdilər, bu Fessaliyadan Orta Yunanıstana keçən yeganə yol idi. Burada müdafiə qurğuları da var idi. Buraya 7,23 min hoplit dəstəsi göndərildi, onların tərkibində Sparta çarı Leonidin başçılığı altında 300 spartalı var idi. Heç bir həlledici döyüşdən söhbət gedə bilməzdi, çünki qüvvələr nisbəti yunanlara ağır məğlubiyyətdən başqa heç nə vəd edə bilməzdi.

Lakin yunanlar qarşıya qoyulmuş məqsədə bütünlüklə çatdılar. Leonid öz düşərgəsini Fermopil keçidində isti su bulağının yanında saldı, buradakı dağıdılmış hasarı təmir etdi və düşməni qarşılamağa hazır dayandı. Bu vaxt oraya yaxın olan ərazi Persiya ordusu tərəfindən çəyirtkə sürüsü kimi tutulmuşdu. Kserksə spartalıların idmanla məşğul olduqlarını, saçlarını qaydaya saldıqlarını xəbər verdikdə, çarın yanında olan və sürgün edilmiş keçmiş Sparta hökmdarı Demarat bildirdi ki, deməli onlar qızğın döyüşə hazırlaşırlar, çünki adətlərinə görə məhz böyük təhlükə gözləyəndə spartalılar saçlarına yaraşıq verirlər. Kserks daha dörd gün gözləməli oldu ki, əlavə donanması gəlib çatsın ki, ona köməklik göstərsin. Donanma gəlib çıxdıqda o, hücuma keçdi. Ağır silahları olan yunanlar gödək qılıncları və zərbəyə davam gətirməyən qalxanları olan perslərlə asanlıqla vuruşurdular. Kserks öz qoşunlarını qaçan görəndə çox hirslənmişdi. Spartalılar özlərini alınmaz qalaya çevirmişdilər. Onlar öz vətənləri uğrunda muzdlu ordulara qarşı vuruşurdular. Dörd gün idi ki, perslərin hücumu davam edirdi. İş o yerə gəlib çatdı ki, pers döyüşçüləri düşmən üstünə getməkdən imtina edirdilər, onları qamçı ilə döyərək, vuruş səhnəsinə atırdılar. Kserks özünün "ölməzlər" qvardiyasını döyüşə salmağa məcbur oldu, bunu o, nadir hallarda edirdi. Lakin Leonid çox məharətlə öz postlarını müdafiə edirdi. Kserks heç nə edə bilmirdi. Bir fessaliyalı satqın böyük məbləğdəki pul müqabilində yunanların arxasına keçmək yolunu göstərdi. Leonid vəziyyətin çıxılmaz şəkil aldığını görüb, müttəfiq qoşunlara çıxıb getməyi məsləhət gördü. Özü isə gətirdiyi spartalı dəstəsi ilə qaldı. Mikenadan və Fespiyadan olan 780 nəfərdən başqa hamı

onun təklifi ilə razılaşdı. 400 fivalı da onlara əlavə olundu. Leonidlə cəmisi 1400 nəfər döyüşçü qaldı.

Səhər erkən hamı çıxıb getdikdən sonra öz adamlarını sonuncu səhər yeməyinə dəvət etdi və bu sözləri dedi: "Bu axşam Pluton ilə birlikdə şam edəcəyik". Pluton yeraltı dünyanın allahı idi. O, şamı cəhənnəmdə edəcəklərinə işarə vururdu. Bu vaxt Leonidi bir şey düşündürürdü - daha çox sayda düşmən məhv edilsin ki, onlar yunanların adından belə qorxsunlar. Perslər yunan nizələrindən həlak olurdular. Lakin onlar həddən çox olduqlarından, tükənmək bilmirdilər. Yunanlar yalnız qılıncla qalmışdılar və həlak olurdular. İlk öldürülənlərin arasında Leonid də var idi. Döyüş başa çatanda məlum oldu ki, Kserksin qardaşları olan iki Persiya printsi də döyüşdə həlak olmuşdur. Ancaq fivalılar zəiflik göstərib, perslərə tərəf gedib, əllərini qaldırıb onlardan mərhəmət dilədilər. Gün batanda, spartalılar arasında bir nəfər də olsun sağ qalmamışdı. Burada yalnız cəsədlərdən ibarət bir təpə düzəlmişdi və bu təpə oxlarla örtülmüşdü. Bəzi müəlliflər iddia edirlər ki, bir ovuc adamla vuruşda 20 min persiyalı tələf olmuşdu. Kserks "Spartada bunlara oxşayan nə qədər adam vardır?" sualına, Demaratdan "Səkkiz min" cavabını almışdı.

Bu döyüş Yunanıstanın bütün dövlətlərini, bütün yunanları müharibəyə səslədi. Həlak olmuş spartalıların qəbri üzərində qoyulmuş abidədə, oturmuş şir heykəlinin postamentində şair Simonidin bu sözləri həkk olunmuşdu:

**"Get yolçu, xəbər ver Spartaya**
**Qəbirdə biz yatırıq, tabe olub qanuna".**

Abidə də, yazı da zaman keçdikcə yoxa çıxdı. Daşın və bürüncün davam gətirmədiyi min illərlə uzanan zaman məsafəsində Leonidin adı, 300 spartalının qəhrəmanlığı öz parlaqlığını itirmədi. Onlar dünya tarixinə unudulmaz döyüşçü sədaqətinin simvolu, ağlasığmayan igidlik nişanəsi kimi daxil oldular.

Fermopildən keçən Persiya ordusu Orta Yunanıstanı ağzına aldı. Attika qarət edildi. Afina sakinləri başqa şəhərlərdən də Salamin adasına köçürüldülər. Afina perslər tərəfindən tutulub oda verildi. Bu ərazilərin tutulmasına baxmayaraq yunanların əsas hərbi gücü, müttəfiq ordusu və donanması qorunub saxlanmışdı. Spartalıları həlledici döyüşə razılaşmağa sövq etmək üçün Femistokl hiylə işlətdi. Perslərin düşərgəsinə satqın göndərildi ki, Kserksə yunan donanmasının Salamindən geri çəkilməsinə hazırlıq getdiyi barədə guya məxfi məlumatı çatdırsın. Kserks bu xəbərə inanıb, öz donanmasına əmr etdi ki, Salamin boğazının çıxışlarını qapasın və yunan donan-

masının oradan çıxmasına imkan verməsin. Döyüş labüd idi. Bu 28 sentyabr 480-ci ildə getdi. Dar boğazın dayaz sularında yaxşı hərəkət edən yunan gəmiləri perslərin inadlı müqavimətini qırdı və onların nəhəng donanmasının demək olar ki, hamısını məhv etdi. Bu hərbi şəraiti kökündən dəyişdi. Kserks hərbi kampaniya planını dəyişməyə məcbur oldu. O, Asiyaya qayıtdı, özü ilə ordunun xeyli hissəsini və donanmanın qalığını geri qaytardı. Mardoni isə bir il sonra yenidən Afinanı tutub qarət etdi və perslər həm də Plateyada məğlubiyyətə uğradılar, pers sərkərdəsi özü də döyüşdə həlak oldu. Yunanlar Persiya gəmilərinin çoxunu yandırdılar. Artıq strateji təşəbbüs yunanlara keçdi.

Bu qələbələrdən sonra Sparta sərt tədbirlər tərəfdarı olduğundan, ümumyunan ittifaqının tərkibindən çıxdı. Delos adasında yeni hərbi ittifaq yarandı, bu simmaxiya adlanırdı. Buna daxil olan dövlətlərin çoxu eyni tipli demokratik quruluşa malik idi. Bu ittifaqda Afina aparıcı rol oynayırdı və Sparta ilə onun arasındakı gərginlik böyüməyə başladı. Özünü qurudan olan təhlükədən qorumaq üçün Femistoklun başçılığı altında Afinanın ətrafında qala qurğularının mürəkkəb sistemi tikildi. Bura şəhər divarlarının dövrəsi daxil idi, bu uzun divarlar Afinadan Pirey limanına gedən yolu qoruyurdu. Femistoklun nüfuzu çox artdığından, bunun demokratik prinsiplərlə bir araya sığmaması bildirildi və o, m.ə. 471-ci ildə ostrakizmə məruz qaldıqda, Persiya çarı Kserksin yanında sığınacaq tapmağa məcbur oldu. Marafon döyüşünün qalibi Miltiadın oğlu Kimonun siyasi nüfuzu gücləndi və sonrakı iki ildə o, persiyalılar üzərində üçqat qələbə qazandı. Lakin onun Spartaya yürüşü uğursuzluğa düçar olduqda, Kimonun hörməti azaldı və o da ostrakizmə cəlb edilənlərin sırasına daxil oldu.

Yunan-pers müharibələri yunanların tam qələbəsi ilə nəticələndi. Polis quruluşu daha qabaqcıl və mütərəqqi olduğunu göstərmişdi. Həlledici vaxt gələndə, aparıcı polislər birliyə nail ola bilirdilər. Həm canlı qüvvə, həm də silahın kəmiyyətində persiyalılara uduzan yunanlar, öz təşkilatlarının keyfiyyəti ilə onlardan xeyli üstün idilər. Yunan hopliti öz vətənini, müqəddəs məbədlərini, əcdadlarının torpaqlarını qoruyurdu, ona görə də daha yüksək mənəvi-döyüş keyfiyyətlərinə malik idi. Persiya döyüşçülərini isə bəzən döyüşə girməyə qamçı ilə qovmaq lazım gəlirdi. Yunan sərkərdələri öz pers kolleqalarından və rəqiblərindən daha istedadlı olmaqla, hərb sənətində yeniliklər həyata keçirməyə qadir idilər. Sonrakı dövrlərdə sağ olan böyük tarixçi Herodot geri 480-479-cu illərin hadisələrinə nəzər salaraq, yunanlarla persiyalılar arasındakı müharibəni azadlıq və tiraniya arasındakı müharibə

kimi qiymətləndirmişdi. Sürgün edilmiş Sparta çarı Kserksə demişdi ki, spartalılar hansısa cəhətlərə görə deyil, bütövlükdə azad adamlar idilər: "Qanun onların özünün ağasıdır və bu ağadan onlar, sənin təbəələrinin səndən qorxduğundan daha artıq qorxurlar". Doğrudan da, əgər Persiya qüvvələri Fermopildə döyüşə qamçılanmaqla qovulurdularsa, spartalılar könüllü olaraq öz həyatlarını qurban verirdilər. Görən yunan qələbəsi daha çox azad adamların igidliyinə yaxud yaxşı liderlərin bacarığına möhtac idi? Axırda Herodot ellinlərin uğurunu allahların iradəsi ilə əlaqələndirir, onlar Kserksin özündən razı qürurunu bu qaydada cəzalandırmışdılar. Esxil də "Persiyalılar" pyesində, özünün də Marafon və Salamin döyüşlərində vuruşmasına baxmayaraq persiyalılara qərəzsiz münasibət bəsləyir. Kserksin məğlubiyyəti, Esxil üçün yunanların igidliyinin açıq tərifi olmayıb, elə bir hadisədir ki, burada yenidən allahların qürura görə qisası nümayiş olunur. Axı allahlar yunanları və persiyalıları eyni qaydada idarə edirlər.

## Afinanın qızıl dövrü

Afina demokratiyasının inkişafında və dövlətin qüdrətinin möhkəmlənməsində Periklin rolu böyükdür. Tanınmış nəsildən olan Perikl m.ə. 460-cı illərdə siyasi fəaliyyətə başladıqdan sonra ömrünün sonuna qədər demokratiya prinsiplərinə sədaqətlə xidmət etmişdi. O, yaxşı təhsil görmüşdü, görkəmli natiq, istedadlı dövlət xadimi və sərkərdə idi. O, daxili idarəetmənin, demokratiyanın təntənəsinə yönəlmiş bir sıra islahatlar həyata keçirmişdi. Aristokratik orqan olan areapaqın süqutuna və Xalq yığıncağının funksiyalarının genişlənməsinə kömək etmişdi. Helieyada, 500-lər şurasında iştirak etməyə, digər vəzifələri daşımağa görə əmək haqqı ödənilməsi qaydasının tətbiq edilməsi onun adı ilə bağlıdır. Perikl Afinanın, Elladanın siyasi və mədəni paytaxtına çevrilməsi üçün çox iş görmüşdü. Afinalılar onun bu fəaliyyətinə görə daim ona böyük etimad göstərirdilər. Belə etibarın ən parlaq ifadəsi onun 444-cü ildən başlayaraq 429-cu ilə qədər hər il dalbadal birinci strateq kimi yüksək vəzifəyə seçilməsi idi. Bu Afina demokratiyası tarixində ilk hadisə idi, çünki əsas konstitusiya prinsiplərindən biri vəzifəli şəxslərin hər il seçilməsi idi. Qədim yunan fəlsəfi fikrinin və incəsənətinin görkəmli nümayəndələri arasında onun çoxlu dostları var idi. Onların siyahısına filosof Anaksaqoru, alim Damonu, böyük heykəltəraş Fidini, görkəmli tarixçi Herodotu daxil etmək olardı.

Perikli ölməz edən, tarixçi Fukididin köməyi ilə o dövrdən indiyə qədər

gəlib çatmış, onun peloponneslilərlə döyüşdə həlak olmuş afinalıların dəfn mərasimindəki nitqidir. Perikl həmin çıxışına bu adəti qoymuş adamlara tərifli sözlər deməklə başlayır və qeyd edir ki, əlbəttə, bu da bir risqdir ki, çoxlarının igidliyi bir adamın sözünə etibar edilir. O da uğurlu ola ya olmaya. Çünki nitqlərdə ölçüyə riayət etmək çətindir, onlarda həqiqət yalnız çətinliklə inandırıcı olur. Sonra o, əcdadların və ataların xatirəsini yad edərək deyir ki, onlar öz şücaəti ilə bu torpağı bizim günlərimizə qədər azad saxlaya bilmişlər. Sonra o, Afinanın dövlət quruluşunun üstünlüklərini diqqətə çatdırır: "Bizim dövlət qaydalarımız özgə adətlərə uyğun gəlmir; biz əslində nümunə göstəririk, nəinki başqalarını təqlid edirik. Bizim quruluş Xalq hakimiyyəti adlanır, ona görə də azlığa yox, xalqın çoxluğuna əsaslanır. Qanunlarımız bizə özəl işlərimizdə bərabər imkanlar verir. Bizdə hər kəsə xidmətinə görə hörmət olunur və tərəfdarlarının köməyi isə, öz şəxsi igidliyindən artıq müvəffəqiyyət gətirmir... Biz öz ictimai işlərimizi sərbəst görürük, gündəlik qayğılarımızda isə bir-birimizə şübhə ilə yanaşmırıq... Öz həyatımızda zülm tanımadığımızdan, biz ictimai həyatda qanunsuzluqlardan dəhşətə gəlməyi bacarırıq".

Sonra o, çıxışında Afinanın açıq dövlət olduğunu vurğulayır və göstərir ki, biz gizli hazırlıq və hiyləgərliklə deyil, açıq hərəkətlərimizdə bizə xas olan şücaətimizlə güclüyük. Təhlükə anı gəldikdə isə təbii igidliyimizlə bunu qarşılayırıq. "Biz varımızdan istifadə edirik ki, işdən yapışaq, sözlə lovğalanmayaq, biz kasıblığımızı da etiraf etməkdən utanmırıq, ondan zəhmət vasitəsilə çıxmamağa görə utanmaq lazımdır... Axı mənən güclü olanlar əslində o adamlar hesab olunmalıdır ki, onlar aydın başa düşürlər ki, qorxulu və şirin olan nədir. Lakin təhlükə qarşısında bundan heç də geri çəkilmirlər... Dost qazanırıq, onlardan xidmət qəbul etmədən, ancaq onlara xidmət göstərməklə. Xidmət göstərən - daha inanılmış dostdur". Perikl öz dövlətini Elladanın məktəbi adlandırır və göstərir ki, burada tərif yoxdur, bu bir həqiqətdir. "Biz öz gücümüzlə müasirlərimiz və övladlarımız üçün heyrət mövzusu olacağıq". Necə də o, peyğəmbərcəsinə hər şeyi düzgün görürdü. Perikl həlak olanların tabutlarını göstərərək deyir ki, "Mənə belə gəlir ki, kişi igidliyindən ötəri birinci əlamət və axırıncı təsdiq məhz belə sonluq olur. Çünki nöqsanları olan insan, vətən uğrunda müharibədə onları namusla tarazlayır; burada xeyir vasitəsi ilə şər silinir, ümumi fayda isə hər kəsin ayrıca vurduğu ziyanı kölgədə qoyur".

Perikl həlak olanlar barədə sözünü davam etdirərək deyir ki, "onlara düşmənə qarşı qalxıb həlak olmaq, məğlub olmaqla xilasdan gözəl göründü.

Onlar necə də öz dövlətlərinə layiq olduqlarını göstərdilər. Onlar bunun üçün gözəl ortaqlıq düzəltdilər - birlikdə həyatlarını verdilər, ancaq onların hər biri özləri üçün qocalmayan tərif və ən şanlı qəbir qazandılar - özü də bunu, indi uyuduqları qəbirləri deyil, ən başlıcası o qəbiri ki, orada onların şöhrəti yaddaşlardan silinmədən qalacaqdır, - bu gələcək nəsilin hər sözü və işidir. Məşhur adamlara qəbir - bütün yer üzudür. Onların haqqında xatirə işləri haqqında yox, daha çox onların ruhu haqqında olacaqdır... Məğrur adam üçün qorxaqlıqla alçalmaq daha ağrılıdır nəinki ölüm, çünki möhkəmliklə və hamının naminə ümidi ilə ölümə gedildikdə, o hiss olunmur". O, valideynlərə müraciət edərək deyir ki, "mən sizə görə məyus olmuram, ancaq sizə təsəlli verirəm. Axı bu da xoşbəxtlikdir ki, xoş həyata xoş da ölüm uyğun gəlir". Cavan valideynlərə isə o, belə təskinlik verir ki, onlar hələ yeni uşaq törətmək iqtidarındadırlar, həmin uşaqlar - həm ailəyə itkini unutdurar, həm də dövlətə ikitərəfli fayda verər, nə onun adamlarının azalmasına, nə də özünün zəifləməsinə imkan verməz. Yaşı keçmiş valideynlərə isə təsəlli odur ki, onlar həyatlarının çox hissəsini xoşbəxtlikdə keçiriblər, qalmış az müddətdə isə öz hüznlərini həlak olmuş oğlanlarının şöhrəti ilə yüngülləşdirsinlər. Təkcə şərəf istəyi heç vaxt qocalmır. Həlak olanların mərasimdə iştirak edən oğullarına və qardaşlarına isə məsləhət görür ki, onlara bərabər olmasanız da, həlak olanların nümunəsinin arxasınca gedin. Nitqini bu sözlərlə yekunlaşdırır: "Çünki harada igidliyə mükafatların ən yüksəyi verilirsə, orada vətəndaşların yaxşıları vətəndaşlıq edir".

Böyük Yunanıstanda Afinanın hegemonluğunun qurulması, bu dövləti bütün yunan dünyasının siyasi birliyinə çevirdi və hadisələrin belə inkişafı Spartanın tam izolyasiyasına səbəb oldu. Korinfin iqtisadiyyatına da ağır zərbə vuruldu. Afina demokratiyasının rəhbərləri ümumi ellin konqressi keçirilməsi ideyasını irəli sürdülər. Plutarxın yazdığına görə, Perikl Xalq yığıncağına belə bir təkliflə müraciət etdi ki, harada, hətta hansı qitədə yaşamasından asılı olmayaraq bütün ellinlər Afinadakı ümumi qurultaya öz müvəkkillərini göndərsinlər ki, burada barbarlar tərəfindən yandırılmış məbədlər barədə, Elladanın xilası naminə onlar barbarlarla vuruşan vaxt allahlara vəd etdikləri və verməli olduqları qurbanlar barədə, həm də dənizdə təhlükəsiz üzmək və sülh barədə məsləhətləşsinlər. Bu məqsədlə adamlar göndərdilər ki, ellinləri Afinaya gəlmək və məsləhətləşmələrdə iştirak etmək üçün dilə tutsunlar, lakin konqress baş tutmadı.

Afina ilə Sparta arasında ziddiyyətlər getdikcə daha gərgin xarakter alırdı. Afinanın digər barışmaz əleyhdarı olan Korinf onun hərbi yolla məhv

edilməsini inadkarlıqla tələb edirdi. Bəhanələr də tapıldı və Peloponnes müharibəsi başladı. Hər iki tərəfin böyük hərbi-iqtisadi potensialı var idi. Çünki Afina və Sparta iki ittifaqa daxil olmaqla onların hərbi güclərini və vasitələrini öz sərəncamlarına götürmüşdülər. Peloponnes müharibəsinin birinci dövrü m.ə. 431-421-ci illərə təsadüf etdi. Sonra atəşkəs dövrü başlandı. Peloponneslilər ilk dövrdə Attikanın kənd ərazisini viranə qoyurdular. Tarlalardan arvadlar və uşaqlar Afinaya köçürüldü, lakin şəhər əhalisinin təminatında ciddi çətinlik yox idi. Elə bu vaxt, m.ə. 430-cu ildə dəhşətli səpmə yatalaq epidemiyası baş verdi və bu hadisə afinalıların strateji planlarını pozdu. Perikl çoxlu qaçqının toplaşdığı darısqal, tozlu və su ilə kifayət qədər təchiz olunmayan Afinada belə qorxulu xəstəliyin baş verəcəyini düşünmürdü. Əhalinin dörddə biri qırıldı. Adamlar ümidsizlikdən günahı Periklin üstünə yıxmağa çalışırdılar. Bir az sonra o, özü də epidemiyanın qurbanına çevrildi. Plutarxın yazdığı kimi, xəstəlikdən ağlını itirən, dəli olan adamlar həkimi və ya atasını təhqir edən kimi, afinalılar da onun düşmənlərinin təhriki ilə Periklə pis münasibət göstərməyə başladılar. Demək olar ki, Afinanın hər bir böyük demokratik lideri əslində xalq tərəfindən kənara atılırdı. Miltiad cərimə olunmuşdu, Femistokl 472-471-ci illərdə ostrakizm edilmiş, ömrünün sonunu Persiya çarının yanında yaşamışdı. Kimon ostrakizmə məruz qalmışdı. Perikl də kütlənin narazılığını hiss edirdi, baxmayaraq ki, 429-cu ildə vəzifə başında öldü.

Afina düşmənin bütün həmlələrini dəf edə bildi. Sonra afinalılar Spartaya qarşı fəal hərbi əməliyyatlara başladılar və böyük uğurlar qazandılar. Spartanın vəziyyəti kəskin surətdə pisləşdi və sülh xahiş etdi. Afina son qələbəyə ümid etdiyindən sülh təklifini rədd etdi və uğur afinalılardan üz döndərdi. M.ə. 422-ci ildə spartalılar onları darmadağın etdilər. M.ə. 421-ci ildə Nikiy sülhü - Afina sülh nümayəndəliyinə başçılıq edənin adı ilə adlanan sülh bağlandı. Bu sülh bir sıra mühüm şərtlərinə baxmayaraq Peloponnes müharibəsini doğuran səbəbləri aradan qaldırmadı, ona görə də əslində qısa müddətli atəşkəsdən başqa bir şey olmadı.

Müharibənin m.ə. 415-404-cü illərdə keçən ikinci dövründə Afina Siciliyaya yürüş etdi. Afina donanması strateq Demosfenin başçılığı altında dəniz döyüşündə ağır məğlubiyyətə uğradı. Afina qoşunlarının başçıları Nikiy və Demosfen edam edildilər. Siciliya fəlakətindən sonra müharibədə təşəbbüs yenə spartalılara keçdi. Lakin Afina yenidən dirçələ bildi. Persiya çarı II Dara da Spartaya donanma düzəltməkdə kömək etdi. M.ə. 405-ci ildə Afina donanması Lisandrın hazırladığı tələyə düşdü və bütünlüklə məhv edildi. Afi-

nanın nə donanması, nə döyüşçüləri, nə pulu, nə də xilas olmağa ümidi yox idi və bir il sonra həm dənizdən, həm də qurudan mühasirəyə alındıqda təslim olmağı seçdi. Sparta sülhün sərt şərtlərini diqtə etdi: Afina dəniz ittifaqı buraxılır, onun donanması məhv edilir və şəhər istehkam qurğularından məhrum edilir. Peloponnes müharibəsi ərəfəsində demək olar ki, bütün Yunanıstanın işlərinə rəhbərlik edən qüdrətli Afina müharibənin sonunda Elladanın sıravi polislərindən birinə çevrildi.

Yunan polisinin böhranı sosial mübarizənin kəskinləşməsi ilə əlaqədar idi. Afina natiqi İsokrat yazırdı ki, Peloponnesdə bir çox polisin vətəndaşları bir-birinə elə inamsızlıqla, elə düşməncəsinə yanaşırlar ki, onlar bir-birindən düşmənə nisbətən daha çox qorxurlar. Əvvəlki yekdillik və qarşılıqlı əmlak dəstəyi elə parçalanmaya gəlib çıxardı ki, varlı adamlar ehtiyacı olana kömək etməkdənsə, öz əmlaklarını dənizə tökməyə hazır idilər, kasıblar isə varlıların əmlakını zorla ələ keçirmək imkanı ilə müqayisədə xəzinə tapmağa daha az sevinərdilər.

Yunan polislərinin sosial-siyasi problemlərini həll etmək cəhdlərindən biri m.ə. 4-cü əsrdə tiran rejimlərinin qurulması idi. Vətəndaş qarşıdurması kəskin formalar alanda tiraniya rejimləri yaranırdı. Tiranlar hakimiyyəti zorakı yolla qəsb etsələr də, öz hökmranlığının əvvəlində mülki əhalinin müəyyən dəstəyinə arxalanırdılar. Lakin onların ömrü uzun olmurdu, bir qayda olaraq bir fəndgir siyasətçinin fəaliyyəti ilə bağlı olurdu.

Yunan polis böhranının kəskin formaları yunan mütəfəkkirlərinin ciddi diqqət obyektinə çevrilirdi. Onlar şəraiti təhlil edərək, həyatın xəstə problemləri üçün öz həll yollarını təklif edirdilər. Belə layihələri Aristofan və böyük yunan filosofları Platon və Aristotel irəli sürmüşdü.

Aristofanın "Xalq yığıncağında qadınlar" komediyasında m.ə. 4-cü əsrin başlanğıcında xüsusi mülkiyyətin məhv edilməsi və əmlakın ümumiləşdirilməsi, Afina cəmiyyətini sağaltmaq yolu kimi təklif edilirdi. Guya ki, əmlak ümumiləşdikdən sonra qüsurlar və cinayətlər, paxıllıq və aldatma yoxa çıxacaqdır, nə məhkəməyə, nə də vəzifəli şəxslərə ehtiyac olacaqdır. Nahar pulsuz olacaqdı, fərdi ailələr yoxa çıxacaq, uşaqlar ümumi hesab ediləcəkdi. Bütün istehsal qulların üstünə qoyulacaqdı. Bunlardan vətəndaşların hamısı üçün sakit, xoşbəxt, dinc həyat başlanacaqdı. Aristofan Likurqu təkrar etməklə yanaşı, bir çox məsələlərdə, məsələn ailə və vəzifəli adamların olmaması barədə, ondan da uzağa gedib radikal tədbirlərlə cəmiyyəti az qala təbiətin bir hissəsinə çevirmək istəyirdi. Marksistlər kommunizmin mənbəyini axtararkən Tomas Mordan, Tommazo Kampanelladan, Robert Ouen və

Şarl Furyedən əvvəl Aristofana sitayiş etməli idilər. Yəqin ki, tam ədalətlə XX əsrin 20-ci illərinin ən qatı bolşeviklərinin sırasına, onların qədim əcdadı və fəxri liderləri kimi Aristofanı yazmaq olardı. Əgər onlar bu komediyanın baş qəhrəmanı olan qadının sözlərindən hali olsaydılar, cəmiyyəti daha kökündən dəyişmək üçün, onun təklif etdiyi fərdi ailələri də cəmiyyətdən silərdilər, uşaqları isə valideynlərinə deyil, dövlətə məxsus olduqlarından Likurqun agellərinə - sürülərinə ötürərdilər. Onda cəmiyyət üzvlərini Şi Huan-dinin katakombasından tapılmış terrakotadan düzəldilmiş və müasir diviziyanın sayı qədər olan əsgərlər tək, bu məşum qaydanın şüursuz mühafizəçilərinə çevirmək olardı.

M.ə. 4-cü əsrdə polisləri böhran vəziyyətindən çıxarmaq barədə Platon və Aristotel daha diqqətlə işlənmiş layihələr təklif etdilər. Platon təklif edirdi ki, əhalini üç kastaya bölüb, bunu əbədi möhkəmləndirmək lazımdır. Bunlar dövlətin filosof-hökmranları kastası, sərhədi qoruyan və daxili qaydanı mühafizə edən döyüşçü-mühafizəçi kastası və qalan əhali kastası idi. Sonuncuya sənətkarlar, əkinçilər, həm azad, həm də qul olan ticarətçilər daxil idi. Onlar zəhmət çəkməli, filosofların və mühafizəçilərin xırda qrupuna xidmət etməli idilər. Birinci iki kastanın üzvləri arasında xüsusi mülkiyyət olmamalı idi, onlar ictimai məişətdə yaşayırlar, onların ailə münasibətləri ayrıca qaydalarla tənzim olunur. Lakin sənətkarlar və əkinçilər xüsusi mülkiyyət, ailəyə malik ola bilərdilər və fərdi məişətləri ilə yaşamalı idilər. Onların istənilən narazılığı amansızcasına yatırdılır. Beləliklə, Platon bütünlüklə qazanılmış demokratiyadan imtina edirdi.

Aristotelin layihəsi isə bir qədər fərqli olmaqla, polis quruluşunu sağlamlaşdırmaq üçün o, vətəndaşların orta təbəqəsini, hoplit dəstəsi sahiblərini dəstəkləməyi təklif edirdi. Əkinçilərin orta təbəqəsinin çox olması Aristotelə görə polis quruluşunun möhkəmliyinin əsasıdır. Sənətkarlar və ticarətçilər tam hüquqlu vətəndaşların tərkibindən çıxarılır. Dövlətin idarə olunması, vətəndaşlardan yaşca böyük olanlara həvalə edilir.

Aristotelin fikrincə, mülayim, mötədil demokratiya olmalıdır, bunu politiya adlandırırdı. Politiya elə dövlət quruluşu idi ki, onda tam hüquqdan yalnız əkinçilərin orta təbəqəsi istifadə edir. Polisin özü isə, ərazi və əhali cəhətcə böyük olmamalı və dəniz kənarında yerləşməlidir. Belə şəhərdə o, güman edirdi ki, sakit və xoşbəxt həyata, möhkəm dövlət qaydasına nail olmaq mümkün olacaqdır.

Lakin yunan polislərinin böhrandan çıxarılmasına və sağlamlaşdırılması-

na yönələn bu islahat layihələri utopik xarakter daşımaqla, onların həyata keçirilməsi, böhrandan xilas olmaqdan da müşkül idi.

Bu dövrdə Persiya diplomatiyası da yunan polislərini zəiflətmək məqsədilə müxtəlif hərbi konfliktləri qızışdırırdı. Onlar Sparta ilə antisparta koalisiyasının bir-birini taqətdən salmasına can atırdılar. Spartalılar da Yunanıstandakı yeni qüvvələr nisbətini nəzərə almadılar və m.ə. 371-ci ildə Beotiya ərazisinə soxuldular. Beotiya könüllülərinə istedadlı komandalıq edən Epaminond yeni döyüş qaydası düzlənməsini tətbiq etdi və bu düşmən üçün gözlənilməz oldu. Onun yeni taktikası əyri uc adlanırdı, mərkəzi və sağ flanqı zəiflətmə hesabına sol cinahdakı cərgələr müqayisə nisbətində altı dəfə artırılırdı. Bura "müqəddəs drujina" da əlavə olunurdu. Bu güclü yumruq düşmənə tərəf irəli çıxırdı ki, ilk zərbəni vursun. Beotiyalılar çətinlik çəkmədən spartalıların dağılmış flanqlarını dəf etdilər və onlar geri çəkilməyə başladılar. Bu döyüşün taleyini həll etdi. Spartalıların bu məğlubiyyəti ciddi nəticələrə səbəb oldu. M.ə. 4-cü əsrin ortalarında Yunanıstanda bir mərkəz tapılmayanda, Makedoniya həmin ölkəyə çevrildi, Yunanıstanda hegemonluğa iddia edən inkişaf etmiş, güclü dövlət oldu.

## Makedoniyanın yüksəlişi və Yunanıstanda ağalığı

Balkan yarımadasının Frakiya və Makedoniya kimi iki geniş vilayətində eyni adlı tayfalar yaşayırdı. Makedoniya Egey hövzəsinin şimali-qərbində, Fessaliyadan şimalda və Frakiyadan cənubi-qərbdə yerləşən geniş ərazini tuturdu. Mardoni və Kserks Balkana hücum edəndə Makedoniya çarı I Aleksandr (m.ə. 498-454-cü illər) Persiya çarının hakimiyyətini tanımağa məcbur oldu, ona qoşun və ərzaq verdi, m.ə. 5-ci əsrin sonunda çarlıq edən Arxelay hərbi işi xeyli qaydaya saldı və Fukididin dediyi kimi, "o, ondan əvvəlki səkkiz çardan daha çox iş gördü". O, yeni paytaxt Pellanı saldı. Makedoniyanın güclənməsində, onun yunan dünyasında ən qüvvətli dövlətə çevrilməsində görkəmli siyasətçi, diplomat və sərkərdə olan çar II Filipp xüsusi rol oynadı. O, öz sələflərinin Makedoniyanın möhkəmləndirilməsi və dövlət idarəçiliyinin mərkəzləşdirilməsi sahəsindəki işini başa çatdırdı.

Çar II Filipp Makedoniyada hərbi işi yeni səviyyəyə qaldırdı. O, bir neçə il Yunanıstanda, Fivada yaşamışdı və yunan hərbi təşkilatının üstünlüklərinə və nöqsanlarına yaxşı bələd idi. O, öz ordusunu azad Makedoniya əkinçilərindən komplektləşdirirdi, onlar bir neçə illiyə ərazi dairələrindən yığılır və

yaxşı xüsusi təlim və hazırlıq keçirdilər. O, süvari dəstələrinin əhəmiyyətini gücləndirdi. O, öz ordusunda daimi məşqlər sistemini tətbiq etdi. Filipp Orta Yunanıstanın işlərinə qarışmaqla işğal siyasətinə keçir. O, qəddarlıqdan da çəkinmirdi, əsir götürülmüş 3 min fokidiyalının dənizdə batırılmasına, onların komandirlərinin cəsədlərini isə çarmıxa çəkdirməyə əmr vermişdi. Böyük yunan şəhərlərindən biri olan Olinf bütünlüklə dağıdıldı. Filipp yaltaqlığı, rüşvəti, vəd verməyi üstün tuturdu. O, siyasətçi kimi həqiqi makiavellist idi, şərait tələb edəndə sərt olurdu.

O, yunan şəhərlərində öz tərəfdarlarına hər cür köməklik göstərirdi. Onlardan çoxuna Makedoniya ağalığının qurulması faydalı idi. Belə əhval-ruhiyyənin bütün Yunanıstandakı və xüsusən Afinadakı ifadəçisi nüfuzlu Afina natiqi İsokrat idi. İsokrat parçalanmış Yunanıstanın birləşdirilməsi naminə Makedoniyanın hegemonluğunu səmimi qaydada qəbul edirdi. Bu Persiya dövlətinə qarşı birgə müharibə üçün vacib idi. İsokrat yunan dünyasında Makedoniyanın hegemonluğu tərəfdarlarının ideya ilhamçısı idi. Bu mövqeyin tərəfdarları Filippin hücum etdiyi Afinaya hərbi kömək göndərilməsini dayandırdılar. Filipp isə yaxşı hədiyyələr verərək onları satın alırdı. Görkəmli natiq Demosfen bu qrupların rəhbərlərindən biri olan Esxinə müraciət edərək, demişdi: "Siz qızıl alıb, vətəni satdınız... Bir satqın kimi o, bir neçə dəfə ölümə layiqdir". Demosfen böyük natiq olmaqla yanaşı, antimakedoniya siyasi qrupuna rəhbərlik edirdi. Onun Filippə qarşı siyasi çıxışları, sonralar "Filippika" adlanmışdı və həmin çıxışlarda Demosfen Makedoniya çarının təcavüzkar niyyətlərini ifşa edirdi, yunan polislərinin bir-birindən ayrılmasına yönəlmiş fitnələrini və intriqalarını açıb göstərirdi. Onun fərasətli hərəkətləri öz bəhrələrini verdi. Bir çox vilayətlər fikir ayrılığına son qoyaraq, Afinanın tərəfinə keçdi. Adamları satın almaqda ittiham edilərək Esxin həbs edildi, lakin o, bəraət ala bildi.

Filippin iki şəhəri mühasirəyə alması uğursuzluqla başa çatdıqdan sonra, m.ə. 338-ci ildə Xeroney döyüşündə qələbə çaldı. Bu vuruşda onun oğlu gənc Aleksandr da fərqlənmişdi. Bir il sonra Korinfdə keçirilən konqressdə yunan şəhərlərinin Ellin ittifaqı təşkil edildi, Filipp isə onun hegemonu elan edildi.

M.ə. 336-cı ildə II Filipp Korinf konqressinin qərarlarını icra etmək məqsədilə Kiçik Asiyaya 10 min nəfərlik ordu göndərdi. Çar özü başqa arvad almışdı və qızını Epir çarına ərə vermək üçün hazırlıq görürdü. Arvadı Olimpiada və oğlu Aleksandr acıq edib sarayı tərk etmişdilər. Bayram vaxtı Filip-

pi Makedoniya kübarı öldürdü. Bu ölümdə çarın arvadı və Aleksandrın anası Olimpiadanın əli olduğu güman edilirdi. Atasının ölümündən sonra Aleksandr geri qayıtdı. Filippin oğlu və varisi 20 yaşlı Aleksandr çar elan edildi və o, eyni zamanda Ellin ittifaqının hegemonu oldu. Aleksandrın fəaliyyəti və yürüşləri ilə yunan tarixinin yeni mərhələsi - ellinizm epoxası başlandı.

## Böyük Yunanıstan və Qara dəniz ətrafı

Böyük Yunanıstan və Qara dəniz ətrafı Egey hövzəsi polislərinin tarixi ilə sıx çulğaşmışdı. Yunan dünyasının ucqarlarında böyük dövlətlər meydana gəldi, onlar bu regionda ağalıq etməyə iddia edirdilər. Qərbdə belə dövlətlər qüdrətli Karfagen, etrusklar, m.ə. 4-cü əsrdən başlayaraq Roma respublikası idi. Siciliya şəhərləri qüdrətli Karfagenin ciddi rəqibinə çevrildi.

M.ə. 415-413-cü illərdə Afina Siciliyaya böyük qüvvələr göndərdi. Sirakuza və onun müttəfiqləri ilə müharibə çox qızğın getdi. Sirakuza bu yorucu müharibədən qalib çıxdı, 200 triyerdən ibarət olan Afina donanması darmadağın edildi. Sirakuzanın donanma komandanı Navarxın bu işdə böyük rolu var idi. Əsasən m.ə. 4-cü əsrin əvvəlində 40 il Sirakuzanı idarə edən Dionisi Karfagen təhlükəsini azaltmaq üçün çox iş gördü. O, öz təkbaşına hakimiyyətini möhkəmləndirmək qayğısına da qalırdı və tiran kimi özünün 30-35 minlik muzdlu dəstələrinə arxalanırdı. Onun 100 min nəfərlik ordusu və iri donanması var idi. Dionisi bir neçə dəfə güclü Karfagen ordusunu məğlub etdi. O, Sirakuzanı Yunanıstanın özünəməxsus mədəni mərkəzi etməyə cəhd göstərirdi. Özünü incəsənət və ellin himayəçisi kimi qələmə verərək, öz sarayına görkəmli yunan şairlərini, rəssamlarını, filosoflarını, alimlərini dəvət edirdi. Görkəmli yunan filosofu Platon bir müddət onun sarayında yaşamışdı.

İtaliyanın cənubunda iri şəhərlərdən biri olan Tarent bu dövrdə inkişaf etməyə başlamışdı. O münbit torpaqları olan geniş ərazini tutmuşdu, burada yüksək taxıl, üzüm və zeytun məhsulu götürürdülər. Tarentlilər birincilər sırasında yüksələn Romanın əhəmiyyətinə qiymət verib, özünü təcavüzdən qorumaq üçün onunla müqavilə bağladı. Roma onun müstəqilliyinə hörmət göstərəcəyini vəd edirdi.

Qara dəniz ətrafındakı yunan şəhərləri, qədim yunan polisləri dünyasının üzvi hissəsi idi. Onların içərisində Sinopa mühüm rol oynamağa başladı və onun sakinləri cənubi-şərq sahillərini fəth etməyə başladılar. Şəhər Afinanın demokratik idarəçiliyini götürmüşdü, burada Afina kolonistləri yaşayır-

dılar. Tavriya Xersonesi də öz ərazilərini böyütdü və Krımda güclü yunan mərkəzinə çevrildi. Geniş ərazisi olan Bospor dövləti də xeyli iqtisadi resurslara malik idi. Bura Qara dəniz ətrafının və Balkan Yunanıstanının taxıl anbarı idi. Afina Bospor taxılının ixracında üstün hüquqlar əldə etmişdi. Buradan Afinaya ildə 1 milyon puda yaxın taxıl daşınırdı. Qara dəniz ətrafı skiflərlə yaxın əlaqə saxladığından əhalinin tərkibinə skiflər daxil olurdu.

## Klassik dövr Yunanıstanının mədəniyyəti

M.ə. 5-4-cü əsrlərdə yunan mədəniyyəti qədim dünyanın ən inkişaf etmiş mədəniyyətlərindən birinə çevrildi. Ədəbiyyat, incəsənət və fəlsəfə müstəsna inkişaf səviyyəsinə yüksəldi. Bu mədəniyyətin humanist istiqamətliliyi, dünya mədəniyyəti xəzinəsinə verdiyi əvəzedilməz töhfələr min illər keçsə də öz əhəmiyyətini və qiymətini itirmədi. Demokratik quruluşu olan polislərdə mədəni yaradıcılıq daha məhsuldar olmağı ilə seçilirdi. Bu cəmiyyətlərdə vətəndaşların siyasi təfəkkürü inkişaf edirdi, həm də natiqlik sənəti çiçəklənirdi. Məhz bu dövrdə Yunanıstanda dünya natiqlik sənəti tarixinə daxil olmuş Perikl, Kleon, İsokrat, məşhur Demosfen kimi şöhrətli natiqlər meydana çıxdı.

Burada həm də qədim Şərqdəki və Misirdəki kimi qüdrətli kahinlər institutunun olmaması fikrin və incəsənətin inkişafını əzici buxovlardan azad edirdi. Yunanıstandakı din uzaq qonşularında olduğu kimi ideya səltənətinə ağalıq etmək eşqinə düşmürdü və bu yaradıcılıq üçün xeyli sərbəstlik yaradırdı. Burada həm də savadlılıq geniş yayılmışdı, demokratik cəmiyyətlər savadlılığa geniş qapılar açırdı. Vətəndaş hüquqlarından istifadə etmək üçün savad mühüm amilə çevrilirdi. Axı vətənin taleyini həll etmək üçün yüksək şüurluluq tələb olunurdu, buradakı demokratik təsisatlar, dövlətin idarə olunmasında vətəndaşların bərabər qaydada iştirak etməsi savadlılığı vacib amilə çevirirdi. Tiraniyada cəhalət idarəetmənin dayağı idisə, demokratik dövlətdə savad, hadisələri anlamaq və düzgün qiymət vermək ən vacib vasitələrdən biri hesab olunur. Ən mühüm etik tələb: "Özünü dərk et, artıq heç nə" idi. Məşhur Orfeyin mahnısında deyilirdi ki, bədən *(soma)* ruh üçün qəbirdir *(sema)*. Yunan mütəfəkkirləri üçün də yazdıqlarının oxunması və onlar barədə səriştəli mülahizə yürüdülməsi mühüm stimul rolunu oynayırdı.

Yunan mədəniyyətinin inkişafına təbii şərait də yaxşı təsir göstərirdi. Yunan təbiəti heç də insan üçün o qədər də əliaçıq deyildi və həyat nemətlərini heç də asanlıqla bəxş etmirdi, əksinə, həyatın zəruri şərti kimi ondan

əməksevərlik tələb edirdi. Yunan təbiətinin bir hissəsi isə dəniz idi. Dəniz yunanların həyatında mühüm rol oynayırdı, onların bir çoxu təkcə sahillərdə deyil, həm də adalarda yaşayırdılar. Dəniz yunan üçün həm qida mənbəyi, həm də onu başqa xalqlarla birləşdirən yol idi. Quru yolların inkişaf etmədiyi vaxtlarda dəniz sahildə yaşayan xalqlar üçün ideal nəqliyyat vasitəsi, ticarət arteriyası idi. Ticarət yunanların iqtisadi inkişafında əvəzolunmaz rol oynayırdı. Bu əlaqələrlə ölkəyə təkcə ərzaq və xammal axmırdı, həmçinin qarşılıqlı zənginləşməyə, mədəni nailiyyətlərin mübadiləsinə şərait yaradırdı. Dəniz yunan üçün yaşayış və düşüncə tərzinin bir hissəsi, tədqiqat obyekti, elmi və praktiki biliklərin sınaq meydanı idi. Bu sirrli stixiyanın öhdəsindən gəlmək üçün həm igidlik, həm də bu məsələlərdə səriştəlilik və xüsusi bilik tələb olunurdu. Həm gəmi sürməyi bacarmaq lazım gəlirdi, həm də uzaq məsafələri qət etmək üçün yeni tip gəmilər tələb olunurdu. Dəniz yunanların tarlası, zəmisi, həm də özünü təsdiq etmə meydanı idi. Dənizdə uzaq məsafələrə üzmək, naviqasiya biliklərinə yiyələnməyi, dəniz axınının və küləyin istiqamətini tutmağı və gecələr səmanı müşahidə etməklə istiqaməti düzgün müəyyən etmək naminə astronomiya biliklərini mənimsəməyi tələb edirdi. Belə bir şəraitdə yaşayan yunan ən yaxşı biliklərə malik olmaqla yanaşı, təbiətin uşağı olaraq qalmalı idi. Onun dünyagörüşü üçün, bütün yunan mədəniyyəti üçün inkişaf etmiş təbiət hissi mühüm əhəmiyyət kəsb edirdi, onun mütənasibliyi və təbii harmoniyası mədəni yaradıcılığın bütün istiqamətlərində: musiqidə, fəlsəfədə, arxitekturada, heykəltəraşlıqda və ədəbiyyatda özünü büruzə verirdi.

Qədim yunan mədəniyyəti dünya sivilizasiyasının inkişafında müqayisə olunmaz rol oynadı. Bu mədəniyyətin nəcib xüsusiyyətlərindən biri bu idi ki, sonrakı əsrlər boyu da bütün bəşəriyyətə bədii həzz verməkdə davam etdi, əl çatmayan nümunəyə çevrildi. Bəşəriyyətin öz uşaqlığı dövründə yaratdığı incilər öz qiymətini itirmədi, əbədi heyranlıq obyektinə çevrildi. Yunanlar dünya mədəniyyəti üçün elə bir bünövrə yaratdılar ki, onun üzərində ucaldılan binaların üslubu, forması dəyişsə də, bünövrə öz əbədi möhkəmliyini, əvəzedilməzliyini qoruyub saxlaya bildi.

Din özü də yunan mədəniyyətinin üzvi hissəsi olmaqla yanaşı, onun vəziyyətinə və quruluşuna böyük təsir göstərdi. Din bədii yaradıcılığın əsas baxışlarını, əxlaqi xüsusiyyətlərini, forma və istiqamətini müəyyən etdi. Yunanlar öz əsatirlərində bu gün də qiymətini itirməyən heyranedici mifik obrazlar qalereyası yaratdılar. Bu miflərdə allahlar və insanlar yaxın əlaqədədirlər, dünyadakı qaydalara öz təsirlərini göstərirlər. İnsanlar sı-

naqdan çıxmaq bacarıqlarına görə böyük fərasət və iradə göstərirlər, allahların yaratdıqları sarsıntılara baxmayaraq, nəticədə öz talelərini həll etmək iqtidarında olurlar.

Yunan polislərinin əksəriyyətində şəhərin himayəçisi olan baş allahın şərəfinə bayramlar düzəldilirdi. Bu, polisin gücünün və varlılığının nümayişinə, onun nailiyyətlərinin və uğurlarının baxışına çevrilirdi. Bu bayramlardan ən məşhuru Olimpiya bayramları və Olimpiya oyunları idi, onlar dörd ildən bir keçirilirdi. İlk olaraq onlar allah Zevsin şərəfinə kultun ənənəvi bir hissəsi idi. Hətta yunan tarixinin mühüm hadisələri də bu Olimpiya oyunlarının keçirilmə dövrü ilə tarixlənirdi. Digər bayramlarda teatr tamaşalarının rolu artdı. Faciə və komediya formasında göstərilən tamaşalardan məşhur yunan teatrı yarandı. Teatr ictimai həyatda, qədim yunanların tərbiyəsində və bütün mədəniyyətində böyük rol oynadı.

Yunan teatrları şəhərin bütün əhalisini nəzərdə tutaraq tikilirdi və burada on minlərlə yer olurdu. Afinadakı Dionus teatrında 17 min yer var idi, Efesdəki teatra isə 60 min tamaşaçı yerləşirdi. Teatrlarda böyük faciə ustaları Esxilin, Sofoklun və Yevripidin pyesləri, Aristofanın ölməz komediyaları oynanılırdı.

Esxil (m.ə. 525-456-ı illər) yunan faciəsinin atası hesab olunur. O, Persiya ilə qalibiyyətli müharibələrin şahidi olmuşdu. Onun 90 faciə yazdığı güman edilir, onların yalnız yeddisi bizim dövrə gəlib çıxmışdır. Onun "Perslər", "Buxovlanmış Prometey", "Aqamemnon" pyeslərində yunan tarixinin və əsatirlərinin səhnələri canlandırılır. Bu əsərlərdə mərdlik, iradə, vətənpərvərlik vəsf edilir. Dramaturq şərq despotu Kserksin təkəbbürlülüyünü və şöhrətpərəstliyini  açıb göstərir.

Afinadan olan Sofoklun isə 120 faciə yazdığı güman edilir, onlardan da yalnız yeddisi salamat qalmışdır. Onun "Çar Edip", "Antiqona", "Medeya" faciələri dünya teatrlarının səhnələrindən bu gün də düşmür. Fiva çarı Edip öz xalqı tərəfindən nə qədər sevilən və ədalətli olsa da, o, taleyin və allahların əlində bir oyuncağa çevrilir. Allahlar onu cinayətə sövq edirlər, öz atasını öldürür, öz anasına evlənir, bu qadının doğduğu uşaqlar həm onun övladları, həm də qardaşı və bacısıdır. Edipə bu sirr agah olduqda, o, allahların qəddarlığına qarşı üsyan edir və özünə qəsd edir, özünü kor edib, ölkəsindən çıxmağı qərara alır və Yunanıstanda dolaşmağa başlayır. Bunlarla o, qismətin onun üzərinə qoyduğu cinayətlərdən özünü qorumağa çalışır.

Antiqona isə Edipin qızı olmaqla, sonrakı çarın ədalətsiz qərarına çıxır və qardaşı Poliniki ümumi qaydada dəfn edir. Antiqona insanlıq borcunu hansı-

sa ağılsız qadağadan üstün tutur və həyatdan getsə də, öz mövqeyindən peşiman olmur.

Yevripidin isə 92 pyesindən 18-i bizim dövrə gəlib çıxmışdır. Onun "Medeya" pyesi öz qəhrəmanının ziddiyyətli ehtirası ilə bu gün də insani hissləri coşdura bilir. Aristofanın "Lisistrata" pyesində isə Afina qadınları sülh bərpa edilənə qədər öz ərləri ilə intim yaxınlıqdan imtina edirlər.

Arxitektura və incəsənət də bu dövrdə yüksək inkişaf səviyyəsinə çatdı. Arxitekturanın inkişafı şəhərsalma nəzəriyyəsi və praktikası ilə sıx bağlı idi. Nizamlanmış şəhərin əsas müddəaları Miletdən olan Hippodam tərəfindən işlənmişdi. Hippodam prinsipi şəhərin ərazisində düz bucaqlar altında kəsilən küçələr boyu düzgün yaşayış məhəllələrinin salınmasını nəzərdə tuturdu. Şəhərin mərkəzi ayrılırdı və orada ictimai təyinatlı binalar: məbədlər, vəzifəli adamlar üçün yerlər, gəzinti üçün portiklər tikilirdi. Şəhərdə teatr, stadion və gimnaziya tikilməsi nəzərdə tutulurdu. Kanalizasiya tullantıları şəhərdən kənara çıxarılırdı. Dini mərkəz isə akropol hesab olunurdu, burada baş allahın məbədi tikilirdi. Ən təntənəli qurban verilməsi də burada icra edilirdi.

Hippodam prinsipləri yalnız yeni şəhər salındıqda həyata keçirilə bilərdi. Bu, arxitekturanın inkişafı üçün də yeni üfüqlər açırdı. Yunan memarlığı dünya arxitekturasının böyük nailiyyəti olan order sistemindən istifadə edirdi. Bu sistem daha da inkişaf etdirildi, onda qoyulmuş imkanları xeyli genişləndirilə bildi. Bəzi binaların tikintisində müxtəlif orderlərin qarışdırılmasına əl atırdılar. Bu arxitektura üslublarının bacarıqla qarışdırılması inşaatçıların imkanlarını xeyli genişləndirdi, onlara yeni incilər yaratmağa imkan verdi. Bu incilərin içərisində Afinadakı Afina-Pallada Parfenon məbədi öz möhtəşəmliyinə və sadə monumentallığına görə UNESCO-nun simvolu kimi qəbul edilmişdir.

Heykəltəraşlıq sahəsində ellin ustalarının nailiyyətləri də olduqca böyükdür. Yunanlar binaları, xüsusən məbədləri müxtəlif heykəllərlə bəzəyirdilər. Yunanlar heykəlləri artıq mərmərdən qoyurdular. Heykəllər şəhər meydanlarında, qəbirlərin üstündə qoyulurdu, ümumən heykəllərin təyinatı olduqca müxtəlif idi - dini, estetik, ideoloji. Allahların obrazları da insanlaşdırılırdı, onlara ideal xüsusiyyətlər verilirdi. Onlar göy sakinlərindən daha çox öləri insanları andırırdılar. Bu vaxt həm də bürüncdən heykəl tökülməsinə öyrəndilər. O dövrün ən görkəmli heykəlləri sırasına Fidinin Olimpiyadakı məbəd üçün yaratdığı və yeddi möcüzədən biri hesab olunan Zevs heykəli, Afinadakı Parfenon məbədi üçün qoyduğu Afina-Pallada heykəli daxil idi.

Heykəltəraşlar Miron, Dorifor, Poliklet, Praksitel kamillikdən xəbər verən obrazlar yaratmışlar.

Təbiətin, insan cəmiyyətinin və təfəkkürünün inkişaf qanunları haqqında elm olan fəlsəfə həmin vaxtlarda demək olar ki, bütün elmləri əhatə edirdi. Onun özünün hələ xüsusi tədqiqat predmeti müəyyənləşməmişdi. Naturfilosofiya ənənələri qalırdı. Anaksaqor kimi filosoflar həm də böyük alimlər idi. O, astronomiya sahəsində bir sıra qiymətli mülahizələr irəli sürmüşdü, ulduzları günəş də daxil olmaqla qızmış kürəşəkilli kütlə hesab edirdi. Empedokl bitki və heyvan aləminin ən sadə orqanizmlərdən yaranması və təkamül etməsi nəzəriyyəsini inkişaf etdirmişdi. Parmenid bütün idealist sistemin sonralar əsası olacaq idrakla varlığın oxşarlığı ideyasını irəli sürmüşdü.

Sofistlər - müdriklik müəllimləri yeganə tanınan cərəyana mənsub olan filosoflardan Protaqor və Qorqi idrak və insan biliklərinin ümumi xarakter daşıması problemlərini tədqiq edirdilər. Onların fikrinə görə, idrakın aləti insanın hiss etməsi idi, zəkanın roluna isə elə qiymət vermirdilər. Onlar əbədi həqiqətləri, qoyulmuş ənənələri, o cümlədən dini ehkamları, məcburi davranış normalarını inkar edirdilər. Protaqor (481-411-ci illər) "insan hər şeyin ölçüsüdür" kimi məşhur bir fikri elan etmişdi. Lakin həm də o, yazırdı ki, insan "taleyin ağası deyildir". Sonra Levkipp və Demokritlə Sokrat və Platonun bir-birinə əks olan fəlsəfi sistemləri və Aristotel fəlsəfi nəzəriyyəsi meydana gəldi. Levkipp və Demokrit dünyanın quruluşunun atomist nəzəriyyəsini irəli sürdülər, onlara görə dünyanın əsasını çox kiçik və bölünməyən maddi hissəciklər olan atomlar təşkil edir. Atomlar fasiləsiz hərəkətdədir və hərəkət materiyanın əsas xassəsi kimi qəbul edilirdi. Demokritə görə idrak prosesi iki mərhələdən keçir, birinci pillə - ilkin, tam olmayan bilik kimi hiss etmədir, ikincisi isə daha yüksək pillə olub, ağlın köməyi ilə əldə edilən və hiss etmələri təhlil edən həqiqi bilikdir.

Fəlsəfi idealizmin əsasını qoyan sistemi Sokrat (m.ə. 471-399-cu illər) və onun şagirdi Platon (m.ə. 427-347-ci illər) yaratmışdılar. Sokratdan heç bir əsər qalmamışdır, onun fəlsəfi müddəaları ilə tanış olmaq mənbəyi, şagirdləri olan Ksenofontun və Platonun əsərləridir. Platon həm də öz müəlliminin fəlsəfi fikirlərini inkişaf etdirərək, bitmiş idealist nəzəriyyə yaratmışdı. Platona görə əbədi mövcud olan ilahi zəka harmonik qurulmuş ideal dünya yaradır, bu dünya insandan asılı olmamaqla nə hiss etmələrlə, nə də praktiki ağılla dərk edilə bilməz. Maddi, bizi əhatə edən əşyalar dünyası yalnız fövqəl hiss olunan dünyanın sönük təkrarıdır, o xaotikdir, ziddiyyətlidir, nankor və ədalətsizdir. Hər bir real əşya, məsələn, at və ya ev yalnız ümumiyyətlə

at və ya ev ümumi ideyasının qeyri-mükəmməl və təsadüfi reallaşdırılmasıdır. Filosofun əsas vəzifəsi isə ilahi ideyaların həqiqi dünyasını insan ağlının daxili dərinliklərini seyr etmək yolu ilə dərk etməkdir. O, özünün "Dövlət" və "Qanunlar" əsərlərində polis dövlətinin mahiyyətini və müxtəlif formalarını araşdırır, ideal dövlət quruluşu və sosial qayda-qanun barədə öz layihəsini verir. Platona görə ideal polis ciddi ierarxik sosial və dövlət quruluşuna malik olmalıdır. Bütün əhali üç bağlı təbəqəyə bölünür - hökmdar-filosofların rəhbər təbəqəsi, dövlətin mühafizəçiləri olan hərbçi təbəqə, işçilər (sənətkarlar, əkinçilər, tacirlər) təbəqəsi və qullar.

Staqiradan olan məşhur yunan filosofu Aristotel (m.ə. 384-322-ci illər) Platonun şagirdi olmuşdu, lakin sonra onun görüşlərindən uzaqlaşaraq öz fəlsəfi sistemini yaratmışdı. Aristotel 17 yaşı olanda Akademiyaya gəlmişdi və burada 20 il ərzində Platonun ölümünə qədər qalmışdı. Sonra o, Akademiyanın başçısı seçilmiş, paxıllığa görə, həm də yad sakin-meteks olduğundan bu vəzifəni saxlaya bilməmişdi. Kiçik Asiyadakı Assaya, sonra isə Mitilenaya getmişdi. Burada o, dəniz bioloji resurslarını öyrənmək üçün geniş imkanı qazandı. 343-342-ci illərdə Filipp onu oğlu Aleksandr üçün müəllim tutdu, 335-ci ildə isə o, Afinaya qayıtdı ki, Aleksandrın himayəsi altında öz məktəbinin əsasını qoysun. Bu məktəb Litsey və ya Peripat (örtülü gəzinti) adlanırdı, ona görə də fəlsəfi məktəbin şagirdləri peripatetiklər kimi tanınır. 323-cü ildə Aleksandrın ölümündən sonra Afinadakı anti-Makedoniya reaksiyası Aristoteli Xalkisə köçməyə məcbur etdi və orada da o, sonrakı ili öldü.

Aristotel böyük ensiklopedist alim idi, fizika, astronomiya, meteorologiya, təbabət və zoologiya sahəsində dərin tədqiqatlar aparırdı, öz ellin müşahidələri əsasında fəlsəfi sistemini qurmuşdu. Aristotelə görə, dünyanın əsasını maddi varlıq təşkil edirdi, lakin o, materiyaya passiv element kimi baxırdı. Materiya, inkişaf etmək üçün yaradıcı impuls almalı idi, bu təkanı kənardan ilahi zəka etməli idi. Yalnız bu ilk təkandan sonra materiya inkişaf edir və onda əvvəldən qoyulmuş əşya formasını alır. Bu formaya çatmaq cəhdi bütün hərəkətin son məqsədidir. Təfəkkürün inkişafı və metodları barədəki təlimdə, Aristotel inkişafı çoxtərəfli proses kimi başa düşür, bu vaxt mahiyyət, keyfiyyət, kəmiyyət və yer dəyişir. Buradan hərəkətin formaları: yaranma və məhv olma, böyümə və kiçilmə, keyfiyyətin dəyişilməsi və məkanda yerdəyişmə meydana gəlir. O, formal məntiqin banisi idi, bu ardıcıl nəticə çıxarma sistemi olub əsaslandırılmış müddəalara gətirib çıxardırdı.

Aristotel də öz müəllimi kimi dövrünün mühüm sosial-siyasi problemlə-

rindən yan keçə bilməzdi. Aristotel yazırdı: "İnsan təbiət etibarilə heyvan olub, polisdə yaşamağa meyl edir". "Biz ancaq özünə məxsus olan vətəndaşları təqdir etməməliyik, biz daha çox dövlətə məxsus olan vətəndaşları təqdir etməliyik". O, öz şagirdləri ilə birlikdə 158 yunan polisinin dövlət quruluşunu öyrənmişdi və bu tədqiqatları özünün "Siyasət" traktatında cəmləmişdi. Polis nəcib ideyaları təcəssüm etdirirdi. Bu əsərdə dövlət haqqında təlimin nəzəri əsasları, həmçinin dövlətin mahiyyəti, ideal polis quruluşunun müxtəlif forma və konsepsiyaları təhlil edilir. Onun düzgün dövlət formaları: monarxiya, aristokratiya və politiya; və düzgün olmayan formalar: tiraniya, oliqarxiya və oxlokratiya barədəki fikirləri olduqca maraqlıdır. Tarixi inkişaf prosesində düzgün formalar düzgün olmayanlara keçirlər.

İnsan şəxsiyyəti qədim yunanları həmişə maraqlandırmışdı. Homerin "İliada"sında insan xarakterləri öz əksini qəhrəmanların uşaq lovğalığında tapır, onlar qəribə adlara və adətlərə malikdirlər. Allahlar bu qəhrəmanları marionetkalar kimi hərəkət etdirirlər. Digər tərəfdən allahlar və qəhrəmanlar çox sayda idilər və mənən əxlaqsız idilər. Bütün bunlarla yanaşı "İliada" Avropa ədəbiyyatının ilk incisi hesab olunur və yunan dühasının digər məhsulları da qərb baxışının bünövrə əsasları idi.

Müasir adamlarının gözəllik baxışları da xeyli dərəcədə yunan incəsənəti ilə formalaşmışdır. Siyasi terminlərin çoxu da yunan mənşəlidir. Daha vacibi odur ki, qanun altında dövlətin hər bir vətəndaşının hüquq və vəzifələrə malik olması konsepsiyası yunanlara məxsus idi. İndiki ədəbi formalar və standartlar birbaşa yunan ədəbiyyatından gəlir və yunan mifologiyası müasir şairlər, psixoloqlar və digər mütəfəkkirlər üçün xəzinə rolunu oynayır. Məntiq, analiz kimi müasir filosofların və alimlərin istifadə etdiyi metodlar qədim Yunanıstanda doğulmuşdur. Bunları cəmlədikdə, ellinist sivilizasiyası qərb sivilizasiyasının ilk böyük fazası idi.

Bizim elmlər öz başlanğıcını əsasən təkcə yunanlardan götürürlər. Romalıların, ərəblərin və digər sonra gələn xalqların onlara əlavə etdikləri o qədər də böyük olmamaqla yanaşı, təkcə iri elmi kəşflər istisna olmaqla çox mühüm əhəmiyyət də daşımır. Lakin təəssüflə qeyd etmək lazımdır ki, bəzən zaman da, çay kimi öz axınında boş və yüngül olanları uzun məsafəyə aparır, iri kütləli və ağır olanları batırır. Ona görə də antik fəlsəfə və incəsənət uzun əsrlər boyu unudulmuş qalmışdı, yalnız İntibah onlara yeni nəfəs verə bildi. Misir kahinlərinin yunanlar barədə dediyi: "Onlar həmişə uşaq olaraq qalacaqlar", onlarda "nə qədimliyin elmi, nə elmin qədimliyi olmayacaqdır" sözləri nə qədər ədalətsiz olsa da, bu sözlərdə həm də tək bir xüsu-

siyyətə görə dərin məna vardır. Doğrudan da onlar uşaqlara məxsus olan bütün xasiyyətlərə malik idilər, daim danışmağa hazır idilər, fəaliyyət göstərməyə qadir deyildilər. Onların elmi sözlərdən ibarət idi və tətbiq olunmaqda barsız oldular. Digər tərəfdən keçmişin və gələcəyin dərki o vaxtlar məhdud və səthi idi. Tarix özü çətinliklə min ili əhatə edirdi, heç tarix adlanmağa da layiq deyildi, çünki onun materialı təmsillərdən və keçmişin əhvalatlarından ibarət idi. Qədim yunanlar yer üzünün az hissələrinə və ölkələrinə bələd idi, bütün şimal xalqlarını skiflər, bütün qərb xalqlarını keltlər adlandırırdılar. Afrikada əsasən Misiri, Asiyada isə Qanq çayından qərbə tərəf olan ölkələr haqqında məlumata malik idilər.

Elmi metodlar haqqında böyük ingilis filosofu Frensis Bekonun düşüncələrinə əsaslanaraq demək olar ki, bu metodlar empiriklər və ya doqmatiklər tərəfindən öyrənilmişdir. Empiriklər qarışqa kimi yalnız yemi topaya yığmağı və yığılanları yerində istehlak etməyi bacarırlar. Doqmatiklər isə, hörümçəklər kimi, özlərindən parça toxuyurlar. Arılar isə onlarla müqayisədə öz fəaliyyətlərində aralıq yeri tuturlar, onlar qarışqa kimi bağların çiçəklərindən, tarlalardan öz materialını yığır, lakin onları öz təbii qabiliyyətinə uyğun olaraq dəyişdirir və daha yararlı olmaq üçün təmizləyir. Həqiqi elmi iş də buna bənzəyir, hörümçək kimi özünün idrak mənbəyi hesab etmir və ya qarışqa kimi çoxlu təcrübi faktları bir-birinin üstünə yığmır, onları şəklini dəyişmiş və dəyişdirilmiş qaydada təqdim edir. Qədim yunanlar da belə elmi axtarışların böyük müxtəlifliyi ilə məşğul olub, onları bəşəriyyət üçün dərk edilən mahiyyətə və formaya salmaqla, bəşər sivilizasiyasının inkişafında belə bir arı rolunu oynamışlar. Onların dühası həm də, bal yığan arılar öz fəaliyyətləri ilə çiçəklərin mayalanmasına kömək göstərdikləri kimi, gələcək elmi inkişafın yeni ideyalarla mayalanmasına böyük xidmət göstərmişlər. Bəlkə də təkcə elə bu, onların tarixi şöhrətləri üçün kifayətdir.

Qədim yunanların fəlsəfi sistemləri bünövrəsi üzərində qədim Romanın və orta əsrlər Avropasının fəlsəfi fikri inkişaf etdi. Bütün bunlar yunan mədəniyyətinin dünya sivilizasiyasının inkişafına göstərdiyi böyük xidmətləri bir daha sübut edir, sonrakı nəsillərin mədəni həyatının inkişaf istiqamətlərində bu mayanın heç vaxt sönmədiyi qənaətinə gəlməmək mümkün deyildir.

# FƏSİL 2
# ELLİNİST SİVİLİZASİYASI

Yunan sivilizasiyası m.ə. 431-ci ildən 338-ci ilə qədər faktiki olaraq fasiləsiz davam edən müharibələrdən və onların siyasi nəticələrindən ciddi surətdə zəifləmişdi, onun xilası Böyük Aleksandr tərəfindən mümkün olsa da, öz formasını və mahiyyətini dəyişmək məcburiyyətində qaldı. 4-cü əsrin əvvəllərində Persiya gücləndi, Ellada isə zəiflədi. Aleksandrın atası Filipp Yunanıstanın dağlıq regionunda yarımbarbar tayfanın əsasında düzəldilmiş dövlətin başçısı idi, bütün Yunanıstanı öz iradəsinə tabe etdirmək istəyirdi və Afina-Fiva birləşmiş qüvvələrini məğlubiyyətə uğratmışdı. M.ə. 336-cı ildə Filipp öldürüləndə, taxt-taca Aleksandr çıxdı və öz avtokratik hökmranlığı altında bütün Yunanıstanın konsolidasiyasına nail oldu. Filipp yunanları bir yerə yığmağa çalışdırdısa, onun oğlu sürətlə irəli gedə bildi. Daha iki il sonra isə özünü tam təhlükəsiz hesab etdiyindən, böyük yürüş məqsədilə Asiyaya keçdi. Persiyaya müdaxiləni o, başlıca siyasət irsi kimi qəbul etmişdi. Bu yürüş ona yeni ərazilər verməli idi. Bu iyirmi iki yaşlı sərkərdə ona tanış olmayan qitədə bir-birinin ardınca parlaq qələbələr qazanmağa başladı. Qranik, İss və Qavqamela döyüşləri Aleksandra Persiya imperiyasının böyük bir hissəsini işğal etməyə imkan verdi, artıq Kiçik Asiya, Misir, Suriya, Mesopotamiya və Persiyanın özü onun hökmranlığı altında idi. Sonra o, yürüşünü şərqə doğru davam etdirərək Baktriyanı işğal etdi, İnd çayını keçib Hindistana daxil oldu. Lakin artıq Hindistanda onun qoşunları vuruşmaqdan imtina etdikdə Aleksandr geri qayıtmağa məcbur oldu və m.ə. 324-cü ildə, başqa sözlə Kiçik Asiya sahilinə qədəm qoyduğu vaxtdan on il sonra Babilə qayıtdı. Aleksandr o vaxtkı bütün dünyanı işğal edə bilməsə də, həyatının 33-cü ilində ölən bu adam hərbi yürüşündə 20 min millik məsafə qət etmişdi, dünyanın bu vaxta qədər görmədiyi nəhəng bir imperiyanı idarə etmişdi.

Onun işğallarının nəticəsi kimi ellinistik sivilizasiyanın bünövrəsi yarandı və onun hökmranlığı dövründən bu sivilizasiya az qala xristianlığın yaranmasına qədər ömür sürdü. Ellinistik dünya bütün Şərqi Aralıq dənizi torpaqlarını və Qərbi Asiyanı əhatə edirdi. "Ellinistik" sözü "yunana bənzər" mənasını verirdi, çünki yunan və Asiya elementlərinin birləşməsindən ellinistik sivilizasiya meydana gəlmişdi. Bu dövrdə yunan dili Mesopotamiyada, Suriyada və Misirdə dövlət dili oldu, yunan fəlsəfəsi və mədəniyyəti qərbi Asiyada geniş yayıldı. Ellinistik sivilizasiyanı nəzərdən keçirmək üçün onun

bünövrə elementlərindən biri olan Persiya mənzərəsini öyrənmək vacibdir, çünki ellinistik dünyanın mövcudluğu üçün Böyük Aleksandr və yunanlar vacib olduğu kimi, bu mövcudluq həm də Böyük Kir və persiyalıların ilkin nailiyyətləri olmasa mümkün olmazdı.

## Aleksandrın şərq yürüşü. Aleksandr dövləti

Aleksandrın şərq yürüşünü meydana gətirən bir sıra səbəblər var idi, onu labüd edən cəhətlər həm Balkanda, həm də Persiyada gedən proseslərlə bağlı idi. M.ə. 4-cü əsrdə Əhəmənidlər dövləti tənəzzülə gedirdi, onlar bir sıra torpaqlarını, I Dara dövründəki geniş imperiyanın bir hissəsini itirmişdilər. M.ə. 336-cı ildə, Aleksandrın yürüşündən bir az əvvəl, taxt-taca saray intriqalarının nəticəsi kimi Əhəmənidlərin yan xəttinin nümayəndəsi çıxdı və o, özünü III Dara elan etdi. Bir neçə il sonra o, Əhəmənidlər sülaləsinin məhvinə səbəb oldu və ya Aleksandrın bu cəhdinə öz qorxaqlığı və qətiyyətsizliyi ilə kömək etmiş oldu. Elə həmin il Makedoniya taxt-tacına isə qətlə yetirilən çar II Filippin oğlu Aleksandr çıxmışdı. O, yaxşı tərbiyə görmüşdü, öz dövrünün baxışlarını və mənəvi normalarını mənimsəmişdi, həm də qəddar və şöhrətpərəst idi. O, yunan mədəniyyətinə yaxın idi və filosof Aristotel üç il ərzində onun təhsili ilə məşğul olmuşdu. O, Homerin "İliada"sının vurğunu idi və bu kitab bütün hərbi səfərlərində onu müşayiət etmiş, onu şücaətə ilhamlandırmışdı. Aleksandr həm də dövlət işlərindən yaxşı baş çıxarırdı, atası onu yeniyetmə yaşlarından buna cəlb etmişdi. O, artıq dörd il idi ki, döyüş meydanında da özünü sınaqdan çıxarmışdı, Xeroneya döyüşündə isə süvarilərə komandirlik edəndə, qoşuna səmərəli başçılıq etmək məharətini göstərmişdi. Ümumiyyətlə, onun igidliyinə söz ola bilməzdi, sonralar o vaxtkı dünyanın hökmranı olmasına baxmayaraq özünü döyüşün təhlükəli yerinə atır, şəxsi nümunəsi ilə əsgərlərini ruhlandırır, bir an belə ölümdən qorxu nümayiş etdirmirdi.

Aleksandr heç də sakit bir dövrdə hakimiyyətə gəlməmişdi, Makedoniya hər tərəfdən təhlükə hiss edirdi. O, ilk əvvəl frakiyalıları itaətə qaytarmağı bacardı, sonra üsyan etmiş yunanlarla məşğul oldu. Fiva təslim və viran edildi. Kiçik bir istisna ilə şəhərin sakinləri qul olmağa satıldı. Bununla Aleksandr digər yunan dövlətlərini qorxuzmaq istəyirdi. Persiyaya yürüşə hazırlaşdığından, arxada yunanların üsyan qaldırmaması üçün o, vuruşu dinc vasitələrlə əvəz etdi və Afinanı əfv etdi. Korinf yaxınlığında filosof Diogeni ziyarət etməyə yollandı. Diogen nə hakimiyyətdən, nə də cəmiyyətdən asılı

deyildi, özünəməxsus guşənişin həyatı keçirirdi. Aleksandra və onun təklifinə məhəl qoymayan Diogenin ehtiramsız hərəkətindən qeyzlənməyib, demişdi: "Mən əgər Aleksandr olmasaydım, Diogen olmaq istərdim". Diogenin utanmazlığına görə sonradan onu "it" - *("cyno")* adlandırdılar, bu vaxtdan da "kinik" adı meydana gəldi.

Şərqə yollanan Aleksandr ordusu 30 min piyadadan və 5 min atlıdan ibarət idi. Xəzinədə pul olmadığından, yalnız bir aylıq ərzaq ehtiyatı götürülmüşdü. Adi bir uğursuzluq Makedoniya ordusunun məhvi ilə nəticələnə bilərdi. M.ə. 334-cü ilin yazında Aleksandr öz ordusunu vaxtilə Kserksin ağılsızcasına cəzalandırdığı Hellespont boğazından keçirdi və dəlisovluğuna görə təkrarı olmayan bir yürüşə başladı. Kiçik Asiya sahilinə qədəm basanda o, Troyanın xarabalıqlarına baxmağa getdi və Homerin vəsf etdiyi müharibə qəhrəmanlarının şərəfinə bayram təntənəsi təşkil etdi. Axı Aleksandr öz əcdadı saydığı Axillə səcdə edirdi, bu həm də asiyalılara qarşı müharibəni qalibiyyətlə başa vurmaq istəyinə işarə idi. İndi troyalıları perslər əvəz edirdi.

Persiya satraplarının qoşunları Qranik çayının dik sahilində əlverişli mövqe tutmuşdular. Çayı keçmək çox çətin idi və Aleksandrın sərkərdələri hücumun əleyhinə idilər, lakin o, bu məsləhətlərə məhəl qoymadı və çayı keçməyə başladı. İti sürətli hücum uğurla nəticələndi, onlar xırda qrup şəklində və ya tək-tək sahilə çıxırdılar. Sahildə döyüş başlandı. Nizələr sındığından qılıncla vuruşmağa keçdilər. Perslər dəbilqəsində ağ lələklər olan çara yaxınlaşmaq istəyirdilər, bir mizraq zərbəsi çanağını deşib keçsə də, onu yaralamadı. Bu vaxt iki süvari pers ona hücum etdi. Onlardan biri qılıncla Aleksandrın dəbilqəsinə zərbə vurdu. Aleksandrın döş dayəsinin qardaşı Klit düşmənin birini, çar isə digərini öldürdü. Bu döyüşdə, belə deyirlər ki, perslər 20 min piyada və 2 min atlı itirdi. Guya ki, Aleksandrın itkisi vur-tut 34 adam olmuşdu.

Qranikdəki qələbə Kiçik Asiyada makedoniyalı işğalçıya yol açdı. Kiçik Asiyanın yunan şəhərləri bir-birinin ardınca müqavimət göstərmədən təslim olurdu. Yalnız Milet və Halikarnas perslərin hakimiyyəti vaxtı böyük üstünlüklərə malik olduqlarından, təslim olmaq istəmədilər və bu şəhərlər hücumla götürüldü. Tezliklə Kiçik Asiyanın içəri vilayətləri Aleksandrın əlinə keçdi. Frakiyanın bir şəhərində isə şəhərin əsasını qoymuş çar Qordiyə məxsus olan arabanın dişləsinə zoğal gövdəsi qabıqlarından çətin ilgək vurulmuşdu və onu açan, əfsanəyə görə dünyanın hökmranı olmalı idi. Aleksandr bu Qordi düyününü qılıncla kəsdi və bu gələcək qələbələrin əlaməti idi.

Suriya ilə Kiçik Asiyanın sərhədində iki düşmən ordu bir-birilə qarşılaşdı, bu İss şəhərindən bir az aralı idi. Persiya ordusu sayca çox idi, lakin Dara bundan istifadə edə bilmədi. Aleksandr çarın mühafizəçilərini qaçmağa məcbur etdi. Dara davam gətirə bilməyib, döyüş meydanından qaçdı. Bu perslərin geri çəkilməsi üçün siqnal rolunu oynadı. Persiya ordusu darmadağın edildi. Qaliblərin əlinə iri araba karvanı düşdü, bunlarda çoxlu sərvət var idi. Əsir götürülənlərin arasında Daranın anası, arvadı və iki qızı var idi. Bundan sonra Aleksandrın qoşunları Aralıq dənizinin şərq sahilində yerləşən ölkələr: Suriya, Finikiya və Palestinanı tutdu. Bircə Finikiya şəhəri Tir Persiyanın dəniz ticarətinin xeyli hissəsini əlində saxladığına görə Aleksandra tabe olmaq istəmədi. Şəhər mühasirəyə alınanda, sakinlər onun bir hissəsi olan adaya köçdü. Onlar güman edirdilər ki, makedoniyalıların donanması olmadığına görə, onlar heç nəyə nail ola bilməyəcəklər. Tirin mühasirəsi m.ə. 332-ci ildə altı ay ərzində davam etdi. Aleksandr materiklə adanı birləşdirmək üçün bənd zolağı çəkdi. Böyük qurbanlar verən şəhər təslim olmağa məcbur oldu. Aleksandr sakinləri qul olmağa satdı, bəziləri isə çarmıxa çəkildi.

Tir tutulduqdan sonra Aleksandr Misirə tərəf hərəkət etdi. Misir əhalisi perslərin ağalığından çoxdan cana doymuşdu və makedoniyalılara xilaskar kimi baxırdılar. M.ə. 332-ci ildə Aleksandr Misiri tutduqdan sonra əhalinin hüsn-rəğbətini qazandı. Burada Aralıq dənizinin sahilində yeni Aleksandriya limanını saldırdı ki, Misir beynəlxalq ticarətdə öz rolunu artırsın. Çar özü şəhərin nümunəvi planını cızdı və şərəfinə tikilən Aleksandriya onun adını əsrlərdən əsrlərə keçirərək əbədiləşdirdi. Digər mühüm cəhət isə o idi ki, o, misirlilərin dininə və adətlərinə hörmətlə yanaşırdı. Şərqdə çarların ilahiləşdirilməsi adi hal kimi qəbul olunurdu, təkcə faraonlar deyil, Babilistan və Persiya çarları da taxt-taca çıxandan allah hesab olunurdu. Ona görə də misirlilər Aleksandrı allah Zevs-Amonun oğlu kimi qəbul edirdilər, bununla onun çar hüquqları əsaslandırılırdı. İlk əvvəllər Aleksandr və dostları onun qüdrətli allah olması fikrinə gülürdülər, lakin uğurlar onun başını gicəlləndirdikcə, ümumi yaltaqlıq mühitində, onun şöhrətpərəstliyi öz həddini aşanda o, özünün ilahi mənşəyinə inanmağa başladı.

Aleksandrın İss yaxınlığındakı qələbəsindən sonra Dara ona sülh təklif etdi, Fərat çayından qərbdə olan bütün torpaqları verməyi vəd etdi, bu onun nəhəng imperiyasının yarısına bərabər idi. Həm də o, Aleksandra böyük təzminat və əsrliyə götürülmüş ailə üzvlərinin qaytarılması hesabına ittifaq təklif etdi. Aleksandrın ətrafında olanlar bu təklifə yekdilliklə tərəfdar çıxdılar.

Qocaman sərkərdə Parmenion dedi: "Əgər mən Aleksandr olsaydım, bu təklifləri qəbul edərdim". Çar atasının yaxın sirdaşı olmuş hərbi rəisinin sözünü kəsib, Alkesandr dedi: "Əgər mən - Parmenion olsaydım, mən də onları qəbul edərdim".

Makedoniya ordusu Misirdə heç bir il də qalmadı. M.ə. 331-ci ilin yazında Aleksandr ordusunu Nil vadisindən çıxardı və Ön Asiya səhrasından keçirərək Mesopotamiyaya apardı. III Dara başa düşürdü ki, onun dövlətinin taleyi tükdən asılıdır, ona görə də qoşun toplayıb, Aleksandrı yenidən qarşılamağa getdi. O, qüvvələrini Dəclə çayının şərq sahilində, Qavqamela kəndi yaxınlığında yerləşdirdi. Persiya ordusu hücumdan qorxduğu üçün bütün gecəni hazır vəziyyətdə keçirmişdi, səhər açılanda əsgərlər taqətdən düşmüşdülər. Gecə vaxtı buraya Makedoniya qoşunları çatdılar və Parmenion məsləhət gördü ki, səhəri gözləmədən hücuma keçmək lazımdır. Aleksandr buna belə cavab verdi: "Mən qələbələri oğurlamıram".

Səhər tezdən döyüş başlandı. Bu vuruşda Aleksandr yenə çox sevdiyi risqli hərəkətə əl atdı. Sevdiyi atı Butsefalın belinə oturub, hücuma başladı. Bu vaxt Parmenion böyük təhlükə altında idi. Perslərin sırasına soxulan Aleksandr Persiya çarını gördü. O, mühafizəçilər dəstəsinin üzərinə hücum etdi, onlardan çoxu qaçdı. Özünü itirən Dara qorxudan bir mühafizəçinin atını minib, döyüş səhnəsini tərk etdi. Bunu görən perslər də qaçmaqda xilas axtarmağa başladılar. Parmenionu sıxışdıran qüvvələr də geri çəkildilər.

Qavqamela yaxınlığındakı döyüş perslərin qüvvəsini tamamilə dağıtdı. Artıq Aleksandrın ciddi düşməni yox idi, baxmayaraq ki, Persiyanın şərq əyalətləri hələ müqavimət göstərməyə hazırlaşırdılar. Persləri alçaltmaq və Afinanın yandırılmasının və məbədlərin dağıdılmasının qisası bəhanəsi altında pers arxitekturasının gözəl abidəsi olan Persepolis sarayını dağıtdı. Bir neçə saatdan sonra Persiya paytaxtının ən gözəl binasından yalnız kül və xarabalıq nişanələri qaldı. Sonra o, qaçan çarı təqib edərək Ekbatana şəhərini tutdu. Burada yaxınlıqdakı torpağın üstünə neft çıxırdı və o, yanırdı. Aleksandr bununla maraqlanıb, mayenin sirli xüsusiyyətlərini yoxlamaq qərarına gəldi. Bir oğlan uşağının bədəninə neft sürtüb ona od vurdular. O, bu mayedən müharibədə istifadə etmək istəyirdi. Alov yananda, oğlan özünün məhv olacağını başa düşdü, yaxşı ki, odu söndürə bildilər.

Şərq vilayətlərinin pers hökmdarları çarı devirmək qərarına gəldilər. Qəsdin başında bu əyalətlərdən biri olan Baktriyanın satrapı Bess dururdu. Qəsdçilər Daranın əl-qolunu bağlayıb, onu Bessin xeyrinə taxt-tacdan devirmək istəyirdilər. Bu xəbər Aleksandra çatanda, o, Daranı özləri ilə aparan

baktriyalıların arxasınca düşdü. Düşmənin üstünü alanda onun yalnız 60 adamı var idi. Bir arabanın yanında Daranın meyiti tapıldı. Baktriyalılar Aleksandrın, çarı ələ keçirmək üçün onları təqib edəcəyini nəzərə alaraq, Daranı öldürmüşdülər. Makedoniya sərkərdəsi Persiya çarının ölümünə dərindən kədərləndi. Daranın vəliəhdi olmadığına görə, çoxlarının gözündə artıq Aleksandr onun varisi idi və qalib hüququ ilə nəhəng dövlət onun idarəçiliyinə keçməli idi.

Aleksandr ordunu yarı bölüb, bir hissəsini Parmenionla işğal edilmiş torpaqlarda qoydu, seçmə qoşunları isə özü ilə götürüb, Xəzər dənizinin cənubu ilə İranın mərkəzi vilayətlərindən biri olan Parfiyaya, sonra isə Baktriyaya keçdi. Baktriya valisi Bess makedoniyalılara verildi və o, edam edildi. Persiyanın işğalı Aleksandra özünün böyük yürüşünün başlanğıcı kimi görünürdü. O, bütün Asiyanı, o vaxtlar düşünülən dünyanı fəth etmək istəyirdi. İşğalları məhdudlaşdırmaq çağırışlarına isə məhəl qoymurdu. O, əmr etdi ki, 30 min pers oğlan uşağını toplayıb, onlara makedoniyalıların hərb sənətlərini öyrətsinlər. Onlar gələcək ordunun özəyi olacaqdı.

Aleksandr öz yeni təbəələrinin hüsn-rəğbətini qazanmağa cəhd edirdi. O, pers zadəganının qızı, gözəl Raksanaya evlənmişdi. Özü isə pers paltarı geyinirdi. Bu ziynətli paltarda qoşunlarının qarşısına çıxanda, bu makedoniyalıları qıcıqlandırırdı. Onun həyatına sui-qəsd cəhdləri başlandı. Birinci sui-qəsdin ilhamçısının qocaman sərkərdə Parmenionun və onun oğlu Filotanın olduğu elan edildi. Qəddarcasına işgəncələrdən sonra Filota edam edildi, Parmenion isə çarın göstərişi ilə gizli qaydada öldürüldü.

Bir dəfə Makedoniya qoşunları Orta Asiyada olanda çara Yunanıstandan təzə meyvələr gətirilmişdi. Bu məqsədlə Marakandada (indiki Səmərqənddə) ziyafət quruldu. Makedoniya sərkərdələrini lağa qoyan mahnılar oxunduqda, Klit yerli perslərin yanında onlara istehza edilməsindən hiddətləndi. Aleksandrla onun sözləşməsi baş verdi. O, Klitə qışqırdı: "Sən qorxaqlara haqq qazandırırsan, deməli bu keyfiyyət sənə də yad deyil". Klit ona cavab verdi ki, mənim qorxaqlığım səni ölümdən xilas etmişdi və Qranik ətrafında baş verən döyüşdəki əhvalatı yada saldı. Bu Aleksandra meydan oxuma kimi göründü. O, Klitin üstünə alma atdı və ona qılınc gətirilməsini əmr etdi. Klit geri çəkilmədi və dedi ki, əgər xoş sözləri eşitməyə öyrənmişsənsə, öz məclisinə azadlığa adət etmiş adamları dəvət etmə. Bu vaxt Aleksandr bir mühafizəçinin nizəsini qapıb, Klitin üstünə atdı. Klit qan içində yerə yıxıldı. Beləliklə, Aleksandr öz uşaqlıq dostunu və onu ölümdən xilas etmiş bir adamı qətlə yetirdi. Digər bir sui-qəsd cəhdinə görə isə o, Aristotelin qohumu Kal-

lisfeni məhbəsə saldırdı və o, həbsdə öldü. Çar qayıdanda Aristoteli cəzalandıracağını vəd edirdi.

Aleksandr İnd çayının varlı vilayətini tutmağı və dünyanın qurtaracağına çatmağı arzulayırdı. Hinduquş dağ silsiləsini keçdikdən sonra onlar Hindistana düşdülər. Burada yaxşı otlaqlar və meyvə bağları var idi. Qoşunlar İnd çayını orta axınında keçib, bu çayın qolları ilə suvarılan vilayətə girdilər. Burada yerli çar Taksila könüllü olaraq Aleksandra qoşuldu ki, onunla birlikdə şərqdə torpaqları olan daimi düşməni Porun üstünə hücum etsin.

Aleksandr Gidaspı keçəndə hiyləgərlik etdi, özünü elə göstərdi ki, Porun ordusu duran yerdə çayı keçmək istəyir. Lakin o, çay boyu yuxarı gedib, o biri sahilə keçdi. Qızğın döyüş səkkiz saat davam etdi. Hindlilər bir neçə min adam itirdilər. Por özü isə yara alıb, əsir düşdü. Makedoniyalıların da itkiləri böyük idi. Aleksandr Poru edam etmədi, hətta öz vilayətinin idarə olunması ona həvalə edildi.

Porla döyüş makedoniyalıların gücünü və cəsarətini zəiflətdi. Bu vaxt Aleksandr sərt tədbirlərə əl atdı. İntizamı pozanların hamısını ölümlə cəzalandırırdı. O, öz şəxsi nümunəsi ilə onları fədakarlığa sövq edirdi. Bir dəfə o, qalanın divarından sıçrayıb həyətə düşəndə düşmənlərin əhatəsində qalmışdı. O, bir neçə yara aldı, köməyə gələnlər onu ölümdən xilas etdilər. O, düşmənə qarşı da daha amansız hərəkət edirdi. Onun vədinə inanıb, istehkamı tərk edən hindlilərin hamısını qılıncdan keçirtdirmişdi. Başqa bir vaxt isə öz həmvətənlilərini mübarizəyə çağırdıqlarına görə dinc kahinlər onun əmri ilə asılmışdı. Lakin bunlar hindliləri qorxuza bilmirdi və onlar müqavimətlərini gücləndirirdilər.

Çar dünyanı fəth etmək istəyilə şərqə hərəkət etmək əmrini verəndə, ilk dəfə öz ordusunun müqaviməti ilə üzləşdi. Makedoniya döyüşçülərini artıq nə hədələrlə, nə vədlərlə məcbur etmək mümkün deyildi. Hiddətlənmiş Aleksandr üç gün öz çadırından çıxmadı, heç kəslə görüşmək istəmədi. Nəhayət, o, döyüşçülərinin yanına çıxıb elan etdi ki, ordu qərbə qayıdır. İki minə qədər qayıq düzəldildi və piyadaların bir hissəsi bu qayıqlarda aşağı üzdü ki, Hind okeanına çıxsın. Qalan qoşunlar çayın hər iki sahili ilə hərəkət edirdi. Yeddi ay üzmək lazım gəldi və nəhayət makedoniyalılar okeana çatdılar. Burada qoşunlar bölündü. Bir hissə dəniz yolu ilə İran körfəzinə gedib çıxmalı idi. Burada onlar Fəratın mənsəbinə gəlib çatmalı idilər. Ordunun böyük hissəsi isə çarın başçılığı altında Hind okeanının sahili ilə qərbə tərəf hərəkət etməyə başladı. Yüz minlik ordudan ancaq onun dörddə biri qalmışdı. Böyük əziyyətlərdən sonra makedoniyalılar Persiya satrapiyası olan Qed-

rosiyaya (indiki Belucistana) gəlib çatdılar. Burada istirahət edib, Persiyadan keçməklə Babilə yollandılar. Çar çalışırdı belə təsəvvür yaratsın ki, Hindistan yürüşü böyük müvəffəqiyyətlə başa çatmışdır. Ordunun qayıdışı sərkərdənin əmri ilə təntənəli gəzinti xarakterini almışdı. Bu hərəkət ordunun geri dönməsindən daha çox şərabçılıq allahı Dionisin şərəfinə düzəldilmiş bayram təntənəsini andırırdı.

Beləliklə, Aleksandrın şərq yürüşü başa çatdı. Döyüşçülər Babilə döndülər, Nearxın başçılığı altında üzən donanma da Fərat çayı ilə buraya gəlib çıxdı. Ölkədə makedoniyalılar əleyhinə üsyan başlamışdı. Pers əyanlarının və Makedoniya hərbi rəislərinin bir çoxu çara xəyanət etmişdilər, onlara həvalə edilmiş satrapiyaları müstəqil etmək istəyirdilər. Çar köhnə Persiya idarəetmə sisteminin o qədər əlverişli olmadığını görsə də, onu saxlamağa qərara aldı. O, güman edirdi ki, bu dövlət sistemi onun işğallarının möhkəmliyini təmin edəcəkdir.

Aleksandr köhnə hökmdarları təqlid etməyi xoşlayırdı. Persiya qalib çarlarının qaydasına uyğun olaraq, Hindistan yürüşündən qayıtdıqdan sonra, hər qadına bir qızıl sikkə hədiyyə etdi. Sonra o, Persiya çarlığının əsasını qoyan Kirin makedoniyalılar tərəfindən dağıdılmış sərdabəsini bərpa etdi. Qaliblərlə məğlublar arasındakı düşmənçiliyə son qoymaq üçün əsgərlərindən və sərkərdələrindən tələb etdi ki, onlar pers qızlarına evlənsinlər. Suzada Aleksandr nəhəng toy qurdu. Perslərin qaydasına uyğun olaraq, o, özünə ikinci arvad aldı, mərhum çar Daranın qızı ilə evləndi. Onun yaxın dostlarından və ardıcıllarından 80-ə yaxın adam zadəgan qadınlarla evləndi. On min nəfər sadə döyüşçü həmin gün yerli qadınlarla öz nikahlarını bayram etdilər. Dəbdəbəli ziyafət quruldu və hər qonağa qızıl kasa verildi. Lakin makedoniyalıları, yunanları və persləri bütünlüklə birləşdirmək cəhdləri iflasa uğradı.

Babil yaxınlığında çar vətənə dönənlərlə və yaralılarla bir vida ziyafəti təşkil etmişdi və burada Makedoniya qoşunları narazılıqlarını bildirdilər və tələb etdilər ki, onların hamısını evlərinə buraxsınlar. Aleksandr buntu yatırtmaq istədi və 13 döyüşçünü edam etdi. Lakin bu da əsgərləri qorxutmadı. Bu vaxt çar onların insanlıq hisslərinə toxunmağa cəhd etdi. Bir hissəsini dilə tutsa da, on min adam israrlarını davam etdirirdilər və vətənə yola salındılar.

Nəhəng imperiya görünən itaətinə baxmayaraq, özündə heybətli və düşmən qüvvələrini gizlətmişdi. Bircə səhv addım, kiçik xəta, əhəmiyyətsiz məğlubiyyət kifayət idi ki, hər yerdə hiddət alovu qalxsın. Öz vəziyyətinin təhlükəli olduğunu anlayan, bir az əvvəl qorxmaz Makedoniya fatehi olmuş

bu adam qorxaq və mövhumatçıya çevrildi. Çar sarayını kahinlər, cadugərlər doldurdu, onlar çarın ruhi zəifliyindən sui-istifadə edirdilər. Aleksandr öz yaxın dostlarına da inanmırdı. Onun gözünə hər yerdə qəsdlər və xəyanətlər görünürdü. Onun geriyə yolu yox idi, dayana da bilmirdi. O, daha cəsarətli, fantastik layihələr cızır. O, Ərəbistanı və Afrikanı keçib Gibraltar boğazından Aralıq dənizinə qayıtmaq istəyirdi. O, Saxarada yol çəkmək, bu yol boyu quyular qazdırmaq istəyirdi. O, Fərat çayının məhvərini dərinləşdirib, Babili dəniz limanına çevirmək istəyirdi.

Aleksandr 11 il ərzində müharibələr aparıb, 22 min mil məsafəni qət etmişdi və bir döyüşü belə uduzmamışdı. Adətən istənilən yer barədə yerli sakinlərdən çox bilirdi.

Aleksandr öz uğuruna inanırdı, və öz müvəffəqiyyətlərindən cuşa gəlib, reallıq hissini itirmişdi. O, heç kəsin  müxalif olan rəyi ilə hesablaşmırdı. Güman edirdi ki, hətta təbiətin özü də ona güzəştə gedəcəkdir. Buna görə də o, Afrika yürüşünü isti yay aylarına təyin etmişdi. Bu hazırlıq vaxtı o, qəflətən bataqlıq isitməsi ilə xəstələndi və bir neçə gündən sonra öldü. Bu m.ə. 13 iyun 323-cü ildə baş verdi, bu vaxt çar ömrünün 33-cü ilində idi.

Aleksandr varis təyin etməmişdi, arvadı hələ uşaq gözləyirdi, onun ögey qardaşı isə kəmağıl idi. Sərkərdələrdən hər biri taxt-taca öz namizədini irəli sürüb, onun adından hökmranlıq etmək istəyirdi. Hələ Aleksandr dəfn edilməmişdən, tabut yanındakı mübahisə silahlı toqquşmaya çevrildi. Tezliklə bu müharibə fazasına keçdi və nəhəng imperiya parçalandı. Qısa müddəti olan bu imperiyanı axı güc və qorxu birləşdirirdi.

Lakin Aleksandrın fövqəlbəşər sərkərdəlik qabiliyyətinə, böyük imperiyanı idarə etmək bacarığına heç bir şübhə ola bilməzdi. Əgər Sezar da onun sərkərdəliyi qarşısında baş əyirdisə, bu Aleksandrın hərbi istedadının müqayisə edilməz olduğunu göstərir. O, idarəetmədə də qeyri-adi addımlar atırdı, bu istedadı ilə də başqalarını kölgədə qoymağı bacarırdı. O, Misirin idarə edilməsində mühüm dəyişikliklər apararaq, mülki işləri misirlilərin özünə, maliyyə işlərini yunanlara, hərbi rəhbərliyi isə makedoniyalılara həvalə etdi, beləliklə satrapın təkbaşına hakimiyyətini parçaladı. Bununla o, yerli zadəganlarla yaxınlaşmağa cəhd edirdi. Kiçik Asiyanı, Suriyanı, Finikiya və Misiri işğal etməklə o, tədricən yeni idarəetmə sistemini qurdu. Aleksandrın yeni dövlətinin əsas xarakterik xüsusiyyətləri, yerli zadəganlara arxalanmaqdan, inzibati, maliyyə və hərbi idarəetməni bölməkdən, vergi yığılmasının və sikkə buraxılışının qaydaya salınmasından, yerli adətlərə və allahlara gözə çarpan ehtiram bəsləməkdən ibarət idi. Lakin o, Əhəmənidlərin əvvəl-

ki inzibatçılıq sistemində xırda dəyişikliklər etdi. Satrapların separatizmindən qorxduğuna görə, onların hakimiyyətini mülki işlərlə məhdudlaşdırdı, onlarla birlikdə bilavasitə özünə tabe olan hərbi komendantlar təyin etdi. O, bütün sürgün edilənləri yunan şəhərlərinə qaytardı və onların mülkiyyət hüquqlarını bərpa etdi. Aleksandr öz imperiyası barədə Aristoteldən daha geniş baxışa malik idi. Plutarxın yazdığına görə Aristotel "məsləhət görürdü ki, Aleksandr yunanlarla onların lideri kimi, başqa xalqlarla isə onların ağası kimi davransın, yunanları dost kimi və ona bənzər hesab etsin, digər xalqlarla isə bitkilərlə və heyvanlarla olan kimi davransın". O, ellinist mədəniyyətini birinci növbədə irəlilətmək istəyirdi.

Aleksandrın yerli əhalini idarəetməyə cəlb etməsi vasitələrindən biri də, yeni şəhərlərin salınması idi. Plutarxa görə, o, 70 şəhər salmışdı. Arxeoloqlar isə bu şəhərlərin sayının 30 olduğunu deyirlər. Demək olar ki, bütün şəhərlər imperiyanın şimalında, İranda, Orta Asiyada və Hindistanda salınmışdı. Aleksandr geridə qalan şərqi ellinləri daha yüksək şəhər mədəniyyətinə gətirməyə cəhd edirdi. Lakin bu yerlərdə şəhərlər çoxdan mövcud idi.

Aleksandrın obrazı ən müxtəlif xalqların folklorunda geniş yayıldı. Onun adına Orta Asiyanın və Çinin, İslandiya və Hindistanın xalq yaradıcılığında rast gəlmək olur, Qərbin və Şərqin əfsanələrində fantastik hadisələrlə müşayiət olunurdu. Böyük fars şairi Firdovsi, Azərbaycan şairi Nizami Gəncəvi və özbək şairi Əlişir Nəvai öz poemalarını dünya şöhrətli sərkərdəyə həsr etmişdilər.

Aleksandrın ölümündən sonra onun dünya dövləti parçalandı, onun imperiyasından daha artıq həyat qabiliyyətli olan dövlət tipləri yarandı. Onun yaxın sərkərdələri piroqun daha çox hissəsinə sahib olmaq üstündə qızğın münaqişəyə girişdilər. Bu bölünmə 40 il ərzində davam etdi. Çarın varisləri olan ögey qardaşı və körpə oğlu imperiyanı idarə etməyə qadir olmadıqlarından, hərbi rəislər onlara regent kimi Perdikkanı seçdilər. Digər sərkərdələr Aleksandr dövlətinin müxtəlif hissələrini idarə etməyi götürdülər. Bu əraziləri onlar öz orduları ilə almışdılar. Diodoxların idarəçiliyinin ilk illəri göstərdi ki, onlar heç də hökmdar-regentin və gücsüz çarların rəhbərliyi ilə hesablaşmaq istəmirlər. Perdikka bu separatizm meyllərinin qarşısını almaq üçün həmin sərkərdələrdən birini cəzalandırmaq istədi. Bu Misirdə möhkəmlənmiş Ptolomey Laq idi. Lakin Perdikkanın bu cəhdi və yürüşü uğursuz oldu, regentin özü isə çadırında komandirlərinin biri tərəfindən xəncər zərbəsi ilə öldürüldü. M.ə. 321-ci ildə diodoxlar Suriyada müşavirə keçirdilər, təsir dairələrini və satrapiyaları bölmək barədə yeni müqavilə bağladılar.

Misir Ptolomey Laqa məxsusluğunu saxladı, Makedoniya və Yunanıstan Antipatrın və onun oğlu Kassandrın maraq sferasına daxil oldu, Antiqon Təkgözlü isə Kiçik Asiyanın strateq-avtokratı oldu. Mesopotamiya Selevkə düşdü, Frakiya və Kiçik Asiyanın bir hissəsi Lisimaxın təsir zonası oldu.

Ancaq vahid imperiya ideyası hələ də yaşayırdı və Antiqon Təkgözlü bu ideya uğrunda mübarizə aparırdı. Onlar imperiyanın böyük hissəsini özlərinə tabe etdilər. Digər diodoxlar isə Ptolomey Laqın başçılığı altında koalisiya təşkil etdilər və Antiqon bu qüvvəyə qarşı dura bilmədi. Bundan sonra hər diodox öz hakimiyyətini möhkəmləndirməyə çalışdı. Bu mübarizə m.ə. 306-cı ildə başa çatdı. Böyük diodoxlar özlərini çar elan etdilər və Aleksandrın imperiyasının xarabalıqları üzərində öz dövlətlərini yaratmağa can atdıqlarını açıqca elan etdilər. Antiqon yenə öz ideyasını həyata keçirməyə çalışanda İps yaxınlığındakı qanlı döyüşdə koalisiya onu məğlub etdi və onun özü döyüşdə həlak oldu, oğlu isə Selevkə əsir düşdü. Bir az sonra Selevkin ordusu Lisimaxın qoşunlarını darmadağın etdi. İmperiya ərazisində yeni dövlətlərin meydana gəlməsi başa çatdı. Onlarda ictimai quruluşun, dövlətin və mədəniyyətin yeni tipi yarandı ki, bu da ellin və ya ellinizm adlanırdı. Ön Şərqin və yunan dünyasının xalqları öz tarixlərinin yeni mərhələsinə qədəm qoydular.

Ellinizm əvvəllər ayrı yaşayan qədim Yunan və qədim Şərq dünyasının yeni dövlətlər sistemində zorakı yolla birləşməsi idi. Onların sosial-iqtisadi quruluşunda və mədəniyyətində ümumi şeylər çox idi. Qədim Yunan və qədim Şərq dünyasının birləşməsi nəticəsində bir sistemin çərçivəsində özünəməxsus cəmiyyət və mədəniyyət yarandı və bu özlüyündə həm yunan, həm də qədim şərq ictimai quruluşundan və mədəniyyətindən fərqli idi və onların sintezindən ibarət bir ərinti kimi üzə çıxdı. Beləliklə, ellinizm iki kökdən yaranmışdı. Həm yunan polisi tənəzzül etmişdi, həm də qədim şərqin ictimai-siyasi strukturları böhran keçirirdi. Bunların hər ikisi ellinizmin əsasına çevrildi. Lakin qədim yunan və qədim şərq başlanğıclarının sintezi ellinist dünyanın hər regionunda, hər bir ellinist dövlətdə eyni deyildi, başqa sözlə onda iştirak edən elementlərin intensivlik dərəcəsi və rolu fərqli idi. Bəzi dövlətlərdə yunan başlanğıcı üstün idi, digərlərində isə şərq başlanğıcı, üçüncülərdə isə onların mütənasibliyi az və ya çox bərabər idi. Həm də bu sintez bəzi ölkələrdə daha çox ictimai strukturları, digərlərində - siyasi idarələri, üçüncülərdə isə mədəniyyət və din sferalarını əhatə edirdi. Coğrafi miqyasına gəldikdə ellinist dünyası qərbdə Siciliyadan və Cənubi İtaliyadan tutmuş, şərqdə şimali-qərbi Hindistana qədər olan dövlət qurumlarının bö-

yük və kiçik ərazilərini əhatə edirdi. Bura iri coğrafi və mədəni inkişaf birliyi, ərazilərdə götürdükdə Misir və Yaxın Şərq, Orta Şərq, Balkan Yunanıstanı, Makedoniya və Kiçik Asiyanın qərb hissəsi, Böyük Yunanıstan və Qara dəniz ətrafı daxil idi.

Ellinizmə xas olan yunan və şərq başlanğıclarının ən xarakterik xüsusiyyətlərinin həyatın, istehsalın və mədəniyyətin bütün sahələrində əks olunduğu yer Misir və Yaxın Şərq idi və bu region klassik ellinizm rayonu hesab olunur. Balkan və Böyük Yunanıstanda, onlara yaxın ərazilərdə tarixi inkişaf bir əsasda, məhz qədim yunan sivilizasiyası əsasında gedirdi. İri ərazi vahidlərinin yaranması, ellinist dünyanın müxtəlif hissələri arasında sıx əlaqələr qurulması iqtisadiyyatın inkişafına mühüm təsir göstərdi.

Ellinizm m.ə. 334-cü ildə Aleksandr Makedoniyalının Şərqə yürüşü ilə başlayıb, m.ə. 30-cü ildə romalıların axırıncı ellinist dövləti olan Misir çarlığının işğalı ilə başa çatdı, başqa sözlə ellinizmin ümumi ömrü 300 il oldu. Tarixi müddətin necə qiymətləndirilməsindən asılı olmayaraq bütünlükdə ellinizm klassik Yunanıstan və qədim Şərq xalqlarının tarixi inkişafında yüksək mərhələ olmaqla, iqtisadi həyatı, dövlət quruculuğunu, mədəniyyəti və dini xeyli irəli apardı. Onun faydalı təsiri təsərrüfat həyatında daha çox hiss olunurdu. Egey dənizinin və Finikiyanın şimal şəhərlərindən, Kiçik Asiyadan, Suriya, Mesopotamiya və İrandan, Orta Asiyadan, bütün Ön Asiyadan keçməklə Hindistana karvan yolları uzanırdı. Bu yollar karvansaralar, quyular və mühafizə ilə təchiz olunmuşdu, onların vasitəsilə geniş ellinist dünyanın şərq və qərb kənarları arasında nəhəng həcmdə xammal və əmtəə mübadiləsi həyata keçirilirdi. Aleksandriyadan həm Aralıq dənizi, Nil çayı və Qırmızı dəniz limanları ilə, həm də Bab əl-Məndab boğazından və Ərəb dənizindən keçməklə salınan və uğurla istismar edilən dəniz yolu, Aralıq dənizinin ən uzaq nöqtələri ilə əfsanəvi Hindistanı birləşdirirdi.

Ellinist iqtisadiyyatın inkişafının mühüm göstəricilərindən biri şəhərsalmanın intensiv genişlənməsi, yeni şəhərlərin salınması idi. Ellinizm epoxası dövründə 170-dən çox yunan tipli böyük və kiçik şəhərlər salınmışdı. Yunan tipi ilə yanaşı bu şəhərlərə, həm də qədim şərq ölkələrinin mühafizəkar iqtisadi strukturlarının antik quldarlıq münasibətləri daxil olurdu. Kənd yerlərində isə quldarlıq malikanələri şərq tipli təsərrüfatlardan daha yaxşı rentabelliklə işləyirdi. Dövlət quruluşuna da ellinizm çoxlu yeniliklər gətirdi. Yunan polisinin və qədim şərq despotiyasının yerinə ellinist monarxiyası forması gəldi, bu tip özündə həm polis dövlətçiliyini, həm də qədim Şərq monarxiyasının elementlərini daşıyırdı. Hər bir ellinist

dövlətində daxili özünüidarə etməyə malik olan yunan tipli şəhərlər və döyüşçülərin məskunlaşdığı yerlər var idi. Çar onların daxili muxtariyyətinə riayət etməyə borclu idi.

Mədəniyyət və din sahəsində Yunan və Şərq başlanğıcların qarşılıqlı təsiri və qarşılıqlı zənginləşməsi böyük fayda gətirdi. Ellinizm epoxasında dəqiq elmlər gur inkişaf etdi: astronomiya, matematika, fizika, biologiya, coğrafiya yeni səviyyəyə qaldırıldı, mürəkkəb fəlsəfi sistemlər yaradıldı. Heykəltəraşlıq nümunələri kütləvi hal almışdı, arxitektura, ədəbiyyat, poeziya inkişaf etdirilirdi. Ellinist dövlətlərin paytaxtları Misir Aleksandriyası, Antioxiya, Perqam, Rodos, Sirakuza və Afina iri mədəni və elmi mərkəzlərə çevrildilər. Bu şəhərlərdə iri kitabxanalar, elmi məktəblər var idi. Bu məktəblər isə elmi ideyaların və mədəni həyatın yeni istiqamətlərinin güclü generatoru rolunu oynayırdı. Bir sıra ölkələrdə yunan və yerli dinlərin qarışığından sinkretik dinlər meydana gəldi və bu dünya xristian dininin yaranması üçün münbit mühit rolunu oynadı.

Ellinist dövlətlər birliyində iki iri fövqəldövlət öz ərazisinə, hərbi-iqtisadi potensialına və ellinizm dünyasındakı nüfuzuna görə seçilirdi. Bunlar, Ptolemeylər sülaləsinin hökmranlıq etdiyi Misir çarlığı və Selevkidlər dövləti idi. Digər iri dövlətlərlə yanaşı kiçik ölçüdə olan dövlətlər də az deyildi, bunlar əsasən Kiçik Asiyada və Qara dəniz ətrafında yerləşirdi.

## Ellinist Misiri

Ellinist Misirinin tərkibinə Misirin özü ilə yanaşı Sinay, Palestina, Finikiya və cənubi Suriya daxil idi. Ptolemeylərin çarlığına həm də Kiçik Asiyanın cənub və qərb hissələri və Kipr daxil idi. Onlar həm də Hellespont boğazına yaxın olan ərazilərə nəzarət edirdilər. Ptolemeylər dövləti iki hissəyə - Afrika ərazilərinə və Misirdən kənarda olan ərazilərə bölünürdü. Bu hissələrdə aparılan siyasət də bir-birindən fərqli idi. Dövlətin paytaxtı olan Aleksandriya m.ə. 332-ci ildə Aleksandr tərəfindən salınsa da, tarixən qısa müddət ərzində, yəni Ptolemeylərin dövründə ellinist dünyasının ən iri şəhərinə çevrildi. Lakin bu dövlət bir-birinin ardınca ərazilərini itirməyə başladı və m.ə. 2-ci əsrin ortalarında Misir öz təbii sərhədlərinə qədər kiçildi.

Bu ölkədə lap qədimdən irriqasiya əkinçiliyi iqtisadiyyatın əsasını təşkil edirdi. Əkinçiliyin taleyi isə Nilin daşmasından və onun su ilə əkinləri təchiz etməsindən asılı idi. Ptolemeylər bu ənənəvi iqtisadiyyatı qəbul etdilər və onu xeyli yaxşılaşdırdılar. İrriqasiya sistemi genişləndirildi. Yeni kanallar

sistemi hesabına əkin dövriyyəsinə çoxlu yeni torpaqlar daxil edildi və bu əkin torpaqları sahəsinin -i qədər artmasına səbəb oldu, bu isə əkinçiliyin inkişafına geniş yol açdı. Burada çoxlu qiymətli buğda yetişdirilməyə başladı və Roma istilasından sonra da Misir imperiyanın taxıl anbarı hesab olunurdu. Bu geniş ərazilərdə həm də kətan, papirus, Misir üçün yeni bitkilər hesab olunan düyü və pambıq becərilirdi. Bütün torpaqların keyfiyyəti və mümkün olan məhsuldarlığı qiymətləndirməklə, dəqiq kadastrı həyata keçirildi. Çar sarayı hər il şum edilməsi, səpin keçirilməsi, bitkilərə qulluq, məhsul yığımı, məhsulun saxlanılması və səpin bitkilərinin növləri barədə təlimatlar verirdi. Yaxşı məhsul götürülməsi nəinki daxili istehsalın tələbini ödəyirdi, həm də izafi məhsul ixraca göndərilirdi. Əgər Bibliyadakı İosif dövründə Misir taxılı qonşu ərazidə yaşayan yəhudiləri aclıqdan xilas edirdisə, m.ə. 3-cü əsrdən etibarən bu ölkə Aralıq dənizi ətrafı əhalisinin ümumi taxıl zəminə çevrildi.

Ellinist Misirində sənətkarlıq istehsalının müxtəlif sahələri daha da inkişaf etdirildi. Bu vaxt həmin istehsalın bol xammalını kənd təsərrüfatı verirdi. Papirus, parça, bitki yağı, pivə, dəri materialları istehsalı artırdı. Sənətkarlıq əsasən şəhərlərdə mərkəzləşmişdi. Şəhərlərdəki emalatxanalar rəngli, çox qiymətli şüşədən məmulatlar, kətan, yun və ipək parçalar, yazı materialı kimi papirus, keramika, bürüncdən, mis və dəmirdən məmulatlar istehsal edirdi. Sənətkarlıq peşəsi nümayəndələrinə həmçinin tacirlər, həkimlər, musiqiçilər, aktyorlar daxil idi.

Xammal və məmulatdan taxıl, papirus, parçalar, qiymətli daş növləri, şüşə və zərgərlik məmulatlarının artıqlığına malik olduğundan, Misir dünya bazarında geniş ticarət aparırdı. Karvan yolları ilə yanaşı dəniz su yolu ticarət üçün mühüm vasitə idi. Aleksandriya limanında Aralıq dənizinin hər tərəfindən olan gəmilər dayanırdı. Liman yaxınlığında hərəkəti təhlükəsiz etmək üçün dünyanın yeddi möcüzəsindən biri sayılan, 120 metr hündürlüyündəki Aleksandriya mayakı tikilmişdi. Bu mayakın şüası gecə vaxtı 60 km-dən görünürdü. Dövlət xarici ticarəti öz inhisarına almışdı və bundan böyük mənfəət əldə edirdi.

Aleksandr Misiri işğal etdikdən sonra üç qitədə yerləşən Ptolemeylərin nəhəng dövlətinin əmələ gəlməsi ilə m.ə. 3-cü əsrdə Nil sahilinə çox sayda əcnəbi əhali, xüsusən də yunanlar və makedoniyalılar axışıb gəldi. Axırıncılar sülalənin birbaşa sosial dayağı hesab olunurdu. Ordunun və dövlət aparatının böyük hissəsi yunanlardan və makedoniyalılardan təşkil olunurdu. Sonra buraya yəhudi və finikiyalı ticarətçilər gəldilər. Gəlmələr imtiyazlı ele-

mentlər hesab olunurdu və hakim siniflərin tərkibinə daxil olurdular. Yerli zadəganlar yunan dilini öyrənirdilər, yunan tərbiyəsi alırdılar, ellinləşirdilər, orduda və dövlət aparatında yüksək vəzifələrə çatmaq imkanı əldə edirdilər. Öz növbəsində ellinlər də daim yerli əhali ilə ünsiyyətdə olmaqla, misirlilərin bəzi adətlərini mənimsəyirdilər, məsələn, öz uşaqlarına misirlilərin adlarını verirdilər, qarışıq nikahlara girirdilər, lakin cəmiyyətin milli bölgüsü qalırdı.

Burada maddi nemətlər istehsalçılarının əksər hissəsini qullar deyil, xırda əkinçilər və sənətkarlar təşkil edirdi. Əkinçilər çar torpağını icarəyə götürmək məcburiyyətində qalırdılar. Onlar sənətkarlarla birlikdə çox sayda vergilərlə buxovlanırdı və müxtəlif mükəlləfiyyətləri daşımalı olurdu. Misirli 218 növ vergi ödəyirdi. Vergi yığanların tamahkarlığı bu yükü bir qədər də artırırdı.

Ellinist Misirin mövcudluğunun son yüzilliyi kəskin sosial gərginlik şəraitində keçirdi. Hakim qüvvələr belə bir şəraitdə öz nəzərlərini qərbdəki qüdrətli Romaya döndərməyə məcbur olurdu. Ptolemeylərin əsas rəqibləri isə hər şeydən əvvəl bir sıra ərazilərə iddia edən Selevkidlər və Balkan Yunanıstanında maraqlarının toqquşduğu Makedoniya idi. M.ə. 3-cü əsr ərzindən beş Suriya müharibəsi getmişdi. III Ptolemey Everget Selevkid ordusunu məğlub edib bütün Finikiya və Suriyanı, Selevkidlərin Oront çayı üzərindəki paytaxtı Antioxiya da daxil olmaqla zəbt etdi. Lakin bu əraziləri o, əlində saxlaya bilmədi. Digər çar IV Ptolemey Filapotor Rafiya yaxınlığında III Antioxun ordusunu darmadağın etdi və öz torpaqlarını qoruyub saxlaya bildi. Lakin bu sonuncu qələbə oldu. Misir zəifləyir və öz mövqelərini itirir. Ptolemeylər təkcə Cənubi Suriyadakı torpaqlarını deyil, Kiçik Asiyada da bir sıra vilayətlərini itirir. İndi onları həm Selevkidlər, həm də Makedoniya sıxışdırır. IV Antiox Yepifan Misirin öz sərhədlərinə daxil oldu və demək olar ki, bütün deltanı tutdu, Aleksandriyanı mühasirəyə aldı. Yalnız Romanın işə qarışması Selevkid çarını Misiri tərk etməyə məcbur edir. M.ə. 2-ci əsrin əvvəlindən Misir dənizdən o tərəfdə olan ərazilərini itirməyə başlayır. Yalnız Roma ilə ittifaqına bel bağlayaraq Misir müstəqil dövlət kimi qalmaqda davam edir. Onun ömrü Makedoniya, Perqam və Selevkidlər dövlətinə nisbətən daha uzun olur və VII Kleopatranın çariçalığı dövründə (m.ə. 51-30-cü illərdə) Misir Roma qoşunları tərəfindən işğal edildi və nəhəng Roma dövlətinin bir hissəsinə çevrildi.

## Selevkidlər dövləti

İkinci böyük fövqəldövlət olan Selevkidlər çarlığının ərazisi Kiçik Asiyanın cənub hissəsi, Suriya, Şimali Mesopotamiya, Babilistan, İran, Orta Asiyanın cənub rayonları və Əfqanıstanın böyük hissəsi daxil olmaqla, Egey dənizindən Hind subkontinentinin qərbinə qədər uzanırdı. Bu nəhəng dövlətin yaradıcısı Aleksandr Makedoniyalının mühafizəçilərindən biri olan Selevk idi. Dövlətin başçısı çar idi. Sülalənin banisi I Selevkin belə bir prinsipi var idi: "Çarın etdikləri həmişə ədalətlidir". Ona görə də Selevkid çarları ilahiləşdirilirdi və adlarına hökmən "ilahi" mahiyyətini bildirən epitetlər əlavə olunurdu: Soter - "Xilaskar", Dikayos - "Ədalətli", Everget - "Xeyirxahlıq edən".

Aktiv xarici siyasəti həyata keçirmək və daxili təhlükəsizliyi təmin etmək üçün Selevkidlər dövləti güclü orduya ehtiyac duyurdu. Ordunun əsasını falanqa təşkil edirdi və onda makedoniyalıların və yunanların törəmələri xidmət edirdilər. Döyüş filləri çox mühüm rol oynayırdı. Ptolemeylər Misirindən fərqli olaraq muzdlular bu orduda elə bir əhəmiyyətli rol oynamırdı. Ordu, həmçinin falanqa hərbi kolonistlər sırasından və yunan polislərinin vətəndaşlarından təşkil edilirdi. Kolonistlər əsas yerli əhali kütləsindən etnik nöqteyi-nəzərdən fərqlənirdi və bu nəzarəti yüngülləşdirirdi. Ümumiyyətlə, Selevkidlərin yaratdıqları polislər və hərbi koloniyalar bir tipli idi.

Vətəndaş kollektivləri gənc nəsli yunan mədəni ənənələri ruhunda tərbiyə etməyə, onları əhatə edən yerli əhalinin təsirindən qorumağa çalışırdı. Selevkidlər Kiçik Asiyanın və materik Yunanıstanının köhnə yunan şəhərlərindən bura əhali cəlb edirdi. Oront çayı üzərindəki Antioxiyaya Afinadan, digər Yunanıstan vilayətlərindən və Aralıq dənizinin böyük adalarından yunanlar köçürülmüşdü. Ona görə də yunan polisləri Selevkidlər dövlətinin özəyini təşkil edirdi.

Selevkidlər dövlətinin yaranması və inkişafı iqtisadiyyatın inkişafına da böyük təkan verdi. Çoxlu yeni şəhərlərin salınması ilə ticarət, xüsusən beynəlxalq ticarət getdikcə genişlənirdi. M.ə. 2-ci əsrdən başlayaraq Çinlə ticarət əlaqələri qurulur, Aralıq dənizi ilə Uzaq Şərqi birləşdirən "böyük ipək yolu" meydana gəlir. Hindistan və Cənubi Ərəbistan ilə ticarətin həcmi böyüyür. Selevkidlər mühüm ticarət yollarını öz nəzarəti altına almağa çalışır. Elə bu da Prtolemeylərlə tez-tez baş verən müharibələrə səbəb olurdu. Əmtəə-pul münasibətlərinin inkişafı ilə əlaqədar olaraq gümüş və bürünc sikkə buraxan bir neçə sikkəxanalar fəaliyyət göstərir.

M.ə. 3-cü əsrin ortalarından vəziyyət bir qədər dəyişir. Perqam dövlətin tərkibindən çıxıb, tam müstəqillik qazanır. Baktriya və Parfiya da mərkəzi hökumətdən ayrılır. Ayrılan satrapiyaların taleyi fərqli qaydada dəyişir. Baktriya ərazisində müstəqil çarlıq yaranır. Parfiyada isə köçərilərin müdaxiləsi hesabına siyasi vəziyyət mürəkkəb xarakter alır və satrapiya Arşakın hakimiyyəti altına düşür. Beləliklə, əvvəllər selevkidlərə məxsus olan şərq ərazilərindən iki müstəqil dövlət yaranır.

III Antioxun çarlığı dövründə (m.ə. 223-187-ci illər) selevkidlər dövləti öz yüksəlişinin zirvəsinə çatır və elə həmin vaxtda da onun tənəzzülü başlayır. Məhz bu illərdə Selevkid ordusu darmadağın edilir və Suriyadakı ərazilərinin çoxunu itirir. Sonra o, şərqə səfər edir. Parfiya və Yunan Baktriyasını təslim edir və onlar vassal dövlətlər kimi yaşamağa başlayırlar. Bundan sonra III Antiox Ptolemeylərlə münasibətə qayıtmaqla xeyli əraziləri onlardan geri ala bilir. Lakin bu vaxt o, Roma ilə üz-üzə gəlir və m.ə. 192-ci ildə Yunanıstanın ərazisində hərbi əməliyyatlar gedir. III Antiox ordusu Fermopil yaxınlığında məğlubiyyətə uğrayır, iki il sonra isə darmadağın edilir. III Antiox romalıların şərtlərini qəbul edərək, Kiçik Asiyadakı demək olar ki, bütün Selevkid torpaqlarından əl çəkir. Həm də 12 il ərzində Romaya ağır bac ödənməli idi. Onun bərpa etdiyi dövlətin sürətlə parçalanması başlandı. Selevkidlər dövlətindən yenidən Yunan Baktriyası və Parfiya ayrıldı, Persiya uzaqlaşdı, bir çox vilayətlərdə narazılıqlar başladı.

Ellinləşmə siyasəti digər sifətini göstərməyə başladı. Bu yerli ənənəvi münasibətlərin qırılmasına səbəb olurdu, ona görə də yerli əhalinin ona qarşı yönəlmiş əks hərəkətləri daha fəal formalar alırdı. İudeyada Yerusəlimin polisə çevrilməsi, yunan kultlarının tətbiqi xalq kütlələrinin etirazına səbəb oldu. Az sonra isə bu, İuda Makkaveyin və onun oğlanlarının başçılığı altında (m.ə. 168-142-ci illər) xalq müharibəsinə keçdi.

Selevkidlər dövlətinin mövcudluğunun son onillikləri arası kəsilməyən sülalə müharibələri ilə dolu idi və bu dövləti hissələrə bölürdü. Şərqdə Parfiya dövləti güclənirdi və şərqdə olan əyalətləri bir-birinin ardınca tuturdu. Parfiya çarı Midiyanı işğal etdikdən sonra, "Böyük" titulunu qəbul etmişdi. Onlar şimali Mesopotamiyanı, Babilistanı da ələ keçirdilər. Selevkidlər çarlarının hakimiyyəti bu vaxt yalnız Suriya ilə məhdudlaşırdı. Onların öz ərazilərini bərpa etmək cəhdləri əvvəllər uğurla nəticələnsə də, sonralar Parfiya qüvvələri ilə döyüşdə ordu darmadağın edildi və VII Antiox döyüşdə həlak oldu. Parfiyalılar onlardan alınmış torpaqların hamısını geri qaytardılar.

IV Antioxdan sonra gələn 19 çar zorakı ölümlə həlak olur. Selevkidlərin

işinə bütün qonşu dövlətlər də müdaxilə etməyə başlayırlar. Nəhayət, m.ə. 83-cü ildə Ermənistan çarı II Tiqran Selevkid dövlətinin qalıqlarını zəbt edir. 20 ildən sonra romalılar Tiqranı darmadağın etdikdən sonra (m.ə. 63-cü il), Suriya Roma əyalətinə çevrilir.

## Makedoniya çarlığı, Balkan və Böyük Yunanıstanları ellinizm epoxasında

Diodoxların mübarizə dövrü başa çatanda Yunanıstandakı və Makedoniyadakı mövcud olan nisbi stabilliyi keltlərin basqını pozdu. Onlar şimali Yunanıstanın xeyli hissəsini tutdular və mərkəzə cumdular. Lakin məğlub olduqdan sonra keltlərin bir hissəsi Kiçik Asiyaya keçdi, digər hissəsi isə şimala çəkildi. Onların üzərindəki qələbə Antiqona Makedoniyada hakimiyyətə iddia etməyə, çar elan edilməyə və Antiqonidlər sülaləsinin əsasını qoymağa imkan verdi. Bu sülalə müstəqil Makedoniya dövlətinin mövcudluğunun sonuna qədər hökmranlıq etdi.

Makedoniyaya yunanların müqaviməti kəsilmirdi. Bunda Axeya və Etoliya ittifaqları mühüm rol oynayırdı. Axeyalılar Afinaya Makedoniya qarnizonundan azad olmağa kömək etdi, lakin onlara qarşı Sparta çıxış etdi. Sparta çarı Kleomen axeyalıları bir sıra ağır məğlubiyyətlərə uğratdı. Makedoniya, Hannibalın m.ə. 218-ci ildə Alpı keçdikdən sonra Trazimen gölü yanındakı romalıları ciddi məğlub etməsini nəzərə alıb Romaya qarşı etoliyalılarla birlikdə müharibə başlamağı düşünürdü. Ona görə də Hanniballa müqavilə bağlandı. Lakin Roma Balkanlarda öz təsirini gücləndirməyə nail oldu. Karfageni məğlub etdikdən sonra isə Roma yunanların işlərinə müdaxilə etməyə başladı. Buraya böyük Roma ordusu gəlib çıxdıqdan və həlledici döyüşdə makedoniyalılar üzərində qalib gəldikdən sonra sülh müqaviləsinin şərtlərinə uyğun olaraq Makedoniya Yunanıstandakı bütün torpaqlarını itirdi. M.ə. 168-ci ildə Pavel Emilinin başçılıq etdiyi Roma ordusu Yunanıstana gəldi və Makedoniya ordusunu Pidn yaxınlığında darmadağın etdi. Bundan sonra Makedoniya vahid dövlət kimi mövcudluğunu dayandırdı, dörd respublikaya bölündü. Daha sonra Makedoniya Roma əyalətinə çevrildi.

M.ə. 146-cı ildə romalılar Axeya ittifaqının başlıca bastionu olan Korinfi zəbt etdilər. Şəhər bütünlüklə dağıdıldı, kişilər öldürüldü, qadınlar və uşaqlar isə qul olmağa satıldılar. Korinfin darmadağın edilməsi Ellada üçün xəbərdarlıq idi. Bundan sonra bütün Yunanıstan romalıların əlinə keçdi. Yunanıstan formal olaraq əyalət elan edilməsə də, öz siyasi əhəmiyyətini itirdi.

Ellinist dünyası yarandıqdan sonra Yunanıstan Aralıq dənizi hövzəsindəki qabaqcıl və ən inkişaf etmiş hissə kimi öz mövqeyini itirdi. Zinyət şeyləri və bahalı parçalar istehsal edən sahələr inkişaf etməyə başladı. Bu dövrdə daha çox çiçəklənən mərkəzlərdən biri Rodos idi. Ellinist epoxasında Rodos dövlətinin ada ilə yanaşı, materikdə də torpağı var idi. Bura həm də ellinist dünyasının incəsənət mərkəzi idi. Burada heykəltəraşlığın xüsusi məktəbi yarandı və inkişaf etdi.

Rodos vətəndaşları bir çox şəhərlərdə rüsumsuz ticarət etmək hüququ qazandılar. Bu hüququ əsasən ona görə vermişdilər ki, çətin dövrlərdə rodoslular çörəyin qiymətini qaldırmamışdılar. Bu ada dəniz quldurlarına qarşı amansız müharibə aparırdı. Onun çox güclü donanması var idi və bu donanma Şərqi Aralıq dənizində azad dənizçiliyi təmin etmişdi. Rodosda xüsusi "dəniz hüququ" yaranmışdı ki, bu romalıların və bizanslıların köməyi ilə bizim zəmanəmizə gəlib çıxmışdır.

Delosda isə iri qul bazarı fəaliyyət göstərirdi. Qul daşınması böyük fayda verirdi. Strabonun yazdığına görə "Delos bir gündə on minlərlə qulu qəbul etməyə və satmağa qadir idi". Buradan belə zərb-məsəl yaranmışdı: "Tacir, gəmini sahilə yaxınlaşdır və boşalt, hamısı satılmışdır". Səbəb bu idi ki, Karfagen və Korinf dağıdıldıqdan sonra romalılar çox varlanmışdılar və böyük miqdarda qullara ehtiyac duyurdular.

Ellinist epoxasında Yunanıstanda qul sahibkarlığı daha da inkişaf edir. Bu dövr "klassik tip" quldarlığın tam ağalığı kimi əlamətdar olur. Ən sıravi polislərdə də bu adi hal şəklini alır. Müharibələr nəhəng ölçüdə qul kütləsi yaradır. Qulun can-başla işlədiyi şəraitdə qul əməyinin məhsuldarlığı da artır. Bu dövrdə qulların azadlığa buraxılması praktikası genişlənir. Bu qulların daha səmərəli işləməsi üçün mühüm stimula çevrilir, həm də ellinist Yunanıstanı ilk dəfə olaraq qulların kütləvi üsyanları ilə qarşılaşır.

Yunanıstanın kənd təsərrüfatı artıq çoxdan ölkə əhalisini ərzaqla təmin edə bilmirdi və bu məhsulları idxal edilirdi. Bu dövrdə Yunanıstanda ardıcıl olaraq çörək çatmamağa başladı. Aclıq adi hala çevrilmişdi və varlı adamların və ya ellinist çarların mərhəməti bütöv şəhərləri aclıqdan xilas edirdi.

Siciliyada I Dionisinin varislərinin tiraniyası devrildikdən sonra Sirakuza xeyli zəiflədi. Aqafokl bir dəfə hakimiyyətdən qovulduqdan sonra muzdluların və kasıbların köməyi ilə şəhəri tutub, öz tiraniyasını qurdu. O, başa düşürdü ki, hakimiyyəti silah gücünə qəsb etdikdən sonra, onu uğurlu işğal mü-

haribələrinin köməyi ilə saxlamaq olar. Sirakuzanın çoxdankı düşməni Karfagen idi. Böyük Dionisinin ölümündən sonra Sirakuzanın zəifləməsindən istifadə edib, Qərbi Siciliyanın xeyli hissəsini tutmuşdu. Aqafokl adadakı Karfagen torpaqlarına hücum edəndə, uğursuzluğa düçar oldu. Sonra avantyuraya əl atdı və m.ə. 310-cu ildə 14 min nəfərlik ordu ilə Afrikada sahilə çıxdı, iri şəhərlər olan Haurumet və Utikanı tutdu, Karfagenə yaxınlaşdı. Sonra o, Siciliyaya qayıtmağa məcbur oldu və burada üsyanı yatırtdı və Karfagenin də razılığı ilə Aqafokl "siciliyalıların çarı" titulunu qəbul etdi. Sirakuza həmçinin Kerkira adası üzərində öz nəzarətini qoydu. Misirdəki sülalənin əsasını qoyan Ptolomey Laq öz qızlıqlarından birini bu Siciliya çarına ərə verdi.

Sonralar Siciliya I Puniya müharibəsində Karfagenin imkanlarını daha artıq qiymətləndirdiyindən, onun tərəfində romalılara qarşı çıxış etdi. Romalılar Sirakuza çarı II Hieronun ordusunu darmadağın etdilər. I Puniya müharibəsi başa çatanda Siciliyanın Karfagen hissəsi Roma əyalətinə çevrildi, Hieron isə Roma protektoratını qəbul etməli oldu. İkinci Puniya müharibəsində Sirakuza şəhəri romalılar tərəfindən zəbt edildi və Roma əyaləti olan Siciliyanın ərazisinə əlavə edildi.

Ellinist dövlətlər sistemində Perqam çarlığı da böyük rol oynayırdı. Onun iqtisadi çiçəklənməsinə birinci növbədə əlverişli təbii şəraiti köməklik edirdi. Perqam xeyli taxıl artıqlığına malik idi, Misirlə birlikdə iri buğda ixracçısı idi. Perqamın zeytun yağı əcnəbi bazarlarda satılırdı, yunu və dərisi özünün məşhur toxuculuq və perqament emalatxanalarında emal olunurdu. Burada istehsal edilən zərgərlik malları, perqament yazı materialı, qızıl saplardan istifadə etməklə toxunan məşhur Attalid parçası da daxil olmaqla müxtəlif növ toxuculuq malları bütün Aralıq dənizi hövzəsində şöhrət tapmışdı.

Pont çarlığının əsasını Əhəmənidlər nəslinə məxsus olan I Mitridat Ktist qoymuşdu. Sonralar Pont çarları Selevkidlər evi ilə qohumlaşmışdılar. Pontun ciddi güclənməsi I Farnakın idarəçiliyi dövründə baş vermişdi. M.ə. 183-cü ildə o, Qara dəniz sahilindəki Sinopanı tutub, onu öz dövlətinin paytaxtı etdi. Məşhur VI Mitridat Yevpator isə başa düşürdü ki, Roma onun barışmaz düşmənidir və bütün həyatını bu heybətli əleyhdarı ilə mübarizəyə həsr etdi. Özünün başqa problemləri ilə Romanın başı qarışanda, Mitridat öz dövlətini Kiçik Asiya, Şimali və Qərbi Qara dəniz ətrafı əraziləri hesabına genişləndirdi. O, Kolxidanın dənizətrafı vilayətlərini tutdu. O, iri maliyyə və maddi

vəsaitlər toplayaraq, 100 min nəfərlik ordu səfərbər etdi, bir neçə yüz gəmidən ibarət donanma yaratdı. O, Böyük Ermənistan çarı II Tiqranla və qüdrətli Parfiya ilə müqavilə bağladı, Roma ilə ölüm-dirim mübarizəsinə girişdi. Bu müharibələr uzun müddət davam etməklə, m.ə. 63-cü ildə Romanın qələbəsi ilə başa çatdı. Mitridatın idarə etdiyi axırıncı böyük ellinist dövləti darma-dağın edildi və onun yerində yeni Roma əyalətləri yaradıldı.

## Ellinist mədəniyyəti

Ellinist hökmdarları öz paytaxtlarını təkcə öz dövlətlərinin deyil, həm də ellinist dünyasının böyük mədəni mərkəzlərinə çevirirdilər. Çar saraylarında ellinist dünyanın bütün bucaqlarından dəvət edilmiş böyük alimlər cəmləşirdilər. Onlar özlərini saxlamaq və elmi iş üçün vəsaiti dövlətin xəzinəsindən alırdılar. Belə kollektivlər Oront üzərindəki Antioxiyada, Perqamda, Sirakuzada, Afinada və Rodosda yaradılmışdı, lakin ən böyük kollektiv Aleksandriyada Ptolemeylərin çar sarayında idi. Sülalənin əsasını qoyan Ptolemey Soter Aristotelin bir şagirdinin məsləhəti ilə doqquz muzaya həsr olunmuş idarə yaratmışdı və onu muzey adlandırmışdı. Muzey alimlərin yaşaması, mühazirə oxuması və elmi məşğuliyyəti üçün olan otaqların, yerlərin, həmçinin kitabxananın məcmuundan ibarət idi. M.ə. 3-cü əsrin sonunda Aleksandriya kitabxanası yarım milyondan artıq papirus lülələrinə malik idi. Ptolemeylər muzeydə işləməyə bütün ellinist dünyasından ən görkəmli alimləri dəvət edirdilər. Muzeyin başçısı kitabxananın mühafizəçisi idi, o, həm də Misir taxt-tacının varisinin tərbiyəçisi idi. Ptolemeylər Aleksandriya muzeyinin fəaliyyətinə hər cür himayəçilik göstərirdilər, ona görə də muzey yaxşı təşkil edilmiş, özünəməxsus beynəlxalq akademiyaya çevrilmişdi. Ellinizm epoxasının görkəmli elmi kəşflərinin əksər hissəsini Aleksandriya alimləri etmişdilər.

Ellinist mədəniyyəti yunan polis və qədim şərq mədəniyyətlərinin sintezi idi, lakin burada struktur yaradan rol yunan mədəniyyətinə məxsus idi və o yeni mədəniyyətin sifətini müəyyən edirdi. Hamı tərəfindən qəbul edilən dil yunan dili idi və ellinist cəmiyyətinin bütün savadlı təbəqələri bu dil vasitəsilə ünsiyyət saxlayırdılar, bu dildə ellinist ədəbiyyatı yaranırdı. Yerli xalqlardan olan savadlı adamlar yunan mədəniyyətini qəbul etməklə, yunan dilində danışıb, yazırdılar. Əsas mədəni dəyərlərin yaradılmasına da başlıca töhfəni yunanlar verirdilər. Mədəniyyətin başlıca sahələrinin inkişafı da klassik dövrdə yunanların yaratdığı bünövrə üzərində qurulurdu. Bu mədə-

niyyət yeni ideyalarla mayalanırdı.

Dinə gəldikdə, yeni yerlərdə yunan allahlarının ənənəvi kultu ciddi transformasiyaya uğrayırdı. Bu kultlar əslən qədim şərq allahlarından götürülmüş yeni xüsusiyyətləri qəbul edirdilər. Misir ilahəsi İsida xüsusi populyarlıq qazandı, çünki bir çox yunan ilahələrinin funksiyalarını özündə cəmləşdirmişdi. Monoteizm meyli isə bəzi şərq ölkələrində məsələn, İudeyada böyük idi.

Əgər klassik dövrdə böyük olmayan yunan polislərinin geniş vətəndaş təbəqələrinin dünyagörüşünün əsasını dərin vətənpərvərlik hissi təşkil edirdisə, ellinizm dövründə vəziyyət dəyişdi. Böyük insan kütləsinin ellinist dövlətlərin geniş ərazisi ilə daimi yerdəyişməsi, uzaq səyahətlər, hərbi kampaniyalar şəraitində ayrıca insanın öz doğma şəhəri ilə əlaqəsi kəsilirdi, o, özünü o qədər də həmin polisin vətəndaşı (polites) deyil, böyük dövlətin sakini, dünyanın vətəndaşı - kosmopolites hesab edirdi. Bu prosesin nəticəsi kimi, vətəndaş kollektivinin yüksək dəyərləri anlayışı arxa plana keçirdi, fərdiyyətçilik hissi doğulurdu.

Dünyagörüş elmi kimi fəlsəfənin vəziyyətinə yeni baxışlar ciddi təsir göstərirdi. Ellinist fəlsəfənin mərkəzi Afina oldu, burada bir neçə nüfuzlu fəlsəfi məktəb bir-birilə rəqabət aparırdı. Platon və Aristotelin fəlsəfi məktəbləri yaşamaqda davam edirdi. Platonun şagirdlərinin məktəbi Akademiya adlanırdı. Aristotelin ardıcılları isə, onlar peripatetiklər adlanırdı, elmi məsələlərin işlənməsinə daha çox diqqət verirdilər və onların bəziləri öz dövrünün görkəmli təbiət tədqiqatçıları oldular. Belə ki, Feofrast elmi botanikanın banisi oldu, Straton fizika elmindəki görkəmli kəşflərlə şöhrət tapdı.

Yeni fəlsəfi sistemlər: stoiklərin, epikurçuların və kiniklərin fəlsəfəsi meydana çıxdı. Stoik fəlsəfəsi daha populyar idi və onun banisi Zenon idi. O, Kipr adasından Afinaya gəlmişdi, orada öz sistemini işləyib, şəhər aqorasının rəngli portikindən (poykile dayanaraq - buradan "stoik" adı yaranmışdı) moizə edirdi. Stoiklərin fəlsəfəsi üç hissəyə bölündü: fizikaya və ya dünyanın quruluşu və inkişafı haqqında təlimə; məntiqə və ya düzgün düşünüb, öz fikrini aydın izah etmək təliminə; etikaya və ya insan, onun davranışı, həyatının məqsədi və s. barədə təlimə.

Stoiklər yaradıcı başlanğıcı böyük od hesab edirdilər, bu od dünyanın və materiyanın bütün məsamələrinə nüfuz edir. Yaradıcı od keyfiyyətsiz materiyadan keçərək müəyyən müddətə bizi əhatə edən dünyanın bütün görünən rəngarəngliyini yaradır. Müəyyən sikl keçdikdən sonra dünya yanğını baş verəcək və dünyanı məhv edəcəkdir. Sonra ilahi zəkanın gücü ilə onun intibahı, bərpası başlanacaqdır. Bərpa edilən dünya keçmişin tam təkrarı olacaq-

dır: yenidən Sokrat Afina küçələrində adamları öyrədəcək, yenidən onu zəhlətökən arvadı Ksantippa danlayacaq, yenidən o, ittiham olunub, edam ediləcəkdir.

Ancaq stoiklərin fəlsəfəsində başlıca rolu etika oynayırdı, bu insanı əhatə edən dünyada onun yeri və rolu, mövcudluğunun məqsədi barədə elm idi. Stoiklər insana dünyadakı aktiv başlanğıc kimi baxırdılar. O, kosmosun ayrılmaz hissəsidir. İnsanın məqsədi və xoşbəxtliyi, zəkanın qanunları üzrə cərəyan edən və bu dünyanın yaranmasından qoyulan tarazlığı saxlamağa yönəldilmiş şüurlu və aktiv fəaliyyətidir. Kosmosun üzvi hissəsi kimi insan təkcə bir şəhər və ya ayrıca kollektivə deyil, bütün dünyada, bütün gözəl kosmosa, bütünlükdə bəşəriyyətə qayğı göstərməlidir. Onlar insan həyatının məqsədlərindən biri olan, yaxşılığın nə olması barədə məsələnin işlənməsinə böyük diqqət verirdilər. Stoiklərin nöqteyi-nəzərinə görə, yaxşılıq dörd əsas keyfiyyətin olmasını tələb edir. Bunlar ədalət, fərasət, cəsarət və mühakiməlilikdir. Yalnız bu keyfiyyətlərin məcmuu insanın aktiv fəaliyyətini zəka qanununa uyğun, insanlar üçün xoş edə bilər və şəxsi xoşbəxtliyi təmin edər. Stoiklərin kosmosa bütövlükdə, bütün bəşəriyyətə müraciət etməsi və əhalinin ayrı-ayrı təbəqələrinin xüsusi mənafelərinə məhəl qoymaması ilə ümumi bərabərlik haqqında təlimə və təbii hadisə kimi quldarlığın inkarına gəlib çıxdı. Quldarlıq insanın, sosial birgə yaşayış hadisəsi kimi təbiətə ziddir. Stoiklərin bu fikri Aristotelin quldarlığın təbii mənşəyi barədə təlimini təkzib etməklə yanaşı, ellinist ictimai fikrinin böyük nailiyyəti oldu.

Digər populyar fəlsəfi sistem Epikur (m.ə. 341-270-ci illər) fəlsəfəsi idi. Onun təlimi də üç hissəyə bölünürdü: fizika, məntiq və etikaya, lakin stoiklərdən fərqli olaraq onların təliminin əsasını dünyanın quruluşu və hərəkəti haqqındakı təlim (fizika) təşkil edirdi. Epikur allahların mövcudluğunu etiraf edirdi, lakin onları nəhayətsiz təbiətin təzahürlərindən biri hesab edirdi. Onlar kainatın məsamələrində yaşayır və təbiətin və insanların həyatında hansısa bir iştirakda olmurlar.

Epikurun təliminə görə insan hərəkət edən materiyanın törəmələrindən biridir və ona görə də o, özü öz həyatının, öz xoşbəxtliyinin yaradıcısıdır. İnsanın xoşbəxtliyi xoşagəlməz hissetmələrin kənarlaşdırılmasından, sadə, pəhrizkar həyat tərzindən, zahiri dünyanın həyacanlarından uzaqlaşmaqdan ibarətdir. Onun başlıca etik-ehkamı bu idi ki, "nəzərə çarpmadan yaşa", həyat mənasızlığından uzaq ol, öz dostlarının mühitində yaşa. Yalnız guşənişinlik həyatı tam ruhi sakitlik, ataraksiya adlanan yüksək insan səadətini yarada bilər.

Kinik fəlsəfəsinin əsasını qoyan isə Antiseren (m.ə. 440-366-cı illər) idi. Ellinizm dövründə onun fəlsəfəsi şəhər əhalisi arasında çox populyar oldu. Ən məşhur kiniklərdən biri Sinopadan olan Diogen idi. Kiniklər dünyanın quruluşunun təhlil edilməsinə, idrakın qanunlarının öyrənilməsinə biganə idilər. Onlar diqqəti etik problemlərin işlənib hazırlanmasına verirdilər. Onların rəyinə görə sərvət, cəmiyyətdə tutulan mövqe, ailə münasibətləri insanın buxovlarıdır və onu dərindən bədbəxt edir. Bunların hamısından imtina edib, əl altında olan qidalarla qidalanmaq yolu ilə təbiətə müvafiq yaşamaq lazımdır. Ac, saqqal basmış, cındır paltar geyinmiş kiniklər atılmış evlərdə, boş pifoslarda yaşayırdılar, çiyinlərindəki çanta ilə bir şəhərdən başqasına keçib, öz təlimlərini təsadüfi dinləyicilərə və ya yol yoldaşlarına moizə edirdilər.

Bütünlükdə ellinist fəlsəfəsi fəlsəfi fikrin inkişafında irəliyə doğru böyük addım olmaqla, dünya fəlsəfəsini dərin və orijinal ideyalarla zənginləşdirdi və bəşər sivilizasiyasının xəzinəsində fəxri yer tutdu.

Ellinist dövründə müxtəlif janrlarda yazıb-yaratmış 1100 yazıçının adı qalmışdır, bu əvvəlki vaxtlarla müqayisəyə girmir. Yazıçıların sayının çoxluğu oxucuların kütləviliyi və onların tələbatının artması ilə əlaqədar idi. Ellinist şəhərini teatrsız təsəvvür etmək mümkün deyildi. Teatr tikintiləri mürəkkəb arxitektura kompleksi olduğundan, onun layihələşdirilməsinə ən yaxşı memarlar cəlb edilirdi. Bu vaxt teatr tamaşalarından xor kənarlaşdırılır və bilavasitə aktyorlar oynamağa başlayırlar. Onlar maska əvəzinə real insani cizgilərdə və gündəlik geyilənlərə yaxın olan paltarlarda rolu təsvir edirlər. Bu dövrdə də əsasən faciə pyesləri tamaşaya qoyulur, lakin adətlər komediyaları da populyarlıq qazanır. Məişət dramının ən görkəmli nümayəndəsi Afina şairi Menandr idi. Onun komediyaları bütün ellinist aləminə yayılmışdı.

Afina komediya və məişət dramının mərkəzi olduğu kimi, Aleksandriya da ellinist poeziyanın mərkəzinə çevrildi. Burada xüsusi poetik üslub yarandı. Aleksandriya üslubunun banisi muzeyin başçısı və taxt-tacın varisinin tərbiyəçisi Kallimax (m.ə. 310-240-cı illər) idi. O, mifoloji, ədəbi və tarixi mövzularda bir çox əsərlər yazmışdı. Sonralar Roma şairi Katull onun bir süjetini götürüb məşhur "Berenikanın saçı" əsərini yazmışdı.

Kallimaxın digər şəhərlərdən də ardıcılları meydana gəldi. Arat onun "Səbəblər" əsərinə nəzirə kimi "Hadisələr" əsərini yazdı. Nikandr praktiki məsələlər barədə poemalarını qoyub getmişdir. Appoloni Rodoslu epos janrında geniş poema yazmışdı.

Bu dövrdə böyük tarixi əsərlər yarandı. Ən görkəmli əsərlərdən biri Kardiadan olan İeronimin "Tarix"i idi. Tarixçi iştirakçısı olduğu Aleksandrın yürüşündən, m.ə. 272-ci ildə Pirrin ölümünədək olan ellinist dövrünün hadisələrini təsvir edir. Bu əsərdən sonrakı böyük tarixçilərin çoxu istifadə etmişdi. Ellinist tarixçiliyinin zirvəsi isə Polibinin 40 cilddən ibarət olan "Ümumi tarix" kitabı idi. Burada bütün Aralıq dənizi ətrafının m.ə. 146-cı ilədək 75 illik hadisələr qalereyası təsvir edilirdi. Polibi Üçüncü Puniya müharibəsinin qalibi Emilian Stsipionun dostu olmuş, onu Karfagenə yürüşdə müşayiət etmiş və Karfagenin süqutunu bütün dramatizmi ilə qələmə almışdı.

Ellinist monarxları öz paytaxtlarının səliqə-sahmanına, quruculuğuna xüsusi diqqət verirdilər. Aleksandriya (Misir), Oront üzərindəki Antioxiya, Dəclə üzərindəki Selevkiya, Perqam, Rodos, Milet və başqaları geniş küçələri, dəbdəbəli çar sarayları, kölgəli bağları, möhtəşəm məbədləri, teatrları, ictimai təyinatlı binaları, ticarət sıraları, gəzmək üçün portikləri və kollonadaları olan gözəl şəhərlərə çevrilmişdilər. Bu dövrün ən möhtəşəm tikintisi Faros adasında tikilmiş Aleksandriya mayakı idi. Mayakın üç yarusuna vintli yolla qalxan yük heyvanları ilə yanacaq gətirilirdi.

Ellinist heykəltəraşlığı əvvəlki ənənələri qoruyub saxlayırdı. Məhz bu ənənələrə sadiq qalaraq ellinizmin gəminin burnunda təsvir edilən qələbə ilahəsi Nika Samofrakiyalı və bütün dünyada məşhur olan məhəbbət və gözəllik ilahəsi Afrodita Miloslu kimi inciləri yaranmışdır. Bu kamillik və gözəllik nümunələri indi Parisin məşhur Luvr muzeyini bəzəyir.

Bu dövrdə heykəltəraşlığın Perqam məktəbi yaranmışdı. Rodos məktəbi isə görkəmli Lisippin ənənələrini inkişaf etdirirdi. Bu məktəbin incilərindən biri m.ə. 1-ci əsrdə yaradılmış "Laokoon və onun oğlanları" heykəltəraşlıq qrupu idi, burada Troya kahininin və onun oğlanlarının allahların göndərdiyi ilanların sancmasından əzablı ölümü təsvir olunur. Bu məktəbin ən şöhrətli heykəli isə Rodos Kolossu-nəhəngi idi. Bu 30 metr hündürlüyündəki allah Heliosun bürüncdən heykəli olmaqla, Lisippin şagirdi Hares tərəfindən m.ə. 276-cı ildə yaradılmışdı. Heykəl Rodos limanını bəzəyirdi və həm də mayak kimi fəaliyyət göstərirdi. Yarım əsr sonra zəlzələ nəticəsində bu heykəl dağılmış və bir daha bərpa edilməmişdi.

Ellinist epoxasında elmin sürətlə inkişafı onun fəlsəfədən ayrılmasına və insan fəaliyyətinin müstəqil sferasına çevrilməsinə köməklik göstərdi. Bu dövrdə elmi fənlərin diferensiasiyası və ixtisaslaşması baş verdi. Artıq matematika və mexanika, astronomiya və coğrafiya, təbabət və botanika, filolo-

giya və tarix ayrıca elmi ixtisas hesab olunurdu, onların xüsusi problematikası, öz tədqiqat metodları, öz inkişaf perspektivləri var idi.

Matematika və astronomiya böyük müvəffəqiyyətlər qazandı. Bu dövr Aleksdandriyadan olan Yevklid, Sirakuzadan olan Arximed və Pamfiliyadan olan Appoloni kimi görkəmli riyaziyyatçılar verdi. Yevklidin məşhur "Başlanğıclar" əsəri həmin dövrün riyaziyyat ensiklopediyası hesab olunurdu. Onun mülahizələri elementar matematikanın əsasına çevrildi və indiyədək orta məktəblərdə istifadə olunur. Arximed antik matematikanın və fizikanın inkişafına böyük töhfə verdi. O, "pi" ədədinin əhəmiyyətini - çevrənin ətrafının uzunluğunun diametrə nisbətəni hesabladı. O, planetarini icad etdi, şaxtadan və gəminin anbarından suyu çəkmək üçün Arximed vinti adlanan qurğu düzəltdi.

Böyük astronom Aristarx Samoslu dünyanın heliosentrik sistemini işləyib hazırladı. Bütün planetlər, o cümlədən Yer günəş ətrafında fırlanır. Ensiklopedik biliyə malik olan Eratosfen yerin ekvatorunu - dövrəsini ölçüb, onun 39700 km olduğunu müəyyən etdi ki, bu da həqiqətə çox yaxındır. Yer kürəsinin səthini tədqiq edərək Eratosfen bu nəticəyə gəldi ki, İspaniyadan qərbə tərəf üzsən gedib Hindistana çata bilərsən. Bu sonralar digər alimlər tərəfindən də təkrar olundu və Xristofor Kolumb 1492-ci ildə Hindistana, əslində Amerikaya öz səfərinə yollanarkən, bu müddəanı əsas götürmüşdü. Digər görkəmli alim Hipparx günəş ilinin uzunluğunu müəyyən etmiş, bununla da mövcud təqvimdə təshihlər aparmışdı, bundan əlavə o, Yerdən Aya qədər olan məsafəni dəqiq hesablamışdı. O, 800-dən artıq ulduzu daxil etdiyi kataloq düzəltmişdi, burada ulduzların bəzi xüsusiyyətləri göstərilirdi.

Bitkilər haqqındakı elmin banisi isə Aristotelin yaxın şagirdi Feofrast Lesboslu idi. O, "Bitkilərin tədqiqatı" və "Bitkilərin mənşəyi" adlı əsərlər yazmışdı. Təbabətdə də böyük uğurlar qazanılmışdı. Xalkedondan olan Herofil və Keosdan olan Erasistrat qan dövranını kəşf etmiş, əsəb sisteminin mövcudluğunu müəyyən etmiş və digər tədqiqatlar aparmışdılar. Prusadan olan Asklepiad m.ə. 1-ci əsrdə pəhriz, gəzinti, massaj və soyuq vanna vasitəsilə xəstələrin səmərəli müalicə etməsi ilə əfsanələrə səbəb olan nəticələrə nail olduğuna görə şöhrət tapmışdı.

Bu dövrdə filologiya xeyli inkişaf etmişdi. Kallimax maraqlı biblioqrafik sənəd hazırlamışdı və bu əsl tarixi-ədəbi ensiklopediya olmaqla, 120 kitabdan ibarət idi. Homerdən başlayaraq ən tanınmış yazıçılar haqqında Kallimaxın bu "Cədvəllər"ində məlumatlar var idi.

Ümumiyyətlə, yunan təsiri geniş və sürətlə yayılırdı. Hələ bir neçə şəhər-dövlət yarananda, onların adamları, özlərinin dar əlaqələri ətrafında toplaşıb, özlərini lazım olan əşyalar və ehtiyatlarla təmin edib yeni koloniyalar yaratmağa yollanırdılar. Bu yolla Cənubi İtaliyada, Siciliyada və hətta Qərbi Aralıq dənizində ən erkən yunan şəhərləri meydana gəlməyə başladı. Marsilliya (indiki Marsel) şəhəri m.ə. 600-cü illər ətrafında salınmışdı. Sonralar, yunan şəhərləri birləşməyə qadir olmadıqlarından Filipp Makedoniyalının işğalına təslim oldular. O, yunan dünyasının müqayisəli şəkildə kamil olmayan şimal hissəsindən gəlmişdi, onun oğlu Böyük Aleksandr isə Asiyaya fenomenal və işğalçı yürüşünü edərək, bütün Persiyadan keçmiş və Hindistanın özünə çatmışdı. Aleksandrın imperiyası birlikdə saxlana bilmədi, lakin yunan sivilizasiyası Qərbi Aralıq dənizinin kamala çatmamış dünyasına nüfuz etdikdən sonra, Misirin və Şərqin qədim xalqlarını canlandırmağa başladı. Yunan fikri, yunan incəsənəti və yunan dili uzaqlara və geniş ərazilərə yayılırdı. Qədim dövrlərin sonrakı əsrlərinin ən məşhur "yunanları" adətən Yunanıstandan deyil, ellinləşmiş Şərqdən gəlirdi. Onların arasındakı ensiklopediyaların böyük sistemləşdirənlərinin və ya müəlliflərinin vasitəsilə qədim elm sonrakı nəsillərə ötürülmüşdü. Onlara, coğrafiyada Strabonu, təbabətdə Qaleni, astronomiyada Ptolomeyi misal göstərmək olardı. Onların üçü də bizim eranın 1-ci və 2-ci əsrlərində yaşamışdı.

M.ə. 146-cı ildə Yunanıstanda yunanları yeni xalq olan romalılar məğlub etdi. Öz latın dilini saxlayan romalılar bacardıqları qədər yunanların intellektual və incəsənət mədəniyyətlərini sürətlə mənimsədilər.

M.ə. 2-ci əsrin ortalarında ellinist dövlətləri zəifləyir və öz tərkib hissələrinə parçalanır. Bundan iki qonşu böyük dövlətlər - qərbdən Roma, şərqdən isə Parfiya bacarıqla istifadə edirlər. M.ə. 2-ci əsrdə və 1-ci əsrin birinci yarısında Aralıq dənizi hövzəsinin Fərat çayına qədər olan ellinist dövlətlərini bir-birinin ardınca Roma zəbt edir. Parfiya isə Orta Asiyanın, İranın, Mesopotamiyanın şərq ellinist dövlətlərini ələ keçirir və onun qərb sərhədi də Fərata çıxır. M.ə. 30-cu ildə isə Misirin Roma tərəfindən işğal edilməsi ilə ellinist dünyasına son qoyuldu. Lakin bu epoxa özü yoxa çıxsa da, izləri qaldı. Qədim Yunanıstan və ellinizm Roma imperiyası dövründə xalqların sonrakı inkişafını mayalandırdı, elmi və bədii nailiyyətlər isə müasir sivilizasiyanın üzvi və ayrılmaz hissəsinə çevrildi.

# III HİSSƏ.
# PERSİYA İMPERİYASI.

## FƏSİL 1
## Persiya imperiyasının yaranması və inkişafı, ərazidəki sonrakı imperiyalar

Hind-avropa dillərində danışan əhali qrupu Qərbi İranda m.ə. 2-ci minillikdə meydana gəlmişdi və yoxa çıxmışdı, lakin Dəmir dövründə hind-avropa iranlıları yayladakı aparıcı qüvvəyə çevrildilər. M.ə. 9-cu əsrin ortalarından etibarən, mixi yazılarının verdiyi məlumata görə, iranlıların iki başlıca qrupu meydana gəldi, bunlar midiyalılar və persiyalılar idi. Onlardan midiyalılar daha geniş yayılmaqla, daha mühüm qrup idi. Assuriya orduları şərqdə indiki Hamadana hücum edərkən orada yalnız midiyalıları tapmışdılar. Zaqrosdan daha qərbdə onlar qəflətən midiyalılarla qarşılaşdılar, bu xalq yerli, qeyri-iranlı xalqlarla qarışmışdılar. 1-ci minilliyin əvvəllərində İran midiyalıları demək olar ki, artıq bütün Şərqi Zaqrosa nəzarət edirdilər və Qərbi Zaqrosa da axışırdılar. Persiyalılar da həmçinin təqribən həmin ərazilərdə meydana gəlmişdilər. Onlar bir vaxtlar Urmiya gölünə yaxın şimalda, digər vaxtlarda Kirmanşaha yaxın yerlərdə, daha sonralar isə Elam sərhədlərinə yaxınlıqda, həmçinin əlbəttə ki, Fars əyalətində məskunlaşmışdılar. Müxtəlif yerlərdə onlar hərəkətdə olan köçəri tayfalar kimi təmsil olunurdular. Belə güman edilir ki, midiyalılar və persiyalılar Qərbi İrana şərqdən daxil olmuşdular. Onlar məskunlaşmış yerli əhalinin müqaviməti ilə rastlaşırdılar, bu əhali çox hallarda yeni gələnləri geri oturtmaqda Urartuya, Assuriyaya və Elama kömək üçün müraciət edirdilər. Böyük dövlətlər tərəfindən bu yaxşı qarşılanırdı, onlar belə şəraitdən özləri faydalanmaq və iranlılardan həm də özlərinə olan təhlükəyə nəzarət etmək üçün istifadə edirdilər. Midiya çarlığının qüdrəti m.ə. 7-ci əsrdə və erkən 6-cı əsrdə yüksəldi və bütün Zaqrosun iranlaşması getdi.

M.ə. 728-ci ildən 675-ci ilə qədər Midiya çarlığına hökmdarlıq edən Deyos bu dövlətin ənənəvi olaraq banisi hesab olunur və Midiya paytaxtı Ekbatana (indiki Hamadan) şəhərinin əsasını qoymuşdu. Onun varisi və oğlu Fraort persiyalıları özünə tabe etmiş, lakin o, assuriyalılara qarşı olan hücumda

vaxtından əvvəl öz həyatını itirmişdi. Midiya çarı həmin dövrdə persiyalılar üzərində siyasi və hərbi nəzarət əldə etmişdi. 9-cu əsrdən başlayaraq 7-ci əsrin əvvəllərinə qədər artan qaydada köçəri döyüşçü qrupları güman ki, Qafqazdan keçərək Qərbi İrana daxil olmuşdular. Bu qruplar arasında aparıcı qüvvə skiflər idi və onların gəlişi Dəmir dövrü tarixində mühüm dönüş nöqtəsi oldu. Midiya sülalə tarixində Skif aralıq hökmranlığı baş verdi, bu Fraortla Kiaksarın hökmranlıqlarının arasındakı dövrə təsadüf edir, m.ə. 653-cü illə 625-ci ilin arasındakı müddəti əhatə edir. Skiflər Midiya ilə birlikdə Assuriyaya ciddi təhlükə törədirdilər. Görünür skiflər könüllü qaydada Qərbi İrandan geri çəkildilər və tezliklə Midiya hegemonluğu altındakı federasiya tərəfindən absorbsiya olundular. Kiaksar Midiya ordusunu xüsusi silah növləri əsasında birliklərə bölməklə Midiya ordusunu yenidən qurdu, bunlar nizə daşıyanlar, oxatanlar və süvarilər idi. Birləşdirilmiş və yenidən qurulmuş Midiya assuriyalılarla vuruşa bilərdi. Onlar mühüm Assuriya sərhəd şəhərinə hücum etdilər, 614-cü ildə Nineviyanı mühasirəyə aldılar, lakin onu təslim edə bilmədilər, əvəzində Assuriyanın dini paytaxtı Aşuru hücumla tutdular. Babilistanla Midiya arasındakı ittifaq Kiaksarın qız nəvəsinin II Nabuhadanasora nişanlanması ilə möhürləndi. 612-ci ildə Nineviyaya hücum təzələndi və şəhər təslim oldu. Babilistanlılar döyüşdə iştirak etməyə çox gec gəldilər. Babilistanlılar və midiyalılar birlikdə qaçan assuriyalıları qərbdə Suriyaya daxil olana qədər qovdular. Assuriyalılar kömək üçün Misirə müraciət etsə də, bu kömək çox cüzi idi və sonuncu Assuriya hökmdarı m.ə. 609-cu ildə tarixdən qeybə çəkildi.

Bu vaxt qaliblər arasında qəniməti necə bölüşdürmək problemi meydana çıxdı. Babilistanlılar münbit aypara ərazisindəki Assuriya torpaqlarına, onların müttəfiqləri isə bütün dağlıq zonalara sahib oldular. Midiya şərqi Anatoliya torpaqlarına və bir vaxtlar Urartunun bir hissəsi olan əraziyə nəzarəti ələ keçirdilər və Qərbi Kiçik Asiyadakı aparıcı siyasi qüvvə olan lidiyalılarla müharibə mübahisəsinə girdilər. M.ə. 585-ci ildə Midiya ilə Lidiya arasında sülh bağlandı və Halis çayı iki çarlığın sərhədi oldu. Kiaksar öləndə geniş əraziyə nəzarət edirdi, bu ərazi Halis çayına qədər olan bütün Anatoliyadan, Qərbi İranın şərq tərəfindən, indiki Tehran ərazisi və Fars daxil olmaqla bütün Cənubi-Qərbi İrandan ibarət idi. İranlı və qeyri-iranlı kimi müxtəlif xalqların məskunlaşdığı bu ərazilər konfederasiya forması aldığından, qədim İranın çar titulu şahlar şahı - şahənşah adlanırdı.

Midiya taxt-tacında Kiaksarı oğlu Astiaq (m.ə. 585-550-ci illərdə hökmranlıq etmişdir) əvəz etdi. Babilistanla ittifaq yaxşı vəziyyətdə deyildi və

müttəfiqi Midiyanın qüdrətindən qorxurdu. Axırıncı başqalarına heç bir təhlükə törətmirdi, çünki Astiaqın özü hücum altında idi. Tezliklə Astiaq və midiyalılar İran dünyasında qalxan qüvvə olan Persiya çarı Böyük II Kir tərəfindən məğlub edildilər. Herodot əfsanələrdən istifadə etməklə bunu təsvir edir. Persiyalıların hökmranlıq edən sülaləsi İranın cənubi qərbindəki Farsda məskunlaşdılar. Onların əcdadları Əhəmənlər hesab olunur. Əhəmənlərlə II Kir arasında üç hökmdar olmuşdu: onlar Teysi, I Kir və I Kambis idi. I Kambis Persiyanı yenidən birləşdirərək, onu Midiyanın vassalı kimi idarə edirdi. Onun oğlu II Kir Astiaqın qızına evlənib, m.ə. 559-cu ildə Midiya konfederasiyasında öz atasının mövqeyini vərəsə kimi qəbul etdi, onun sonralar titulu Böyük Kir oldu. O, böyük şəxsiyyət idi və güman ki, yaxşı da çar idi. O, öz hakimiyyəti altında öz atasının nəzarətində olmayan bir sıra Persiya və İran qruplarını birləşdirdi. Sonra o, Babilistan çarı Nabonid ilə diplomatik mübadilələrə başladı, bu isə assuriyalıları narahat edirdi. Labüd olaraq o, Midiyaya qarşı açıqca üsyan qaldırdı, onlara döyüşdə qalib gəldi və müəyyən sayda Midiya döyüşçüsü Persiya ştandartının altına fərarilik etdi. Beləliklə m.ə. 550-ci ildə Midiya imperiyası ilk Persiya imperiyasına çevrildi və Əhəmənid şahları qəflətən beynəlxalq səhnədə göründü və bu çoxlarını qorxuzdu.

Kir birbaşa öz işğallarını genişləndirməyə başladı, babilistanlıları Persiyadan qorxmamağa inandırdıqdan sonra üzünü əfsanəvi dərəcədə varlı olan Krezin hökmdarlığı altındakı lidiyalılara qarşı döndərdi. Onun adından "Krez kimi varlı" ifadəsi dillərə düşmüşdür. Lidiyalıların Babilistana müraciəti heç bir nəticə vermədi. Sonra o, Silikiyanı tutdu, Lidiyaya kömək gələ bilən yolları kəsdi. Krez preventiv müharibəyə başlamaq üçün hücum etdi və Halis çayı üzərində m.ə. 547-ci ildə döyüş getdi. Herodotun yazdığına görə, birbaşa hücum barədə Krez Delfidə orakulla məsləhətləşmiş və belə cavab almışdı ki, əgər o, Halis çayını keçsə, böyük xalqı məhv edəcəkdir. O, bunu etdi, lakin öz xalqını məhv etdi. Vuruş mövsümündə bu gec olduğundan lidiyalılar müharibənin həmin ili başa çatdığını düşünüb, öz paytaxtları Sardıya qayıtdılar və milli könüllülərini buraxdılar. Kir isə gəlib lidiyalıları Sardı qalasında mühasirəyə alıb, 546-cı ildə Krezi əsir götürdü. Kiçik Asiyanın qərb sahilindəki şəhər-dövlətlər bundan əvvəl Lidiya nəzarəti altında olduğundan, yalnız Milet vuruşmadan təslim oldu, digərləri isə ardıcıl olaraq Persiya orduları tərəfindən məğlub edildi. Kir özünü hər yerə çatdırırdı, lakin Sardının tutulması ilə, 540-cı ildə Babilistan kampaniyası arasındakı dövrdə onun fəaliyyəti barədə az şey məlumdur.

Babilistanın işğalında olduğu qədər Kirin siyasi və hərbi dühası belə üzə çıxmamışdı. Lidiya ilə müharibə ərzində o, babilistanlıları arxayın salaraq onları fəaliyyətsizliyə düçar etmişdi, onlardan taleyin üz döndərməsi gələndə dönüb Babilistanı potensial müttəfiqdən məhrum etmişdi. O, dövlətin daxilindəki narazılıqlardan da maksimum fayda götürmüşdü. Nabonid Babilistanda populyar çar deyildi. O, dövlətinin daxili işlərinə çox az diqqət yetirirdi, yerli keşişləri də özündən uzaqlaşdırmışdı. İkinci İsayya Babilistandakı əsir yəhudilərin çoxu adından danışanda Nabonidin təbəəsi olmaqla, Kirə potensial xilaskar kimi baxırdı. Babilistana qarşı hərbi kampaniya qeyri-adi çətinlik yaratdı. Yaxın Şərqin ən iri şəhərinin tutulması sürətlə getdi. Kir m.ə. 539-cu ildə şəhərə daxil oldu, şəhərdəki allah Mardukun heykəlinin əlindən yapışmaqla, özünü əcnəbi işğalçı kimi deyil, ölkəni babilistanlı kimi idarə edəcəyi əlamətini nümayiş etdirdi və çoxları tərəfindən taxt-taca qanuni varis kimi qarşılandı. Bir iri addımla Kir Persiya dövlətini Misir sərhədlərinə çatdırdı. Onun oğlu və varisi II Kambis Misirə qarşı uğurlu kampaniya başladı, bu reydə hazırlıq Kirin rəhbərliyi altında aparılmışdı. Lakin Persiya dövlətinin banisi hökmranlığının sonunda döyüşkən tayfalardan öz hüdudlarını qorumaq üçün diqqətini şərqə tərəf döndərmişdi. M.ə. 529-cu ildə Kir Mərkəzi Asiyada Yaksart (Sır-dərya) çayının şimali-şərq sərhədində massaget köçəriləri ilə vuruşarkən həlak olmuşdu.

Böyük Kirin ölümündən sonra imperiya onun oğlu II Kambisə keçdi. Bu vaxt imperiyada müəyyən dərəcədə iğtişaşlar var idi. Kambis 525-ci ildə Misirə qarşı kampaniya apararkən arxasını təhlükəsiz etmək üçün gizlincə öz qardaşını öldürtmək qərarına gəldi. 26-cı sülalədən olan faraon II Ahmoz müdafiə üçün yunan muzdluları tutmuşdu, lakin yunanlar ona xəyanət etmişdilər. Kambis düşmənin Sinay səhrasını uğurla keçməyi bacardı, bu səhra Misirin birinci və möhkəm müdafiə xətti idi. Peluziya döyüşündə misirlilər uduzdular və Memfisə geri çəkildilər. Şəhər persiyalılara təslim oldu. Sonrakı kampaniyalar isə uğursuz oldu. Bunlardan biri Karfagenə qarşı aparılmışdı, lakin persiyalıların donanmasının onurğa sütununu təşkil edən Finikiya dənizçiləri öz koloniyalarına qarşı oraya üzməkdən imtina etdilər. Nildən qərbdəki Misir səhrası olan Amon vadisinə qarşı bir kampaniya isə, Herodota görə, güclü qum qasırğasında məğlub edildi. Digər bir döyüşü isə Kambis özü Nubiyada apardı. Bu cəhd bir qədər uğurlu olsa da, ordu geri dönəndə ərzağın olmamasından əziyyət çəkdi. Misir üç başlıca məntəqədə qarnizonlaşdı. Elefantindəki qarnizonda qoşunların əsas hissəsi yəhudi muzdlularından formalaşdırılmışdı.

M.ə. 522-ci ildə Kambis, İranda özünü onun öldürülmüş qardaşı kimi qələmə verən adamın başçılıq etdiyi qiyam xəbərini aldı. İmperiyanın bir neçə əyaləti yeni hökmdarı qəbul etdi, o, təbəələrinə üç illiyə vergilərin bağışlanmasını vəd etmişdi. Nəzarəti ələ keçirmək üçün vətəninə tələsən Kambis öldü. Onun ordusunun aparıcı generalı Dara və Əhəmənid ailəsinin hökmdarlarından biri öz qoşunları ilə vətənə tərəf yürüşə çıxdılar ki, özləri üçün faydalı olan qaydada qiyamı yatırsınlar.

Sonralar Böyük adlanan I Dara taxt-taca saxta iddiaçı olan Bardiyanı devirdi və öz hökmranlığının birinci ilində Bisitun dağının ətəyində qayanın üstündə öz məşhur şahlığının hadisələrini nəqş etdirdi, bu abidə indiki Kirmanşahın şərqində, ondan bir neçə mil aralıdadır. Altı aparıcı Əhəmənid kübarı saxta Bardiyanın öldürülməsində ona kömək edib, birlikdə Daranı Kambisin tam hüquqlu varisi elan etdilər. Dara Əhəmənid şah evinin üzvü idi. Onun ulu babası Teyspin oğlu idi, axırıncı isə öz qardaşı I Kirlə Persiya hakimiyyətinin şəriki idi. Atası Histasp isə Persiya şahı olmamışdı, birləşmiş şah hakimiyyəti Kiaksardan I Kambisin əlinə keçmişdi. Lakin o, mühüm qan prinsti idi, Bardiya qiyamı qalxanda isə Parfiyanın valisi idi. Dara özü Böyük Kir tipində idi, güclü şəxsiyyət və qüdrətli hökmdar kimi tanındı.

Bardiyanın taxt-taca iddiası ilə bağlı olan qiyamı yatırmağa və Daranın hakimiyyəti öz üzərinə götürməsinə, çətin mübarizəyə həsr olunan bir ildən çox vaxt lazım oldu. İmperiyanın hər bir əyaləti, Persiya və xüsusən Midiya daxil olmaqla, bu mübarizəyə cəlb olunmuşdu. Qiyam başçılarından hər birinin tutulub cəzalandırılması ilə loyal qüvvələrin yaxşı koordinasiya edilməsinin birləşdirilməsi imperiyaya sülh, Daraya isə şübhə edilməyən hakimiyyət bəxş etdi. Sonra o, diqqətini qəbul etdiyi irsin təşkil olunmasına və konsolidasiyasına yönəltdi, bu məsələlərdə onun rolu qanun verməkdən və təşkilatçılıqdan ibarət idi. Bu fəaliyyət Daranın sonrakı aktiv ekspansionist siyasətinə mane ola bilmədi. Şərqdəki kampaniyalar Böyük Kirin əldə etdiklərini möhkəmləndirdi və Persiyanın nəzarət etdiyi əyalətlər siyahısına Şimali Hindistan subkontinentindəki iri bölmələr əlavə olundu.

Kambisin varisi I Dara m.ə. 521-ci ildən 486-cı ilə qədər Persiyaya hökmranlıq edəndə öz sələflərinin hərbi yolla əldə etdiklərini, Persiya dövlətinin inzibatçılığını yaxşılaşdırmaqla konsolidasiya etdi. Böyük Dara, onu adətən belə adlandırırdılar, imperiyanı satrapiya kimi tanınan əyalətlərə böldü, bu əraziləri satraplar adlanan valilər idarə edirdilər. Onlar geniş hakimiyyətə malik idilər və illik bacları mərkəzi hökumətə göndərməyə borclu idilər. Yəhudi çarlığı kimi vassal dövlətlər də Persiya hökumətinə illik bac

göndərirdi. Kirin dözümlülük siyasətinə hörmətlə yanaşan Dara Persiya imperiyasının pers olmayan müxtəlif xalqlarına icazə verdi ki, standartlaşdırılmış valyuta, çəki və ölçü sistemləri olduğu halda, öz yerli institutlarının çoxunu saxlasınlar. Məsələn, Daranın Misirdəki satrapı qədim misirlilərin məbədlərini bərpa etdi və yerli keşişlərlə məsləhətləşərək Misir qanunlarını kodifikasiya etdi.

Monarxiyanın ilahi hüququ təcrübədə mülayimləşirdi, yumşalırdı. Vətəndaş müharibəsi dövründə Daraya köməklik göstərmiş böyük Persiya kübar ailələrindən altısı xüsusi hüquqlara malik idi. Kübarlar müşavirlər, qulluqçular idi və müharibə vaxtı isə süvari qoşunlarında xidmət edirdilər. Gənc kübarlar kadet məktəblərində "at çapmağa, nizə gəzdirməyə və həqiqəti deməyə" öyrədilirdilər. Persiyalı icma üzvləri vergilərdən azad edilirdi, onlar ağır piyada qoşunlarının, çarın "ölməzlər" mühafizəçiləri daxil olmaqla, ən qüvvətli hissələrini təşkil edirdilər. Persiyalılar qarnizonda xidmət edənlər və qulluqçular kimi bütün imperiya ərazisinə yayılmışdılar.

İmperiyanın özü bac verən çarlıqlara və böyük əyalətlərə bölünmüşdü. Bu əyalətlər Midiya sözü olan *satrap* və ya vali ifadəsindən əmələ gələn *satrapiya* adlanırdı. Dara dövründə 20 satrapiyanın hər birindən pulda ifadə olunan müəyyən miqdarda vergi, həmçinin at və digər zəruri nemət tələb olunurdu, onlar Persiya donanması və ordusu üçün gəmiləri komanda heyəti ilə və ya əsgərlərlə təchiz edirdi. Satraplar faktiki olaraq yerli çarlar idi, onlar çox vaxt öz vəzifələrini vərəsə kimi qəbul edirdilər və yerli idarəetmədə və xarici işlərdə geniş hakimiyyətə malik idilər. Lakin onlar çar tərəfindən təyin edilmiş katiblər, qarnizon komandirləri və çarın "gözü və qulağı" adlanan ezam olunan müfəttişlər tərəfindən yoxlanırdı. Ekbatana və Babillə birlikdə mərkəzi paytaxt Suzadan çıxan yollar ölkənin digər bucaqlarını radius şəklində birləşdirməklə xeyli yaxşılaşdırılmışdı. Lakin heç də bütünlükdə demək olmazdı ki, Persiya imperiyası Assuriya dövlətinə nisbətən daha səmərəli təşkil olunmuşdu və ya Persiya ordusu daha effektiv qüvvə idi. İmperiyada yerli idarəetmə üslublarına və yerli adətlərə ümumən yəhudilər arasında olduğu kimi dözümlülük göstərilirdi, yəhudilər Yerusəlim ətrafında məbəd-dövlət yaratmışdılar. İmperiyanın iqtisadi cəhətdən daha irəli çıxmış hissəsi xüsusi olaraq tərəqqi edən kimi görünmürdü, lakin onlar dinclik dövründən, yaxşı kommunikasiyalardan fayda götürürdülər və stabil darik qızıl və gümüş şekel sikkələri, xüsusən yunan təbəələri və muzdlu əsgərlər üçün mübadilə vasitəsi rolunu oynayırdı. İmperiyanın şimal və şərq mahalları artıq irriqasiya sistemlərini və əsas vahələrdəki şəhərləri inkişaf etdirməyə

başlamışdılar, sivilizasiya yolu ilə daha da tərəqqi edirdilər.

Persiya çarı Misirdə faraonları əvəz etdi və yer üzərindəki allah hesab olunurdu. Babildə, Kirə görə Marduk mömin hökmdar axtarırdı və onu Kirin şəxsində tapmışdı. Persiyalılar arasında Dara zoroastrian olduğuna görə "Ahura Mazda öz mərhəməti ilə Daranın çar olduğunu" elan etmişdi.

Dara həm də böyük qurucu idi. O, yeni çar iqamətgahı tikdirmişdi və onu yunanca Persepolis - "Persiya şəhəri" adlandırmışdı, bu həmin vaxtdan Persiyanın mərasim paytaxtına çevrildi. Üstəlik o, Nil çayından Qırmızı dənizə kanal çəkdirdi və Suriya səhrasının kənarına qədər, həmçinin Persiya yaylasında irriqasiya sistemləri qurdurdu. Onun ictimai işlərindən ən görkəmlisi yollar sisteminin yaradılması idi. Bu yollar ticarəti və kommersiyanı genişləndirmək məqsədini güdürdü. Onun məşhur yollarından biri "çar yolu" olmaqla İran körfəzi yaxınlığındakı Suzadan Egey dənizi yaxınlığındakı Efesə qədər uzanırdı. Bu yolun uzunluğu üç aylıq səfərə bərabər idi, əsrlər boyu yunan səfirləri, tacirləri, bilik adamları və müharibə əsirləri həmin məsafəni bu yolla qət etmişdilər. Bu yol uzunu ilk "poçt sistemi" yaradılmışdı. Bu sistemlə xəbərlər və əmtəələr bir poçtdan digərinə çatdırılırdı, hər poçt at belində bir günlük çapmaq məsafəsilə ölçülürdü. Hər poçtda təzə at və çapar "poçtalyondan" qəbul etdiyini digərinə daşımağa hazır idi. Herodot "çar yolu" üstündəki Persiya xəbər daşıyıcılarına çox böyük qiymət vermişdi və ABŞ Poçt Offisi məhz bu tərifdən "nə qar, nə yağış, nə isti, nə gecənin qaranlığı bu əyanların öz təyin edilmiş səfərini sürətlə başa çatdırmalarını dayandıra bilməzdi" sözlərində ifadə olunan prinsipdən öz devizini götürmüşdür.

Qərbdəki ekspansiya isə m.ə. 516-cı ildə başlandı, bu vaxt Dara Qara dənizin qərb və şimal sahillərindəki skiflərə hücum etmək üçün ilk addım kimi Hellesponta qarşı hərəkət etdi. Həqiqi strateji niyyət ondan ibarət idi ki, yunanların Qara dəniz zonası ilə ticarətini kəssin, bu zonanın üzərinə isə Yunanıstanın taxıl təchizatının çox hissəsi düşürdü. İlk dəfə olaraq Avropaya keçən Dara Dunayın şimalında müqayisəli şəkildə kiçik uğur qazandı. O, yaxşı vəziyyətdə, yalnız azacıq itki ilə geri çəkildi və Hellespontun o tərəfində platsdarm yaradıldı.

Bu nailiyyətlərə görə, yaxud da sırf daxili səbəblər ucbatından Kiçik Asiyanın qərb sahilindəki İoniyanın yunan şəhərləri m.ə. 500-cü ildə Persiya hökmdarına qarşı qiyam qaldırdılar. Persiyalılar buna açıqca təəccüb qalmışdılar və ilk vaxtlarda qiyam yaxşı gedirdi. İonlular Afinadan azacıq kömək aldılar və hücumu qarşılamaq üçün özlərinin möhkəm dayandıqlarını hiss et-

dilər. Dara isə bir tərəfdən danışıqlar aparır, digər tərəfdən əks-hücuma hazırlaşırdı. İlk Persiya hərbi cəhdi yalnız qismən uğurlu oldu, ionlular sonrakı ildə digər bir fasilə əldə etdilər. 494-cü ildə persiyalıların təzələnən hücumu uğurlu oldu. Yunan donanması Milet yaxınlığında ağır məğlubiyyətə uğradı və Persiya piyada ordusu qiyam qaldırmış şəhərləri tuturdu. M.ə. 492-ci ildə Daranın kürəkəni Mardoni İoniyaya xüsusi müvəkkil təyin olundu. O, yerli tiranları əzdi və şəhərlərin çoxuna demokratik idarəçiliyi qaytardı. Ötən dövrdə qiyamın və onların yatırdılmasının vurduğu yaralar sağaldılırdı və artıq 481-ci ildən Kserks öz regionundan qoşun yığmağa qadir idi. 492-ci ildən Mardoni Persiya Frakiyasını və Makedoniyasını bərpa etmişdi, birinci skiflərə qarşı kampaniyada əldə edilmişdi və İoniya qiyamı vaxtı itirilmişdi.

Böyük Dara geosiyasi strategiyasında bir nəhəng səhvə yol verdi. O, Persiya imperiyasının hegemonluğunu Yunanıstana da keçirmək istədi. Kirin Lidiyanı işğal etməsindən sonra Kiçik Asiyanın qərb sahillərində yerləşən və yunan dilində danışan şəhərləri də Persiya idarə edirdi və Persiya hökmranlığının necə dözümlülük göstərməsindən asılı olmayaraq bu şəhərlər bütün digər yunan şəhər-dövlətlərin azadlığı nöqteyi-nəzərindən öz azadlıqlarını əldə etmək istəyirdilər. Nəticədə, m.ə. 499-494-cü illərdə Asiyanın qitədə yaşayan yunanları öz müstəqilliyi uğrunda müharibəyə başladılar və qısa müddətdə Afinadan qoşun köməkliyi aldılar və onlar asiyalı yunanlara birləşib, Persiyanın regional inzibati mərkəzi olan Sardının qızışdırılmasında iştirak etdilər. Dara üsyanı yatırdıqdan sonra öz yunan təbəələrinin xarici yunanlardan bir daha kömək almamasından ötəri 490-cı ildə Egey dənizindən keçərək Afinanı cəzalandırmaq üçün qoşunlar göndərdi və istədi ki, bütün Avropa yunanları bilsinlər ki, o, həmin vaxtdan onların hamısının himayəçisi olmaq niyyətindədir. Təəccüblü bu oldu ki, afinalılar m.ə. 490-cı ilin avqustunda Marafon döyüşündə Persiya qoşunlarını məğlub etdi.

"Böyük şah" geri çəkilməyə məcbur edildi və yunan problemi ilə üzləşməli oldu. Bu persiyalılara imperiyanın qərb qurtaracağında kiçik əhəmiyyətli məsələ kimi görünürdü, lakin daha yaxşı hazırlanmış görülmüş və böyük səy tələb edirdi. Bununla da Yunanıstana böyük əlaqələndirilmiş miqyasda müdaxiləyə hazırlıq görülməyə başlandı. Bu planı 486-cı ildən iki hadisə yarımçıq qoydu - Misirdə ciddi qiyam baş verdi və Dara öldü.

Daranın arvadı Atossadan olan oğlu Kserks (m.ə. 486-465-ci illərdə hökmranlıq etmişdir) atası taxt-taca çıxdıqdan sonra anadan olmuşdu, onun rəsmi varisi kimi nəzərdə tutulurdu və tac printsi tək şahın valisi kimi Babilistanı idarə edirdi. Yeni şah tezliklə sadə bir kampaniya ilə Misirdə qiyamı

yatırtdı. Sonra Kserks Kir və Daranın yüngül əllə əcnəbi torpaqları idarə etmək siyasətindən əl çəkdi, idarəetmənin Misir formalarına məhəl qoymadı və qiyam edilmiş əyalətlərdə öz iradəsini bütünlüklə Persiya qaydasında həyata keçirdi. Sonra Yunanıstana müdaxilə Babilistanda böyük qiyam qalxması hesabına yenə təxirə salındı və bu qiyam da həmçinin ağır əl vasitəsilə yatırıldı.

Kserks bu vaxt öz diqqətini qərbə, Yunanıstana yönəltdi. M.ə. 481-480-ci illərin qışını o, Sardıda keçirdi və oradan Yunanıstana birləşmiş dəniz və quru müdaxiləsinə başladı. 480-ci ilin yayında Şimali Yunanıstan müdaxiləçilərə təslim oldu, avqustda isə Fermopil keçidindəki qeyri-bərabər döyüşdə persiyalılar heç nəyə nail olmadılar. Persiya quru qoşunları Afina üzərinə yeridilər, Akropolu yandırdılar. Lakin Persiya donanması Salamin döyüşündə uduzdu və müdaxilə həvəsi azaldı, söndü. Asiyadan uzaqda olan Kserks vətənə qayıtdı və sonrakı əməliyyatlar üçün səlahiyyəti Mardoniyə etibar etdi. Müdaxiləyə əsl son Platea döyüşündə, Febanın məğlubiyyəti ilə, bura Persiya yönlü qüvvələrilə möhkəmləndirilmişdi, və 479-cu ildə Mikeladakı Persiya donanmasının itirilməsi ilə qoyuldu. Bu üç məğlubiyyətdən Platea itkisi daha həlledici əhəmiyyət kəsb etdi. Mardoni öldürülənə qədər döyüşün nəticəsi hələ şübhə altında olaraq qalırdı, lakin lidersiz qalan, daha pis təşkil olunmuş və zəif intizama malik olan Persiya qüvvələri darmadağın olundu. Persiyalılar intizamlı yunan hoplitlərinin irəli sürdüyü hərbi problemi heç vaxt həll edə bilmədilər. Plateadan sonrakı onillikdə Afina İmperializmi sürətlə qalxdı, Kiçik Asiyanın qərb sahilində iğtişaşlar baş verdi. Egey ətrafında Persiyanın hərbi ambitsiyalarına son qoyuldu. Kserks bu zəhmətlərinə marağını itirib paytaxt şəhərləri olan Suzada, Ekbatana və Persepolisdə rahat həyat tərzinə keçdi. Əhəmənid imperiyasının möhkəmliyini və həyatiliyini taqətdən salan hərəmxana intriqaları isə m.ə. 465-ci ildə Böyük Şahın qətlə yetirilməsinə gətirib çıxardı.

Kserksin ölümü Əhəmənid tarixində başlıca dönüş nöqtəsi oldu. Kserksin bəzi varislərinin cəsarət və bacarığının təsadüfi parıltıları o qədər az idi ki, onlar labüd süqutun qarşısını ala bilmədi və bu imperiyanın tədricən ölməsinə imkan verdi. Kserksdən sonra taxt-tacda olan üç şah - I Artakserks, II Kserks və II Dara müqayisəli qaydada şəxsiyyət və hökmdar kimi zəif idilər. I Artakserks bir sıra qiyamlarla üzləşdi, onlardan ən mühümü 459-cu ildə Misirdə baş verən idi və beş il ərzində tam yatırıla bilmədi. 448-ci ildə Afina ilə sülh imzalandı, persiyalılar Egeydən kənar dayanmaları ilə, afinalılar isə Kiçik Asiyanı Əhəmənidlərə qoyub, oranı tərk etməklə razılaşdılar.

Doqquz il sonra Afina sülhü pozub, Samos adasında hücum həyata keçirdi və persiyalılar bu vuruşdan sonra qərbdə bəzi hərbi fayda əldə etdilər. II Kserks cəmisi 45 gün hökmranlıq etdikdən sonra sərxoş vəziyyətdə atasının kənizlərindən birinin oğlu tərəfindən öldürüldü. Qatilin özü də saray intriqaları vasitəsilə taxt-taca qalxan II Dara tərəfindən öldürüldü.

Bu üç hökmranlıq dövründə baş verən ən mühüm hadisə 460-cı ildən 404-cü ilə qədər davam edən Sparta və Afina arasında gedən Peloponnes müharibəsi idi. Bu şəraitdən Əhəmənidlərin məşhur "Persiya oxatanları" qızıl sikkəsinin buraxılması üçün istifadə edildi. Pulun arxasındakı nəqşdə Persiyanın əvvəlcə bir, sonra digər yunan dövlətini rüşvətlə satın alması bacarığı təsvir edilirdi. Əvvəlcə, persiyalılar Afinanı Spartaya qarşı qızışdırıb, bundan onlarla müqavilə bağlamağı qazandılar. 413-cü ildə Siciliyaya qarşı afinalılar üçün məhvedici kampaniyadan sonra isə persiyalılar artıq Sparta tərəfdən müdaxilə etdi. Sonrakı ildə bağlanan Milet müqaviləsi ilə İran Peloponnes donanmasının adamlarına dənizçilər kimi pul ödəməklə razılaşdığından, əvəzində Qərbi Kiçik Asiyadakı tam sərbəstliyini bərpa etdi. Persiya qızılı və Sparta əsgərləri Afinanın 404-cü ildəki məğlubiyyətini yaxınlaşdırdı. Persiyalılar bir-birinə qarşı olan hər iki tərəfdə özlərinin iştirak etməsindən daha çox fayda götürə bilərdilər. Bu hadisələrə isə şah tərəfindən Suzadan nəzarət olmadığından, Kiçik Asiyadakı iki vali yunan müharibəsində Persiya müdaxiləsinin koordinasiyası üstündə bir-birilə rəqabət aparırdılar.

M.ə. 404-cü ildə taxt-taca gələn II Artakserks 45 il ərzində hökmranlıq etdi. Sparta ilə müharibə persiyalılara əlverişli olan sülh ilə başa çatdı. Misirdə qiyam baş verdi və imperiya onu itirdi. Şahın qardaşı Kiçik Kirin qiyamı və satrapların qiyamı kimi tanınan üsyan baş verdi. Afinaya qalib gələn Sparta öz kiçik imperiyasını yaratdıqdan sonra tezliklə Persiyaya qarşı müharibəyə cəlb olundu, bunun səbəbi yenə də Kiçik Asiyadakı yunan şəhərləri idi. Sparta Anatoliyadakı bir Persiya valisindən digərinə qarşı istifadə edəndə, persiyalılar Spartanın özündə qiyam qaldırmaq üçün Yunanıstana qızıl göndərdi. Persiyalılar öz donanmasını bərpa etdilər və səriştəli Afina admiralı Kononu komandan təyin edildi. Mübahisə 387-ci ilə qədər 13 il ərzində davam etdi. Sağalan Afina Persiyanın köməyi ilə Yunanıstandakı qüvvələr arasında tarazlıq yaratdı. Bir daha yunanlar Kiçik Asiyaya olan iddialarından imtina etdilər və Yunanıstanın özündə status-kvonu dəstəkləməklə razılaşdılar. Misirdə qiyam qalxanda isə Persiya bir şey edə bilmədiyindən, Misir mahiyyətcə müstəqil dövlət kimi qaldı.

Artakserksin taclanması vaxtı onu öldürməyə cəhd edən Kiçik Kir tutulsa

da, şahın anasının xahişi ilə bağışlandı və Kiçik Asiya əyalətinə komandanlığa qaytarıldı. Lakin o, 401-ci ildə yenidən qiyam qaldırdı, ona 10 min nəfər yunan muzdlusu kömək edirdi və taxt-taca sahib olmaq üçün şərqə tərəf yürüş etdi. O, Mesopotamiyadakı döyüşdə məğlub edildi və öldürüldü. Yunan muzdluları darmadağın edilmədilər, qaydalı şəkildə döyüş meydanını tərk edib, Ksenofonun öz "Anabasis"ində nəql etdiyi kimi, Qara dənizə və vətənlərinə olan məşhur yürüşü həyata keçirdilər. Bu hadisə Əhəmənid imperiyasına məxsus olan daxili zəiflik ucbatından baş vermişdi, yoxsa belə böyük insan kütləsi Böyük Şahın torpaqlarının bilavasitə göbəyindən qaçıb qurtara bilməzdi.

379-cu ildən Misirə qarşı kampaniya aparmaq üçün yunan muzdluları bir yerə toplaşdırıldı. Yerli 30-cu sülaləyə qarşı hücum yenə uğursuz oldu. Bu uğursuzluqdan sonra satrapların qiyamı baş verdi. Bir sıra satraplar və ya əyalət valiləri mərkəzi hakimiyyətin əleyhinə qalxdı. Onlardan biri, sonralar Ermənistan satrapı olmuş Aroandas Artakserksə meydan oxumaq üçün o qədər uzağa getdi ki, öz sikkələrini buraxdı. Qiyamçıların baş planı əlaqələndirilmiş hücumu nəzərdə tuturdu. Onlar Suriyadan keçməklə misirlilərin hücumu ilə birlikdə yürüş etməli idilər, axırıncılara isə yunan muzdluları kömək edirdi. Misirdə faraonun qardaşı qiyam qaldırdığına görə misirlilərin hücumu baş tutmadı. Böyük Şahın qəzəbi ilə təkbaşına üz-üzə gələn satraplar Artakserks tərəfindən məğlub edildilər. Aroandas daxil olmaqla bir neçə satrap əfv edildi və onlar öz valiliklərinə döndülər. Başlıca təəssürat ondan ibarət idi ki, satraplar öz əyalətlərinə qayıtmağa və orada Böyük Şahın naminə soyğunçuluq keçirməyə hazır olduqlarını bildirdilər. Anlayırdılar ki, öz əyalət ərazilərində onlar Artakserksin imperiyada malik olduğundan daha artıq hakimiyyətə sahibdirlər.

Qəsd və əks-qəsd, hərəmxana intriqaları və qətl 359-cu ildə III Artakserksi taxt-taca gətirdi. Onun hökmranlığına mane ola biləcək qohumlarının çoxunu sıradan çıxardı, lakin qiyamlar yenə də imperiyanı silkələyirdi. Misiri geri qaytarmaq cəhdi baş tutmadı. Bu hadisə Sidonda, mahiyyətcə bütün Palestina və Finikiyada qiyam qalxmasına səbəb oldu. Kilikiyanın bəzi hissələri qiyama qoşuldu, lakin qiyam elə başladığı ildə də yatırıldı. Lakin əldə edilən sülh müvəqqəti oldu. Febadan və Arqivdən olan muzdlular, Kiçik Asiyanın yunan şəhərlərindən olanlar kimi Misir üzərinə yeni hücum cəhdi üçün toplaşdılar və III Artakserksin başçılığı altında onlar 343-cü ildə uğur qazandılar. Yerli sülalə cənuba, Nubiyaya qaçdı, orada o müstəqil çarlıq kimi dəstəkləndi. Persiya sonra Yunanıstanda yenə pis rol oynadı, makedoni-

yalı II Filippin yüksələn hakimiyyətinə qarşı Afinaya köməklik göstərmək-dən imtina etdi. 339-cu ildə isə Persiya qoşunları Frakiyada makedoniyalılara qarşı təkcə vuruşurdu və sonrakı ili Xeroneya döyüşündə Filipp öz hegemonluğunu bütün Yunanıstan üzərinə genişləndirdi. Birləşmiş Yunanıstan Persiya qızılı üçün keçilməz olacaqdı.

Artakserks yevnux Baqoasın göstərişi ilə öz həkimi tərəfindən zəhərləndi. Həmin şəxs taxt-tacın arxasında hakimiyyətə yiyələnmək ümidi ilə Arsı şah etdi, lakin o, Baqoasın iradəsinə asanlıqla tabe olmurdu. O, şah düzəldəni zəhərləməyə cəhd etdi, lakin özü qisas əsasında öldürüldü. Bu dəfə Baqoas 45 yaşlı, keçmiş Ermənistan satrapı olan III Daranın taxt-taca qalxmasını qurub qoşdu. Saray intriqası nəticəsində şah evinin bir çox üzvü öldürüldü. Dara Misirdəki digər qiyamı yatırmağı bacardı, lakin tezliklə onun sonunun başlanğıcı gəlib çatdı. 334-cü ilin mayında Qranik döyüşündə Böyük Aleksandra məğlub oldu. 330-cu ilin aprelində isə Persepolis işğalçı sərkərdənin əlinə keçdi və sonuncu Əhəmənid şahı olan Dara həmin ilin qışında öldürüldü, bu vaxt o, qaçıb, fatehdən canını qurtarmaq istəyirdi.

Aleksandr öz qələbələrini asanlıqla qazanmırdı. Əhəmənid imperiyasının sonrakı dövrlərində axı çox sayda bədbəxtliklər, qiyamlar, qətllər baş verirdi, zəif şahlar hərəmxana tələlərinə düşürdü, şansları əldən buraxırdı, səfeh siyasət çox ziyan vururdu. Bu qüsurları tarazlaşdırmaq üçün bir çox ləyaqətlərə malik olmayan heç bir idarəetmə uzun müddət yaşaya bilməzdi. Ciddi çətinliklər içərisində olan persiyalılar bu dəfə fatehə qarşı belə ağır vuruşa girməli olmuşdu.

M.ə. 336-cı illə 330-cu il arasında Aleksandr bütöv Əhəmənid imperiyasının işğalını yekunlaşdırdı. 330-cu ildə Aleksandr tərəfindən Persepolisdə şah sarayının yandırılması köhnə qaydanın ötüb keçdiyini və Qərbi Asiyaya yunan sivilizasiyasının daxil olduğunu simvolizə edirdi. Çox sayda yunan və makedoniyalı əsgərlər Mesopotamiyada və İranda məskunlaşdılar. Aleksandr başqa xalqların qadını ilə qarışıq nikahları alqışlayırdı, yunan mədəniyyətinə yaxşı şərait yaradırdı, lakin o, həmçinin çox sahədə Əhəmənid inzibati sistemini saxladı, şərq elementlərini və yunan siyasi institutlarını tətbiq etdi. O, heç bir varis qoyub getmədi. 323-cü ildə onun ölümü nəhəng imperiyaya nəzarət etmək üstündə Makedoniya generalları arasında uzun müddət davam edən dağıdıcı müharibə dövrünün başlanğıcı üçün siqnal rolunu oynadı.

4-cü əsrin sonunda Selevkid I Niktator Aleksandrın ərazisinin Əhəmənid imperiyasını əhatə edən hissəsini öz nəzarəti altında birləşdirdi. Selevk oğlu

I Antioxla birlikdə ali hakimiyyəti öz üzərinə götürdü, iki paytaxtı olan hökumət qurdu. Bu paytaxtlardan biri Suriyada Orot çayının üzərində olan Antiox, digəri isə Babilistanda, Dəclə çayının üzərində olan Selevkiya idi. Asiyanın böyük hissəsi - Egey dənizindən Pencaba qədər, onun səltənətinə məxsus idi. Bu rəngarəng və müxtəlif əhalisi olan dövlətə Yunanıstanda və Kiçik Asiyada yerləşən və buna can atan bir sıra yunan şəhərlərini də əlavə etmişdi. İranın şərqinin işğalını başa çatdıranda və İranı fəth etmək planını cızanda Aleksandr öz imperiyasının gələcəyində mühüm rol oynayacaq iki insan amili ilə ziddiyyətə girdi. Onlardan birincisi Əhəmənid imperiyasının bu hissəsinin qüdrətli yerli kübarlığı idi. Bu kübarlıq əlində nəhəng mülkiyyəti saxlayır və yerli əhali üzərində ağalıq edirdi. İkincisi isə, İranın şimal və şimali-şərq hüdudlarında əsrlər boyu dolaşan köçəri əhali idi.

Aleksandr əsasən Şərqi İran baronlarına məftun olmuşdu. Ona görə də Şimali-Şərqi İranı işğal etmək üçün iki il ərzində ağır və daimi vuruş apardıqda onların cəsurluğunun şahidi olmuşdu. O, öz imperiyasının gələcəyi üçün bunun necə faydalı olduğunu yəqin etmişdi və buna görə də Baktriya kübarlarının məclisini topladı. Göstəriş verdi ki, Makedoniya hərbi təlimlərinə öyrədilmək üçün 30 min gənc seçilsin. O, iranlıların yüngül süvarisinin əhəmiyyətini yaxşı başa düşürdü və onun ordusu Hindistan düzənliklərinə yürüş edəndə bundan istifadə edəcəkdi. Nəticədə, o, işğal edilmiş ölkələrdən birinin başçısının qızına, soqdianalı Roksanaya evləndi və bu, iki irqin birləşməsini simvolizə edirdi. Lakin Aleksandr bu geniş ərazilərdə öz nəzarətini möhkəmləndirmək üçün lazım olan digər tədbirlərdən hali deyildi. O, çox sayda yeni şəhərlərin əsasını qoydu, artıq mövcud olanları abadlaşdırdı, onların çoxunu şimal sərhədlərində mühafizə məntəqələri kimi yerləşdirdi, bu yeni şəhərlərin yarısı "yüksək (şərq) satrapiyalarında" yerləşdirilmişdi. Aleksandrın bu siyasəti tezliklə Selevkidlər tərəfindən yaddan çıxarıldı, onlar yeni şəhərləri əsasən öz qərb torpaqlarında salırdılar.

Selevkidlər Aleksandrdan fərqli olaraq onun inandığı Şərqi İran kübarlığı ilə yaxşı münasibət saxlamırdı. Ona görə də Selevkid imperiyasının tənəzzülündə Selevkidlərin "Makedoniya yönlü" siyasəti mühüm səbəblərdən biri oldu. İnsan amilindən ikincisi olan köçərilər şimal sərhədlərinin arxasındakı nəhəng ərazilərdə yaşayırdılar. Onlar ardıcıl olaraq oturaq əhali ilə vuruşurdular, lakin zərurət ucbatından bəzi hallarda onlarla ittifaq bağlayırdılar. Aleksandr Yaksart (indiki Sır-dərya) çayının sahillərinə gəlib çıxarkən, bura "sivilizasiya olunmuş" dünyanın hüdudu idi. Köçəri dünyası şərqdən qərbə bir neçə min mil məsafədə uzanırdı, köçəri olmayan əhali təhlükənin

necə ciddi olduğunu bilirdi. Aleksandr ilk sərkərdə deyildi ki, köçərilərin içindən qılıncla keçib getməli idi. Əhəmənid imperiyasının banisi olan Kir onlarla vuruşda öz həyatını itirmişdi. Dara da skiflərə qarşı Qara dənizin sahillərindəki kampaniyada böyük məğlubiyyətə uğramışdı. Dövlətin taqətdən düşməsi və süqutu üçün digər səbəblər də var idi, bu səbəblər isə Parfiya hakimiyyətinin tənəzzülündə gözlənilməyən bir rol oynadı. Bir sıra Parfiya hökmdarları həyatı hesabına şahlıq zəifləməkdə davam edirdi.

I Selevk Aleksandrın imperiyasının şərq hissəsindəki ərazilərdə öz nəzarətini konsolidasiya edəndə Hindistan sərhədindəki şərq əyalətləri qiyama başladılar. 304-cü ildə Selevk bu ərazini Çandraqupta Mauryaya - böyük Hind Maurya imperiyasının banisinə qoyub getməli oldu. Bu Selevkidlər üçün ağır itki idi, çünki onlar təkcə Aleksandrın işğal etdiyi hind torpaqlarını itirməmişdilər, həm də İnd çayından qərbdə olan sərhəd mahallarını da itirmişdilər. Bu itkinin əvəzi kimi Selevk 500 fil alıb, onları özü ilə geri, Suriyaya gətirdi. Bu dövrdən başlayaraq Selevkidlər siyasətində qərb aparıcı rol oynamağa başladı. Bu regiona Selevkidlərin marağının itməsi onunla əlaqədar idi ki, onların vətənindən uzaqda məskunlaşan bu icmalar yunanlar üçün yad idi. Bir qədər sonra Marqiana və Ariya şərq əyalətləri köçərilərin müdaxiləsindən əziyyət çəkdi, lakin bu təcavüz dəf edildi və köçərilər Yaksartın arxasına atıldılar. Gələcək müdaxilələrə qarşı Mərv vadisi himayə olunurdu, çünki təhlükə o qədər də uzaqda deyildi. I Selevk və onun varisləri Asiyanı ellinləşdirməyə ümid edirdilər və belə bir iddianı dəstəkləyirdilər ki, yunanlar və makedoniyalılar ali irqdir və ali sivilizasiyanın daşıyıcılarıdır. Şəhərlər və hərbi koloniyalar şəbəkəsi tikilmişdi ki, sakinləri asiyalılar olacaq dövlətin stabilliyinə əminlik yaratsınlar. Yunan dili, xüsusilə yunanların yerli qadınlarla evləndikləri ailələrə və kommersiya ilə məşğul olanlara dərindən nüfuz etmişdi. Lakin m.ə. 2-ci əsrdən sonra yunan-makedoniyalıların immiqrasiyası yavaşıyanda yunan dili öz müstəvisini itirdi və yerli element aparıcı rol oynamağa başladı. İran xalqı, xüsusən də cəmiyyətin yuxarı təbəqəsi, zahiri əlamətlərdən başqa ellinizmdən heç nə əxz etmədilər. Hətta Selevkiyada və ya Suzada yaşayan iranlılar da yunan ideyalarına dərindən uymadılar.

Aleksandrın qələbələri yunanları məlum olan dünyanın hüdudlarına gətirib çıxardı. Lakin Aleksandrın ölümündən bir əsr keçməmiş burada geriyə doğru böyük hərəkat başlandı. M.ə. 3-cü əsrdən başlayaraq sarmatlar Qara dənizin şimal sahilini tutdular. Yaxın qohumları olan skiflər qovulanda onlar sahil boyundakı yunan şəhərlərini "sarmatlaşdırmaqda" uğur qazandılar. Çin

Türküstanında yüeh-çihlərin uzun miqrasiyası başlandı, iranlı xalq olan bu adamlar m.ə. 130-cu ildə Baktriyaya müdaxilə edib, buradakı Yunan-Baktriya səltənətinə son qoydular. B.e. 1-ci əsrində onlar Kuşan imperiyasını yaratdılar, bu dövlət Əfqanıstandan Qanq çayına qədər, Rusiya Türküstanından İnd çayının mənsəbinə qədər uzanırdı. Nəticədə, m.ə. 3-cü əsrin ortasında İranın ərazisindən olan köçəri və yarımköçəri xalq Parfiyadakı Selevkid satrapiyası üzərində hakimiyyəti ələ keçirdi və Parfiya çarlığını yaratdı.

Əhəmənid hakimiyyətini yarım minilliyə bərabər olan dövrdə bərpa edən Parfiya dövlətinin meydana gəlməsi Romanın ekspansiyası ilə bir vaxta düşdü və miladdan əvvəlki üç əsr və bizim eranın iki əsri ərzində dünyanın taleyində böyük əhəmiyyətə malik olan rol oynadı.

Selevkid imperiyası özündən əvvəlki Əhəmənidlər kimi satrapların qiyamlarından silkələnirdi. Qərbdəki çətin vəziyyət və şah evindən gələn ciddi geriləmələr Makedoniya çarlığının zəifləməsini sürətləndirirdi. M.ə. 3-cü əsrdə şərq torpaqlarının itirilməsi Selevkid üçün ağır zərbə idi. Parfiya satrapı Andraqoras qiyama başçılıq etdi. Baktriya satrapı olan yunan Diotos isə onun nümunəsini təkrar etdi. M.ə. 238-ci ildə isə başçıları Arşak tərəfindən rəhbərlik edilən Parnilər Parfiyaya müdaxilə etdi. Parfiya Selevkid imperiyasından ayrılan ilk əyalət idi, ilk dəfə Böyük Daranın taxt-taca çıxması hadisəsi ilə əlaqədar olaraq ayağa qalxmışdı. Andraqoras özünü şah elan etməsə də, öz sikkəsini buraxmaqla müstəqilliyini nümayiş etdirdi. İpək ticarətinin başlıca yolu Parfiyadan keçməsəydi, dağlıq ərazini və böyük mərkəzi səhranı tutan bu satrapiyanın müstəqilliyi təəccüb doğura bilərdi, çünki burada iri kənd təsərrüfatı resursları yox idi. Ticarət yolunun bu ərazidən keçən uzunluğu isə 100 mildən yuxarı idi. Karvanların ödədiyi rüsum yaxşı gəlir gətirirdi. Geniş ölkə olan Baktriya "min şəhərdən" ibarət olmaqla Çinə və Hindistana gedən yolların qovuşduğu yerdə yerləşirdi və burada becərilən münbit torpaq var idi. Diodotun əsasını qoyduğu Yunan-Baktriya çarlığı sürətlə genişləndi, Soqdiana Ariyanı əhatə edərək cənuba və cənubi-şərqə doğru xeyli böyüdü. Qərbdən xeyli məsafədə olan Diodot və onun varisləri yavaş-yavaş öz təbəələrinin adətlərini və həyat tərzlərini qəbul etdilər. Bu bağlar daha bərk dartıldıqca, baktriyalıların loyallığı daha da möhkəm olurdu. Diodotun Selevkidlərdən ayrılması baktriyalılara və soqdianlara öz milli talelərinin reallaşması kimi görünürdü və onlar bu satraplara, onların mənafeyi naminə fəaliyyət göstərən adamlar kimi baxırdılar. Bir əsrdən artıq müddətdə bu çarlıq öz sərhədlərini qoruyub saxladı və köçərilərin yolunu kəsdi.

Parnilərin başçısı Arşak Selevkidlərə qarşı mübarizəsini m.ə. 247-ci ildən başlamışdı, parfiyalılar öz tarixini həmin illə başlayırlar, çünki məhz bu ildə Arşak şah kimi taclanmışdı. Digər İran sülaləsi olan Sasanidlər isə öz eralarını öz ilk monarxlarının taclanması dövründən daha çox, öz dövlətlərinin qurulması vaxtından başlayırlar. Daho-Parno-Parfiya tayfaları hökmdar ailəsinə yaxın olan dairədən "müharibə üçün öz başçılarını, sülh üçün öz hökmdarlarını seçirdilər". Onlar at yetişdirməklərinə görə məşhurlaşmışdılar, bu atlar süvari döyüşləri üçün və yaxşı oxatanlar tərəfindən istifadə edilirdi. Aleksandr onlarla Baktriya kampaniyası vaxtı görüşmüşdü və atlıların səmərəliliyini yunanlar qeyd etmişdilər. Bu xalq patriarxal tayfa təşkilatının ənənələrini qoruyub saxlayırdı. Arşak başda olmaqla parnilər Andraqorası məğlub etdikdən sonra Parfiya əyalətini tutdular. Tezliklə qonşu Hirkaniya da anneksiya edildi və onlar Xəzər dənizinə çatdılar. Arşak özünü Asaak şəhərində taclandırdı və tayfa parfiyalılar adını götürdü, bu xalq onların qohumu olmaqla, adları "sürgün olunmuşlar" mənasını verirdi. Onların dili skiflərinkinə və midiyalılarınkına yaxın idi. Bu xalqın yaratdığı sülalə heç vaxt xalqla bağlılığını itirmədi və çox nadir halda Arşakid sülaləsindən olan hökmdar təhlükə vaxtında öz xalqına tərəf dönməyə bilərdi.

I Arşakın Parfiya və Diodotun Yunan-Baktriya çarlıqları eyni vaxtda və bir-birinin qonşuluğunda meydana çıxdılar. Lakin onların arasında gözə çarpan fərqlər var idi. Baktriyadakı qiyamın arxasında yerli kübarlıq ilə yerli yunan icması arasındakı birlik bunu əmələ gətirən qüvvə dururdu. Hər iki qrup Selevkid sülaləsi tərəfindən təmsil olunan Makedoniya ağalığına qarşı idi. Parfiya çarlığının təsis edilməsi isə fərqli idi. Mahiyyətcə bu dövlət Parfiya sakinləri ilə sərhədlərin kənarında olan qonşu tayfalarla qohumluq üzərində qurulmuşdu. Axırıncılar yarı köçəri, yarı məskunlaşmış etnik kütlə olmaqla İranın şimalında yaşayırdılar. Arşakın və onun adamlarının gücü onların möhkəmliyinə, ruhuna və həm də onların düşmənlərinin zəifliyinə əsaslanırdı. Parfiyada yunan elementi Baktriyada olduğu kimi rol oynamırdı. Bu bir fakt idi ki, parfiyalılar əvvəllərdə yerli yunan əhalisinə düşmən münasibəti bəsləyə bilərdi. Selevkid çarı III Antioxla aparılan müharibə dövründə onlar Hirkaniyadakı bir şəhərdə bütün yunan əhalisini qırmışdılar.

Arşak tayfalar arasında böyük şöhrətə malik idi. Onun adı bu sülalənin hökmdarlarının adı ilə birlikdə qaldı, onlar bir-birini Parfiya dövlətinin dörd əsr yarımlıq mövcudluğu ərzində əvəz etdilər. Bu dövrün sonuna qədər onun obrazı müntəzəm olaraq Parfiya sikkələrinin üz tərəfini bəzəyirdi.

Selevkid paytaxtları ilə Arşakın ələ keçirdiyi ərazinin şərqini birləşdi-

rən kommunikasiyaların kəsilməsi Diodotu çətin vəziyyətdə qoydu. Onun Parfiyaya qarşı hazırladığı kampaniyada II Selevkə kömək etmək istəməsi nəzərə çarpırdı. Lakin onun ölümü və oğlunun onu əvəz etməsi vəziyyəti dəyişdi. Gənc II Diodot öz atasının siyasətini dəyişib, Arşakla birləşdi. Bu Selevkin hələ şərqə qiyamı yatırmağa gəlməsinə qədər baş verməmişdi. Şimalda köçərilərlə yaxın ittifaqda olan Arşak Selevkid ordusu qarşısında zəif olduğunu hiss edib, arasiakların və ya "Sular skiflərinin" ölkəsinə qaçdı. II Selevk Yaksart çayını keçməyə cəhd etdi, lakin köçərilər tərəfindən itkilərə məruz qaldığından qərbdən təşviş doğuran xəbərlər aldığına görə geri, Suriyaya qayıtmağı qərara aldı. Onun suzerenliyini qəbul edən Arşakla sülh bağladı.

Bu vaxtdan etibarən Arşak öz siyasətini dəyişdi. O, heç də uzun müddət köçəri kimi deyil, bir dövlət başçısı kimi Selevkidlərin ləyaqətli varisi kimi hərəkət etdi, onların nümunəsini davam etdirdi. O, özünü taclandırdı, Nisa şəhərinin əsasını qoydu və öləndə də orada dəfn edildi. Arşak bu şəhərlərdə yaşayan yunanların və makedoniyalıların hüquqlarını pozmaq istəyən kimi görünmürdü, onların dəstəyini qazanmağa ümid edirdi. O, İpək yolunun üstündəki Hekatompil şəhərini öz paytaxtı etdi. Onun ölümü m.ə. 217-ci illə 211-ci il arasında tarixlənir. Onun varisi I Artaban, bəzən o, II Arşak kimi tanınır, konsolidasiya işini davam etdirdi. Parfiyada və Hirkaniyada möhkəmləndikdən sonra Artaban Lidiyaya doğru öz torpaqlarını genişləndirməyə cəhd etdi. lakin qonşuluqdakı Yunan-Baktriya çarlığındakı hadisələr onun əleyhinə işlədi. II Diodot köçərilərlə ittifaq bağladığına görə, ellinizmə xəyanət etməkdə ittiham edilərək taxtdan salındı. Taxt-tac başqasına keçdi, bu vaxt III Antioxun başçılıq etdiyi Suriya ordusu Hirkaniyaya gəlib çıxdı.

Şərq satparlarının qiyamlarının dalğası Qərbi İrana da təsir göstərdi. Gənc Böyük III Antioxun hökmranlığının başlanğıcı Midiya və Pers satraplarının narazılıqları ilə əlamətdar oldu. Bu dövrdə onun çarlığı şərqdə Midiyadan, Persdən, Suzadan və Karmaniyadan uzağa getmirdi. I Artabana qarşı onun apardığı əməliyyatlar uğurlu oldu, paytaxtı tutdu. Parfiyadan dağların ayırdığı əyalətə keçib, onu işğal etdi. Artaban müqavimət göstərmək əvəzinə atası kimi dost olan Arasiaka qaçıb, orada sığınacaq tapdı. Selevkidlə Parfiya arasındakı konflikt kompromisslə başa çatdı. Suriya ordusunu gücləndirmək üçün qoşun göndərmək, parfiyalıları borclu etmək əvəzinə III Antiox Artabana çar titulu verdi. Selevkid çarının arxası təhlükəsiz idi, lakin Artabanın dəstəklədiyi iki əyalət qəti olaraq makedoniyalılar tərəfindən itirildi. Antiox kampaniyasından sonrakı dövr sərhəddə və iki illiyə

paytaxt olan Baktranın mühasirəsində Baktriya süvarilərinin güclü müqaviməti ilə əlamətdar oldu. Burada Selevkid çarı sülh bağladı, Baktriya çarının oğlu Böyük Antioxun qızına evləndi.

Baktriyadakı ordusu üçün tələb olunan müharibə fillərini və ərzaq aldıqdan sonra Antiox Hinduquşu keçib Kabil vadisinə daxil oldu, burada o, hind çarı ilə müqavilə bağladı və öhdəsində olan fillərin çoxunu saxlayaraq, quru yolla Cənubi İrana qayıtdı. Onun bu uzun sürən kampaniyasının nəticəsi olduqca kiçik idi, iki çarlığın müstəqilliyini tanımışdı və beləliklə, onlar artıq satrapiyalar deyildi. Mübarizə bu iki çarlığı zəiflətsə də, onların statusunun qanunilik almasından sonra hər iki dövlət öz maddi və hərbi resurslarını yenidən qurmağa başladı. Parfiya çarlığı yenidən ekspansiya fəaliyyətinə başladı. Midiyaya hücum edib, Xəzər dənizi yaxınlığındakı Mardi tayfasını işğal etdi və "Xəzər dənizi qapılarının" müdafiəsini qurdu. Bu Fraat torpaqlarına nüfuz etmək üçün mühüm strateji nöqtə idi. Taxt-tacı böyük oğula vermək barədə tayfa ənənələrindən imtina edərək, çar I Fraat varis kimi qardaşı Mitridatı seçdi və bu seçim heç də səhv deyildi.

I Mitridatın taxt-taca çıxması ilə çarlığın taleyində yeni dövr açıldı, bunu tarixçilər "fil-ellinist" dövrü adlandırır və m.ə. 171-ci ildən başlayaraq b.e. 10-cu ilinə qədər davam edir. Bu dövr möhkəm ellinist mədəni təsiri ilə xarakterizə olunur, bu yunan dilindən istifadədə, xüsusən də incəsənətdə özünü göstərdi, baxmayaraq ki, milli ənənələr bütünlüklə unudulmadı. I Mitridatın hökmranlığının əvvəlindən hərbi, siyasi və iqtisadi sahələrdə parfiyalıların gücü genişləndi. Çar Yunan-Baktriya çarlığına hücum etdi, bu zəiflik dövrünə təsadüf etdi. Sonra o, qərbə tərəf dönüb, özünü Selevkidlərdən müstəqil elan etdi. Öz tam müstəqilliyini göstərmək üçün özünün Selevkid çarlarınkına bənzəyən tacda bir rəsmi olan sikkə buraxdırmağa başladı. Sikkənin arxa tərəfində sülalənin banisi Arşak təsvir olunurdu, onun da rəsmi Selevkidlərin əcdadına oxşayırdı. IV Antiox Epifanın Mitridata qarşı həyata keçirdiyi tədbirlər birincinin ölümü ilə başa çatdı. Onun ölümü makedoniyalıların çarlığının geniş parçalanmasına, çoxlu kiçik dövlətlərə bölünməsinə gətirib çıxardı. M.ə. 160-cı ilə doğru "yüksək satrapiyalardan" çoxu və şərq satrapiyaları Selevkidlər tərəfindən açıqca itirildi. Onları bir yerdə birləşdirməyi bacaran qüvvə yalnız parfiyalılar olmalı idi və I Mitridatın başçılığı altında onlar hücuma başladılar. 155-ci ildə Midiya işğal olundu və Mesopotamiyaya yol açıldı. 148-147-ci illərdə Mitridat Ekbatanaya gəlib çıxdı, buraya öz paytaxtını köçürdü. 141-ci ildə Mitridat Dəclə üzərindəki Selevkiyanı tutdu və Babilistan çarı kimi tanındı. Elə həmin il köçərilərin düşmən hərəkət-

lərindən təhlükə hissə edən şərq torpaqlarını saxlamaq üçün Hirkaniyanı tərk etməli oldu. Öz hökmranlığının qalan hissəsini həmin şərq torpaqlarında keçirdi. Onun şərqdəki çətinliklərindən istifadə edən II Demetri Mesopotamiyanı özünə qaytardı, lakin bir neçə uğurdan sonra məğlubiyyətlə üzləşdi və əsir götürüldü. Hirkaniyaya göndərildikdə o, Mitridatın qızı ilə evləndi və bu ittifaqla Selevk evi ilə qohumluq yarandı.

Atası I Mitridat kimi II Fraat xeyli vaxt şərq əyalətlərində qaldı və parfiyalıların irəliləməsinin qarşısını kəsən axırıncı makedoniyalıların cəhdinə dözməli oldu. Əsir götürülən II Demetrinin qardaşı VII Antiox Sidet güclü ordu yığdı. Fraat bir neçə döyüşdə məğlub oldu, lakin zaman onun xeyrinə işləyirdi. Qışın gəlməsi ilə Antiox öz qoşunlarını Midiyada yerləşdirdi. İntizamsız Suriya ordusundan cana doyan yerli əhali qiyam qaldırdı. Antiox öldürüldü və onun oğlu əsir götürüldü. Midiyalıların loyallığı hesabına Fraat qalib oldu. M.ə. 129-cu il Şərqi Aralıq dənizi hövzəsinin tarixi üçün dönüş nöqtəsi oldu. Yunan-makedoniyalı ağalığı ağır zərbə aldı, bundan yalnız 46 il sonra sağala bildi. Belə görünürdü ki, qərbdə böyük işğallar üçün Fraata yol açılmışdır. Bu isə yalnız köçərilər onu dayandırmasa, baş verə bilərdi. VII Antioxa qarşı mübarizədə zəifləyərək, o, öz sərhədlərinin şimalında olan sak köçərilərinə kömək üçün müraciət etdi, onlara haqq ödəyəcəyini vəd etdi. Kömək istifadə edilmək üçün çox gec gəldi, onu geriyə qaytaranda bu, qiyam qalxmasına və kənd yerlərinin qarət edilməsinə səbəb oldu və onlarla vuruşda Fraat öz həyatını itirdi. Belə tale onun varisi və dayısı olan II Artabanı da gözləyirdi. Saklar xeyli çətinliklə Seyistana doğru geri oturdulmuşdu. Böyük köçəri hərəkatının digər qolu Oks (indiki Amu-dərya) çayını keçib Yunan-Baktriya çarlığının mövcudluğuna son qoymuşdu. Bu dövlətin xarabalıqlarının yerində güclü Kuşan çarlığı yaranacaqdı.

Fil-ellinist dövrünün ikinci səhnəsində Parfiya öz qüdrətinin və ərazi ekspansiyasının epogeyinə çatdı. Bu dövr m.ə. 2-ci əsrin birinci rübündən 30-cu ilə qədər olan ən azı bir əsr yarımlıq müddəti əhatə edirdi. II Mitridatın hökmranlıq dövrü Parfiya tarixinin ən şərəfli fəslini təşkil edir. Bu dövrdə Artabanın oğlu, Mesopotamiyanın valisi kimi atası tərəfindən tərk edilən Himerin ambitsiyalarına son qoyuldu. Şərqdə saklar hərəkətdə idilər, tezliklə müstəqil dövlət kimi Şərqi İran və Hindistana tərəf atılacaqdılar. M.ə. 1-ci əsrdə iki sülalə - hind-skiflər və hind-parfiyalılar Arşakid sülaləsinə yaxın bağlı olaraq qalmaqla, bu regionu idarə etdilər. Onlar Kuşan çarlığı tərəfindən absorbsiya olunduqdan sonra yoxa çıxdılar. II Mitridatın şərq hüdudları Marqiana və Ariya ilə qovuşdu. Nəhayət, şərqdə qayda bərpa olundu, çar

qərbə tərəf döndü. O, Ermənistan taxt-tacında Böyük II Tiqranı oturtdu və öz hegemonluğunu bu çarlıq və Şərqi Kiçik Asiya üzərinə genişləndirdi. O, sonuncu Selevkidə təzyiq göstərilməsini təşkil etdi. Onların arasında iddiaçı olan III Demetri əsir götürüldü. Romalılarla qarşılaşdıqda o, artıq Kiçik Asiyada "Asiya əyalətini" yaratmışdı. II Mitridat müdrikcəsinə Roman çığırı ilə getməkdən imtina etdi və Roma ilə Pont çarı Mitridat arasındakı mübarizədə öz neytrallığını saxlamağı üstün tutdu. Qərbdə Romanı, şərqdə isə Parfiyanı Aleksandrın varisləri kimi qarşılayırdılar, ümumi rəyə görə onlar vərəsə məsələsini həll etmişdilər. Bu iki partiya Fərat çayını ümumi sərhəd hesab edirdi. Bir müddət ittifaq və ya müqavilə bağlamaq məsələsi də mövcud idi. Parfiya səfiri Orobaz danışıqlara başçılıq edəndə Sulla ilə görüşündə ondan aşağıda oturmağı qəbul etmədiyinə görə öz başını itirməli olmuşdu.

Əvvəlki vaxtlarda Parfiya dövləti Çin imperiyası ilə birbaşa əlaqəyə girmişdi və Han imperatoru U Tidən (m.ə. 140-87-ci illər) səfir qəbul etmişdi və o, parfiyalılara görüş üçün 20 min adamla yola düşmüşdü. Çinliləri xüsusən Fərqanədə yetişdirilən atlar maraqlandırırdı, şimal sərhədlərindəki köçəri hunlarla vuruşmaqdan ötəri süvari ordusunu yaratmaq üçün onlara bu atlar çox lazım idi.

II Mitridat öz hakimiyyətinin zenitində "şahlar şahı" titulunu aldı. Qərbdə olduğu kimi Şərqdə də onun imperiyası əvvəllər məlum olmayan dövlət və stabillik mövqeyinə yüksəldi. O, dünyanın iki ən böyük dövlətləri olan Roma və Çinlə diplomatik əlaqələr saxlayırdı. I Mitridat, II Fraat və II Mitridat Parfiya dövlətinin əsl yaradıcıları idi, bunun üçün onlar hərbi və iqtisadi qələbələr çalmış və onu Əhəmənid imperiyası ilə müqayisə olunan səviyyəyə yüksəltmişdilər. II Mitridatın ölümündən sonra varislik uğrunda qısa müddətli intriqalar və rəqabət dövrü baş verdi. Nəhayət, taxt-taca III Fraat çıxdı və Roma ilə əlaqələr davam etdirildi.

Şərqdə Roma maraqlarına qayğı göstərmək vəzifəsinə uyğun olaraq Roma generalı Lukull Pont və Ermənistan ilə mübarizəsində Romaya kömək etmək üçün III Mitridatı ittifaqa şirnikləndirəcəyinə ümid edirdi. Lakin Parfiya çarı Roma ilə bu vaxtadək "dostcasına" əlaqələr saxlamasına baxmayaraq, öz neytrallığında qaldı. Üç il sonra, m.ə. 66-cı ildə Roma generalı Pompey Lukullu əvəz etdi və III Fraatla həqiqi ittifaq bağlamağa nail oldu. Lakin bu qısa müddətə möhkəmliyini saxladı, çünki Ermənistan işləri romalıların Parfiya ərazisindəki əməliyyatlarını çoxaltdı, bu, nəticə etibarilə iki imperiyanı ayrı-ayrı yollarla getməyə vadar etdi. Fraatın etirazına Pompey parfiyalıların vassal dövləti olan Qordiananı işğal etməklə cavab verdi və Fraatla

ünsiyyətdə sadə "şah" titulunu işlətməklə müraciət edirdi. Pompey Fraatın vassalı olan Midiya ilə birbaşa əlaqəyə girdi. Romalıların şahlar şahına qarşı olan mövqeyi müttəfiqin münasibətindən daha çox, qalibin münasibətinə bənzəyirdi. Pompeyin siyasəti aydın oldu: Qafqazdan İran körfəzinə keçməklə o, Romaya dost olan dövlətlərdən divar yaratmaq istəyirdi, bu Romanın işğalına hazırlıq üçün Parfiyanı dövrəyə alacaqdı. Bu vəzifə Romanın yurisdiksiyası daxilində triumvir Krassın üzərinə düşdü. M.ə. 57-ci ildə III Mitridatın hadisəsi ilə əlaqədar münaqişə başlandı, o, atalarının varisliyi üstündə qardaşı II Orodun əleyhinə çıxdı, Suriyaya qaçıb orada leqat Qabinidən kömək və sığınacaq xahiş etdi. Roma senatı Qabiniyə Parfiya taxt-tacı üstündəki mübahisəyə qarışmağı qadağan etdi.

Üç il sonra iki dövlət arasında gərginlik qan tökülməsi qaydasında həll edildi və bu, əlaqələrin kəsilməsi ilə nəticələndi. Heç bir bəhanə olmadan Sezarın triumvirlərindən biri və heç bir hərbi şöhrəti olmayan Krass, çünki Sezar Qalliyanın, Pompey isə yaxın Şərqin fatehləri idi, qoşunla Fəratı keçdi. II Orod etiraz etdi və dostluq müqaviləsinin heç nəyə yaramadığını nümayiş etdirdi. Krass Dəclə üzərindəki Selevkiyaya gəlib çatana qədər ona cavab verməkdən imtina etdi. Bu əvvəllər bağlanmış razılaşmaların zorakılıqla pozulması idi: 53-cü ildə Karfe yaxınlığındakı döyüşdə romalılar yeddi legionu, Krassın və onun oğlunun isə həyatını itirməsi ilə başa çatdı. Suren özünün bu parlaq qələbəsindən sonra İrana və Hindistana gedən yolları Roma üçün bağladı, axırıncının Şərq ambitsiyaları o qədər zəiflədi ki, Fərat təkcə siyasi deyil, həm də ruhi nöqteyi-nəzərdən sərhədə çevrildi, latınlaşdırma cəhdləri heç vaxt mümkün olmadı. Birləşmiş Yunan-İranlı Asiyası romanlaşmaya qarşı iranlaşmış ellinizm tərəfindən himayə edilirdi və Roman məğlubedilməzliyi mifi dağıldı. Roman legionlarının fərqlənmə nişanları parfiyalıların əlinə düşdü və 10 min romalı əsir bu bədbəxtliyi yaşamaq üçün Marqianaya göndərildi. Krass üzərində qələbə şərq xalqları arasında böyük əks-səda doğurdu. Bu Kiçik Asiyada, Suriya və Palestinada Romanın mövqeyini silkələdi, həm də parfiyalıların öz qüvvəsinə inamını bərpa etdi. Romaya müqavimət göstərməyə qadir olmaqla, Parfiya şərq xalqları arasında ağalıq mövqeyinə can atırdı. Krassın başı ov qəniməti kimi Yevripidin pyesi nümayiş etdirilərkən teatra gətirilib, orada tamaşaçılara təqdim edildi.

Sonra taclanan prints Pakor bir sıra əks-müdaxilələrə başçılıq etdi. Arşakid ordusu uzun müddətli kampaniyaları necə təşkil etməyi və istehkamlanmış şəhərləri necə mühasirə etməyi bilmirdi. Lakin tezliklə Romadakı vətəndaş müharibəsi parfiyalıların mövqeyinə köməklik göstərdi və Pompey

Sezar tərəfindən məğlub edildikdən sonra, məhz onların arasında sığınacaq tapmaq istəyirdi. Orod bundan istifadə edib Yueh-çihlə və hətta Kuşanla şərqdə olan çətinliklərini uğurla həll etdi. 48-ci ildə Pompey öldükdə Sezar Roman dünyasının mütləq ağası idi və Krassın məğlubiyyətinin qisasını almaq üçün hazırlıq gördükdə, 44-cü ildə qətlə yetirildi. Sezarın layihəsinin gerçəkləşdirilməsi vəzifəsi Mark Antoninin üzərinə düşdü. Antoniyə qarşı pis münasibətdə olan Pakor Sezarın qatilləri tərəfindən olan və parfiyalılar tərəfə keçən Roma komandanı Kvint Labien ilə razılıq əldə etdikdən sonra Suriyaya soxuldu. İki ordunun uğuru heyrətləndirici idi. Pakor bütün Suriyanı və Palestinanı tutdu, onun romalı silahdaşı Labien isə bütün Kiçik Asiyanı özünə götürdü. İki ilə yaxın müddətdə Əhəmənid imperiyasının bütün qərb əyalətləri parfiyalıların əlində qaldı. Romada belə şayiə gəzirdi ki, parfiyalılar İtaliyanın özünə müdaxilə etməyi planlaşdırırlar. Lakin Arşakidlərin uğurları nə qədər gözəl olsa da, illyuziya xarakterli idi. İki general arasındakı narazılıq onların səmərəsini zəiflətdi. 39-cu ildə Labien məğlub edilərək öldürüldü. Kiçik Asiyanı romalılar özünə qaytardı, sonrakı il isə eyni tale Pakorun və onun işğallarının qisməti oldu.

Parfiyalılar II Orodun başçılığı altında öz dövlətlərinin zenitinə çatdılar. Qərbdə Arşakidlər demək olar ki, bütünlüklə Əhəmənid imperiyasını qısa müddətə yenidən qurdular. Onların şərqdəki uğurları da bərabər qaydada mühüm əhəmiyyət daşıyırdı. Onlar paytaxtlarını Ktesifona köçürdülər, buradakı hərbi düşərgə böyük metropolisə çevrildi, bu şəhər Dəclənin o tayında olan Selevkiya ilə üz-üzə dayanmışdı. Nisada şəhər genişləndirildi, şah sarayları böyüdüldü. 37-ci ildə Orod öz oğlu IV Fraat tərəfindən öldürüldü. 36-cı ildə Mark Antoni Sezarın planlaşdırdığı qisası icra etməyə başladı. O, Midiyaya daxil olmaq və şimaldan Parfiyaya hücum etmək üçün ordusunu Ermənistana gətirdi. Lakin soyuq hava və Fraat süvarisi Antonini vuruşu tərk etməyə və Suriyaya qayıtmağa məcbur etdi. 34-cü ildə o, digər kampaniyanı başladı və yenə də ağır itkilər verdi. Oktavianla hakimiyyət uğrunda mübarizə, parfiyalılara qarşı mübarizə onu planlarından ümumən əl çəkməyə məcbur etdi. 30-cu ilə yaxın Parfiya taxt-tacına Romanın dəstəklədiyi iddiaçı olan II Tiridat IV Fraata Mesopotamiyanı tərk etdirdi və o, şərq qonşuları olan skiflərin yanında sığınacaq tapdı, onların köməyi ilə hakimiyyətə bərpa olundu. Qovulan Tiridat isə Romada sığınacaq tapdı.

Fil-ellinist dövrün yeni səhnəsi 31-ci ilə doğru Oktavianın Antoni üzərindəki qələbəsindən sonra başladı. Avqust Romada yeganə ağa oldu. Bundan əvvəl o, artıq Fraata ittifaq təklif etmişdi və sülh müharibə ilə başa çatdı.

Karfe döyüşü və Antoninin məğlubiyyəti Parfiyanı Romanın gözündə başlıca qüvvə kimi böyütmüşdü. "Dostluğun" yenidən bərpası roman əsirlərinin və nişanlarının qaytarılmasına imkan verərdi. İddiaçı Tiridat vasitəsilə Avqust Fraata təzyiq göstərirdi və hətta hərbi müdaxiləyə cəhd etmişdi. Nəhayət, 20-ci ildə bağlanan müqaviləyə görə roman əsirləri və məğlub edilmiş legionların nişanları qaytarıldı. İki dövlət arasındakı sülh Fərat üzərindəki sərhədi tanıdı. Roma şərqə olan öz ambitsiyalarından əl çəkdi. Avqust hörmət siyasətinə başladı. Hindistana və Çinə gedən karvan yolları açıldı. Avqust hind-skiflər və sarmatlar daxil olmaqla bir çox şərq xalqlarından səfirlər qəbul etdi. Lakin bütün maneələr ləğv edilmədi. Ermənistan məsələsi qalırdı, bu dövlət Romanın nəzarətində olsaydı şimaldan Parfiyaya daxil olmaq üçün yol rolunu oynayacaqdı, yox əgər ona Parfiya nəzarət etsəydi, Qara dənizə çıxış yoluna çevriləcəkdi, burada isə Roma ağalıq edirdi. İki dövlətin bu ölkə üstündəki rəqabəti əsrlər boyu sülhün məhək daşı olaraq qaldı. IV Fraatın Avqustun ona verdiyi italyan qul qızından olan oğlu Musa anasınınköməyi ilə atasını öldürdükdən sonra altı il müddətinə taxt-tacı qəsb etdi və öz anasına evləndi. Fil-ellinist dövrünün sonu idarəedici siniflə Parfiya cəmiyyətinə nüfuz edən xarici təsirlərin toqquşması ilə əlamətdar oldu. Bu təsirlər Romadan gəlirdi və çox vaxt xaricdə qaldıqdan sonra vətənə dönən Arşakid hökmdarları tərəfindən tətbiq edilirdi.

III Artabanı (b.e. 12-38-ci illərində hökmranlıq etmişdir) hakimiyyətə gətirən baronlar, ondan bir alət kimi istifadə etmək inamında səhv etdiklərini anladılar. Artaban Hirkaniya vitse-kralının oğlu idi, yalnız anası tərəfdən Arşakidlərə qohum idi. Onun hökmranlığı altında Parfiya parlaq və narahat eraya daxil oldu. O, Romanı Asiyadan qovdu. Vaxtından əvvəl öz oğlunu Ermənistan taxt-tacına oturduqdan sonra, Artaban özünü daxili islahatlara həsr etdi, bu islahatların arasında mərkəzləşmə xüsusilə mühüm yer tutdu. Böyük kübarları əzmək lazım gəldi. O, baronların irsi imtiyazlarını kiçiltdi. O, öz ailəsindən olanları tanıdığı dövlətlərin müxtəlif taxt-taclarına yerləşdirdi, bunların içərisində Atropatan da var idi. Bu kiçik dövlətlərin hamısını taxt-taca loyal olan adamlar idarə edirdi. Lakin şərq əyalətlərində baş verən qiyamları yatırda bilmədi, burada hind-parfiyalı çar Qondofar özünü müstəqil elan etdi və "şahənşah" titulunu götürdü. Yunanlar və ellinistik elementlərlə şəhərin muxtariyyətində iştirak etmək hüququ tələb edən semitlər arasında vuruş getdi. Semitlər həm də III Artaban əleyhinə olan iddiaçıları dəstəkləyirdilər. Ermənistan taxt-tacına oğlunu yerləşdirmək üçün edilən yeni cəhd Romanı hiddətləndirdi və onun kömək üçün

göndərdiyi kübarlığın köməyi ilə baronların iddiaçısı olan III Tiridat Ktesifonda taclandı, III Artaban qaçmağa məcbur oldu, lakin sonra taxt-taca qayıtdı. Artaban öz çarlığını dünya dövlətinə çevirmək barədə düşünmürdü, lakin qərb əyalətlərini ələ keçirmək planlarından da əl çəkmirdi. Bu əyalətlər əvvəlki Əhəmənid torpaqları idi.

B.e. 31-ci ilindən 122-ci ilinə qədər olan dövr Parfiya dövlətinin yavaş-yavaş parçalanmasını nümayiş etdirdi, dövlət bir neçə kiçik ölkələrə bölündü. Bu mərkəzləşmiş dövlətin zəruri nəticəsi idi. B.e. I əsrində Parfiya imperiyası 18 çarlıqdan ibarət idi, onlardan 11-i şimalda, 7-si isə cənubda idi, bəzilərini Arşakid hökmdarları, digərlərini isə yerli sülalələr idarə edirdi. 58-ci ildə Hirkaniya müstəqil oldu. Bu Roma ilə, xüsusən də yeni çarlıq olan Kuşanlarla yaxşı əlaqə saxlamağın nəticəsində mümkün olmuşdu. Bu səbəbdən də Parfiya Kuşanın şərqində ona qonşu olan Çinə səfirlik göndərdi. Daxildəki milli üsyanlar daha təsirli olurdu. I Vologezin dövründə onun bir qardaşı Midiyanın çarı oldu, digər qardaşı Tiridatı isə o, Ermənistan çarı etmək istəyirdi. Bununla da Roma ilə münasibətlər korlandı. 66-cı ildə Tiridat Romaya gəlib Nerondan Ermənistan tacını qəbul etdi. 114-cü ildə isə imperator Trayan Ermənistana müdaxilə etdi. Çarın öz tacını Trayanın ayaqları altına atması da əbəs idi - o, Roma əsgərləri tərəfindən məğlub edilmişdi. Ermənistan işğal edildikdən sonra imperator öz ordusu ilə Mesopotamiyaya endi. Bütün Babilistan və paytaxt Ktesifon tutuldu, romalılar çar Ozronun qızını və Parfiya çarlarının qızıl tacını özləri ilə apardılar. Qalib Trayan uzaq İran körfəzinə yollandı. İranlıların reaksiyasını gözləmək çox çəkmədi.

Roman hücumunun ciddiliyi ilə üzləşən şah evinin bütün hökmdarları əvvəlcə daxili mübarizə ucbatından ayrılmışdılarsa, müdaxiləçiyə qarşı birləşdilər. Trayan Ktesifonda yeni vassal çarı taclandırdı, lakin qiyam baş verdi və Parfiya başçılarını parçalamaq cəhdi uğursuzluqla başa çatdı. Romalılar ağır itki verdilər. Trayan kampaniyanı tərk edib vətənə dönəndə öldü, onun varisi Hadrian isə Ermənistana, Mesopotamiya və Assuriyaya olan bütün iddialardan əl çəkdi. Hadrianın sülhə can atması səmimi görünürdü. O, Ozronun qızını geri göndərdi, qızıl tacı da qaytarmağı vəd etdi. Hətta o, Ozronu Romaya gəlməyə dəvət etdi. Roma ilə sülh 248 il sürdü. Bu dövrün yerini Roma ilə arası kəsilməyən düşmənçilik əvəz etdi. II Vologezin, xüsusən III Vologezin dövründə ölkədə stabillik mövcud oldu. Lakin Roma Hirkaniyadan, Baktriyadan, Kuşandan səfirlər qəbul etməklə ona qarşı intriqalar təşkil edirdi. Roma ilə yeni toqquşma 161-ci ildə baş verdi, III Vologez bu vaxt özünü hücum üçün qüvvətli hesab edirdi. O, Ermənistanı işğal etdi, Fəratı

keçdi və Suriyaya müdaxilə etdi. İki əsr ərzində bu ərazilər parfiyalı süvariləri görməmişdi. Baxmayaraq ki, ölkə Pompey dövründən romanların idi, yəhudilər də daxil olmaqla Suriya əhalisi romalılar tərəfindən Palestinadan qovulmuşdu, ona görə də iranlıları özlərinin azad edənləri kimi qəbul etdilər. Roma ordusu Ermənistandan gəlib, Azərbaycandan keçdi. Burada Roma ordusu taun xəstəliyindən əziyyət çəkdi, geri çəkilməyə məcbur oldu.

Mark Avrelinin həm-imperatoru olan Lutsi Ver Ermənistanda və Şimali Mesopotamiyada öz kampaniyalarını təkrar etdikdə, parfiyalılar ağır itki verdilər. İki dövlət arasında gərginlik imperator Septimi Severə qarşı iddiaçını dəstəkləyən IV Vologezin vaxtında azalmadı. Sever 193-cü ildə imperatora çevriləndə Mesopotamiyanın şimalını, sonra isə cənubunu tutmaq üçün əməliyyatlara başladı. Mesopotamiyaya digər müdaxilə Karakallanın dövründə baş verdi və bu vaxt casus belli V Artabanın öz qızını Karakallaya ərə verməkdən imtina etməsi oldu. Gənc Roma imperatoru Aleksandrın imperiyasını yenidən qurmağı arzu edirdi, lakin təkcə Midiyanı qarət etməyi həyata keçirə bildi. Parfiyalıların cavabı sərt oldu. V Artaban roman əyalətlərinə hücum etməklə və bir neçə şəhəri dağıtmaqla qisas aldı. Onun vəziyyəti ağır idi və Roma sülh bağlamaq təklifini rədd etdi. Düşmənçilik parfiyalıların xeyrinə döndü, onlar elə uğur qazandılar ki, imperator Makrini 200 milyon sestertsi pul verdi ki, sülh bağlansın.

Persdə qiyamı açıq elan edən Ardaşirlə V Artaban arasında 224-cü ildə döyüş getdi. Parfiyalı öldürüldü və İran taxt-tacı mənşəcə Əhəmənidlərin beşiyi sayılan Farsdan olan yeni milli sülalə kimi Sasanidlərin əlinə keçdi.

Parfiyalıların İranı, açıq yolları dəstəkləməklə, şəhərlər yaratmaqla və mübadiləni alqışlamaqla beynəlxalq kommersiya üçün strateji əhəmiyyət daşıyan region idi. Yarım minillik ərzində Parfiya Əhəmənid imperiyasının qərb vilayətlərini ələ keçirmək üçün böyük iddiada bulundu. İmperiya isə qərbdə Roma, şərqdə isə Kuşan arasında olmaqla, onun dayaqları daxili zəiflikdən sarsılırdı. Parfiya axırda ordularını tərk etməklə, öz yerini varisi olan Sasanidlərə verdi.

B.e. 3-cü əsrinin başlanğıcında Arşakid imperiyası artıq 400 il idi ki, mövcud idi. Onun gücü təkrar olunan roman müdaxilələri ilə zəiflədi və imperiya bu vaxt Ktesifondan İraqı idarə edən Vologezlə, Suzadan İrana nəzarət edən V Arbatan arasında bölünmüşdü. Ərdəşir İranın qərbinin hökmdarı kimi öz mövqeyini saxlamaqla şərqdə geniş hərbi kampaniya keçirib, Sistanı, Hirkaniyanı, Mərvi, Balxı (Baktriyanı) və Xörəzmi işğal etmişdi. Güclü Kuşan imperiyasının da məğlubiyyəti ilə kampaniya başa çatdı. Bu hərbi və si-

yasi uğurlar sonra Ərdəşir tərəfindən Ktesifon sarayını öz sərəncamına götürməklə genişləndi. O, öz üzərinə "iranlıların şahənşahı" titulunu götürdü. O, yenidən Selevkiya şəhərinin əsasını qoydu və onu yenidən tikdirdi, şəhərə yeni Beh-Ərdəşir adını verdi, bu "Ərdəşirin yaxşı işi" demək idi.

Ölümündən əvvəl Ərdəşir seçilmiş vəliəhd kimi oğlu I Şapurun xeyrinə taxt-tacdan əl çəkmişdi. Lakin o, öz taclanmasını atasının ölümünə qədər təxirə salmışdı. Taxt-taca çıxdıqdan sonra Şapur imperator II Qordian tərəfindən Persiyaya müdaxilə ilə üzləşdi. Atasından fərqli olaraq o, "İranın və qeyri-İranın şahənşahı" titulunu götürdü. Bu titul onun varisləri olan Sasanid imperatorları tərəfindən ardıcıl olaraq saxlandı. Qərbi və Şərqi İrandakı bəzi əyalətləri Sasanidlər ailəsinin üzvləri idarə edirdilər, onlara şah titulu verilirdi. İri ərazilər keçmiş Kuşan imperiyasını və Ermənistanı isə "böyük şah" titulunu alanlar idarə edirdi. Bu qayda 4-cü əsrin əvvəlinə qədər davam etdi və I Şapur və II Hormüz kimi imperatorlar ilk dəfə Baktriya, Soqdiana və Qandhara ərazilərinin valiləri kimi Kuşanşah titulunu daşımışdılar. İerarxiya şkalasında sonra vassal çarlar gəlirdilər. Onlardan sonra isə əhəmiyyətləri kiçildilmiş satraplar gəlirdi, onlar iri şəhərlərin inzibatçılarından və saray qulluqçularından yuxarıda dayanmırdılar. İmperiyanın tərkibinə Fars, Parfiya, Xuzistan, Mesen, Aşuristan (İraq), Adiaben, Ərəbistan (Şimali Mesopotamiya), Atropatan (Azərbaycan), Ermənistan, İberiya (Gürcüstan), Meçeloniya (Machelonia), Albaniya (Şərqi Qafqaz), Qafqaz dağlarının üstündə olan Balasaqan, həmçinin Midiya, Hirkaniya, Mərv, Turan və başqaları daxil idi. Bu imperiya Arşakid sülaləsinin nəzarət etdiyi ərazidən böyük idi. Sasani hökuməti yüksək dərəcədə mərkəzləşməyə meyl edirdi və Arşakid inzibatçılığı ilə müqayisədə hərbi səmərəliliyinin artmasını ifadə edirdi. Sasani dövrünün digər bir cəhəti sülalə varisliyinin ciddi prinsip olması idi. Şah qanından olmayan qəsbçinin taxt-taca gəlməsi nadir hadisə idi, lakin bu da bir fakt idi ki, IV Bəhram buna nail olmuşdu. Persiya ənənəsi Sasanidlər xətti vasitəsilə geri Əhəmənidlərə, hətta əfsanəvi dövrlərin şahlarına gedib çıxırdı.

Ərdəşirin əcdadları İstaxrdakı atəş məbədinin mərasimlərində aparıcı rol oynamışdılar, bu məbəd Adur-Anahid və ya Anahid atəşi adlanırdı. Sasanilər dövrü ərzində zoroastrizm dini mühüm əhəmiyyət daşıdı.

Buddizm və iudaizmlə birlikdə zoroastrizm dini dünyada xristianlıqdan və islamdan əvvəl mövcud olan üç ümumi və fərdi dinlərdən biri idi. Bu din m.ə. 6-cı əsrdə yaranmışdı və banisi ona öz Zoroastr (Zərdüşt) adını vermişdi, onun pers adı isə Zaratustra idi və bu adam m.ə. 600-cü ildən bir qədər

əvvəl yaşamışdı. Zoroastr mazda - "müdrik" epiteti ilə adlanan keşiş idi, yəqin ki, tarixdə ilk həqiqi ilahiyyatçı olmalı ilk dəfə tam inkişaf etmiş dini inam sistemi icad etmişdi. O, öz missiyasını Persiya tayfalarının ənənəvi adətlərini təmizləməkdə görürdü. O, politeizmi-çoxallahlılığı, heyvan qurbanlarını və magiyanı-cadugərliyi kökündən yox etmək istəyirdi və daha aydın və etik planda sitayiş etmə qaydalarını qoymaq istəyirdi.

İran yaylasındakı hind-avropa ağalarının erkən dövrlərindən, onlar daivalara (bu latın dilində deus - "allah" mənasını verir) və ya ruhlara sitayiş edirdilər, bu Hindistandakı arilərin tanıdıqlarına yaxın idi. Bu kultun keşişləri maqi adlanırdı, m.ə. 6-cı əsrin qeyri-müəyyən bir dövründə qızğın islahatçı Zoroastr Şərqi İrandan qalxıb, həmin dövrün sitayişinin təmiz ritual keyfiyyətini, onun sehrliliyini və çoxlu allahlara imanını ləğv etdi. Bunların əvəzinə, işıq və həqiqət allahı Ahura-Mazdanın ətrafında mərkəzləşən etik inam yaratdı. Ahura-Mazda şər qüvvə olan Əhrimənə əks idi. Bu dünyadakı bütün insanlar öz əməlləri ilə yaxşı olanı dəstəkləməli, yaxud da zülmət ruhlarına xidmət etməlidir. Axırda Son Mühakimə gələcəkdir ki, yaxşıları göyə, pisləri isə cəhənnəmə göndərsin. Baxmayaraq ki, Zoroastr zorakı sonluqla görüşmək kimi görünürdü, onun baxışları İran dininin dözümlü hissəsinə çevrildi, lakin maqi keşişlərinin təbliğ etdiyi başlıca politeist ənənəsini o, bütünlüklə istisna etmədi. Digər bütün hökmdarlardan daha çox Dara Ahura-Mazdanın ardıcılı oldu və Nəqşi-Rüstəmdəki böyük yazıda belə lovğalanırdı: "Mən sevdiyim şey düzgündür, mənim nifrət etdiyim düzgün olmayandır... Yalan danışmağı qərara alan insana mən nifrət edirəm".

Zoroastrizm universal din idi, Zoroastr öyrədirdi ki, kainatda bir ali allah vardır, bu allahı o, Ahura-Mazda adlandırırdı, bu ifadənin mənası "müdrik sahib" demək idi. Ahura-Mazda işıq, həqiqət və möminlik prinsiplərini təcəssüm etdirirdi. Şərdən başqa qəzəbli bir şey olmadığından hər yerə işıq saçırdı, heç də tək bir və ya digər tayfanın üzərinə öz işığını salmırdı. Hansısa günahın və ya kədərin Ahura-Mazda tərəfindən gəldiyindən şikayət etmək olmazdı. Zoroast ona əks olan allahın - Əhrimənin olduğunu təsdiq edirdi. O, xəyanətkar, qəzəbli olmaqla, qaranlıq və şər qüvvələrinə başçılıq edirdi. Zoroastrın öz baxışına görə Ahura-Mazda Əhrimənə nisbətən daha güclü idi. Yalnız axırıncı böyük gündə "işıq" "qaranlıq" üzərində həlledici zəfər çalacaqdır, bu vaxt Ahura-Mazda Əhrimənə üstün gələcək və onu girdabın dibinə atacaqdır.

Zoroastrizm öz dualistik forması ilə yanaşı bütünlüklə fərdi din idi. Zoroastrizm belə güman edirdi ki, Ahura-Mazda tayfalara və dövlətlərə himayə-

çilik etmir, yalnız həqiqətə və ədalətə xidmət edən fərdlərə qayğı göstərir. İnsanlar azad iradəyə malik olduqlarından günah işlədib, işlətməməkdə də sərbəstdirlər. Əlbəttə, zoroastrizm onlara günah işlətməməyi, ancaq düzgün olmağı, bir-birini sevməyi və qarşılıqlı kömək göstərməyi, kasıblara kömək etməyi və əliaçıq qonaqpərvərliyi həyata keçirməyi təlqin edirdi. Kimlər ki, belə edəcəkdi, onlar ömürdən sonrakı həyatda mükafatlanacaqdı, çünki din inandırırdı ki, ölülər "mühakimə günü" diriləcək və onların yükü ya xoşbəxtlik səltənətinə daxil olacaq, yaxud da odda yanacaqdır. Zoroastr inamının "Avesta" kimi tanınan yazılarında möminlərin mükafatı dəqiq ifadə olunmuşdur: "Kim ki, bir dindara ət verəcəkdir....o, cənnətə gedəcəkdir".

Zoroastrın əsəri olan "Avesta"dan və Persiya çarlarının lovğa yazılarından başqa, onların heç bir ədəbiyyatının olmadığı görünür. Onlar öz dili üçün sadə mixi yazısı hecaları quraşdırmışdılar, hətta aramaikləri inzibati cəhətdən idarə etmək məqsədilə onlara güzəştə getməli olmuşdular. Aramaik dili isə Yaxın Şərqin aşağı torpaqlarından keçən ümumi dil idi. Ən yaxşı qalmış Persiya abidəsi Persepolisin çar fortu və xəzinəsidir. Burada Dara 512-ci ildən başlayaraq böyük terras düzəltdirmişdi. Dara özü və onun varisləri bunu pilləkənlərlə, saraylarla, sütunlu zalların labirintləri ilə bəzəmişdilər. Bütün tikililərin sahəsi Afinadakı Akropoldan iki dəfə böyük idi. Persepolislə Afinadakı müqəddəs təpənin arasındakı kontrast, yunanlar və persiyalılar arasındakı təməl fərqləri işıqlandırırdı. Akropoldakı Parfenon və digər məbədlər azad vətəndaşlar tərəfindən, himayə edən allahların şərəfinə yüksəldildiyi halda, Persepolis kompleksi şahənşahın böyüklüyünə həsr edilmişdi.

Parfiyalılar dövründə yerli maqlar öz ənənəvi mərasimlərini, köhnə iranlı ilahi qüvvələrin atəş - od kultu ilə Zoroastrın moizə etdiyi ideyalarla birləşdirərək icra edirdilər. Sasanilərin hökmranlığı altında atəş kultuna və Ahura-Mazdaya sitayiş xüsusilə qeyd olunurdu. Dinlə dövlət arasında qarşılıqlı əlaqə yaranmışdı, hər bir mahalda kilsə təşkilatı təsis edilmişdi, onların hər biri öz mobedinə-keşişinə malik idi. Onların başında mobedlər mobedi dururdu, o, sırf dini yurisdiksiyadan başqa həm də taxt-taca varis seçilməsində çox və ya az dərəcədəki həlledici səsə malik idi. Bundan başqa dövlətin digər işlərində də iştirak edirdi. Bəzi şəhadətlər vardır ki, mobedlər müqəddəs yazıların oxunması və yazılmasında mahir olmaqla, onların təfsirini verirdilər. Müqəddəs kitabxana binalarında təkcə müqəddəs mətnlər saxlanmırdı, həm də onlar yerli arxivlər kimi xidmət göstərirdi. Sasanidlərin dini təcrübəsi, ilahiyyat məsələləri əvvəldən onların doğma diyarı olan Persdə (Farsda) inkişaf etmişdi. Orada yad dinlərin təsiri məhdud idi. İşığın yaxşı ruhu ilə div-

lər arasında - Hörmüzlə (Ahura-Mazda) və Əhrimən (Anqra Manyu) arasındakı əkslik mühüm doğma olaraq qalırdı. Bütün digər allahlar və mələklər Hörmüzə tabe olan nökərlər roluna qədər məhdudlaşdırılmışdı və Hörmüzün yerdəki görünüşü Günəş və ya Günəş allahı Mihr (Mitra) kimi olmasa da, müqəddəs atəş onun keşişləri tərəfindən qorunurdu. Bahram, Mihr və Anahid (Anahita) allahlarının adları atəş məbədləri ilə əlaqəli idi. Allah adları ayın 30 gününü və ilin 12 ayını fərqləndirmək üçün istifadə edilirdi. Heyvan qurbanı təcrübəsi ən azı I Yazdigirdin hökmranlığına qədər davam etdi. Novruz bayramı günlərində və Mihraqan (yeddinci ayın 16-da) günündə axşam düşəndə, müqəddəs atəş dinə iman gətirənlərə göstərilirdi. Sasanid hökmranlığı dövründə insan cəsədi ilə yeri murdarlamamaq üçün ölülərin quzğunlar və itlər üçün dağ başında qoyulmasına ciddi nəzarət edilirdi. Qayada yonulmuş heykəllər müharibə allahı kimi at belində təsvir olunurdu.

Ahura-Mazda milli allah olduğunu özünün sitayiş edənlərinə qalibiyyət və dünya ağalığını bağışlamaqla sübut edirdi. İlahiyyat daha da inkişaf etdi və Hörmüz və Əhrimənin hər ikisini nəzərdə tutan köhnə dualist konsepsiyanın təkmilləşdirilməsinə cəhd edildi. Bu sonu olmayan zamanda (zurvan) orijinal prinsipin meydana gəlməsi idi. Bu təlim erkən Sasanidlər dövründə tanındı, lakin Xosrovun (531-579-cu illərdə hökmranlıq etmişdi) hökmranlığı dövründə "Zurvanilər sektası" dinin dönükləri elan edildi. Torpağın murdarlanmasını və həqiqi Allahın digər ciddi təhqir edilməsini qiymətləndirmək üçün qeyri-ortodoks və dinsiz kultlar və qadağan olunmuş qayda və adətlər gəldi. İman gətirənlərin borcu inanmayanlarla və dinsizlərlə vuruşmaq və onları məhv etmək idi. Qısası, Əhəmənidlərin dözümlülüyü və Arşakidlərin laqeydliyi tədricən dini dözümsüzlüklə və təqib olunma ilə əvəz olundu. I Şapurun hökmranlığı dövründə yeni dini lider və hərəkat meydana çıxdı.

216-274-cü illərdə yaşayan Mani Babildə yaşayan parfiyalı ailənin törəməsi idi, lakin özü aramey dilində danışırdı. Misirdə tapılan Kopt versiyası əsasında Maninin dini göstərişləri məlum olmuşdur. Maninin təlimi qnostiklərin ideyalarının və fəlsəfəsinin güclü təlimi altında formalaşmışdı. Mani özünü İisusun axırıncı və ən böyük apostolu-həvarisi elan etmişdi. Yevangeliyanın ("Yeni Vəsiyyətin") qnostik təfsiri ilə Mani Zoroastr və İisus doktrinalarını universal xarakterli yeni din yaratmaq məqsədilə birləşdirməyə çalışmışdı. Ənənəyə görə o, ilk dəfə müəllim kimi I Şapurun taclanması mərasimində görünmüşdü. Digər şəhadətlər isə bildirir ki, həmin vaxt o, Hindistanda olmaqla öz moizələrinə başlamışdı. Sonra o, geri döndü və çoxlu ardı-

cıllara malik oldu. Onların arasında I Şapurun qardaşları olan Firuz və Mihrşah da var idi. Hətta çar özü də bu təsirin altına düşmüş və peyğəmbərlə bir neçə dəfə söhbət etmişdi. Mani ona ilk kitabı olan "Şabuhraqanı" təqdim etmişdi. Kitab orta persiyalı dilində yazılmışdı. Şapurun hökmranlığı dövründə Mani dini İrandan kənarda da təbliğ olunurdu. Taxt-tacda onun varisi I Hörmüz ona yaxşı münasibət bəsləyirdi. Şapurun kiçik oğlu I Bəhram keşişlər vasitəsilə ona təzyiq göstərirdi və Mani edam edildi. Bundan sonra manixeizm İranda təqib olundu və məhv edildi. Sonra bu din Roman imperiyasına nüfuz etdi, Xorasanda və Sasanid imperiyasından uzaqlarda yayıldı. Onun pontifikinin iqamətgahı isə Səmərqənddə idi və buradan təlim Mərkəzi Asiyaya yayıldı.

Əhəmənid cəmiyyəti və mədəniyyəti əslində imperiyaya daxil olan xalqların çox sayda cəmiyyətlərinin və mədəniyyətlərinin toplumundan ibarət idi. Bunların içərisində persiyalıların cəmiyyəti və mədəniyyəti fərqlənirdi. İmperiyanın dili də onun xalqları kimi rəngarəng idi. Persiyalılar ən azı başlanğıcdan köhnə pers dilində danışırdılar, lakin bu yazı dili deyildi. Onların dili yazı üçün ilk dəfə Dara Bisitunda öz hakimiyyətə yüksəlməsi barədə məlumatı nəqş etdirmək barədə göstəriş verəndə işlənmişdi. Çox az adam köhnə persiyalıların dilini oxuya bildiyinə görə, Dara Bisitunda belə bir ənənə qoymuşdu ki, şaha aid yazılar üç dildə - köhnə persiyalıların, babilistanlıların və elamitlərin dilində yazılsın. Köhnə Persiya dili yazı dili kimi heç vaxt imperiyada işləmədi, aramey dili daha çox işlənirdi.

Hind-İran cəmiyyəti üç sinifdən - döyüşçülərdən və kübarlardan, keşişlərdən və fermerlərdən və ya çobanlardan ibarət idi. Bu bölgüləri keçib kəsən və ata xətti üzrə nəslə əsaslanan tayfa quruluşu mövcud idi. Şahənşah titulu piramida qaydasında mərkəzi hakimiyyəti həyata keçirmək və aşağı səviyyələrdə ali hakimiyyətlərə nəzarət etmək üçün istifadə edilirdi.

Əhəmənid incəsənəti imperiyanın dini kimi bir çox elementlərin qarışığı idi. Suzadakı sarayı tikmək üçün inşaat materialları və ustalar Böyük şahın idarə etdiyi torpaqların hamısından gətirilmişdi, onların zövqləri, üslubları və düşüncələri qarışıb, birlikdə eklektik incəsənət və memarlıq ənənəsi yaratmışdı. Bu imperiyanın güzgüsü və persiyalıların özünü dərki kimi görünürdü. Persiyalılar imperiyanın ümumi siyasətinə və inzibatçılığına nəzarət etdiklərindən, incəsənət məsələlərində dözümlülük nümayiş etdirirdilər. Farsda Böyük Kirin və Kambisin paytaxtı olan Pasarqadedə, Böyük Dara tərəfindən qonşuluqda əsası qoyulmuş Persepolisdə tikililərdə bir sıra detallar əcnəbi mənşənin izini daşıyırdısa, memarlığın konsepsiyası, planlaşdırılma-

sı fərqli Persiya məhsulu idi, bu əcnəbi qruplar tərəfindən yaradıla bilməzdi və şahlar şahının incəsənət sahəsindəki istedadına dəlalət edirdi. Kiçik sənətlərdə - gözəl metal qab-qaşıqlar, zərgərlik malları qayırmaqda, möhür kəsməkdə, silah düzəltməkdə və onun bəzənməsində, dulusçuluqda persiyalılar üstün idilər. İki nümunədə onların istedadı özünü göstərir: arxitekturada hündür sütunlardan istifadə ənənəsi və gözəl qızıl işləri. Əsasən Daranın və Kserksin yaratdıqları Persepolis, qədim dünyanın ən böyük sənət irslərindən biridir.

İmperiyanın mərkəzində şahlar şahı dururdu. Onun ətrafında isə qüdrətli irsi torpaq sahiblərindən ibarət saray toplaşırdı. Sonra ordunun yüksək eşelonu, hərəmxana, dini ibadətlərə başçılıq edənlər gəlirdi. Saray əsasən Suzada yaşayırdı. Lakin yay aylarında isə Ekbatanaya, yazda isə Farsdakı Persepolisə köçürdü, bəzi hallarda isə vaxtını Babildə keçirirdi. Bəzi versiyalara görə çar uzaqdakı əyalətlərdə olanda saray da onunla birlikdə səyahət edirdi. Əyalətlər və ya satrapiyalar isə valilər tərəfindən idarə olunurdu, onlar bir qayda olaraq mərkəzi hakimiyyət tərəfindən təyin olunurdular, onları da öz fəaliyyəti dövründə həmin saray qaydasında əhatə edirdilər. Güclü qulluqçular idarəçilikdə onlara köməklik göstərirdilər. Buna baxmayaraq böyük çar nəzəri olaraq yerli işlərə müəyyən qədər nəzarət edirdi. O, məhkəmə işlərində müraciət edilə bilən axırıncı instansiya idi. O, əyalətlərdə yerləşən daimi hərbi qüvvələrə birbaşa nəzarət edirdi. Çar əyalətlər üzərində nəzarəti saxlamaq üçün çarın gözü və daha yaxşı olaraq çarın qulağı adlanan mərkəzi qulluqçulardan istifadə edirdi, onlar bütün imperiyanı dolaşıb, dönəndə öyrəndikləri barədə ona birbaşa məlumat verirdilər.

Müxtəlif vaxtlarda satrapiyaların sayı və sərhədləri müxtəlif olurdu. Daranın hökmranlığının başlanğıcında 20 əyalət var idi. Müəyyən vaxt keçdikdən sonra əyalətlərin sayı artdı. Persiya cəmiyyəti idarə etmə roluna daha çox adamı cəlb edirdi. Kirdən sonra çarın bütün persiyalı kişi cinsindən olanların vuruşması məsuliyyəti üzərində qurulan Persiya tayfa qoşunu, dövründə tabelikdə olan xalqlardan yığılmış qoşunlardan düzəldilən professional ordu tərəfindən əvəz olundu. Daimi ordunun elit hissəsi persiyalılardan və midiyalılardan düzəldilmiş 10 min "ölməzlərdən" ibarət idi. Kambisin ölümündən sonra Daranın qoyduğu qadaya görə bu elitə nəzarət edən adam adətən hər şeyə nəzarət edirdi.

Erkən Əhəmənidlərin, Kirin və Daranın şüurlu siyasəti ondan ibarət idi ki, məğlub edilən xalqlar öz dinlərində qalmaqda davam etsinlər, öz adətlərini, hansı işlə məşğul olmaq metodlarını və hətta öz idarəetmə formalarını

saxlasınlar. Kirin babilistanlılara münasibəti, onun yəhudilərin Palestinaya dönmələrinə və öz həyat tərzlərini saxlamalarına icazə verməsi və onun varislərinin həmin vədə hörmət etmələri bu siyasətin nümunələri idi. Qanun imperiyanın inzibatçılığında mühüm rol oynayırdı. Dara çox istəyirdi ki, o, böyük qanunverici kimi xatırlansın və o, imperiyanı yenidən təşkil edəndə onun proqramının təməl daşlarından biri qanun islahatı idi. İki qanun bölməsi əyalətlərdə qüvvədə idi. Bunlardan biri adətlərə və əvvəlki yerli kodifikasiyalara əsaslanan yerli qanun idi, digəri isə Persiya və ya İmperial qanun idi və o, bütünlüklə böyük çarın hakimiyyətinə əsaslanırdı. İmperiyanın vergi quruluşu isə bu prinsipinə əsaslanırdı ki, bütün işğal olunmuş torpaqlar çarın əsl mülkiyyətidir. Bu vergilər çox vaxt torpaq rentasından ibarət olurdu, persiyalılar və onların torpaqları isə, Fars əyaləti məğlub edilmiş xalqa məxsus olmadığından daim vergidən azad olunurdu. Hər bir satrapiya qızıl və gümüşlə qoyulmuş illik vergini verməli idi, hər bir vassal dövlət isə qoyulmuş bacı ödəməli idi. Dara dövründə bütün torpaqların müşahidə edilməsi həyata keçirildi, malikanə bir neçə il üçün orta illik məhsuldan vergi verməli idi və vergi orta məhsulun faizi şəklində qoyulmuş ölçüyə əsaslanmaqla yığılırdı. Bu dəqiq gəlir vergisi deyildi, lakin ən azı ağlasığan orta məhsula əsaslanırdı.

İmperiyanın iqtisadiyyatı daha çox çarın sülh siyasətinə əsaslanırdı. Müharibələr başlayanda imperiyanın iqtisadiyyatı tənəzzül edirdi və bu da siyasi və hərbi gərginliyə gətirib çıxarırdı. Əhəmənid dünyasının var-dövləti torpağa və kənd təsərrüfatına əsaslanırdı. Torpaq çarın verdiyi ən mühüm mükafat idi, imperiyanın böyük siyasi və hərbi gücündə mövqelərə malik olmalarına görə, xidmət edən adamlar bununla mükafatlanırdı. Dara dövründə torpaq ölçüsü "nizə" adlanırdı, bu ölçü nizəçinin özünü və ailəsini saxlaması üçün kifayət idi. Onlar torpaq naminə öz hərbi qulluq borcunu yerinə yetirirdi. Tərəzinin digər tərəfində isə böyük ailə malikanələri dururdu, onlar irsi mülkiyyətə çevrildilər. Bu malikanələr çox hallarda torpaq sahiblərinin özü olmadan idarə edilirdi. Belə iri torpaq mülkləri adətən iranlıların əlində olurdu, lakin iranlı olmayanlar da dözümlülükdən istifadə edərək, bənzər qaydada sərvət və qüdrət toplayırdılar. Əhəmənidlər özü kənd təsərrüfatının inkişaf etdirilməsində müsbət rol oynayırdılar, bu sahəyə dövlət fondlarından vəsait ayırır, irriqasiyanın və bağçılığın yaxşılaşdırılmasına səy göstərirdilər.

Onlar ticarətin də genişlənməsinə həmçinin yardım göstərirdilər, çünki ticarət imperiyanın sərvətinin başlıca mənbəyi idi. Dövlət yol sisteminin sə-

mərəliliyi ticarətə yaxşı şərait yaradırdı. Dəniz vasitəsilə ticarətə də bərabər qayğı göstərilirdi. Dara misirlilər tərəfindən başlanan və Nili Qırmızı dənizlə birləşdirən kanalın çəkilməsini başa çatdırdı. Beləliklə, Ərəb dənizindən keçən və İran körfəzinə daxil olan yollar imperiyanın şərq və qərb üçbucaqlarını birləşdirmək üçün istifadə ediləcəkdi. Çəki və ölçü vahidlərinin İmperial standartlaşdırılması, sikkə buraxılışının və istifadəsinin dəstəklənməsi kommersiyanı genişləndirməyə və səltənət daxilində iqtisadi fəallığı artırmağa xidmət edən siyasət idi. Ailə bank işi m.ə. 455-403-cü illərdə mövcud olmuşdu. Bu forma pul sələmi vermək və vergi yığılmasında vasitəçilik etmək yolu ilə çiçəklənirdi. Maraq dərəcəsi çox yüksək olsa da, pul borc götürənlər sayca az idi. Vaxt keçdikcə bu kredit alanların sayı artırdı, çünki sonrakı imperiya ümumi iqtisadi tənəzzüllə əlamətləndi. Tənəzzülün başlıca səbəbi siyasi şəraitin həll edilməmiş qalması idi, digər bilavasitə səbəblər isə - ağılsız idarəçilik tərəfindən iqtisadiyyata müdaxilə edilməsi, böyük vergilər qoyulması və iqtisadiyyatdan möhkəm pulun uzaqlaşdırılması idi. Qızıl və gümüş, əyalətlərdən mərkəzi hökumətin xəzinəsinə yığılmağa meyl edirdi və bundan çox az hissəsi iqtisadiyyata qaytarılırdı. Bunun nəticəsi isə məhvedici inflyasiya oldu. Böyük məbləğdə pul əcnəbi muzdlulara verilirdi, həmçinin xarici hökumətlərə rüşvət ödənilirdi. Belə şəraitlər imperiyanı möhkəmlədə bilməzdi və siyasi buntlar üçün bu başlıca səbəb rolunu oynayırdı.

Digər bir mühüm cəhət də unudulmamalıdır ki, Əhəmənid imperiyası iranlı millətinin başlanğıcı idi.

Sasanid incəsənətinin isə daha xarakteristik və daha təsirli nümunələrindən biri, ölkənin bir çox yerlərində tapılmış əhəngdaşı qayalarında yonulmuş böyük daş heykəllərdir. Ən yaxşı şöhrət tapmış qruplar Nəqşi-Rüstəmdə və Nəqşi-Rəcəbdə olanlardır, onlar Persepolis və Bişapur yaxınlığında yerləşirlər. Firuzabadda, qədim Qürdə I Ərdəşirin iki relyefi vardır, onlardan biri V Artabanın devrilməsini təsvir edir. Farsdan kənarda Sasanid heykəl relyefləri az saydadır. I Ərdəşir at belində təsvir olunur. Sülalənin ən böyük memarlıq nailiyyəti isə Ktesifondakı geniş saray idi. Bu bina kompleksi II Xosrov tərəfindən tikdirilmişdi. Saray Tac Kisra kimi məşhurdur, onun bişmiş kərpicdən tikilmiş qübbəsi xüsusən diqqəti cəlb edirdi və Sasanid arxitekturasının icadı hesab olunur. Şirazdan cənubda Firuzabaddakı I Ərdəşir sarayı da çox mühüm nümunələrdən biri idi. Ümumiyyətlə, Sasanid erası iranlıların incəsənətindəki intibahlardan biri hesab olunur və bu Əhəmənid nailiyyətləri səviyyəsində idi. Metal işləri yüksək bədii və sənətkarlıq sə-

viyyəsinə çatmışdı. Onların ən xarakterik dekorativ mövzuları Sasanid çarlarının hərəkətdə portretini təsvir edən ov səhnələri idi. I Xosrov dövründən qızıl və minalanmış içki qabları qalmışdır. Ərdəşir sarayı tərəfindən dəstəklənən yunan dili və ədəbiyyatı ilə tanışlıq sülalənin sonrakı əsri ərzində tənəzzül etməyə başladı. Pəhləvidəki az sayda ədəbiyyat qalıqları müqayisə oluna bilər. Sasanid erasının sonrakı hissəsində şifahi və yazılı ədəbiyyat ənənələrindən birindən digərinə keçid yer tutdu. Sasanid ədəbiyyatının qalıqları ədəbiyyata maraq nöqteyi-nəzərindən daha çox dini və tarixi xarakter daşıyır.

Persiyalılar müasir yaponlar kimi başqalarından ideyaları əxz etməyə, götürməyə adət etmişdilər. Texniki cəhətdən eklektsizm kimi tanınan bu xüsusiyyət öz aydın ifadəsini arxitekturada tapdı. Persiyalılar yuxarı qaldırılan platformaları təqlid etdilər, həmçinin terraslarla tikinti üslubunu götürdülər, bunlar Babilistanda standart sayılırdı. Həmçinin qanadlı öküzləri, parlaq rənglənmiş qlazur karnizlər və Mesopotamiya arxitekturasının digər dekorativ motivlərini götürdülər. Mesopotamiya alaqapıları və tağtavanları əvəzinə, onlar Misirdən sütunu və kolonnadanı götürdülər. Üstəlik binanın içərisindəki bəzəklərdə, misirlilərin təsiri altında sütunların bünövrəsi palma və lotos formasından istifadə edilməklə bəzədilirdi. Yüngül sütunlar, aşağıdakı burumlar və kapitellər misirlilərin deyil, yunanlarınkı idi və onlar materik Yunanıstanından deyil, Kiçik Asiyanın yunan şəhərlərindən götürülmüşdü. Aleksandrdan sonra persiyalılar birbaşa materik yunanların təbəəsi olmaqla, oradan nümunə əxz edəcəkdi, ancaq yunanlar da bilavasitə persiyalılardan nəyisə götürməyə başlayacaqdılar.

II Şahpur Böyük Konstantinin öldüyü 337-ci ildə fort kimi fəaliyyət göstərən Nisibis şəhərini üç dəfə müvəffəqiyyət əldə etmədən mühasirəyə aldı. Lakin yeni düşmən, köçəri hunların onun şərq sərhədlərində görünməsi ilə Şapurun diqqəti yayınmalı oldu. Onlara qarşı uzun kampaniyadan sonra o, Mesopotamiyaya qayıtdı, yuxarı Dəclə üzərindəki Amida (indiki Diyarbakır) şəhərini hunların köməyi ilə işğal etdi. İmperator Dönük Yulian (361-383-cü illər) Konstantsinin ölümündən sonra bu düşmənçiliyi yenidən başladı, lakin Ktesifonun yaxınlığına gəlib çatanda öldü. Onun varisi İovian Dəclə üzərindəki Roman torpaqlarından imtina etməyə və Ermənistanı tərk etməyə məcbur edildi. Ermənistanın böyük hissəsi Persiyanın əyalətinə çevrildi. Tac printsi Xosrov ortodoks zoroastrit idi, atasının hökmranlığının sonuna doğru baş mobedlə birlikdə məzdəkçiləri məhkum etdi, onlar 528-ci ildəki qırğında məhv edildilər. I Xosrov Bizans imperatoru Yustinianla sülh

bağladı. O, zoroastrizm ortodoksiyasını yenidən qurdu, bəzi xristian icmaları təqib edilsə də, Bizansla sülh bərpa edildikdən sonra müəyyən dini dözümlülük hökm sürdü. I Xosrov ən məşhur Sasanid monarxlarından biridir. Onun dövründən yeni və daha ədalətli vergi sistemi tətbiq olundu. Torpaq gəlirindən alınan vergi əvəzinə qoyulmuş nəğd vergi yığılırdı. Belə vergi qoyulması ərəb inzibatçılığı dövründə də qüvvədə qaldı. O, sağ olduğu dövrdə maarifçi və ədalətli hökmdar kimi böyük nüfuz qazanmışdı, öldükdən sonra isə əfsanəvi hökmdara çevrildi.

Yustinian 529-cu ildə Afinada fəlsəfə məktəbini bağlayanda, axırıncı neoplatonistlər Xosrovu həqiqi filosof-çar hesab etdiklərinə görə onun yanına gəldilər. Saraydakı həyat onların ümidlərini boşa çıxarsa da, Xosrov onların geri qayıtmasına şərait yaratdığına görə ona böyük minnətdarlıqlarını bildirdilər. 540-cı ildən başlayaraq Xosrov Yustiniana qarşı uzun müharibə apardı, bu atəşkəslərlə bir neçə dəfə kəsilsə də, 50 il müddətinə uzandı və 561-ci ildə sülhlə nəticələndi. Xosrov öz dövlətini Qara dənizə qədər genişləndirdi, heftalitləri ağır məğlubiyyətə uğratdı, 560-cı ilə yaxın yeni millət olan türklər şərqdə meydana çıxdı. Türk lideri Sincibu ilə ittifaqa girib Xosrov heftalitlərin qəti məğlubiyyətindən sonra ümumi sərhəd qoydu. Türklər İrana qarşı ikinci müharibədə bəzən Bizansın müttəfiqi kimi hərəkət edirdi. Xosrov bu müharibəni oğlu IV Hörmüzə vəsiyyət etdi. Hörmüz atası kimi özünü göstərməyə qadir deyildi, onunla zoroastrizm keşişləri arasında ziddiyyət yarandı. Nəticədə o, general Bəhram Çübinin başçılıq etdiyi qəsdin qurbanı oldu. Hörmüzün oğlu II Xosrov Hörmüzün edamını əfv etməyə məcbur edildi. Bəhram Çübin çar xəttinə mənsub olmasa da, taxt-tacı saxlamağa cəhd etdi. Bu vaxt prinst Bestam bəxtini sınamaq istədi. Xosrov Bizansa qaçdı və imperator Mauris onu hərbi yolla bərpa etdi. Bəhram Çübin darmadağın edildi, qaçanda türklər tərəfindən öldürüldü və Xosrov yenidən Ktesifonda taxt-taca qalxdı. Ləqəbi Pərviz olan II Xosrov görünməmiş sərvət və hörmət qazandı. Mauris öldürüldükdən sonra o, Bizansa qarşı müharibəyə cəlb edildi. Bu yolla ordular Xalkedona (Konstantinopolun əks tərəfində) daxil oldu, Suriyanı qarət etdi və Antioxu, Dəməşqi və Yerusəlimi tutdu, Misir işğal edildi. Bizans imperiyası bu vaxt həqiqətən də öz qüdrət dalğasının çəkilməsi dövrünü yaşayırdı. Sonrakı dövrlərdə Persiya orduları hər yerdə məğlub oldular. 324-cü ildə imperator Herakli Atropatana müdaxilə etdi və böyük zoroastrizm atəş məbədini dağıtdı, II Xosrov heç bir müqavimətə cəhd etmədi. Baş verən inqilabda o, məğlub oldu və oğlu tərəfindən öldürüldü. Onun oğlu da bir neçə aydan sonra öləndə bu, anarxiya ilə nəticələndi. II Xosrovun nəvəsi II Yəzdigird 663-cü ildə taxt-taca çıxdı.

Uzun düşmənçilik Bizansın və İranın qüvvələrini azaltdı. Qapı yeni meydana gələn qüvvələr üçün açıldı. Ərəblər həmin dövlətlərə və dinlərə meydan oxuyurdular. Bir neçə toqquşmadan sonra Sasanid imperiyasının taleyi Kadisiyah döyüşündə (636-637-ci illər) həll edildi. Bu Fəratın kanallarından biri idi, bu döyüşdə Sasanidlərin baş komandanı Rüstəm öldürüldü. Ktesifon öz xəzinələrini düşmənin mərhəmətinə buraxmışdı. Yəzdigird Midiyaya qaçdı. Həmadanın cənubundakı Nehavand döyüşü (642-ci il) İran generalının ümidinə son qoydu. Yəzdigird 651-ci ildə Mərv yaxınlığında öldürüldü. İmperiyanın yıxılması ilə onun dininin də taleyinə möhür vuruldu. Müsəlmanlar rəsmi olaraq zoroastritlərə dözümlülüklə yanaşırdılar, lakin təqiblər də baş verirdi. Yavaş-yavaş bu din İrandan yoxa çıxmağa başladı. Zoroastritlərin çoxu Qərbi Hindistana mühacirət etdi.

# IV HİSSƏ
# ROMA SİVİLİZASİYASININ İNKİŞAFI

## FƏSİL 1
## Roma sivilizasiyası

Yunanıstanın şöhrəti solmamışdan çox-çox əvvəl, bütövlükdə yunan mədəniyyətinə böyük təsir göstərdiyi digər bir sivilizasiya Tibr çayının sahillərində öz başlanğıcını götürdü və bir qədər sonra bütün Qərbi Avropanı öz əhatəsinə aldı. Romanın şəhər kimi meydana gəlməsini Troya müharibəsinin nəticəsi kimi oradan baş götürüb qərbə doğru üzmüş qaçqınların fərasəti ilə izah edirlərsə, Böyük Aleksandrın fəthləri dövründə artıq bu Apennin yarımadasında aparıcı qüvvəyə çevrilmiş bir dövlət idi. Roma m.ə. 2-ci əsrin ortalarında Karfageni məhv etmiş, Yunanıstanı tutmağa müvəffəq olmuşdu, m.ə. 1-ci əsrin sonunda isə Ellinistik dünyanın və Qərbi Avropanın əksər hissəsində öz hökmranlığını qurmuşdu. Bu dövrdə Roma Aralıq dənizini, onun bütöv hövzəsinə ağalıq etdiyinə görə "Roma gölü" adlandıra bilərdi. Bu işğalları aparmaqla yanaşı, məğlub etdiyi yunanlardan onun institutlarını və ideyalarını əxz edib, Aralıq dənizi dünyasının qərb yarısına götürməyi bacarmışdı. Şimalda Reyn və şərqdə Dunay çayı hövzələrinə atılaraq, Aralıq dənizi mədəniyyətini Dəmir dövründə batıb qalmış ərazilərə də aparmışdı. O vaxtlar Roma Şərqlə Qərb arasındakı böyük tarixi körpünün qurucusu idi.

Lakin Roma bu rolu oynaya bilməyə qadir deyildi. Bu iki müxtəlif mədəni baxış arasında gərginliklə əlaqədar idi. Bir tərəfdən romalılar öz tarixinin əsas hissəsi boyu konservatizmə meyl edirdi, onlar özlərinin kənd təsərrüfatı ənənələrinə üstünlük verirdilər və kobud döyüşkənlik yolunu tutmuşdular, həm də onlar qurucu olmağa çalışırdılar və yunan mədəniyyətinin cazibəsinə müqavimət göstərə bilmirdilər. Bir neçə əsrlər ərzində onlar bu iki müxtəlif münasibətin sintezi üzərində öz böyüklüklərini qurdular: ənənəyə, qaydaya və hərbi igidliyə, dəlisovluğa hörmət edirdilər, həm də yunan urbanizasiyasına və zəkanın inkişaf etdirilməsinə qayğı göstərirdilər. Bu sintez əbədi ola bilməzdi, buna baxmayaraq xeyli müddət Yunanıstan şərəfinin yerini Romanın böyüklüyü tutdu.

## Roma şəhərinin salınması. Erkən İtaliya

Roma tarixinin istiqamətinə İtaliya yarımadasının coğrafi mövqeyi mühüm təsir göstərdi. Bu ərazi təbii sərvətlər nöqteyi-nəzərindən çox kasıb idi, yüksək keyfiyyətli mərmərdən və az miqdarda qalay, mis, dəmir və qızıldan başqa digər mineral sərvətlərə malik deyildi. Ucsuz-bucaqsız dəniz sahillərində bir neçə əlverişli liman var idi. Lakin Yunanıstanla müqayisədə burada münbit torpaqlar çox və geniş idi. Ona görə də, romalılar tarixlərinin çox hissəsini əkinçi olaraq qaldılar. Digər ərazilərlə dəniz ticarəti həm də əqli inkişafa şərait yaradırdı. Üstəlik bu yarımada Yunanıstana nisbətən müdaxilələr üçün daha açıq idi. Mərkəzi Avropadan xalqların axışıb gəlməsinə Alp dağları elə maneçilik göstərmirdi, digər ərazilərə isə dənizdən soxulmaq çətin deyildi. Ona görə də bura çoxlu immiqrantlar gəlib, yerli sakinlərlə qarışırdı. Ona görə də İtaliya torpağına qədəm basandan romalılar hərbi işlə məşğul olmağa başladılar, çünki öz işğal etdikləri əraziləri digər müdaxiləçilərdən müdafiə etmək məcburiyyətində qalmışdılar. Elə bu vaxtdan da onlarda doğma torpaqlarına möhkəm vurğunluq hissi yarandı.

İtaliyanın özünə gəldikdə, bütünlüklə yarımada şimaldan Alp dağları ilə, şərqdən və qərbdən isə Adriatik və Tirren dənizləri ilə kəsilsə də, Fransanın cənubundan, Balkanlardan və ya Afrikadan xalqlar, Şərqi Aralıq dənizindən isə tacirlər böyük çətinlik çəkmədən bura gəlirdilər. Roma imperiyası dağıldıqdan sonra İtaliya 1870-ci ilə qədər heç vaxt tam birləşə bilmədi.

Roma böyük və əbədi şəhər şöhrəti tapdığına görə onun yaranması lap adi hal xarakteri daşısa da, sehrlilik və əfsanə haləsinə bürünməli idi. Şəhərin əsasını qoyanın əcdadı da bu əfsanələrə layiq olmalı idi. Ona görə də bu nağılabənzər əhvalatların birində Romanı əhatə edən ərazinin - Latsiumun troyalı Eney tərəfindən m.ə. 12-ci əsrdə məskunlaşması, digərində isə az qala 50 il sonra latinli Romul tərəfindən faktiki olaraq Roma şəhərinin salınmasıdır. Arxeoloji qazıntılar o dövrdə bura dənizçilərin gəlib çıxdığını təsdiq etdiyi kimi, hələ m.ə. VI əsrdə etrusklara Eneyin şəxsiyyəti məlum idi. Qazıntılar həmçinin Romadakı Palatin təpəsində m.ə. 8-ci əsrdə primitiv kənd olduğunu müəyyən etmişdir.

Vestalka Reya Silviya təcavüzə məruz qaldığından hamilə oldu və əkiz oğlanlar doğdu. Çar onların gələcəkdə taxt-taca iddiaçı olacaqlarından qorxub, körpələri çaya atdırdı. Daşqın vaxtı başa çatdığından, su çəkiləndə uşaqlar quruda qaldı və su içməyə gələn dişi canavar onları əmizdirməyə başladı. Onlar böyüyəndə çarı öldürdülər və çaya atıldıqları yerdə şəhər sal-

maq istədilər. Romul Palatin təpəsini seçdi və m.ə. 753-cü ildə burada şəhər saldı və gələcək antik dünyanın paytaxtı onun adı ilə adlandı. Romulun ilk müdrikliyi bundan ibarət oldu ki, burada yüz nəfər ağsaqqaldan təşkil olunan senat təşkil etdi. Senatorlar öz adını "qocalıq" sözündən götürmüşdülər. Onlar həm də atalar adlandığından, onların nəsli bu sözdən yaranan "patritsilər" adına sahib oldu.

Şəhər güclənəndən sonra sakinlərin ailə qurmaq problemi yarandı, çünki o vaxtlar qonşular yeni yaranan şəhərin sakinlərinə ikrahla baxır, onlara qız vermirdilər. Romul hiyləgərliyə əl atdı, təntənəli oyunlar keçirib, buraya sabinliləri də dəvət etdi. Onlar uşaqları və arvadları ilə gəlmişdilər. Bayramın qızğın çağında romalı cavanlar sabinlilərin qızlarını qaçırmağa başladılar. Bu qızlar həmin romalılara ərə getməli oldular. Valideynlər buna dözə bilmirdilər və romalılarla vuruşmalı oldular. Döyüşdə romalılar üstünlük əldə etdikdə sabinli qızlar özlərini döyüşçülərin arasına atıb, ərlərini və atalarını sakitləşdirməyə çalışdılar. Onların səmimi sözləri və yalvarışları hər iki tərəfi ayıltdı. Barışıq vaxtı iki dövlətdən bir dövlət yaratmaq qərara alındı və bütün hakimiyyət Romada cəmləşdi. Vətəndaşların hamısı ayrı-seçkilikdən uzaqlaşmaq üçün "kvirit" adlandırıldı.

Romul öz qonşuları ilə çoxlu müharibələr aparırdı və qənimət hesabına şəhər varlanmağa başladı. O, müharibə vaxtı qeyri-məhdud hakimiyyətə malik olurdu. 38 il çarlıq etdikdən sonra Romul öldü və taxt-tacın boş qaldığı iki il çarlıqlararası dövrə çevrildi. Sonra çarlığa namizəd kimi Numa Pompilinin üzərində dayanıldı. Bu sabinli müdrik insan çox etiraz etsə də, həmin vəzifəyə razılığını verdi.

Numanın dövründə müharibələrə son qoyulmuşdu, qanunlara riayət etməkdə isə çar hamıya nümunə göstərirdi. Ona görə də onun çarlığı dövlətin xeyli möhkəmlənməsi ilə əlamətdar oldu. Romalılar və sabinlilər arasında ayrı-seçkiliyə son qoymaq üçün o, əhalini məşğuliyyət növlərinə görə gildiyalara, sexlərə böldü və bu yerliçilik ədavətinə son qoydu. O, əkinçi əməyinə yüksək qiymət verirdi və torpaqları kasıblar arasında böldü. Bununla o, həm yoxsulluğun, həm də cinayətkarlığın kökünü kəsmək istəyirdi. Əkinçi əməyi həm də adamlara vətəni müdafiə etmək hissləri aşılayırdı. Numa 43 il çarlıq etdi. O, adamlara sarsılmaz mənəvi dəyərlər təlqin etməsi və sülhsevərliyi ilə xatirələrdə yaşadı.

Monarxiya dövründə imtiyazlı sinif olan patritsilər tədricən formalaşmağa başladı, onlara əks mövqedə duranlar isə plebeylər idi. Plebeylər tayfa

təşkilatından xaric edilmişdilər, onlar heç bir mülki vəzifəyə malik deyildilər, nə hərbi xidmətə, nə də vergi verməyə yaramırdılar. Bu dövrdə çar, həm də dini hakimiyyəti icra edirdi. Onların siyasi və hərbi hakimiyyəti mütləq olmaqla "imperium" adlanırdı. Taxt-taca çıxma normal qaydada xalqın səsverməsi və senatın təsdiqi ilə baş verirdi. Roma monarxiyası heç də Şərqdə olduğu kimi irsi deyildi.

Numa Pompili öldükdən sonra Tulli Hostili çarlıq etdi, o da Romul kimi hər yerdə müharibəyə bəhanə axtarırdı. Bu dövrdə romalılar qonşu Alba sakinlərinin, Albadan olanlar isə romalıların mal-qarasını oğurlayırdılar. Romalılar belə oğurluq üçün dəymiş ziyanı ödəməyi tələb etdikdə, rədd cavabı aldılar və bu müharibə elan etməyə imkan yaratdı. Tull Alba torpağına girdi, lakin iki qohum xalqın bir-biri ilə vuruşması böyük Etrusk dövlətinin onları özünə tabe etməsi üçün əlverişli şərait yaradırdı. Ona görə də belə qərara gəldilər ki, hər iki tərəfdən əkiz üç qardaş vuruşsun, qələbəni hansı tərəf çalsa, hakimiyyət də həmin tərəfə verilsin. Romalılar tərəfdən Horatsi qardaşları, Alba tərəfdən isə Kuriatsi qardaşları seçildi. Əkizlər vuruşanda Horatsilərdən ikisi həlak oldu. Bu vaxt üç Kuriatsi qardaş tək qalan romalının üstünə düşdü. Romalı qaçmağa başladıqda, qardaşlar bir-birindən xeyli aralandılar. Horatsi əvvəlcə bir qardaşı, sonra isə digərini öldürdü. Onlar təkbətək qaldıqda Albadan olan döyüşçü yaralı olduğuna görə, romalı üstünlüyə malik idi və ona görə də iki qardaşının bir-birinin ardınca rəqibi tərəfindən öldürüldüyünü görən bu adam ümidsizliklə özünü zərbə altına atdı. Horatsi içdiyi anda sadiq qalıb, Romanın şərəfini qorumağı bacardı.

Tull Hostilinin vəfatından sonra çarlıqlararası dövr başlandı, Ank Martsinin çar seçilməsi ilə bu dövr başa çatdı. O da Romanı genişləndirmək üçün təcavüzə əl atırdı və Tibr çayının dənizə töküldüyü yerdə Ostiya şəhərini saldı. O, öldükdən sonra isə çar uşaqlarının hamisi-tərbiyəçisi Lutsi Tarkvini çarın oğlanlarını ova göndərib yığıncaqda məharətlə çıxış etdi və xalq onu yekdilliklə çar seçdi. O, korinfli Demaratın nəvəsi olmaqla, nənəsi də etrusk qızı idi. Onun atası Lukumon da böyük etrusk nəslindən olan qızla evlənmiş və bu nikahdan o, doğulmuşdu. Tarkvini sabinlilərlə müharibəni udduqdan sonra latinliləri də özünə tabe etdi. Şəhər ətrafına daş hasar çəkdirdi. Su basmış sahələri qurutdu. Kapitoli təpəsində Yupiter məbədinin əsasını qoydu.

Çarın evində qul qadının onun bir klientindən doğduğu Tulli adlı oğlan uşağı yaşayırdı. Öz uşaqları kiçik olduğundan Tarkvini, Servi adlanan bu oğlanı çox sevirdi və öz qızını ona nişanlandırdı. Buna görə də çarın oğlanları

ona sui-qəsd etməyə hazırlaşdılar və iki çoban Tarkvinini qətlə yetirdi. Çarın dul qadınının təkidi ilə Servi çarlığı öz üzərinə götürdü ki, qayınatasının qanını yerdə qoymasın. Xalqa isə bildirdi ki, çarın səhhətinə elə bir təhlükə yoxdur və əslində onun ölümünü gizlətdi. Həm də çatdırdı ki, çarın göstərişi ilə əhali Servi Tulliyə tabe olmalıdır. Ankın oğlanları isə sürgünə yollandılar. Tarkvininin oğlanlarının ona nifrət bəsləməmələri üçün Servi iki qızını çarın oğlanlarına verdi.

Servinin hökmranlığından onun senz tətbiq etməsi qaldı. Həm hərbi, həm də mülki mükəlləfiyyətlər əvvəlki kimi adambaşına deyil, hər kəsin əmlak vəziyyətinə görə müəyyən edilirdi. Roma vətəndaşları altı senzə bölündü. Bu dövrdə əhalinin siyahıya alınması keçirildi.

Lakin çar Tarkvininin bir oğlu Serviyə qarşı öz kinini saxlayırdı və dedi-qodu yayırdı ki, xalqın seçkisi olmadan o, çarlıq etməyə başlamışdır. Tarkvini Servini kuriyadan çıxartdı və pilləkənlərdən atdı. Bunun nəticəsində çar həlak oldu. Qatilin Foruma gələn arvadı, ölən çarın qızı Tulliya ərini çar elan etdi. Yeni çar Tarkvini öz qayınatasının dəfn edilməsinə də icazə vermədi.

Məğrur Tarkvini adını alan çar özünü cangüdənlərlə əhatə etdi, öz hakimiyyətini qorxu ilə qorumağa çalışırdı. Ədalət məhkəməsi aparmaq əvəzinə, təkbaşına hökmlər verirdi, adamları öldürtdürür, sürgün edir, əmlakdan məhrum edirdi. O, senatla məsləhətləşmə qaydasını ləğv etdi və dövlətə öz evi kimi sərəncam verməyə başladı. Müharibə və sülh məsələlərini də o, təkbaşına xalqla və senatla razılaşmadan həll edirdi. Lakin bəzi əlamətlər onu qorxudurdu. Çarın böyük oğlu Sekstin əxlaqsız hərəkəti ona yeni bir problem yaratdı. Sekst öz yoldaşı Kollatinin arvadı gözəl Luktersiyanın ləyaqətinə təcavüz etdi. Biabırçılığa dözməyən qadın özünü öldürdü, lakin ölümündən əvvəl hər şeyi ərinə və onun dostu Bruta danışdı. Xalq yığıncağında çıxış edən Brut çar oğlunun özbaşınalığını və zinakarlığını açıb göstərdi. Brutun çıxışı xalqın qəzəbini artırmaqla, hakimiyyəti çardan geri almaq qətiyyəti yaratdı. Çar Tarkvini arvadı və uşaqları ilə birlikdə ölkədən qovuldu. Çarın oğlanları da düşərgədən qovuldular, Sekst Tarkvini köhnə düşmənləri tərəfindən öldürüldü. Məğrur Tarkvinin çarlığı 24 il davam etdi və m.ə. 510-cu ildə başa çatdı. İki əsr yarıma yaxın davam edən çarlıq quruluşu süqut etdi və Roma bu quruluşdan özbaşınalığa keçdiyinə, despotiya elementləri qazandığına görə əl çəkməyə məcbur oldu.

## Romada respublika quruluşu

Əfsanəvi Lutsi Yuni Brut təkcə çarı ölkədən qovmaqla kifayətlənmədi, çarlığı məhv etməklə despotiya və tiraniyanın qarşısına güclü sipər çəkdi. Hakimiyyətin bir əldə cəmləşməsinə imkan verməyən və əslində özündə bir qədər monarxiya formasını əks etdirən iki konsul seçilməsi qaydası yarandı. İlk dəfə olaraq Roma dövlət quruluşunda respublika forması həyata keçirilməyə başlandı. Rəvayətə görə, hələ Servi Tulli vaxtilə bu barədə qeydlər etmişdi. İlk konsulluğa çar quruluşunu devirməkdə xüsusi xidmətləri olan Lutsi Yuni Brut və arvadının ləyaqətinin təhqir edilməsinə qarşı mərdliklə hərəkət edən Lutsi Tarkvini Kollatin seçildilər.

Roma respublikasında bütünlükdə aristokratiyanın, demokratiya və monarxiyanın təmsil olunduğu üç formanın sintezinin təcəssümü görünür. Konsullar Romada olanda, hərbi yürüşə başçılıq etməyəndə bütün dövlət işlərini həyata keçirirdilər. Xalq tribunları istisna olmaqla, bütün vəzifəli adamlar onlara tabe olurdular. Xalqın səlahiyyətində olan bütün işlərin aparılması konsullara həvalə olunurdu. Hərbi yürüşlər vaxtı isə onlar demək olar ki, hökmdar səlahiyyətlərinə malik olurdular. Buna görə də onlar daha çox monarxiyanı və ya çarlığı andırırdılar.

Senatın hakimiyyətində isə hər şeydən əvvəl xəzinə var idi. Xəzinənin bütün mədaxil və məxaricinə yalnız senat sərəncam verirdi. Konsulun tələb etdiyindən başqa, senatın icazəsi olmadan kvestorlar hansısa bir ehtiyac üçün pul buraxa bilməzdilər.

Dövlətdə yalnız xalq təltif etmək və cəzalandırmaq hakimiyyətinə malik idi. Ölüm hökmünü də yalnız xalq verirdi. Ən başlıcası isə xalq müharibə və sülh məsələlərini həll edirdi. Bu Roma respublikasını demokratik quruluşa bənzədirdi.

Roma respublika quruluşunda Likurqun Spartada tətbiq etdiyi yeniliklər müəyyən qədər öz əksini tapmışdı, lakin yunan mədəniyyəti daha geniş ölçüdə Roma mədəniyyətini mayalandırmışdı. Əgər şərq ölkələrində bu ellinizmin yaranması ilə əlaqədar idisə, ellinizm isə Aleksandrın işğallarının nəticəsi idi, Romada əksinə ellin təsiri məhz Roma Yunanıstanı hissə-hissə işğal etdikdən sonra gücləndi. Yunan şairinin sərrast ifadəsi ilə deyilsə, öz mədəniyyəti ilə "məğlub edilmiş Yunanıstan özünün sərt işğalçısını işğal etdi". Yunan mədəniyyəti daha inkişaf etmiş olduğundan Roma ondan faydalanmağa başladı. Axı romalılar hələ m.ə. 5-ci əsrdə Afinaya Solonun qanunlarını öyrənməyə getmişdilər. M.ə. 146-cı ildə Yunanıstandakı qələbələrin-

dən sonra Roma hərbi uğurunun əvəzində yunan mədəniyyətinin təsiri altına düşdü. Mədəniyyət öz sferasında qılıncın gücünü tanımır, yüksək olanda öz kölgəsini az inkişaf etmişin üzərinə salır. M.ə. 3-cü əsrdə Pirrə qalib gəldikdən və Cənubi İtaliyadakı yunan şəhərlərini özünə tabe etdikdən sonra ellin mədəniyyətinin təsiri Roma ərazisində gücləndi və kübar dairələri arasında yunan dili geniş yayılmağa başladı. Dillə birlikdə biliklər də nüfuz etməyə başladı. Ellin mədəniyyəti vasitəsilə Romaya Şərqin mədəni təsiri də yayılmağa başladı. Bu məsələ barədə Tsitseron yaxşı yazmışdı: "Axı bizim şəhərimizə Yunanıstandan ellin və incəsənətin kiçik çayı deyil, bol sulu çayı axırdı". Sonralar Roma özü dünya sivilizasiyası üçün belə nəhəng çayın mənbəyinə çevrildi.

Romalılara etruskların da xeyli təsiri olmuşdu. Etrusklar Herodotun yazdığına görə, Kiçik Asiyadan gəlmişdilər. Yunan tarixçisi Dionisi isə güman edirdi ki, onlar yerli italyan əsillidirlər. Onların dili hind-avropa dili deyildi və şərq adətləri ilə sıx bağlı idilər. Güman edilir ki, onlar qərbə Kiçik Asiyadan gəlmişdilər və m.ə. 800-ci ilə yaxın Apennin yarımadasında Etruriya yaylasında məskunlaşmışlar. Onlar burada bir neçə şəhər salmışdılar. Etrusk şəhər-dövlətlərinin qüdrəti m.ə. 7-6-cı əsrlərdə xeyli güclənmişdi. Aralarında tez-tez müharibələr baş verməsinə baxmayaraq, etruskların romalılara mədəni təsiri güclü idi, axı onlar Mərkəzi İtaliyaya sivilizasiya gətirmişdilər. Dünyanın xeyli hissəsinin bu gün də istifadə etdiyi əlifbanı romalılar bilavasitə etrusklardan götürmüşdülər, çünki yazı sistemini etrusklar da yunanlardan əxz etmişdilər. Etrusk memarlığı, heykəltəraşlığı və rəngkarlığı inkişaf etmişdi.

"Azadlığın atası", respublikanın banisi olan Brutun qayğıları təkcə çarı taxt-tacdan qovmaqla bitmədi. Yeni dövlətə qarşı qəsd hazırlandıqda, və bu qəsdə Brutun oğlanları da cəlb edildi. Konsulların öldürülməsi qərara alınmışdı. Lakin bir qul bu qəsdin üstünü açdı. Brut respublikanı qorumaq naminə oğlanlarının edam edilməsinə göstəriş verdi. Digər konsul Kollatin isə sui-qəsdçilərə mərhəmət göstərdiyinə görə vəzifədən uzaqlaşdı və sürgünə yollandı. Xainlər layiqli cəzalarını aldılar. Xəyanətin ifşa edilməsində xidmətlərinə görə Valeri konsul seçildi. Həmin qəsdi aşkarlayan Vinditsi isə ilk dəfə olaraq qul olmaqdan azad edildi. Qulun tam azad olması rəvayətə görə bu addan götürülməklə, "vindikta" adlanır.

Çarlıqdan qovulmuş Tarkvini öz fitnəkarlıqlarını davam etdirirdi, etruskları romalılara qarşı müharibəyə qızışdırırdı. Etrusklarla döyüşdə Brut öldürüldü. Bir az sonra güclü İtaliya çarlarından olan Porsena romalılara mühari-

bə elan etdi. Roma mühasirəyə alınanda, şəhərdə aclıq başlandı. Bu vaxt Roma vətəndaşı Mutsi görünməmiş bir igidlik göstərdi. O, Porsenanı öldürmək məqsədilə etrusk paltarında onun düşərgəsinə girdi və çarı tanımadığından, onun yanındakını öldürdü. Onu tutub istintaqa başladılar. Bu vaxt o, sağ əlini sacayaq altında yanan odun üstünə tutub, qolunun əti yanana qədər sakitcə saxladı. Çar onun bu fədakarlığından heyrətə gəlib, onu buraxdırdı və ona qılınc verdi. Mutsi qılıncı sol əli ilə götürdü, buna görə də ona "stsevola" - "solaxay" ləqəbi verildi. Bu hadisədən sonra Porsena sülh bağlamağa meyl etdi. Sülh müqaviləsinə görə romalılar Etruriyada işğal etdikləri torpaqlardan əl çəkdilər.

## Roma respublikasının çətin sınaqları

Roma respublikası yarandığı vaxtdan tarixə görkəmli şəxsiyyətlər bəxş etməsi ilə öyünə bilərdi. Brut respublikanı qoruyub saxlamaq üçün öz oğlanlarının məhv edilməsinə də özü qərar vermişdi. Ondan sonra konsul olan Valeri xalq içərisində böyük hörmət qazandığına görə Poplikola - "Xalqın dostu" ləqəbini almışdı. M.ə. 5-ci əsrin ortalarında konsul və diktator olmuş Kvinkti Tsintsinnat isə igidliyinə və vətəndaşlıq borcuna sədaqətinə görə ən məşhur şəxsiyyətlər sırasına daxil olmuşdu. O, Vatikanda dörd yugerlik (1 ha) sahəsini kotanla becərməklə məşğul olanda, müharibə başlanan kimi romalılar onu diktator seçirdi, müharibəni zəfərlə başa vurduqdan sonra Tsintsinnat könüllü olaraq diktatorluqdan imtina edib yenidən atasından qalmış həmin torpaq sahəsini becərməyə qayıdırdı.

M.ə. 4-cü əsrin əvvəllərində hərbi tribun vəzifəsi ali hakimiyyətə yiyələndikdə, onu icra edən Mark Fulli Kamill böyük şöhrət qazanmışdı. Romalılar Etruriyanın ən gözəl şəhəri sayılan Veyiyə qarşı müharibənin onuncu ilində Kamilli diktator seçdi və o, yeraltı lağım qazmaq yolu ilə şəhəri tuta bildi. Faleriya şəhərini mühasirədə saxlayanda, bir müəllim öz şəhərinə xəyanət edərək, dərs dediyi uşaqları ona girov kimi təhvil vermək istəyəndə, Kamill müəllimi cəzalandırdı və uşaqları geri, şəhərə qaytardı. O, bildirdi ki, müharibə şərdir, onu ədalətsizlik və zorakılığın köməyi ilə aparırlar, lakin namuslu adamlar üçün müharibədə də bəzi qanunlar mövcuddur. Qələbənin faydası alçaqlıq və cinayət yolu ilə əldə edilirsə, ona can atmaq olmaz. Bu sözləri o, həmin alicənablıq hisslərini ətrafındakılara da təlqin etmək üçün deyirdi. Şəhər sakinləri uşaqlarını salamat gördükdə, Kamilli özlərinin xilaskarı adlandırdılar və elçiləri vasitəsilə bildirdilər ki, təslim olurlar. Kamill

qan axıtmadan zəfər çaldı və həm də şəhəri qarət etməyə, qənimət götürməyə icazə vermədi.

Qallar m.ə. 390-cı ildə Romaya hücum etdilər və şəhər ətrafında romalıları məğlub etdilər. Qall sərkərdəsi Brenn ordusu ilə Romaya daxil oldu və Foruma yollandı. Şəhər yandırıldı, təkcə Kapitoli təpəsində olanlar təslim olmaq barədəki təklifi rədd etdilər. Qallar bu təpəyə dırmaşanda, qazlar keşikçiləri oyatdılar və qallar Kapitolidən geri oturduldu. Bu vaxt keçmiş konsul Manli fərqlənmişdi. Sonra qallarla şəhəri bütünlüklə təhvil vermək barədə danışıqlar gedəndə, Kamill özünü yetirib, bir diktator kimi qallara çıxıb getməyi əmr etdi. Sonra Kamill qalları döyüşdə məğlub etdi, Romanı biabırçı işğaldan xilas etdi.

Kamillin taleyinə sonra respublikanı indi də qaragüruhun qəsdindən xilas etmək vəzifəsi düşdü. Qaragüruha Kapitolinin müdafiəsində xüsusi xidmətləri olan Mark Manli başçılıq edirdi. Onun tərəfdarları xalqda vahimə yaratmışdı, Forumda iğtişaşlar törədirdi. Yenidən hərbi tribun seçilən Kamill azğınlaşmış Manlini məhkəməyə verdirdi və o, təqsirkar elan edilərək, Kapitoliya aparılaraq orada qayadan atıldı. Beləliklə, Kamill iki dəfə Romanı xilas etmiş oldu, bu xidmətlərinə görə o, "Romanın ikinci əsasını qoyan" ləqəbini almışdı.

Həmin əsrin ikinci yarısında romalılar Orta İtaliyanı tutmaq uğrunda qızğın mübarizəyə girişdilər, Latin federasiyasının şəhərləri ilə müharibə apardılar. Bu müharibələr üç Samnit müharibəsi kimi tanınır. Son nəticədə İtalik tayfalarına başçılıq edən samnitlərə romalılar qalib gələ bildilər və Orta İtaliya ərazisinə sahib oldular. Sonra isə Cənubi İtaliya şəhərlərinin işğal edilməsi vəzifəsi dururdu. Bu şəhərlər "Böyük Yunanıstan"a daxil idi, onların çoxunu, o cümlədən Neapolu yunanlar salmışdılar. İri cənub şəhəri olan Tarent ciddi müqavimət göstərirdi və kömək üçün Yunanıstandakı Epir çayı Pirrə müraciət etmişdi. İtaliyaya gələn Pirr m.ə. 280-279-cu illərdə iki mühüm qələbə qazanır. Lakin Auskulum yaxınlığındakı son qələbə ona çox baha başa gəlir. O, özü etiraf edir ki, bir də belə qələbə çalsa, tək özü qalacaqdır. Buradan da istehza mənasında işlənən "Pirr qələbəsi" sözləri qalmışdır. Ona görə də Pirr əvvəlcə Siciliyaya qayıdır, sonra bir daha İtaliyada ağır məğlubiyyətlə üzləşdiyindən, Apennin yarımadasından qaçmağa məcbur olur. Romalılar isə Tarenti və digər şəhərləri tutduqdan sonra cənubda Messina boğazından, şimalda Rubikon çayına qədər bütün İtaliyanı əllərinə keçirirlər.

Uzun müharibələr aparan Roma əsaslı surətdə özünün hərbi təşkilatını

yaratmışdı. Müasir dillə deyilsə, Roma hərbi doktrinası hücum xarakteri daşıyırdı, işğal müharibələri aparırdı və o vaxtkı dünyaya hakim olmağı arzu edirdi. Ordu xalq könüllülərindən ibarət idi, Roma vətəndaşı üçün orduda xidmət nəinki borc, həm də şərəf işi idi. Hərbi xidmət stajı olmayan adam dövlət vəzifəsi tuta bilməzdi. Əvvəllər orduda xidmətə görə haqq verilmirdi, döyüşçü özünün silahı və qidalanması məsələsini də həll etməli idi. Sonrakı dövrlərdə, yarımadadan kənara yürüşlər başlayanda, döyüşçülər maaş alırdı. Roma ordusu hər biri 6 min döyüşçüdən ibarət olan legionlardan ibarət idi. Hər legionda 30 manipul, hər manipulda iki senturiya, hər legionda həmçinin 300 süvari və ya 10 turma var idi. Roma ordusuna bir qayda olaraq konsullar başçılıq edirdi. Ən təhlükəli dövrlərdə isə yarım il müddətinə diktator təyin edilirdi. Köməkçi qoşunlar legionlardan fərqli olaraq Roma vətəndaşlarından deyil, zəbt edilmiş İtaliya torpaqlarının sakinlərindən - müttəfiqlərin əhalisindən təşkil olunurdu. Maaş vermə qaydası tətbiq olunanda könüllü ordu nizami orduya çevrildi. Şəhərlər yeni əsgərləri yığır, onlara and içdirirdilər.

## Puniya müharibələri

Romalılar İtaliyanın iqtisadi potensialına sahib olduqdan sonra öz nəzərlərini Siciliya adasına dikdilər. Bu ada geniş və çox məhsuldar torpaqlara malik idi. Bu dövrdə Siciliyanın böyük hissəsinə Karfagen nəzarət edirdi.

Karfagen Aralıq dənizi sahilindəki qüdrətli dövlətlərdən biri olub. Afrikanın şimalında (indiki Tunis ərazisində) yerləşirdi. Bu gözəl şəhər Romadan xeyli əvvəl, m.ə. 825-ci ildə finikiyalılar, Tir şəhərindən olan adamlar tərəfindən salınmışdı. Güclü dəniz donanması hesabına dəniz ticarətindən xeyli varlanmışdı. Karfagen tacirləri Aralıq dənizinin hər tərəfinə üzürdülər. Burada həm də kənd təsərrüfatı yaxşı inkişaf etmişdi və siyasi hakimiyyət torpaq sahibkarlarına və tacirlərə məxsus idi. Karfagendə də respublika quruluşu mövcud idi, lakin Xalq yığıncaqlarının rolu məhdud idi. Roma senatına bənzəyən 300-lər şurası fəaliyyət göstərirdi. Ordu muzdlu əsgərlərdən və Karfagendən asılı olan tayfaların göndərdiyi dəstələrdən ibarət idi. Yüksək hərbi vəzifələri karfagenlilər tuturdular və bir qayda olaraq hərbi rəislər böyük siyasi nüfuza malik olurdular. Öz texniki təchizatına görə Karfagen ordusu başqa ordulardan yüksəkdə dururdu, mühasirə maşınlarından, döyüş fillərindən istifadə edirdi. Ən başlıcası isə, 50 avarlı gəmilərdən ibarət güclü hərbi donanmaya malik idi. Hələ m.ə. 7-ci əsrdə Aralıq dənizinin iri tica-

rət mərkəzinə çevrilən Karfagen özünün əlverişli coğrafi şəraitindən istifadə edib, bu rayonda ağalıq iddiasına düşdü. Siciliyada, Liquriyada və Pireney yarımadasında yunan kolonistləri ilə, həmçinin qədim ispan dövləti olan Tartesslə qızğın müharibə aparan Karfagen, etrusklarla ittifaqda Tartessi məhv etməyə müvəffəq oldu. Şimali Afrikanın, Cənubi İspaniyanın, Qərbi Siciliyanın və Sardiniyanın geniş ərazilərini özünə tabe etdi. M.ə. 3-cü əsrin ortalarında isə faktiki olaraq bütün Siciliyanın ağasına çevrildi. Buna görə də Aralıq dənizində öz ticarət inhisarını saxlamağa cəhd edirdi. Bu sahədə rəqibin meydana gəlməsi isə ciddi təhlükə yaradırdı və iki güclü rəqibdən birinin məhv və ya tabe edilməsi "dünya" dövlətinin yaranmasına səbəb ola bilərdi. Roma da məhz öz rəqiblərini aradan götürməklə dünya dövlətinə çevrilə bilərdi. Lakin Karfagen hökmdarları da belə bir arzu ilə yaşayırdılar ki, bütün eykumenanı əhatə edən dövlətin mərkəzi Karfagen olsun. Karfagen sərkərdələri Hamilkar Barka və onun oğlu Hannibal da öz qarşılarında məhz belə bir məqsəd qoymuşdular. Lakin məqsədlə fəaliyyətin nəticəsi çox vaxt uyğun gəlmir, tam əks istiqamət almaqla məhvedici bədbəxtliyə gətirib çıxarır.

Karfagenlə Romanın münasibəti çoxlu mərhələlərdən keçmişdi. Hələ respublika quruluşu yarandığı il Roma bu dövlətlə ilk müqavilə bağlamışdı, bir əsr yarım sonra bu müqavilə təzələnmişdi. Lakin Pirr bu regionu tərk edəndə artıq onların arasında qarşıdurma yaranmışdı. Qarşılıqlı narazılıqlar m.ə. 264-cü ildə Birinci Puniya müharibəsinin başlanmasına gətirib çıxardı. Karfagenin müttəfiqi olmuş Sirakuza çarının romalılar tərəfinə keçməsi ilə müharibənin son nəticəsi lap əvvəldən öz həllinə yaxınlaşdı. Gözlənilmədiyi halda romalılar abordaj körpüləri adlı yeni taktika tətbiq etməklə dəniz döyüşündə də qalib gəldilər və Karfagenin Afrikadakı torpaqlarına keçdilər, lakin burada məğlubiyyətə uğradılar. On üç illik taqətdən salan mübarizədən sonra tərəflər başlanğıc vəziyyətinə qayıtdılar. Karfagen bir dəniz döyüşündə öz donanmasını itirdikdən sonra 241-ci ildə sülh müqaviləsi bağlamağa məcbur oldu. Siciliyadan imtina etməli olsa da, öz müstəqilliyini qoruyub saxladı. Romaya iri məbləğdə təzminat verməli idi. 23 il ərzində davam edən müharibə Romanı da taqətdən saldı.

Vəd olunan maaşı və mükafatı almayan muzdur əsgərlərin qiyamını Hamilkar Barka yatırtdıqdan sonra böyük nüfuza sahib oldu və Romadan qisas almaq fikrinə düşdü. Onunla müharibə aparmaq üçün platsdarm kimi İspaniyanı seçdi. Lakin İspaniya işğal ediləndə Hamilkar həlak oldu, orduya komandanlıq əvvəlcə onun kürəkəninə, sonra isə oğlu Hannibala keçdi.

Atası Hannibala romalılara qarşı nifrət hissi təlqin etmişdi. Hətta doqquz yaşında olanda o, mehrab qarşısında Romaya əbədi nifrət andı içmişdi. Ömrünün sonunda qoca Hannibal bunu Selevkid çarı III Antioxa söyləmişdi. O, ümumiyyətlə çox şeydə atasına bənzəyirdi, olduqca cəsur idi, özünü təhlükələrə atırdı, qızmar istiyə də, şaxtaya da eyni qaydada dözürdü. Lakin o, həm də qəddar idi. Sərkərdə olduqdan sonra Romanın himayəsində olan Saquntu zəbt etdikdə, o, bütün yaşlı şəhər sakinlərinin öldürülməsini əmr etmişdi.

Hannibal m.ə. 218-ci ildə Giber (indiki Ebro) çayını keçib, sonra isə qalların torpaqları ilə irəliləyərək Alp aşırımlarına gəlib çıxdı. Böyük çətinliklərlə onun qoşunu Alp dağlarının sıldırım qayalarını keçib İtaliyanı və Pad (indiki Po) çayının ovalığını seyr etdilər. İtaliyaya 80 min piyada, 10 min süvari gətirilmişdi. Alp dağlarından 37 fil keçirə bilmişdi. İlk Titsin döyüşünü Hannibal uddu. Bir il sonra Trazimen gölü yaxınlığındakı döyüşdə romalılar ağır itki verməklə məğlub oldular və bu onları ciddi qorxuya saldı. Bundan sonra Hannibal Adriatik dənizi sahilinə keçməyi qərara aldı. Onu xırda toqquşmalar taqətdən salırdı. Çünki Roma sərkərdəsi Fabi iri, həlledici döyüşlərdən qaçırdı və bu vaxt ona üstünlük verən bir faktora - düşmənlə müqayisədə öz ordusunun maddi resurslarının tükənməz olmasına bel bağlayırdı. O, yalnız Hannibalı izləyir, onu gözdən buraxmır və düzənliyə enməsinə imkan vermirdi. Lakin Fabini başa düşməyənlər də çox idi. Onu cinayətkar adlandırır, lənglikdə, hətta xəyanətkarlıqda ittiham edirdilər. Ona təhqiramiz "Kunktator" - "Ləngiyən" ləqəbini vermişdilər. Lakin məhz Fabi taktikası xeyli dərəcədə Romanı sağalmaz məğlubiyyətdən və Karfagen ağalığından xilas edə bildi.

M.ə. 216-cı ildə gedən Kann döyüşündə Hannibal tarixi qələbə qazandı. Bu döyüşdə romalılar 70 min əsgər itirmişdilər, karfagenlilərin isə itkisi vur-tut 8 min nəfər olmuşdu. Bu qələbədən sonra elə görünürdü ki, artıq bütün İtaliya işğal edilmişdir. Bircə təskinlik o idi ki, Roma hələ zəbt olunmamışdır. Lakin Hanibbal bu böyük qələbəsinin bəhrəsini bütünlüklə dada bilmədi və tərəddüd göstərərək, sürətlə Romaya hücum etməkdən vaz keçdi. Düzdür o, özünü artıq əsl qalib hesab edirdi və elə aparırdı ki, elə bil ki, müharibə qurtarmışdır. Ondan fərqli olaraq Roma belə düşünmürdü və müharibəni tam uduzmadığını Hannibala da anlada bilmişdi.

Kannda böyük qələbə çalan Hannibal İtaliyada nə qədər müttəfiqlər qazansa da, yenə onun köməyə ehtiyacı var idi. Lakin Karfagen əslində ona əlavə kömək göstərməkdən imtina etdi. Ordunun Kapuyada qışı keçirməsi

isə onun ən mühüm səhvlərindən biri oldu. Alpın sərt aşırımlarının, böyük məhrumiyyətlərin əyə bilmədiyi, qalib gələ bilmədiyi Puniya ordusunu əyləncə, kef və eyş-işrət məhv etdi, döyüşçülərin bədənini və ruhunu zəiflətdi.

Hannibal nəhayət Romaya yaxınlaşdı və şəhərin qapısının ağzında, üç mil aralıda dayandı. Şəhərdə böyük panika yarandı. Bu vaxt az qala təbii fəlakət xarakterli leysan yağış yağmağa başladı. Səhərisi gün bu yağış davam etdi. Bu vaxt Hannibal demişdi ki, Romaya sahib olmaq üçün ona ya ağlı çatmır, ya da bəxti gətirmir. O, Romadan geri çəkilməyə məcbur oldu.

M.ə. 205-ci ildə konsul seçilən Publi Korneli Stsipion müharibənin Afrika ərazisinə keçirilməsi məsələsində uğur qazandı. Konsul kimi ona düşən Siciliyadan istənilən vaxt Afrikaya keçə bilərdi. Bu yolla o, Hannibalın geri, öz vətəninə dönməsinə nail ola biləcəkdi. Lakin bu ekspedisiya üçün ona dövlət xəzinəsindən pul verilmədikdə, o, bu yürüşü maliyyələşdirmək üçün öz vəsaitindən istifadə etməli oldu və ayrı-ayrı adamlardan borc aldı.

Stsipionun Afrika torpağına çıxması barədəki bir az tələsmiş xəbər Karfagendə böyük təşviş yaratdı. O, 440 gəmi ilə Afrikaya yollandı və 204-cü ildə sahilə çıxdı. Hannibal da İtaliyadan geri çağırıldı. M.ə. 202-ci ildə Zama yaxınlığındakı döyüşdə 20 min Karfagen döyüşçüsü öldürüldü və o qədər sayda da əsir götürüldü. Bu döyüş Hannibalın ilk və son məğlubiyyəti oldu və 201-ci ildə sülh müqaviləsi imzalandı. Karfagenlilər Stsipiona özlərinin sayı 500-ə çatan hərbi gəmilərini, həmçinin fillərini, fərariləri, qaçmış qulları və əsirləri verdi. Gəmilərin hamısı şəhər yaxınlığında yandırıldı. Karfagenlilərin başladığı II Puniya müharibəsi, onun təşəbbüsçüsü olan dövlətin tam məğlubiyyəti ilə başa çatdı. Bu müharibənin baiskarı olan Hannibal isə ölkəsindən qaçdıqdan sonra, nəhayət Vifiniyaya gəlib çıxdı və burada xilas imkanlarının tükəndiyini görüb, zəhər içərək özünü intihar etdi.

III Puniya müharibəsi başlayanda karfagenlilər öz donanmalarını və ordularını bərpa etmişdilər. Strabonun yazdığına görə, m.ə. 2-ci əsrin ortalarında Karfagenin 705 min əhalisi var imiş. Bu şəhər yaraşıqlı və yaşıllığa qərq olmuş küçələrə, dəbdəbəli evlərə malik idi. Orta təbəqə isə altı mərtəbəyə qədər olan çoxmənzilli evlərdə yaşayırdılar. Bu vaxtlarda Roma Yunanıstanı ram etmək üçün Axey İttifaqı ilə vuruşdu və ölkənin ən iri ticarət mərkəzlərindən biri və tarixi şəhər olan Korinfi m.ə. 146-cı ildə viranə qoydu. Elə həmin vaxtlarda Karfagenə qarşı münasibətlər sərtləşməyə başladı. II Puniya müharibəsində əvvəldən axıradək iştirak edən Mark Portsi Katon bu antikarfagen cəbhəsinə başçılıq edirdi. Karfageni Romanın müttəfiqinə çevirmək istəyənlərə Katon deyirdi ki, onun böyüyən qüdrətindən qorxmaq la-

zımdır və Karfageni yer üzündən silmək lazımdır. O, bu dövlətin dağıdılması tələbini uzun illər boyu təkrar etmişdi. Karfagenlilər əvvəlcə öz qonşuluğundakı romalıların müttəfiqinə qarşı müharibəyə başladı və uduzdu, sonra romalılarla müharibə başlandı. Roma senatı qərara gəldi ki, Karfagenə müharibə elan olunsun, Karfagen yer üzündən silinsin. O tərksilah edildikdə, romalılar başlıca tələblərini irəli sürdülər - karfagenlilər şəhəri tərk etməli və dənizdən aralıda özlərinə məskən salmalıdırlar. Dənizdən aralanmaq, onları məhv etmək demək idi. Axı dəniz onların ticarət meydanı, dünya bazarı ilə əlaqə vasitəsi idi. Hər şeyə hazır idilər, təkcə vətənlərini tərk etməsinlər. Ona görə də ölüm-dirim mübarizəsinə hazırlaşırdılar.

Romalılar şəhəri hücumla götürməyi qət etdilər. M.ə. 146-cı ilin yazında Emilian Stsipion şəhərin bir limanını mühasirəyə aldı. Onun əsas məqsədi isə şəhərdəki akropol və məbədlər yerləşən təpəni tutmaq idi. Hər bina hücumla tutulurdu. Sərkərdə şəhəri yandırmağı və evləri dağıtmağı əmr etdi. Bu qanlı orgiya altı gün davam etdi. Xilas olmuş 50 min kişi və qadını qul olmaq taleyi gözləyirdi. Sonra şəhəri qarət etməyə icazə verildi. Karfagen torpaqlarının bir hissəsi Numidiyaya verildi, qalan hissəsi isə Roma əyalətinə çevrildi. Şəhərin xarabalıqları da yer üzündən silindi, ərazisi şumlandı, lənətləndi və bir daha məskunlaşmadı.

118 illik zaman məsafəsində baş verən və üst-üstə 43 il davam edən qanlı üç Puniya müharibəsi Romanın daha da möhkəmlənməsinə, onun dünya dövlətinə çevrilməsinə, digər qüdrətli bir dövlətin - Karfagenin isə birdəfəlik tarix səhnəsindən silinməsinə səbəb oldu. Bu müharibələr Roma respublika quruluşunu ciddi sınaqlardan çıxarmaqla, onun həyat qüvvəsini, yaşamaq və inkişaf etmək qabiliyyətini bir daha nümayiş etdirdi.

M.ə. 171-167-ci illərdə aparılan üçüncü Makedoniya müharibəsi Makedoniya monarxiyasının ləğv edilməsi və onun dörd respublikaya bölünməsi ilə nəticələndi. Roma ona loyal olan Perqamdan və Rodosdan da şübhələnirdi. Makedoniya 149-148-ci illərdə yenidən bədbəxtliklə üzləşərək, eyni adlı Roma əyalətinin yaradılmasına məcbur edildi. Yunanıstan birbaşa olmasa da Roma nəzarətində idi. Liqa parçalanmışdı və Roma konsulu Mammi 146-cı ildə Korinfi dağıtmışdı. Bundan məqsəd Yunanıstana dərs vermək idi, ölkə formal olaraq müstəqil qalsa da, Makedoniyadakı pretor tərəfindən ona nəzarət edilirdi.

Roma orduları və generalları geri dönəndə Cənubi İtaliyadan, Siciliyadan və Ellinist Şərqindən bir çox nailiyyətləri öz vətənlərinə daşıyıb gətirdilər. Sirakuzanın fatehi Martsell heykəllər yükü ilə qayıtmışdı və Romanı bəzə-

mək üçün onları ictimai yerlərdə qoydurmuşdu. Emili Pavel Perseyi məğlub etdikdən sonra Makedoniya dövlət kitabxanasını Romaya gətirmişdi. Mammi Korinfi dağıtmamışdan əvvəl, onu qarət etmişdi. Adamlar da həmçinin nəhəng sayda gəlirdilər. Epirin Roman işğalçısı 167-ci ildə təkcə öz toruna 15 min qul salmışdı. Bu adamların çoxu Roma fermalarına və maldarlıq təsərrüfatlarına göndərildi, lakin qul edilənlərin bəziləri mədəni adamlar idi. Bunların sırasına komediyanəvis Terentsi (m.ə. 195-159-cu illər), tarixçi Polibi və digər yunan liderləri daxil idi. Onlar Romaya 167-ci ildə girov kimi gətirilmişdilər.

Puniya və Makedoniya müharibələri başa çatdıqdan sonra Romanın altı əyaləti - Siciliya, Sardiniya (Korsika ilə birlikdə), romalıların Yaxın və Uzaq adlandırdıqları iki İspaniya əyaləti, Makedoniya və Afrika əyalətləri var idi. Romanı isə qarşıda hələ çox sınaqlar, iri müharibələr, bunlardan ən dəhşətli olanını - vətəndaş müharibələri gözləyirdi.

## Romada ellinist mədəniyyəti

Romaya lap ilk günlərdən yunan mədəniyyəti dərin təsir göstərmişdi, bu təsir ya birbaşa, ya da etruskların vasitəçiliyi ilə gəlib çatırdı. M.ə. 5-ci əsrin əvvəllərində Mərkəzi İtaliyada bu əlaqələr zəiflədi. Romalılar dar dünyanın içərisində yaşayırdılar, mədəni nitqə malik idilər, bu dövr ərzində onlar öz idarəetmə sistemini qurmuşdular və İtaliyanı işğal etmişdilər. Yunan klassik mədəniyyətinin böyük dövrlərində Roma onunla birbaşa əlaqəyə malik deyildi. Onun əlaqələri yalnız 3-cü əsrin əvvəllərindən irəliləməyə başladı. Bu vaxtdan yunan sivilizasiyası özünün ellinistik fazasına keçmişdi, daha yüksək qaydada təsdiq olunmuşdu, bundan da xeyli dərəcədə geniş məftunluq tapmışdı. Romalılar siyasi və ya hərbi bacarıqda Şərqdən heç bir nümunəyə ehtiyac duymayanda, onun mədəniyyətinə çox böyük maraq nümayiş etdirirdi.

Onların ən çox əxz etdikləri əyləncə və ya fiziki həzz səviyyəsi idi. İlk bərbər 300-cü ildə Siciliyadan Latin şəhərinə gəlmişdi. Tezliklə Romada peşəkar aşpazlar meydana gəldi. Kübarlar daha dəbdəbəli evlər tikməyə başladılar, bu evləri ən yaxşı avadanlıqlarla və rahatlıqlarla təchiz etdilər. Adamların zövqünü yaxşılaşdırmaq məqsədilə K.Enni (239-169-cu illər) "Ləzzətli yemək elminə aid" təlimat tərtib etmişdi. Kütlələr üçün ictimai əyləncələr çox sayda artdı. 3-cü əsrin əvvəllərində kübar matəm mərasimlərində qladiator oyunları göstərmək kimi etrusk adəti tətbiq olunurdu. Birinci

Puniya müharibəsi başa çatanda digər bir əyləncə növü kimi adamlar dini bayramlarda göstərilən komediya tamaşalarına gəlirdilər. Bu vaxt Menandrın və digər yunan müəlliflərinin yeni komediyaları göstərilirdi. Livi Andronik də (284-204-cü illər) ilk dəfə Romada komediya yazmağa başladı, sonra İkinci Puniya müharibəsində Maktsi Plavt (254-184-cü illər) və 2-ci əsrdə Terentsi gəldi. Komediyalarla yanaşı faciələr də yarandı, bunlardan bəziləri yunan modelinə əsaslansa da Roma mövzularında idi. Nevi (270-199-cu illər) və Pakuvi (220-130-cu illər) bu sahədə lider idilər.

Latın dilində ilk böyük şairlər Roma kübarlarının böyük işlərindəki fəaliyyətləri ilə də şöhrət tapmışdılar. Nevi Birinci Puniya müharibəsi barədə epik əsər yazmışdı. Erkən dövrün böyük şairi olan Enni 172-ci ilə qədər olan Roma tarixinin ümumiləşdirilməsi qaydasında "Annallar"ı tərtib etmişdi. Ondan bir az əvvəl, 3-cü əsrə yaxın K.Fabi Paktor Roma tarixinin ilk nəsrini yazmışdı, lakin bu əsər yunan dilində yazılmışdı. 2-ci əsrdə Katon Senzor latın dilində "Başlanğıclar" tarixi kitabını yazmışdı, bu əsər öz oğlu üçün dərs vəsaiti kimi iri məktublar şəklində yazılmışdı. Bu tarixi əsərində Katon onun dövründə yüksələn fərdiyyətçiliyi dəstəkləməkdən imtina edərək, Roma tarixinin bəzi şəxsiyyətlərini, məhz Hannibalın Arno bataqlıqlarından keçirdiyi fil adlandırırdı və beləliklə, onlar hansısa fildən gözləniləndən daha çox etmişdilər. Böyük Katon bunu pis əməl, dağıdıcılıq fəaliyyəti barədə deyirdi.

Ellinist təhsil prinsipləri də həmçinin Romaya gəlib çıxdı. Arxaik On iki cədvəlin yerini tutmaq üçün ilkin misal kimi, Livi Andronik "Odissey"i latın dilinə tərcümə etdi. Yunan ritorlarını və qrammatiklərini kübar ailələri öz oğlanlarına təhsil vermək üçün müəllim kimi tuturdular. Yunan ideyalarının Romada yayılması üçün ritorika başlıca vasitə idi. 133-cü ildən başlayaraq latın dili ədəbi dilə çevrildi, bu dil öz vətənində, ən azı onda danışan kübarlar üçün ellinistik dünyanın incəsənət, ədəbiyyat və zehni irsi kimi idi.

Ellinistik təsirin 3-cü və 2-ci əsrlərdən keçən ilk təsir dalğası ərzində romanlar Şərqin nemətlərini demək olar ki, tam əxz edənlər kimi idilər. Lakin Roman mədəniyyətini, ellinist sivilizasiyanın sadə bir qolu hesab etmək də düzgün deyildir. 2-ci əsrin axırlarına yaxın Roman müstəqilliyi özünü birinci növbədə onda göstərdi ki, romalılar özgə yoluna bütünlüklə tabe olmaqdan imtina etdilər. Ayıq Roma vətəndaşlığı faydalı olanı götürməyə hazır idi, lakin ellinistik sivilizasiyanın nəzəri nailiyyətlərinə və ya mücərrəd olanlara az diqqət yetirirdi. Elmlərdən romalılar əsasən kənd təsərrüfatını aparmaq barədə praktiki təlimatlara üstünlük verirdilər. Böyük Katon bu təsir altında,

bizim dövrə gəlib çatmış latın nəsrinin abidəsi sayılan *"De agri cultura"* - "Kənd təsərrüfatı" əsərini yazmışdı. Katon yunan həkimlərinin xidmətindən istifadə edilməsinin qatı əleyhdarı idi və gündəlik həyata ellinistik mədəniyyətin tətbiq edilməsinə qarşı çıxırdı. O, öz oğluna yazırdı: "Oğlum Mark, həmin yunanlar barədə mən sənə lazım olan yerdə danışacağam. Mən sənə Afinadakı öz təcrübəmin nəticələrini göstərəcəyəm. Onların ədəbiyyatına baş vurmaq yaxşı fikirdir, lakin onu ətraflı öyrənmək lazım deyildir. Mən səni inandıracağam ki, onlar ədalətsiz və baş əyməyən xalqdır və sən mənim sözümü peyğəmbər sözü kimi qəbul et. Bu millət nə vaxt bizə öz ədəbiyyatını bəxş etsə, bu hər şeyi korlayacaqdır". 184-cü ildə senzor kimi fəaliyyət göstərən Katon Romada zinəti kökündən kəsməyə cəhd etdi, bu məsələdə o qədər uzağa getmişdi ki, özəl evlərə gedən su xəttlərini kəsmək istəyirdi. Əvvəllərdə isə o, qadınların böyüyən azadlığına qarşı mübarizə aparmışdı.

Katon iki Epikurçu müdrikin 173-cü ildə qovulmasına köməklik göstərmişdi, 155-ci ildə isə akademik lider Karnedin xaric edilməsinə cəhd göstərmişdi. Bu skeptik filosof ədalətin dünyada təməl prinsip olmasını təbliğ etməklə, Romanı silkələmişdi. Şəhər bundan sonra bu baxışla sirayətlənmişdi. Katonu yalançı adlandırmaqda bir şey tərəddüd etməyə şərait yaradırdı, axı o, özü də əleyhdarları kimi bütünlüklə fərdiyyətçi idi. O, yunan dilini müstəqil öyrənmişdi və onun məşhur aforizmlərinin çoxu yunan dilindən götürülmüşdü.

Digər kübarlar kifayət qədər öz şüurluluğuna malik və qabaqcadan rəyə gəlməyənlər olmaqla, öz yaşayışları üçün bünövrə kimi yunan etik fikrini qəbul etməyə hazır idilər. Xüsusən də stoiklər kainat haqqında, ilahi qüvvənin onu qaydaya saldığı kimi bir baxışa sadiq idilər. Roman borc hissinə stoiklərin etik və siyasi nəzəriyyəsi tam müvafiq idi, baxmayaraq ki, bu nəzəriyyə həmçinin kübarların böyüyən fərdiyyətçiliyinə köməklik göstərirdi. Stoiklərin daha mücərrəd ideyaları olan məntiq və fiziki nəzəriyyəsinə ancaq az diqqət verilirdi.

İncəsənətdə və memarlıqda az şəhadətlər qalmışdır, ona görə də romanların bunu qəbul etməsi prosesini açıq görmək mümkün deyildir. Pompeyinin xarabalıqları bu kiçik şəhərin 2-ci əsrin sonundan etibarən yunan üslubundan roman üslubuna keçdiyini nümayiş etdirir. Bu tarixdən roman inşaatçıları travertin əhəng daşından və həmçinin betondan istifadə edirdilər. Arxitekturada onların hər ikisindən cəsarətli eksperimentlər aparmağa ica-

zə verilmişdi. Ədəbiyyatdakı hadisələrin gedişi daha aydın idi. Plavt və Terentsi yunan süjetlərindən Roma əsərlərini yazmaq üçün istifadə edirdilər, axırıncı xarakterlərin daha saxtalaşdırılmış təsvirindən ibarət idi. Digər tərəfdən onların pyesləri heç şübhəsiz roman ruhuna malik idi. Həm də onlar latın dilində yazırdılar və müstəqil ədəbi danışıq dilini yaradanlar oldular.

2-ci əsrin sonundan əvvəl Roma müəllifləri, daha çox isə Roma mütəfəkkirləri və incəsənət ustaları ellinist sivilizasiyasının Romaya daxil olmasının bəhrələrini göstərməyə başladılar. Məhsul isə yunan formasının və roman bacarığı ilə ruhunun sintezi olmaqla, yunan-roman mədəniyyəti, bəlkə də daha yaxşı qaydada, ümumi Aralıq dənizi yuxarı sinfinin mədəniyyəti adlana bilərdi. Bu sintezin tam bəhrələrinə isə yalnız romanlar və onların təbəələri tərəfindən imperiyanın məsuliyyəti və yükü qəbul edildikdən sonra çatmaq olardı. Bu qəbul əzablı dəyişikliklər tələb edirdi.

## Romada aqrar siyasət

Romanın dünya dövlətinə çevrildiyi bir dövrdə bütünlükdə İtaliya aqrar ölkəsi olaraq qalırdı. Kənd təsərrüfatı təcrübəsi Avropanın digər sivilizasiyalanmış hissələri kimi buraya da Yaxın Şərqdən gəlmişdi, Ellinist modelə əsaslanan kənd təsərrüfatı m.ə. 3-cü əsrin sonunda meydana gəldi və sonrakı əsrdə nəzərə çarpacaq dərəcədə genişləndi. Böyüyən şəhərlərin ərzağa böyük ehtiyacı var idi. Əvvəllər əsasən natural xarakter daşıyan kiçik və orta kəndli təsərrüfatları çoxluq təşkil edirdi, onlar əsasən kəndli ailəsi üzvlərinin əməyinə əsaslanırdı. Yalnız məhsul toplanması vaxtı kənardan muzdlu işçilər cəlb edilirdi. İstehsal edilən məhsulun hamısı və ya əksəriyyəti ailənin öz istehlakına sərf edilirdi. İstehsal inkişaf etdikcə və qul sahibkarlığı böyüdükcə belə təsərrüfatlar sıradan çıxırdı, yeni istehsal formaları, bazar üçün işləyən təsərrüfatlar meydana gəlirdi. Bu təsərrüfatlarda qul əməyindən geniş surətdə istifadə edilməyə başlandı.

Kəndli təsərrüfatları İtaliya ərazisində aparılan müharibələrdən çox əziyyət çəkirdi. Təkcə Hannibalın yürüşü vaxtı Orta və Cənubi İtaliyadakı kəndli təsərrüfatlarının yarısı məhv olmuşdu. Başqa ərazilərdə romalıların apardığı müharibələr də kəndlini əsgərə çevirdiyinə görə, torpaqları əkinçisiz qoyurdu. Axı vətəninin sədaqətli döyüşçüsü məhz əkinçidən çıxırdı. Uzun illəri müharibə yollarında keçirən kəndli öz məşğuliyyətindən aralanırdı və onların əksəriyyəti müharibə başa çatdıqdan sonra yenidən kəndli

əməyinə qayıda bilmirdi. Becərilməyən torpaqları yenidən əkin dövriyyəsinə cəlb etmək də əlavə zəhmət və xərc tələb edirdi. İtaliyanın cənubunda, Siciliyada və hətta Afrikada geniş torpaq sahələrinə malik olan iri latifundiyalar meydana gəlmişdi.

Qul əməyindən istifadə edilən böyük təsərrüfatlarda viliklər qulların işinə ciddi nəzarət edirdi. Qullar pis şəraitdə saxlanmamalı, soyuqdan donmamalı, ac qalmamalı idilər. Qulun sıradan çıxması mülkiyyətə vurulan ziyan kimi qiymətləndirilirdi, qul yalnız qocaldıqda və xəstələndikdə, lazım olmayan əşya kimi ondan yaxa qurtarırdılar.

Kənd təsərrüfatının, istehsalın necə təşkil edilməsindən, istehsala çəkilən xərclərdən və bazardakı konyukturadan asılı olaraq rentabelliyinin tez-tez dəyişdiyinə görə, bu istehsala təbiət, xəstəliklər və ziyanvericilər də öz mənfi təsirini göstərdiyinə görə təsərrüfatların, xüsusən xırda miqyaslıların yoxsullaşması prosesi gedirdi və kəndlilər torpaqdan məhrum olmağa başlayırdılar. Torpaqsız, yoxsullaşmış kəndlilər bir qayda olaraq icarəçilərə, gündəlik muzdlu işçilərə və daimi muzdlulara çevrilirlər. Onlara tələbat o qədər çox olmadığından, bu böyük kütlə şəhərlərə üz tutmalı olur. Şəhərdə də iş tapa bilməyənlər ən iyrənc işlərlə məşğul olmaqla öz həyatlarını təmin etməkdən belə çəkinmirlər. Bunlar antik dövrün ən aşağı zümrəsini - iğtişaşlar yanacağı olan qaragüruhu əmələ gətirirlər. Kəndlilərin kütləvi surətdə yoxsullaşması həm də şəhərlərin sayının artmasına səbəb olur. Bu səbəbdən də m.ə. 2-ci əsrdə İtaliyada geniş urbanizasiya prosesi gedir. Əslində dünyanın digər hissələrində, Kiçik Asiyada və ya Babilistanda olduğu kimi ilk şəhərlərin əhalisi əsasən kənd təsərrüfatı ilə məşğul olur. Buradakı sənətkarlar və tacirlər isə kiçik təbəqəni təşkil edirlər.

Romanın daxili ziddiyyətləri içərisində aqrar münasibətlər o qədər də az əhəmiyyətli məsələ deyildi. Onların ətrafında aparılan mübahisələr, münaqişələr Romanı yeni sarsıntılarla üz-üzə qoydu. Məhz aqrar məsələlər ətrafındakı mübahisə Qrakxlar hərəkatını yaratdı.

Tiberi Semproni Qrakx m.ə. 133-cü ildə xalq tribunu seçilən kimi aqrar islahatlar proqramı ilə çıxış etdi. Onun qanun layihəsi əslində yeni məsələ deyildi. Hələ iki əsr yarım əvvəl iki xalq tribunu təklif etmişdi ki, ictimai torpaqlardan - *ager publicus*-dan yalnız 500 yugerə (125 ha) qədər götürmək olar. Tiberi məhz torpaq sahibliyi haqqında yaddan çıxmış bu qanunu təkrar etməklə yanaşı, bəzi əlavələr də irəli sürdü. İki iri oğlu olan ailələr üçün bu norma ikiqat artırıldı. Digər məsələ, islahat nəticəsində yaranan torpaq artıq-

larının müsadirə edilib, torpaqsız vətəndaşlara verilməsi idi. Bu sahələr sonralar onların əlindən alına bilməzdi. Torpaq artıqlarını müsadirə etmək, onları sahələrə bölüb, torpaqsızlara paylamaq üçün komissiya yaradıldı və onlara qeyri-məhdud səlahiyyətlər verildi. Bundan əlavə Tiberi Qrakx bütün İtaliya əhalisinə vətəndaşlıq hüquqları vəd etdi. Lakin təklif edilən islahatların aparılması asan məsələ deyildi və iri torpaq sahiblərinin qızğın müqaviməti ilə qarşılaşdı. Onlar qanun layihəsini gözdən salmaq üçün bütün vasitələrə əl atdılar və belə şayiə yaydılar ki, Tiberi torpaqları yenidən bölüb paylamaqla ölkəni qarışdırmaq, dövlətin işlərini pozmaq məqsədini güdür. Tiberi buna belə qəzəbli sözlərlə cavab verdi: "İtaliyada vəhşi heyvanlar da öz xüsusi yuvalarına, özlərinin istirahət və sığınacaq yerlərinə malikdir. Lakin silah gəzdirib öz həyatını, ölkənin həzz alması üçün təhlükədə qoyan adamlar bu vaxt havadan və işıqdan başqa heç nəyə malik deyildir... Onlar həqiqətən də vuruşmuş və həlak olmuşlar, bu, yalnız başqa adamların dəbdəbəsini və var-dövlətini qoruyub saxlamaq üçün edilmişdir. Onlar dünyanın ağası adlanırlar, lakin elə həmin vaxt onların özününkü adlandıra biləcəyi bir qarış torpağı da yoxdur". Tiberi bu nitqində vəziyyətin acınacaqlı olduğunu göstərmək üçün başqa təsirli sözlər də işlətmişdi. O, deyirdi ki, sərkərdələr döyüş çöllərində əsgərləri düşməndən sərdabələri və məbədləri müdafiə etməyə çağıranda, onları aldadırlar. Axı romalıların çoxunun nə ata mehrabı, nə də əcdadlarının sərdabəsi yoxdur. Bu sözlərə heç kəs, hətta onun əleyhdarları da etiraz edə bilmirdilər.

Ona görə də varlılar daha məkrli yollardan istifadə etməyi qərara aldılar. Onlar Tiberinin dostu olan digər tribunu ələ aldılar və bu vasitə ilə qanun layihəsi rədd edildi. Bundan hiddətlənən Tiberi daha sərt qanun layihəsi təklif etdi. Bu sənəd iti torpaq sahiblərindən, köhnə qanunların əksinə, sahib olduqları torpaqları təxirə salmadan azad etməyi tələb edirdi. Bu vaxt o, dekret verdi və bu dekretə görə vəzifəli şəxslər məsuliyyət qorxusundan öz vəzifələrini icra etməkdən imtina etdilər. Elə bu vaxt əleyhdarlarında onu öldürmək fikri yarandı.

Tiberi başqa çıxış yolu tapmadığından ona mane olan tribun dostu Oktavini hakimiyyətdən uzaqlaşdırmağa cəhd etdi və bu məsələni səsverməyə qoydu. 37 tribadan 17-si Oktavinin əleyhinə səs verdi, bir triba da buna qoşulsaydı, məsələ həll olunardı. Oktavi onun könüllü vəzifədən getmək xahişini rədd etdikdə, Tiberi liktorlar vasitəsilə onu güclə tribunadan aşağı saldı. Bundan sonra aqrar qanunu da qəbul edildi və nəzərdə tutulan komissiya da yaradıldı.

Yığıncağa başlamamışdan əvvəl Tiberi xalqa müraciət etdi və öz hərəkətini əsaslandırmaq üçün dəlillər gətirdi. Həmçinin senatın hakimiyyətini zəiflətmək niyyəti güdən və digər qanunların layihələri səsə qoyuldu. Səsvermə vaxtı əks tərəf üstün gəldiyindən, yığıncaq səhərisi günə təxirə salındı. O, artıq qorxurdu ki, onun evinə hücum edib, onu qətlə yetirəcəklər. Doğrudan da varlılar belə qərar çıxarmışdılar. Senatorlar onu sıxışdırmağa başlayanda qarışıqlıq düşdü və Kapitolidə Tiberinin üstünə hücum etdilər. Tiberini müdafiə edənlərin bir hissəsi döyüldü, bəziləri öldürüldü, qalanlar isə qaçmağa başladılar. O, özü də qaçanda yıxıldı və ayağa qalxanda tribunlardan biri onun başına zərbə endirdi. Beləliklə, Tiberi də öldürüldü. Bu vaxt onun 29 yaşı var idi. Digər 300 nəfər də öldürüldü və cəsədlər Tibrə atıldı. Beləliklə, həmin əsrdə ilk qan tökülməsi baş verdi.

Bu hadisədən on il sonra, m.ə. 123-cü ildə Tiberinin kiçik qardaşı Qay Qrakx da belə bir mübarizəyə qoşuldu. O, da qardaşı kimi xalq tribunu seçildi. Qayın təklif etdiyi qanunlarda Tiberi qanunlarında olduğu kimi ən kasıb vətəndaşlara torpaq verilməsi, italiklərə də Roma vətəndaşları kimi səsvermə hüququ verilməsi nəzərdə tutulurdu. Bundan əlavə atlılardan da senator hakimlərin sayı qədər hakimlər seçildi və 600 nəfərdən ibarət qarışıq məhkəmə təsis edildi. Bu senatorlar üçün ciddi zərbə idi.

Varlılar yenə də əvvəldə olduğu kimi Qay Qrakxa qarşı onun tribun yoldaşından istifadə etmək üsulunu işə saldılar. Druz onların tələblərinə boyun əyərək tribun hakimiyyətini senatın sərəncamına verdi. Səsvermə saxtalaşdırıldığından Qay üçüncü dəfə tribun seçilə bilmədi. Sonra onun qəbul etdirdiyi qanunların çoxu ləğv edildi. Hər iki rəqib partiya Kapitoliyə toplaşanda, Qayı öldürmək istəyirdilər. Əvvəlcə onun dostu öldürüldü, sonra isə təqib olunduğunu görüb özünün əmri ilə qulu Qayan onun boynunu vurdu. Beləliklə, qətlə yetirilmiş qardaşından 12 il sonra, m.ə. 121-ci ildə Qay Qrakx da öldürüldü.

Qrakx qardaşlarının hərəkatı aqrar sahədə islahatlar aparılmasına nail ola bilmədi və bu cəhd uğursuzluğa düçar oldu, ölkədə siyasi böhran yaranması ilə nəticələndi. Onlar keçmiş dövrlərin "kəndli dövlətini" bərpa etmək istəyirdilər. Həm də bu qardaşlar, özləri şər hesab etmədikləri zorakılığın qurbanı oldular. Axı Qay Qrakx özü demişdi ki, "xəncərlərin köməyi ilə nəciblər bir-birini didəcəklər".

## Yuqurta ilə müharibələr

Yuqurta ilə Roma arasındakı müharibə başqa müharibələrdən əsaslı surətdə fərqlənir. M.ə. 111-105-ci illərdə altı il ərzində aparılan bu müharibə uzun məğlubiyyətlər seriyasından sonra qələbə ilə başa çatsa da, respublikanın tarixinə görünməmiş bir biabırçılıq səhifəsi yazdı, onun şərəfinə böyük ləkə vurdu. Bu müharibə romalıların var-dövlətə böyük acgözlüyünü və şərəfi, vicdanı, vətəni də pula satmaqdan çəkinməmələrini aşkara çıxardı. Yuqurta onların bu qüsurunu bilib, açıq şəklində senatorları, magistrları, hərbi xadimləri - iri rütbəli hərbi rəisdən tutmuş senturionadək hamısını pulla satın alırdı. Bəzən ordu hissələri müəyyən məbləğ pul müqabilində düşmənə satılırdı. Bu biabırçı xəstəliyin qarşısını almaq konsul Qay Mariyə müyəssər oldu. O, Yuqurtaya qalib gəlməkdən daha çox, romalıların bu tamahının qarşısına müəyyən müddətə bənd çəkə bildi.

Mari həm də hərbi islahatlar həyata keçirdi, bunlar isə ordunun müstəqil sosial qüvvəyə çevrilməsinə şərait yaratdı. Ordu rəhbərinin həm də bu böyük qüvvədən öz siyasi məqsədlərinə çatmaq üçün bir silah kimi istifadə etməsi şansı da yaranırdı. Bunu Marinin, Sullanın, Pompeyin, Sezarın, Avqustun, bizim eranın 1-ci əsrində isə Klavdidən tutmuş Titə qədər imperatorların Romada hakimiyyətə gəlməsi təcrübəsi əyani şəkildə sübut edir. Ordu təkcə ölkəni xarici təhlükədən, təcavüzdən qorumaq funksiyasını daşımırdı, həm də ölkənin daxilində qüvvələr nisbətini müəyyən edirdi və hakimiyyətin ələ keçirilməsində heç nə ilə müqayisə edilməyən aparıcı rol oynayırdı. Ordu belə bir qüvvəyə çevrildikdən sonra öz şərtlərini diqtə etməyə başladı və dövlətə rəhbərliyin kimin əlinə keçməsi artıq seçkilərdən deyil, bir ordu nümayəndəsinin senatda dediyi kimi, qılıncdan asılı olmağa başladı. Döyüş səhnələrində qazanılan qələbələr sərkərdəyə təkcə şərəf gətirmirdi, həm də onu hakimiyyət kürsüsünə əyləşdirirdi. Romada konsulluğa, diktatorluğa, imperatorluğa gedən yol Afrikadan, Kiçik Asiyadan, Yunanıstandan, Qalliyadan, İspaniyadan, İudeyadan başlayırdı. Hərbi qüdrətə nail olan adam üçün siyasi hakimiyyəti ələ keçirmək elə də müşkül bir məsələ hesab olunmurdu. Hərb meydanında qazanılan böyük qələbə təkcə şöhrət gətirmirdi, həm də siyasi rəqibi dəf etməyə və ya onu hakimiyyətdən sıxışdırıb çıxarmağa imkan verirdi. M.ə. 1-ci əsrin əvvəlindən Romada yaranan bu ənənə özü, istisnaları nəzərə almaqla, Roma imperiyasının süqutuna qədər davam etdi. Marinin hərbi islahatı Roma siyasi həyatının da qəribə bir "islahata" uğramasına səbəb oldu.

Afrikada Karfagenin məğlub olmasından əlindən hər şeyi çıxmış Numidiya çarı da qazandı. Sonra iriləşmiş bu dövlətin taxt-tacını Yuqurta ələ keçirdi, o, çar oğlu olmaqla, kənizdən doğulmuşdu. Öz əməllərinə görə Romadan qorxduğu üçün, bu dövlətin əyanlarının tamahkarlığından istifadə edərək, rüşvət vermək yolunu seçdi. O, özündən əvvəlki çarın bir oğlunu öldürmüş, digəri isə təhlükədən xilas olmaq üçün Romaya qaçmışdı. Bu məsələləri araşdırmaq üçün senat ora on nəfərlik elçi göndərdi. Lakin Yuqurta onları pulla satın aldı. Yuqurta öz cinayətlərinə görə cəzalandırılmaq əvəzinə, əslində elə bil ki, Romanın xeyir-duasını aldı. Bir şeyə də qəti əmin oldu ki, Romada hər şeyi satın almaq olar. Çarın oğlunun ikinci şikayətindən sonra Afrikaya yeni səfirlik göndərildi. Onlar da yalnız xəbərdarlıq etməklə kifayətləndilər və geri qayıtdılar. Yuqurtanın əmri ilə çarın ikinci oğlu da öldürüldü. Bu dəfə Roma buraya ordu göndərməyi qərara aldı. Yuqurta bu dəfə də sərkərdəni pulla ələ almağa nail oldu. Bu vaxt Romada Yuqurtanı ifşa edən çıxışlar eşidildi. Ona görə də təhlükəsizlik vəd edilməklə o, Romaya gətirildi. Burada da köhnə xasiyyətini işə salıb, bir xalq tribununu iri pul məbləği hesabına ələ keçirdi və o, çara senatda danışmağı, ona yönələn ittihamlara cavab verməyi qadağan etdi. Nəhayət, senat çara İtaliyanı tərk etməyi əmr etdi. Rəvayətə görə, o, Romadan çıxanda geri dönüb demişdi: "Necə satqın şəhərdir? O, izsiz yoxa çıxacaqdır - qoy ancaq alıcı tapılsın".

Bundan sonra müharibə yenidən bərpa olundu. İndi o, senturionları və turma rəislərini də pulla satın almağa başlamışdı ki, onun tərəfinə keçsinlər. O, iri bir dəstəni mühasirəyə aldıqda, bəzi ordu hissələri onun yanına qaçdı. Sonrası gün isə məğlub etdiklərini boyunduruq altından keçirməyə məcbur etdi. Bu təhqiramiz cəzadan sonra onlar Numidiyanı tərk etməli idi. Yenə də təhqiqat üçün gələnlər sərvət müqabilində xəyanətə yol verdilər. Yalnız Numidiya yeni konsul seçilən Metellin payına düşəndə Yuqurtanın məkrinə bələd olduğundan ehtiyatlı hərəkət edib, özü onun elçilərini ayrı-ayrılıqda qəbul edir, onları ələ almağa cəhd edirdi ki, Yuqurtanı ona ya diri, mümkün olmadıqda isə ölü kimi versinlər. Bu vaxt Yuqurta başa düşdü ki, onun özünü öz toruna salmaq istəyirlər. Ona görə də müharibəyə hazırlaşırdı, əsgərlərinə çoxlu pul paylayırdı. Nəhayət döyüş başlandı, qoşunların bir hissəsinə konsul özü, digərinə isə onun leqatı-köməkçisi Qay Mari başçılıq edirdi. İlk döyüşdə romalılar qalib gəldilər. Bundan bir qədər sonra Romaya seçkilərdə iştirak etmək üçün qayıdan Mari konsul seçildi və xalqın qərarı ilə Yuqurta ilə müharibə aparmaq yeni konsul kimi ona tapşırıldı.

Mari əsas diqqəti müharibə məsələsinə verdi, senat da onun bütün tələblərini yerinə yetirdi, baxmayaraq ki, ona o qədər də yaxşı münasibət bəsləmirdi. Axı uzun fasilədən sonra konsul vəzifəsi patritsilərdən olmayan yeni adama qismət olmuşdu. O, bu vəzifəni nəsil-nəcabətinə görə deyil, öz zəhməti, xidməti hesabına qazanmışdı, açıqca deyirdi ki, igidlik nə hədiyyə kimi verilir, nə də hədiyyə kimi qəbul edilir. Döyüşləri apardıqca, əldə olunan qəniməti payladıqca, Marinin şöhrəti daha da artırdı. Onun düşərgəsində olan kvestor Lutsi Sulla patritsi nəslindən idi, yaxşı təhsil almışdı, lakin bu vaxt hərbi işlərdə səriştəsi yox idi. Bu qüsuru düzəltmək üçün də ona çox vaxt lazım olmadı.

Mavritaniya çarı Bokx Yuqurtanın tərəfində vuruşduğundan, yenidən Mariyə danışıqlar aparmağı təklif edəndə, onun yanına Sulla göndərildi. Yuqurta da öz növbəsində Bokxun sülh müşavirəsi bağlamaq üçün onları bir yerə yığmasına razılıq verdi. Buraya gələn Yuqurta tutulub Sullaya verildi, sonra isə Romaya göndərildi. Yuqurta ilə aparılan müharibə başa çatdıqdan bir il sonra, m.ə. 104-cü ildə Yuqurta edam edildi. Yuqurta ilə aparılan müharibə Romaya şərəfdən çox biabırçılıq bəxş etdi, çünki bu illər ərzində romalı vəzifə sahiblərinin və hərbi xadimlərinin tamahkarlığı, acgözlüyü hesabına vətənə xəyanət etmək faktları aşkara çıxdı, yuxarı siniflərin nümayəndələrinin iç üzü ifşa edildi. Bu münaqişədə Roma böyüklüyü miqyasında eybəcər alçalmalarla üzləşməli oldu, bu isə daxili tənəzzülün başlanğıcının simptomları idi.

Roma bir müharibədən yaxasını qurtarmamış, digər müharibələr və sosial sarsıntılar barədə düşünməli oldu. M.ə. İtaliya kəndlilərinin möhtəşəm üsyanları baş verdi, bu üsyanlar Müttəfiqlər müharibəsi kimi məşhurdur. Üsyanın başlıca səbəbi Qrakx qardaşlarının qaldırdığı məsələlərdən biri - "Müttəfiqlərə", İtaliya əhalisinin əksəriyyətinə Roma vətəndaşı hüquqlarının verilməsi idi. Roma öz idarəetməsi altında bütün İtaliyanı birləşdirirdi. Müttəfiqlərin sosial-siyasi hüquqsuzluğu onların əmlak hüquqlarına ciddi ziyan vururdu, xüsusən torpağa sahib olmaqda onların hüquqları qanunla təminat almamışdı. Buna görə də İtaliya müttəfiqləri artıq m.ə. 2-ci əsrin sonunda tam vətəndaş hüququnu tələb edirdi. Xalq tribunu Mark Livi Druzun İtaliya əhalisinə vətəndaşlıq hüququ verilməsi barədəki təklifi senatın hiddətinə səbəb oldu və m.ə. 90-cı ildə Druz öldürüldü. Onun ölümü yetişməkdə olan italiklərlə müharibənin başlanmasını sürətləndirdi. Bütün yarımada Romaya qarşı öz silahını qaldırdı və bu müharibədə üç yüz min gənc həyatını itirdi.

Romalılar bir neçə məğlubiyyətə uğradılar, lakin nəticədə qalib gəldilər. M.ə. 88-ci ildə müharibənin başa çatması ilə Roma məğlub olan bütün İtaliya xalqlarına vətəndaşlıq verməyi qərara aldı. Müharibə nəticəsində qaliblər deyil, əslində məğlub olanlar öz iradələrini diqtə etdilər və qarşıya qoyduqları məqsədə nail oldular. İtaliklər Roma vətəndaşlığı qazandılar və komitsiyalarda səs hüququna malik oldular.

## Sulla diktaturası

Romanın İtaliya ilə əlaqədar sarsıntıları başa çatdıqdan sonra Roma tarixində görünməmiş ciddi və məhvedici hadisə baş verdi. İlk dəfə olaraq romalıların özləri arasında, Mari və Sulla tərəfdarları arasında vətəndaş müharibəsi getdi və vətəndaş müharibəsinin məntiqi nəticəsi kimi Lutsi Korneli Sullanın diktaturası meydana gəldi. Sullanın hakimiyyətə gəlməsi, onun Mari ilə rəqabətindən yaranan hadisələrlə əlaqədar idi. Onlar vaxtilə Afrikada Yuqurtaya qarşı müharibədə və onun məhv edilməsində mühüm rol oynamışdılar. Sulla Müttəfiqlər müharibəsindən sonra çox məşhurlaşmışdı və müharibə başa çatmamışdan konsul seçilmişdi.

Xaricdən Roma üçün Pont çarı VI Mitridatdan təhlükə yaranmışdı. O, Romanın yarımadada başı qarışdığından istifadə edib, Vifiniyaya və Kiçik Asiyanın digər ərazilərinə hücum etmişdi. Kiçik Asiyadakı bütün romalıların müəyyən bir gündə qırılmasına göstəriş vermişdi və həmin gün 150 min romalı öz həyatını itirmişdi. Sonra o, Balkan yarımadasına keçib, Yunanıstanı zəbt etməyə başladı. Bu Romanın hakim kəsildiyi Aralıq dənizi sahilinin bir hissəsinin itirilməsi, ona vurulan ciddi iqtisadi zərbə demək idi.

Bu vaxt Mitridatla kimin müharibə aparmalı olduğu problemi yarandı və Mari ilə Sulla arasındakı rəqabəti qızışdırdı. Sullaya üstünlük verildikdə, bu, münaqişəyə, qanlı vətəndaş müharibəsinə gətirib çıxardı. Komandanın dəyişilməsi, Mari ilə əvəz edilməsi məsələsi ortaya çıxdıqda, Sulla qoşunları sərkərdədən tələb etdilər ki, onları Romaya aparsın və Sulla buna razı oldu. Yol boyu isə bəyan edirdi ki, o, tiranlara qarşı çıxış edir. Yeddi yüz ilə yaxın tarixi olan Romanı ilk dəfə olaraq öz qoşunları tutdu, lakin bu sonralar eybəcər ənənə şəklini aldı. Şəhərdə qəddarcasına repressiya başlandı. Bu hadisə m.ə. 87-85-ci illərdə baş verdi. Sonra o, Mitridatla müharibəyə yollandı. O, şəhəri tərk edən kimi Sulla əleyhdarları buraya qayıtmağa başladılar. Marinin sürgün edilməsi qərarı da ləğv edildi. O, şəhərə daxil olan kimi burada

dəhşətli qırğın başlandı. Sulla tərəfdarlarının əmlakı qarət edildi. Mari ölsə də, Sullanın bütün qanunları ləğv edildi və onun yerinə cəbhəyə başqa komandan göndərildi. Elə bu vaxt Mitridatın xahişi ilə Sulla onunla yumşaq şərtlər əsasında sülh bağladı və Mitridat bütün tutulmuş əraziləri azad etdi.

M.ə. 83-cü ildə Sulla İtaliyanın cənubunda sahilə çıxdı. Gənc legion komandanı, gələcək məşhur sərkərdə Qney Pompey də ona qoşuldu. Bu vaxt başlanan vətəndaş müharibəsi il yarım davam etdi və qəddarlığı ilə fərqləndi. Bir il sonra o, Romanı tutdu və burada görünməmiş terror başlandı. O, qətllərlə, qanlı işlərlə məşğul olurdu, diktator əslində adamların bir-biri ilə haqq-hesab çəkməsi üçün şərait yaradırdı. Sonra o, özünün cəzalandırmaq istədiyi adamların siyahısını tutdu. Belə qanundan kənar elan edilənlərin siyahıları - proskriptisiyalar təkcə Romada deyil, İtaliyanın digər şəhərlərində də tərtib edilirdi. Sulla mühakimə edilənləri evində xilas edənləri, başqa sözlə humanistlik göstərən adamları da ölümlə cəzalandırırdı.

Bu vaxt nə qardaşa, nə oğula, nə də ataya fərq qoyulmurdu. Adamları qətlə yetirənlərə hətta mükafat verilirdi. Məhkum olunanların əmlakı müsadirə edilir, oğlanları və nəvələri vətəndaşlıq hüququndan məhrum edilirdilər. Çoxları pulunun, sərvətinin qurbanı olurdu. O, bir şəhərdə yaşayan 12 min adamın hamısını bir yerə yığıb, onları qırmağı əmr etmişdi.

Sulla təkcə bu qanları tökməklə kifayətlənmədi, özünü heç bir müddət məhdudiyyəti olmayan diktator elan etdi. O, adamları ölümlə cəzalandırmaq, əmlakdan məhrum etmək, şəhərləri dağıtmaq və çarlıqları əldən almaq və onları kimə istəsə vermək hüquqlarına yiyələndi. Sulla istədiyi adama - gözəl qadınlara, müğənnilərə, mimik aktyorlara bütöv xalqların torpaqlarını və bütöv şəhərlərin gəlirlərini bağışlayırdı. Hətta özünün yaxın adamlarına, onların istəyindən asılı olmayaraq başqalarının arvadlarını bəxş edirdi. Özünü xoşbəxt hesab etdiyindən, Feliks - "Xoşbəxt" ləqəbini qəbul etmişdi. O, özünə yaxın adamları məhv etməklə, hamını qorxmağa, titrəməyə məcbur edirdi. Appian məlumat verir ki, Sulla 40 senatoru və 1600-ə qədər atlını ölüm cəzasına məhkum etmişdi. Roma tarixində ilk dəfə olaraq öldürüləcək adamların əvvəlcədən siyahısının tutulması qaydasını - proskriptsiyanı təsis etmişdi. Tək-tək adamların ittihamları başa çatdıqda, bütöv şəhərlərin növbəsi çatdı. Onun apardığı müharibələrdə ölkənin 100 min nəfərdən artıq ümid verən vətəndaşı həlak olmuşdu.

Sulla xəstəliklərdən əziyyət çəkirdi və m.ə. 79-cu ildə öz vəzifəsindən imtina etdi. Malikanəsinə çəkiləndə Romada qətllərə və özbaşınalıqlara son

qoyuldu. Bir il sonra isə vəfat etdi. Plutarxın yazdığına görə, ölümündən bir gün əvvəl də öz yataq otağında bir adamı boğub öldürmüşdü, bu adam xəzinəyə borcunu qaytarmamışdı.

Sulla bəşəriyyətə xidmət sahəsində də yeganə, lakin müstəsna bir iş görmüşdü. Bu Şərq müharibələri vaxtı Aristotelin böyük əsərlərinin başlıca hissəsinin onun tərəfindən ələ keçirilib, Romaya gətirilməsi idi. Həmin əsərlər burada çap edildi. Aristotelin ölümündən sonra şagirdi Feofrast onları götürmüş, kitablar iki əsrdən artıq bir müddətdə Kiçik Asiyada bir evin zirzəmisində atılmış şəkildə qalmışdı.

Sulla Roma tarixində ilk dəfə dövlət terrorunu həyata keçirmişdi və bununla da respublika quruluşuna elə bir zərbə vurdu ki, kökündən laxlayan bu ağacı sonra kökündən də çıxarıb, atmaq o qədər çətin olmayacaqdı. O, ən eybəcər despotiya nümayiş etdirdi. Buna görə də bəzi tarixçilər Sullanı ilk Roma imperatoru hesab edirlər. Sulla lənətinə gəlmiş Roma bu ağır xəstəlikdən neçə dəfələrlə əziyyət çəkməli oldu.

## Qullar problemi və qul üsyanları

Romadakı vətəndaş müharibəsində qullar da iştirak edirdilər. Sulla ağaları öldürülmüş qulları azad edib, onları Roma komitsiyasına daxil etdi. Belə azad olanların sayı 10 min nəfər idi. Bu ərəfədə Romada baş verən siyasi və sosial sarsıntıların heç biri qulların iştirakı olmadan keçmirdi, onlar nəzərə alınması vacib olan qüvvəyə çevrilirdilər.

Romada tədricən belə bir fikir yaranmağa başlamışdı ki, yerli əhali qul ola bilməz. Qullar yalnız yadellilərdən, müharibədə götürülmüş əsirlərdən olurdu. Aristotelə görə, quldarlıq həyatın və insanın tələbatından irəli gəlirdi, azad adamların fiziki bədən quruluşu da qulların fiziki qüvvələrindən fərqlənirdi. Qul quldarın tam hakimiyyətində olub, onun mülkiyyəti idi. Akvililər qanununa görə, qullar mal-qara kimi dördayaqlılara bərabər tutulurdu. Sonralar Romada səbəbsiz olaraq qulun öldürülməsi qadağan olundu. Qul yarım adam hesab oluna bilərdi. İş alətlərini təsnifata böldükdə, çox vaxt qul danışan əmək aləti adlanırdı. Belə vəziyyət quldarla qul arasında antoqonizm yaratmaya bilməzdi və belə bir əhval-ruhiyyə hakim kəsilmişdi ki, qul öz ağasının potensial düşmənidir. Qulların birinci istehsalçısı müharibələr idisə, dəniz quldurları da bazara çoxlu qul çıxarırdı. Qulların özünün təbii artımı da onların sayının artmasında az rol oynamırdı.

Qul sırasına adamların cəlb edilməsi də qanunlarla nizamlanırdı. M.ə.

326-cı ildə qəbul edilən Peteli qanunu ilə borcdan ötəri adamların qul olmağa satılması qadağan edildi. Valideynlərinin bədbəxtliyinə görə uşaqlar çox vaxt qul olurdu, borc götürmüş adamların taleyi kreditordan asılı vəziyyətə düşürdü. Müharibələr artıq Romaya o qədər çox qul verirdi ki, öz vətəndaşlarını qul etməyə ehtiyac da qalmırdı.

Qullar heç də eyni sosial vəziyyətdə olan kütlə deyildi. Dövlət qulları magistratlarda, məbədlərdə xidmət edirdilər, lakin onların sayı az idi. Qullar əsasən özəl mülkiyyətdə saxlanırdı. Ən çox istismar edilənlər kənd təsərrüfatında işləyən qullar idi. Şəhər qulları isə əmlak barədə asılılıqda olsalar da, müəyyən imtiyazlara malik idilər. Bu imtiyazlardan biri onlara pekuli verilməsi idi. Pekuli əmlakın elə bir növü idi ki, qula sərbəst təsərrüfatını aparmaq üçün ayrılırdı. Bu hüquqi cəhətdən qul sahibinin mülkiyyəti hesab edilsə də, qulun təsərrüfat fəaliyyəti üçün müəyyən imkanlar açırdı. Roma qulları pekuli şəklində ağasından emalatxana, dükan, torpaq sahəsi, əmək alətləri, hətta vikari-qul ala bilərdi. Bu yolla qullardan iş adamları, tacirlər yaranırdı və varlandıqdan sonra onlar müəyyən məbləğ hesabına azadlığa çıxırdılar.

Quldarlıq öz qəddar təbiətini saxlamaqda da çətinlik çəkirdi. Getdikcə qullara əmək aləti və ya iş heyvanı kimi baxmaq qul sahibinə nifrəti artırdığından, onlar da nisbətən yumşaq münasibət formalarına keçməyə məcbur olurdular. Lakin bunlar iri qul kütləsinin ağır həyatını bütünlükdə yaxşılaşdırmaq, onların istismarını azaltmaq iqtidarında deyildi. Qulların insafsız istismarı onların hiddətinə səbəb olmaya bilməzdi. Ona görə də m.ə. 2-ci əsrdə Roma dövlətinin ayrı-ayrı yerlərində qulların narazılığı üsyan səviyyəsinə gəlib çatırdı. M.ə. 198-ci ildə Latsiumda qulların qəsdi xəyanət nəticəsində açıldıqda, 500 nəfərə qədər qul edam edilmişdi. M.ə. 185-ci ildə Apulidə çoban qulların üsyanı yatırdıldıqda, 7 min adam ölüm cəzasına məhkum edildi. Həmin vaxtlarda çıxışlar epizodik xarakter daşıyır, onların qarşısı vaxtında və qəddarcasına alınırdı.

İlk böyük qul müharibəsi İtaliyanın taxıl anbarı hesab edilən Siciliyada baş verdi. Buranın digər bir mühüm cəhəti ondan ibarət idi ki, Siciliya klassik quldarlıq dövləti idi. Adada qulların sayı-hesabı yox idi. Siciliyadakı üsyan m.ə. 138-ci ildə başlayıb, 132-ci ildə başa çatdı. Öz qulları ilə olduqca qəddarcasına davranan qul malikanəsində ilk partlayış baş verdi. Üsyan edənlərə qonşu təsərrüfatların qulları da qoşuldu və hərəkat genişləndi. Onun başında duran suriyalı qul özünü Antiox adı altında çar elan etdi.

Tezliklə adanın cənubi-qərbində üsyanın yeni ocağı yarandı. Burada isə

rəhbər əvvəllər çoban və dəniz qulduru olmuş Kleon oldu. O, ilk hərəkatın başçısının rəhbərliyini qəbul etdi. Silah ustaları istisna olmaqla, Enna şəhər sakinləri edam edildi. Qısa müddət ərzində onlar 6 minə qədər qulu silahlandıra bildilər. Bir ay davam edən qiyamda iştirak edənlərin sayı 30 minə çatmışdı. Onlar şəhərləri əhalisi ilə birlikdə tuturdular. Lakin romalılar üsyanı yatıra bildilər. Bu üsyan böyük bədbəxtliyə səbəb olmuşdu. Qullar öz ağalarını açıq yerdə qətlə yetirir, əmlaklarını isə müsadirə edirdilər. Bütün ada zorakılıqla, soyğunçuluqla və qətllərlə dolmuşdu.

M.ə. 104-cü ildə kimvrlərlə müharibə gedəndə Siciliyada yeni qul üsyanı baş verdi. Üsyana səbəb senatın qərarına əsasən çoxlu qulların azad edilməsi gözlənilən vaxt adanın əyanlarının bunu etməli olan pretorun öz qərarını ləğv etməsinə nail olması və qulların yenidən öz ağalarının yanına göndərilməsi oldu. Bu vaxt onlar qiyam qaldırmağı qərara aldılar, gecə öz ağalarını öldürüb, digər malikanələrə keçdilər. Onlar başqa şəhərlərə hücumlar etdilər. Lukullun başçılığı altında senatın göndərdiyi ordu üsyanı yatıra bildi. Lakin qullar yenidən müqavimət göstərməyi qərara alıb, adanı viranə qoymağa başladılar, çoxlu şəhərlər tutuldu. Çox böyük səylərdən sonra qiyamçılara qalib gəlmək mümkün oldu.

Qulların azadlıq hərəkatında m.ə. 74-71-ci illərdə davam edən Spartak üsyanı xüsusi yer tutur. Spartak və onun köməkçiləri yaxşı təşkil edilmiş ordu yaratdı, bu ordunun tərkibi 70 min nəfər quldan ibarət idi. Bu ordu bütünlüklə Roma ordusunun nümunəsi əsasında yaradılmışdı, silahla yaxşı təchiz edilmişdi və süvari dəstəsi təşkil etmişdi. Ona görə də Spartak ordusu Roma legionlarına asanlıqla qalib gəlirdi.

Üsyanın başlanması Kapuya şəhərindəki qladiator məktəbində qladiator qulların hazırladığı qəsdlə əlaqədar idi. Bu qəsdlə 200 nəfər iştirak etmişdi. Qəsdin üstü açıldıqda, onlardan üçdə birinə qaçmaq müyəssər oldu. Onlar Vezuvi dağında özlərinə dayaq yeri düzəltdilər və Spartak da daxil olmaqla üç başçı seçdilər. Spartak Frakiyadan olub, əvvəllər Roma ordusunda xidmət etmiş, qaçdıqdan sonra tutularaq qladiator olmuşdu. İgidliyinə görə azadlıq alıb, qladiator məktəbində qılınc döyüşü müəllimi işləyirdi. O, çox istedadlı və fərasətli adam idi.

Romada əvvəlcə bu hadisəyə elə bir əhəmiyyət vermədilər, Spartakın qüvvələri isə sürətlə artırdı. Bir qədər sonra onun artıq qoşunu var idi. Üsyançıların üzərinə göndərilən Roma ordusu məğlub edildi. Artıq üsyançılara ordudan qaçan əsgərlər də qoşulurdu. Az müddətdə Cənubi İtaliyanı bütünlüklə üsyan bürüdü. Ölkə ərazisi ilə hərəkət edən üsyançı qullar hər yeri vi-

ranə qoyurdu. Spartak bir-birinin ardınca döyüşlərdə qələbə çalırdı. Lakin hərəkatda fikir ayrılığı da yaranmışdı, bunun başlıca səbəbi qul ordusunun müxtəlif tayfalardan olan adamlardan təşkil olunması idi. Bir az sonra ordu parçalandı. Üsyan edənlərin bir hissəsi Spartakın başçılığı altında İtaliyanın şimalına doğru hərəkat etdi ki, Alp dağlarını keçib öz vətənləri Qalliyaya və Frakiyaya yollansınlar.

Nisbətən kiçik olan digər hissə isə varlı İtaliyada qalmağı qərara aldı, onların fikrindən hətta Romaya yürüş etmək də keçirdi. Spartak da özünün əvvəlki planından - İtaliyanı tərk etmək niyyətindən əl çəkdi. Alpı keçmək üçün təbii maneədən başqa ona çətinlik törədən heç bir amil olmadıqda, o, gözlənilmədən ordusunu geri, İtaliyaya qaytardı. Bu vaxt onun ordusunda artıq 120 min adam var idi. Spartak Mərkəzi İtaliyada qələbə qazandıqda, bu Romada ciddi panikaya səbəb oldu və senat öz fövqəladə səlahiyyətlərilə Mark Litsini Krassı altı legionla onun üzərinə göndərdi. O, qədim və qəddar cəza tədbiri olan detsimatsiyalardan istifadə etməyə başladı. Bu vəhşi qaydaya görə, günahından asılı olmayaraq əsgərlər sıraya düzülür, hər onuncu adam edam edilirdi. Lakin cəza siyasəti də Krassa elə bir uğur gətirmədi və vəziyyətin ağırlığını görüb, o, məşhur sərkərdələr olan Lukull və Pompeyin ona köməyə göndərilməsini xahiş etdi.

Bu vaxt Spartak yenə də İtaliyanı tərk etmək fikrinə düşdü, bunun üçün yarımadanın cənubuna çatıb oradan gəmilərlə Siciliyaya getmək istədi, oradan da başqa istiqamətlərə üzmək olardı. Lakin Siciliyaya üzmək baş tutmadı. Ona çoxlu gəmilər vəd edən Kilikiya dəniz quldurları öz sözlərini yerinə yetirə bilmədilər. Spartak özü də Brundiziyaya gəlib çıxa bilmədi. Onun vəziyyəti ağırlaşmışdı. Krass onun çıxış yollarını bağlamaq üçün dənizdən dənizə qədər uzanan bütün keçid boyu dərin xəndək qazdırdı. Spartak ordusu xırda bir məkanda qalmışdı, İtaliyanın digər əraziləri ilə əlaqəsi kəsilmişdi. Spartak yenə çıxış yolunu tapdı, qasırğalı bir gecə xəndəyin bir hissəsini at cəsədləri və həlak olmuş romalıların meyitləri ilə dolduraraq, o, Brundiziyaya yollandı ki, bu dəfə oradan Balkan yarımadasına keçsin. Lakin üsyançılar arasında yenə fikir ayrılığı əmələ gəldi. Lakin bu ayrılan dəstə də, əvvəlki parçalanan hissə kimi romalılar tərəfindən tezliklə məhv edildi.

Spartak həlledici döyüşü gözləyəndə senat Lukull və Pompeyi Krassa köməyə göndərdi. Döyüşün başlanmasında həm Spartak, həm də Krass maraqlı idi, Spartak kömək gəldikdən sonra qısqac arasında qalmaq istəmirdi, Krass isə zəifləmiş Spartak ordusu üzərində qələbənin çələngini başqasına vermək istəmirdi, çünki Spartak ordusu qurulmuş tələyə salınmışdı.

Son iri döyüş m.ə. 71-ci ildə Apuliyada baş verdi. Çox qızğın döyüşdə Spartak ordusu məğlub oldu, qul sərkərdənin özü də döyüşdə həlak oldu. Bir dəstəyə düşmən əhatəsindən şimala tərəf çıxmaq müyəssər olsa da, burada özünü yetirən Pompey onları darmadağın etdi. Bu Pompeyə bəhanə verdi desin ki, məhz o, "qul müharibəsini" kökündən çıxardı. Qul üsyanı acı finalla başa çatdı. Əsir götürülən altı min qul Kapuyadan Romaya gedən Appi yolu boyu çarmıxa çəkildi. Roma ən qatı düşmənləri üçün də indiyədək belə cəza üsulu tətbiq etməmişdi. Bu yol da ona görə seçilmişdi ki, üsyanın ilk mərkəzi Kapuya olmuşdu.

Dünyanın ən böyük qul üsyanı qan tökməklə məşhurlaşdığı kimi, qan içində də boğuldu. Aradan çıxmağa nail olmuş xırda dəstələr isə hələ bir neçə il kabuslar kimi İtaliyanı dolanırdı. Spartak özünü nə qədər nəcib aparsa da, qul ordusu yeri düşdükcə öz təbiətini büruzə verirdi. Bu hərəkat məğlub olmağa məhkum idi, çünki onun aydın strateji məqsədi yox idi və həm də bu məqsədə çatmağa yaxınlaşmanın metod və üsullarına da malik deyildi. Onlar məhv olsalar da, bəşər tarixində ilk dəfə olaraq qulların iri miqyasda öz iradələri və öz qüvvələri ilə azad olmalarına nail oldular. Spartak hərəkatı öz azadlığını özü əldə etmişdi. Bu uzun sürmədi, lakin azadlıq adlanan bir məşəli yandırıb, o vaxtkı dünyaya, başlıcası isə tarixə göstərə bildi. Onların ürəklərdə yandırdıqları şam bir daha sönmədi, insanların könüllərinə və şüurlarına işıq saldı, azadlığın cazibə qüvvəsini dəf edilməz etdi.

## Katilina qəsdi

Qul qiyamı yatırıldıqdan bir az sonra Roma yeni bir siyasi böhranla üzləşməli oldu, bu dövlətçiliyə vurulan yeni zərbə kimi onu yenidən vətəndaş müharibəsinə cəlb edə bilərdi. Bu ölkə tarixində məşhur olan Katilina qəsdi idi. O, konsul seçkisində uğursuzluğa uğradığına və əyaləti idarə edərkən vəzifəsindən sui-istifadə etməkdə təqsirləndiyinə görə ilk qəsdini təşkil etməyə cəhd göstərdi. Onların planı yeni seçilən konsulları öldürmək və öz adamlarını bu kürsülərdə oturtmaq idi. Lakin bu qəsd bəhanəyə bənzəyən bəzi səbəblər üzündən baş tutmadı. Lakin qəsdçilərə qarşı da elə bir təqib hərəkatına yol verilmədi. Onların arxasında Krass və Sezar kimi nüfuzlu adamların durduğu güman edilirdi. M.ə. 64-cü ilin yayında seçkiqabağı kampaniyanın ən qızğın dövründə Katilina öz adamlarını bir yerə yığıb, onları yeni qəsdə ruhlandırdı. O, borcların bağışlanmasını, varlıların proskriptsiyasını vəd etdi. Sonra qəsdin iştirakçılarından biri öz məşuqəsinin yanında lov-

ğalanmaq üçün ona öz planlarını açıb danışdı, səhərisi gün isə bütün şəhər bundan hali oldu. Katilina yenə konsul seçilmədi, əksinə onun düşməni Mark Tulli Tsitseron 63-cü il üçün konsul seçildi.

Bundan sonra Katilina artıq geniş miqyaslı qəsdi hazırlamağa başlayır. O, bu işə çoxlu yeni adamlar cəlb edir, silah tədarükü ilə məşğul olur, Etruriyada qoşun yığılmasını pulla təmin edir. Bundan başqa o, Tsitseronu qətlə yetirmək planı hazırlamışdı. Qəsdin daha dərin kökləri var idi. Dövlət özünün qədim və nəcib ənənələri, ləyaqət və dəyərləri ilə vidalaşdıqca, ən eybəcər hisslər və ehtiraslar adamların davranışına hakim kəsilirdi. Acgözlük, tamahkarlıq, sərvət düşkünlüyü artıq təkcə adamların deyil, bütövlükdə cəmiyyətin və dövlətin tənəzzülünü sürətləndirirdi. Ona görə də bir qrupun qəsdi təkcə hakimiyyəti ələ keçirmək və ya öz əleyhdarlarını məhv etmək niyyəti ilə məhdudlaşmırdı, əndazədən çıxaraq dövlətin özünü məhv etmək və ya onun sifətini dəyişdirmək, eybəcərləşdirmək məqsədini güdürdü. Roma öz kürəyinə vurulan xəncər yarasından inildəməli, ölüm-dirim mübarizəsi aparmalı idi. Romaya öz övladları xəyanət edir, onun respublika adlanan başını kəsməklə cəsədinə təcavüz etmək istəyirdilər.

Katilina cavanlığında ocaq ilahəsi Vestaya həsr edilmiş məbədin kahinəsi olan və bəkarəti müqəddəs sayılan qıza təcavüz etmişdi və cəzasız qalmışdı. İndi isə bütün romalılar kimi ona da ana olan Vətənə xəyanət, təcavüz etmək istəyirdi. Xalqının bədbəxtliyi, Romanın ləyaqət və şöhrətinin xarabalıqları üzərində o, nəhayətsiz eqoizmindən və ona xidmət edən qandan, məkrdən, hiylədən istifadə edərək, özünün iyrənc taxt-tacını qurmaq istəyirdi. O, heç bir mənəvi, əxlaqi hədd tanımırdı, ləyaqəti müdafiə edənlərin hamısını məhv etməyə hazır idi. Romada isə qədim dövrlərdən hakimiyyət az layiq olanlardan daha layiqli adamlara keçirdi, özbaşınalıq və lovğalıq ləyaqət və ədalətlilik qarşısında geri çəkilirdi. Adamlar dövlətə öz şərəfli əməlləri ilə qulluq göstərirdilər. Lakin getdikcə təvazökarlıq, təmkinlilik, igidlik əvəzinə həyasızlıq, pulla ələ alma, tamahkarlıq yayılmağa başladı. Bu atmosfer Lutsi Katilinanın da şüurunu coşdurmuşdu. O, hakimiyyəti tutmağı qərara aldı və bu məqsədlə qəsd hazırladı. O, öz tərəfdarlarını daim zorakılığa təhrik edirdi.

Katilinanın ardıcılları təkcə Romada deyil, İtaliyanın şəhərlərində də fəaliyyət göstərirdi. Dostu ona qoşun toplayırdı. Bundan xəbər tutan Tsitseron bu barədə senatda məruzə etdi. Romada qiyam qaldırıldı. Bu Katilinanın ikinci qəsdinin başlanğıcı idi. Onun özünün də iştirak etdiyi senatın iclasında Tsitseron dövlət üçün çox faydalı olan bir çıxış etdi. Sonra bir ne-

çə dəfə o, belə çıxışlar etdi və məşhur Afina natiqi Demosfenin Makedoniya çarı Filippə qarşı etdiyi çıxışlara bənzədərək, onları "Filippika" kimi "Katilinari" adlandırdı. Bu çıxışlarında o, "qılınc və toga" konsepsiyasından geniş istifadə edirdi.

Tsitseron öz çıxışında dedi ki, "indi əgər Katilina səni tutmağı və edam etməyi əmr etsəm, əminəm ki, bütün vicdanlı adamların ümumi hökmü belə olacaqdır: "Çox gecdir", nəinki kimsə deyəcəkdir: "Çox sərtdir". Sonra o, qəsdçiyə müraciət edərək dedi ki, "Sənə and verirəm, ağlını başına yığ! Bəsdir qırğınlar və yanğınlar. Dayan! Sən hər tərəfdən bağlanmısan. Sənin fitnələrin bizə işıqlı gündən də aydındır". Çıxışını bitirərkən, Katilinaya şəhəri tərk etməyi israrla məsləhət gördü. Bu nitqi ilə o, senatın laqeydliyinə son qoydu və Roma üçün təhlükənin necə qorxulu olduğunu göstərdi. Katilina isə hər şeyi inkar etməyə başladı və ona qarşı ittihamlara cavab olaraq dedi ki, "ətrafındakı gurlayan alovu mən xarabalıqlar altında basdıracağam".

Bundan sonra Romanın faciəli günləri başladı. Planlarının heç biri baş tutmadıqda, Katilina Etruriyada olan dostunun düşərgəsinə yollandı. Buna görə senat Katilinanı düşmən elan etdi. Öz vəziyyətindən narazı olan sadə xalq Katilinanın planlarını bəyənirdi. Kasıblar mənəvi cəhətdən pozulduqlarından ümumi xeyir haqqında deyil, öz vəziyyətləri barədə düşünür, gözlədikləri xoş gələcəyə ümid bəsləyirdilər. Bu adamların çoxu özlərinə ziyan dəyməməsi üçün, hətta bütün dövlətin dağılmasına üstünlük verirdilər. Katilina tərəfdarları isə şirin vədlərlə onları daha da qızışdırırdı və onlar xalqın hüquqlarını müdafiə etdiklərini bəhanə gətirirdilər. Katilina əgər bu döyüşü udsaydı və ya ən azı uduzmasaydı, dövlət üçün böyük bəla yarana bilərdi. O, bu məqsədlə hətta allobroqlardan istifadə etmək istədi və bu onun qəsdinin açılmasına şərait yaratdı. Bu vaxt yenə Tsitseronun öldürülməsi gündəlikdə idi. Lakin tutarlı dəlillər əldə edildikdən sonra Tsitseron Katilinanın şəhərdə olan yaxın tərəfdarlarını tutmaq barədə göstəriş verdi. Qəsdin üstü açıldıqdan sonra sadə adamların əhval-ruhiyyəsi tamamilə dəyişdi.

Sonra senat Tsitseronun təşəbbüsü ilə həbs olunanların barəsində necə davranmaq məsələsini həll etdi. Qay Yuli Sezar sərt tədbirlərin görülməsinin əleyhinə çıxdı, Katon isə bildirdi ki, şəhər işğalçılar tərəfindən tutulanda məğlub olanlara heç nə qalmır, bu gün isə bizim azadlığımız və həyatın özü təhlükə altındadır. O, mərhəmət göstərmək təklifinə qarşı çıxdı və Sezarı kəskin tənqid etdi, bəyan etdi ki, onlar azacıq zəiflik gördükdə böyük cəsarətlə Romaya hücum edəcəklər. Katon Qall müharibəsi vaxtı Avl Torkvat konsulluq edəndə, yalnız atəşkəs intizamını pozub düşməni öldürən oğlunu

ölüm cəzasına məhkum etməsini misal çəkdi, bununla o, cəzasızlığa yol verməyərək konsul hakimiyyətinin işdə bərqərar olmasına nail olmuşdu, Romanın mənafeyi naminə öz oğlunu qurban vermişdi.

Senat Mark Portsi Katonun təklifi ilə qərar qəbul etdikdən sonra konsul Tsitseron gecəni gözləmədi və qəsdin başçılarının edamına göstəriş verdi. Katilinanın beş yaxın silahdaşı öldürüldü. Qəsdin başçısı bu xəbəri aldıqdan sonra Qalliyaya keçmək istədi, buna nail olmadıqda döyüşməyi qərara aldı. O, ilk cərgələrdə dayanıb vuruşurdu. Öz qoşunu darmadağın edildiyinə əmin olduqdan sonra, düşmənin üzərinə atıldı və həlak oldu. Romalılara bu qanlı qələbə heç də sevinc gətirmədi, çünki düşmən cəsədləri arasında onların dostları və qohumları da var idi.

Katilina qəsdinin qarşısının alınmasına görə, Plutarxın yazdığı kimi, Roma xalqı "onu belə böyük və heybətli təhlükədən qurtaran Tsitserona" borclu idi. Bu əvəzsiz xidmətlərinə görə Tsitserona minnətdarlıq edildi və ona "vətənin atası" fəxri adı verildi. Lakin onun tələsik və qanunsuz həyata keçirdiyi edamlar Romanın xilası ilə nəticələnsə də, sonralar onun özünün ittiham edilməsi və əzablara düçar olması vasitəsinə çevrildi.

Roma daxilində bu hadisələr baş verən vaxt dövlət Şərqdə də öz nüfuzunu saxlamaq üçün yenidən müharibə aparmağa məcbur oldu. M.ə. 60-cı illərin sonunda romalılar Pont çarı Mitridatla yeni müharibə apardılar. Əvvəlcə ona qarşı Lukull vuruşurdu, sonra isə komandanlıq Qney Pompeyə həvalə olundu. O, Aralıq dənizindəki quldurlara qalib gəlməklə, böyük şöhrət qazanmışdı. O, sərkərdə üçün lazım olan keyfiyyətlərə - hərbi işdə səriştəliyə, igidliyə, nüfuza və bəxti gətirmək kimi xüsusiyyətə malik idi. M.ə. 62-ci ildə Mitridat üzərində parlaq qələbədən sonra Pompey İtaliyaya qayıtdı və heç bir qərarı gözləmədən ordusunu buraxdı. Lakin qanunlara belə riayət etməsi ona heç bir dividend gətirmədi. Bu vaxt baş verən Klodi işi Pompeyin gəlişini kölgə altında qoydu. Əvvəlcə Klodi Sezarın arvadı ilə yasaq edilmiş şəraitdə görüşdüyünə görə, Sezar nikahını pozmalı olmuşdu. Lakin Pompeyin keçirdiyi triumf onun qələbələri barədə daha geniş təsəvvür yaratdı: 22 çarı məğlub etmiş, Roma ərazilərini Fərat çayına qədər çatdırmış, dünyanın üç qitəsində torpaqlar zəbt etməklə o, dövlətin xəzinəsinin gəlirini 70 faiz artırmışdı.

Bu dövrdə Pompeylə Sezarın dostluğu başladı və Sezar Krassı da partnyorluğa girməyə ustalıqla inandırdı. Beləliklə, m.ə. 60-cı (ya 59-cu) ildə ilk triumvirat yarandı. Triumvirat Roma siyasi səhnəsində siyasi məqsədlərə çatmağın yeni vasitəsi idi. Bu onlara öz planlarını həyata keçirmək üçün la-

zım idi, ancaq Sezar daha məkrli gedişlərdən istifadə etməyi bacardı.

Klodi xalq tribunu seçildikdən sonra Tsitseron və Katonu Romadan uzaqlaşdırmaq əməliyyatına başladı. Bu Sezarla Pompeyin tapşırığı idi. O, qanun qəbul edilməsinə nail oldu, bu qanuna görə Katilina qəsdinin iştirakçılarını istintaqsız və məhkəməsiz edam edilməsində günahkar olanlar məsuliyyətə cəlb edilməli idi. Tsitseron könüllü surətdə Romanı tərk etmək məcburiyyətində qaldı. Klodi Forumu silahlı hücumla tutdu. Toqquşmalar, küçə döyüşləri baş verdi və üstünlük artıq Klodinin əleyhdarlarının tərəfinə keçdi. Bu vaxt senat Tsitseronun 17 aylıq sürgündən geri qaytarılması barədə qərar qəbul etdi və onun bütün hüquqları bərpa edildi.

Romada vəziyyət gərginləşəndə Klodi və onun əleyhdarı Milonun silahlı dəstələri arasındakı toqquşmalar kəsilmək bilmirdi. M.ə. 52-ci ilin əvvəlində Milon və Klodi Appi yolunda qarşılaşdılar və sözləşmə baş verdikdə Milonun qulları Klodini öldürdülər. Bu hadisəyə görə Romada bir neçə gün iğtişaşlar baş verdi və senat buna son qoymaq üçün fövqəladə vəziyyət elan edib. Pompeyi "kolleqasız" konsul elan etdi, bu yumşaq diktatura idi. Milon isə məhkəməyə cəlb edildi, Tsitseronun canfəşanlıqla müdafiə etməsi belə ona bəraət qazandıra bilmədi.

## Sezarın hakimiyyəti qəsb etməsi

M.ə. 58-ci ildə Sezar şimal sərhədini keçərək Helvetsini tutdu, sonra german sərkərdəsi Alovisti Reynin arxasında tar-mar etdi. Qall xalqlarının Belçika qrupunu təslim etdi. Sezar Qalliyada çox uğurlu müharibə aparıb böyük ərazilər tutmuş, Britaniya adasına da yürüş etmişdi. Onun m.ə. 52-ci ildə Aleziya döyüşündə sayca çox böyük üstünlüyə malik olan qall sərkərdəsi Versinqetoriksin ordusu üzərində qələbəsi hərb tarixinin ən parlaq səhifələrindən biridir. Sezar bu qələbələrdən siyasi bəhrələr də qazanmağa cəhd edirdi. M.ə. 49-cu ilin ilk günündə o, senata təklif etdi ki, Pompeylə birlikdə hər ikisi öz komandan vəzifələrindən eyni vaxtda imtina etsinlər. Lakin senat bunu diqtə kimi qəbul etdi və qərara aldı ki, əgər "müəyyən edilmiş vaxtda" Sezar öz vəzifəsini tərk etməsə, onunla ictimai düşmən kimi davranılacaqdır. Həmin ilin 12 yanvar günü *"Alea yacta est"* - "Püşk atılmışdır" sözlərini deyib, Rubikon çayını keçdi və Arimin şəhərini tutdu. Buna icazəsi olmadığı halda o, İtaliya ərazisinə qoşunla soxulub əyalət şəhərini zəbt etmişdi. Bu hərəkəti ilə o, Roma qanunlarını nəinki tapdaladı, hətta süpürüb atdı.

Vətəndaş müharibəsinin başlanğıcı iti sürət götürmüşdü. İndi təkcə Romanı deyil, bütün İtaliyanı həyəcan bürümüşdü. Romanı qaçqınlar kütləsi doldurmuşdu. Belə vəziyyətdə Pompey çaş-baş qalmışdı, onu hamı ittiham edirdi. Özünü itirərək, şayiələrə inanaraq Pompey güman edirdi ki, müharibə artıq qapıya çatmışdır və bildirdi ki, şəhərdə üsyan və hakimiyyətsizlikdir. O, şəhəri tərk etdi və hamını öz arxasınca gəlməyə çağırdı. Konsullar və senatorların çoxu Romadan qaçdı. Pompey gəmilərlə Yunanıstandakı Dirraxiyaya yollandı, Sezar isə Pompeyin arxasınca düşməkdən əl çəkib, Romaya qayıtdı və sərhədi keçdiyi gündən iki ay sonra heç bir qan axıtmadan Romanın və bütün İtaliyanın ağasına çevrildi. Pompey tərəfdarlarını İspaniyadan qovmaq üçün oraya yollandı. Bundan sonra isə Pompeyin özü ilə haqq-hesabı çürütmək vaxtı gəlib çatdı. M.ə. 48-ci ilin yanvarında o, qoşunlarla Balkan yarımadasına çıxdı, qüvvəsi az olduğundan yenidən İtaliyaya qayıtmaq istədi. Antoninin başçılığı altında qoşun gəlib çıxdı. Hər iki rəqib ordusu m.ə. 48-ci ildə Farsal düzənliyində özlərinə düşərgə qurdular. Sezarın qüvvəsi Pompeyinkindən iki dəfə az idi, süvari qoşununda isə bu birin yeddiyə nisbətinə bərabər idi.

Sezarın iti sürətlə hücuma keçməsi ona böyük üstünlük verdi. Pompey ordusu geri çəkilməyə başladı. Bir azdan onlar qaçmağa üz tutdular. Bunu görən Pompey özünü tam itirdi. Sonra o, Farsaldan uzaqlaşdı və gəmiyə oturub Misirə yollandı, burada sahilə çıxan kimi çar XIII Ptolomeyin göstərişi ilə öldürüldü. Sezar qaçan Pompeyi təqib etməyə başladı və Aleksandriyaya gəldi. Burada da o, müharibə aparmalı oldu. Romanın Misir çarlığı barədə müəyyən öhdəlikləri var idi, lakin gənc çar bunlara o qədər də əhəmiyyət vermirdi, böyük borcu da Sezara ödəməkdən imtina edirdi. Belə vəziyyətdə Sezar çarın böyük bacısı Kleopatranı sürgündən gətirib, taxtdan uzaqlaşdırdığı Ptolomeyin əvəzinə taxt-taca əyləşdirib çariça elan etdi. Sezar ona qarşı həmləni hiss etdikdə, öz donanmasının düşmən əlinə keçməməsi üçün yanğın təşkil etdi. Bu yanğından liman da ziyan çəkdi və qədim dünyanın ən zəngin kitabxanalarından biri olan Aleksandriya kitabxanası da yandı. Sonra Sezar onun düşmənləri tərəfinə keçən çara hücum edib döyüşdə qalib gəldi, çar isə itkin düşdü. Sonra Mitridatın oğlu Farnakla döyüşdə onu məğlub edib, Pontdan qovdu və Romaya özünün məşhur *"veni, vidi, vici"* - "gəldim, gördüm, qalib gəldim" sözlərindən ibarət raport göndərdi.

Nəhayət, Sezar Romaya qayıtdı və yenidən diktator seçildi. Onun dostları özlərini olduqca lovğa aparırdı, eyş-işrətlə məşğul olurdular. Bu məsələdə Antoni xüsusilə fərqlənirdi. O, fırıldaq yolu ilə Pompeyin evini ələ keçirmiş-

di. Afrikada isə Sezar çətin vəziyyətə düşdü, lakin o, Numidiya çarı Yubanı qaçmağa məcbur etdi. Plutarxın yazdığına görə, düşmən 50 min nəfər döyüşçü itirmişdi, Sezarın itkisi isə min dəfə az - cəmisi 50 adam idi. Sezar Katonu tutmağa can atdı. Kiçik Katon ona bu imkanı verməyib, özünü öldürdü. Respublikanın bu sarsılmaz müdafiəçisi Katon bir çox hallarda reallığı nəzərə almırdı, ölçü hissini itirirdi. Tsitseron Katon barəsində yaxşı demişdi: "O, unudur ki, Platon dövlətində deyil, Romulun tör-töküntüləri arasındadır".

M.ə. 44-cü ildə Sezar ömürlük diktator seçildi. Bu vəzifədən isə açıqca tam tiraniya qoxusu gəlirdi. Sezar isə özünü alicənab aparırdı. Vətəndaş müharibəsində qalib gəldikdən sonra əfv etdikləri adamlara iri vəzifələr verirdi. Belə ki, Brut və Kassi pretor oldular. Əvvəllər dağıdılmış iki şəhəri - Karfageni və Korinfi bərpa edərək burada koloniyalar yaratdı. Lakin müharibənin gətirdiyi şərəf onu rahat buraxmırdı. O, Parfiya ilə müharibəyə hazırlaşırdı, başqa planları isə daha fantastik idi. O, sələfi Böyük Aleksandrdan geri qalmırdı.

Sezarın çar taxt-tacına iddiaları artıq hiss olunurdu və ona qarşı ciddi müxalifət yaranırdı. Brutun başçılığı ilə Sezara qarşı sui-qəsd hazırlanırdı, lakin o, bu şayiələrə əhəmiyyət vermirdi. M.ə. 44-cü il martın 15-də Sezar Pompey kuriyasında senatın iclasına daxil olanda, qəsdçilər iki yerə bölünüb onu əhatəyə aldılar. Ona edilən xahişi rədd edib, kürsüyə oturduqda ona hücum başlandı. İlk zərbəni Kaska onun peysərinə vurdu. Sui-qəsdçilər yalın qılıncları ilə ona zərbə endirirdilər. Brut zərbəni onun qasığına vurdu. Onun cəsədi Pompey heykəlli kürsüsünün altına düşdü. Bütövlükdə 60 qəsdçi arasında bir neçə keçmiş sezarçı da var idi.

Sezar sərkərdəlik dühası ilə yanaşı digər istedadlardan da xali deyildi. O, m.ə. 46-cı ildə Roman təqvimini islahata uğratdı. O, əcnəbilərə Roma vətəndaşlığı verməkdə çox əliaçıq idi. Onun dühasının böyüklüyü həm də yazılarından görünür. Onun Qalliya müharibəsi və vətəndaş müharibəsi barədəki hesabatları bizim dövrə gəlib çatmışdır. Sərkərdə, diktator və dövlət xadimi kimi Sezar yunan-Roma dünyası tarixinin istiqamət xəttini qətiyyətlə və dönməz şəkildə dəyişdirdi.

Sezarın ölümü onun qətlində iştirak edənlərin hamısının məhvinə yol açdı. Bu hadisədən keçən iki il yarım ərzində onları ölüm kabusu yaxaladı. Filippidəki Antoni və Avqustla döyüşdəki məğlubiyyətdən sonra Kassi Sezarı öldürdüyü gödək qılıncla özünü qətlə yetirdi. Bu məğlubiyyətdən sonra ikinci döyüş aparmaq istəyən Brut taleyin ondan üz döndərdiyini hiss edib, ordusu qaçan vaxt hündür bir yerə çıxıb, açıq sinəsi ilə qılıncın üstünə atıldı.

Tsitseron sonralar Sezara sui-qəsd hadisəsinin nə ilə nəticələnəcəyini götür-qoy etmədiklərinə görə, özlərini məzəmmət edərək yazırdı ki, "mart idləri ilə özünə təskinlik vermək axmaqlıqdır, axı biz kişi igidliyi ilə yanaşı, ağıl barədə isə əsl uşaqlıq göstərdik. Ağac kəsilmişdir, lakin kökündən çıxarılmamışdır, ona görə də bilmirik ki, onlar hansı zoğlar verəcəkdir". Həmişə olduğu kimi, bu dəfə də müdrik filosof səhv etmirdi.

Sezarın ölümündən sonra hər iki tərəf çaş-baş qalmışdı. Diktatorun qatillərini xalq dəstəkləmədi, Sezar tərəfdarları da qaçıb gizlənmişdilər. Lakin axırıncılar daha cəld hərəkət etdilər və təşəbbüsü ələ aldılar. İki gün sonra Antoni cəsarətli bir hərəkət etdi. O, senatda bildirdi ki, təklif edilən qərarla Sezar tiran adlandırılsa, onun bütün sərəncamları avtomatik olaraq ləğv ediləcəkdir. Bu sözlər atmosferi bütünlüklə dəyişdi. Heç kəs imtiyazlardan məhrum olmaq istəmirdi, prinsipləri dəyişmək isə senatorlar üçün daha asan idi. Ona görə də Tsitseronun təklif etdiyi kompromiss qərar qəbul edildi - qəsdçilərə amnistiya tətbiq olundu, həm də Sezarın bütün sərəncamları qüvvədə qaldı. Axı Roma tarixində senatorlar yaşıl ot kimi həmişə küləyin istiqamətində yıxılmaq bacarığı qazanmışdılar. Ona görə də onlar *"Verbum sapientilus"* - "Ağıllı yarım sözdən başa düşür" qədim Roma zərb-məsəlinə sadiq qalaraq, vəziyyəti düzgün qiymətləndirdilər.

Bu vaxt Tsitseronun hər iki tərəfə güzəştdən ibarət olan məsələnin Solomon həlli barədəki təklifi də yerinə düşdü. Bu təklif əsasında qəbul edilən qərarla qəsdçilərə amnistiya - yunanca "unutma" deməkdir - tətbiq olundu, Sezarın bütün sərəncamlarının qüvvədə qalması üçün isə onlar bütünlüklə qəbul olundu. Beləliklə, təkcə Sezarın keçmiş sərəncamları deyil, həmçinin gələcək üçün nəzərdə tutulan sərəncamları da təsdiq olunurdu. Ölüdən soruşmaq mümkün olmadığından onun adından istənilən qaydada hərəkət etmək olardı. Əslində isə bu, Sezar tərəfdarlarına görünməmiş sui-istifadə şəraiti bəxş edirdi. Bu barışıq təməli onsuz da çox kövrək olduğundan uzun sürə bilməzdi və bir neçə gün sonra Sezarın dəfn mərasimində çıxış edən Antoni əslində qəsdçiləri ittiham etdi, xalqın diktatora olan ürək yanmasını alovlandırmaq üçün onun qanlı paltarını və mumdan hazırlanmış heykəlindəki 23 deşiklə onun yaralarını göstərməklə, bu qətlin qəddarlığını və qatillərin amansızlığını nümayiş etdirdi. Bundan əvvəl isə Sezarın elan edilən vəsiyyətində hər bir Roma plebeyinə 300 sestertsi pul qoyub getməsi məlum olduğundan, plebs indi Sezarı diriltməyə, onun qatillərinin isə qanını içməyə hazır idi.

Antoninin öz çıxışı ilə qızışdırdığı xalq senat binasına tərəf cumdu, xeyli

adam öldürüldü və bina yandırıldı. Onlar sui-qəsdçiləri parçalamağa hazır idilər. Brut və Kassi gizli surətdə şəhərdən qaçdılar. Şəhərə və dövlətə nəzarət Sezar tərəfdarlarının başçıları Mark Antoni və Emil Lepidin əlinə keçdi, birinci, konsul və sərkərdə kimi daha böyük nüfuza malik idi. Antoni hələ Sezarın sağlığında gününü eyş-işrətdə keçirib çoxlarının nifrətini qazanmışdı, indi isə o, bütün hakimiyyəti ələ keçirmişdi. O, xalqın müdafiəsinə çox da arxayın olmadığından, özünə etibarlı dayağı senatda axtarmağa başladı. O, bəzilərini zərərsizləşdirmək üçün güzəştə gedirdi, Sekst Pompeyi İspaniyadan çağırıb, donanmaya komandan təyin etdirdi. Fürsətdən istifadə edib özünə yaxın olan adamlara vəzifələr verirdi. Elə bil ki, Sezar ölüm ərəfəsində yalnız bunu arzu edirmiş. Ona görə də, romalılar bu adamlara "Xaronun dostları" ləqəbini vermişdi, çünki onlar guya mərhumun iradəsi ilə bu rütbələrə sahib olmuşdular. Qədim yunan mifinə görə, Xaron ölənləri qayıqda Stiks çayı ilə o dünya səltənətinə - Aidə daşıyırdı.

Lakin Sezarın nəvəsi kimi yaxın qohumu olan və vəsiyyətinə görə varisi elan etdiyi Qay Oktavi Romaya gəldikdə, Antoni üçün bir qədər gözlənilməyən qeyri-müəyyənlik yarandı. O, Dalmatiyadan hərbi təlim keçməkdən qayıtmışdı və vətənə dönən kimi siyasi həyata qatıldı. Antoni əvvəlcə ona yuxarıdan aşağı baxırdı. Onun Sezarın qızıllarını tələb etməsi konsulun xoşuna gəlmədi. Oktavi özünü Qay Yuli Sezar Oktavian adlandırmağa başladı. O, ilk günlərdən Antonini gözdən salmağa çalışırdı. Onun tədbirlərinin biri də boşa çıxmırdı və təkhakimiyyətliliyə doğru irəliləyirdi. Bu məqsədlə əvvəllər Tsitseronla ittifaqa girdi, çünki axırıncı isə təkhakimiyyətliliyə nail olmaq cəhdlərində Antonidən şübhələnirdi. Tsitseron Antonini tiraniyaya nail olmaq niyyətlərində ittiham etdi, onu ifşa edən çıxışlarını Demosfenin Makedoniya çarı Filippə qarşı etdiyi nitqlər kimi "Filippika" adlandırdı. O, Antonini ağlasığmaz əməllərdə günahlandırırdı, onun Roma üçün böyük təhlükə olduğunu qeyd edirdi. Onun cəhdləri hər dəfə uğurlu olmurdu. Senat öz qərarını dəyişib, əvvəllər Detsim Bruta verilmiş Tsizalp Qalliyasını Antoniyə verdi. Brut bu qərara tabe olmayanda Antoni öz qüvvələri ilə Brutun möhkəmləndiyi Mutina şəhərini mühasirəyə aldı. Beləliklə, Roma yeni bir vətəndaş müharibəsinə cəlb edildi. Tsitseron Antonini vətən düşməni elan edilməsinə cəhd göstərdi, lakin senat buna razılıq vermədi. İki konsul Oktavianla birlikdə Antoniyə qarşı hərbi əməliyyatlar apardılar. Oktavian öz atalığının düşmənləri ilə bir cəbhədə, onun ən yaxşı silahdaşına qarşı vuruşmalı oldu. Bir neçə döyüşdən sonra Antoni darmadağın edildi, lakin döyüşlərdə həmçinin hər iki konsul həlak olmuşdu.

## Yeni triumviat

Birdən-birə vəziyyət dəyişməyə başladı. Geri çəkilən Antoni Lepidin qoşunları ilə birləşdi. Oktavian isə onu təqib etməyərək konsul olmaq iddiasına düşdü. Onun bu tələbi qəbul olunmadıqda, qoşunu ilə Romaya cumdu və şəhər döyüşsüz ələ keçirildi. Oktavian konsul seçildi və bu vaxt senatın onun təklifi ilə ilk qərarı Sezarın qatillərinin "sudan və oddan" məhrum edilməsi və ya qanundan kənar edilməsi oldu. Antoni və Lepid əleyhinə olan qərarlar da ləğv edildi. Sezar tərəfdarlarının barışması üçün əlverişli şərait yarandı. M.ə. 43-cü ilin noyabrında Bononiya yaxınlığında bu qüvvələrin üç rəhbərinin görüşü keçirildi. Antoni, Oktavian və Lepidin bu görüşündə qəbul edilən sazişlə ikinci triumvirat yarandı. Sazişin əsas məqsədi sui-qəsdçilərə qarşı mübarizə aparmaq idi. Söhbət Brut və Kassinin taleyindən və həm də onların öz aralarında mühüm əyalətlərin bölünməsindən gedirdi. Birinci triumviratdan fərqli olaraq yeni triumvirat rəsmi xarakter daşıyırdı. Xalq yığıncağının xüsusi qərarı ilə onun hakimiyyəti təsbit olunmuşdu. Sulla dövründə olan kimi triumvirlər Romaya gələndə proskriptsiya qətlləri və müsadirələr tamaşası başladı. Hər məhkum olunanın başı üçün mükafat təyin edilmişdi. Proskriptsiya siyahısına salınanlara sığınacaq verilməsi ölüm cəzası ilə cəzalanırdı. Bu dəhşətli günlər Roma cəmiyyətinin necə pozulduğunu göstərdi. Elə bil ki, dövlətin göstərişi ilə bütün təbii əlaqələr qırılıb dağılmışdı. Satqınlıq, xəyanət sağ qalmaq və həm də nəyəsə nail olmaq vasitəsi idi.

Romada bu hadisələr baş verəndə Tsitseron ölkədən qaçmağa cəhd etdi, lakin onun tərbiyə etdiyi bir azad olunmuş qul, axtaranlara onu nişan verdi. Senturion dəniz sahilində Tsitseronun boynunu vurdu və Antoninin tapşırığına müvafiq olaraq onun əleyhinə "Filippikalar" yazan qolu da kəsildi və onun qətlinin bu dəhşətli nişanələri Romaya gətirilib, Forumda rostların üstündəki tribunalara qoyulmaqla nümayiş etdirildi. O, görkəmli dövlət xadimi, məharətli hüquqşünas, istedadlı alim və yazıçı kimi məşhur idi. Ondan böyük fəlsəfi və ədəbi irs yadigar qalmışdır. Ona öz əleyhdarı Yuli Sezar daha yaxşı qiymət vermişdi: "Bu daha yaxşıdır ki, imperiyanın ucqar hədlərini daha uzağa çəkməkdənsə, zəkanın sərhədlərini genişləndirəsən". Bu sözləri deməklə Sezar Tsitseronun dühasına öz hərbi nailiyyətlərindən daha yüksək qiymət verir. Böyük filosof və natiq Antoninin qəddarlığının və intiqam hissinin qurbanı oldu. Əsərləri, nitqləri ilə bu dahi insan bəşəriyyətin "əbədi yol yoldaşına" çevrildi.

Triumviratın törətdiyi qırğının qurbanları saya-hesaba gəlmirdi. Tarixçi-

lər 300 senatorun və 20 min atlının həlak olduğundan xəbər verirlər. Əsgərlər görünməmiş soyğunçuluqla məşğul olurdular.

Brut və Kassi öz qoşunlarını Makedoniya və Frakiya sərhədində, Filippidə topladılar. Sezarın ölümündən iki il yarım sonra 42-ci ildə burada Antoni və Oktavianın qoşunları ilə "respublikaçılar" arasında həlledici döyüş baş verdi. "Respublikaçıların" qoşunları daha yaxşı mövqe tutmuşdular. Bruta qarşı Oktavianın qoşunları dayanmışdı. Brutun döyüşçüləri triumvir qoşunlarını sıxışdırdı və onların düşərgəsinə girdi. Lakin bu uğur fayda əvəzinə "respublikaçılara" böyük ziyan vurdu. Əsgərlər düşərgəni qarət etməklə məşğul olduqda, Kassinin qüvvələri sıxışdırılmağa başlandı. Kassi döyüşün tamamilə uduzulduğunu güman edib özünü intihar etdi. Bir neçə gündən sonra ikinci döyüş oldu. Düşmən Bruta arxadan zərbə vurdu. Bu artıq axırıncı məğlubiyyət idi. Brut da vəziyyətin çıxılmazlığını anlayıb özünə qəsd etməklə həyatdan getdi. Bu döyüşdə Kiçik Katonun oğlu Mark Katon da həlak olmuşdu.

Mark Yuni Brut Sezarın sui-qəsdini yaxşı hazırlamış və uğurla da başa çatdırmışdı. Xalq bu cəsarəti başqa bir adamdan deyil, məhz Brutdan gözlədiyinə görə ona müraciət edirdi. Axı Brutun əcdadı olan Lutsi Brut Romanı çarlıqdan, tiraniyadan azad etmiş və ilk dəfə olaraq respublika quruluşunu təsis etmişdi. Sezarın qətlindən sonra uğur Brutdan qaçmağa başladı.

Yaranan ikinci triumvirat "respublikaçıları" təqib etməyi öz siyasi xətti kimi qəbul etməsi ilə "respublikaçıların" taleyinə elə bil ki, hökm yazıldı. Vurulan ağır zərbədən respublika quruluşu da sağala bilmədi və Avqust hakimiyyəti əlinə götürdükdən sonra onun yerində əslində imperiya siyasi sistemini yaratdı. Mark Yuni Brut isə 43 illik ömrü ilə respublika uğrunda mübarizənin fədailərindən birinə çevrildi.

"Respublikaçılar" üzərində qələbə heç də bütün problemlərin həlli deyildi. Əvvəlcə nəzərdə tutulduğundan bir qədər fərqli olaraq 16 şəhərin torpaqlarında veteranlar yerləşdirilməli oldu. Həmin şəhərlərdə torpaqlar müsadirə edilir, yeni sahiblər kimi veteranlara verilirdi. Bu isə əhalinin ciddi narazılığına səbəb olurdu. Ölkənin ərzaqla təminatında da ciddi çətinliklər yaranmışdı, aclıq qapını döyürdü. Sekst Pompeyin donanması ərzaq gətirilməsinə mane olurdu. Bu narazılıqlardan Antoniyə yaxın olan adamlar istifadə etməyə çalışırdılar. Oktavian isə veteranları müsadirə edilmiş torpaqlarda yerləşdirməklə, onlardan özünə güclü dayaq yaradırdı. Peruziyada Antoni tərəfdarları ciddi məğlubiyyətə uğradıldıqdan sonra, Oktavianla onun arasında yeni münaqişə yetişməyə başladı. Antoni Şərqə yollandıqdan sonra özünü

qeyri-adi dəbdəbə və zinətlə əhatə etdi. İndi ona xahiş edənlər adi adamlar deyil, çarlar idi. Kilikiyanın Tars şəhərində o, Kleopatra ilə görüşdü və elə bil ki, ilahə Afrodita özü ona qonaq gəlmişdi və Antoni bu gənc çariçaya məftun oldu. O, hər şeyi unudub özünü Kleopatranın məhəbbəti ilə ovundururdu. Misirin axırıncı Ptolomeylərdən olan hökmdarı Kleopatra Sezarın məşuqəsi olmuş və ondan Sezarion adlı oğul doğmuşdu. 41-40-cı illərdə isə bu qadın həmin rolu Antoni üçün oynamağa başladı.

Oktavianla Antoninin qoşunları Brundiziyada üz-üzə gəldilər. Lakin əsgərlər onları barışmağa məcbur etdi və burada saziş bağlandı. Sekst Pompey bütün dəniz qüvvələrinin komandanı oldu və Siciliya ilə Sardiniya onun nəzarətinə verildi. Antoni rəsmi qaydada bütün Şərq əyalətlərinə, Oktavian isə Qərb əyalətlərinə sahib oldu. Arxa plana sıxışdırılan Lepidin sərəncamında əvvəlki kimi yenə Afrika qalırdı. Saziş sülalə nikahları ilə möhkəmləndi. Dul qalan Antoni Oktavianın bacısı Oktaviya ilə evləndi. Bir qədər sonra Kleopatra ilə Antoninin eşq macərasının təsiri altında bu nikah əslində formal xarakter daşımağa başladı.

Sülh barədə nə qədər danışıqlar getsə də, sazişlər bir-birini əvəz etsə də, hər bir tərəf istənilən imkandan üstünlük qazanmağa cəhd göstərirdi və hər cür xırda bəhanə belə köməyə gəlirdi. Antoni 39-cu ildə Şərqə döndükdə, burada vəziyyət xeyli gərginləşmişdi. Parfiyalılar Roma dövlətinin torpaqlarına girmiş, Suriyanın və Kiçik Asiyanın bir sıra vilayətlərini tutmuşdular, sonra isə buradan çıxarılmışdılar. Parfiya problemi indiyədək həll edilməmiş qalırdı. İtaliyada da vəziyyət yaxşı deyildi, ərzaq təchizatı qaydaya düşmürdü. Ərzaq gətirilməsinə mane olmaqda davam edən Sekst Pompeyə qarşı vuruşan donanmaya Oktavian uğursuzluqla başçılıq etdi. Onun donanmasının bir hissəsi darmadağın edildi, digər hissəsi isə fırtınada məhv oldu. Antoni Oktavianın xahişi ilə ona 130 gəmi verdi, əvəzində isə Parfiya yürüşü üçün axırıncıdan 20 min əsgər aldı. Sonra sərkərdə Aqrippanın komandanlığı altında dəniz döyüşündə Pompeyin qüvvələri darmadağın edildi. Sekst Pompey Kiçik Asiyaya qaçıb orada 35-ci ildə həlak oldu. Pompey ordusundakı 30 min nəfərə qədər olan qaçmış qul tərksilah edildikdən sonra İtaliyaya gətirildi və öz əvvəlki sahiblərinə qaytarıldı. Bu Oktavianın onlara qarşı tətbiq etdiyi dəhşətli cəza idi və ölümündən sonra dərc edilən Avqustun öz əməlləri barədə kitabında dənizi quldurlardan təmizləməklə yanaşı, dövlət əleyhinə silah qaldırmış qullara qarşı tətbiq etdiyi bu cəzanı o, xüsusi qürurla qeyd edirdi.

Antoni 35-ci ildə Ermənistana uğurlu yürüş etdikdən sonra qələbəsinin

triumfunu Aleksandriyada qeyd etmişdi. Bu onun ciddi siyasi səhvi idi. Bir qayda olaraq triumf yalnız dövlətin paytaxtında - Romada qeyd olunurdu. Lakin Antoni qüdrətdə zəiflədikcə və pula daha çox möhtac olduqca, Kleopatranın intim yaxınlıqla Misir üçün geniş rol almaq üçün olan bacarığı daha da güclənirdi. Artıq Kleopatra Antoni ilə yanaşı Şərqin ağası olurdu. Antoni özünə və Kleopatraya tac düzəltdirmişdi, məşuqəsini Sezarın ondan olan oğlu Sezarionla birlikdə hökmranlıq etməkdən ötəri Misirin, Kiprin, Afrika və Kelesuriyanın çariçası elan etmişdi. Beləliklə, Kleopatra çarların çariçası olmuşdu. Kleopatradan olan öz oğlanlarını isə çarlar çarı elan edib, onlardan Aleksandra əyalət kimi Ermənistanı, Midiyanı, Ptolomeyə isə Finikiyanı, Suriyanı və Kilikiyanı verdi. Beləliklə, Romanın neçə-neçə müharibələr hesabına əldə etdiyi torpaqları dövlətin xəbəri olmadan Antoni öz arvadına və övladlarına hədiyyə kimi verirdi. Bu onu göstərirdi ki, Antoni bu vaxt bütünlüklə reallıq hissini itirmişdir. Bunlara görə o, Romada özünə nifrət qazanmaqdan başqa, heç nə əldə edə bilmədi. Oktavian isə onun bu sərsəm hərəkətlərindən böyük məharətlə istifadə edirdi. Antoni Oktavianın bacısı və özünün qanuni arvadı olan Oktaviyanı boşamadan, Kleopatra ilə rəsmi nikahda evlənmişdi. Bu Oktavian üçün onun bacısına qarşı edilən ciddi təhqir demək idi. Artıq keçmiş triumvirlər arasında açıq düşmənçilik başlamışdı. Senatorlar arasında da parçalanma baş verdi və Oktavianın icazəsi ilə 300 senator və hər iki konsul Romanı tərk edib Antoninin yanına yollandı. Bu, onların arasında yeni müharibənin başlanmasının əlaməti idi və hər iki tərəf müharibəyə hazırlaşmağa başladı.

Antoninin Oktaviyaya rəsmi boşanma sənədi ilə yanaşı göndərdiyi vəsiyyətindən məlum oldu ki, o, öləndə Kleopatra ilə birlikdə Misirdə dəfn olunmasını xahiş edir. Onun sərəncamında olan torpaqlar və çarlıqlar isə Kleopatraya və onun uşaqlarına qalır. Antoninin bu hərəkəti romalıların ciddi hiddətinə səbəb oldu və Kleopatraya qarşı müharibə elan olundu. Oktavian vuruş üçün belə ad işlətməklə onu vətəndaş müharibəsi kimi deyil, xarici müharibə kimi qələmə verirdi. O, təkcə müharibəni elan etməklə kifayətlənmədi, ona ciddi hazırlıq görməyə başladı. Antoni də dəniz döyüşünə xüsusilə ciddi hazırlaşırdı. Onun Efesdəki donanması 800 gəmidən ibarət idi, onlardan dörddə birini Kleopatra vermişdi. Onu əhatə edənlər də iki cəbhəyə bölünmüşdü, onlardan Kleopatra tərəfdarları olanlar axırda üstünlük qazandılar, barışıq tərəfdarları heç nə edə bilmədilər.

Rəqiblər bir-birilə üz-üzə gələndə Antoninin dəniz qüvvələri Oktaviannınkından iki dəfə çox idi, 20 min nəfərlik sayda artıq piyadası var idi, süva-

ri qüvvələrinin sayı isə bərabər idi. 31-ci ilin sentyabrında Epirdəki Aktsi burnu yaxınlığında dəniz döyüşü başlandı. Döyüşün nəticəsi hələ məlum olmayanda Kleopatranın 60 gəmisi yelkənlərini qaldırıb, döyüşdən qaçmağa başladı. Bunu görən Antoni hər şeyi unudub, üzüb Kleopatranın arxasınca getdi. Bu xəyanət nəticəsində onun donanması darmadağın edildi. Sonra piyada qüvvələri də qalibin tərəfinə keçməyə başladı. Vətəndaş müharibəsinin nəticəsi bu əlamətlərə uyğun olmalı idi. Məğlubiyyətdən sonra depressiya keçirən Antoni yenə Aleksandriyaya, Kleopatranın yanına gəldi. Onlar Oktavianın yanına elçilər göndərdilər və ondan xahiş etdilər ki, Misir üzərində hakimiyyət Kleopatranın uşaqlarına verilsin. Oktavian Antoninin xahişlərinə rədd cavabı verdi, Kleopatraya isə bildirdi ki, Antonini ələ versə ya öldürsə, ona güzəşt ediləcəkdir. Həm də o, Kleopatranın özünün böyük sərvətini məhv edəcəyindən qorxurdu.

Oktavianın qoşunları Aleksandriyaya yaxınlaşanda Antoni ordusundan fərarilər onun yanına qaçırdı. Donanma da Oktavianın tərəfinə keçdi, piyada qüvvələri isə məğlub oldu. Bu vaxt sərdabəsinə çəkilən Kleopatra Antoniyə öldüyünü xəbər verməyi tapşırdı. Bu xəbərdən sarsılan Antoni özünü qılıncla ölümcül yaraladı və Kleopatranın sərdabəsinə gətirildikdə sevgilisinin qolları arasında həyatla vidalaşdı. Bir qədər sonra Oktavianın onu triumfdan keçirəcəyindən qorxan Kleopatra da özünü öldürdü. Rəvayətə görə, onu zənbildə meyvə ilə gətirilmiş ilan çalmış və əzablardan onu xilas etmişdi.

Misir Roma əyalətinə çevrildi və ilk əyalət idi ki, artıq senat tərəfindən deyil, imperatorun özü tərəfindən, onun müvəkkilləri vasitəsilə idarə olunmağa başladı. Vətənə dönəndən sonra Oktavian böyük triumf keçirdi, guya bu triumf Kleopatra üzərində qələbəyə və Aleksandriyanın işğal edilməsinə həsr edilmişdi.

M.ə. 27-ci ildə isə Oktavian öz üzərindən fövqəladə səlahiyyətləri götürdükdə, yenə ali hakimiyyət ona verildi və senat ona fəxri Avqust titulunu verdi və həmin vaxtdan etibarən o, rəsmi olaraq "Allah oğlu imperator Sezar Avqust" adlanmağa başladı. Senatorların siyahısına birinci daxil oldu, başqa sözlə senatın printsepsi oldu. Avqust özü sonralar bunu *"primus inter pares"* - "bərabərlər arasında birinci" adlandırdı. Ona görə də 27-ci il yeni eranın - printsipat və ya Roma imperiyası epoxasının başlanğıcı hesab olunur. Beləliklə, Roma respublika quruluşu öz yerini yeni dövlət formasına - imperiya siyasi rejiminə verdi. Avqust isə "İlahi Avqustun əməlləri" kitabında heç nəyin dəyişmədiyini, respublikaya azadlıq qaytardığını və dövləti senatın və xalqın sərəncamına verdiyini iddia edirdi. Guya onun bütün fəaliyyəti "bər-

pa edilmiş respublika" yaratmağa həsr edilmişdi. Əslində bu quruluş senatı və xalq yığıncaqlarını saxlasa da, onların hüquqlarını olduqca məhdudlaşdırmışdı, real hakimiyyət isə printseps və ya imperatorda təcəssüm olunurdu. Tiraniya üçün yol açılırdı və romalılar tiranlardan xilası siyasi vasitələrdə deyil, yalnız sui-qəsdlərdə, qətllərdə və hərbi dövlət çevrilişlərində görürdü. Qədim Roma respublikası özünün nəcib ənənələrindən, həm də əsl mahiyyətindən məhrum oldu.

Avqust əslində bütün Roma magistratlarını öz əlində cəmləşdirmişdi, həm prokonsul imperiyaya, həm də tribun hakimiyyətinə malik idi. Onun dövründə siyasi təbliğata da xüsusi əhəmiyyət verilməyə başlandı. Bu təbliğat Avqustu allah kimi qələmə verirdi. Dövlət aparatı çox genişlənməyə başladı. Avqust artıq seçkili magistratlar əvəzinə şəhərlərə prefektlər təyin edirdi, "imperatorun dostları və yol yoldaşları" adlı yeni vəzifələrə və digər magistratlara özünə sədaqətli adamları təyin edirdi. Vaxtilə Yuli Sezarın dediyi: "Respublika heç nədir, bədəni və sifəti olmayan boş addır" kəlmələrini Avqust tam gerçəkliyə çevirə bildi. Avqustun hökmranlığı dövründə ordu 250-300 min adamdan ibarət idi, bu ordu 4 min mil məsafədə olan sərhədləri qorumalı idi. Onlara pul ödənilməsi və sursatla təmin edilməsi imperiya maliyyə quruluşuna böyük yük idi. Ordu əsasən sivilizasiya olunmamış hüdudlarda xidmət etdiyindən oralara Roman mədəniyyətinin gətirilməsi böyük əhəmiyyət daşıyırdı. Bu postların yaxınlığında mülki məskun yerləri qalxırdı və bəzən onlar şəhərlərə çevrilirdi. Almaniyadakı Köln *(colonia Agrippina)* bu şəhərlərdən biri idi.

Avqust hərbi işlərdə çoxlu dəyişikliklər və yeniliklər apardı, düşmən qarşısında geri çəkilən hər onuncu adamı edam etdi - detsimatsiya cəzası tətbiq etdi. O, heç vaxt qələbəyə əmin olmadan müharibəyə başlamırdı. Avqust abadlıq, şəhər salma məsələlərinə də böyük qayğı göstərirdi. Roma daşqınlardan və yanğınlardan əziyyət çəkirdi. O, ilk dəfə polis qüvvələri təsis etdi və yarımhərbi yanğın dəstəsi yaratdı. Romanı daşqınlardan qorumaq üçün Tibr çayının məcrasını təmizlədi və genişləndirdi. O, öz kitabında qürurla qeyd edirdi ki, Romanı kərpicdən tikilmiş şəhər kimi qəbul edib, mərmərdən olan şəhər kimi qoyub gedir. Sezar tərəfindən tətbiq edilən təqvimi bərpa etdikdə özünün ilk konsulluq dövrü şərəfinə bir ayı "avqust" adlandırdı. Bir sıra köhnə qanunları dəyişib, yeni qanunlar dərc etdirdi.

## Avqustdan sonrakı imperiya

Avqust yeni eranın 14-cü ilində vəfat etdi, ölüm yatağında olarkən ətrafında olanlardan soruşmuşdu, desinlər ki, o, yaxşımı aktyor olmuşdur. O, ümumilikdə ömrünün 56 ilini və ya dörddə üçünə qədərini Romaya hökmranlığa həsr etmişdi. Onun vəsiyyətinə görə Tiberi varis kimi Tiberi Sezara çevrilməklə, imperator səlahiyyətlərinə yiyələndi, lakin o, sözdə bu rütbədən və "vətənin atası" fəxri adından imtina etdi. Onun atası Neron Aleksandriya müharibəsində Qay Sezarın kvestoru olmuş, sonra Avqustun tələbi ilə Liviya Druzillanı boşadıqdan sonra, bu qadın imperatora ərə getmişdi. Onun oğlanları Tiberi və Druz Neron qalmışdı. Tiberi Avqustun qızı Yuliyaya evlənmişdi. Siyasi həyatda fəaliyyət göstərəndə işlərdən uzaqlaşdı və Rodos adasına gəlib çıxdı. Arvadı Yuliya isə pozğunluğa və zinakarlığa qurşandığına görə atası Avqust ona ərinin adından boşanma verdi. Bu vaxt Rodosda qalan Tiberi təqib olunan adama bənzəyirdi. Nəhayət, ona vətənə qayıtmağa icazə verildi. Bundan sonra Avqustun nəvələrinin ikisi də öldü və Avqust Tiberini rəsmi olaraq oğulluğa götürdü. Sonra o, müharibə aparmaq üçün Germaniyaya və İllirikə yollandı. İkinci dəfə İllirikə yola düşəndə atalığının ağır vəziyyətini eşidib, geri döndü və Avqust öləndən sonra imperator oldu. Tarixçi Tatsitin dediyi kimi, Romada yeni printsepslərə sədaqət andı içməklə "hamı - konsullar, senatorlar, atlılar - köləliyə çökmüşlər".

Müharibə məsələlərində o, təmkinlilik göstərirdi. İmperator kimi bir dəfə də olsun hərbi yürüşə çıxmadı. İlk iki il müddətində o, bir dəfə də olsun Romanı tərk etmədi. İki oğlunu itirdikdən sonra Kampaniyaya gedib tənhalığa qapıldı. Bu vaxtdan onun eyibləri daha açıq şəkildə üzə çıxmağa başladı. Hələ cavanlığında onun içki düşkünü olması müşahidə edilmişdi və ona "içki" mənasını verən Biberi deyirdilər. Kapridə tənha həyat sürəndə onun eybəcər yaşayış tərzi artıq heç bir hədd tanımırdı. O, öz yataq otaqlarını gizli pozğunluq yuvasına döndərmişdi. O, özünün qəddarlığının bütün cilovlarını açıb buraxdı. Elə bir gün olmurdu ki, o, edamsız keçinsin. Ən kiçik xəta belə cinayət hesab olunurdu. Belə bir mühitdə məhkəməyə çağırılanların çoxu bu xəbəri alan kimi özlərini öldürürdü, bu yolla heç olmazsa alçaldılmadan və biabırçılıqdan xilas olurdu. Qədim qaydalara görə bakirə qızları boğub öldürmək qadağan olunduğundan cəlladlar edamdan əvvəl həddi-buluğa çatmamış qızları zorlayırdılar. Bununla da qədim qaydaların pozulması halı vəhşiliklə aradan qaldırılırdı. Tiberiyə ölüm olduqca yüngül cəza kimi görü-

nürdü. Kapridə xüsusi adam öldürmə yeri var idi. Adamlar yuxarıdan dənizə atılır, aşağıdakı dənizçilər onları tutub avar zərbələri ilə qətlə yetirirdilər. Tiberi 78 yaşında öldü, bu vaxt o, 23 il idi ki, Romada hökmranlıq edirdi. Beləliklə, b.e. 37-ci ilində Tiberinin eybəcər imperatorluq dövrü başa çatdı.

Tiberinin ölümündən sonra onun varisi, Kaliqula ləqəbi ilə tanınan Qay Sezar oldu. Onun barəsində mərhum imperator demişdi ki, "Mən Romanın döşündə gürzə bəsləmişəm". Tiberidən cana doymuş romalılar Qayın atası mərhum Germanikin böyük hörmətini nəzərə alaraq ümidlərini məhz ona bağlamışdılar. Senatın yekdil qərarı ilə ona ali və tam hakimiyyət tapşırıldı. Xalq bu xəbəri böyük sevinclə qarşıladı. Qayın anası Mark Aqrippanın və Yuliyanın qızı Aqrippina idi. Kaliqula ləqəbini isə uşaq vaxtı düşərgədə əsgər paltarını geyinməsindən almışdı, "çəkməcik" mənasını verirdi. Anası sürgünə göndərildikdən sonra nənəsi Liviya Avqustanın yanında yaşamışdı. 19 yaşı olanda Tiberi onu Kapriyə, yanına çağırmışdı və o, hakimiyyətə gəldikdən sonra hər şeyi edirdi ki, adamlarda özünə qarşı məhəbbət oyatsın. Məhkum və sürgün olunanları əfv etdi. İki körfəz arasında yük gəmilərindən körpü düzəltdi ki, Hellespont boğazında körpü salan Persiya çarı Kserksə özünü oxşatsın. Lakin tezliklə onun qəddarlığı üzə çıxdı. Öz qardaşı Tiberini edam etdirdi, əmisi Klavdini isə ələ salırdı. O, öz doğma bacıları ilə qanqarışdırıcı intim əlaqədə olurdu. Öz arvadlarının çoxunu ərlərindən boşatdırıb almışdı. Bəzi senatorları öz arabasının dalınca uzun məsafəyə qaçmağa məcbur edirdi.

Onun vəhşiliyi hədd tanımırdı. Vəhşi heyvanlara yedizdirilən ət bahalaşanda, o, cinayətkarları diri-diri onların qabağına atdırırdı. Hörmətli adamları dəmir qəfəslərə saldırıb, heyvan kimi əllərinin və ayaqlarının üstündə dayanmağa məcbur edirdi. Əslində bu adamların heç bir təqsiri olmurdu. O, Homerin poemalarını məhv etmək istəyirdi. Onun əxlaqsızlığı dillərə düşmüşdü. Bədxərclikdə, israfçılıqda heç kəs ona tay ola bilməzdi. Qonaqlarına yeməyi qızıl qablarda verdirirdi. Dövlət xəzinəsi qısa müddətdə boş qaldığından, o, açıq soyğunçuluğa əl atdı, bunun üçün ən məkrli böhtanlardan, hərracdan və vergilərdən istifadə etməyə başladı. Heç bir şey, heç bir adam vergisiz qalmamışdı. Vergi haqqında qanunlar şifahi elan olunurdu. O, şəhərdə fahişəxana tikdirmişdi, carçılar vasitəsilə hamı bura dəvət olunurdu. O, tamaşalara böyük məbləğdə pul xərcləyirdi. Öz çirkin əməllərinə görə o, 41-ci ildə öldürüldü. Bu vaxt onun 29 yaşı var idi və cəmisi üç il on ay hökmdarlıq etmişdi. Onu qətlə yetirənlər belə şayiə yaydılar ki, məğlubiyyət xə-

bərini eşidəndə, dəhşətə gəlib o, özü özünü öldürmüşdü.

Kaliqula insanlara nifrət etsə də, heyvanlara çox xoş münasibət bəsləyirdi. Sirkdə olarkən çox vaxt at tövləsində nahar edirdi, atına mərmərdən tövlə, fil sümüyündən axur tikdirmişdi. Ölüm mane olmasaydı o, atını konsul edəcəkdi.

Kaliqula qətlə yetiriləndə pərdənin arxasında gizlənən əmisi Klavdini bir əsgər tanıyıb, çıxarmış və qorxudan onu imperator kimi salamlamışdı. Sonra əsgərlər onu öz düşərgələrinə aparmış və tək hökmdar tələb edən kütlənin tələbi ilə senat onu imperator seçmişdi. Məsələ burasında idi ki, o, döyüşçülərə yaxşı pul mükafatı vəd etmişdi və ilk Sezar idi ki, döyüşçülərin sədaqətini sərkərdəliyinə görə deyil, pulla satın almışdı.

Klavdi uşaq olarkən atasını itirmişdi, həm də çox vaxt xəstə olduğundan bədəncə və ağıldan zəif idi. Anası onu çirkin hesab edərək deyirdi ki, onu təbiət yaratmağa başlasa da, qurtarmamışdır. Onun kütlüyünə həmçinin qumar oynaması və əyyaşlığı da əlavə olunmuşdu. Vəzifədə də ona təhqirlər kəsilmirdi. Belə şəraitdə o, ömrünün xeyli hissəsini keçirmişdi. İmperatorluqda möhkəmləndikdən sonra isə, o, bir neçə tribunu və senturionu Qaya sui-qəsdə görə edam etdi. Bunu edirdi ki, həm ibrət götürsünlər, həm də məlum olmuşdu ki, sui-qəsdçilər onu da öldürməyi tələb edirmişlər. O, çox qorxduğu sui-qəsdlərdən yaxa qurtara bilmirdi, ona çoxlu hədələr gəlib çatırdı. Bəzən o, çox ehtiyatlı və ağıllı hərəkət edirdi, ağılsız və düşünülməmiş hərəkətlərə də yol verirdi. Ağılsız məhkəmə prosesləri ilə o, özünü hörmətdən salırdı.

Klavdi ömründə bircə dəfə hərbi yürüşə çıxdı, Britaniyaya getməyi qərara aldı. Adanın bir hissəsini döyüş aparmadan və qan tökmədən bir neçə günə özünə tabe etdi. Lakin Romaya qayıdanda böyük təntənə ilə triumf mərasimi keçirdi. Onun döyüş arabasının arxasınca ikitəkərli arabada Messalina gedirdi. Ən uğurlu işlərindən biri isə şəhərin abadlığı və əhalinin ərzaqla təchizatı sahəsində apardığı tədbirlər idi. Hətta qış dövründə də ərzaq gətirilməsini qaydaya saldı, tacirləri möhkəm mənfəətlə təmin etdi və tufan vaxtı meydana gələn ziyanı da öz üzərinə götürdü. Su kəmərinin tikintisini başa çatdırdı, Ostiyadakı limanı genişləndirdi. Əcnəbi mənşəyi olan adamların romalı adlarını qəbul etmələrini qadağan etdi.

Klavdi iki qadınla bir-birinin ardınca evlənmişdi və onları boşamışdı. Üçüncü dəfə öz qohumunun qızı olan Valeriya Messalinaya evləndi. Adı sonralar pozğunluq rəmzinə çevrilmiş Messalina imperatorun başına çoxlu oyunlar açdı və onu görünməmiş qaydada alçaltdı. Klavdinin dövründə Ro-

manın əsasının qoyulmasının 800 illik yubileyinə həsr olunmuş Yüzillik oyunlar keçirildi. 64 il əvvəl bu oyunları Avqust keçirmişdi. Səhnəyə uşaqların arasında imperatorun oğlu Britannik və printsepsin tezliklə oğulluğa götürəcəyi Lutsi Domitsi (gələcək imperator Neron) də var idi. Axırıncının anası, Klavdinin qardaşı qızı və mərhum imperator Qay Sezarın doğma bacısı Aqrippinanı Messalina daim təqib edirdi. Bu isə xalqın Domitsiyə olan hüsn-rəğbətini artırırdı. Bu vaxt Messalina Qay Sili adlı qəşəng oğlana vurulmuşdu, ona öz arvadını da boşatdırmışdı. Messalinanın ona yaxınlığı o dərəcəyə çatmışdı ki, belə təsəvvür yaranırdı ki, Sili özü printsepsdir. Küt Klavdi isə evində nə baş verdiyini anlamırdı. Axırda Sili Messalinaya ona ərə getməyi təklif etdi və Klavdi Ostiyaya gedəndə, onlar təntənəli surətdə toylarını etdilər. Klavdi qayıdanda tribunala gətirilən Sili özünü müdafiə etmək istəmədi. Messalinaya nifrət edənlərdən biri senturionlara və oradakı tribuna Messalinanın edam edilməsi tapşırığını verdi və tribun qılıncı ilə imperatorun bu pozğun arvadını öldürdü. Klavdi xəbər ona çatdıqda öz əhval-ruhiyyəsini pozmadı.

Messalina öldürüldükdən sonra Klavdi özünə yaxşı arvad tapmaq istəyirdi. Seçim özünün qardaşı qızı Yuliya Aqrippinanın üzərinə düşdü. Qadın özü də tez-tez sarayda olub onu şirnikləndirirdi. Aqrippina daha uzağa gedən planlar cızmağa başladı, bunlardan biri onun oğlu Domitsini printsepsin qızı Oktaviyaya evləndirmək idi. Lakin imperatorun evlənməsinə mane olan cəhət o idi ki, bu vaxtadək əminin qardaşı qızına evlənməsi kimi bir hadisə baş verməmişdi. Romada yalnız qullar qanqarışdırıcı nikah əlaqəsinə girirdilər. Senzor Vitelli bu vaxt çıxış yolunu tapdı. O, imperatordan xalqın iradəsinə və senatın hakimiyyətinə hazır olduğunu soruşub, Klavdidən müsbət cavab aldıqda senatda bu məsələ barədə çıxış etdi. Senatorlar bir-birinin ardınca sübut etməyə çalışırdılar ki, printseps hökmən evlənməlidir. Vitelli namizəd kimi Aqrippina ilə heç kəsin müqayisəyə girə bilmədiyini bildirdi. Nəhayət, elə bir qayda yaradıldı ki, buna əsasən imperator senatın və xalqın göstərişi ilə evlənsin. Senatorlar güclə imperatoru evlənməyə məcbur edəcəklərini deyirdilər, onun qardaşı qızı ilə evlənməsi qanuni hesab edildi. Beləliklə, Messalinanın yerini Aqrippina tutdu. Oktaviya ilə Domitsi nişanlandıqdan sonra artıq Aqrippinanın oğlu təkcə imperatorun qohumu olaraq qalmırdı, həm də printsepsin gələcək kürəkəni olurdu. Sonra isə Klavdi Neronu oğulluğa götürdü və o, Neron adını qəbul etdi. İmperatorun arvadı öz fitnələri ilə onun ailəsini dağıdırdı. Klavdi indi də bu arvadının tabeliyinə düşmüşdü.

Onun dövründə xeyli sayda senatorların və atlıların edam edilməsinə da tam biganəlik göstərirdi. O, hər şeyə şübhə ilə yanaşırdı, sui-qəsd haqqında saxta bir şayiə onun canına üşütmə salırdı.

Klavdi arvadı Aqrippinanın onu zəhərləməsindən sonra, 64 yaşında vəfat edəndə Neron taxt-taca çıxdı. O, pretorian döyüşçülərinə pul hədiyyəsi vəd etdiyinə görə imperator elan olundu və senat bu qərarı təsdiq etdi. Onun atası da qəddarlığı ilə fərqlənmişdi və oğlu körpə olanda o, ölmüşdü. Sonralar anası Klavdiyə ərə getdikdə o, Neronu oğulluğa götürmüşdü, filosof Senekanın tərbiyəsinə verilmişdi. 17 yaşı olanda isə hakimiyyətə gəldi və elan etdi ki, ölkəni Avqustun qoyduğu qaydalarla idarə edəcəkdir. Əvvəlcə ağır vergiləri ləğv etdi və ya azaltdı, özünü təvazökar aparırdı.

O, çoxlu tamaşalar verirdi, hər şeyin natural qaydada göstərilməsindən xoşu gəlirdi. İlk xristianları, guya onların cəhalətinə görə cəzalandırırdı. O, müğənniliyi çox sevirdi və Romada səhnədə çıxış etmişdi. Oxuyanda heç kəsə teatrdan çıxmağa icazə verilmirdi, ona görə də bəzi hamilə qadınlar elə teatrda da doğurdular. Onda daha ciddi qüsurlar meydana çıxdı. Həyasızlıq, şəhvət, pozğunluq, xəsislik, qəddarlıq onun təbiətindən irəli gəlirdi. Bütün gününü eyş-işrətdə keçirirdi. Eybəcər zinakarlığa meyl edirdi. O, çox bədxərc və israfçı idi, səfərə çox böyük araba karvanı ilə çıxırdı. Böhtan və zorakılıqla pul qoparmağa keçmişdi. Bunun üçün qanuni əsas da hazırlamışdı, qanunla istənilən söz, hərəkət imperatora qarşı təhqir hesab oluna bilərdi. Həyata keçirdiyi digər qətllərlə yanaşı, anasını da özünü öldürməyə məcbur etmişdi. O, öz arvadlarını da edam etdirir, qətlə yetirirdi. Müəllimi Senekanı da özünü intihar etməyə vadar etdi. Tez-tez özünə qarşı sui-qəsdləri aşkara çıxarır və qəsdçilər günahlarını ölümlə yumalı olurdular. O, kimi istəsə edam etdirirdi.

M.ə. 64-cü ildə Neron Romanı açıq şəkildə yandırdı. Bu yanğın altı gün davam etdi, imperator özü isə buna tamaşa edib həzz alırdı. O. bütün sahələrdə özünə nifrət qazandırdı. Ordu hissələrində qiyamlar baş qaldırırdı. Axırda əlacsız qalıb özünü öldürməyi qərara aldı, ağlaya-ağlaya təkrar edirdi: "Necə böyük artist məhv olur". Senat artıq onu düşmən elan etmişdi. Ona görə də qılıncı boğazına soxub özünü öldürdü. Bu hadisə 68-ci ildə baş verdi və onun 31 yaşı var idi. Xalq bu xəbəri böyük sevinclə qarşıladı.

Neronun ölümündən sonra başlanan vətəndaş müharibəsində bir-birinin ardınca taxt-taca iddia edənlər - Qalba, Oton və Vitelli qısa müddətdə imperator oldular. 69-cu ildə Vespasiyanın hakimiyyətə gəlməsi ilə bu vətəndaş

müharibəsi də başa çatdı. Qısa müddətdə üç imperator həlak olduqdan sonra hakimiyyəti Flavilər nəsli əlinə keçirdi. Onun ilk nümayəndəsi Vespasian oldu, o, bu adı on il müddətində daşıdı. İmperiyanın şərq yarısındakı orduların müdafiə etməsi onu bu hakimiyyətə gətirmişdi. Onun əcdadlarından heç kəs senator olmamışdı. Bir müddət Roma prefekti olmuş böyük qardaşının kölgəsində qalmışdı. Özü kvestorluqdan sonra pretorluğa yüksəlmişdi. Legion komandanı olduqda Britaniyaya müdaxilədə iştirak edərək bir sıra tayfaları təslim etmişdi. 67-ci ildə isə İudeya yəhudi qiyamına qarşı komandan təyin edildi və burada iki uğurlu kampaniya keçirdi, Yerusəlim istisna olmaqla bütün İudeyanı tutdu.

İmperator olanda onu pulpərəstliyinə görə tənqid edirdilər. O, ağır vergilər qoyurdu, əyalətlərdən alınan vergiləri isə iki qat artırdı. O, adamlara vəzifələri də, müttəhimlərə bəraət verilməsini də pulla satırdı. Ən yırtıcı məmurları irəli çəkirdi ki, onlar daha yaxşı varlansınlar, sonra isə onları mühakimə etsin. Belə deyirdilər ki, o, məmurlardan hamam lifi kimi istifadə edir. Quru lifə islanmaq imkanı verir, nəm lifi isə sıxır. Xəsislik eybini heç cür ört-basdır edə bilmirdi. Neronun "Qızıl evi"nin bünövrəsi üzərində Kolizeyi tikməyə başladı. Onun dövründə 70-ci ildə oğlu Tit tərəfindən Yerusəlim zəbt edildi, Britaniyada mühüm irəliləyişlər əldə edildi. Bütün İspaniyaya latin hüquqları bağışladı, bu bütün şəhər magistratlarının Roma vətəndaşlığı əldə etməsi idi. Onun bir çox təyinatları nepotizmdən (imperatorun öz qohumlarına yaxşı vəzifələr verməsi) xəbər verirdi. Lakin vətəndaş müharibəsinə son qoymaqla, imperiyanın parçalanmasının qarşısını almışdı. Vespasian 69 yaşında vəfat etdi.

Öz mərdliyinə görə ad qazanmış oğlu Tit imperator oldu. O, müharibə vaxtı orduda komandanlıq edərkən İudeya çarının arvadı Berenikanın məşuqu olmuşdu və ona evlənməyə söz vermişdi. Lakin ona başqa eyib tapa bilmirdilər və əxlaq məsələlərində də öz qüsurlarını düzəltdi. O, hətta icazə verilən hədiyyələrdən də imtina edirdi, heç kəsi narazı salmamağa çalışırdı, sadə xalqa diqqətlə yanaşırdı. Onun dövründə çoxlu təbii fəlakətlər baş verdi. Vezuvi vulkanı püskürdü və Romada üç gün davam edən yanğın baş verdi. Bu dövrdə o, özünü qayğıkeş hökmdar kimi göstərirdi. Yanğından şəhərə dəyən bütün ziyanı öz üzərinə götürmüşdü. O, belə bir qanun qəbul etdirdi ki, bir iş müxtəlif qanunların təsiri altına düşə bilməz, başqa sözlə bir ittiham uğursuz olsa, həmin adama digər ittiham irəli sürülə bilməzdi. O, heç kimdən qisas almaq fikrinə düşmədi. Lakin qardaşı Dominitsian ona qarşı fitnə-

lərdən əl çəkmirdi, ordunu iğtişaşa çağırırdı. Tit isə ona qarşı heç bir tədbir görmədi, əksinə onu özünü hökmdar yoldaşı adlandırdı.

Tit imperiyanı iki il idarə etdi və 42 yaşında öldü. Ali kürsü onun qardaşı Dominitsiana keçdi. İlk anlarda o, qan tökməyə susamırdı, təmənnasızlıq və alicənablıq göstərirdi. Lakin çox tezliklə qəddarlığa və tamahkarlığa keçdi. Bir neçə konsulu və çox sayda senatoru ölümə göndərdi. Yeni, eybəcər işgəncə növləri icad etmişdi. Hər cür vasitələrlə varlanmağa başladı. Hər cür ittihamlardan istifadə olunmaqla dirilərin və ölü adamların əmlakı qəsb edilirdi. İudeya dininə etiqad edənlərə xüsusi ağır vergilər qoyulmuşdu. Sentyabr və oktyabr aylarının adını dəyişdirib öz adını qoymuşdu. Ona artan nifrət sui-qəsdlə nəticələndi və onu öldürdülər. Onun hökmranlığı 15 il çəkdi. Bu dövrdə ilk 12 Sezardan yeddisi öz ömrünü zorakılıq nəticəsində başa vurmuşdu.

Dominitsianın qətli ilə 27 il sürən Flavilər nəslinin hakimiyyətinə son qoyuldu və bir əsrə qədər davam edən dövrdə (96-192-ci illər) Antonilər sülaləsi imperator oldu.

## Antonin imperatorları dövrü

Dominitsian öldürüldükdən sonra senatorların ən yaşlısı Nerva qətlin iştirakçılarının seçiminə müvafiq olaraq imperator oldu. İğtişaşlar yenidən başlayanda Nerva vəziyyəti, Yuxarı Almaniya qubernatoru Mark Yuni Trayanı özünə varis seçməklə yoluna qoya bildi. Bu sarsıntıdan bir neçə ay sonra Nerva öldü və Trayan orduların və senatın razılığı ilə imperator oldu. Trayan bu vəzifənin ilk və yeganə daşıyıcısı idi ki, nə tərcümeyi-halı, nə də nikahı ilə heç bir əlaqəsi olmadığı dövlət başçısı tərəfindən varis kimi qəbul edilmiş və sonra onu əvəz etmişdi. Trayanın daxil olduğu "nəcib imperatorlar" 2-ci əsrin əksər dövrü ərzində daxili harmoniyanın və qayğıkeş idarəetmənin mümkün olduğu imperiyanın mövcudluğunu real olaraq sübut etmişdilər. Kollektiv şəkildə əsasən Antonin imperatorları sırasını təşkil etməklə, "nəcib imperatorlara" Nerva, Trayan, Hadrian, Antonin Piy və Mark Avreli daxil idi.

Trayan həm də İspaniyadan olmaqla ilk printseps idi ki, əyalətdən çıxmışdı. O, Romaya qayıdıb, senatda imperator səlahiyyətlərini qəbul etmək əvəzinə, bir ilə yaxın Reyn və Dunay çaylarının üstündə qaldı, Dakiyaya müdaxilə etmək kampaniyasına hazırlıq gördü. Adətən şəhərlərin yeni seçilən imperatora göndərdikləri qızılı İtaliyaya və əyalətlərə bağışladı. İtaliya

şəhərlərindəki kasıb uşaqlara yardım göstərilməsi barədəki yeniliyin - ictimai fondların (alimenta) yaradılması ideyasını irəli sürdü. Bu qayda ilk dəfə Trayanın yaxın dostu Kiçik Plini tərəfindən özəl qaydada ölkənin şimalındakı Komo şəhərində öz yerliləri üçün tətbiq edilmişdi.

Öz hökmranlığının bütün dövrü ərzində Trayan ümumiyyətlə konstitusiyalı qayda nümayiş etdirirdi. Senatla printseps arasında qarşılıqlı hörmət yaranmışdı. O, çoxlu bahalı tikililər tikdirirdi və bu onun populyarlığını artırırdı. O, əsgərlər arasında böyük nüfuza malik idi və əsgər-imperator hesab olunurdu. O, qətiyyətli adam olmaqla, lazım gəldikdə heç bir tərəddüdə yol vermirdi. O, Romanı əzəmətli tikililərlə gözəlləşdirdi. Onun çuğulçuları Romadan süpürüb atması, onları əlüstü qayrılmış sınıq-salxaq gəmiyə doldurub dənizin quduz dalğalarının ixtiyarına buraxması əhaliyə sensasiya xarakterli təsir göstərdi. Axı çuğulçular əslində qanunun müdafiə etdiyi soyğunçulara çevrilmişdilər. O, İtaliya magistral yolları şəbəkəsinə qayğı ilə yanaşırdı və *Via Traiana* adlanan yeni yol çəkdirdi və bu tezliklə Appi yolunun yerini tutdu. Körpülər, akveduklar tikilir, istifadəsiz torpaqlar dövriyyəyə qatılır, limanlar yaradılırdı. Romada yeni Forum ucaldıqda şəhərə yeni akvedukla şimaldan su gətirildi. Şəhərdəki meydanda Trayan sütunu yüksəlirdi, sütun onun apardığı Dakiya müharibəsinə həsr olunmuşdu. Sütunun bünövrəsi sonra Trayanın cəsədinin külünü qəbul etdi.

Mülki işlərdə olduğu kimi hərbi sferada da Trayan yaxşı nailiyyətlər qazanmışdı. O, Dunay sərhədini möhkəmləndirdi, Dakiyanı iki müharibədə məğlub edib ərazini əyalətə çevirdi və Cənubi Rusiyadan köçərilərin hərəkətlərinin qarşısını almaq üçün müdafiə zonası yaratdı. Şərq sərhədində də buna bənzər əməliyyat planlaşdırdı. Pompey dövründən Parfiya problemi həll olunmamış qalırdı. O, Sarmat alanlarının Xəzər dənizi regionunda təhlükəsini məhdudlaşdırmaq istəyirdi. Nabatiya çarlığını da imperiyaya anneksiya etmişdi. Sonra Şimali Mesopotamiya və Assuriya kimi əyalətlər yaratdı və İran körfəzinə çatdı. Qocalığı onun şərqə doğru hərəkətinə maneçilik törətdi. Lakin tutduğu ərazilərdə qiyamlar başlayırdı. Parfiyadan başqa Orta Şərqin çox hissəsi - Kirena, Misir, Kipr, Kiçik Asiya onun əlində idi. O, öz ölümünü də Şərqdə tapdı və Kiçik Asiyada vəfat etdi.

Trayan rəsmi olaraq öz varisini müəyyən etməmişdi. Onun yaxın qohumu, Suriya valisi olan Publi Eli Hadrian varis olmağa uyğun gəlirdi.

117-138-ci illərdə hökmranlıq etmiş Hadrian Trayandan fərqli olaraq ərazinin genişləndirilməsinin əleyhinə idi. O, özü Şərqdə olanda Trayanın orada işğal etdiyi ərazilərdən imtina etdi, Dakiyadan da qoşunları geri çəkməyi

düşünürdü. O, sülhsevər hökmdara çevrildi. O, sərhədlərin yaxşı mühafizə edilməsinə çalışırdı və istəyirdi ki, sərhədin arxasında klient dövlətlər olsun. Təbii sərhədlər olmayan yerlərdə sərhədlər möhkəm istehkamlanırdı. Britaniyadakı Hadrian səddi adanı yarı bölüb keçirdi. Sərhəd daxilindəki ordu isə tam gücündə saxlanırdı, bu məqsədlə tez-tez inspeksiyalar keçirilirdi. Səhra qoşunları vəzifəsi, nəticə etibarilə mobil sürətli əməliyyatlar üçün olan və numerilər adlanan yüngül silahlı tayfa birliklərinə tapşırıldı. Bu qüvvələr imperiyanın hüdudlarının kənarından cəlb edildiyindən Roma imperiya ordusunun barbarlaşdırılmasına şərait yaradırdı.

Hadrian mülki məsələlərdə də xeyli proqressə nail oldu. Atlılardan mülki işlərdə geniş istifadə edilməyə başlandı. Bu vaxtdan mülki xidmətin bürokratik fazası başlandı. O, həmçinin qanunlara aid olan inzibatçılığı yaxşılaşdırdı. O, ediktləri daim kodifikasiya edən hüquqşünas ekspertlərə malik idi. Dörd keçmiş konsulu İtaliyada mahal hakimləri kimi xidmət etməyə göndərdi və bu İtaliyanı əyalətə yaxınlaşdırdı. Afinanın gözəlləşdirilməsi üçün xüsusilə əliaçıqlıq göstərdi. Ömrünün sonuna yaxın o, varis axtarışı ilə məşğul olmağa başladı. O, senator Tit Eli Antonini seçdi. Antonin özü də iki varis götürməli olduğundan, bunlardan biri gələcək imperator Mark Avreli oldu.

Hadrian öldükdən sonra onu Antonin əvəz etdi. Öz sələfinə övlad ehtiramının nişanəsi kimi ona Piy adı da verildi. O, 23 il ərzində hökmranlıq etməklə, Roma imperiyasının ən yaxşı kosmopolit imperatoru hesab olunur. O, özü qall mənşəli idi, arvadı isə ispan mənşəyinə məxsus idi. Onun hökmranlığını tam inkişaf dövrü hesab edirlər. Antonin sələflərindən fərqli olaraq paytaxtdan kənara az səfər edirdi. 148-ci ildə Romanın 900 illik yubileyini bayram etdi. Onun idarəetmə prinsipi sakitlik və razılığa əsaslanırdı. Lakin bu vaxt sərhədlərdə həmlələr və qiyamlar təhlükəli simptom xarakterini alırdı. Buna görə də Dakiyada, Reynlandda və Britaniyada Hadrian sərhədləri qabağa çəkilmişdi.

161-ci ildə Mark Avreli ilahiləşdirilmiş Antonini əvəz etdi. Onun bibisi Antoninin arvadı idi, ümumiyyətlə o, Romanın ən görkəmli ailələrinin bir neçəsi ilə bağlı idi. O, çox gənc yaşından varis elan edilsə də, 40 yaşında taxt-taca yiyələndi. Ona görə də Mark imperatorun şagirdi kimi bir məktəb keçmişdi. O, bacarıqlı, mərd və ciddi düşünən adam idi. Stoik məktəbinin etik filosofu olan Epiktetin "söhbətlərini" həvəslə öyrənmişdi və bu fəlsəfədə özünün ruhi qidasını tapmışdı. Roma tarixində Platonun arzuladığı bir hadisə baş vermişdi, imperatorluğa mütəfəkkir gəlmişdi. Mark Avrelini "taxt-tacda olan filosof" adlandırırdılar. Gənc oğlan kimi o, öz bibisi qızı, həm də

imperator Antonin Piyin qızı olan Faustinaya evlənmişdi və iki il sonra kiçik həm-imperator olmuşdu.

Mark imperator səlahiyyətlərinə yiyələndikdə öz götürmə qardaşı Lutsi Ver də onunla birlikdə həm-imperator oldu. Roma imperiyası öz tarixində ilk dəfə olaraq iki qoşa imperatora malik idi. Lakin Ver qərar verməyi Markın öhdəsinə buraxdı. İmperiya bu vaxt yunan və latın dilli hissələrə bölünmək təhlükəsi ilə üzləşdi, həm də sərhədlərdə barbarların qorxulu həmlələri başlandı və bunlar sonralar imperiyanın parçalanmasına gətirib çıxaran cəhdlər rolunu oynayırdı.

Mark Avreliyə ən yaxın olan sahə hüquq idi. Bir sıra tədbirlər və hüquqi qərarlar elan edilmişdi, onlar mülki qanunlarda olan çətinlikləri və qeyri-normallıqları yoluna qoyurdu. Az hörmət olunan zümrələrin - qulların, dul qadınların, mədəndə çalışanların hüquqları yaxşılaşdırıldı və varislik sahəsində qan qohumluğunu tanımaqla, onun iddiaları təsbit edildi. Lakin bunlar daha çox keçmişdən əxz edilmişdi, heç də yeni deyildi, cəmiyyətin quruluşunun radikal dəyişdirilməsindən daha çox, onun yaxşılaşmasına xidmət edirdi. Cinayət hüququnda təsnifatın fərqləri ifadə olunmuşdu - bu vicdanlılıq və alçaldılma idi. Cinayət üzrə cəzanın bu iki ayrı tərəzisində alçaldılmaya görə olan cəza hər cəhətdən sərt və daha çox qiymətləndirilən idi.

Mark Avreli xristianların təqib edilməsinə yol versə də, onun dövründə qulların ardıcıl olaraq təqib edilməsi baş vermirdi.

Filosof-imperator geniş imperiyanın sərhədlərinin təhlükəsizliyi məsələləri ilə də məşğul olurdu. Şərqdə gedən müharibə Ermənistanın və Mesopotamiyanın viranə qoyulması ilə nəticələndi, Romanın şərq əyalətləri və klient çarlıqları təhlükəsizlik qazandı. Cəbhədən dönən ordu isə özü ilə taun xəstəliyini gətirdi. German müdaxiləsi ilə birlikdə bu, stabillik üçün vacib olan mənəviyyatın zəifləməsinə şərait yaradırdı. Periklin dövründə hücum edən peloponneslilər və taun xəstəliyi Afina əhalisinə məhz belə mənəvi çaşqınlıq hissləri təlqin etmişdi.

Markın hakimiyyəti dövründə ilk dəfə olaraq Çinlə birbaşa əlaqələr yaradılmasına cəhd edildi və iki ölkə arasında səfirliklər mübadiləsi baş verdi. Çin kitablarında məlumat verilir ki, 166-cı ildə Roma imperatoru An-Tundan buraya elçilər gəldi. Çinlilərin An-Tun adlandırdıqları, məhz həmin dövrdə dövləti idarə edən Mark Avreli idi və onun Antonin adını çinlilər öz dillərinə uyğun olaraq An-Tun kimi göstərmişlər. Filosof-imperator dövlətin beynəlxalq əlaqələrinə ciddi diqqət göstərirdi və hətta Uzaq Şərqlə də əlaqələr yaratmaq qərarına gəlmişdi.

Lakin Şərqə çox qüvvə aparıldığından Dunay sərhədi artıq zəifləmişdi və barbar hücumları nəticəsində nəhayət, bu hüdud süqut etdi. Qotların, vandalların, həmçinin german tayfalarının və sarmatların çayın üstünə axışması başlandı. Yalnız üç ildən sonra Mark Dunay sərhədlərini bərpa edə bildi. Bu vaxt Şərqin separatizminin başlanğıcı sayılan general Kassinin qiyamı başladı və bu Dunay boyunda qazanılan uğurları məhv etdi. Qiyam başçısı öz əsgərləri tərəfindən qətlə yetirildikdən sonra, Mərkəzi Avropa məsələlərinə qayıtmaq mümkün oldu. Lakin səfər vaxtı Mark Avreli öldü.

Üç il əvvəl birgə imperator elan etdiyi oğlu Kommod varis kimi 180-ci ildə imperator taxt-tacını tutdu və bu hadisə bir faciəvi paradoks idi. İmperiya artıq çürümə cığırına qədəm qoymuşdu. Yeni imperator öz sələfləri Kaliqula və Neron kimi səriştəsizlik, şöhrətpərəstlik və şıltaqlıq nümayiş etdirirdi. Lakin sərhədlər toxunulmamış qalırdı. O, özünü dövlət işlərinə deyil, həzzlərə həsr edirdi. Roma arenasında özünü Herkules kimi nümayiş etdirirdi. O, bir qayda olaraq ciddi işləri favoritlərinə tapşırırdı, bu isə müsadirələrə, rəhmsiz qətllərə aparıb çıxarırdı. O, 192-ci ilin son günündə öldürüldü və Antoninlər də biabırçı sonluğa gəlib çatdılar. Kommodun ölümündən sonra, Neronun özünə sui-qəsdindən sonra olduğu kimi bir ildə dörd imperator dəyişdi.

"Nəcib imperatorların" dövründə idarə etmədə müsbət irəliləyişlərin baş verməsi senata da öz təsirini göstərirdi, onun tərkibi də müəyyən dəyişikliyə uğramışdı. Hadrianın dövründən senatın demək olar ki, yarısı əyalət mənşəli adamlar idi. Hələ Trayanın dövründə şərqlilər senat üzvü olmuşdular, afrikalılar isə bu hüquqa Antonin Piyin vaxtında malik oldular. Roma vətəndaşlığının coğrafiyası da xeyli genişlənmişdi, baxmayaraq ki, 212-ci ilə qədər hələ imperiyanın bütün azad sakinləri faktiki olaraq vətəndaş ola bilməzdilər. "Pax Romana"-ya Roma işğalları ilə "dincləşdirilmiş" dünya hissəsinə baxmayaraq romalılar heç vaxt İudeyada yəhudilərin siyasi ümidləri və dini adətləri üçün modus vivendi - qəti nizamlanmış mövcudluq qaydası yarada bilməmişdilər.

Roma imperiyası 2-ci əsrdə özünün ən geniş ərazisinə sahib oldu. Əsrin əvvəlində Dakaya və Ərəbistan, sonra Ermənistan, Mesopotamiya və Assuriya imperiyanın ərazisinə daxil edildi, Hadrianın vaxtında isə axırıncılar yerli əhalinin üsyanları nəticəsində imperiyadan ayrıldılar. İmperiyanın sayı artan əyalətləri əsasən quldarlıq münasibətlərinin yayılması hesabına iqtisadiyyatlarını inkişaf etdirirdi. Bu dövrdə dəniz və quru yollarının qaydaya salınması, böyük müharibələrin dayandırılması, valilər üzərində nəzarət qo-

yulması kənd təsərrüfatının, sənətkarlığın və ticarətin inkişafına, Roma həyat tərzinin və mədəniyyətinin yayılmasına şərait yaratmışdı. Lakin geridə qalan vilayətlər də var idi ki, onlar əsasən kənd icmalarından ibarət idi. Ona görə də bəzi imperiya əraziləri inkişaf edəndə, digərləri tənəzzül dövrü keçirirdi. Roma Ərəbistan, Hindistan, Qafqaz, Orta Asiya xalqları ilə, hərdən isə Çinlə, Sudana qədər Afrika ilə, Baltikyanı ərazilərdəki şimal-şərq tayfaları ilə ticarət aparırdı. Roma şərab, zeytun yağı və metal ixrac edirdi, ölkəyə isə əsasən ərzaq məhsulları idxal olunurdu.

Bu dövrdə cəmiyyətin yüksək zümrələri senatorlar və atlılar idi. Birincilərə iri torpaq sahibləri aid idi. Senatorların tərkibindən ali Roma magistratları, hərbi rəislər, əksər əyalətlərin valiləri təyin edilirdi. Atlılardan isə digər magistratlar: hakimlər, pretoriya prefektləri təyin edilirdi. Şəhər plebsi isə kiçik tacirlərdən, sənətkarlardan, muzdlu işçilərdən ibarət idi. Artıq plebs öz siyasi əhəmiyyətini itirmişdi, dövlət magistratları senatorlardan və atlılardan seçilirdi. Siyasi əhəmiyyətlərini itirməsi əvəzinə plebeylərə bol ianələr verilirdi. Roma şəhərində 100-150 min kasıb adam dövlətdən pulsuz çörək, həmçinin ət və yağ alırdı. Bayram vaxtı isə əlavə hədiyyələr verilirdi. Trayanın ilk dəfə olaraq yaratdığı kasıblar üçün alimentar fonddan yoxsul ailələrin uşaqlarına və yetim uşaqlara dövlət yardımı göstərilirdi. Vəsait isə dövlətin kiçik və orta sahibkarlara verdiyi ssudadan gələn faizlərdən yığılırdı. Bu dövrdə azad olmayanlar zümrəsinə isə qul olmaqdan azad olunanlar - libertinlər və qullar daxil idi. Bəzi libertinlər, xüsusən imperator libertinləri yüksək vəzifələrə və var-dövlətə malik olurdular. Pekulisi, başqa sözlə əmlakı olan qulların bir hissəsi istehsal vasitələrinin və həmçinin qul sahibi oldular. Qulların əksəriyyəti kənd təsərrüfatında və sənətkarlıqda istismar olunan adamlar idi.

Romaya öz qüdrətini daim yüksək səviyyədə saxlamaq mümkün olmadığından, işğal etdiyi əraziləri əlində saxlamaq ona daha çətin başa gəlirdi. Hadrianın dövründə tayfa ittifaqlarının güclənməsi nəticəsində romalılar təcavüzkarlıqdan müdafiəyə keçməyə məcbur oldular.

193-cü ildə hakimiyyətə gələn Septimi Sever xeyli rəqibləri ilə mübarizə apardıqdan sonra yalnız dörd il sonra imperiyanın yeganə ağası olmağa müyəssər oldu. Bu dövrdə baş verən soyğunçuluq, edamlar və müsadirələrdən acı xatirə qaldı. O, Mesopotamiyada parfiyalılarla vuruşdu, sonra isə Britaniyaya getməyə, orada üç il ərzində Hadrian səddi boyu kampaniya aparmağa məcbur oldu. Elə burada da, indiki York şəhərində öldü. Septimi Sever yaxşı inzibatçı və hüquqşünas idi. Onun romalılardan xoşu gəlmirdi, arvadı suri-

yalı olduğundan özünü şərqlilərlə əhatə etmişdi. Digər tərəfdən o, sədaqətli Dunay ordusuna arxalanırdı, bu ordunun köməyi ilə də hakimiyyətə gəlmişdi. O, Antoninlərin şöhrətinə yiyələnmək üçün özünü Mark Avrelinin oğlu elan etmişdi və öz oğluna onun adını vermişdi. O, atlılara rəğbət bəsləyirdi, senatda isə çox sayda düşmənləri var idi. O, hərbi monarxiyanın bir növünü yaratmışdı. Ordunun əhəmiyyətinin getdikcə artdığını nəzərə alaraq ona daha böyük imtiyazlar verirdi. Senturionlar atlı zümrəsinə daxil ola bilərdi. "Sever inqilabının" digər aspektlərindən biri bu idi ki, misal üçün, İlliriya kəndlisi yüksək vəzifə tuta bilərdi.

Septimi Severin inzibati uğurları da böyük əhəmiyyətə malik idi. O, şəhər hakimiyyətinin cizgilərini vermişdi və pretorian prefekturasını Pappian kimi görkəmli hüquqşünaslara etibar etmişdi. O, Böyük Aleksandrın Misirdəki inzibatçılıq təcrübəsindən istifadə edərək maliyyə vəzifələrinə afrikalılar və şərqlilər arasından, idarəetmə vəzifələrinə isə Dunay zabitlərinin sırasından adamlar seçirdi. Müsadirələri davam etdirməklə o, öz şəxsi sərvətini artırırdı. Dövlətin xərcləri artdığından pul devalvasiya edildi. Onun hökmranlığının son üç ilində imperiya onun və oğlanlarının şəxsində üç Avqusta malik oldu.

Septimi Severin böyük oğlu Karakalla öz kiçik qardaşını öldürdükdən sonra, 211-ci ildən 217-ci ilə qədər hökmranlıq etdi. O, öz atasının karikaturasına bənzəyirdi, zorakı və maniakal olmaqla yanaşı, qəddar və davakar idi. Ancaq atlılardan və hüquqşünaslardan olan ətrafının qarşısını ala bilmirdi. İri xərclərə yol verməklə atasından qalan sərvəti qısa müddətdə tükətdi. Senatorları ağır təzminatlar verməyə məcbur edirdi, şəhərin orta siniflərini qarət etdi, inflyasiyanı dayandırmaq üçün dövriyyəyə buraxdığı yeni sikkənin rəsmi dəyəri onun real dəyərindən ikiqat artır müəyyən olundu, bu gələcək monetarist qeyri-stabillik üçün əsas yaradırdı. Onun dövründə qəbul edilən məşhur Antonian Mülki Konstitusiyasına görə imperiyanın demək olar ki, bütün sakinlərinə vətəndaşlıq hüququ verildi. İmperiyanın hər bir sakini o vaxtdan etibarən ikili vətəndaşlıq aldı - Romanın və doğulduğu şəhərin vətəndaşlığını. Bütün vətəndaşlar mütləq hökmdarın təbəələri idi.

Göstərişi əsasında öldürülmüş Karakallanı Makrin əvəz etdi. Bu atlını əsgərlər imperator kimi qəbul etdilər və senatorlar həmin seçimlə həvəssiz olaraq razılaşdılar. O, parfiyalılarla şərəfsiz sülh bağladı. Makrinə qarşı qəsd təşkil edildi və o, öldürüldü. Yeni imperator Karakallanın oğlu kimi təqdim edildi və o, Eleqabal adı altında daha yaxşı tanındı. 14 yaşlı imperator ağır xərclərlə, orgiyalarla, ətrafının pozğun davranışı ilə özünə dərin nifrət qa-

zanmışdı. Pretorianlar onu 222-ci ildə öldürdülər və imperator elan edilən əmisi oğlu Sever Aleksandr adını götürdü. Onun da məsləhətçiləri atlılar idi. Pretorian prefekt Ulpian bu dövrün ən görkəmli hüquqşünası idi və sülalənin banisinin siyasətinin əsaslarını o, davam etdirirdi. Onun siyasətinin nəticələri uğursuz oldu. 224-cü ildə Persiyada Arşakidləri daha ambitsiyalı olan Sasanidlər sülaləsi əvəz etdi. Onlar Şərqdə Əhəmənidlərin keçmiş ərazilərini bərpa etmək istəyirdilər. Onların ilk hücumu dayandırılsa da, ordu imperatordan uzaqlaşdı.

Romada tez-tez iğtişaşlar baş verirdi. Ulpian pretorianlar tərəfindən öldürüldü. Əsgərlər Reyn üzərində toplaşanda yenidən qiyam qaldırdılar, Sever Aleksandrı və onun anasını öldürdülər. Frakiyalı Maksimin 235-ci ildə onu əvəz etdi və bununla Severlər sülaləsi öz sonuna çatdı.

## Roma ədəbiyyatı və həyatı

Avqustun tam hökmranlığa başladığı dövrdən (m.ə. 27-ci il) bizim eranın 200-cü ilinə qədər olan vaxt ərzində Roma fəlsəfəsi öz xarakterik formalarına yiyələndi. Bu dövrdə görkəmli ədəbiyyat əsərləri, arxitektura və incəsənət nümunələri meydana gəldi, Roma mühəndisliyi öz böyük zəfərlərini qazandı, lakin bu boş yerdə yaranmamışdı.

Romalıların daha çox rəğbət bəslədiyi fəlsəfə, stoitsizm idi. Bununla yanaşı onlar dünya imperiyalarına görə iftixar hisslərindən xali deyildilər. Printsipat dövründəki stoitsizm, Zenonun və onun məktəbinin moizə etdiyindən bir qədər fərqli olsa da, m.ə. 2-ci əsrin ortalarında Romaya daxil olan bu cərəyanın ən görkəmli nümayəndəsi Mark Tulli Tsitseron (m.ə. 106-43-cü illər) hesab olunur. Tsitseron öz dövrünün ən məşhur mütəfəkkiri olmaqla yanaşı, "Roma natiqlik mədəniyyətinin atası" idi. O, Platon və Aristotel daxil olmaqla bir sıra filosofların təlimlərini qəbul etməsinə baxmayaraq, öz ideyalarının əksəriyyətini əsasən stoiklərdən götürmüşdü. Stoiklər təsdiq edirdilər ki, ləyaqət xoşbəxtlik üçün kifayətdir, ağlın sakitliyi ən yüksək faydadır. O, düşünürdü ki, insan varlığının idealı öz ağlı ilə kədər və ağrıya doğru laqeyd olaraq gedənlərdir. O, yunan stoiklərindən fərqli olaraq fəal siyasi həyatı bəyənirdi. Bu nöqteyi-nəzərdən o, dövlətə xidmət barədə köhnə Roma ənənələrini dəstəkləyirdi. Tsitseron özünü heç də orijinal filosof hesab etmirdi, öz vəzifəsini, yunan fəlsəfəsinin ən yaxşı nümunələrini Qərbə gətirməkdə görürdü. Bu işdə isə o, olduqca böyük uğur qazanmışdı. Onun zəngin və zərif latın nəsr üslubunda ona heç vaxt üstün gə-

lən olmadı. Tsitseron nəsri tezliklə quruluşuna görə standarta çevrildi və indiyədək öz yüksək qiymətini saxlayır.

Tsitserondan bir qədər əvvəl yazıb yaratmış Lukretsi (m.ə. 98-55-ci illər) Epikurizm fəlsəfəsinin təsiri altında idi və o, "Əşyaların təbiəti haqqında" fəlsəfi poemanın müəllifi idi. O, ağlın sakitliyi üçün ən böyük maneəni fövqəltəbii qüvvədə görürdü və hər cür yollarla ondan qorxunu uzaqlaşdırmaq istəyirdi. O, allahların mövcudluğunu qəbul etsə də, onları əbədi sülhdə yaşayan kimi güman edirdi, heç də kainatı yaradan və idarə edən hesab etmirdi - ölüm bütöv sonluq hesab olunurdu və insan şəxsiyyətinin heç bir hissəsi sonrakı həyatda mükafatlandırılmaq və ya cəzalandırılmaq üçün dirilə bilməzdi. Lukretsinin yaxşı həyat haqqında konsepsiyası sadə idi. Kim nəyə möhtac olsa, ona nail olacaqdı, bu həzz kimi yox, "dinc və təmiz ürəklə" olacaqdı. O, çox yaxşı şair idi və böyük şairlər arasında özünə məxsus yer tutur.

Roma ədəbiyyatı Plavtın (m.ə. 257-184-cü illər) komediyaları, Katullun (m.ə. 84-54-cü illər) məhəbbət poemaları və Yuli Sezarın hərbi xatirələri ilə zəngin idi.

Romada stoitsizmin populyar olması onun borc hissi, özünə intizam və əşyaların təbii qaydasına tabe olması müddəaları ilə əlaqədar idi. Bunlar romalıların ləyaqət barədəki qədim düşüncələrinə və onların konservatizm adətlərinə uyğun gəlirdi. Bizim eranın ilk iki əsrində stoitsizmin üç görkəmli nümayəndəsi Romada yaşamış və bu cərəyana xidmət etmişdi. Bunlar Seneka (m.ə. 4 - b.e. 65-ci illər), qul Epiktet (b.e. 60-120-ci illəri) və imperator Mark Avreli (b.e. 121-180-ci illəri) idi. Seneka bir müddət Neronun varlı məsləhətçisi olmuşdu. Onların hər üçü bununla razılaşırdılar ki, daxili sakitlik can atılmalı olan ümumi məqsəddir, həqiqi xoşbəxtlik yalnız kainatdakı yaxşı münasibətin əhatəsində tapıla bilərdi. Onlar ləyaqət naminə ləyaqət idealı moizə edirdilər, insan təbiətinin günahkarlığına görə peşimançılıq bildirirdilər və borcun səsi kimi vicdana qulaq asmağı tövsiyə edirdilər. Seneka və Epiktet öz fəlsəfələrini dərin mistikaya meyl etməsi ilə demək olar ki, dinə yaxınlaşdırırdılar. Onlar ilahi qüvvə kimi kosmosa sitayiş edirdilər, kosmos isə qüdrətli Tanrı tərəfindən idarə olunurdu və Tanrının bütün göstərişləri hamının faydası üçün həyata keçəcəkdi. Sonuncu Roma stoiki Mark Avreli isə fatalist və az ümid bəsləyən idi. O, qaydanı və rasional kainat konsepsiyasını inkar etməsə də, əvvəlki stoiklərin nə inamına, nə də ehkamçılığına şərik çıxmırdı.

Romalıların ədəbi nailiyyətləri onların fəlsəfəsi ilə əlaqədə idi. Bu xüsusən Avqust erasının ən görkəmli yazıçılarının əsərlərində daha çox nəzərə

çarpır. Misal üçün, Horatsi (m.ə. 65-8-ci illər) özünün məşhur "Odalar"ında epikurizm və stoitsizm fəlsəfəsinin təlimlərini təqlid edirdi. O, diqqəti həyat yolunda cəmləşdirirdi. O, Epikurun həzzə haqq qazandırmasını, stoiklərin bədbəxtlik anında igidlik göstərmək müddəası ilə birləşdirdi. Həm də heç vaxt həzzi sadəcə ağrının yoxluğuna gətirib çıxarmırdı, belə müdriklik edirdi bilsin ki, ən yüksək həzz yalnız rasional nəzarətin qoyuluşunda mümkündür.

Vergili (m.ə. 70-19-cu illər) öz dövrünün fəlsəfi əhval-ruhiyyəsinin ölçüsünü əks etdirirdi. Onun "Bukoliklər" poemasında tam həzz idealı barədə Epikur idealından bəzi şeylər olmasına baxmayaraq, Vergili daha çox stoik idi. Onun sülh və bolluq erası barədə utopik baxışı, insan taleyinin faciəsi barədə meydana çıxan düşüncələri və onun təbiətlə harmoniyada olan həyatı idealizə etməsi, özlüyündə Seneka və Epiktetinkinə bənzər əqli irsi göstərir. Onun ən tanınan əsəri olan "Eneida" da, Horatsinin bəzi "Odalar"ında olduğu kimi, Roma imperializmi şərəfləndirilir. "Eneida" imperiyanın epik tarixçəsi olub, dövlətin yaranmasından başlanan zəhmətləri və zəfərləri, onun şərəfli ənənələrini, heyrətləndirici taleyini təsvir edir.

Avqust erasının digər böyük yazıçıları Ovidi Nazon (m.ə. 43 - b.e. 17-ci illəri) və Livi (m.ə. 59 - b.e. 17-ci illəri) idi. Ovidi öz poemalarında mənəviyyatın, əxlaqın pozulmasına guya şərait yaratdığına görə Qara dəniz sahilindəki Toma (indiki Rumıniyadakı Konstansa şəhəri) sürgün edilmişdi. O, öz dövrünün kinik və fərdiyyətçi meyllərinin baş təmsilçisi idi. Onun parlaq və iti yazıları bir çox hallarda dövrünün pozğun zövqünü təsvir edirdi. Livinin isə şöhrəti onun nəsr stilisti kimi bacarığına əsaslanırdı. Onun başlıca əsəri Roma tarixinə həsr olunmuşdu və hadisələrin xəbər verilməsindən daha çox vətənpərvərlik hisslərinə müraciət təsiri bağışlayırdı.

Petroninin və Apuleyin qələmə aldığı bədii əhvalatlarda və Martsialın epiqramlarında Roma həyatının daha ekzotik və bəzən çirkli, hiddət doğuran cəhətləri öz əksini tapırdı. Bu dövrün ən mühüm yazıçıları Yuvenal və tarixçi Tatsit idi. Yuvenal stoiklərin təsiri altında yazırdı, lakin onun baxış bucağı nisbətən dar idi. O, inanmışdı ki, millətin bədbəxtlikləri onun mənəvi pozğunluğa qədəm qoymasından irəli gəlir, öz həmvətənlilərinin qüsurlarını İncilin qəzəbi ilə birlikdə məhkum edirdi. Onun gənc müasiri Tatsitin yazıları onunkuna bənzər münasibəti xarakterizə edirdi. Ən məşhur Roma tarixçilərindən biri olan Tatsit öz dövrünün hadisələrini hiddət və qərəzsiz təhlil edir, lakin həm də onun məqsədi bunları mənəvi ittihama cəlb etməkdir. O, həm də istehzalı ifadə ustası və parlaq aforizmlər müəllifi idi. Təriflənən Rax Romana barədə barbar tayfasının başçısının sözlərini misal gətirir: "On-

lar vəhşilik yaratdılar və bunu sülh adlandırırlar". Tatsitdən sonra Roma tarixi kiçilərək tərcümeyi-hallara keçdi. Dəbə düşən tərcümeyi-halları Plutarx və Litsuan yazırdı.

Romaya incəsənət əsərləri ellinist Şərqdən gətirilirdi, bu ərazilər işğal olunduqca İtaliyaya araba karvanları ilə heykəllər, relyeflər və mərmər sütunlar, Yunanıstandan və Kiçik Asiyadan hərbi qənimətin bir hissəsi kimi daşınırdı. Varlıların evləri onlarla bəzədilirdi. Onlara tələbat yüksəldikcə, yüzlərlə nüsxələri yaradılırdı. Avqust özü lovğalanırdı ki, o, Romanı kərpic şəhər kimi qəbul edib, mərmər şəhər kimi qoyub həyatdan gedir. Romalıların öz istedadı sönənə qədər, onlarda köhnə ellinist təsiri qalırdı.

Romalıların xarakterini arxitektura və heykəltəraşlıq daha dəqiq ifadə edirdi. Arxitektura monumental olmaqla qüdrət və böyüklüyü rəmzləndirirdi. Tikilinin aparıcı elementləri olan qövsi tağlardan, qübbədən, kümbəzdən istifadə olunurdu. Bu vaxtlar xüsusən məbədlərin konstruksiyasında Korinf sütunlarından istifadə olunurdu. Daha çox istifadə edilən inşaat materialı kərpic, dördkünc daş bloklar və axırıncı Roma ixtirası kimi beton idi. İctimai binalara sonralar çox vaxt bəzək kimi heykəllər, fasadlar, kolonnada və ya alaqapılar əlavə olunurdu. Arxitektura əsasən istifadə məqsədlərinə xidmət edirdi. Ən görkəmli nümunələr hökumət binaları, amfiteatrlar, hamamlar, at qaçışı meydanları və özəl evlər idi. Ən iri tikililərdən biri Panteon idi, onun kümbəzi 142 fut diametrində idi, digəri isə Kolizey idi. Qladiator döyüşləri üçün tikilən bu amfiteatrda 65 min tamaşaçı yerləşirdi. Heykəltəraşlıq əsərlərinə onun başlıca formaları olan zəfər tağları və sütunlar, əhvalat relyefləri, mehrablar, portret büstləri və heykəllər daxil idi. Onların fərqləndirici cəhəti fərdi və naturalist olması idi.

Roma arxitekturasının nailiyyətləri mühəndislik zəfərləri və ictimai xidmətlərlə sıx əlaqədar idi. İmperiya romalıları heyrətləndirici yollar və körpülər tikirdilər və onların çoxu bizim dövrümüzə gəlib çıxmışdır. Trayanın dövründə Romaya yaxın təpələrdən on bir akvedukla gətirilən su şəhərin bütün tələbatını artıqlaması ilə ödəyirdi. Burada yaxşı qurulmuş kanalizasiya sistemi fəaliyyət göstərirdi. Romalılar Qərb dünyasında ilk xəstəxana tikmişdilər və dövlətin kömək etdiyi ilk səhiyyə sistemi qurmuşdular. Mühəndislikdəki bütün nailiyyətlərinə baxmayaraq romalılar elmin inkişafında az şey əldə etmişdilər. Ən məşhur Roma alimi Böyük Plini (b.e. 27-79-cu illər) idi. O, ölümündən iki il əvvəl özünün "Təbiət tarixi" adlandırdığı çox cildli elmi ensiklopediyanı başa çatdırmışdı. Bu əsər kosmologiyadan iqtisadiyyata qədər müxtəlif mövzuları əhatə edirdi. Onun materiallarının zənginliyinə

baxmayaraq Plininin bu işi məhdud qiymətə malik idi, çünki bütünlükdə faktları təxəyyüldən, fantaziyadan ayırmağa qadir deyildi. Elmi yalnız İtaliyada və ya əyalətlərdə yaşayan yunan alimləri öz işləri ilə irəli aparırdılar. Onlardan biri astronom Ptolomey idi, o, Aleksandriyada məşhurlaşmışdı. Digəri isə təbib Qalen idi. Qalen b.e. 2-ci əsrin son yarısında Romada çalışmış, özünün təbabət ensiklopediyası ilə məşhurlaşmışdı. Bu kitabda başqalarının elmi axtarışlarını sistemləşdirməklə yanaşı, öz kəşflərini də təsvir edirdi. O, qan dövranını kəşf etməyə yaxınlaşmışdı, sübut etmişdi ki, qanı arteriyalar daşıyır, yarım saat ərzində bədəndən bütün qanı çəkmək mümkündür.

İmperiya dövründə əvvəlki əsrlərə nisbətən xilas dinlərinə maraq daha dərin idi. Bu vaxt Mitraizm minlərlə ardıcıl qazandı və bu cərəyan Böyük Ana və Serapis kultlarının ardıcıllarının çoxunu özünə cəlb etdi. Yeni sektalar böyüyürdü və onlar Mitraizmin xilas dini kimi daha populyar olduğunu göstərirdi. Bizim eranın ilk əsrlərində Kapitoli ilahi qüvvələri olan Yupiter, Yunona və Minerva şərəfinə həsr olunmuş rəsmi mərasimlər Romanın keşişlər kollegiyası tərəfindən keçirilirdi. 2-ci əsrdə kelt ölkələri olan Qalliya və Britaniyada, həmçinin Afrikada və Mərkəzi Avropada qədim yerli kultlar öz intibahlarını yaşayırdı. Çox hallarda böyük allahlar həm də "siyasiləşmiş" idi. Aşağı siniflər onlara daha çox kömək edən Herkules və Silvan kimi ilahi qüvvələrə üstünlük verirdilər. Adi mövhumat bu vaxta qədər davam edirdi. Hətta 2-ci əsrin filosofu və ritoriki Apuley sehrli qabiliyyəti hesabına varlı dul qadını ələ almaq istədiyinə görə məhkəməyə verilmişdi. Severlərin dövrü isə Şərq dinlərinin zəfəri ilə əlamətdar oldu, bu vaxt sinkretizm yolunda ilk cəhdlər edildi. Sinkretizm özü ali allaha meyl edirdi.

1-ci və 2-ci əsrlər ərzində xristianlıq yavaş-yavaş yaranmağa başladı. Bizim eranın 30-cu illərində çarmıxa çəkilən İisus Xristin təlimi əvvəlcə Palestinada yəhudilər arasında yayılmaqla kök saldı. Tiberinin hökmranlığının sonunda Müqəddəs Pavelin Kiçik Asiyadakı və Yunanıstandakı moizələrinin nəticəsi kimi bütpərəstlər arasında xristianlıq yayılmağa başladı. Yerusəlimin, Aleksandriya və Suriyanın yəhudiləri arasında xristianlıq tərəqqi edirdi, tezliklə Parfiya şəhərlərinə gəlib çatdı. Bu şəhərlərdə xeyli yəhudi koloniyaları var idi. "Xristə" inam bəsləyənlərin güclü meyllərini yatırtmaq əvvəlcə Roma hakimiyyətləri üçün çətin idi. Xristianlığın ilk tərəfdarları aşağı siniflərə məxsus olan adamlar idi. Bu dinin iudaizmdən fərqli olaraq milli bağlılığı yox idi. 1-ci əsrin tarixçisi Tatsit bəyan etmişdi ki, xristianlıqla bağlı olanlar nifrət olunan insana bənzərlərdir. Xristianlar 66-73-cü illərin yəhudi qiyamında iştirak etməmişdilər və Flavilərin dövründə xristianlıq bü-

tünlüklə öz mənşələrindən ayrıldı. Xristianlar Misirdən gəlib Vifiniyada və Yunanıstanda gözə çarpmağa başladılar. Apostollar dövrü başa çatanda kilsə dövrü başlandı və 2-ci əsrdə xristianlıq ziyalılara da gəlib çatmağa başladı.

Lakin hakimiyyəti inandırmaq məsələsində xristianlar uğur qazana bilmədi. Neronun həyata keçirdiyi ilk təqib kampaniyası bir xüsusi hadisə ilə əlaqədar idi və onun heç bir hüquqi əsası yox idi. Bu hadisə isə 64-cü ildə Romada baş vermiş yanğın idi. Xristianlıq konsepsiyasının cinayət kimi qəbul edilməsi praktikası Flavilər dövründə baş verdi. Trayan isə Vifiniya valisi Kiçik Pliniyə göstəriş vermişdi ki, özünü xristian elan edənlərin hamısını öldürtsün, bu vaxt onların hansısa bir cinayət törətməsinə ehtiyac olmamasıdı. Mark Avrelinin dövründə xristianlar üçün yeni problemlər meydana çıxdı. Xristianlar dövlət allahlarına və İmperial kultlara qurban verilməsində iştirak etməkdən imtina edirdilər. Şərqdə, Romada, Qalliyada və Afrikada xristian şəhidlər meydana gəldi. Kommodun dövründə vəziyyət bir qədər yaxşılaşdı, onun ətrafında xristianlığa rəğbət bəsləyənlər var idi. Lakin bu qısa müddət sürdü. Septimi Sever ilk ardıcıl təqibləri başlatdı, Karakalla dövründə isə kilsə tərəqqi etməyə başladı.

## Roma hüququ

Romanın özündən sonrakı varis mədəniyyətlərə qoyub getdiyi ən mühüm irs hüquq sistemi sayılmalıdır. Roma hüququ öz sələfindən çox şeyi qəbul etsə də, mahiyyətcə yeni sistem idi. Axı onlar Solon qanunlarını diqqətlə öyrənmişdilər, dövlət quruluşunda Likurqun islahatlarına müraciət etmişdilər. Lakin romalılar respublika quruluşunu möhkəmləndirmək, çarlığın bərpasının qarşısını almaq üçün XII cədvəl qanunları adlanan qanunlar məcəlləsini meydana gətirdilər. Bu qanunvericilik respublika qurulduqdan yarım əsr sonra, m.ə. 451-450-ci illərdə yaranmışdı. Bu qanunlar arxaik dövrün elementləri ilə yeni dövrün tələblərindən irəli gələn hüquqi normaların sintezi idi. Bəzi məsələlərdə hətta yunanların Drakont qanunlarından da sərt xarakter daşıyırdı. Belə ki, Drakont hər cür əmlak oğurluğuna görə istər bu qiymətli bir şey, yaxud bostandan məhsul oğurlamaq olsun, ölüm hökmü nəzərdə tuturdusa, XII cədvəl qanunlarında klient münasibətlərində sədaqəti pozmağa görə ölüm cəzası nəzərdə tutulurdu. Romalıların qanunları eybəcər uşaqların öldürülməsinə icazə verirdi.

XII cədvəl qanunlarında mülki məsələlərə, mülkiyyət münasibətlərinə, ailə, nikah, qula münasibət məsələlərinə geniş yer verilir, cəmiyyətin əsas

sinifləri və qrupları arasındakı münasibətlər nizamlanır. Bu qanunda xalqın əsas hüquq subyekti olduğu bir daha qeyd edilir və göstərilir ki, Xalq yığıncağının qəbul etdiyi hər bir qərar qanun gücünə malikdir. Bu vaxtdan etibarən qanunlar Roma dövlətinin möhkəmlənməsinə xidmət etməyə başladı.

Avqust dövründən başlayaraq hüquq daha da inkişaf etdi. Hüquq bu dövrdə yalnız Roma elmi olaraq qalırdı. Bizim eranın ilk əsrlərinin ən görkəmli hüquqşünasları Qay, Ulpian, Papinian və Pavel idi. Onların əsərləri elmin və hüquq fəlsəfəsinin birləşməsindən ibarət olmaqla, sonrakı Roma hüquqşünaslığının, hüquq elminin əsası kimi qəbul edildi. Roma hüququ üç qola bölünürdü: mülki hüquq, xalqların hüququ və təbii hüquq. Mülki hüquq Roma və onun vətəndaşlarının hüququ idi, yazılı və yazılmamış şəkildə mövcud idi. Buna senatın statusu, printsepsin dekretləri, pretorların ediktləri, həmçinin qanun gücünə malik olan bir sıra qədim adətlər daxil idi. Xalqların hüququ milli mənşəyindən asılı olmayaraq bütün xalqlardan yaranan icmanı qorumaq üçün mövcud idi. Bu hüquq quldarlıq institutlarını və mülkiyyətə özəl sahibkarlığı təsbit edirdi, satış və alış, partnyorluq, kontrakt bağlamaq prinsiplərini müəyyən edirdi. O, mülki hüquqa görə üstünlüyə malik deyildi, ancaq imperiyanın əcnəbi sakinlərini hüquqlarla təmin edirdi.

Roma hüququnun ən mühüm qolu təbii hüquq idi, bu hüquqi praktikanın deyil, fəlsəfənin məhsulu idi. Stoiklər təbiətdəki rasional qayda ideyasını inkişaf etdirərək, onu ədalət və haqların təcəssümü hesab edirdilər. Onlar təsdiq edirdilər ki, bütün insanlar təbiətən bərabərdirlər, onlar müəyyən təməl haqlara malikdirlər ki, bu haqları heç bir hakimiyyət dəyişdirə bilməz. Qanuni prinsip kimi təbii hüququn atası Tsitseron idi. Bu hüquq dövlətin özü üçün hər şeydən öncə idi, çünki hansısa hökmdar bunu pozsa tirana çevrilirdi. Əslində bu böyük ideal xarakteri daşıyırdı, insanlar bunu təmin etməli idilər. Mücərrəd ədalət konsepsiyasının leqal prinsipə çevrilməsi Roma sivilizasiyasının ən nəcib nailiyyətlərindən biri idi.

## Siyasi xaos və barbar müdaxilələri dövrü

Sever Aleksandrın ölümündən II Klavdi Qotikə qədər olan dövr uzurpatorlarla və barbar müdaxilələri ilə əlamətdardır. Germanlara qarşı cəsarətlə döyüşmüş, lakin senata və kübarlara qarşı düşmənçilik nümayiş etdirən Frakiyalı Maksimindən sonra Afrikanın varlı torpaq sahiblərinin qiyamının nəticəsində Qordianlar hakimiyyətə gəldilər. III Qordian nüfuzlu qayınatasına arxalanaraq imperator elan olunmuşdu, lakin o, əsgərləri tərəfindən öldürül-

dü. Persiyalılara qarşı kampaniya vaxtı onun yerini iki ordu nümayəndəsi tutdu. Onlardan sonuncusu olan Detsi Roma ənənələrini bərpa etməyə cəhd etdi və xristianların təqibini davam etdirdi. Lakin Qara dəniz yaxınlığındakı döyüşdə qotlar tərəfindən öldürüldü. Bundan sonra taxt-taca senator Valerian və onun oğlu Qallien gəldi.

İqtisadi qeyri-stabillik imperator hakimiyyətinin böhranı ilə daha da dərinləşirdi. İmperatorlar çox tez-tez dəyişirdi, taxt-taca çoxlu iddiaçıların meydana gəlməsi onların arasında hakimiyyət üstündə kəskin mübarizəyə səbəb olurdu. Bütünlükdə bunlar hamısı imperiyanın zəifləməsinə gətirib çıxarırdı və nəticədə imperiya eroziyaya uğrayırdı, parçalanırdı, tədricən dağılırdı.

İmperator Valerian tərəfindən edam edilmiş xristian icmasının yepiskopu Kiprian yazırdı ki, quldurlar yolları tutmuş, dəniz quldurları tərəfindən isə dənizlər bağlanmışdır, hər yerdə müharibədir, hərbi düşərgələrdir, qanlı dəhşətlərdir. Bütün dünya qarşılıqlı qaydada tökülən qanlarla suvarılır və insan qətli yalnız ayrı-ayrı adamlar tərəfindən həyata keçirildikdə cinayət hesab olunur, əgər bu açıq şəkildə həyata keçirilirsə igidlik adlanır. Xətalara görə cəzasızlıq təsirsizliyə görə deyil, cinayətin dəhşəti ilə təmin edilir. Cinayəti nəinki edirlər, həm də onu etməyi öyrənirlər. Cinayət qanunlar qarşısında baş verir, hüquqlar tapdalanır. Hətta müdafiə olunmalı yerdə belə təqsirsizlik qorunmur. Bir insan bədəninə, onun orqanlarının sayından çox cəza tətbiq edilir. Hakimlər hökmləri ilə alver edirlər. Kim ki, cinayətin qarşısını almalıdır, o, özü cinayət edir, günahsız müttəhimi məhv etmək üçün hakim özü də günahkar olur. Qanun qarşısında heç bir qorxu yoxdur. Nə satıla bilirsə, o da qorxu təlqin edir.

Valerian xristianların təqibini genişləndirdi, lakin məhvedici kampaniya vaxtı o, persiyalılar tərəfindən əsir götürüldü, elə əsirlikdə də öldü. Onun oğlu təkbaşına hökmranlıq etdikdə çox sayda müdaxilələrlə və bir neçə uzurpatorlarla qarşılaşdı. 262-ci ildə Milanda qələbə çalmışdı, lakin Şərqi himayə etmək məsələsinə başı qarışdığından, Qalliya imperiyasının və Palmira çarlığının formalaşmasına dözməli oldu.

Atasının ölüm xəbərini aldıqdan sonra xristianların təqibinə son qoydu, ideya mübarizəsinə yol açdı. Onun vətənpərvər senatorlar və generallar arasında düşmənləri artırdı. Özünü II Klavdi kimi imperator elan edən uzurpator onu mühasirəyə alanda, Qallien öz qərargah başçısı tərəfindən öldürüldü. II Klavdi isə alemanlar və qotlar üzərində qələbə çaldı və iki il hökmranlıq etdikdən sonra taun xəstəliyindən öldü.

Hakimiyyətə yüksəlmənin qanuni prinsiplərinin olmamasına görə siya-

sətdə ordu ağalıq edirdi. Güclü printsipat yaratmış quruluş zəiflədi. İslahatlar vacib olanda imperiya onları da həyata keçirmək üçün zəif idi. Getdikcə barbar müdaxilələri də fasilə vermirdi. Qotlar və digər tayfalar cənuba yürüş etdikdə Roma sərhədlərinin içərisinə girirdilər. Qərbdəki müdaxilələr xüsusən zorakılıqla müşayiət olunurdu. Alemanlar Roma vadisindən keçərək Aralıq dənizinə çatdılar. Onlar ölkənin şərq hissəsini viranəyə döndərmişdilər. Bir sıra hərbi müdaxilələr xalqı qorxutmuşdu, ona görə də istənilən imperatoru qəbul etməyə hazır idi.

Bu dövrdə Palmira çarlığında hökmdar öldürüldükdə onun yerini oğlu tutsa da, hakimiyyət onun arvadı Zenobiyanın əlində idi. Zenobiya Misirə və Kiçik Asiyanın bir hissəsinə müdaxilə etməklə Roma ilə əlaqələrini kəsdi. Bu vaxt həm də Mesopotamiya itirildi və Fərat imperiyanın yeni sərhədinə çevrildi.

Qallienin hökmranlığının sonunda müdaxilələr və vətəndaş müharibələri iqtisadi və sosial böhranı daha da dərinləşdirdi. Bir çox regionlar viranə qoyulmuşdu, bir sıra mühüm şəhərlər qarət edilmiş və dağıdılmışdı. Quruda və dənizdə quldurluq artmışdı. 3-cü əsrin ortasından başlayan və 20 il davam edən taun xəstəliyi əraziləri viranə qoymuşdu. Bunlar əhalinin sayının azalmasına səbəb oldu. Bütünlüklə imperiya dilənçi vəziyyətinə salınmışdı, uzaq ərazilər inkişaf etməkdə davam edirdi. İmperiya mühasirəyə alınmış istehkama bənzəyirdi. Bu dövrdə ordu barbarlara qarşı imperiyanın dayağı olmaqla yanaşı, İmperial hakimiyyətin qoruyucusu idi.

284-cü ildə Diokletian imperator olmaqla xaos dövrünə son qoyuldu. 235-284-cü illər çox hallarda "Barak imperatorları" dövrü adlanır. Bu imperatorlar bir qayda olaraq orduların istəyinin və rəqib generalların ambitsiyalarının qurbanları olurdular. İddiaçılar və yerli hökmdarlar müstəsna olmaqla bu dövrdə 12 imperator gəlib keçmişdi. Diokletian imperator olduqdan sonra müxaliflərini uzaqlaşdırmağa müvəffəq oldu. Onunla "Axırıncı Roma imperiyası" adlanan dövr başlandı.

# FƏSİL 2
# ROMA DÜNYASININ TRANSFORMASİYASI. İMPERİYANIN YENİDƏN QURULMASI

Fərasətli sərkərdə-imperator Diokletian hökmranlığına başlayan kimi imperiyanın yenidən qurulmasını həyata keçirdi, bu onun ömrünü bir qədər uzada bildi. Bundan sonra da 4-cü əsr ərzində Roma dövləti Aralıq dənizini əhatə etməkdə qalırdı. Ona görə də Diokletian sonrakı imperiyanın həqiqi banisi hesab edilə bilər. Onun qurduğu idarəetmə forması olan tetrarxiya - dörd şəxsin eyni vaxtda hakimiyyətə şərik olması ötüb keçən institut idi. Lakin onun islahatları uzun müddət davam etdi. Tetrarxiya iki qrupu əhatə edən imperatorlar kollegiyası idi, onlardan ikisi Avqust titulu ilə yaşlı, ikisi isə Sezar titulu ilə gənc olurdu. Birincilər qərar verənlər, ikincilər isə icra edənlər idi. Bu dördlükdən yalnız Diokletian dövlət xadimi idi. Bu vaxt həm də imperiyanın birliyi qorunurdu, çünki həmin sistem yaradılarkən ərazi bölgüsünə yol verilməmişdi. Hər bir imperator öz öhdəsinə qoşun və əməliyyat üçün bölmə alırdı. Diokletiana Şərq düşmüşdü. Lakin bütün idarəetmə qərarları Diokletian tərəfindən verilirdi, digərləri də öz hakimiyyətlərini ondan alırdılar. Bu yolla o, uzurpatorlardan qaçmağa nail olurdu.

Lakin hələ də gələcək rəqiblərdən qorunmaq lazım gəldiyindən tetrarxiyanın qanuni və nizamlı qaydada varisliyi zəruri idi. Diokletian bu məsələnin də orijinal həll yolunu tapmışdı. Ona görə də öz hökmranlıqlarının 20 illik yubileyi bayram edilərkən ikisi istefaya getdiyinə görə iki yeni imperator seçildi. Diokletian istirahətə yollanıb tərəvəz becərməklə məşğul oldu. Təbəələr və inzibatçılar arasında daha səmərəli birlik yaratmaq məqsədilə Diokletian əyalətlərin sayını artırmışdı. Hətta İtaliya sayca ondan çox əyalət tipli birliklərə bölündü, bununla da İtaliyanın imtiyazlarına son qoyuldu. Roma artıq imperiyanın səmərəli paytaxtı rolunu oynaya bilmirdi. Hər imperator imperiyanın hansısa bir hissəsində öz iqamətgahına malik olurdu. Belə iqamətgahlar Trirdə, Milanda, Nikomediyada yaradılmışdı. Əksər əyalətlər atlı prezidentlərə verilmişdi, şəhərlər öz muxtariyyətini itirmişdi.

Sərhədlərin möhkəmləndirilməsinə böyük diqqət verilirdi, istehkamlar qurulurdu. Ordu 60 legiona qədər böyümüşdü. O, birbaşa imperatora tabe olan rüşeym şəklindəki taktiki ordu yaratdı. Bu qüvvə müşayiət xidməti göstərirdi. Bu dövrdə uzurpasiya cəhdləri yatırdılır və müdaxilələrə təsirli cavab verilirdi.

307-308-ci illərdə böyük qarışıqlıq hökm sürdü. Bu vaxt yeddi imperator Avqust titulunu almışdı, ya da almalı idi. Bu qətllər və ölüm seriyası ilə öz həllini tapdı. İmperiya iki liderlə - Konstantin və Litsini ilə qaldı, axırıncı Konstantinin bacısına evlənməklə, onunla qohum olmuşdu. 316-cı ildə artıq on ildən çox dövlət idarəçiliyindən ayrılmış Diokletian öldü. Aralarında atəşkəs elan olunan Konstantin və Litsini öz sülalələrini hifz etmək üçün oğlanlarından üç potensial Sezar təyin etdilər, onların hər üçü körpə olmaqla ikisi Konstantinin, biri isə Litsininin oğlu idi. Sonra Kiçik Asiyada məğlub olan Litsini oğlu ilə birlikdə edam edildi. Konstantinin üçüncü oğlu da Sezar edilməklə ikinci Flavilər sülaləsinin əsası qoyuldu, Flavi, Konstantinin atası hesab olunurdu.

Konstantin xristianlara yaxşı münasibət bəsləyirdi və özünün də xristianlığa keçməsi uzağa aparıb çıxaran bir effekt verdi. Xristianlıq o vaxta qədər azlığın dini idi, xüsusən də Qərbdə və kənd yerlərində xristianlar az idi. Lakin onun bu hərəkəti Şərqdə sevinclə qarşılandı, Konstantinin hesabına yeni din sürətlə zəfər çaldı. Təqib edilən kilsə hüsn-rəğbət bəslənilənə çevrildi. Bütpərəstlər təqib edilməsə də, bir sıra sitayişlər qadağan olundu, məbədlər qarət edilirdi.

325-337-ci illərdə Konstantin Diokletianın işini davam etdirərək bir sıra islahatlar həyata keçirdi. Onun buraxdırdığı qızıl sikkə - solidus stabilliyinə görə gələcəkdə Bizans imperiyasının əsas valyutasına çevrildi. Konstantinin ölməzliyi isə ancaq Konstantinopol şəhərinin əsasını qoymaq üzərində dayanır. Bu "yeni Roma" 324-cü ildə Vizantiya tərəfdə  tikilməyə başlandı və 330-cu ildə bu adı almaqla immiqrantların hesabına sürətlə öz əhalisini artırdı. Burada çox sayda kilsələr tikildi, həm də köhnə məbədlər də uçurulmadı. Şəhər senata və prokonsula malik olmaqla imperiyanın inzibati mərkəzinə çevrildi.

Şəhərin bu yerdə salınması strateji və iqtisadi faktorlarla əlaqədar idi. Burada Bosfor boğazı ilə iki qitə yolu birləşirdi. Bu şəhər həm də bütpərəst köhnə Romanın yeni xristian rəqibi kimi meydana çıxdı və 1453-cü ildə Osmanlı sultanı Mehmet Fateh tərəfindən işğal edilənə qədər, min ildən artıq bir müddətdə bu ad altında yaşadı.

Konstantin 337-ci ildə öldükdən sonra onun oğlanları atalarının xatirəsinə sədaqətli qalan ordunun köməyi ilə imperiyanı öz aralarında parçaladılar - II Konstantinə Qərb, Konstantsiyə Şərq, kiçik qardaş Konstanta isə mərkəzi prefektura - İtaliya, Afrika və İlliriya düşdü. İki qardaş öldürüldükdən sonra Konstantsi imperiyanı Avqust kimi təkbaşına idarə etməyə başladı. Onun

varisliyə götürdüyü Yulian uzurpasiyaya əl atdıqda, axırıncı Avqust elan edildi. Konstantsinin ölməsi ilə vətəndaş müharibəsinin qarşısı alındı, imperiya Yuliana qaldı və o, Konstantinlər sülaləsindən axırıncı hökmdar oldu.

Yulian gizli qaydada xristian dininə dönüklük etmiş, 361-ci ildə isə təkbaşına imperator olanda özünün bütpərəstliyini elan etmişdi. O, Günəşə və Kibelaya sitayiş edirdi, Homerə və Platona pərəstiş edirdi. O, öz sələflərinin islahatlarından geriyə qayıtmaq istəyirdi. Saray xidmətçilərinin sayını və xərclərini azaltdı. O, özü də bir asket həyat tərzi qaydasında yaşayırdı. Munistipialların mülkiyyətini bərpa etdi.

Yulian Trayanın arzusunu həyata keçirmək məqsədilə Persiyanı birdəfəlik məğlub etmək istəyirdi. O, hücumçu müharibəyə başladı, lakin ordusu zəif idi, böyük saydakı xristianlar tərəfindən pozulmuşdu. O, Ktesifon yaxınlığında məğlub edildi, öz canını isə qaçmaqla qurtardı. Yuxarı Mesopotamiyaya geri çəkilməyə məcbur oldu və bir toqquşmada yaralanıb 363-cü ildə öldü, bu vaxt onun 31 yaşı var idi. Onu çox sevirdilər, hər cür çətinliklərə üstün gələ bilirdi. O, heç vaxt pula, sərvətə tamahkarlıq göstərmirdi, güman edirdi ki, pullar öz sahiblərində yaxşı saxlanır.

Yulian öləndən sonra dövlətin idarə olunması onun silahdaşlarından birinə həvalə edildi. O, Persiya şahı Şapurla müqavilə bağladı və müqaviləyə görə işğal edilmiş ərazilərin yaxşı hissəsini itirdi. Onun hökmranlığı cəmi bir il çəkdi və o, öldü. Zabit Valentinian ordu qərargahı tərəfindən imperator seçildi. O, ölkəni avtoritar qaydada idarə edirdi, qiyamları yatıra bildi. Qəfil ölümü ilə Qərb onun oğlu Qratianın idarəçiliyinə keçdi, lakin ordu onun ögey qardaşını - dörd yaşlı uşağı imperator elan etdi.

Qratian, Şərqin öldürülən imperatorunun yerinə Teodosini təyin etdi. Bir az sonra Qratian da Lionda öldürüldü. 388-ci ildən isə Teodosi Qərbi və Şərqi idarə etməyə başladı. Lakin yeddi ildən sonra onun qəfləti ölümü imperiyanı bölünməyə məruz qoydu.

Konstantindən sonra inzibatçılıq desentralizasiya edildi və onlara nəhəng hakimiyyətə malik olan pretorian prefektləri başçılıq edirdi. Hər şeydən əvvəl Qərbi və Şərqi fərqləndirmək lazım gəlirdi. Qərb tənəzzüldə idi, burada barbarların müdaxilə qorxusu böyük idi. Digər tərəfdən Şərq müdaxilələrə az məruz qalırdı.

## German müdaxilələri və Roma imperiyasının Qərbdə süqutu

Teodosinin ölümündən sonra onun oğlu gənc Honori Qərb imperiyasını idarə etdi. Ona idarəçilikdə və xüsusən Şərqlə birliyi saxlamaqda təcrübəli dövlət xadimi və general Stilixo kömək edirdi. Stilixo bir çox hadisələrə müdaxilə etmək istəyirdi, lakin vestqotların başçısı Alarixdən gələn təhlükə onun qarşısını kəsirdi. Onlar bir-birini yaxşı tanıyırdılar. İmperiyanın iki hissəyə bölünməsi bu vaxt artıq ardıcıl davam edən işə çevrilmişdi.

Honori Ravennada oturурdu, bu şəhər Milandan daha asan müdafiə olunurdu. Alarix Romanın özünə hücum etdi. Şəhər üç gün ərzində qarət edildi. Bununla da Qərb tarixi erasına son qoyuldu. Bu hadisə 410-cu ilin avqustunda baş vermişdi. Lakin keşiş Ariusun təriqətinin ardıcılı olan Alarix kilsələrə toxunmadı, bir qədər sonra isə Cənubda öldü və onun varisi yarımadanı tərk etdi.

406-cı ilin son günündə isə hunların dəhşətə səbəb olan irəliləməsindən qaçan vandallar, alanlar və başqa tayfalar donmuş Reyn çayını keçib, Qalliyaya yayıldılar. Sonrakı illərdə bu barbarlardan çoxu İspaniyaya gəlib çıxdı və burada məskunlaşdı. Roma generalı Konstantsi Qalliyada bir neçə uzurpatoru məhv etdi, lakin o, frankları, alemanları qovmağa qadir deyildi. O, öldükdən sonra oğlu III Valentinian 423-cü ildə Honoriyə varislik etdi və onun hökmranlığı 455-ci ilə qədər davam etdi.

## Xristianlığın meydana gəlməsi və zəfəri

Xristian dini öz adını onun yaradıcısı İisus Xristdən götürür. Bundan əvvəlki dini təlimlər öz adlarını öz banilərindən Zoroastrdan, Buddadan götürdüyü kimi, İudeyada meydana gələn xırda sektadan böyüyən sonrakı dünya dini öz sələflərinin yolu ilə getmişdi. Xristos yunanca "yağ sürtülmüş" demək idi və bu onun yəhudilərin çarı olacağına işarə idi.

İisus İudeyadakı Betlehemdə anadan olmuşdu, doğum tarixi isə heç də Xristian erasının başlanğıcı ilə üst-üstə düşmür. O, anadan olanda İudeya çarı Böyük İrod yeni doğulan oğlan uşaqlarının öldürülməsinə göstəriş vermişdi, çarın özünün m.ə. 4-cü ildə öldüyü məlum olduğundan, İisus yəqin ki, m.ə. 6-cı ildə anadan olmuşdur. Bu vaxt İudeya Roma hökmranlığı altında idi. Buradakı atmosfera siyasi narazılıq və dini canlanma yaratmaya bilməz-

di. Bir sıra adamlar yəqin ki, fariseylər, yəhudi qanunlarını qoruyub saxlamaq üçün səbrsizliklə siyasi messiyanın gəlməsini gözləyirdilər ki, o, yəhudiləri Romadan xilas edəcəkdir. "Zealotlar" adlanan qatı ekstremistlər isə ümidlərini Romanı silahlı qüvvə ilə devirmək istəyən siyasətçilərə bağlamışdılar. Bir sıra qruplar isə ümumiyyətlə siyasətçilərlə maraqlanmırdılar. Onların tipik nümayəndəsi olan essinlər asketizm, tövbə etmək və mistik şəkildə Allahla birlik vasitəsilə ruhi azad olmağa ümid bəsləyirdilər. İisusun təlimi də daha çox sakit istiqaməti götürmüşdü. O, öz fəaliyyətinə Nazaretdə başlamışdır.

İisus barədə məlumatlar Yeni Vəsiyyət adlanan dörd İncildən götürülür. Onlardan ən erkən yazılan Marka məxsus olmaqla, İisusun ölümündən otuz il sonra meydana gəlmişdir, ən axırıncısı isə b.e. 100-cü ilinə yaxın yazılmışdı. Kitablar doğrudan da qeyri-dəqiq məlumatlarla və əfsanələrlə doludur. Bunun obyektiv səbəbləri olsa da, daha çox yeni inamın fövqəltəbii gücə malik olduğunu bəyan etmək məqsədini güdürdü. Digər tərəfdən, bu məlumatlar gözlə görünən şəhadətlərə əsaslanmırdı və heç vaxt faktiki xəbərlər hesab olunmurdu. Müəllifliyi Matfeyə, Marka, Lukaya və İoanna aid edilən İncillərin arasında müəyyən fərq olsa da, İisusun dünyaya gəlməsi, xaç suyuna çəkilməsi, möcüzələri, fariseylərlə mübahisələri və moizələri, hətta ölümü barədəki məlumatlarda elə bir prinsipial fərq yoxdur. Müəlliflər İisusun messiya fəaliyyətinə özünü həsr etməsi məsələlərində də eyni qaydada çıxış edirlər.

İisusun dərin zəkası, dünyanı dərk etmək qabiliyyəti hələ uşaq yaşlarında özünü büruzə verirdi. Hər il Pasxa bayramı vaxtı o, valideynləri ilə birlikdə Yerusəlimə gedərdi. 12 yaşlı uşaq olanda valideynləri itirdikləri oğlanlarını axtaranda onu məbədin həyətində alimlərə qulaq asan və onlara suallar verən vaxt tapmışdılar. Hamı onun idrakına və cavablarına heyran olmuşdu. İisusun onu axtardıqlarını söyləyən valideynlərinə dediyi: "Niyə siz məni axtarırsınız? Siz bilmirdiniz ki, mən atamın evindəyəm?" sözlərinin mahiyyətini onlar heç başa düşməmişdilər də. Yaşa dolanda əxlaqi islahat moizə edən İoann Baptist məhz messiyanı nəzərdə tutaraq "Mən sizi su ilə xaça çəkirəm, lakin məndən daha böyük olan biri gələcəkdir, mən onun ayaqqabısının bağını açmağa layiq olmayacağam. O, sizi Müqəddəs Ruhla və odla xaça çəkəcəkdir" sözlərini deyib, İisusu da xaç suyuna çəkmişdi. Bu vaxt İisusun 30 yaşı var idi. Bundan sonra o, öz missiyasını həyata keçirməyə başladı.

İisus öz moizələrinin səmərə verəcəyinə inanırdı, lakin bunun çətin maneələrlə üzləşəcəyini də yaxşı anlayırdı. O, öz ideyalarının başa düşülməyə-

cəyini, qəbul edilməyəcəyini də aydın şəkildə güman edirdi. Öz sözlərinin təsir qüvvəsini və maddi qüvvəyə çevrilmək imkanlarını nəzərdə tutaraq bir pritçasında demişdi: "Bir adam taxıl səpməyə getdi. O, toxumları tarlada torpağa atanda onların bir neçəsi çığırın üstünə düşdü, onlar tapdandı və quşlar götürüb onları yedi. Bəziləri daşın üstünə düşdü, cücərtiləri rütubət olmadığından soldu. Digər toxumlar tikan kollarının arasına düşdü, cücərti böyüyəndə kol onu sıxıb məhv etdi. Başqa toxumlar isə münbit torpağa düşdü. Onlar baş qaldırdı və məhsul verdi, hər biri yüz dən verdi". İisus toxum deyəndə öz sözlərini nəzərdə tuturdu və münbit torpaq kimi onun ideyalarını qəbul edən könülləri düşünürdü. İisus hiss edirdi ki, məhz belə könüllər onun ideyalarını, təlimini yaymaqla geniş əraziləri əhatə edəcəkdir. Ona görə də öz sözlərini belə yekunlaşdırmışdı: "Əgər qulaqlarınız varsa, eşidin!" Təəssüf ki, öz dövründə onun moizələrinə məhəl qoymayanlar ona diqqətlə qulaq asıb ardıcılı olmağa keçənlərdən qat-qat çox idi.

İisus özünün ən məşhur Dağüstü moizəsində insanları yer üzünün duzu, dünyanın nuru adlandırırdı. Lakin İisusun özü min illərlə ölçülən bir müddətdə ürəklərə, könüllərə və şüurlara nur səpir, insanları xeyirxahlığa və yaxşılığa səsləyir. O, bəşər övladını günahlardan, qüsurlardan uzaqlaşmağa çağırır. Axı İisus bütün bəşəriyyət üçün, onun günahlarını yumaq üçün özünü qurban vermişdi. O, adamların mənəvi dünyasının evini yalan qumunun üzərində deyil, insanlıqdan və müdriklikdən xəbər verən qayanın üstündə tikməyi məsləhət görürdü, çünki belə ev nə yağışdan, nə tufandan, nə külək əsməsindən yıxılmayacaqdır. Bəşəriyyət dünya adlı belə evdə yaşasa şərəfli həyat sürməyə başlayacaqdır. İisus öz mənəvi prinsipləri ilə insanların daxili aləmini təmizləməyə, saflaşdırmağa çalışır.

Özünün bəşəriyyəti günahdan xilas etmək missiyasına inanan İisus tamahkarlığı və pozğunluğu məhkum edir, Allaha və yaxın adamlara məhəbbəti tövsiyə edir. O, öz ardıcıllarını Allahın ata olmasına və bəşəriyyətin qardaşlığına, Qızıl hökmranlığa ("başqalarına onların sənin özünə nə etmək istədiyini et"), öz düşmənini bağışlamağı və sevməyi, şərə yaxşılıqla cavab verməyi, riyakarlıqdan qaçmağı, dini mərasimlərə müxalif olmağı, dünyanın labüd sonluğunun gəlməsini və ölülərin dirilməsini və göylər səltənətinin qurulmasını öyrədirdi.

İncillər İisusun edam edilməsini, çarmıxa çəkilməsini dramatik səhnələrlə təsvir edir. O, Yerusəlimdə öz moizələrinə başlayanda bu İudeyanın baş şəhərinin və dini mərkəzinin dini liderləri onun formaya və mərasimlərə nifrətinə görə tezliklə İisusa əks çıxdılar. Onlar İisusu həbs etdirdilər, onu it-

tiham etdilər və Roma valisi Ponti Pilata təhvil verdilər ki, ona hökm çıxarıb həmin hökmü icra etdirsin. Bəzi alimlər onun ölüm ləkəsini bu işə cavabdeh olan romalının üstündən götürüb buna birbaşa əlaqəsi olmayan yəhudilərin üzərinə qoymaq istəyirlər. Digərləri isə güman edir ki, Pilat İisusun ölüm hökmünə layiq bir iş görmədiyinə görə, həmçinin Pasxa bayramı olduğuna görə bu məsələnin həllini xalqın ixtiyarına buraxmışdı və yerusəlimlilər qatı cinayətkarın əfv edilməsinə razılıq verib İisusun edam edilməsinə tərəfdar çıxdılar və onların bilavasitə tələbi ilə İisus çarmıxa çəkildi. Pilat isə əslində onu azad etmək istəyirdi. Axı Qolqofaya gedən yol boyu Roma əsgərləri ilə yanaşı şəhərin kütləsi onu ələ salırdı, təhqir edirdi. Yəhudilər İisusun qəddarcasına çarmıxa çəkilməsini əsasən böyük razılıqla müşahidə edirdilər.

İisusun ölümü ilə onun ardıcılları öz ümidlərinin sona çatdığını güman edirdilər. Lakin bir neçə gün sonra bu ümidsizlik yoxa çıxmağa başladı və belə şayiələr yayılmağa başladı ki, müəllim sağdır və özünün sədaqətli şagirdləri onu görmüşlər. İisusun şagirdləri onun dirilməsinə nəinki inandılar, hətta deyirdilər ki, dörd gün ərzində yer üstündə gəzmiş, sonra isə həqiqi ilahi varlığa çevrilmişdir. O, Allahın ilahi Oğlu kimi yer üzünə göndərilmişdi ki, bəşəriyyətin günahına görə əzab çəksin və ölsün, ona görə də üç gün sərdabədə qaldıqdan sonra dirilmiş və göyə qalxmışdır. O, bir də zamanın sonunda yenidən gələcəkdir ki, dünyanı mühakimə etsin.

Xristianlıq İisusun bir sıra ardıcılları, xüsusən apostol Pavel tərəfindən daha dərin ilahiyyatla genişlənmiş və zənginləşmişdir. Tarsdan olan Saul kimi tanınan Pavel (b.e. 10-67-ci illər) palestinalı olmasa da, yəhudi kimi Kiçik Asiyanın cənubunda anadan olmuşdu. Əvvəllər o, xristianları təqib etmiş, sonralar xristianlığa keçmiş və özünün hədsiz-hüdudsuz enerjisini bütün Yaxın Şərqdə bu dinin təbliğinə həsr etmişdi. O, İisusun sadəcə yəhudiləri xilas etməyə göndərildiyini inkar edərək bəyan edirdi ki, xristianlıq universal dindir, kainat dinidir. O, İisusun Xrist olmasını xüsusi ilə vurğulayırdı ki, ona Allah-insan kimi yağ sürtülmüşdü, onun çarmıxda ölümü bəşəriyyətin günahlarının yuyulması idi. O Qanunun (başqa sözlə yəhudi ritualizminin) əsərlərini təkcə dindəki mühüm əhəmiyyət kəsb edən əsas kimi rədd etmirdi, həmçinin elan edirdi ki, onlar xilası təmin etmək üçün bütünlüklə yararsızdır. Təbiəti üzrə günahkar olan insan məxluqu yalnız inamına görə və Allahın mərhəməti hesabına xilas ola bilər. Pavelə görə həyatda insanın taleyi demək olar ki, bütünlüklə Allahın iradəsindən asılıdır.

Əgər İisus Allah səltənətinin labüd gəlişini elan edirdisə, Pavel dinin əsasında Xrist və kilsə xidməti vasitəsilə fərdi xilası qoyurdu. Baxmayaraq ki,

Paveldən sonra xristianlıq həm mərasimləri, həm müqəddəslikləri inkişaf etdirdi, iman gətirənləri Xristə və bu müqəddəsliklərə inzibatçılıq etmək üçün yaranan keşiş təşkilatlarına yaxınlaşdırdı. Həmin keşişlər fövqəltəbii hakimiyyətə yiyələnirdilər.

Xristianlıq Xristin ölümündən iki il sonra tədricən böyüyürdü, lakin yalnız real olaraq inkişaf etməyə 3-cü əsrdə başladı. Roma tarixində 3-cü əsr "narahat dövr" hesab olunurdu. Qatı siyasi qarışıqlıq və iqtisadi çətinliklər dövründə xalq yer üzərindəki həyata illyuziya kimi baxmağa başladı və öz ümidlərini o dünya ilə bağlayırdı. İnsan bədəni və maddi dünya daha çox şər və ya əsas etibarilə qeyri-real kimi qiymətləndirilirdi. Əvvəlcə xristianlıq mitraizmdən və misirlilərin kultları olan İzida və Serapisdən fərqlənsə də, bu dinlərdən biri idi. 3-cü əsrdə xristianlıq öz rəqiblərindən dönənləri qəbul edirdi. Xristianlıq köhnə dinlərdən, xüsusən iudaizmdən bəzi elementləri qəbul etmişdi, yeni din olduğundan dinamizm ruhuna malik idi. Xristianlığın dinamizmi həmçinin onun sərt müstəsnalığı ilə böyüyürdü. Xristianlıq əvvəllərdə mövcud olan çox dini qəbul etmək qaydasını qadağan etdi və tələb edirdi ki, yalnız xristian Allahına sitayiş etmək lazımdır. Xristianlıq öz rəqibləri arasında yeganə din idi ki, yer üzərindəki şərin geniş əhatəli nəzəriyyəsini ifadə etmişdi.

Xristianlıq öz yaranışından məzlum adamların - xarratların, balıqçıların, çadır düzəldənlərin dini olmaqla aşağı siniflərə yüksəliş vəd edirdi. Din böyüdükcə az sayda varlı adamlara da malik olurdu, lakin öz böyük gücünü aşağı və orta siniflərin arasında tapırdı, onlar isə Roma imperiyasında böyük sayda idilər. Bununla yanaşı, xristianlıq qadınlara keşiş olmağı və ya din məsələsini müzakirə etməyi qadağan etsə də, qadınlara çox sayda düşmən münasibətini qəbul etsə də, ən azı qadınlara sitayişdə iştirak etmək və xilas üçün bərabər qaydada ümid bəsləmək kimi bəzi hüquqları verirdi. Bu fakt xristianlığa onu öz kultundan bütünlüklə xaric edən Mitraizmdən üstünlük verirdi. Üstəlik bütün bunlara, xristianlığın uğuru üçün axırıncı səbəb olan onun təşkilatı əlavə olunurdu. Rəqib sehrli dinlərdən fərqli olaraq bu din 3-cü əsrdən etibarən mütəşəkkil keşiş ierarxiyasından birbaşa iman həyatına keçdi. Xristian dini qardaşlığa sıx bağlanmış icmalar idi və öz üzvlərinə xidmətlər göstərirdi. Bu xidmətlərə xəstələrə qulluq, himayə olunmayanlara kömək, dəfni təşkil etmək daxil idi. Xristianlığı qəbul edənlər insan əlaqələrinə və missiya düşüncəsinə yiyələnirdilər, bu vaxt dünyanın qalan hissəsi onların qarşısında süqut edən kimi görünürdü.

Xristianlar heç vaxt Romada düşünülən kimi qəddarlıqla təqib olunma-

mışdılar. Onlara adətən dözümlülük göstərilirdi. Bir sıra magistratlarda onlar yalnız rəsmi dövlət allahlarına sitayişdən imtina etdiklərinə görə təqib olunurdular. Bəzi vaxtlarda təqib güclənirdi, bu onlara elə bir ziyan vurmasa da, əksinə onlara ictimai nüfuz qazandırırdı. Şəhidlərin qanının axıdılması faktları var idi. Axırıncı böyük təqib Diokletianın hökmranlığının sonuna yaxın baş vermişdi. Bu onun bilavasitə varisləri tərəfindən, xüsusən xristianlığın qatı düşməni sayılan Qaleri tərəfindən davam etdirilmişdi. Lakin o vaxt din elə güclənmişdi ki, onu təqiblə süpürüb atmaq mümkün deyildi. Bu da bir faktdır ki, Qaleri özünün 311-ci ildəki ölümündən əvvəl dözümlülük haqqı barədə edikt dərc etdirməklə nəticədə bu dini tanımışdı. Ondan sonra Roma dövləti tərəfindən xristianlığa təqib olunmaqdan daha çox dəstək verilirdi.

Roma imperiyası tərəfindən xristianlığın qəbul edilməsinin təşəbbüsçüsü Konstantin idi və bu işi Teodosi başa çatdırdı. Konstantin onu imperiyanın rəsmi dini etməmişdi, lakin ona açıqca hüsn-rəğbət bəsləyirdi. O, ümid edirdi ki, xristianlıq imperiyaya ruhi birlik gətirəcəkdir, çünki bu vaxt imperiya çox pis qaydada demoralizə olunmuşdu və dini nöqteyi-nəzərdən parçalanmışdı. Onun varislərindən bəziləri xristian dinini qəbul etdilər, bundan sonra bütpərəstliyin təqibi, keçmiş bütpərəst imperatorların vaxtında xristianların təqib edilməsindən daha qəddar xarakter aldı. Dövlət tərəfindən dəstəkləndiyinə görə adamlar asanlıqla bu inanca keçirdilər. Ona görə də 4-cü əsr 3-cü əsrə nisbətən siyasi cəhətdən daha stabil idi. İmperiyanın yenidən qurulmasının ağır yükü aşağı siniflərin çiyninə düşürdü və onlar daha çox ümidsizliyə qapılırdılar. Xristianlar Konstantinin dönmə vaxtında Roma imperiyası əhalisinin 20 faizindən azını təşkil edirdi, dövlətin dəstəyi ilə çox tezliklə əksəriyyət çoxluğa malik oldular. 380-ci ildə Böyük Teodosi bütün təbəələrinin xristianlığın ardıcılı olması barədə edikt imzaladıqda, bütpərəstlik artıq yoxa çıxmışdı, tezliklə Roma səltənətinin kənd yerlərindən də silindi.

Roma imperiyasında yeni inam hakim kəsilməklə fikir, təşkilat və davranış formalarında böyük dəyişikliklər əmələ gəldi. Kilsənin özünün də daxili təşkilatı çox mürəkkəb idi. Xristianlıq zəfər çalmamışdan əvvəl yepiskopun keşişlər üstündəki aliliyi tanınmışdı. Xristian təşkilatı şəhərlərdə mərkəzləşirdi. Yepiskopların özlərinin arasında dərəcə fərqləri yarandı. Qərargahları baş şəhərlərdə yerləşən yepiskoplar arxiyepiskoplara çevrildilər. 4-cü əsrdə patriarxın yüksək rütbəsi ən köhnə və ən iri xristian icmalarında - Roma, Yerusəlim, Konstantinopol, Antiox və Aleksandriya kimi şəhərlərdə meydana gəldi. Artıq 400-cü ildən xristian ruhaniləri patriarxların, arxiyepiskopların,

yepiskopların və keşişlərin dəqiq ierarxiyası yarandı. Bütün bu inkişafların son nöqtəsi Roma yepiskopunun birinciliyinin böyüməsi və ya başqa sözlə Papalığa yüksəlməsi oldu. Bir neçə səbəbə görə Roma yepiskopu kilsənin digər patriarxları üzərində üstünlüyə malik idi. Bu şəhər apostollar Pyotr və Pavelin missioner fəaliyyətinin səhnəsi olmuşdu. Belə bir ənənə qəbul olunmuşdu ki, Pyotr Roma yepiskopluğunun əsasını qoymuşdu və o vaxtdan etibarən bütün onu əvəz edənlər onun səlahiyyətlərinin və nüfuzunun varisləri hesab olunurdu. Bu ənənə belə nəzəriyyə ilə də möhkəmlənmişdi ki, Xrist Pyotra yer üzərində öz keşişi səlahiyyətlərini vermişdi və adamları öz günahlarına görə cəzalandırmaq hakimiyyəti ilə yanaşı ona Göy səltənətinin açarı etibar edilmişdi. Nəticədə 445-ci ildə imperator III Valentinian dekret vermişdi ki, həmin göstərişlə bütün Qərb yepiskopları Papanın yurisdiksiyasına tabe olsun. Bu belə düşünülə bilərdi ki, kilsə monarxiya formasında idarə olunur. Şərqin patriarxları Papanın iddiasına həyasızcasına utanmazlıq kimi qiymətləndirdilər, hətta bir çox Qərb yepiskopları da bir müddət buna məhəl qoymadılar. Papalığın erkən zəifliyi ondan görünür ki, 869-cu ilə qədər keçirilən kilsənin səkkiz baş şurasında Papalar iştirak etməmişdilər, sonrakıları isə özləri çağırır və onların hamısına başçılıq edirdilər. Roma imperiyası kimi Qərb süqut etdikdən sonra hər şəhərin yepiskopu inzibatçılıq elmi ilə özü bildiyi qaydada məşğul olurdu. Kilsə öz rasional inzibatçılıq quruluşunu inkişaf etdirdi.

Rahiblik yayılmağa başladı. Başlanğıcda rahiblər keşiş deyildilər, yalnız ruhani idilər. Onlar demək olar ki, tək yaşayırdılar, ruhi həyatlarını qaydaya salmaqdan daha çox özlərinə əzab verməyi axtarırdılar. Rahiblik 3-cü əsrdə meydana gəlməyə başladı, 4-cü əsrdə isə xristianlıq içərisində aparıcı hərəkata çevrildi. Bunun iki səbəbi var idi. Hər şeydən əvvəl qatı güşənişin asketizminin seçilməsi şəhidliyin əvəzedicisi hesab olunurdu. Öz dini məftunluğunu nümayiş etdirmə və əzab çəkmə qaydası saxlanırdı. İkincisi, 4-cü əsrdə tərəqqi edən keşişlik getdikcə daha çox dünyəvi maraqlara gömülürdü. Kim ki, dünyəvi şirnikləndirmədən qaçmaq istəyirdi, səhralara və meşələrə qaçırdı ki, keşişlərin və yepiskopların unutduğu asketizm qaydasında yaşasın. O vaxtlar hələ rahiblər keşiş olmurdular, buna yalnız orta əsrlərdə keçildi. Rahiblik ilk dəfə Şərqdə meydana gəldi, bir əsr ərzində bu maniya xarakteri daşıyırdı. Misirin və Suriyanın güşənişin rahibləri ən qeyri-insani və alçaldıcı qaydalara əməl etməkdə bir-biri ilə yarışırdılar. Bəziləri inək kimi çöllərdə dolaşırdı, digərləri kiçik qəfəslərdə yaşayırdı, başqaları öz boyunla-

rından ağır yük asırdı. O vaxtın rahibləri indi yoqların nümayiş etdirdikləri əziyyətləri özlərinə tətbiq edirdilər və bunu yaşayış qaydası kimi qəbul edirdilər. Bir qədər sonra belə asketik isteriya sönməyə başladı və rahiblər icmalarda yaşamağa başladılar. Onlar artıq öz diqqətlərini özünə əzab verməkdə cəmləmirdilər. İcma monastırı da 4-cü əsrdə Şərqdə yarandı, bu vaxt birgə və daha yumşaq həyat formasına üstünlük verildi.

Bu rahiblər sonralar meydana gələnlərdən tam fərqli idi. Xristianlığın ilk dövrlərindən bəzi adamlar özlərini məhrumiyyətlərə, müstəsna sərt yaşayışa düçar edirdilər, bu təkcə insan təbiətinin meylləri ilə deyil, həm də bütün Şərqin din qaydaları və bəzi yəhudi rəvayətləri ilə əlaqədar idi. Asketlər - bu söz yunanca "hünər" mənasını verirdi, rahiblərin birinci dərəcəsini təşkil edirdilər. Onlar dünyəvi cəmiyyətdən ayrılmırdılar, heç də səhraya qaçmırdılar. Onlar təkcə post (oruc) tuturdular, danışmırdılar, çox şeydən imtina edirdilər, xüsusən nikaha girməməyi qət edirdilər. Tezliklə onlar cəmiyyətdən uzaqlaşdılar, adamlardan aralı, tənhalıqda yaşamağa başladılar. Asketlər bu vaxt səhrada yaşayanlara - anaxoretlərə çevrildilər. Bu rahiblik həyatının ikinci dərəcəsi idi. Sonra güşənişinlikdən yorulub anaxoretlər öz hücrələrini bir-birinin yanında tikməyə başladılar və dini ayinlər üçün bir yerə yığışıb icma əmələ gətirdilər. Onlar irəliyə doğru bir addım da atdılar. Ayrı hücrələrdə yaşamaq əvəzinə bir damın altına yığıldılar. Birlik daha sıx oldu, ümumi həyat isə daha da dolğunlaşdı. Onlar kinovitlərə çevrildilər. Bu rahibliyin dördüncü dərəcəsi idi. Elə bu dövrdə kinovitlər evi, monastırlar üçün məlum şərti intizam, yazılı nizamnamələr yaradıldı. Onlar bu kiçik cəmiyyətlərin fəaliyyətini, onların üzvlərinin vəzifələrini müəyyən edirdi. Rahiblərin sayı çox sürətlə artmağa başladı və onların forması nəhayətsiz qaydada rəngarəng idi. IV əsrin ikinci yarısında Müqəddəs Vasili nizamnaməsi bu yeni instituta bəzi nizam qaydaları verdi. Lakin monastırlar yenə də təmiz dünyəvi icmalar idi, ruhanilər onların ibadətlərinə və qaydalarına yad olaraq qalırdı. Onların heç biri ruhani rütbəsi qəbul etmirdi, rahiblər üçün heç bir kilsə öhdəliyi yox idi. Rahiblər özləri yaşayış yerini və məhrumiyyət növünü seçirdilər. Onların keşişlərə ümumi olan heç nəyi yox idi, yalnız eyni dinə xidmət edir və onlar kimi xalqda özlərinə hörmət təlqin edirdilər.

Bu rahiblər özlərinə işgəncə vermək əvəzinə faydalı əməklə məşğul olurdular. Bu iş standartları da çox sərt idi, lakin onlara uzun müddətli post (orucluq) saxlamaq və öz bədənin dartıb-dağıtmaq qadağan olunmuşdu. Əvəzində onlar özlərini kasıblara və alçaldılanlara xidmət etməyə tabe edir-

dilər və günün bir neçə saatını sakit dini meditasiyada keçirirdilər. Bundan sonra şərqi rahiblik daha çox mütəşəkkillik və itaət forması qəbul etdi.

Şərqi rahiblərlə dolduran inqilab öz inkişafını Qərbdə də davam etdirdi. Burada monastırlar xüsusi xarakter aldı, onlar Şərqdə baş verənləri təqlid edirdi. Posta (oruca) və məhrumiyyətlərə gəldikdə Qərb monastırlarının qaydaları daha az sərt idi. Sulpitsi Sever deyirdi ki, "çox yemək yunanlarda qarınquluîuq sayılır, lakin bu - qallarda adi haldır". Burada qışın sərtliyi də yüngül ayaqqabı geyinməyə və ya qolsuz paltardan istifadə etməyə imkan vermirdi. Həm də bir çox görkəmli din xadimləri, o cümlədən Müqəddəs Avqustin burada Şərqdəki rahiblərin hörmət bəslədikləri ağılsız həvəslər barədə xəbərdarlıq etmək qayğısına qalırdılar. Rahiblik həyatının həqiqi mənşəyi həmin dövrdəki cəmiyyətin ümumi vəziyyəti idi. Bu cəmiyyət üç şərlə sirayətlənmişdi, bunlar bekarçılıq, pozğunluq və bədbəxtlik idi. Adamlar məşğuliyyətsiz idi, onlar pozulur və müxtəlif bədbəxtliklərin qurbanlarına çevrilirdilər. Ona görə də rahib olmaq istəyənlərin sayı çoxalırdı.

Rahiblik Qərbdə o qədər də sürətlə yayılmadı. 6-cı əsrdə Müqəddəs Benedikt özünün məşhur Latın qaydasını yazdı və bu Qərbin bütün rahibləri üçün rəhbərlik vasitəsi oldu. Bu qaydadakı vəzifələr yoxsulluqdan, itaətdən, zəhmətdən və dini sədaqətdən ibarət idi. Rahiblər sadə qida ilə, paltarla kifayətlənməli idilər və lazım olan qədər yatırdılar. Onlara az miqdarda içki içməyə icazə verilirdi, ət isə yalnız xəstələrə verilirdi. Abbatın hakimiyyəti mütləq idi və o, itaət etməməyə görə rahibi çubuqla döyə bilərdi. Müqəddəs Benedikt istəyirdi ki, rahiblərini həmişə məşğul qaydada saxlasın, inanırdı ki, "bekarçılıq ruhun düşmənidir". Bütün rahiblər müəyyən vaxt əl işi ilə məşğul olmalı idi. Benediktinlər özləri möhkəm işləyirdilər və başqalarına da zəhmətin nəcib şey olduğunu təlqin edirdilər. Benediktinlər inək sağır, taxıl döyür, kotanla yer şumlayır, çəkiclə işləyirdilər. Onlar öz monastırlarının mülkiyyətini artırırdılar və başqalarına yaxşı nümunə göstərirdilər. Benedikt monastırları fermerlikdə və sonrakı malikanə idarəçiliyində xüsusən uğurlu örnək oldu. Beləliklə, onlar bir çox hallarda Qərbi Avropa iqtisadiyyatının səviyyəsini irəli aparmağa kömək edirdilər.

Çox vaxt dünyəvi həyatda savad və öyrənmək bütünlüklə yaddan çıxarıldığı halda, Benediktin monastırları mədəniyyət adaları rolunu oynayırdılar. Müqəddəs Benedikt özü klassik mədəniyyətin aludəçisi deyildi. Əksinə, o, istəyirdi ki, onun rahibləri yalnız Xristə xidmət etsinlər, ədəbiyyat və fəlsəfə onlara lazım deyildir. Lakin onu da bilirdi ki, rahiblər öz dualarını yaxşı

oxumaq üçün oxumağı bacarmalıdırlar. Rahiblər bir qədər savad öyrənirdilər, lakin onlardan bəziləri özlərini klassik mədəniyyətin əbədiləşdirilməsinə həsr etmişdi. Benediktinlər ancaq qadının bədən hissinə aid olan məhəbbətini qəbul etmirdilər. Rahiblər qadınlardan qaçırdılar. Ümumiyyətlə, qadına qarşı neqativ münasibət meyli inkişaf etmişdi. Başqa dinlərlə müqayisədə xristianlıq qadına xoş münasibət bəsləyirdi. Allahın gözündə qadın könlü kişi könlünə bərabər tutulurdu. Lakin xristianlar erkən vaxtlardan öz müasirlərinin baxışlarına şərik çıxırdılar və ərə getmiş qadınlar kişilərin sərt tabeliyində olurdular. Əvvəlki vaxtlarda keşişlər evlənə bilərdilər, hətta apostollardan bəzilərinin arvadı var idi. Lakin 4-cü əsrdən başlayaraq nikahsızlıq keşişlərin üstünə də yayıldı, bu vaxt ailəli olanlar öz arvadları ilə yaşamalarını davam etdirməli idilər. Bakirlik ən yüksək standart kimi qəbul olunurdusa, nikah yalnız ikinci yaxşı iş ola bilərdi. Müqəddəs Yeromi bu baxışı daha orijinal qaydada ifadə edirdi: bakirlik buğdadırsa, nikah arpadır, zinakarlıq isə inək peyinidir. O vaxtdan ki, insan inək peyinini yemir, Yeromi onlara arpa yeməyi müsaidə edirdi.

Nikahın başlıca məqsədi kişiləri "yanmaqdan" qorumaq və bəşər nəslini artırmaq idi. Xristianlar qadının ana kimi xidmət etməsini onun yer üzərindəki başlıca vəzifəsi olması barədə qədim baxışı dəstəkləyirdilər. Qadın uşaq doğmaq üçün xilas edilməli idi. Həmin vaxtdan onlar keşiş ola bilməzdilər və ancaq çox az sayda olan qadın rahibə ola bilərdi. Qadın arvad və ana olduğundan o, təhsil almamalı, hətta savad öyrənməməli idi.

Müqəddəs Benediktin nizamnaməsində rahiblərin əxlaqi və ümumi vəzifələri izah edilir, onların mahiyyəti isə özündən imtina etmək, tabe olmaq və zəhmət idi. O, rahiblik institutunda əl əməyini, əkinçiliyi tətbiq etməklə böyük inqilab etdi. Benedikt rahibləri Avropanın əkinçiləri idi, onlar əkinçiliyi moizələrlə birləşdirirdilər. Bekarçılıqdan uzaqlaşmaq üçün rahib qardaşlar müəyyən saatlarda əl işi ilə məşğul olmalı, digər saatlarda isə müqəddəs kitabları oxumalı idilər. Həqiqi rahib o adam hesab olunurdu ki, o, öz əlinin əməyi ilə yaşasın, axı atalar və apostollar da belə olmuşdular. Lakin hər şey ölçü çərçivəsində olmalı idi, bu qayda xüsusən zəiflərə aid idi. Rahiblər zəhmətlə yanaşı öz başçılarına passiv qaydada tabe olmalı idilər. Kor-koranə tabe olmaq Müqəddəs Benediktin göstərişlərində aramsız olaraq təkrar edilir. Özündən imtina belə əzablı tabe olmağın təbii nəticəsi idi. Tam belə qaydada hər cür şəxsi iradə də qadağan olunur. Ona görə də siyasi tərəfinə görə Müqəddəs Benedikt nizamnaməsi despotizmin və azadlığın qəribə qarışı-

ğından ibarətdir. Monastırda idarə etmə seçkili qaydada qalır, abbat daim qardaşlıq tərəfindən seçilir.

Müqəddəs Benedikt öz nizamnaməsini 528-ci ildə yazmışdı. 15 il sonra o, öldü və bundan sonra bu sənəd Avropanın bütün hissələrinə yayıldı. Hətta 8-ci əsrin sonunda Böyük Karl maraqlanmışdı ki, Müqəddəs Benedikt ordeninin rahiblərindən başqa onun imperiyasında digər rahiblər varmı.

## Qərbdə german hegemonluğunun başlanması

5-ci əsrin birinci yarısı ərzində barbarlar kiçik muzdlu ordunun və hunların başında duran Roma generalı Etinin  cəhdlərinin əksinə olaraq tədricən özlərini imperiya ərazisində yerləşdirirdilər. Bir sıra əyalətlər itirilmişdi. 407-ci ildə Britaniya artıq tərk edilmişdi. 428-ci ildə vandal Qayzerik 80 min nəfərlik dəstə ilə Afrikaya keçdi. Karfagen tutuldu, Qayzerikə varlı Numidiya əyaləti verildi. Romanı artıq ac qoymaq mümkün idi, Bizans üçün Aralıq dənizini bağlamışdı. 450-ci ildə isə Attilanın hunları Qərbə müdaxilə etdilər, əvvəlcə Qalliyaya hücum etdilər. Eti onları məğlub etsə də, İtaliyaya daxil oldular, Papa Müqəddəs Leodan təzminat aldıqdan sonra oradan çıxdılar və tezliklə Attila öldü.

Eti və imperator III Valentinin iki il dalbadal baş verən ölümündən sonra Qərb german tayfalarının, Odoakr da daxil olmaqla üç başçısının intriqa səhnəsinə çevrildi. Onlar marionet imperatorlar vasitəsilə real hakimiyyətə malik idilər. Nəhayət, 476-cı ildə bir il əvvəl taxt-taca çıxmış, sonuncu imperator Romul Avqustu german tayfasının başçısı Odoakr devirdi və özünü barbarlar qaydasında çar elan etdi. Roma imperiyasının sonluğu demək olar ki, hiss olunmadan keçdi.

Bu vaxt bir sıra barbar çarlıqları təsis edildi: Afrikada Qayzerikin vandalları, İspaniyada və Qalliyada Vestqot çarlığı, frankların və alemanların şimala tərəf uzaqdakı çarlıqları. Onlar hər yerdə kiçik azlığı təşkil edirdi.

## Roma imperiyasının süqutunun səbəbləri

Roma imperiyasının süqutunun müxtəlif səbəblərə malik olduğu göstərilir. Hələ 4-cü əsrdə Roma dünyasının iqtisadi tənəzzülü, eləcə də idarə etmə formasının çürüməsi lazımınca gözə çarpmırdı. Lakin imperiya dövlətin fövqəl quruluşunun yükü və qədim dünya üçün ağır olan vergilər altında təslim olmalı oldu. İstehsal və yaşayış standartları çox aşağı idi. Olduqca baha başa

gələn ordu da kifayət dərəcədə böyük deyildi, hətta əhalinin sayı da azalmağa meyl edirdi. Əsrin ikinci yarısında isə arası kəsilməyən kütləvi müdaxilələr imperiyanı taqətdən salırdı. Şərq müqavimət göstərdiyi halda Qərb uduzurdu, çünki Şərq varlı və yaxşı məskunlaşmış idi, dövlət quruluşu da Qərbdəkindən sağlam idi. Şərq daha az təhlükəyə məruz qalırdı və daha asanlıqla müdafiə olunurdu. Persiya faktiki olaraq elə böyük təhlükə deyildi. Qərbdə isə böyük uzunluqdakı sərhədlər çox sayda qoşun və dözülməz bahalıqda olan istehkamlar qurulmasını tələb edirdi. Bu sərhəd bir dəfə dağılsa, Qalliyanın və İtaliyanın həyati regionları müdafiəsiz qalacaqdı. Əhali barbarlardan çox qorxsa da, onların dininə nifrət etsə də, təəccüblü qaydada apatiya, laqeydlik nümayiş etdirirdi. Qədim Romanın vətənpərvərlik ideyası öz əvvəlki cazibə qüvvəsini itirmişdi.

Bunlar süqutu başa çatdıran amillər sırasına daxil idi. Tənəzzülü meydana gətirən və dərinləşdirən səbəblər isə başqa idi. Fakt orasında idi ki, Qərbdə Roma imperiyasının süqutu baş vermişdi. Axırıncı, əslində isə marionet imperator olan Romul Avqust devrilmişdi. Tarixin istehzası göz qabağındadır, əsası Romul tərəfindən qoyulan çarlıq respublikaya, sonra isə imperiya rejiminə çevrildi və eyni adlı imperatorun devrilməsi ilə bu imperiya tarixdən silindi. Başlanğıcını kiçik bir təpədən götürən dövlət altı əsr keçməmiş dünya dövlətinə çevrildi, öz hakimiyyətini üç qitənin ərazisinə yaydı, on iki əsrlik yüksələn və enən mövcudluqdan sonra isə tarixinin son nöqtəsinə gəlib çatdı. Bundan bir əsr əvvəl əmələ gələn "Yeni Roma" da öz sələfindən daha on bir əsr artıq yaşasa da, 1453-cü ildə öz varlığını itirməli oldu. "Yeni Roma" adlanan Konstantinopolda imperiyanın inzibati və intellektual həyatı cəmlənmişdi. Tarixin istehzası yenə özünü göstərdi 324-cü ildə imperator Konstantin tərəfindən əsası qoyulan bu şəhər 1453-cü ildə imperator XII Konstantinin başçılığı altında sonuncu və uğursuz müdafiəyə qalxmışdı. Burada da Romada olduğu kimi şəhərin banisinin adını daşıyan imperator onun təkcə işğalına deyil, həm də tarix saatının birdəfəlik dayanmasına səbəb olan şərəfsizlik rəmzinə çevrildi. Ona bircə təskinlik əlaməti qaldı ki, əcdadı Konstantinin saldığı şəhəri müdafiə edərkən imperator özü də həlak oldu. Elə bil ki, Roma imperiyaları da, tarixin atası Herodotun qələmə aldığı Lidiya dövlətinin taleyini yaşamalı oldu. Lidiyanın ilk çarı Kandabl özünün ağılsızlığı ilə təkcə taxt-tacını itirməmişdi, həm də dövlətin gələcək bədbəxtlikləri üçün bünövrə qoyduğu kimi, Romul da qardaş qanı tökməklə yaratdığı şəhərin bünövrəsinə hiyləgərlik və müharibə toxumu səpmişdi. Şərqi Roma imperiyası da özünün böyük sirdaşının məhvinə əhəmiyyət verməmişdi, 13-

cü əsrin əvvəllərində Roma papasının istiqamətləndirdiyi IV səlib yürüşü nəticəsində özünə müdafiədə kömək əvəzinə, ağır zərbə almış və tam süqut edənə qədər bu yaradan tam sağalmamışdı.

Roma dünyaya ağalıq edəndə bilmirdi ki, yadelli düşməndən daha çox onu vətəndaş müharibələri, hakimiyyət uğrundakı mübarizələr, xasiyyətlərin və əxlaqın pozulması taqətdən salacaqdır, bu dövləti və cəmiyyəti məhvə sürükləyəcəkdir. Ölkədə xasiyyətlərin korlanması, əxlaq pozğunluğu digər amillərlə yanaşı dövlətin dağılmasında mühüm rol oynadı. İlk əsrlərdə mövcud olan Roma polisində əxlaqi meyarlar, mənəvi dəyərlər Roma respublikasının süqutu və imperiya dövrünə nisbətən tam fərqli idi. Qədim Roma əxlaqı əcdadların adətlərinə, qaydalarına əsaslanırdı, onları bir etalon kimi qəbul edirdi. İdeal kişi anlayışı altında əcdadlar yaxşı əkinçini və yaxşı sahibi nəzərdə tuturdular. Əkinçi öz əməyi ilə hörmətə qalxmışdı və elə idealizə edilmişdi ki, bütöv nəsillərin ləqəbləri bu nəslin ən yaxşı becərdiyi bitkinin adından götürülürdü. Fabi, Lentul, Titseron soyadları paxla, mərcimək və noxud sözündən əmələ gəlmişdi.

Romanı qüsurlardan təmizləməyə çalışan xadimlər yəqin ki, xəstəliyin qorxulu olduğunu güman edirdilər, lakin onun belə məhvə aparan olduğunu bilmirdilər. Bu xəstəliyin başlıca xüsusiyyətləri olan mənsəbpərəstliyə və tamahkarlığa qarşı cəmiyyət özündə immunitet tapa bilmədi. Roma dünya dövlətinə çevrildikdən sonra alçaq ehtiraslar daha azğınlıqla cövlan etməyə başladı, acgözlük xüsusi miqyas aldı. Bu dövrdə iki ehtiras çox güclü idi: hakimiyyət hərisliyi və tamahkarlıq və bu iki qüsur bütün bəlaların mənbəyi və ilkin səbəbləri oldu. Bu bəlalar ilk despotları meydana gətirdi, diktatura rejimləri yaratdı. Cəmiyyət uzun bir pozulma yolunu keçdi.

Romanı pozan, dağıdan, məhvə sürükləyən iki səbəb: hakimiyyət hərisliyi - *ambitio* və pul düşkünlüyü - *avaritia* idi. İkinci dağıdıcı qüvvəsinə görə birincidən üstün idi. Pul hərisliyi hər cür cinayətlərin və zorakılığın baş alıb getməsinə səbəb oldu. Cəmiyyətin ən intizamlı hissəsi olan ordu belə, bu pozulma prosesindən kənarda qala bilmədi. Bu qüsurların daha böyüdülmüş təcəssümünü b.e. 1-ci əsrinin əksər hissəsində görmək mümkündür. Həmin dövrün tarixi dəhşətli cinayətlər, əxlaq pozğunluqları, harınlıq və eyş-işrət təsvirlərinin salnaməsidir. İmperatorlar elə bil ki, quduz şəhvətdə və qəddarlıqda bir-birilə yarışa girmişdilər. Onların pozğunluğu cəmiyyəti də pozurdu. "Nəcib imperatorlar"ın həyata keçirdiyi tədbirlər bu xəstəliyin şiddətini zəiflətsə də, onu sağalda bilmədi, sonra gələnlərin bir çoxu həmin yola düşməklə məhv prosesini sürətləndirdilər.

Böyük ingilis şairi Bayron Romanı xalqların Niobası adlandırırdı. Qədim yunan mifologiyasındakı Nioba çox övladı olması ilə öyünürdü. Bunu təhqir kimi qəbul edən ilahənin uşaqları Apollon və Artemida oxla Niobanın bütün övladlarını öldürdülər. Bu ağır dərddən Nioba daşa çevrildi. Roma da fəxr etdiyi hər şeyi, hətta öz varlığını itirdi. İmperiyalar işğalla, qanla yarandığı kimi, ağır zərbələr altında və qan tökülməsi ilə də dağılır. Roma təkcə öz ərazilərini itirmədi, həm də ideallarını, ruhunu itirdi. Müqəddəs Avqustinin dediyi kimi, Allahın yaratdığı məhv olursa, Romulun da yaratdığı məhv ola bilərdi. Bədəndən ayrılan ruh yaşadığı kimi, Romanın süqutundan min ilə yaxın bir müddət keçdikdən sonra onun ruhu Renessans (İntibah) adı altında yenidən həyata qayıtdı. Onun ruhu, antik dövrdən əxz edilməli irsi isə insanpərvərlik, humanist ideyalar idi.

## Roma irsi

Müasir insanın romalılarla bir çox oxşarlıqları vardır və bu təsadüfi deyildir. Çünki Roma qədim dövrün sivilizasiyalarından bizə ən yaxını olması ilə yanaşı, müasir əhval-ruhiyyə ilə Romanın yaxın qohumluq əlaqəsi olduğu nəzərə çarpır. Roma tarixi ilə ondan min illərlə zaman məsafəsində olan dövlətlərin tarixində bənzər cəhətlər də az deyildir. Məsələn, Britaniya imperiyası da Roma imperiyası kimi əsasən işğallar əsasında yaranmışdı.

Romalılar iki ya üç əsr ərzində Persiyadan qərbdə olan qədim sivilizasiyanın bütün dünyasından ibarət olan imperiya yaratmışdı. Bu imperiyaya Misir, Yunanıstan, Kiçik Asiya, Suriya roman əyalətləri kimi daxil idilər. Romanların onlara ən dərin təsiri siyasi sahədə oldu. Qərbdə indi Tunis, Əlcəzair, İspaniya, Portuqaliya, Fransa, İsveçrə, Belçika və İngiltərə kimi tanınan ölkələrdə romanlar öz işğallarında rəhmsiz olsalar da, uzun müddət özlərini sivilizasiya qaydasında apardılar, bu geridə qalmış ölkələrə qoca Şərqin nailiyyətlərini və nisbətən yaxın dövrə təsadüf edən Yunanıstanın və Romanın özünün mədəniyyətlərini ötürdülər. Beləliklə, romanlaşma yolu ilə Qərbdə latın dili istifadə edilən danışıq dilinə çevrilmişdi. Sonralar bu dil ərəblər tərəfindən Afrikadan süpürülüb atıldı, lakin zaman dəyişikliyinə məruz qalaraq bizim dövrümüzə Fransadakı və İspaniyada işlədilən dillər kimi gəlib çıxdı.

M.ə. 50-ci illərdən b.e. 400-cü illərinədək bir çox tale dolambaclarını yaşamış Roma imperiyasında Qədim Qərbin bütöv sivilizasiya olunmuş dünyası faktiki olaraq siyasi cəhətdən birləşmişdi və dəyişən nəsilləri daxili sülh-

lə təmin edirdi. Bu Şərqdə Çindəki Han imperiyasında baş verən hadisələrə bənzəyirdi. Roma mərkəz olmaqla onun ətrafında bütün istiqamətlərdə "Yer dairəsi" - *orbis terrarum*, məlum olan dünya uzanırdı. İmperiya mahiyyətcə Aralıq dənizinin sahillərindən ibarət idi, bu dəniz isə böyük nəqliyyat və kommunikasiya arteriyası idi və Şimali Qalliya (Fransa), Britaniya və Reynland istisna olmaqla, imperiyanın heç bir hissəsi ondan iki yüz mil aralı deyildi. Sivilizasiya ümumi idi, xalqlar arasında heç bir fərq yox idi, yeganə vacib mədəni fərq ondan ibarət idi ki, İtaliyanın şərqi əsasən yunan dilində danışırdı, İtaliya və onun qərbində isə latın dili işlənirdi. Şəhərlər hər yerdə boy atırdı, dolğun kommersiya həyatı və birinin digəri ilə ideya mübadiləsi gedirdi. Onlar çox sayda Şərqdə qalırdılar, burada manufaktura sənətkarlığının çoxu və sıx əhali cəmlənmişdi, lakin onlar Qərbə də atılmışdılar, həqiqətən də Fransanın, İspaniyanın, İngiltərənin və Qərbi və Cənubi Almaniyanın köhnə şəhərlərinin çoxu romanların hökmranlığı dövründə salındıqları ilə öyünürlər.

Romalıların fərqləndirici bacarığı təşkilatçılıqda, inzibatçılıqda, idarəetmədə və qanunda öz əksini tapırdı. Əvvəllər heç vaxt ordular belə sistemləşdirilmiş qaydada yaradılmamışdı, belə uzun dövrlərdə saxlanmamışdı, bir göstəriş ifadəsi ilə belə uzaq məsafələrə yollanmamışdı və ya döyüş meydanında belə səmərəli şəkildə manevr etməmişdi. Heç vaxt bu qədər çox sayda xalq yeganə mərkəzdən idarə olunmamışdı. Romalılar ilk dəfə özünüidarəetmə və respublika institutlarına sahib olmuşdu. Lakin romalılar işğallar vaxtı onları itirmişdilər və imperiya dövrlərində onların göstərdikləri idarəetmə istedadı avtoritar xarakterli idi, bu özünü idarəetmə deyil, rəhbərlik etmək, koordinasiya etmək və nəhəng sistemin çox sayda və səpələnmiş hissələrini idarə etmək istedadı idi. Yerli şəhərlər və şəhər-dövlətlər muxtariyyətdən yaxşıca istifadə edirdilər. Lakin onların hamısının üstündə İmperial qulluqçuların və əyalət valilərinin piramidası yüksəlirdi, onun başında isə imperator dururdu. İmperiya sülhünü - *pax Romana*-nı qoruyub saxlayırdı, hətta özünün çox sayda xalqları arasında müəyyən ədaləti təmin edirdi.

Hüquqşünaslar sonralar Roman hüququ kimi tanınan prinsiplər üzərində işləyirdilər. Roman hakimləri bacardıqları qədər müxtəlif regionların adamları arasındakı mübahisələri həll edirdilər, bu adamlar yerli adətlərlə münaqişəyə girirdilər, misal üçün İspaniyadan və Misirdən olan iki tacir arasındakı məsələnin həll edilməsi kimi. Roman hüququ bu müddəanı əsas götürürdü ki, heç də bütün adətlər hökmən düzgün deyildir, daha yüksək və ya universal qanun vardır, onun düzgün qərarlarından "təbii hüquq" və ya "təbiət

hüququ" düzəldilə bilərdi. Bu bütün adamlar üçün qəbul edilən olardı, çünki bu insan təbiətindən və əqldən qalxırdı. Burada hüquqşünaslar kömək üçün yunan fəlsəfəsinə müraciət etdilər. Bunu da əlavə etmək lazımdır ki, Roman hüququ fərdi adamların mənafelərindən və ya azadlıqlarından daha çox dövlət və ya ictimai mənafelərə xidmət edirdi. Bu prinsiplər mülkiyyətə, borca, nikaha, vəsiyyətə aid olan daha çox spesifik ideyalarla birlikdə sonrakı əsrlərdə Avropada böyük səmərə verməli idi. Min illər ərzində yunan-Roma sivilizasiyasının qalxması və çiçəklənməsi, bəşəriyyətin bütün sonrakı tarixlərində başqa yollarla, hətta daha çox ətaləti ilə görkəmli rol oynadı.

Roma sivilizasiyasının ən böyük irsi onun sonrakı mədəniyyətlərə göstərdiyi təsirdir. Romalıların arxitekturası orta əsrlərdə kilsə memarlığı üçün istifadə edildi və son əsrlərdə nəhəng ictimai binaların tikintisində bərpa olundu. Avqust epoxasının heykəltəraşlığı at üstündəki heykəllərdə, tağlarda və sütunlarda, müxtəlif daş portretlərdə öz əksini tapdı. Yustinian Kodeksində əks olunan müddəalar orta əsrlərə, sonra isə müasir dövrün hüquqşünaslığına gəlib çıxmaqla, Roma hüququ irsini yaşatdı. İndi də Qayın ya Ulpianın qələmə aldığı hüquqi maddələr və ya Trayanın etdiyi düzəlişlər ədalətin təməl prinsipləri kimi qəbul olunur. Ümumiyyətlə, Avropanın qanun sistemləri Roma hüququna əsaslanır. Roma hüququ həmin dövrün ən böyük nailiyyətlərindən biri olub, onların geniş və rəngarəng tərkibli imperiyanı idarə etmək dühasını əks etdirirdi. Roma ədəbiyyatının nailiyyətləri də 12-ci əsrdə Avropada yayılan və öz yüksək zirvəsinə Renessansda çatan bərpasını vəcdləndirməyə xidmət etdi. Katolik kilsəsi də öz təşkilat formasını Roma dövlətinin quruluşundan götürmüşdü. İndiyə qədər Papa "ali pontifik" titulunu daşıyır, bu ad mülki dinin başçısı kimi imperator hakimiyyətinə verilirdi.

Romadan gələcəyə keçən bütün xidmətlərdən ən mühümü, onun yunan sivilizasiyasını Avropa Qərbinə keçirməsi idi. Yuli Sezarın yürüşlərinin arxasınca yunanlardan götürülmüş mədəniyyət inkişaf etdirilərək uzaq Qərbə yayıldı. Buna qədər Şimali-Qərbi Avropa xalqlarının mədəniyyəti tayfa mədəniyyəti idi. Bu ərazilərə Roma şəhərləri və yunan ideyalarını gətirdi. Hər şeydən əvvəl insan azadlığı və fərdi muxtariyyət konsepsiyaları yalnız yüksək qaydada fərqlənən şəhər həyatı ilə birgə inkişaf edirdi. Lakin təcrübədə çox hallarda bu azadlıq ideallarına məhəl qoymurdu. Romada quldarlıq qüvvədə qalırdı, qadın tabeçilikdə idi, işğal edilmiş ərazilərdə xalqlar istismar edilirdi. Bütün bunlara baxmayaraq Roma tarixi Qərb tarixinin həqiqi başlanğıcı idi. Böyük Aleksandr tərəfindən Şərqə gətirilən yunan sivilizasiyası burada dözüb dayana bilmədi, lakin həmin sivilizasiya Sezar, Tsitseron və

Avqust kimi adamlar tərəfindən Qərbə gətirildikdən sonra Qərbi Avropanın sonrakı nailiyyətlərinin başlanğıc nöqtəsi oldu. Bu inkişaf ardıcıl davam etmədi, sonrakı Avropa uğurlarına başqa əlavələr də edildi, lakin Romanın təsiri heç vaxt öz əhəmiyyətini itirmədi.

## Şərqi Roma imperiyası

Şərqi Roma hələ 476-cı ilə qədər köhnə Roma imperiyasının şərq əyalətlərinin siyasi birliyi idi, bu vaxt imperiyanın iki imperatoru var idi. 7-ci əsrdən sonra isə Şərqdəki dövlət və cəmiyyət öz əvvəlki formalarından fərqlənməsini ifadə etmək üçün orta əsr imperiyası Bizans adlanır. Bu ad Avropanın Bosfor tərəfində, Aralıq dənizi ilə Qara dəniz arasındakı yolda əsası qoyulmuş qədim yunan koloniyasının adından götürülmüşdü. Bura həm də Avropa ilə Kiçik Asiyanı ayıran nöqtə idi. "Yeni Roma" kimi 324-cü ildə imperator Konstantin tərəfindən əsası qoyulan bu şəhər altı il sonra Konstantinopol adlandırılmışdı, bu söz Konstantin şəhəri mənasını verirdi.

Şərq öz qızıl ehtiyatlarından, yerli işçi qüvvəsindən və diplomatiyasından yaxşı istifadə edib tezliklə öz düşmənlərindən birini digərinin üzərinə qaldırmağı öyrəndi. II Teodosinin hökmranlığı dövründə (408-450-ci illər) hunlar öz başçısı Attilanın rəhbərliyi altında onlardan qızıl bac almaqla, əslində Şərqi imperiyanı rahat olmayan sülh vəziyyətində saxladılar və bu sülh barbarla ticarət aparan Konstantinopol tacirlərinin faydalı iş gördüyünü də sübut etdi. Sonrakı yeddi ildə Martsian hökmdarlıq edəndə bac verməyi davam etdirməkdən imtina etdi və Attila yalnız qərbdə istilalar aparmaq perspektivinə görə qisas almaqdan yayındı və 453-cü ildə baş verən öz ölümünə qədər Şərq imperiyasının ona meydan oxumasına bir daha cavab verməyə qayıtmadı. Qərb imperiyası süqut edəndə isə imperator Zenon hökmranlıq edirdi. O, Teodorikin təhlükəsinə son qoymuşdu. Onun ölümü və Anastasinin taxt-taca çıxması ilə İsaurianların imperiya hökmranlığı sona çatdı. Axırıncının iqtisadi siyasəti çox uğurlu idi və o, xəzinənin sərvətini 320 min funt qızıla çatdırdı. Anastasinin varislərindən ən məşhuru I Yustinianın vaxtında (o, 527-565-ci illərdə hökmranlıq etmişdi) Persiya ilə köhnə rəqabət bir sıra problemlər yaratdı.

234-cü ildə Qədim Persiya imperiyası yeni sülalə olan Sasanidlərin əlinə keçmişdi. Sasanidlər Şimali Mesopotamiya üstündə Roma ilə köhnə mübarizəni davam etdirirdilər. Şərqi Roma xristian imperiyasına çevrildikdə, düşmənçiliyin yeni mənbələri yarandı. Sasanidlər özlərinin zoroastrizm dininə

xidmət edən kilsə təşkilatlarını möhkəmləndirdilər, Persiya ərazisində dini dözümsüzlük və təqiblər adi hala çevrildi. Bu da imperiyalar arasında müharibəyə bir qədər dini xarakter verirdi. İki səltənətin arasında şimal tərəfdə yerləşən Ermənistan xristianlığa keçdikdə bu düşmənçilik kəskinləşdi. Bu, Persiyanın dini bütövlüyünə təhlükə yaradan kimi görünürdü.

I Yustinian hələ taxt-taca çıxmamışdan əvvəl qohumu olan sələfi I Yustinin dövründə öz əlində xeyli səlahiyyət toplamışdı. Tarixçi Prokopi onun müasiri olmaqla, Yustinianın 40 illik səmərəli fəaliyyətini təsvir edir. Onun "Müharibələr tarixi" və "Məxfi tarix" əsərlərində imperatorun hərbi nailiyyətləri, şəxsi həyatı, imperatriça Teodoranın xarakteri və imperiyanın daxili inzibatçılığının aparılması əks olunmuşdu. Onun əmisi Yustin savadsız hərbçi idi, Yustinian isə yaxşı təhsil görmüşdü, teologiyanın bilicisi idi, qüdrətli kilsə qurucusu və Roma hüququnun kodifikasiyasının himayəçisi idi. Onun hökmranlığı dövründə imperiyanın daim arası kəsilməyən müharibələrdə iştirak etməsinə baxmayaraq, məhz belə mülki nailiyyətlər əldə edilmişdi. Onun hökmranlığı daxili müharibə və mübarizə ilə başlanmışdı. Sonra o, hərbi əməliyyatlara son qoyub, diplomatiyaya keçdi və bac vermək hesabına Persiya şahı Xosrov ilə "Sonsuz sülh" yaratmaq barədə danışıqlar apardı. Bu romalıların əlini digər hissələrdə əməliyyatlar aparmaq üçün azad edirdi. Beləliklə, Yustinian Qərbdə yenidən əraziləri tutmaq üçün Şərqdə sülhə meyl edirdi.

532-ci ildə Yustinian Konstantinopolda qalxan və taxt-tacından daha çox onun həyatına təhlükə yaradan qiyamdan nəinki salamat çıxa bildi, həm də öz mövqeyini möhkəmləndirdi. Digər iri Şərqi Roma şəhərləri kimi Konstantinopol da öz divarlarını qoruyan şəhər militsiasından asılı idi, lakin onun içərisindəki parçalanma, at çapmasında rəqiblik edən hissələrlə üst-üstə düşürdü, axırıncılar Mavilər və Yaşıllar adlanırdı və imperator cıdıra gələndə, onlar həmçinin siyasi rol oynayırdılar. İmperatorun qulağına çatmaq üçün onlar öz narazılıqlarını ritmik mahnıda bildirirdilər. Mavilər torpaq sahiblərindən, Yaşıllar isə ticarət və sənətkarlıqla məşğul olanlardan öz liderlərinə malik idilər. Lakin bu buntda hər iki partiya birləşib imperiya hökumətinə müxalif çıxmışdı. Şəhər prefekti qiyamı yatırdıqda, Mavilər və Yaşıllar əvvəlcə öz liderlərini dustaqlıqdan azad etdilər, sonra isə tələb etdilər ki, Yustinian özünün iki ən populyar olmayan qulluqçusunu vəzifədən azad etsin. İmperator hətta onların tələbini yerinə yetirəndə də, kütlə sakitləşmədi, onların buntu qiyama çevrildi və Anastasinin qohumunu imperator elan etdilər. Yustinian yalnız ona görə xilas ola bildi ki, imperatriça Teodora tabe olmaq-

dan imtina etmişdi. Yustinianın fərasətli generalı qiyamçıları cıdırda izolə etdi və 30 minə qədər adam qırdı. Liderlər edam edildi və malikanələr müvəqqəti də olsa imperatorun əlinə keçdi. Bundan sonra Yustinian daha möhkəm hökmranlıq etməyə başladı.

Artıq o, özünü Roma və xristian imperatoru kimi göstərirdi. O, latın dilində danışırdı, Roma tarixini və antik dünyanı dərindən bilirdi. Taxt-taca çıxdıqdan iki il sonra onun qulluqçuları Hadrianın hökmranlığı dövründən bəri qanunların və dərc edilmiş imperator dekretlərinin əsas toplumunu başa çatdırdılar. Yustinian Kodeksi kimi tanınan bu toplum həm də onun özünün nüfuzunu və mütləq hakimiyyətini yüksəldirdi. Üç əsr ərzində statusların həcmi böyüməkdə davam etdiyindən, bu qanunların kodifikasiyası vacib idi. Bir sıra hüquqi aktlar həm də bir-birinə zidd olan və ya inkar edən elementlərə malik idi. Şərq despotizminin qurulması və xristianlığın rəsmi din kimi qəbul edilməsi ilə bir sıra köhnə qanuni prinsiplər elə əsaslı dəyişilmişdi ki, onlar artıq tətbiq edilə bilməzdi. Ona görə də bu prinsiplər yeni şəraitə uyğun olaraq qaydaya salınmalı idi. Bu işi aparmaq üçün onun naziri Tribonianın nəzarəti altında hüquqşünaslardan ibarət komissiya yaradıldı. İki il sonra Kodeks hazır oldu. Kodeksə sonralar Yustinian və onun varislərinin qanunvericiliyindən ibarət Novellalar əlavə olundu. Komissiya həmçinin Diqestləri başa çatdırdı, bu böyük hüquqşünasların bütün əsərlərinin məcmuu idi. Təftiş işinin son məhsulu isə İnstitutlar oldu. Bu dərslikdə Diqestdəki və Kodeksdəki qanuni prinsiplər əks olunmuşdu. Bu təftiş proqramının nəticələri kimi həmin dörd işin birləşməsi, mülki hüququn əsas hissəsi olan *Corpus Yuris Civilis*-i əmələ gətirdi.

Yustinian *Corpus*-u öz şəraitində parlaq nailiyyət idi. Təkcə Diqest ədalətli olaraq "dünyanın nə vaxtsa gördüyü ən gözəl və mühüm hüquq kitabı" adlanırdı. Üstəlik, *Corpus* nəticədə qanuni və hökumət tarixinə qeyri-adi böyük təsir göstərdi. Avropada 11-ci əsrdən başlayaraq öyrənilən Yustinian *Corpus*-u Avropa dövlətlərinin bütün qanunlarının və hüquqşünaslığının əsasına çevrildi. Təkcə İngiltərə qanunvericiliyi istisna təşkil edirdi. 19-cu əsrdəki Napoleon Kodeksi müasir Avropanın və həmçinin Latın Amerikası ölkələrinin qanunlarının əsası olmaqla fundamental qaydada, ancaq yeni paltara geyindirilmiş Yustinian İnstitutları idi.

Bazis hökumət nəzəriyyələrindən biri isə onun mütləqiyyətin bastionu olması idi. "Hökmdara nə xoşdursa, qanun gücünə malikdir" maksimasından başlayaraq bu prinsip imperiya hökmranına maneə hiss etməyən hakimiyyət verirdi. Lakin *Corpus* həm də konstitutsionalizmə müəyyən nəzəri dəstək

verirdi, çünki bu sənəd belə bir fikri müdafiə edirdi ki, hökmdar öz hakimiyyətini bünövrədən Allaha nisbətən, daha çox xalqdan alır. Əgər hökumət xalqdan gəlirdisə, nəzəri cəhətdən ona da qayıda bilərdi.

Yustinian qanuni nəzəriyyədə olduğu kimi coğrafi məkanda da tam Roma imperatoru olmaq istəyirdi. Bu məqsədlə də o, Qərbi işğal etməyə ordular göndərdi. Onun qiyamı yatırtmaqda fərqlənən generalı Belisari Şimali-Qərbi Afrikada Vandal çarlığını işğal etdi, bir az sonra o, bütün İtaliyanı da tuta bilərdi. Lakin ilk qələbələr illyuziya xarakteri daşıyırdı. On illər boyu uzanan müharibə şərqi romalıları taqətdən salmışdı. Ölümündən əvvəl qısa müddətə Yustinian bütün İtaliyanın, Şimali-Qərbi Afrikanın və İspaniyanın sahil hissəsinin ağasına çevrilmişdi. Aralıq dənizi bir daha qısa müddətə "Romalıların" gölü olmuşdu. Lakin bu cəhdlərin qiyməti, haqqı tezliklə Şərqi Roma imperiyasının özünün mövcudluğunun sual altında qalması oldu. Yustinianın Qərb kampaniyalarının pis düşünülmüş olmasının iki səbəbi var idi. Biri bu idi ki, onun səltənəti həqiqi qaydada orada yaşayanları cəzb etmirdi. Bu işi görmək üçün isə Belisarinin də nadir hallarda kifayət qədər qoşunu olurdu, o, İtaliya kampaniyasını vur-tut 8 min adamla başlamışdı. Kifayət qədər qoşun veriləndə isə, bu istismarçı vergilər hesabına başa gəlirdi. Qərbdə yeni sərhədləri saxlamaq üçün də üstəlik qoşuna olan tələbat ödənmirdi, çünki imperiyanın böyük mənafeləri olduğu kimi, böyük də düşmənləri var idi. Şərqi Roma imperiyası özünü İtaliya kampaniyasında taqətdən salanda, persiyalılar qüvvə toplayırdı. Yustinianın varisləri Qərbdən geri çəkilməyə məcbur oldular ki, bərpa olunan Persiya təhlükəsini qarşılaya bilsinlər və 7-ci əsrin başlanğıcında elə görünürdü ki, persiyalılar Konstantinopolla üz-üzə dayanmaq üçün su yolunu keçməyə qadirdilər. Yalnız qəhrəmancasına yenidən qurulma imperiyanı xilas etdi və Şərqi Roma Qərbdən çəkilməklə ona da öz həyatını yaşamasına köməklik göstərdi.

Yustinian müharibələri dövründə İtaliya güclə ayaq üstə dayanırdı. Vuruş özü ilə viran qoymaya yol açırdı. Roma ətrafındakı akveduklar dağıldığından, onun kənd tərəfləri 12-ci əsrə qədər drenaj edilməyən bataqlığa çevrildi. Yustinianın ölümündən üç il sonra, 568-ci ildə digər german tayfası olan lombardlar ölkəyə müdaxilə etdi və şərqi romalılardan onun çox hissəsini aldı. Onlar elə bir müqavimət görmədilər, çünki bu vaxt Şərqdən olanlar daha çox Şərqin özünə diqqət yetirirdilər, lakin lombardlar da çox zəif olduqlarından bütün yarımadanı tutmağa qadir deyildilər. Buna görə də İtaliya Lombardiya, Şərqi Roma və Papalıq əraziləri arasında bölündü. Elə bu vaxt slavyanlar Şərqi Romanın zəifliyindən istifadə edib Balkanlara soxuldular. Uzaq

qərbdə isə Qalliyadakı franklar öz aralarında vuruşurdular, lakin müəyyən zaman lazım gələcəkdi ki, ərəblər Şimali-Qərbi Afrikanı və İspaniyanın çox hissəsini işğal etsinlər. Beləliklə, nəticədə Roma birliyi sona çatdı.

Xalqların geniş qarışığı buraya soxulandan sonra Balkanlar daha mürəkkəb vəziyyətdə idi. Kutriqur bulqarların hücumundan sonra Yustinian istehkamlar sistemini genişləndirdi. Slavyanlar Frakiyanı qarət etdilər. Yustinianın tabeliyində olan xalqlar Balkan və Cənubi Rusiya xalqları ilə mükəmməl əlaqə saxlayırdılar. Çünki Mərkəzi Asiya torpaqları böyük insan rezervuarı rolunu oynayırdı, onlardan daim yeni təhlükələr meydana gəlirdi. Düşmənlərin çoxalması isə o demək idi ki, rüşvətin, müqavilənin və xəyanətin köməyi ilə onları bir-birinin üstünə qaldırmaq olardı. Şərqi romalıların monqol xalqı olan avarlarla münasibətləri, bu "müdafiə imperializmi"nin ən gözəl nümunəsi idi. Konstantinopola gəlib çatan avar səfirləri istədikləri torpaqları almayanda onlara qiymətli hədiyyələr verilir və müqavilə ilə yola salınırdılar. Avarlar Rusiyanın cənubundan qərbə tərəf hərəkət edərək imperiyanın xeyrinə utiqurları, kutriqurları və slavyan xalqlarını özlərinə tabe edirdilər.

Maurisin hökmranlıq etdiyi 20 il Persiyaya qarşı qazanılan uğurlarla əlamətdar idi. Persiya taxt-tacına qanuni iddiaçı olan II Xosrov özünə meydan oxuyan qiyamçılara qarşı ondan kömək xahiş etdi. Bu köməyə minnətdarlıq əlaməti kimi Xosrov sərhəd şəhərlərindən və Ermənistana iddiasından əl çəkdi. Bunlar Bizans ilə Persiya arasında razılığın iki mühüm mənbəyinə çevrildi. Bu müqavilə şərtləri Bizansın Ermənistana girməsinə yol açdı. Lakin sonralar Fokasın başçılıq etdiyi ordu qiyam qaldırıb Konstantinopola girdi, burada Mavilər və Yaşıllar Mauris əleyhinə onlara qoşuldular və qoca imperator özü öldürülməmişdən əvvəl beş oğlunun qətlini müşahidə etməli oldu. Xosrov öz xeyirxahının qatili kimi Fokasdan qisas almaq üçün müharibəyə başladı və Persiya ordusu Anatoliyanın mərkəzi hissəsinə daxil oldu. Fokas qanuni titula malik olmadığından öz taxt-tacını yalnız işğal hüququ ilə qoruyub saxlayırdı. Daim qiyamlar və üsyanlar baş verirdi. Herakli Aralıq dənizi ilə üzüb xilaskar kimi Konstantinopola gəlib çıxdı. Fokasın və onun vəzifələrə çəkdiyi adamların başı kəsildi.

Herakli xaricdən avarların və persiyalıların təhlükəsi ilə üzləşdi. Avarlar imperatoru 617-ci ildə az qala əsir götürmüşdülər, sonra cənuba gedib Yerusəlimi və Aleksandriyanı işğal etdilər. Elə bil ki, dirilən Əhəmənid Persiya imperiyasının böyük günləri yenidən gəlmişdi.

Herakli isə xəzinə bol olduğundan, malik olduğu bol torpaqları süvari or-

dularına öz xərclərini ödəməkdən ötəri hədiyyə kimi verirdi. Bundan başqa o, dindən öz qüvvəsini möhkəmləndirmək mənbəyi kimi istifadə edirdi. Müharibələr yalnız müqəddəs savaş adlanırdı. İmperator əsgərləri döyüşə girəndə kömək göstərmək barədə Allaha müraciət edirdilər. O, Kiçik Asiyanı azad etmişdi, Ermənistanda isə xristian Qafqaz xalqları ilə birlikdə vuruşdu. Bu vaxt Konstantinopol avarların və persiyalıların birgə mühasirəsinə qarşı durmuşdu. Bir il sonra Herakli Nineviyada başlıca Persiya dəstəsini darmadağın etdi, bu vaxt onun düşməni Xosrov devrildi və öldürüldü. Onun uğuru Sezarın, Avqustun və Trayanın arzularını həyata keçirmişdi. 630-cu ildə o, zəfərlə Yerusəlimdə Həqiqi Xaçı bərpa etdi, onu vaxtilə persiyalılar oğurlamışdılar.

# V HİSSƏ.
# ASİYA ÖLKƏLƏRİNDƏKİ İMPERİYALAR

## FƏSİL 1
## HİNDİSTANDAKI MAURİYA İMPERİYASI

Başqa tarixi dönəmlərdə olduğu kimi, Hindistan subkontinentində də Avropa xalqları barədə elə bir təsəvvür olmayanda ilk dəfə döyüş meydanı bu tanışlıq səhnəsinə çevrildi. Müharibə adlanan xalqların kontaktından çox vaxt xatirələrdə, onları təmsil edən əsas cizgilərdən daha çox işğalçı sərkərdələr qalır. Az qala iki min il sonra Meksika və ya Peru hinduları yadellilərin öz ölkələrinə gəlişini Kortes ya Pisarronun adı ilə əlaqələndirdiyi kimi, Hindistanın şimali-qərbi Aleksandr Makedoniyalının kampaniyasının şahidi olması ilə tarixin müşahidə obyektinə çevrildi. M.ə. 337-ci ildə Daranın Əhəmənid imperiyasının şərq kənarlarının işğalını davam etdirən Aleksandr Qandharaya girmişdi. O, Pəncab və Bias çayları boyunca uğurlu döyüşlər aparmışdı, lakin burada onun qoşunları vuruşu davam etdirməkdən imtina etdilər. Aleksandrın kampaniyasının tarixi və siyasi cəhətdən Hindistana elə bir təsiri olmadı. Aleksandr burada bir sıra yunan məskun yerləri saldı və bunlar Qərbi Asiya ilə ticarətin və əlaqələrin inkişafına yeni impuls verdi.

Elə bu dövrdə ilk hind imperiyası yarandı. M.ə. 321-ci ildə Çandraqupta Mauriyanın taxt-taca çıxması ilə bu hadisə baş verdi. Aleksandr Hindistana yürüş etdiyi ərazidə isə Nandlar sülaləsi hökmranlıq edirdi. Burada çarın qohumu olan gənc Çandraqupta da yaşayırdı. O, ağıllı, fərasətli və şöhrətpərəst olduğundan çar onu öz ölkəsindən sürgün etmişdi. Çandraqupta şimala, Taksilaya getmişdi, yəqin ki, onu Aleksandr və yunanlar barədə söhbətlər cəzb etmişdi. Onun uzağa gedən fikirləri olduğundan hərəkət etmək istədi və uğur qazandı. Bəlkə də onu Aleksandrın şöhrəti buna sövq etmişdi. Aleksandrın ölüm xəbərindən sonra o, Taksila ətrafında xalqı qaldırıb Aleksandrın qoyub getdiyi yunan qarnizonunu qovdu və cənuba hərəkət edib Maqadhada Nandlar sülaləsindən olan çarı məğlub etdi. Bu Makedoniya sərkərdəsinin ölümündən iki il sonra baş vermişdi. Bu vaxtdan da Mauriya sülaləsinin idarəetməsi başlayır. Bu ad yəqin ki, "mayura" sözündən götürülmüşdü, bu da sanskrit dilində "tovuz quşu" deməkdir.

Bundan sonra o, Mərkəzi və Şimali Hindistanda kampaniyalar apardı.

M.ə. 305-ci ildə Aleksandrın sərkərdələrindən biri olan və İranda Selevkidlər sülaləsinin əsasını qoyan I Selevk Nikator İnd çayını keçib Hindistana soxuldu. Lakin o, bu düşünülməmiş hərəkətinə peşiman oldu. Çandraqupta onu ağır məğlubiyyətə uğratdı və o, Kabilə və Hearata qədər Qandharanı və ya Əfqanıstanı verməli oldu. Selevk öz qızını da ona verdi. Mauriya isə ona 500 fil hədiyyə verdi. Çandraquptanın imperiyası bu vaxt bütün Şimali Hindistanı, Əfqanıstanın bir hissəsini əhatə edirdi və Kabildən Benqaliyaya qədər və Ərəb dənizindən Benqal körfəzinə qədər uzanırdı.

Çandraquptanın idarəetmə təcrübəsi barədə geniş məlumat onun brəhmən dostu və sarayında baş nazir olmuş Kautilyanın "Arthaşastra" kitabında verilir. Kitabda göstərilir ki, çar xalqın əlindən çar hakimiyyətini qəbul edəndə ona tac qoyulan vaxt xalqa xidmət edəcəyinə and içməli idi. O, deməli idi: "Əgər mən sizi sıxışdırsam, qoy mən göydən, həyatdan və övladlarımdan məhrum olum". Çar daim təcili işlərlə məşğul olmağa hazır olmalıdır, çünki ictimai vəzifənin icrasını təxirə salmaq olmaz. "Əgər çar işgüzardırsa, onun təbəələri də işgüzar olacaqdır". "Onun xoşbəxtliyi təbəələrinin xoşbəxtliyindədir, onların maddi rifahındadır; onun özünə xoş gələni o, yaxşı saymamalıdır, təbəələrinə xoş gələni o, faydalı saymalıdır". Qədim Hindistandakı monarxiya ideyası xalqa xidmət demək idi. Monarxların nə ilahi hüququ, nə də mütləqiyyət hakimiyyəti var idi. Əgər çar özünü pis aparsaydı xalq onu kənarlaşdırıb, başqasını seçmək hüququna malik idi. Kitabda bu da xüsusilə qeyd edilirdi ki, "arilər hansı şərait olursa olsun, qula çevrilə bilməzdilər". Deməli, arilər barədə elə tədbirlər nəzərdə tutulurdu ki, onları qul etmək mümkün olmasın.

İmperiyanın paytaxtı Pataliputra idi. Bu Qanq çayının sahilində doqquz mil məsafədə uzanan möhtəşəm şəhər idi. Yüzlərlə kiçik darvaza nəzərə alınmasa, şəhərin 64 baş darvazası var idi. Evlər əsasən ağac materialından tikilirdi, yanğın təhlükəsi olduğundan onun qarşısını almaq üçün ciddi ehtiyat tədbirləri görülürdü. Kim küçəyə zibil atsaydı cərimə olunurdu. Kim küçədə palçığın və suyun yığılmasına şərait yaratsa, o da cərimə olunurdu. Belə qaydaları olan şəhərlər yəqin ki, çox təmiz olurdu. Paytaxtda əhalinin seçdiyi bələdiyyə şurası fəaliyyət göstərirdi. Onun tərkibi 30 nəfərdən və altı komissiyadan ibarət idi. Şura sanitariya, maliyyə, su təchizatı, bağlar və ictimai binalar məsələləri ilə məşğul olurdu. Məhkəməni pançayatlar həyata keçirirdi, həmçinin apellyasiya məhkəmələri mövcud idi. Aclıq halı yarananda əhaliyə kömək göstərilməsi üçün xüsusi tədbirlər icra edilirdi, dövlət anbarlarında ərzaq ehtiyatı saxlanırdı.

Çandraqupta öz hökmranlığının sonuna yaxın Cayna oldu. O, öz oğlu Bindusaranın xeyrinə taxt-tacdan əl çəkdi, asket oldu və bir qrup Cayna rahibi ilə birlikdə Cənubi Hindistana səfərə yollandı, orada da Cayna qaydasında qəsdən yavaş-yavaş acqalma nəticəsində m.ə. 296-cı ildə öldü. O, bu imperiyada 24 il ərzində hökmdarlıq etdi.

İkinci Mauriya imperatoru Bindusara taxt-taca m.ə. 297-ci ildə çıxdı. Onun başqa adı sanskrit dilində "düşmənləri məhv edən" mənasını verirdi. Bu ad yəqin ki, onun uğurlu Dekan kampaniyasına görə verilmişdi. O, bu kampaniyanı Maysurda dayandırmalı oldu, çünki cənubdakı çarlıqlar mauriyalara yaxşı münasibət bəsləyirdilər.

M.ə. 268-ci ildə Bindusaranı taxt-tacda onun oğlu Aşoka əvəz etdi. Aşokanın hökmranlığı müqayisəli qaydada daha yaxşı sənədləşdirilmişdir, xüsusən də epiqrafik şəhadətlər qalmışdır. O, çox sayda ediktlər dərc etdirmişdir və onlar imperiyanın müxtəlif regionlarında işlədilən dillərə müvafiq olaraq prakrit, yunan və aramey dillərində tərtib edilmişdi. Sonuncu dillər əsasən Əfqanıstanda və Trans-İnd regionunda işlədilirdi.

Öz imperiyasına Hindistanın cənubi-şərqini və cənubunu daxil etmək məqsədilə Aşoka öz hökmranlığının doqquzuncu ilində Kalinqanı tutmaq istədi. Kalinqa Hindistanın şərq sahili boyunda yerləşirdi, onun xalqı igidliklə döyüşsə də, dəhşətli qanlı vuruşdan sonra məğlub edildi. Bu vaxt Aşokanın həyatında ən başlıca hadisə meydana gəldi. Müharibə və qan axıdılması ona necə güclü təsir etmişdisə, Aşoka müharibələrə və onun nəticələrinə nifrət etməyə başladı. Bu vaxtdan etibarən o, bütünlükdə müharibədən imtina etdi. Yarımadanın cənubundakı kiçik ərazidən başqa demək olar ki, bütün Hindistan onun hakimiyyəti altında idi. Bu işğalı asanlıqla başa çatdırıb, xırda bir parçanı da götürə bilərdi. Lakin o, buna əl atmadı. Yəqin ki, o, yeganə döyüşçü-monarx idi ki, qələbə çalan vaxt sonrakı işğallardan əl çəkmişdi. Bu vaxtdan o, buddist dininə keçdi. Hökmranlığının 12-ci ilinə yaxın o, ardıcıl qaydada ediktlər verməyə başladı. O, öz qonşuları və müasirləri olan çarlarla: Suriya çarı II Antioxla, Misir çarı Ptolomey Filadelflə, Makedoniya çarı Antiqonla və digərləri ilə elçilər göndərməklə əlaqə qurmuşdu. Onun Seylonla yaxın münasibətləri var idi və onun oğlu həmin ölkədə ilk buddist missioner olmuşdu, qardaşını və bacısını isə Seylona göndərmişdi.

Öz ediktlərində Aşoka müharibənin gətirdiyi qan axıtmalara görə peşiman olmasından və ona nifrət etməsindən danışır. O, deyirdi ki, yeganə həqiqi qələbə, öz üzərində qələbə və dharmanın köməyi ilə adamların ürəyini fəth etməkdir. O, qeyd edirdi ki, fəth edilməmiş ölkənin işğalı qan axıdılma-

sına, ölümlərə və onun əhalisinin əsir götürülməsinə səbəb olur. Onun öz ediktlərində dəfələrlə müraciət etdiyi qanun Buddanın qanunudur. O, həqiqi buddist oldu və dharmanın yayılması üçün lazım olan hər şeyi etdi. Onun üçün dharma boş duaların sadəcə təkrarı deyildi, xeyirxah işlər görmək, cəmiyyəti yüksəltmək idi. O, istəyirdi ki, ölkədə çoxlu bağlar və xəstəxanalar olsun, quyular qazılsın və yollar çəkilsin. Qadınların təhsilinin təşkili üçün xüsusi tədbirlər həyata keçirilmişdi. Dörd böyük universitet şəhəri təkcə Hindistandan deyil, Çindən və Qərbi Asiyaya qədər uzaq ölkələrdən də tələbələri özünə cəlb edirdi. Bu tələbələr evlərinə qayıdanda özləri ilə Budda təlimi barədə məlumatlar aparırdılar. Ölkədə çoxlu monastırlar yarandı. O, heyvanlara da qayğı göstərirdi, onlar üçün müalicəxanalar tikilmişdi, heyvanların qurban kəsilməsi qadağan edilmişdi. Aşokanın nümunəsi və buddizmin yayılması vegetarianlığın populyar olmasına gətirib çıxardı. Həmin vaxta qədər isə kşatriyalar və brəhmənlər Hindistanda adətən ət xörəkləri yeyirdilər, şərab və digər spirtli içkilər içirdilər. O vaxtdan etibarən ətdən istifadə və şərab istehlakı xeyli dərəcədə azaldı.

Aşoka 37 il hökmranlıq etdi və m.ə. 226-cı ildə öldü. Ölümündən bir az əvvəl o, buddist rahib olmuşdu. İmperiya tənəzzülə uğradı və onun ölümündən yarım əsr sonra onun ərazisi yalnız Qanq vadisinin bir hissəsindən ibarət oldu. M.ə. 185-ci ildə isə Mauriya sülaləsindən olan axırıncı çar öldürüldükdə Sunqa sülaləsinin əsası qoyuldu.

Aşokanın idarəçiliyi çar ətrafında təşkil olunan mərkəzləşdirilmiş bürokratiya idi. O, öz rolunu əsl ata timsalında görürdü: "Bütün adamlar mənim uşaqlarımdır". O, ictimai rəyi öyrənməyə daim qayğı göstərirdi və bu məqsədlə bütün imperiyanı gəzib dolaşırdı. Ümumi gəlirin dörddə biri qulluqçulara maaş kimi verilirdi. İmperiya dörd əyalətə bölünmüşdü və onların başında çar ailəsindən olan hökmdar dururdu. Çar qulluqçularını beş ildən bir əyalət inzibatçılığını yoxlamaq və təftiş etmək üçün göndərirdi. Cərimə ən çox yayılan cəza idi, lakin müstəsna hallarda ən ağır cəza da tətbiq edilirdi. Çarın ediktlər dərc etməsi isə Əhəmənid imperatorlarından, xüsusən Daradan əxz edilmişdi. Lakin Aşoka ediktlərinin tonu və məzmunu tam fərqli idi. Onun ediktlərində dharmanın başlıca prinsipləri olan zorakılıq etməmək, bütün sektalara və rəylərə dözümlülük, valideynlərə qulaq asmaq, braminlərə (keşiş kastası) və digər dini müəllimlərə və keşişlərə hörmət, dosta qarşı liberallıq, nökərlərlə insancasına davranmaq və hamıya qarşı alicənablıq təsbit olunurdu. İngilis yazıçısı Herbert Uells özünün "Bəşəriyyətin qısa tarixi" kitabında onun haqqında belə deyir: "Tarixin səhifələrini dolduran on min-

lərlə monarxların... arasında Aşokanın adı demək olar ki, tənha ulduz kimi işıq saçır. Volqadan Yaponiyayadək hər yerdə onun adı şərəflə əhatə olunmuşdur. Çin, Tibet, hətta onun təlimindən uzaqlaşan Hindistan onun böyüklüyü barədəki rəvayətləri unutmur. Onun xatirəsini ehtiramla qoruyub saxlayan adamlar kimdənsə eşitdikləri Konstantin və ya Böyük Karl barədə bilənlərdən sayca çoxdur".

Mauriya imperiyası hissələrə parçalandıqda şimal əyalətləri ondan ayrıldı, cənubda isə yeni Andhra dövləti yarandı. Bu dövrdə brəhmənizmin bərpası başlandı və buddist rahiblər bir qədər sıxışdırıldı. Brəhmənizm nəticədə buddizmi ölkədən sıxışdırıb çıxardı, bu ölkə isə buddizmin vətəni idi. Brəhmənizm buddizmə öz təşkilatının daxilində yer tapmağa cəhd etdi, onlar hopdurma və assimlyasiya praktikasını tətbiq edirdilər. Hələ arilər ilk dəfə Hindistana gələndə, onlar dravidlərin mədəniyyətindən və adətlərindən çox şeyi mənimsəmişdilər və bütün tarix boyu bu qaydada da hərəkət edirdilər. Onlar buddizlmə də belə davrandılar, Buddanı hind panteonunda olan çox allahlardan birinə çevirdilər. Buddanın xüsusi missiyası sakitcə unuduldu, brəhmənizm və ya hinduizm azacıq dəyişikliklərlə öz əvvəlki məzmununu saxladı.

Şimalda və cənubda mühüm hadisələr gedirdi. Şimalda Mərkəzi Asiya xalqlarının - baktriyalıların, sakların, skiflərin, türklərin və kuşanların bir neçə basqını baş vermişdi. Mərkəzi Asiyada çoxlu tayfa ordaları yaranırdı və tarix boyu buradan xalqlar bütün Asiyaya, hətta Avropaya yayılırdı. Miladdan əvvəlki son iki əsr ərzində Hindistana da bir neçə belə basqınlar olmuşdu. Bu xalqlar həm də məskunlaşmaq üçün torpaq, yer axtarırdılar. Mərkəzi Asiya vulkan kimi bir müddət öz kraterindən müxtəlif xalqlardan düzələn lava püskürürdü və bu lava gücü çatdığı qədər nəinki dağın ətəklərinə, hətta uzaq düzənliklərə də yayılırdı. Bu lava gəlib çatdığı ərazilərin mühitini, etnik tərkibini də dəyişdirə bilirdi. Ona görə də Asiyanın əksər, Avropanın isə bir sıra regionlarını tarixən tədqiq etdikdə biz Mərkəzi Asiyadan buraya gəlib çıxmış xalqların, qalın və ya nazikliyindən asılı olmayaraq plastlarını görürük və yeni coğrafi-sosial mühitdə də onlar öz nişanələrini saxlayır.

Mərkəzi Asiyadan çıxan tayfaların əksəriyyəti köçəri idi, maldarlıqla məşğul olurdu və daim yeni, daha bol yem mənbəyi olan otlaqlara ehtiyac duyurdu. Otlaqlar təkcə mal-qaranın törəyib artması və məhsul verməsi üçün vacib deyildi, həm də bu tayfaların sağlamlığı, doğub çoxalması üçün də vacib şərt idi. Bu tayfaların tərkibi sayca artdıqca tutduqları torpaqlar onları yedizdirə bilmirdi. Axı o dövrdə kənd təsərrüfatı istehsalı, xüsusən də

heyvandarlıq intensiv xarakter daşımırdı, daha çox ekstensiv amillərə əsaslanırdı. Ona görə də bu tayfalar miqrasiya etməyə, yer dəyişməyə başlayırdılar ki, yaşayış üçün daha əlverişli yer və şəraitə malik olsunlar. Digər tərəfdən zorakı xarakterli amillər də mövcud idi, başqa tayfaların təzyiqinə davam gətirməyənlər öz məkanlarını tərk etmək məcburiyyətində qalırdılar. Bir böyük tayfa və ya klan digər tayfaları qovurdu, yerindən qopan tayfalar isə başqa ölkələrin ərazisinə basqın etməli olurdu. Hindistana gələn işğalçı xalqların çoxu əslində bundan əvvəl öz otlaqlarından qaçmağa məcbur olanlar idi. Hunlar, türk xalqları məhz bu yolla həm başqalarını sıxışdırmış, həm də özləri geniş ərazilərə yayılmağa başlamışdılar. Türklər şərqdə okean kimi təbii sərhədlə üzləşdiyinə görə daim qərbə doğru axışmaqda davam etmişdi. Yaxud Xan sülaləsi vaxtı Çin imperiyası gücləndikdə köçəriləri qovurdu və beləliklə, onlar özlərinə yeni vətən axtarmağa yollanırdılar. Ona görə də onların bu basqınları heç də düşmənçilik xarakteri daşımırdı, yaxud ona xidmət etmirdi. Lakin sivilizasiya cəhətincə çox vaxt bu tayfalar işğal etdikləri ərazilərdəki xalqlardan geri qalırdılar, xüsusən onlara urbanizasiya ənənələri yad idi. Köçəri insan özünə əsaslı, davamlı ev tikmirsə, daim bir yerdən başqa yerə yaşamağa yollanırdısa, o, şəhər tikməyə hansı qayğını göstərə bilərdi.

Baktriya hökmdarı şimali-qərbdən Hindistana soxuldu, o, geri oturdulsa da, Kabili və Sindi əlində saxlaya bildi. Sonralar sakların basqınları baş verdi, onlar bütün Şimali və Qərbi Hindistana yayıldılar. Onları öz otlaqlarından digər böyük tayfa olan kuşanlar sıxışdırıb çıxarmışdı. Saklar Baktriya və Parfiyaya doluşdular və tədricən Şimali Hindistanda, daha dəqiq deyilsə Pəncabda məskunlaşdılar. Hindistanda onlar sivilizasiyaya cəlb olundular və öz köçəri adətlərindən əl çəkdilər.

Lakin Cənubi Hindistanın dövlətlərində şimala nisbətən qədim hindari sistemi daha yaxşı qaldı. Beləliklə, hindarilərin qüdrəti öz yerini cənuba dəyişdi. Burada hindari ənənələri təkcə dində deyil, incəsənətdə və siyasətdə də özünü qoruyub saxladı. Maqadha süqut edəndə təkcə alimlər deyil, rəssamlar, inşaatçılar, sənətkarlar və ustalar cənuba yollandılar. Cənubi Hindistan Avropa ilə xeyli ticarət aparırdı. Buradan Babilə, Misirə və Yunanıstana, sonralar isə Romaya mirvari, fil sümüyü, qızıl, düyü, istiot göndərilirdi. Bu ticarət əsasən hind gəmilərinin köməyi ilə həyata keçirilirdi, onların komanda heyəti də dravidlərdən ibarət olurdu. Deməli, Cənubi Hindistan artıq qədim dünyaya, müasir dillə desək, inteqrasiya olunmuşdu.

Hind şəhərlərində məskunlaşan və hind adətlərini və davranışını qəbul

edən əcnəbilər kastalar cəmiyyətinə uyğunlaşmalı idi. Bir xüsusi kastanın içərisində doğulan adamın hinduizmə keçməsi bir qədər çətin idi, çünki bu həm də həmin kastanı şərtləndirən karmanı daşımaq demək idi. Dörd kastadan ibarət olan cəmiyyətdə yeni qrupların iki yuxarı kastaya aid edilməsi daha kəskin problem idi. Yunanlar və saklar acıqca qeyri-hind mənşəli və əvvəldən idarəedən qruplar olmaqla "yıxılmış kşatriyalar" adlanırdı. Vayşiya və şudra qrupları elə bir ciddi problem yaratmırdı, çünki müəyyən olunmuşdular və sosial cəhətdən daha mobil idilər. Sosial dəyişikliklər dövründə ehtimal ki, bir sıra aşağı kasta qrupları sosial ierarxiyanın nərdivanı ilə qalxa bilirdilər.

Sakları arxadan itələyən kuşanların özü bir azdan özləri səhnədə göründülər. M.ə. 1-ci əsrdə onlar hind torpaqları ilə qonşuluqda öz dövlətlərini yaratdılar və bu dövlət imperiyaya çevrildi. Kuşanların imperiyası cənubda Benaresə, şimalda Kaşqara, Yarkəndə, qərbdə isə Persiyaya və Parfiyaya qədər uzanırdı. Orta Asiyanın böyük hissəsi də Kuşan hökmdarlarının hakimiyyəti altında idi. Bu imperiya üç əsrə qədər mövcud oldu, bu Cənubi Hindistanda Andhra dövlətinin çiçəklənməsi dövrünə təsadüf edirdi. Əvvəlcə kuşanların paytaxtı Kabil idi, sonralar paytaxt Peşavara köçürüldü. Kuşan imperiyası budda dövləti idi, onun ən məşhur hökmdarlarından biri imperator Karnişka dharmaya böyük sədaqət nümayiş etdirirdi. Kuşanlar monqol idilər, ya onlarla ittifaqda idilər. Monqolustanın doğma diyarlarından kuşanların paytaxtına daim adamlar gəlirdi. Bura Aleksandr Makedoniyalının dövründən yunanların hakimiyyətində olduğundan, yunanlar bu ərazilərə öz mədəniyyətlərini gətirmişdilər. Bu vaxt isə yunan-asiya mədəniyyəti hind budda mədəniyyəti ilə qarışmışdı.

Üç yüz il ərzində dənizdən dənizə uzanan Andhra dövləti və Kuşan imperiyası inkişaf edirdi. B.e. 3-cü əsrinin ortalarında bu imperiyaların mövcudluğu kəsildi. Bir müddət Hindistanda yalnız kiçik dövlətlər oldu. Lakin yeni bir Çandraqupta yüksəldi və ondan təcavüzkar imperializm öz başlanğıcını götürür. 320-540-cı illərdə davam edən Qupta dövrü Hindistanın klassik erası adlanır. Bu elə dövr idi ki, həmin vaxt hind ədəbiyyatı, incəsənəti, arxitektura və fəlsəfəsinin normaları yaradıldı. Bu dövrdə əksər ərazilərdə maddi rifah yüksəldi, xüsusən şəhər varlıları içərisində hinduizm intibah erasını yaşadı. Qupta dövrü imperializm dövrü adlanır, inzibati mərkəzləşmə imperialist sistemə bənzəyirdi.

Qupta sülaləsindən əvvəl hindlilərin başqa torpaqlara ayaq açmasını təsvir etmək lazımdır. Cənubda həyata keçirilən böyük işlərin nəticəsində hind

incəsənəti və mədəniyyəti uzaq şərq adalarına yayıldı. Hindistan subkontinent kimi şimaldan Himalay dağları ilə, digər tərəflərdən isə dənizlərlə və okeanla əhatə olunmuşdur. Şimaldakı sərhəddən düşmənlər və işğalçılar gəlirdilər, hətta Böyük Aleksandr da şimali-qərbdən ölkəyə daxil olmuşdu. Ucsuz-bucaqsız sahildə yaşayan hindlilər qədim yunanlar kimi dəniz övladları idi, təbiəti öyrənməyi onlar dənizdən başlayırdılar. Lap qədimdən adamlar dənizdə üzürdü və gəmiqayırma mövcud idi. Hindistandan gedən sərkərdə Seylonu fəth etmişdi, bu Qautama-Buddanın yaşadığı dövrə təsadüf edir. Adaya Sinxala adı verilmişdi, bu isə "sinqxa" - "şir" sözündən götürülmüşdü, Seylon da əvvəlki addan yaranmışdır. Cənub dənizlə daha çox bağlı olduğundan, xarici ticarətin də çoxu buradan aparılırdı. Andhra dövlətinin sikkələrində iki doraǧacı olan gəmi təsvir edilmişdi. Buradan da hindlilər şərq adalarına üzüb orada öz koloniyalarını yaradırdılar. Kolonizasiya ilə əlaqədar olan bu ekspedisiyalar b.e. 1-ci əsrində başlamışdı və sonrakı əsrlərdə davam etdi. Hindlilər Malakka yarımadasına, Yavaya, Sumatraya, Kambocaya və Borneoya gəlib çatdılar, oralarda məskunlaşmaqla özləri ilə Hindistanın mədəniyyətini və incəsənətini gətirdilər. Birmada, Tailandda və Hind-Çində böyük hind koloniyaları var idi. Hətta öz şəhərlərinə və məskun yerlərinə də onlar Hindistandan götürülmüş adları verirdilər. Əlbəttə, burada onlar özlərini mehriban qonaq kimi aparmırdılar, adaların əhalisini istismar edirdilər. Hindistanla müntəzəm əlaqə saxlamaq mümkün olmadığından, kolonistlər yerli sakinlərlə qarışırdılar. Həmin Şərq adalarında hind dövlətləri və imperiyaları yaradılırdı, sonra isə buddist hökmdarlar meydana gəldi və hökmranlıq üstündə buddistlərlə hinduistlər arasında mübarizə başladı. Bu adalar Böyük Yunanıstanda olduğu kimi Böyük Hindistanı təşkil edirdi. Bu ərazilərdə gözəl binalar və məbədlər tikilirdi. Hind arxitektorları və ustaları böyük və möhtəşəm şəhərlər salmışdılar. Həmin ölkələrə qonşu olan çinlilər bir sıra hallarda onların işinə müdaxilə edir və onları işğal edirdilər, əksər hallarda isə onlarla dostluq şəraitində yaşayırdılar. Böyük Çin mədəniyyəti və sivilizasiyası bu ölkələrin əhalisinə daim təsir göstərirdi, ona görə də onlarda bir neçə mədəniyyətin sintezi formalaşırdı.

Əsrlər ərzində buradakı məskun yerləri dininə görə hinduist olaraq qalırdı, sonradan tədricən buddizm yayılmağa başladı. Daha sonralar isə Malayziyada və İndoneziyada islam zəfər çaldı, digər hissələr isə buddizmə sədaqətli qaldı.

Cənubi Hindistanın kolonizasiya hərəkatının əsl nəticəsi ondan ibarət oldu ki, hindari sivilizasiyası dünyanın bu hissəsinə yayılmağa başladı, bu həm də Çinin təsiri ilə müşayiət olundu. Bəzilərində çin elementləri üstünlük təş-

kil edirdi. Bu təsirlər bir-birilə heç vaxt toqquşmurdular. Onlar bir-birinə heç oxşamırdılar, lakin çətinlik çəkmədən eyni vaxtda fəaliyyət göstərirdilər. Dində təsirin mənbəyi Hindistana məxsus idi, axı Çin özü də dini bu qonşu ölkədən götürmüşdü. Əgər incəsənətdə və arxitekturada hind təsiri böyük idisə, Çin Asiya qitəsinin bütün ölkələrinə öz idarəetmə üsulları ilə onların ümumi həyat fəlsəfəsinə təsir göstərmişdi. Ona görə də Hind-Çinin, Birma və Tailandın xalqları nisbətən hindlilərə daha yaxındırlar. İrqi münasibətə gəldikdə də onlarda monqoloid qanı daha çoxdur və onlar müəyyən qədər çinlilərə bənzəyirlər. Hind təsiri isə daha uzaqlara yayıldı, Filippin adalarına və hətta Tayvana çatdı. Onlar bir vaxtlar hinduist monarxiyasının tərkibinə daxil idi. Tarix elə bil ki, təkrar olunurdu, qədim yunanlar və Sezara kimi romalılar əsasən şərqə yayıldıqları kimi, hindlilər də Şərqdəki ölkələrə və adalara yayılırdı. Şimaldan özü təhlükə gördüyü halda, Şərqə tərəf üzən hindlilər oradakı adamlara təhlükəyə çevrilmişdilər.

## Qupta sülaləsi

Cənubi Hindistandan üzənlər adaları məskunlaşdıranda, uzaq ölkələrdə məskun yerləri və şəhərlər salanda, subkontinenin şimalında qəribə qıcqırma gedirdi. Kuşan imperiyası öz gücünü və böyüklüyünü itirdi, o, tədricən kiçilməyə başladı və yoxa çıxdı. Bütün şimal kiçik dövlətlərə parçalandı, onlara çox vaxt sakların, skiflərin, türklərin törəmələri hökmranlıq edirdi, bu xalqlar isə Hindistana şimali-qərb sərhədini keçməklə gəlmişdilər. Hindlilər, xüsusən kşatriyalar onları yadellilərin idarə etməsindən o qədər də razı deyildilər. Özgə hakimiyyəti onu qıcıqlandırırdı, qıcqırma qalxırdı, xalq həyəcanlanmağa başladı. Nəhayət bu narazı adamlar bacarıqlı başçıya malik oldular və onun bayrağı altında "müqəddəs müharibəyə" başladılar. Bu rəhbərin adı Çandraqupta idi. Onun taxt-taca çıxması 308-ci il hesab olunur. Lakin Qupta erası 320-ci ildən başlanır.

Çandraqupta şöhrətpərəst və bacarıqlı adam idi. O, şimaldakı arilərin başqa rəhbərlərini öz tərəfinə çəkib onlarla birlikdə federasiya yaratmaq istəyirdi. O, Hindistanın bütün yadelli hökmdarlarına "müqəddəs müharibə" elan etdi. Bu müharibə kşatriyaların ari kübarlığının mənafeyinə xüsusilə uyğun idi, çünki onlar yadellilərə görə öz hakimiyyətlərini itirmişdi. On il davam edən müharibədən sonra Çandraqupta Şimali Hindistanın bir hissəsini özünə tabe etdi. Sonra o, tac qəbul etdi və özünü şahənşah elan etdi. Bununla da məşhur Qupta sülaləsinin əsası qoyuldu. Bu sülalənin hökmranlığı iki yüz il davam etdi, hunların gəlişi ilə isə vəziyyət dəyişdi. Bu qatı hin-

duizm və millətçilik dövrü idi. Yadelli türklərin, parfiyalıların və başqa qeyri-arilərin hökmranlığı yox edildi, onlar devrildilər. İlk irsi antoqonizm partlayışı baş verdi. Kübar hindari öz irqi ilə fəxr edirdi və barbarlara yuxarıdan aşağı baxırdı. Məğlub edilmiş hindari dövlətləri və onların hökmdarları ilə çox yumşaq davrandılar, lakin qeyri-arilərə heç bir güzəşt edilmirdi.

Çandraquptanın oğlu atasından daha təcavüzkar işğalçı idi. O, böyük sərkərdə kimi imperator olmuşdu, bütün ölkədə, hətta cənubda qalibiyyətli müharibələr aparmışdı. O, Quptaların imperiyasının hədlərini genişləndirib Hindistanın böyük hissəsini tutdu.

Cənubda onun suzerenliyi nominal xarakter daşıyırdı, şimalda kuşanlar İnd çayının arxasına sıxışdırılmışdılar. Çandraquptanın nəvəsi də döyüşkən monarx idi. O, qərbdəki sahil ərazilərini tutmuşdu, bu ərazilər uzun müddət sak və ya türk sülaləsinin hakimiyyəti altında idi.

Qupta dövrü Hindistanda hind imperializmi dövrü hesab olunur. Bu vaxt ari mədəniyyəti və sanskrit təhsili öz intibahını yaşadı. Məişətdə və mədəniyyətdə ellinist və ya monqol elementləri bəyənilmirdi və faktiki olaraq hindari ənənələrinə xüsusi himayə nəticəsində onlar sıxışdırılıb çıxarılırdı. Sarayda sanskrit dili rəsmi dil idi, lakin həmin dövrdə də sanskrit ümumxalq dili deyildi. Danışıq dili sanskritə çox yaxın olan prakritin formalarından biri idi, ancaq sanskrit kifayət qədər canlı dil idi. Poetik və dram əsərləri bu dildə yazılırdı, hindari incəsənəti böyük inkişaf dövrünü yaşayırdı. Populyar epik poemalar olan "Mahabharata" və "Ramayana"dan sonra bu dövr sanskrit ədəbiyyatı tarixində ən zəngin dövr hesab olunur. Hind ədəbiyyatının görkəmli klassiki, böyük poeziya ustası Kalidasa bu dövrdə yaşamışdı. Həmin dövrün böyük yazıçıları və rəssamları çar sarayına toplaşırdı, oradakı doqquz görkəmli şairdən biri Kalidasa idi.

Ari ənənələrinin və hinduizmin intibahı təbii ki, buddizm üçün böyük problemlər yaradırdı. Quptalar dövründəki intibah kübar hərəkatı olduğuna görə kşatriya başçıları tərəfindən dəstəklənirdi, buddizm isə öz xarakterinə görə demokratik idi, həm də onun bir cərəyanı - Mahayana kuşanlarla və Şimali Hindistanın digər yadelli hökmdarları ilə sıx bağlı idi. Lakin buddizm təqib olunmurdu, budda monastırları fəaliyyət göstərməkdə davam edirdi. Bütün bunlara baxmayaraq buddizm tənəzzül edirdi, bunun da başlıca səbəbi hinduizmin tədricən buddizmi özünə assimlyasiya etməsi idi.

Quptalar hökmranlığı işğallar və qələbələr dövrü idi. Hindistan bu dövrdə qüdrətli dövlət olmaqla böyük sərkərdələrə və güclü orduya malik idi. Lakin bu sərkərdələr öz şöhrətpərəstliklərinə baxmayaq onları Hindistanın hüdudlarından kənardakı işğallar heç vaxt düşündürmürdü. Lakin bu dövrü əlamətləndirən cəhət incəsənət və ədəbiyyatın görünməmiş şəkildə intibahı idi.

## Çin imperiyası Han sülaləsi dövründə

Tsin sülaləsi Çində ən az ömürlü sülalə olsa da, cəmisi on beş il ömür sürsə də ondan təkcə mərkəzləşmiş dövlət xatirə qalmadı, həm də ölkə bu adla adlanmağa başladı, Çin sözü tsin adından əmələ gəlmişdir. Lakin Tsin sülaləsinin tarixi öz izlərini m.ə. 8-ci əsrə qədər aparıb çıxarır. Şi Huan-di çox istəyirdi ki, böyük və ən qüdrətli imperatorlar içərisində birinci olsun, lakin onun ölümündən dörd il sonra, m.ə. 206-cı ildə imperiya dağıldı. Böyük imperator özü də cəmi 11 il imperator titulunu daşımışdı. Onun ölümü sülalənin də yıxılmasına gətirib çıxardı. İkinci imperator güclü xədim nazir tərəfindən öldürüldü və üsyan başçısı axırıncı Tsin hökmdarının təslim olmasını qəbul etdi. M.ə. 202-ci ildə imperator titulunu öz üzərinə götürən Liu Panq Han sülaləsinin əsasını qoydu. Bizim eranın 9-cu ilinədək Liu ailəsinin on bir üzvü onun yerini tutdu. On altı il çəkən aralıq dövründən sonra Han sülaləsi Liu Hsiu tərəfindən möhkəmləndi və o, Han imperatoru kimi hökmranlıq etdi. Birinci mərhələdə paytaxt qərbdəki Tsanqanda yerləşirdi, b.e. 220-ci ilinə qədər davam edən ikinci mərhələdə isə paytaxt uzaq şərqdəki Loyanq oldu. Bu sülalə dörd yüz ildən çox yaşadı və imperial, siyasi və sosial inkişafdakı dəyişikliklərlə əlamətdar oldu. İdarəetmə orqanları quruldu, yeni sosial fərqləndirmələr meydana gəldi. Digər xalqlar arasında Çinin nüfuzu Han sülaləsinin siyasi stabilliyindən və hərbi qüdrətindən asılı olaraq dəyişirdi. İdarəetmə fəallığı, şəhər həyatının artan dəbdəbəsi mədəni və texnoloji nailiyyətlərin yeni standartlar səviyyəsinə qalxmasına səbəb olurdu.

Əgər Tsin sülaləsi cəmi 15 il yaşamışdısa, süqutundan əvvəl üsyanlarla və vətəndaş müharibələri ilə üzləşmişdi. Əksinə Han ilk uzun müddət yaşayan rejim formalaşdırmışdı, onun idarəetmə quruluşunu Tsin sülaləsinin əcdadlarından götürmüşdü, imperiya dövründən əvvəlki çarlıqların tətbiq etdikləri bir sıra xüsusiyyətləri qəbul etmişdi. Han imperiyası imperial idarəetmənin praktiki nümunəsini və sülalə hakimiyyətinin idealını bir irs kimi qoyub getmişdi və onun varisləri daim bu irsdən ilham alırdılar. Çünki bu sülalə səmərəli hökmranlıqla təmsil olunur. Hər onillik ərzində imperial birlik və effektiv inzibatçılıq irəli gedirdi.

Qərbi Han imperatorlarının hakimiyyəti ilk dövrlərdə ordunun gücü ilə qazanılırdı, Liu Panq və onun varisləri hərbi liderlərlə ittifaqa və mülki idarəetmə işini təşkil edən qulluqçulara arxalanırdılar. Han imperatorları öz qohumlarından bəzilərini müəyyən ərazilərdə çarlar kimi hökmranlıq etməyə göndərirdilər. İmperatorların dəyişməsi varislik qaydasında baş verirdi, lakin həm də imperial nikahlar sistemi mövcud idi, öz ailələrini siyasətə

cəlb edirdilər. Çox sayda qadın sarayda imperatorun məşuqələri kimi saxlanırdı və onlardan biri imperatriça nominasiyası üçün seçilirdi. İmperator öz oğullarından birini varis təyin etdikdə adətən seçim bu imperatriçanın oğlanlarından birinin üstünə düşürdü. İmperator öz varisini təyin etməmişdən ölsə həmin vaxtdakı yaşlı dövlət xadimləri onun yararlı varisini müəyyən etməli idi. İmperatriçanın və ya kənizin qardaşları çox vaxt mərkəzi hökumətdə yüksək vəzifələrə təyin edilirdi. Bəzən taxt-taca yenicə çıxmış imperatorun real hakimiyyəti, onun ətrafındakı qadınların və onların kişi qohumlarının kölgəsində qalırdı. Belə hallar xüsusən imperator körpə oğlunu özünə varis təyin edəndə baş verirdi. İlk imperator Liu Panq öləndə sarayda ağalıq onun dul arvadının əlinə keçdi. Bu qadın dövlətin yüksək əhəmiyyətli vəzifələrinə öz ailəsinin bir sıra üzvlərini təyin etmişdi və açıqca ümid edirdi ki, onun öz ailəsi hökmranlıq edən Liu ailəsini əvəz etsin. Lakin qadının ölümü ilə sülalənin banisinə və onun ailəsinə loyallığını saxlayan adamlar tərəfindən bu niyyət pozuldu.

M.ə. 1-ci əsrin ikinci yarısında hökmranlıq edən Tsenq Ti öz məşuqəsinin qısqanclığını məmnun etmək üçün başqa qadınlardan doğulmuş iki oğlunu qətlə yetirdi. Ondan sonra gələn imperator digər ailələrin dövlət işlərinə artan müdaxiləsinə nəzarət etmək üçün bəzi addımlar atdı. Bu dövrdə möhkəm sağlamlığı ilə fərqlənən imperatorun və ondan altı il sonra isə 14 yaşlı imperatorun ölümünün siyasi motivlərə görə düzəldildiyi iddia edilirdi. Beləliklə, Yanq ailəsi sarayda ağalıq etməyə başladı. Həmin dövrlərdə hökmranlıq etmiş bir imperatorun arvadı və digərinin anası olan qadın təkcə öz fərasətinə görə deyil, həm də öz səkkiz qardaşından bir neçəsinin köməyilə əlində güclü hakimiyyət toplamışdı. Onun ailəsinin beş üzvü hökumətdə ən yüksək vəzifələrə təyin edilmişdi, kübarların bəxşi şəklində ailənin digər üzvlərinin də statusu qaldırılmışdı.

Şərqi Han sülaləsi Liu Hsiu tərəfindən b.e. ilk birinci rübünün sonunda bərpa edildi və iki il sonra ailənin taxt-taca iddiaçı üzvü devrildi və mülki toqquşma qarışıqlığında öldürüldü. Yeni imperator öz paytaxtını Loyanqa köçürdü. O, taxt-taca rəqiblərinin məğlub edilməsini 36-cı ildə başa çatdırdı. Qərbi Hanlarda olduğu kimi, o, bu dövrü ekspansiyadan çox, daxili konsolidasiyaya həsr etdi. Yeni imperator Qərbi Han hökumətinin strukturunu bərpa etdi, əvvəlki sikkələr və vergi sistemi də işə salındı, saray alimlərin işini bir daha irəli apardı. Qabağa gələn bəzi hərəm ağaları-yevnuxlar qüdrətli mövqelərə sahib oldular. Han b.e. 1-ci əsrin ikinci yarısında xeyli möhkəmləndi və pozitiv xarici siyasət aparmağa başladı. Han nüfuzu yenidən Mərkəzi Asiyaya yayılmağa başladı. Çinin nüfuzu öz zenitinə 90-cı il ətrafında çat-

dı və 125-ci ildən sonra düşməyə başladı. Taxt-tacın zəifləməsi həm də onunla əlaqədar idi ki, Şərqi Hanın 12 imperatorundan səkkizi körpə yaşlarında 100 günlükdən 15 yaşına qədər olan vaxt imperator elan edilmişdi. Ona görə də İmperial ər-arvad ailəsi və hərəm ağaları-yevnuxlar kimi güclənən fraksiyaların üzvlərinin dövlət mənafeyindən daha çox öz mənafelərinə uyğun olaraq seçim etmələri meyli artırdı.

Şərqi Hanın axırıncı 50 ili ərzində Şimali Çin müxtəlif tərəflərdən müdaxilə meydanına çevrildi. Bəzi filosof dövlət xadimlərinin müşahidə etdiyi kimi inzibatçılıq korrupsiyaya uğramışdı və artıq səmərəli deyildi. Qüdrətli region qulluqçuları özlərini mərkəzi hökumətdən demək olar ki, müstəqil olaraq apara bilirdilər. Ər-arvad ailələri və hərəm ağaları-yevnuxlar arasındakı rəqabət 189-cu ildəki qırğına aparıb çıxardı. Sarı Çalmalılar da daxil olmaqla üsyançı dəstələr fövqəltəbii təsirlərə inandıqlarına və demoqoqiya vasitəsilə qızışdırıldıqlarına görə cuşə gəlmişdilər. Bəxt əsgərləri və hakimiyyətə can atanlar meydana öz dəstələrini çıxarmışdılar ki, özlərini ayrıca Birləşmiş Çinin imperatoru etsinlər. 207-ci ildən Tsao Tsao şimal üzərində nəzarəti əldə etdi. Bu qarışıqlıq şəraiti 221-ci ildə həll olundu. Tsao Tsaonun oğlu axırıncı Han imperatorunun taxt-tacdan uzaqlaşmasını qəbul etdi və Uey üslubundakı sülalənin imperatoru oldu. Onun ərazisi Çinin bütün şimal hissəsini əhatə edirdi, paytaxtı isə Loyanq idi. Elə bu vaxt başqa biri özünü Şu Han sülaləsinin imperatoru elan etdi. Cənubi-şərqdə isə üç çarlıqdan üçüncüsü formalaşdı.

Çin tarixçiləri Qərbi Hanın üçüncü imperatoru U Tini bir qayda olaraq xüsusilə tərifləyirlər. O, m.ə. 140-87-ci illərdə, başqa sözlə 53 il hökmranlıq etməklə bütöv Han dövründə daha uzun müddət taxt-tacda qalmışdı. Onun fərasətli və igid hökmdar reputasiyası başlıca olaraq Hsiunq-nu (şimali köçərilərə), başqa sözlə hunlara qarşı və Mərkəzi Asiyada apardığı uzun kampaniyalar seriyasından irəli gəlir. O, özü heç vaxt döyüşdə şəxsən iştirak etmirdi. O, fəal siyasət aparırdı və Çinin nüfuzunu əvvəllər məlum olmayan ərazilərə yayırdı. Onun çox bacarıqlı dövlət xadimləri var idi, bundan əlavə o, işçi qüvvəsindən və təbii sərvətlərin hasilatından daha intensiv istifadə edirdi. Bu Han qulluqçularının aktiv inzibatçılığından çox asılı idi. U Ti öz sələflərindən və öz varislərinin bəzilərindən daha artıq qaydada dövlətin dini kultlarında şəxsən iştirak edirdi. Onun hökmranlığı dövründə elmin irəli aparılması üçün dövlət yeni addımlar atmışdı və mülki xidmət inkişaf etmişdi. Onun dövründə Çin imperiyası ərazicə böyük olduğu kimi öz qüdrəti ilə də fərqlənirdi.

Han sülaləsinin imperial Çinin gələcəyi üçün ən başlıca xidmətlərindən

biri mülki xidmətin inkişaf etdirilməsi və mərkəzi və əyalət idarəçiliyinin quruluşu idi. Han hökumətlərinin üz-üzə gəldiyi problemlərdən biri imperiyanın mülki vəzifələrinə bacarıqlı və vicdanlı adamların seçilməsi idi. Han mülki xidmətinə namizədlər müəyyən ölçüdə himayəçilik edən adamların zəmanəti ilə götürülürdü. Qulluqçular namizədləri təqdim etməyə dəvət olunurdu. Namizədlər bacarıqda, vicdanlılıqda yararlı keyfiyyətlərə malik olmalı idi. Müəyyən vaxtlarda əyalət birliklərinə göstəriş verilirdi ki, müntəzəm fasilələrlə bölgüdə nəzərdə tutulan sayda adamı paytaxta göndərsinlər. Bəzi vaxtlarda namizədlərdən öz bacarıq və vicdanlılığının şəhadətini göstərməyi və siyasət və inzibatçılıq barədə suallara cavab verməyi tələb edirdilər. Onlar sonra sarayda saxlanıb məsləhətçilər kimi fəaliyyət göstərirdilər və ya mərkəzi hökumətdə ya əyalətdə öz uğurlarından asılı olaraq vəzifələrə təyin edilə bilərdilər. Lakin bu vaxt imtahan götürmənin nizamlanmış sistemi mövcud deyildi, həmin qaydaya yalnız Sun və Tan sülalələri vaxtı keçildi.

Han mülki xidmətindəki vəzifələrə maaş təyin olunurdu və bu maaşın bir hissəsi nəqd pulla, digər hissəsi isə taxılla verilirdi. Ümumilikdə, 12 dərəcə mövcud idi, bu o məmurdan başlayırdı ki, ildə onun qazancı 100 ölçü taxıl olurdu. Dövlətin ən böyük nazirinə isə "bütöv 2 min ölçü" taxıl verilirdi. Mərkəzi idarələrdə və ya əyalət birliklərindəki xidmət edən adamlar arasında prinsipial fərq yox idi. Vəzifədə irəliləmə bir dərəcədən sonrakı xidmətə çatmaqla gedirdi və nəzəri cəhətdən adam ən tabelikdə olan vəzifədən ən yüksəyinə qalxa bilərdi. Həm nəzəriyyədə, həm təcrübədə Han idarəçiliyinin quruluşu hakimiyyətin nizamlı ierarxiyasına əməl edilməsi ilə əlamətdar idi, həm də xüsusi məsuliyyətin bölgüsü, müəyyən funksiyaların isə ikiləşməsi gedirdi. Bununla fərdi qulluqçuların hakimiyyətinin izafi inhisarından qaçmaq nəzərdə tutulurdu. Qulluqçuların və ya dövlət xadimlərinin ən yüksək təbəqəsi iki, bəzi hallarda isə üç adamdan ibarət olurdu, bunlar kansler, imperial müşavir və bəzi hallarda baş komandan olurdu. Bu adamlar imperatorun baş məsləhətçiləri kimi fəaliyyət göstərirdilər və hökumətin fəaliyyəti üzərində axırıncı nəzarəti həyata keçirirdilər. Məsuliyyət üç böyük məsləhətçidən aşağıda maaş alan doqquz dövlət naziri arasında bölünürdü. Onlar dini kultlar məsələləri, sarayın təhlükəsizliyi, cinayət hadisələri barədə hökm çıxarılması, gəlirin toplanması və paylanması işləri ilə məşğul olurdular. Hakimiyyətin böyüməsini yoxlamaq üçün funksiyalar ikiləşirdi. Bəzi hallarda misal üçün, üst-üstə düşməklə iki kansler təyin edilirdi. Buna bənzər qaydada maliyyə işlərinə iki daimi nazir nəzarət edirdi, bunlar kənd təsərrüfatı, gəlir departamenti və dövlət xəzinəsi idi.

Ordu komandanlığı da elə qurulmuşdu ki, bir fərdin əlində izafi hakimiyyətin cəmləşməsindən qaçmaq mümkün olsun. General rütbəli zabitlər adətən cüt-cüt təyin edilirdi və fövqəladə vəziyyət baş verəndə və ya yürüş planlaşdırılanda zabitlər xüsusi tapşırıqlar üzrə də təyin olunurdu. Onlar öz vəzifəsini başa vurduqda, onların komandaları yaxına gətirilirdi. Komandirlər həmçinin yeni cəlb edilmiş əsgərlərin öyrədilməsi, məşqi üçün cavabdeh idilər. Han ordusu öz əsgərlərini hərbi xidmətə çağırılanlardan, könüllülərdən və məhkum olmuşlardan yığırdı. Məhkum olunanlar ordunun əsasını təşkil etməklə 23 yaşdan 56 yaşa qədər olan adamlar idi. Onlar iki il xidmət etməli idilər, bu vaxt ya məşq etməli, ya da fəal xidmətdə olmalı idilər. Könüllülər imtiyazlı ailələrin oğulları idilər, onlar güman ki, süvarilər kimi xidmət edirdilər. Han komandirləri Mərkəzi Asiya tayfalarının adamlarından da əsgərlər götürürdülər, onlar adətən fərasətli süvarilər olurdular. Bəzi əcnəbilər də zabit kimi fərqli qaydada xidmət edirdilər.

Hakimiyyətin sonuncu arbitri kimi imperator, ya regentlik funksiyasını icra edən imperatriça imperial iradəni bəyan etmək üçün ediktlər dərc edirdilər. Bəzi ediktlər cari məsələlərin icrasından ibarət olurdu. İmperator həmçinin çarları və ya kübarları təltif etmək barədə sənədlər imzalayırdı və böyük vəzifələrə təyin edilmə barədə məktub göndərirdi. Ediktlər, digər nizamlayıcı sənədlər kitablar ilə birlikdə hakimiyyətin fəaliyyətinə aid olmaqla dövr edirdi. Onlar dövlət xidmətinə kömək etdiyi kimi, qanun pozğunluqları və qadağalar üçün cəzaları nəzərdə tuturdu. Han hökumətləri müntəzəm olaraq mövsümə uyğun olaraq icmanın işlərini qurmasını bacarmaq və vəzifəlilərin öz xidmətlərini dəqiq yerinə yetirmələri üçün müntəzəm olaraq təqvimlər buraxırdılar.

Əyalət və yerli qulluqçular düzgün idarə etmə üçün iki tədbiri müntəzəm aparmağa borclu idilər. Bunlar əhalinin siyahıya alınması, torpaqların və onun məhsulunun qeydiyyatı idi. Bu hesabat məlumatlarından ikisi gəlib bizim dövrümüzə çatmışdır, birinə görə b.e. 1-ci ilində ölkədə 12,4 milyon ailə və 57 milyon adam yaşayırmış, b.e. 140-cı ilinin məlumatına görə onların sayı azalaraq müvafiq olaraq 9,5 milyon və 48 milyon olmuşdular. Bu azalma isə güman ki, Şimali Çinin yad ağalığı altında olması ilə əlaqədar idi.

Orduda xidmətdən əlavə kişi cinsindən fiziki cəhətdən yararlı olanlar həm də hər il bir ay dövlət əmək korpusunda xidmət etməli idi. Yerli məmurların nəzarəti altında adamlar saraylar və imperial mavzoleylər tikintisində işləməyə göndərilirdi. Bəzi hallarda onlar çayların sahilindəki bəndləri təmir etməkdə istifadə olunurdu, duz və dəmir filizi mədənlərində işləməyə göndərilirdi. Hökumət bəzi səbəblərə görə əhalinin miqrasiyasına

göstəriş verirdi. Bəzən bu bir ərazini, müəyyən şəhəri süni surətdə məskunlaşdırmaq məqsədini güdürdü. Çox hallarda dövlət beləliklə sərhəd torpaqlarında əkinçiliyə himayədarlıq göstərmiş olurdu. Digər tərəfdən, uzaq əyalətlərin müdafiəsi mümkün olmayanda, əhali təhlükəyə görə oradan uzaqlaşırdı və belə qorxuya düşmüş adamlar nisbətən firavan həyat tapmaq üçün başqa yerlərə göndərilirdi.

M.ə. 100-cü ildən sonra bir sıra dövlət xadimləri çox tez varlandılar və onlar torpaq sahiblərinə çevrildilər. Ona görə də bəzi filosoflar geriyə, torpaqların bərabərlik əsasında bölündüyü və saxlandığı dövlət idealına nostalgiya hissləri ilə baxırdılar. Bu qayda varlılar və kasıblar arasındakı geniş fərqləri silirdi. Ona görə də yalnız Uanq Manq dövründə torpaq və qul sahibliyinə hədd qoymağa cəhd edildi. Lakin siyasi və iqtisadi qeyri-stabillik hesabına bu cəhd baş tutmadı.

Han imperiyasında da Tsin imperiyasında olduğu kimi, hökumət ölkəni xidmət üçün mükafatlar paylamaq, itaətsizliyə və cinayətə görə cəzalandırmaq metodu ilə idarə edirdi. Mükafatlar vergidən azad olmalardan, qızıl, ərzaq, spirt və ya ipək şəklində maddi hədiyyədən, cinayətə görə amnistiya verilməsindən və şərəf ordenlərindən ibarət idi. Axırıncı fərdi qaydada ya da qruplarla verilirdi. 20 dərəcəli rütbə şkalası mövcud olduğundan bu mükafatlardan bəzilərini yalnız şkalada səkkizinci yerə qalxmış adam ala bilərdi. Ən yüksək ordenlər kübarlara verilirdi. Ordenlər həm də qanuni imtiyazlar verirdi, vergi və xidmət kimi mükəlləfiyyətlərdən azad edirdi. Nəzəriyyəyə görə, Han qanunları əhalinin bütün üzvlərini əhatə edirdi və bəzi hadisələr yer üzərindəki ən ağır cəzalardan şəhadət verirdi. Lakin bəzi imtiyazlı şəxslər hökmlərin yumşaldılmasına nail olmağa qadir idilər. Misal üçün, kübarlar öz kübarlıqları tərəfindən müdafiə olunmaqla bir çox cəzalardan özlərini pul verməklə qoruya bilirdilər. Han qanunları müxtəlif cinayətləri ayırırdı, bura sosial xarakterli cinayətlər: adamı qətlə yetirmə və ya oğurluq, İmperial Ali həzrəti təhqir etmək və böyük əxlaqsızlıq kimi təsnifləşən hərəkətlərə aid əməllər daxil idi. İmpiçment və mühakimə prosedurları müntəzəm gedirdi. Bəzi çətin işlər son qərar üçün imperatora təqdim edilə bilərdi. Cinayətkarların məhkum olduğu cəzalara sürgün, ağır zəhmət, döyülmək, xədim edilmək və ölüm daxil idi. Ən dəhşətli işlər üzrə ölüm hökmü kütlə qarşısında icra edilirdi, lakin böyük vəzifələri qulluqçulara və imperial ailəsinin üzvlərinə özlərini intihar etmək yolu ilə bu səhnədən qaçmağa icazə verilirdi. Ölüm cəzasından sonra cinayətkarın əmlakı ailə üzvləri də daxil olmaqla dövlət tərəfindən müsadirə edilirdi. Belə adamlar dövlətin qullarına çevrilirdi və onlardan nökər kimi və ya dövlət qulluqçularının ev işlərini

görmək üçün istifadə edilirdi. Əgər dövlətin elə xidmətə ehtiyacı yoxdursa, onlar iri torpaq sahiblərinin evlərinə qul kimi satılırdılar.

Tsin sülaləsinin ən böyük nailiyyətlərindən biri sərhədlərin bir neçə müdafiə xəttini sadələşdirib bir istehkam sisteminə salınması idi. Bu divar ya torpaq işləri xəttini çəkməklə Tsin sülaləsi müdaxilələrdən qorunmuşdu. Lakin sülalə yıxıldıqda, nəticədə Çin zəiflədikdə sədd təmir olunmayan vəziyyətə düşdü və qarnizonlar da artıq çatışmırdı. Bunun əvəzinə Han hökumətləri m.ə. 135-ci ilə qədər hunlarla dinc münasibətlər saxlamaq üçün onlara qızıl, ipək, hətta Çin şahzadə qızlarını verirdilər. Sonralar çinlilər Mərkəzi Asiyadakı tatarları geri oturtmaqla, şimal əyalətlərini müdaxilə və zorakılıq təhlükəsindən azad etdilər. Han orduları şimali-şərqdə (indiki Koreyada), cənubda (indiki Vyetnamda) və cənubi-qərbdə irəlilədilər. M.ə. 135-ci ildən başlayaraq kampaniyalar irəli getməyə istiqamətlənmişdi və Çin həyat tərzinə assimlyasiya edilməmiş xalqlar arasında avanpostlar yaradılırdı. Çin hökuməti bütünlüklə kənarda yerləşən bu regionları ümumən qəbul etmək fikrində deyildi. Lakin Mərkəzi Asiyaya çox sayda yürüşlər etmək iqtidarında idi və səddi şimali-qərbdə Yumenə qədər uzatdı. Çin səyyahları, diplomatları və tacirləri himayə altında Təklə Məkan səhrasına qədər uzaqlara gedib çıxa bilirdilər. Bu elə birləşmə idi ki, səhradan keçən ticarət yolunu açdı və bu yol ümumən İpək Yolu adlanır. Han sülaləsi dövründə həmçinin parfiyalıların vasitəçiliyi ilə Roma və Aralıq dənizi dünyası ilə birbaşa olmayan ticarət əlaqələri yarandı. Çin ixrac ticarəti hökumətin özü tərəfindən himayə olunurdu və özəl tacirlərə etibar edilmirdi.

Han sülaləsindən əvvəl aparılan yazı islahatının arxasınca rəsmi sənədlərin yazılmasına yararlı olan yazı üslubu yaranmışdı. Bunlar əsasən ağac lövhələr üstündə yazılan yazılar idi, dəbdəbəli niyyətlər üçün isə ipəkdən istifadə edilirdi, lakin ağac iri həcmli və kövrək material idi. B.e. 105-ci ilində Çində dünya tarixinin çox böyük inkişafı əldə edildi. Məmurlar taxt-taca yeni material manufakturası barədə məlumat verdilər. Bu hadisə kağızın istifadəsi ilə əlaqədar idi, lakin kağız yazı materialı kimi yalnız üç-dörd əsr sonra bütünlüklə əvvəlki materialların yerini tutdu. Böyüyən sivilizasiyanın çinlilərin yazılı lüğətinə tələbatı artırdı. İlk çin dili lüğəti b.e. 100-cü ilində tərtib edilmişdi.

Tsin hökuməti ədəbiyyatı və təhsili qadağan etmək üçün müəyyən addımlar atmışdı. Han hökumətləri isə bunu öz missiyalarının bir hissəsi kimi inkişaf etdirmək istədilər. Onlar Konfutsi ilə əlaqədar olan əsərlərə ehtiramla yanaşırdılar, əvvəlki sülalələrin dövründə itirilmiş kitabların axtarışına başlandı. "Klassik Poeziya", "Klassik Tarix", "Klassik dəyişikliklər" və "Yaz

və Payız" salnamələrinin mətnini bilmək qulluqçular və mülki xidmətə namizəd olan adamlar üçün vacib idi. Taxt-tac qarşısında öz arqumentini möhkəmləndirmək üçün dövlət xadimləri həmin əsərlərdən uyğun gələn sitatı gətirməli idi. Han yazıçılarının nəsr üslubu sonralar sadəlik modeli kimi qəbul edildi. Standart tarixlərin tərtib edilməsi özəl qaydada həyata keçirilirdi, lakin bu iş əvvəldən imperial himayəsi və köməyi alırdı. İmperatorlardan bəziləri özləri şeirdə nəsr tərtib edirdi, onların cəhdləri standart tarixlərdə də saxlanmışdır. Han dövrünün mədəni nailiyyətlərinin əksəriyyəti sarayın dəstəyi ilə və qulluqçuların ehtiyacları üçün yaranmışdı. Riyaziyyat problemləri barədə stolüstü kitab qulluqçulara işdə kömək etmək üçün tərtib edilmişdi. Saray imperial tikililərini təsvirlərlə və heykəllərlə bəzəmək üçün nefritdən və qızıldan əşyalar düzəltmək üçün rəssamlardan və sənətkarlardan xidmət göstərmək tələb olunurdu. İmperial emalatxanalarında çoxrəngli ipək toxunurdu.

## Altı sülalə

B.e. 2-ci əsrin sonundan Han sülaləsi öz mövcudluğunu faktiki olaraq dayandırdı. Sarı Çalmalıların Daoist üsyanlarının yatırılması cilovlanmayan münaqişələrə və siyasi xaosa səbəb oldu. Bu vaxt siyasi hakimiyyətin üç müstəqil mərkəzi meydana çıxdı. Şimalda bütün hakimiyyət "sülalənin himayəçisi" generalissimus Tsao Tsaonun əlinə keçdi. B.e. 220-ci ilində Han sülaləsinin axırıncı marionet imperatoru öz taxt-tacını rəsmi qaydada Tsao Tsaonun oğluna verdi və beləliklə o, imperiyanın qanuni varisi və Uey sülaləsinin ilk hökmdarı oldu. Tezliklə bundan sonra iki rəqabət aparan hərbi lider özlərini imperator elan etdilər, onlardan biri ərazinin içərilərində, digəri isə cənubda idi. Qısa və narahat "Üç çarlıqlar" dövrü qanlı müharibələrlə və diplomatik intriqalarla dolu idi, bəzi Çin tarixi ədəbiyyatında isə bu illər rıtsar və fərdi qəhrəmanlıq dövrü kimi qiymətləndirilir. Bu üçlükdən Uey faktiki olaraq ən güclüsü olsa da, elə bir həqiqi siyasi qüvvəni təmsil etmirdi. Son mərhələdəki Han dövründə başlanan böyük sosial-iqtisadi dəyişikliklər cəmiyyətin quruluşuna çevrilmişdi, ona görə də mərkəzi bürokratik dövləti bərpa etmək cəhdləri uğursuzluğa uğrayırdı. Vətəndaş müharibələri dövründə böyük ailələr - böyük torpaq sahiblərinin kübar klanları, özəl ordularla özlərini istehkamlanmış malikanələrdə qoruyaraq salamat qalmışdılar, hətta öz qüvvələrini artırmışdılar. Bu proses orta əsrlər Çininə xas olan şəraiti yaratmışdı. Qulluqçuların istedad əsasına seçilməsi sahəsindəki Han sisteminin yerini şəxsi qohumluq və himayəçilik şəbəkəsi tutdu. Dövlət qulluqçularının ierarxiyası və hökumət institutları heç vaxt ləğv edilmədi, lakin onlar az say-

da kübar klanları tərəfindən inhisara alındı. Onlar yüksək vəzifələri öz üzvləri ilə, kiçik postları isə öz klientləri ilə doldurdular.

c İlk dövrdə hakimiyyətin boşluğundan çinli olmayan qüvvələr istifadə etdilər. 304-cü ildə Hun tayfasının başçısı öz üzərinə Han çarı titulunu götürərək öz köçəri ordaları ilə Şimali Çini işğal etməyə başladı. Hun ordalarına yerli çin qiyamları kömək edirdi və onlar Çin sivilizasiyasının qədim vətəni sayılan yerləri işğal etdilər. İki paytaxt tutuldu və dağıdıldı, bir neçə əsrliyə çin sülalə hökmranlığı kəsildi. Bütöv Şimali Çin düzənliyi, adamı çaş-baş salan müxtəlif "barbar" dövlətlərinin səhnəsinə çevrildi. Birgə şəkildə onlar Çin istoriqrafiyasında On altı Çarlıq adlanır. Bu çinli olmayan sülalələrin qısa müddətli ağalığı idi. Çoxlu etnik qruplar bura cəlb edilmişdi. Onlara türklərin əcdadları olan hunlar, monqollar və tibetlilər daxil idi. Onlardan bəziləri, xüsusən də hunlar artıq Han dövründən Böyük Səddin içərisində olan regionlarla sərhəddə yaşamağa icazə almışdılar. Onların tayfa institutları böyük aqrar cəmiyyətini idarə etməyə uyğunlaşa bilmirdi, bu cəmiyyət ənənəvi Çin idarəetmə yolundan istifadə edirdi. Bu onları dilemma qarşısında qoymuşdu, ya onlar öz etnik xüsusiyyətlərini saxlamaqla mövcud olan gərginliyi, yaxud da praktiki ehtiyac ucbatından çin savadlılığını və görkəmli çinli ailələrin üzvlərindən istifadə edib ümumən idarə etməyi seçməli idilər. Döyüşkənliklərinə baxmayaraq onların qısa ömürlü imperiyaları bu gərginlikdən salamat çıxa bilmədilər.

Uzun uyğunlaşma prosesində Çin aqrar iqtisadiyyatının Şimal Ueylərin hökmranlığı altında bərpası mühüm əhəmiyyət kəsb edən amil ola bilərdi. Bunu maliyyə islahatı və torpaqların yenidən bölünməsi həvəsləndirməli idi. Digər amil isə köçəri mənşəli primitiv hökmdarların "Göyün oğlu" roluna yaramaları üçün onların barbar saraylarının çin ritual və etiketini qəbul etməsi ola bilərdi. Bu isə hökmən onların öz xüsusiyyətlərini itirməsinə gətirib çıxaracaqdı.

520-ci ildən sonra Uey imperiyası bir-birinə rəqabət aparan varis dövlətlərə parçalandı. Şimali Çin yenə də bir neçə onilliyə geniş dönüş meydanına çevrildi. Demək olar ki, dörd əsrlik bölünmə və siyasi çürümədən sonra Çin yenidən bir mərkəzi hökumət altında birləşdi və böyük Tan imperiyasının əsası qoyuldu.

B.e. 2-3-cü əsrlərindəki sosial və siyasi dəyişikliklər intensiv əqli fəallıqla müşayiət olundu. Han dövründə konfutsiçilik rəsmi ideologiyaya çevrildi, hökumət onu əxlaqın və ritual davranışın standart kodeksi kimi hökmdarla təbəələr arasındakı münasibətləri və fərdlərin sosial davranışını nizamlayan prinsip kimi qəbul etdi. Lakin sonra bu dövrdə konfutsiçilik öz nüfuzunu

xeyli itirdi, imperiyanı parçalanmaqdan xilas etmək mümkün olmadı. İdarə edən elita da imtiyazlarını qoruyub saxlaya bilmədi. Ümidləri üzülən rəsmi sinfin üzvləri olan alimlər səbrsizliklə başqa yol və vasitə gözləyirdilər. 3-cü əsrdə yaddan çıxmış müxtəlif fikir məktəbləri bərpa olundu. Qanun və qaydanı bərpa etmək məqsədilə kəskin tədbirləri təklif edən leqalizmə, moizm və dialektikaçıların qədim məktəbinə və hər şeydən əvvəl erkən daosizm filosoflarına bu maraq yenidən qalxmağa başladı. Ümumilikdə, hərəkat qədim daosizm sakitliyinə və bununla əlaqədar olaraq konfutsiçiliyin rədd edilməsinə qayıtmaq demək deyildi. Ancaq bu hərəkatda konfutsiçilik və leqalist təsəvvürlər bir-birilə qarışdırıldı. Beləliklə, konfutsiçilik öz nüfuzundan çoxunu itirdi. Sarı Çalmalıların üsyanının yatırılması və digər daoist dini hərəkatlarının qarşısının alınması ilə başı kəsilmiş dövlətdə daosizm kilsəsi qaldı. Yüksək liderləri məhv edildikdən sonra hərəkat parçalandı, xırda dini icmalar meydana gəldi. Daoist dininin təməl idealı bədənli ölümsüzlük idi, bu vaxt həmin "ölümsüz" diri qalırdı. Bunun üçün bir sıra fərdi tapşırıqlara əməl etmək lazım idi, bunlar pəhriz nəzarəti, gimnastika, daim yaxşı iş görmək və meditasiya idi. Saysız-hesabsız allahların və ruhların gözə görünməsi isə bədən mikrokosmosunun daxilinin yaşamasına kömək edilməsini nəzərdə tuturdu. Lakin daosizm ümumilikdə buddizmlə müqayisədə ikinci dərəcəli rol oynayırdı.

Bu dövr Çinin buddist erası idi. Bu əcnəbi dinin 300-cü ildən sonra qeyri-adi ekspansiyası və absorbsiya olunması bir sıra amillərlə əlaqədar idi. Özü də bu din həm Çinin cənubunda, həm də işğal edilmiş şimalında yayılmışdı. Mənfi amil birləşmiş konfutsiçi dövlətin olmaması idi ki, bu da təbii olaraq həmin inamın zəifləşməsinə meyl etməli idi. Cənubda rahiblər arasında buddizm moizələri təlqin edilirdi. Buddizmə kömək edən cəhətlərdən biri monastır həyatının toxunulmamış qalması idi. Buddist monastırları torpaq sahibi institutları kimi böyüyürdü, onlarda olan adamların sayı həm rahiblər, həm də məbəd təhkimçilərinin irsi ailələrinin hesabına artırdı. Çin buddizminin iri miqyaslı inkişafı yalnız 4-cü əsrin əvvəllərində barbar müdaxilələrindən sonra başlandı. Buna qədər buddizm Çin torpağında yalnız əcnəbilərin dini kimi böyük idi. Lakin 4-cü əsrdən vəziyyət dəyişdi. Nankindəki Cənubi Çin sarayında çin rahiblərinin dini elitası formalaşdı və buddizm cənub kəndliləri arasında yayıldı, Yantszi hövzəsinin orta və aşağısında öz sonrakı inkişafını tapdı. Buddizmin "çinli" tipinin ən yüksək qabarması 5-ci əsrin əvvəllərinə təsadüf etdi. Lianq sülaləsinin imperatoru özü buddizmi qəbul etdi və daosizmi təqib etməyə başladı. Yenidən birləşmə ərəfəsində Cənubi Çin demək olar ki, buddist dövlətinə çevrildi.

## Qərbi Asiya, Misir və Egey dünyasının qədim sivilizasiyaları

| | Siyasi | İqtisadi | Dini | Mədəni |
|---|---|---|---|---|
| M.ə. 3200-cü illər | Mesopotamiyada Şumer şəhərlərinin aliliyi, 3200-2340<br><br>Misirin birləşməsi. Arxaik dövr,<br>3100-2770<br>Misirdə Köhnə Çarlıq, 2700-2200<br>Mesopotamiyada Akkad imperiyasının aparıcılığı, 2334-2200<br>Şumerin dirçəlməsi, 2200-2000<br>Misirdə Orta Çarlıq, 2050-1786 | Mesopotamiyada təkərli nəqliyyatın inkişafı, 3200 | Mesopotamiyada antropomorfik dinin böyüməsi, 3200-2000 | Mesopotamiyada ay təqvimi, 3200<br>Şumer mixi yazısı, 3200<br>Şumer məbəd memarlığı, 3200-2000<br>Misir heroqlif yazısı, 3100<br>Misirdə ilk piramida tikintisi, 2770 |

| | | | | |
|---|---|---|---|---|
| M.ə. 2000-ci illər | Mesopotamiyada Köhnə Babilistan imperiyası, 2000-1600<br>Knossosun liderliyi altında Minoy sivilizasiyasının yüksəlməsi, 2000-1500<br><br>Misirdə Yeni Çarlıq, 1560-1087<br>Kassitlərin Babilistanı devirməsi, 1550 | Misirdə və Kritdə kommersiyanın genişlənməsi, 2000<br>Qərbi Asiyada atların tətbiqi, 2000 | Minoyluların ana ilahəyə sitayişi, 2000<br>Mesopotamiyada şəxsi dinin böyüməsi, 2000-1600<br><br>İnsanın ölməzliyinə misirlilərin inamı, 1800 | Misirdə günəş təqvimi, 2000<br>Köhnə Babilistanda matematikanın irəliləməsi, 2000-1800<br>Kritdə Minoy rəssamlığı, 2000-1500<br>"Qilqameş" eposu, 1900<br>Hammurabi Kodeksi, 1790<br>Misir məbəd memarlığı, 1580-1090 |
| M.ə. 1500-cü illər | Kritdə Mikenanın üstünlüyü, 1500-1400<br>Knossosun dağılması və Minoy sivilizasiyasının sonu, 1400<br>Troya müharibəsi, 1250<br>Xanaanın yəhudilər tərəfindən işğalı, 1200-1025<br>Yunanıstanda Mikena sivilizasiyasının süqutu, 1200-1100<br>Saul, David və Solomo-nun çarlığı altında birləşmiş yəhudi monarxiyası, 1025-933 | Bütün Qərbi Asiyada dəmirin istifadəsinin artması, 1300-1100 | Axenatonun dini inqilabı, 1375<br>Moisey yəhudiləri Yahveyə sitayişdə birləşdirir, 1250 | Axenatonun dini inqilabı, 1375<br>Moisey yəhudiləri Yahveyə sitayişdə birləşdirir, 1250 Finikiya əlifbasının inkişafı, 1400<br>Axenatonun hakimiyyəti altında Misirdə naturalist rəssamlıq, 1375 |

| | | | | |
|---|---|---|---|---|
| M.ə. 1000-ci illər | İsrail çarlığı, 933-722<br>İudeya çarlığı, 933-586<br>Assuriya imperiyasının yüksəlməsi, 750-612<br>Yeni Babilistan imperiyası, 612-539<br>Nabuhadanossorun İsraili işğalı, 586 | | Yəhudi peyğəmbər inqilabı, 750-550 | Yeni babilistanlıların astroloji müşahidələri və məlumatları, 750-400<br>"Deyteronomiya" Kodeksi, 600 |
| M.ə. 500-cü illər | Babilin persiyalılar tərəfindən işğalı, 539<br>Misirin persiyalılar tərəfindən işğalı, 525 | | Yəhudi dini inkişafının esxatoloji fazası, m.ə. 400 – b.e. 70 | Yəhudilərin "Şərqilər şərqisi" kitabı, 450<br>İov kitabı, 400 |

## Yunanıstan və Roma klassik sivilizasiyaları

| | Siyasət | Fəlsəfə və elm | İqtisadiyyat | Din | İncəsənət və ədəbiyyat |
|---|---|---|---|---|---|
| M.ə. 800-cü illər | Yunan tarixinin qaranlıq illəri, 1500-800<br>Yunanıstanda şəhər-dövlətlərin başlanğıcı, 800<br>Romanın əsasının qoyulması, 750<br>Yunanıstanda tiranlar dövrü, 650-500<br>Afinada Solonun islahatları, 594<br>Persiyalı Böyük Kir, 559-529<br>Persiyalı Böyük Dara, 521-486<br>Afinada Klesfen islahatları, 508 | Miletli Fales, 640-546<br>Pifaqor, 582-507 | Yunanıstanda torpaq sərvətinin təmərküzləşməsi, 750-600<br>Yunanların dənizin o tayına ekspansiyası, 750-600<br>Lidiyalılar tərəfindən sikkənin icadı, 600 | Zoroastr Persiyada zoroastrizm dinini yaradır, 625 | “İliada” və “Odisseya”, 720<br>Dori arxitektura üslubu, 650-500 |

| | | | | | |
|---|---|---|---|---|---|
| M.ə. 500-cü illər | Roma respublikasının yaranması, 500 | | Persiyalıların şah yolu, 500 | Orfey və Yelisey sehrli kultları, 500-100 | Esxil, 525-456<br>Fidi, 500-432<br>İon arxitektura üslubu, 500-400 |
| M.ə. 400-cü illər | Yunan-Persiya müharibəsi, 490-479<br>Delos liqası, 478-404<br>Afina demokratiyasının nümayişi, 461-429<br>XII cədvəl qanunu, Roma, 450<br>Peloponnes müharibəsi, 431-404 | Protaqor, 490-420<br>Sokrat, 469-399<br>Hippokrat, 460-377<br>Demokrit, 460-362<br>Sofistlər, 450-400<br>Platon, 429-347 | | | Sofokl, 496-406<br>Herodot, 484-420<br>Yevripid, 480-406<br>Fukidid, 471-400<br>Parfenon məbədi, 460<br>Aristofan, 448-380<br>Korinf arxitektura üslubu, 400-100 |
| M.ə. 300-cü illər | Makedoniyanın Yunanıstanı işğal etməsi, 338<br>Böyük Aleksandrın işğalları, 334-323<br>Aleksandr imperiyasının parçalanması, 323 | Aristotel, 384-322<br>Epikur, 342-270<br>Stoik Zenon, 320-250<br>Yevklid, 323-285<br>Aristarx, 310-280<br>Arximed, 287-212<br>Eratosfen, 276-196<br>Herofil, 220-150<br>Polibi, 205-118 | Ellinist beynəlxalq ticarəti və iri şəhərlərin böyüməsi, 300-100<br>Quldarlığın böyüməsi, Romada kiçik formaların tənəzzülü, 250-100 | Mitraizmin meydana gəlməsi, 300<br>Romada Şərq sehrli kultları, 250-50 | Praksitel, 370-310<br>Feokrit, 300-250 |

| | | | | | |
|---|---|---|---|---|---|
| M.ə. 200-cü illər | Roma və Karfagen arasında Puniya müharibələri, 264-146 | Skeptiklər, 200-100 | | Mitraizmin Romada yayılması, m.ə. 27 – b.e. 270 | |
| M.ə. 100-cü illər | Qrakxların islahatları, 133-121<br><br>Yuli Sezarın diktaturası, 46-44<br>Avqust Sezarın prinsipatı, m.ə. 27-b.e. 14 | Stoitsizmin Romada tətbiqi, 140<br>Tsitseron, 106-43<br>Lukretsi, 98-55<br>Seneka, m.ə. 4 – b.e. 65 | | | Vergili, 70-19<br>Horatsi, 68-8 |
| B.e. 100-cü illər | "Beş nəcib impera-tor", 96-180 | Mark Avreli, 121-180 | Romada quldarlığın tənəzzülü, 120-476 | Çarmıxa çəkilmə, b.e. 30<br>Müqəddəs Pavelin missioner işi, 33-67 | Livi, m.ə. 59 – b.e. 17<br>Ovidi, m.ə. 43 – b.e. 17<br>Tatsit, b.e. 55 – b.e. 117<br>Kolizey, b.e. 80<br>Panteon, 120 |

| | | | | | |
|---|---|---|---|---|---|
| B.e. 200-cü illər | Böyük hüquqşünaslar tərəfindən Roma hüququnun başa çatdırılması, 200<br>Roma imperiyasında vətəndaş müharibəsi, 235-284<br>Diokletian, 284-305 | Qalen, 130-200<br>Plotin, 204-270 | Romada təhkimçiliyin böyüməsi, 200-500 | | Roma portret heykəltəraşlığı, 120-250 |
| B.e. 300-cü illər | I Konstantin, 306-337<br>I Feodosi, 379-395 | | | Roma imperiyasında xristianlığa dözüm-lüyün başlanması, 311 | |
| B.e. 400-cü illər | Vestqotların Romanı qarət etməsi, 410<br>Axırıncı Qərbi Roma imperatoru-nun devrilməsi, 476 | | | Müqəddəs Avqustin, 354-430<br>Xristianlıq rəsmi Roma dininə çevrilir, 380 | |
| B.e. 500-cü illər | İtaliyanın ostqot kralı Teodorik, 493-526<br>Yustinian, 527-565<br>Roma hüququ kor-pusu, 550 | Boetsi, 480-524 | | Benedikt monastır idarəçiliyi, 520 | |

## İstifadə edilən ədəbiyyat

*1.Oppenhelm, A. Leo, Ansient Mesopotamiya; Portrait of a Dead Civilization,1964*
*2.Kramer,S.N.,The Sumerians,1963*
*3.Saggs,H.W.F.,Everyday Life in Babilonia and Assiriya,1965*
*4.Gardiner,Alan H.,Egypte of the Pharaons.1961*
*5. Starr C.G.,The Origins of Greek Civilization,1100-650 B C.,1961*
*6.Bury,J.B.,A History of Greece,1951*
*7.Thomphson,R.Campell and Hutchinson,R.W.,*
*Century of Exploration of Nineveh,1929*
*8.Madhloum Tariq.,Sumer,1967-1968.*
*9.Wheller,Mortimer,The Indus Civilization,1968*
*10.Frye,R.N.,The Heritage of Persia,1963*
*11.Cameron,George G.,History of Early Iran, 1968.*
*12.Olmstead A.T.,History of Assuriya,1960.*
*13.Hennesy J.B.,The Foreign Relations of Palestine .During the Early Bronze Age,1967*
*14.Bright,John,A History of Israel,1959.*
*15.Giles F.J.,Ikhnaton :Legend and History,1970*
*16.Li,Chi.The Formation of the Chinese People,1967.*
*17.Hood,Sinclair,The Minoans: Crete in the Bronze Age,1971.*
*18.Vermeule ,Emily T. ,Greece in the Bronze Age,1964*
*19.Pigott,S.,Ansient Europe,1965.*
*20.Scullard.H.H.,A History of the Roman world from 753 to 146 B.C.,1969*
*21.Earl,D.S.,The Age of Augustus,1968.*
*22.Jones,A.H.M.,The later Roman Empire,284-602.3 vol.,1964*
*23.Gadd,C.J.,History and Monuments of Ur.,1969*
*24.History of humanity ,vol 1 and 2.*
*Prehistory and the beginings of civilization.,1994.*
*25.History of humanity: scientific and cultural development,vol.5.,1996.*
*26.Grant ,Michael(ed.),The Birth of Western Civilization: Greece and Rome, 1964.*
*27.Western Civilizations.,14th edition,USA.*
*28.Ansient civilizations of East and West,1988.*
*29.Ancient Mesopotamia,1969 .*
*30.Breasted, J.H.A History of Egypt :From the earliest times to the Persian conquest,1964.*
*31.Kees, Hermann.Ansient Egypt,1967.*
*32.History of Civilizations of Central Asia,vol.1 and 2. , 1992-1994.*

*33.Allchin ,B.,Gondie,A.,Hegde,K.The prehistory and palaeogegraphy of the great Indian desert,1978.*
*34.Grousset, R.The civilization of India,1939.*
*35. Childle V.G. The Dawn of European Civilization, 1957.*
*36.Matt, Leonard von, ancient Crete, 1968*
*37.Good news Bible ,1992.*
*38.The international library of famous literature,20 vol.1900*
*39.The New Encyclopedia Britannica, 30 vol. 1973-1974*
*40.Моммзен, Теодор. «История Рима», 1914. Интернет*
*41.«Мифы и легенды народов мира. Древняя Греция», 2004*
*42.Ильинская, А. «Древняя Греция», 1970*
*43.«Древние цивилизации Востока», 1986*
*44.«Античная литература. Римская антология», 1988*
*45.«Библия Толковая», в 3-х томах, 1987*
*46.«Древняя Персия», 1970*
*47.«Историки Греции. Геродот, Фукидид, Ксенофонт», 1976*
*48.«История Древней Греции», 1986*
*49.«Историки Рима», 1970*
*50.«Хрестоматия по истории Древнего Рима», 1987*
*51.«Легенды и сказания Древней Греции и Рима», 1990*
*52. Марк Аврелий, «Размышления», Интернет*
*53. Полиби «Всеобщая история» в 2-х томах, 2001*
*54. Саллюстий, Гий Крисп. «Война с Югуртой» и «Заговор Катилины» в книге «Историки Рима», 1970*
*55. Светоний, Гай, Транквиль. «Жизнь двенадцати цезарей», 1988*
*56. Утченко С. А. «Древний Рим: события, люди, идеи», 1969*
*57. Флавий, Иосиф. «Иудейская война», Интернет*
*58. Шахремайр Ф. «Александр Македонский», 1984*
*59. Эпиктет. «В чем наше благо», Интернет*

## KİTABIN İÇİNDƏKİLƏR

**QƏDİM DÜNYA TARİXİ**
Müqəddimə........................................................................................3

**FƏSİL 1**
**BAŞLANĞIC**

Bəşərin yaranmasının alatoranlığı...............................................................7
Kəndlərin, ticarətin və müharibənin meydana gəlməsi.............................12
Şəhərlərin və sivilizasiyanın yaranması....................................................21
İrqin mahiyyəti ..........................................................................................24

**FƏSİL 2**

Mesopotamiya sivilizasiyası......................................................................26
Köhnə Babilistan .......................................................................................29
Kassit və Hett aralıq dövrü. Assuriyalıların qüdrəti..................................34

**FƏSİL 3**

Misir sivilizasiyası.....................................................................................48

**FƏSİL 4**

Yəhudi sivilizasiyası..................................................................................63

**FƏSİL 5**

Hind və Çin sivilizasiyalarının inkişafı .....................................................78
Hindistan sivilizasiyası ..............................................................................78
Çin sivilizasiyasının başlanğıcı..................................................................87

## II HİSSƏ
## YUNAN SİVİLİZASİYASI

### FƏSİL 1

Yunan sivilizasiyasının başlanğıcı ........................................................100
Minoy və Mikena sivilizasiyaları ..........................................................100
Yunan sivilizasiyası. Yunan qaranlıq dövrü ..........................................111
Polislər və ya şəhər-dövlətlər.....................................................................114
Böyük yunan məskunlaşması və yeni yunan mədəniyyətinin yaranması116
Erkən Sparta .............................................................................................121
Afinada polis quruluşu..............................................................................126
Yunan-Persiya müharibələri.......................................................................130
Afinanın qızıl dövrü...................................................................................135
Makedoniyanın yüksəlişi və Yunanıstanda ağalığı ...............................141
Böyük Yunanıstan və Qara dəniz ətrafı .................................................143
Klassik dövr Yunanıstanın mədəniyyəti ...............................................144

### FƏSİL 2

Ellinist sivilizasiyası ...............................................................................152
Aleksandrın şərq yürüşü. Aleksandr dövləti ..........................................153
Ellinist Misiri ............................................................................................164
Selevkidlər dövləti......................................................................................167
Makedoniya çarlığı, Balkan və
Böyük Yunanıstanları ellinizm epoxasında ............................................169
Ellinist mədəniyyəti ..................................................................................172

## III HİSSƏ
## PERSİYA İMPERİYASI

### FƏSİL 1

Persiya imperiyasının yaranması və inkişafı,
ərazidəki sonrakı imperiyalar ................................................................179

## IV HİSSƏ
## ROMA SİVİLİZASİYASININ İNKİŞAFI

### FƏSİL 1

Roma sivilizasiyası ....................................................................215
Roma şəhərinin salınması. Erkən İtaliya..................................................216
Romada respublika quruluşu ..................................................................220
Roma respublikasının çətin sınaqları......................................................222
Puniya müharibələri ...................................................................................224
Romada ellinist mədəniyyəti......................................................................229
Romada aqrar siyasət..................................................................................232
Yuqurta ilə müharibələr .............................................................................236
Sulla diktaturası ..........................................................................................239
Qullar problemi və qul üsyanları...............................................................241
Katilina qəsdi...............................................................................................245
Sezarın hakimiyyəti qəsb etməsi...............................................................249
Yeni triumvirat.............................................................................................254
Avqustdan sonrakı imperiya .....................................................................260
Antonin imperatorları dövrü .....................................................................266
Roma ədəbiyyatı və həyatı.........................................................................273
Roma hüququ..............................................................................................278
Siyasi xaos və barbar müdaxilələri dövrü ................................................279

### FƏSİL 2

Roma dünyasının transformasiyası. .........................................................282
İmperiyanın yenidən qurulması................................................................282
German müdaxilələri və Roma imperiyasının Qərbdə süqutu ................285
Xristianlığın meydana gəlməsi və zəfəri ..................................................285
Qərbdə german hegemonluğunun başlanması..........................................295
Roma imperiyasının süqutunun səbəbləri ................................................295
Roma irsi......................................................................................................298
Şərqi Roma imperiyası ...............................................................................301

**V HİSSƏ**
**ASİYA ÖLKƏLƏRİNDƏKİ İMPERİYALAR**

**FƏSİL 1**

Hindistandakı Mauriya imperiyası.........................................................307
Qupta sülaləsi ........................................................................................315
Çin imperiyası Han sülaləsi dövründə....................................................317
Altı sülalə...............................................................................................324
İstifadə edilən ədəbiyyat ........................................................................334

# Telman ORUCOV

# ÜMUMDÜNYA TARİXİ
## (I kitab)

## QƏDİM DÜNYA TARİXİ

*Dizayner: Rafael QASIMOV*

Çapa imzalanmışdır: 15.03.2011
Kağız formatı: 70x100 1/16
Həcmi: 21,25 ç.v;
Sifariş: 23; Sayı:100

«ADİLOĞLU» nəşriyyatında nəşrə hazırlanmış
və ofset üsulu ilə çap edilmişdir.
Ünvan: Bakı şəh., Şərifzadə küçəsi, 202
Tel.: 418-68-25; 433-00-43; (050) 593-27-77
Web: www.adiloglu.az;
E-mail: adiloglu2000@gmail.com